DÜNYA ƏDƏBİYYATI



M.A.ŞOLOXOV

SAKİT DON

Ш6(2)
Ş 78

MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOV

245418

SAKİT DON

DÖRDÜNCÜ KİTAB

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2006

Bu kitab "Mixail Şoloxov. Əsərləri. Səkkiz cilddə. V cild" (Bakı, Azərnəşr, 1966) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır.

Rus dilindən tərcümə edəni: **Cahanbaxş Cavadzadə**

891.733-dc22
AZE
Mixail Aleksandroviç Şoloxov. Sakit Don. Dördüncü kitab. Bakı, "Avrasiya press", 2006, 496 səh.

ISBN10 9952-421-93-X
ISBN13 978-9952-421-93-4

© "AVRASİYA PRESS", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir


SAKİT DON
DÖRDÜNCÜ KİTAB

YEDDİNCİ HİSSƏ

I

Cənub cəbhəsindən xeyli Qızıl Ordu qoşununun çəkilib gətirilməsinə səbəb olan Yuxarı Don üsyanı, Don ordusu komandanlığına nəinki Novoçerkasskı müdafiə edən qüvvələrini arxayınca yenidən qruplaşdırmağa, habelə Kamenskaya və Ust-Belokalitvenskaya stanitsaları səmtindən, başlıca olaraq aşağı donlulardan və kalmıklardan ibarət ən dəyanətli və davada sınanmış polklardan təşkil olunmuş güclü bir zərbə dəstəsi toplamağa da imkan yaratdı: həmin zərbə dəstəsinin vəzifəsi, münasib məqamda general Fitsxelaurovun hissələrilə birlikdə 8-ci Qızıl Ordunun bir hissəsi olan 12-ci diviziyanı vurub mövqeyindən çıxarmaq və 13-cü diviziya ilə Ural diviziyalarına cinahlardan, arxadan hücum edərək cəbhəni yarıb şimala çıxmaq, üsyan etmiş yuxarı donlularla birləşmək idi.

Zərbə dəstəsini bir yerə toplamaq üçün vaxtilə Don ordusu komandanı general Denisov və qərargah rəisi general Polyakov tərəfindən tərtib edilmiş plan mayın sonunda, demək olar ki, tamamilə həyata keçirilmişdi. Kamenskaya stanitsasına 36 topu, 140 pulemyotu olan 16000 atlı və piyada göndərildi; 1918-ci ildə çağırış yaşlı kazaklardan təşkil edilmiş cavan ordu adlandırılan ordunun son süvari hissələri və seçmə polkları da gəlirdi.

Bu zaman dörd tərəfdən mühasirəyə alınmış üsyançılar yenə Qızıl Ordu cəza dəstələrinin həmlələrini dəf edirdi. Cənubda, Donun sahilində üsyançıların iki diviziyası səngərlərində möhkəm dayanıb, bütün cəbhə boyu saysız-hesabsız Qızıl Ordu batareyalarının, demək olar ki, aramsız, qızğın atəş yağdırmasına baxmayaraq, düşməni bu biri sahilə keçməyə qoymurdu; qalan üç diviziya da üsyançıların tutduqları ərazini qərb, şimal və şərq tərəfdən mühafizə edir, çoxlu tələfat verir, şimal-şərq tərəfdən isə daha çox qırılır, lakin yenə geri çəkilmir və həmişə Xopersk mahalının hüdudunda dayanırdılar.

Xutorlarının qarşı tərəfində yerləşən və məcburi avaraçılıqdan bezmiş Tatarsk atlı bölüyü bir gün qızıl əsgərlərin arasına çaxnaşma

saldı: qaranlıq gecədə öz xoşuna vuruşmağa gedən bir dəstə kazak qayıqlara minərək səssizcə Donun sağ sahilinə keçdi, qəfildən qızıl əsgər keşikçilərinin üstünə tökülərək dörd qızıl əsgər öldürüb bir pulemyotu da ələ keçirdi. Ertəsi gün qırmızılar Veşenskaya tərəfdən bir batareya gətirdilər və bu batareya kazak xəndəkləri üzərinə qızğın top atəşi açdı. Şrapnel meşənin içində partlamağa başlayan kimi bölük tələsik xəndəkləri tərk edib getdi, Dondan uzaqlaşdı və meşənin dərinliklərinə çəkildi. Bir gün sonra batareyanı geri apardılar və Tatarsk bölüyü də tərk etdiyi mövqeyi yenidən tutdu. Top atəşi nəticəsində bu yaxınlarda bölüyə göndərilmiş iki nəfər yeniyetmə kazakı top qəlpəsi öldürdü, bir də vuruşma ərəfəsində bölük komandirinin Veşenskayadan yenicə gəlmiş atlı çaparı yaralandı.

Sonra nisbətən sakitlik oldu, xəndəklərdə yenə də həyat əvvəlki qaydasına düşdü. Tez-tez arvadlar kişilərinin yanına görüşə gəlir, gecələr onlara çörək və araq gətirirdilər, yeməkdən isə kazakların korluğu yox idi; iki azmış dana kəsmişdilər, bir də ki, hər gün göllərdən balıq tuturdular. Xristonya balıq işinin ustası sayılırdı. Geri çəkilənlərdən kimin isə atıb getdiyi on sajın uzunluğunda bir balıqçı toru bölüyə qalmış və Xristonyanın ixtiyarına keçmişdi; Xristonya da balıq tutmağa gedəndə toru lap dərinlərə salır və öyünürdü ki, guya biçənəkdə onun bələd olmadığı göl yoxdur. Bir həftədən bəri aramsız balıq ovu ilə məşğul olmaqdan köynəyi ilə şalvarına balıq iyi o qədər hopmuşdu ki, Anikuşka axırda onunla bir qazmada yatmaqdan qəti boyun qaçırdı və belə dedi:

– Səndən lap ölü naqqa balığı iyi gəlir. Mən indi sənlə burada bir gecə də yatsam, sonra ömrümün axırına qədər nəfsim balıq istəməz...

O gündən Anikuşka ağcaqanadların sancmasına fikir vermədən qazmanın yanında yatırdı. Yatmazdan əvvəl qumun üstünə səpələnmiş balıq pullarını və iylənmiş balıq içalatını iyrənə-iyrənə, üzgözünü turşuda-turşuda süpürüb atır, səhər isə Xristonya balıq ovundan qayıdan kimi sakitcə və təşəxxüslə qazmanın qapısında oturub gətirdiyi daban balıqlarını təmizləməyə, içalatını çıxartmağa başlayırdı. Onun ətrafında yaşıl milçəklər dəstə-dəstə vızıldaşır, sarı qarışqalar bulud kimi axıb gəlirdi. Sonra tövşüyə-tövşüyə gələn Anikuşka hələ ona çatmamış çığırırdı:

– Başına ayrı yer qəhətdir? Bu balığın sümüyü xirtdəyindəcə qalıb səni öldürəydi! Allah xatirinə, çəkil, kənara dur! Mən burada yatıram, amma sən yenə hər yanı balıq bağırsağı ilə doldurmusan, mahalın qarışqalarını bura dadandırmısan, elə iy var ki, elə bil bura Həştərxandır!

Xristonya özü qayırdığı bıçağı şalvarının yanına çəkərək təmizləyib Anikuşkanın bığsız və qəzəbli çöhrəsinə dalğın bir şəkildə və xeyli baxandan sonra sakitcə deyirdi:

– Sən ki, balıqdan belə iyrənirsən, onda, Anikuşka, sənin qarnında, deməli, bağırsaq qurdu var. Sən səhərlər acqarına bir az sarımsaq yesən yaxşı olar!

Anikuşka daha da hirslənib tüpürə-tüpürə və söyə-söyə çıxıb gedirdi.

Onların arasında hər gün belə dava düşürdü. Lakin bölük ümumiyyətlə mehriban dolanırdı. Qarınları tox olduğundan, təkcə Stepan Astaxovdan başqa kazakların hamısının kefi kök idi.

Stepan öz yerliləri olan kazaklardanmı öyrənmişdi, yoxsa ürəyinəmi dammışdı, nədənsə bilirdi ki, Aksinya Veşenskayada yenə Qriqori ilə görüşür: odur ki, birdən ürəyi qüssədən sıxıldı, heç bir səbəb olmadan vzvod komandiri ilə söyüşdü və keşiyə getməkdən qəti boyun qaçırdı.

O, səhərdən axşama kimi bayıra çıxmır, qazmada qara naxışlı həsirin üstündə uzanaraq köksünü ötürür və acgözlüklə tənbəki çəkirdi. Bu əhvalatdan iki gün sonra, bölük komandirinin Anikuşkanı Veşenskayaya güllə gətirməyə göndərdiyini eşidib qazmadan çölə çıxdı. Yuxusuzluqdan şişmiş və yaşarmış gözlərini qıyaraq, yırğalanan ağacların par-par parıldayan yarpaqlarını, küləkdən atlı kimi çapan ağ yallı bulud qalaqlarını laqeydcəsinə seyr etdi, meşənin pıçıltısını dinlədi və qazmaların arasında Anikuşkanı axtarıb tapmağa getdi.

Onunla kazakların yanında danışmaq istəmədi, bir tərəfə çəkib xahiş etdi:

– Veşenskayada Aksinyanı tap və mənim dilimdən ona de ki, yanıma gəlsin. De ki, məni bit-sirkə basıb, köynəklərim və şalvarım kirlidir, bunu da de ki... – Stepan bir anlığa susdu, bığlarının altında utancaq bir təbəssüm göründü, nəhayət, sözünü belə qurtardı: – De ki, sənsiz, deməli, çox darıxır və tezliklə gələcəyini gözləyir.

Gecə Anikuşka Veşenskayaya gəldikdən sonra Aksinyanın qaldığı evi tapdı. Qriqori ilə araları dəyəndən sonra, Aksinya əvvəlki kimi, xalasıgildə olurdu. Anikuşka Stepanın sözlərini olduğu kimi çatdırdı və söz kəsərli olsun deyə, öz tərəfindən də bunu əlavə etdi ki, Aksinya bölüyə görüşə gəlməsə, Stepan özü Veşenskayaya gələcəkdir.

Aksinya tapşırığı dinlədi və o saat yola hazırlaşdı. Xalası tez xəmir yoğurdu, yağlı fətir bişirdi, iki saatdan sonra Aksinya itaətkar arvad kimi, Anikuşka ilə bərabər Tatarsk bölüyünün düşərgəsinə yola düşdü.

Stepan arvadını gizli bir həyəcanla qarşıladı. O, arvadının arıqlamış sifətini diqqətlə nəzərdən keçirir, hər şeyi ehtiyatla xəbər alır, Qriqorini görüb-görmədiyinə dair bir kəlmə də demirdi. Söhbət zamanı yalnız söz arasında başını aşağı dikərək bir qədər üzünü kənara tutaraq soruşdu:

– Bəs sən nə üçün çayın bu tayı ilə Veşenskayaya getmisən? Niyə xutorun qarşı tərəfindən keçməmisən?

Aksinya soyuq-soyuq cavab verdi ki, yad adamlarla çayın qarşı tərəfinə keçmək mümkün deyildi, Melexovların köməyini isə istəmirdi. Yalnız cavab verəndən sonra başa düşdü ki, onun sözündən belə çıxır ki, Melexovlar ona yad adam deyil, özününküdür. Stepanın sözü belə başa düşəcəyini zənn edərək utandı... Stepan da, güman ki, lap elə bu cür başa düşdü. Onun nə isə qaşlarının altında bir tərpəniş əmələ gəldi və sanki çöhrəsinə kölgə çökdü.

O, sualedici nəzərlərini Aksinyaya zillədi, Aksinya bu dilsiz sualı anladı, özünə acığı tutdu, qıpqırmızı qızardı.

Stepanın ona yazığı gəldi, özünü elə göstərdi ki, guya o heç bir şey görmür, söhbəti dəyişib təsərrüfat işlərindən danışdı və evdən çıxıb gedərkən ev şeylərindən nəyi fürsət tapıb gizlətdiyini və etibarlı yerdəmi gizlətdiyini soruşmağa başladı.

Aksinya öz aləmində ərinin alicənablıq etdiyini düşünərək, onun suallarına cavab verir, daxilən onu didişdirən bir narahatlıq hiss edir və ərini aralarında olub-keçənlərin əhəmiyyətsiz şeylər olduğuna inandırmaq, öz həyəcanını gizlətmək üçün qəsdən sözünü kəlmə-kəlmə danışır, süni bir təmkinlə və soyuq söhbət edirdi.

Onlar qazmada oturub söhbət edirdilər. Kazaklar hey onlara mane olurdular. Gah biri, gah o birisi içəri girirdi. Xristonya gəldi

və dərhal buradaca yatmaq üçün uzandı. Stepan kənar adamların yanında lazımınca danışıb hal-əhval tutmağın mümkün olmayacağını görüb, istər-istəməz danışığı kəsdi.

Aksinya sevincək ayağa qalxdı, tələsik boğçanı açıb stanitsadan gətirdiyi yağlı fətirləri ərinə verdi və Stepanın çöl heybəsindən kirli tuman-köynəyi götürüb, yaxınlıqdakı gölməçədə yumaq üçün bayıra çıxdı.

Meşənin üzərinə səhər sükutu, mavi bir duman çökmüşdü. Şeh damcılarından ağırlaşmış otlar yerə əyilmişdi. Gölməçələrdə qurbağalar ara-sıra qurulduyur və haradasa, qazmanın yaxınlığında, sıx ardıc kolunun dalında çəkçəkin quşu bərk oxuyurdu.

Aksinya kolun yanından ötdü. Kol başdan ta göyərmiş gövdəsinə kimi hörümçək toru içərisində idi. Üzərinə şeh zərrələri düzülmüş hörümçək toru mirvari kimi parıldayırdı. Bir anlığa çəkçəkin səsini kəsdi, sonra Aksinyanın yalın ayaqları altında yatmış otlar hələ dikəlməmiş yenə səsləndi, pırıldayıb gölməçədən qalxan qızquşu qəmli-qəmli ona cavab verdi.

Aksinya koftasını və işləməsinə mane olan lifçiyini çıxartdı, dizinə qədər buğlanan isti gölməçəyə girib, paltar yumağa başladı. Onun başı üstündə mığmığalar qaynaşır, ağcaqanadlar vızıldaşırdı. Aksinya biləyindən bükülmüş dolğun və qarabuğdayı əllərilə üzünü qoruyur, ağcaqanadları qovurdu. Ara-bərəsiz Qriqorini düşünür, getməmişdən qabaq aralarında baş vermiş incikliyi fikirləşirdi.

"Bəlkə də elə, o indi məni axtarır? Lap bu axşam stanitsaya qayıdacağam!" – deyə Aksinya qəti qərara gəldi və Qriqori ilə necə görüşəcəyinə və barışmanın tez olacağına dair mülahizələrinə gülümsündü.

Qəribədir, o son zamanlar Qriqorini düşünəndə, nədənsə zahirən onu əslində olduğu kimi təsəvvür edə bilmirdi. Onun gözləri önündə dayanan adam neçə illər davam edən müharibənin törətdiyi məhrumiyyətlərin silinməz izlərini daşıyan, indiki yekə, yaşı ötmüş, bərkdən-boşdan çıxmış, qara bığlarının ucu saralmış, gicgahlarına tez dən düşmüş və alnında sərt qırışlar əmələ gəlmiş kazak yox, cavanlara məxsus qaba, nəvaziş bacarmayan, peysəri yumru və incə, dodaqlarında daim qayğısız təbəssüm olan əvvəlki Qrişka Melexov idi.

Məhz buna görə idi ki, Aksinya özündə ona qarşı daha böyük bir eşq və demək olar ki, bir analıq iltifatı duyurdu.

İndi də belə idi. O, könlü üçün əziz olan şəxsin simasını son dərəcə aydınlıqla təsəvvüründə canlandırıb, ağır-ağır nəfəs aldı, gülümsündü, belini düzəltdi və ərinin hələ yuyub qurtarmadığı köynəyini ayaqlarının altına ataraq, birdən-birə boğazını göynədən, onu boğmaq istəyən şadlıq hıçqırtılarının isti qəhərini duyaraq pıçıldadı:

– Həmişəlik qəlbimə girmisən, ay mələn!

Göz yaşı onu yüngüllətdi, lakin bundan sonra ətrafdakı mavi səhər aləmi, elə bil ki, sönükləşdi. Əlinin dalı ilə yanaqlarını sildi, yaş alnından saçlarını geriyə atdı və tutqun baxışları ilə xırdaca bir balığın suyun üstündə necə şütüdüyünə və dumanın çəhrayı naxışları küləyin qarşısında gözdən itdiyi kimi, necə qaçıb gizləndiyinə xeyli müddət və laqeyd-laqeyd tamaşa etdi.

Aksinya tuman-köynəyi yuyub, kolların üstünə sərdikdən sonra qazmaya gəldi.

Yuxudan yenicə durmuş Xristonya qapının ağzında oturmuşdu, ayaqlarının düyün-düyün əyri barmaqlarını tərpədir, Stepanı söhbətə çəkirdi. Stepan isə həsirin üstündə uzanaraq kirimişcə papiros çəkir, Xristonyanın suallarına cavab vermirdi.

– Deməli, sən bu fikirdəsən ki, qırmızılar daha çayın bu tayına keçməyəcəklər? Dinmirsən? Yaxşı, dinmə! Mən isə bu fikirdəyəm ki, nə olur-olsun onlar bərələrlə keçəcəklər! Keçməyə ayrı yerləri yoxdur. Yoxsa elə zənn edirsən ki, atları suya salıb üzdürəcəklər? Stepan, yenə dinmirsən? Burada işin, deməli, aqibəti çatmış hesab olunur, amma sən kötük kimi uzanmısan!

Stepan yerindən dik atılıb, hirsli-hirsli cavab verdi:

– A kişi, məndən nə istəyirsən? Qəribə adamsan! Arvad görüşümə gəlib, amma bir macal verən yoxdur... Axmaq söhbətləri ilə adamın başını dəng edirlər, qoymurlar arvadla bir-iki kəlmə söz danışasan!

– Danışmağa adam tapıb... – deyə incimiş Xristonya ayağa qalxdı və köhnəlmiş çarığını ayaqlarına keçirdi, eşiyə çıxanda başı qapının üst taxtasına dəydi.

– Burada bizi danışmağa qoymayacaqlar, meşəyə gedək... – deyə Stepan təklif etdi.

Təklifinə cavab gözləməyib, özü qapıya sarı yönəldi. Aksinya itaətlə onun dalınca getdi.

Onlar qazmaya günortaüstü qayıtdılar. İkinci vzvodun qızılağac kolluğu altında sərinlənən kazaklar onları görən kimi, qumar kağızını bir kənara qoydular, kirişdilər, bir-birinə göz vurdular, himləşib gülüşdülər və yalandan kökslərini ötürdülər.

Aksinya dodaqlarını büzüşdürərək, onların yanından ötüb keçdi, əzilmiş, ucu krujevalı ağ yaylığını gedə-gedə düzəltdi. Aksinya gəlib keçərkən heç kəs ona bir söz demədi, lakin onun dalınca gələn Stepan kazakların yanına çatan kimi, kolun dibində uzanmış kazakların arasından Anikuşka qalxıb aralandı. O, yaltaq bir hökmranlıqla belini bükərək Stepana təzim etdi və hündürdən dedi:

– Toyunuz mübarək olsun... Pəhrizinizin qurtarması münasibətilə!

Stepan da gülümsündü. Onun üçün çox xoş idi ki, kazaklar, öz arvadı ilə meşədən qayıtdığını görürdü. Bunun, heç olmasa, onların ər-arvad kimi pis yaşadıqlarına dair şayiələrin kəsilməsinə köməyi olardı... O hətta oğlan kimi çiyinlərini də oynatdı. Hələ təri qurumamış köynəyini də məmnuniyyətlə onlara göstərdi.

Yalnız bundan sonra tamahsılanmış kazaklar həvəslə danışmağa başladılar:

– Uşaqlar, bu arvad yaman həşəri arvaddır ha! Stepanı elə hala salıb ki, köynəyindən su damır... Kürəyini yumşaldıb!

– Kişinin köpüyünü çıxardıb!

Aksinyanı ta qazmaya girincəyə qədər öz heyran və dumanlı baxışları ilə müşayiət edən cavan bir kazak isə axırda özünü itirmiş halda dedi:

– Pərvərdigar haqqı, işıqlı dünyada bu cür misilsiz gözəl tapmazsan!

Anikuşka onun bu sözü müqabilində yerli olaraq soruşdu:

– Sən heç gözəl axtarmaq fikrinə düşmüsənmi?

Nalayiq danışığı eşidən Aksinyanın azacıq rəngi qaçdı, qazmaya girdi. Bir yandan indicə ərilə etdiyi yaxınlığı xatırlamaqdan, bir yandan da kazakların murdar sözlərindən iyrənc bir şəkildə üzgözünü turşutdu. Stepan ilk baxışdan arvadının əhvalını başa düşdü, təskinedircəsinə dedi:

– Sən bu aygırlardan incimə, Aksinyacan. Gün görmədiklərindən belə edirlər.

– Mən heç kəsə acıqlanmıram, – deyə Aksinya boğuq səslə cavab verdi, kətan heybəciyini eşələdi, əri üçün gətirdiyi şeyləri heybədən tez-tez çıxartdı. Sonra isə lap sakitcə dedi: – Gərək özümə acıqlanaydım, amma nə edim ki, qəlbim dözmür...

Onların söhbəti tutmurdu. On dəqiqədən sonra Aksinya qalxdı. Fikirləşdi ki, "indicə ona deyəcəyəm ki, çıxıb Veşenskayaya gedirəm", lakin birdən yadına düşdü ki, Stepanın qurumuş tumanköynəyini kolun üstündən hələ götürməmişdir.

O, qazmanın qapısı ağzında xeyli oturaraq, günorta yerindən əyilmiş günəşə baxa-baxa ərinin tərdən çürümüş köynək-tumanını yamadı.

...Həmin günü Aksinya gedə bilmədi. Qətiyyəti çatmadı. Ertəsi gün isə gün yeni çırtıb, çıxan kimi yola çıxmağa hazırlaşdı. Stepan onu saxlamaq, bir gün də qonaq olmağa razı salmaq istədi, lakin Aksinya onun xahişini elə rədd etdi ki, Stepan daha bənd olmadı, yalnız ayrıldıqları zaman soruşdu:

– Veşenskayadamı yaşamaq istəyirsən?

– Hələ Veşenskayada olmaq istəyirəm.

– Bəlkə mənim yanımda qalaydın?

– Ayıbdır, mən kazakların içində qala bilmərəm.

– Orası elədir... – deyə Stepan onunla razılaşdı, lakin Aksinya ilə soyuq vidalaşdı.

Güclü cənub-şərq küləyi əsirdi. O, çox uzaqdan əsirdi, elə bil ki, gecə yorulmuşdu, lakin yenə də Xəzərin o tayında günəşdən qızmış çöllərin atəşin hərarətini bu yerlərə çatdıra bilmiş, Donun sol sahilindəki biçənəklər üzərinə çökərək şehi qurutmuş, çəndumanı dağıtmış, Don yaxınlığındakı dağların yamacları üzərinə bürkülü bir sərab kimi sərilmişdi.

Aksinya çarıqlarını çıxartdı və yubkasının balağını sol əlinə yığaraq (meşədə otlar hələ də şehli idi) bir meşə cığırı ilə rahat yeriməyə başladı. Onun yalın ayaqları nəm torpağa toxunduqca sərinləyir, çılpaq, dolu baldırları ilə boynunu günün hərarətli öpüşləri isidirdi.

Aksinya açıq bir talada çiçəkləmiş itburnu kolunun yanında dincəlmək üçün oturdu, harada isə yaxında, suyu qurumamış bir

balaca göldə, qamışlıqlar arasında çöl ördəklərinin qaqqıltısı eşidilir, bir yaşılbaş xırıltılı səslə dişisini səsləyirdi. Donun o tayında tez-tez olmasa da, demək olar ki, aramsız surətdə pulemyotlar şaqqıldayır, hərdənbir də top gumbultusu eşidilirdi. Çayın bu sahilində top güllələri partlayır, gurultu salırdı.

Sonra atışma kəsildi və dünya öz qiymətli və mənalı görkəmilə Aksinyanın gözləri qarşısında canlandı: göyrüş ağacının eşik tərəfi ağaran yaşıl yarpaqları ilə palıdların tökmə, naxışlı yarpaqları əsən küləkdən ürkək-ürkək xışıldayırdı; cavan göyrüş kolundan gur uğultu gəlirdi; xeyli uzaqda ququ quşu anlaşılmaz və kədərli səsilə kiminsə ömrünün illərini sayırdı; kiçik gölün üstü ilə uçan kəkilli qızquşu inadla "Siz kimsiniz? Siz kimsiniz?" deyə soruşurdu; cumbulu, boz bir quş Aksinyanın ikicə addımlığında başını yana əyərək, gözünü nəsə ilə qıyıb yolda qalmış sudan içirdi; məxmər kimi yumşaq, toza oxşar arılar vızıldaşırdılar; biçənəklərdəki çiçəklərin gülləri üzərində əsmər çöl arıları yırğalanırdı. Onlar qonduqları yerdən qopur, quzey yerdə, sərinlikdə olan yuvalarına "çiçək tozcuğu" daşıyırdılar. Qovacların budaqlarından şirə damcılayırdı. Yemişan kolunun dibindən isə bildirki yarpaqların çürüməsindən törəyən tünd qıcırtı iyi gəlirdi.

Sakitcə yerində oturan Aksinya meşədən gələn müxtəlif ətirləri hiss edirdi. Füsunkar və qəribə səslərlə dolmuş meşədə qüdrətli, bakir bir həyat vardı. Biçənəyin yaz sularından bol su içmiş subasar torpağı o qədər ot bitirmiş, əlvan çiçəklər yetişdirmişdi ki, Aksinya bu füsunkar ot və çiçək aləmini seyrdən heyran qalmışdı.

O, gülümsünərək və dodaqlarını səssizcə qımıldadaraq, adını bilmədiyi mavi rəngli sadə çiçəklərin saplaqlarına barmaqları ilə yavaşca toxundu, sonra iyləmək üçün dolu gövdəsilə çiçəyə doğru əyildi və bu zaman mərcan çiçəyinin üzücü, şirin ətri onun burnuna doldu. O, əlləri ilə bu çiçəyi araşdırıb tapdı. Çiçək lap yaxında, günəş düşməyən kölgəli bir kolun dibində idi. Enli, vaxtilə yaşıl olan yarpaqlar hələ də böyük bir qısqanclıqla yuxarısı qar kimi ağ, boynunu bükmüş bu çiçəyin gödək, beli əyri saplağını günəşdən qoruyurdu. Lakin üstü şehlə dolu saralmış yarpaqlar artıq ölüb gedirdi, bəli, bu çiçəyin özünün də üzünə bir ölüm kölgəsi çökmüşdü: aşağı tərəfdə olan iki gül kasacığı büzüşmüş və qaralmışdı, yalnız üst tərəfi göz yaşı zərrələri

kimi işıldaşan şehlər arasındakı çiçəklər birdən günəş işığında gözqamaşdıran bir parıltı ilə ətrafa işıq yaydı.

Nədənsə bir an içində, göz yaşları ilə bu çiçəyi nəzərdən keçirərək, onun kədər gətirən ətrini hiss edəndə Aksinya gəncliyini, uzun sürən, lakin sevinci çox az olan həyatını xatırladı. Nə etməli, görünür, Aksinya qocalmışdı... Təsadüfi bir xatirə könlünə toxunanda cavan qadın heç ağlardımı? O, eləcə üzüqoylu, gözləri yaşlı, əllərini yaşdan islanmış üzünə söykəmiş, şişmiş və yaş yanağını əzilmiş yaylığına söykəmiş halda yuxuladı.

Külək bərkimişdi, qovaqların və bədmüşk ağaclarının başları günbatana doğru əyilirdi. Yarpaqların ağ, coşqun axını içində olan göyrüş ağacının boz gövdəsi yırğalanırdı. Külək aşağılara qədər soxulur, Aksinyanın altında uzandığı son çiçəklərini açan itburnu kolunu tərpədir və bu vaxt yarpaqlar, ürküdülmüş əfsanəvi yaşıl quş sürbəsi kimi ürkək bir hərəkətlə havaya sovrulur və onlardan ətrafa çəhrayı tüklər dağıdırdı. Aksinya üstünə solğun itburnu çiçəkləri səpilmiş halda yatır və nə meşənin acıqlı səs-küyünü, nə Donun o tayında təzəcə başlamış atışmanın səsini eşidir, nə də açıq qalmış başını günorta yerinə gəlmiş günəşin yandırdığını duyurdu. Başı üzərində adam səsi və at fınxırtısı eşidəndə yuxudan oyandı və tez qalxmaq istədi.

Yəhərli, burnu ağ atının cilovunu əlində tutmuş bir cavan – dişləri dümağ, sünbülbığ bir kazak onun yanında dayanmışdı. O gülümsünür, çiyinlərini tərpədə-tərpədə yerində oynayır, xırıldayan, lakin xoş səslə şən bir mahnı oxuyurdu:

Düşdüm torpağa, qaldım,[1]
Hər yana nəzər saldım.
Baxdım, o yana baxdım,
Baxdım, bu yana baxdım.

Qolumdan tutanım yox,
Deyən, bağlandı baxtım.
Arxaya saldım nəzər –
Kazak durub bir nəfər...

[1] Şeirlərin tərcüməsi Vilayət Rüstəmzadənindir.

– Mən özüm ayağa duraram! – deyə Aksinya gülümsündü və qırışmış yubkasını düzəldərək ayağa qalxdı.

– Kefin-əhvalın necədir, dərdin alım! Ayaqcığazların yorulmuşdur, yoxsa tənbəlləşibsən? – deyə şən kazak onu salamladı.

– Yuxu karıxdırmışdı, – deyə Aksinya utancaq cavab verdi.

– Veşenskayayamı gedirsən?

– Veşenskayaya gedirəm.

– İstəyirsən səni aparım?

– Nə ilə apararsan?

– Sən ata minərsən, mən də piyada gedərəm. Nə olar, əvəzində könlümü alarsan... – Kazak ona mənalı və zarafatyana göz vurdu.

– Yox, lazım deyil, get, Allah salamat aparsın, mən özüm gedərəm.

Lakin kazak, sən demə, həm məhəbbət işlərində təcrübəli, həm də inad imiş. Aksinyanın üst-başını düzəltməsindən istifadə edərək, qısa, lakin qüvvətli qolları ilə onu qucaqladı. Bərk özünə tərəf çəkib öpmək istədi.

– Axmaqlama! – deyə Aksinya çığırdı və var gücü ilə dirsəyini onun burnunun üstünə çırpdı.

– Qadasın aldığım, dalaşma! Bir bax, gör ətraf necə gözəldir... Bütün qurd-quş cütləşir... gəlsənə biz də günaha bataq? – deyə gülməkdən gözləri qıyılmış kazak bığları ilə Aksinyanın boynunu qıdıqlayaraq pıçıldayırdı.

Aksinya qollarının ikisini də qabağa verərək və hər iki əlini kazakın tərli, qarabuğdayı üzünə dirəyərək onun qolları arasından çıxmaq istəyirdi; lakin kazak onu möhkəm tutmuşdu.

– Axmaq! Mən pis naxoşluğa tutulmuşam... Burax! – deyə Aksinya nəfəsi kəsilə-kəsilə yalvarır və bu sadədil kələklə kazakdan yaxasını qurtaracağını düşünürdü.

– Hələ görək kimin naxoşluğu köhnədir!.. – deyə kazak mızıldadı və birdən asanlıqla Aksinyanı qucağına götürdü.

Aksinya bir an içərisində başa düşdü ki, iş daha zarafatdan keçmişdir, axırı pis olacaqdır. Gücü gəldiyi qədər kazakın günəşdən qaralmış burnu üstünə bir yumruq endirdi və onun boynundan möhkəm yapışmış qolları arasından dartınıb çıxdı.

– Mən Qriqori Melexovun arvadıyam! Həddin var yaxın gəl, köpək oğlunun balası!.. Ona desəm sənə...

M.F.A...undov adına
Az...yan ...
Kitab...

Aksinya hələ də öz sözünün təsirinə inanmadığı üçün əlini uzadıb yerdən quru, yoğun bir dəyənək götürdü. Lakin kazak o dəqiqə ruhdan düşdü. Açıq rəngli üst köynəyinin qolu ilə burnunun hər iki deşiyindən bığları arasına dolmuş qanı silərək qəmli-qəmli dedi:

– Axmaq! Ay axmaq arvadsan ha! Bunu bayaqdan niyə demirdin? Bax, gör qan necə axır? Düşmən qabağında qanımız az axırmış kimi, öz doğma arvadlarımız da bir yandan qanımızı tökürlər...

Onun çöhrəsi birdən-birə tutqunlaşdı. Yol kənarındakı gölməçənin suyu ilə burnunun qanını yuyub təmizləyənə qədər Aksinya tez yoldan çıxdı, talanı sürətlə keçib getdi. Beş dəqiqədən sonra kazak ona çatdı. O kirimişcə gülümsünərək, Aksinyaya tərs-tərs baxdı, döşündəki tüfəngin qayışını düzəltdi və atını yeyin sürüb getdi.

II

Həmin gecə qızıl əsgər polku Malaya Qromçonko xutoru yaxınlığında taxta və tirlərdən qayrılmış sallarda Don çayını keçdilər.

Qromkovskaya bölüyünün qəfildən üstünü aldılar, çünki kazakların çoxu həmin gecə kefdə idi.

Axşamdan düşərgəyə arvadlar ərlərilə görüşə gəlmişdilər. Onlar özlərilə yemək, bardaq və vedrələrdə araq gətirmişdilər. Gecəyarı olanda hamısı lül kefli idi. Qazmaları hay-küy, keflənmiş arvadların civiltiləri, kişi qəhqəhələri və fit bürümüşdü... Keşikdə qoyulan iyirmi kazak da pulemyotun yanında iki nəfər pulemyotçu və bir at vedrəsi araq qoyaraq, gəlib içki məclisində iştirak edirdi.

Qızıl əsgərlərin ağır yüklədikləri sallar səssizcə Donun sağ sahilindən aralanaraq bu taya gəlirdi. Çayın bu tayına çıxdıqdan sonra, qızıl əsgərlər zəncir xəttinə düzüldülər və kirimişcə Dondan əlli sajın aralı olan qazmalara doğru yönəldilər.

Salları hazırlayan istehkamçılar sürətlə avar çəkərək geri qayıdır, o taya keçməyi gözləyən başqa qızıl əsgər dəstələrini gətirməyə tələsirdilər.

Sol sahildə beş dəqiqəyə qədər qırıq-qırıq eşidilən kazak mahnı səsindən başqa heç bir səs-səmir eşidilmirdi, sonra əl bombaları gurultu ilə partlamağa başladı, pulemyot şaqqıltı saldı, birdən-birə

qatma-qarışıq tüfəng atışması qopdu və "Ura-a-a! Ura-a-a-a! Ura-a-a-a!" səsləri uzaqlarda əks-səda saldı.

Qromkovskaya bölüyü geriyə oturduldu və yalnız ona görə tamamilə məhv edilmədi ki, onun kazaklarını göz-gözü görməyən qaranlıq bir gecədə təqib etmək mümkün deyildi.

Kiçik tələfat vermiş Qromkovskaya bölüyünün kazakları, arvadlarla birlikdə intizamsız halda biçənəklərin içi ilə Veşenskayaya tərəf qaçırdı. Bu vaxt sallar çayın sağ sahilindən qızıl əsgərlərin yeni dəstələrini daşıyırdı və indi 111-ci polkun birinci batalyonunun yarımbölüyü iki əl pulemyotu ilə, artıq qiyamçıların Bazkovsk bölüyünün sağ cinahında vuruşurdu.

Təzə gəlmiş qüvvələr yarılmış yerə tələsirdilər. Bu hissələrin irəliləməsi ona görə çətinləşdi ki, qızıl əsgərlərdən heç kəs bu yerlərə bələd deyildi, hissələrin bələdçiləri yox idi, nabələd yerlərdən irəliləyərək, gecə qaranlığında gah bərəsiz keçmək mümkün olmayan gölə, gah azmış sulardan əmələ gəlmiş dərin çalalara düşürdülər.

Hücuma rəhbərlik edən briqada komandiri təqibi işıqlaşana qədər dayandırmağı qərara aldı ki, o vaxta qədər ehtiyat qüvvələri tamamilə gəlib özünü yetirsin, qüvvəni Veşenskaya yaxınlığına toplasın və top atəşi hazırlığından sonra hücumu davam etdirsin.

Lakin Veşenskayada da hücumu dayandırmaq üçün təcili tədbirlər görülürdü. Qərargah növbətçisi, qırmızıların cəbhəni yarmasına dair atlı kazak xəbər gətirən kimi, Kudinovun və Melexovun dalınca atlı qaçırdı. Dubrovka, Qoroxovka və Çernov xutorlarından Karginsk polkunun atlı bölüklərini gətirtdilər. Əməliyyata ümumi rəhbərliyi Qriqori Melexov öz öhdəsinə götürdü. O, düşmən şərq tərəfdən Veşenskayanın arxasına soxulmaq fikrinə düşsə, Tatarskaya və Lebyajenskaya bölüklərinə kömək etmək və sol cinahı möhkəmlətmək üçün Yerinsk xutoruna üç yüz atlı göndərdi. Gəlmələrdən düzəldilmiş Veşenskaya dəstəsini və Çir piyada bölüklərindən birini də qərb tərəfdən, Bazkovsk bölüyünə kömək etmək üçün çay aşağı göndərdi; təhlükənin baş verə biləcəyi yerlərdə səkkiz pulemyot qoydu, özü də iki atlı bölüyü ilə təqribən gecə saat ikidə, Qorello meşəsinin kənarında dayanıb, səhərin açılmasını gözlədi və qızıl əsgərlər üzərinə atlı cərgələrlə hücuma keçmək niyyətilə hazır durdu.

Gəlmələrdən düzəldilmiş Veşenskaya əsgəri dəstəsi hələ Ülkər ulduzu batmamış meşənin içi ilə Bazkovsk dirsəyi tərəfə gedərkən, geriyə çəkilən Bazkovsk kazakları ilə üz-üzə gəlib onları düşmən zənn edərək, qısa bir atışmadan sonra qaçdı. Özlərini itirmiş bu dəstə nəfərləri, sahildə pal-paltarlarını, ayaqqabılarını tələsik tullayaraq, Veşenskayanı çayın dirsəyindən ayıran enli gölün içi ilə üzə-üzə bu yana keçirdilər. Bir az keçməmiş səhvin üstü açıldı, lakin qırmızıların Veşenskayaya yaxınlaşması xəbəri heyrət ediləcək bir sürətlə hər yana yayıldı. Zirzəmilərdə özlərinə məskən salmış qaçqınlar, Veşenskayadan şimala qaçaraq, hər yana xəbər yaydılar ki, guya qırmızılar Donun bu tayına keçmiş, cəbhəni yarmışdır, Veşenskaya üzərinə hücum edirlər...

Qriqori gəlmələrdən düzəldilmiş əsgəri dəstənin qaçması xəbərini alıb atını Dona doğru çapanda səhər yenicə açılırdı. Dəstə nəfərləri baş vermiş anlaşılmazlığı aydınlaşdırmış və artıq ucadan bir-birilə danışa-danışa öz səngərlərinə qayıdırdılar. Qriqori atını sürüb, onların bir dəstəsinə yaxınlaşaraq istehza ilə soruşdu:

– Gölü üzüb keçəndə çoxmu adam boğuldu?

Yaş köynəyinin suyunu yeriyə-yeriyə sıxan bir əsgər utana-utana cavab verdi:

– Balıq kimi üzüb keçmişik! Batmaq nədir, canım.

– Belə qərəvəlli iş hamının başına gələ bilər, – deyə ikinci, yalxı tumanda qalmış bir əsgər mühakiməli surətdə söhbətə qarışdı. – Bizim vzvod komandiri gerçəkdən azca qalmışdı boğulsun. Dolaqları açmaq vaxt aparır, deyə ayağını soyunmaq istəmədi, üzdü, amma tərsliyə bax ki, andıra qalmış suda açıldı. Ayaqları bir-birinə dolaşdı... Ay qışqırırdı ha! Güman ki, onun səsini Yelanda da eşidirdilər?!

Qriqori dəstə komandiri Kramskovu axtarıb tapdı və ona dəstəsini meşənin kənarına çıxarmağı və elə yerləşdirməyi əmr etdi ki, lazım olanda qızıl əsgər səflərini cinahlardan güllələmək mümkün olsun. Bundan sonra Qriqori atını sürüb öz bölüklərinə tərəf yola düşdü.

Yola yarı eləmişdi ki, qərargah yavərinə rast gəldi. Yavər yanlarını ağır-ağır çəkib aparan atın cilovunu dartıb saxladı, rahat nəfəs alaraq dedi:

– Sizi zorla axtarıb tapmışam!

– Nə xəbər var?

– Qərargahdan əmr edilmişdir ki, Tatarsk bölüyünün səngərləri buraxdığını sizə xəbər verim. Onların mühasirəyə düşəcəklərindən təşvişdədirlər, qumluqlara tərəf çəkilirlər... Kudinov özü tapşırdı ki, bu saat siz özünüzü oraya yetirməlisiniz.

Qriqori atları yaxşı qaçan yarım vzvod kazakla meşənin içi ilə yola çıxdı. Atlar iyirmi dəqiqə çapdıqdan sonra onlar artıq Qoli İlmen gölünün yanında idilər. Onlardan sol tərəfdə, canlarına həyəcan düşmüş tatarsklılar biçənəklərin içi ilə dağınıq halda qaçırdılar. Cəbhə görmüş və bərkdən-boşdan çıxmış kazaklar yavaş-yavaş gedir, göldən uzaqlaşmır, görünməmək üçün sahil boyunca bitmiş qamışlıqlara yan alırdılar; qalanları isə görünür meşəyə tez çatmaq arzusu ilə, pulemyot atəşini saymadan düzünə gedirdilər.

Qriqori hirsindən çəpləşmiş gözlərini kazaklara çevirərək:

– Sürün atları onlara çataq, qamçıları işə sal!.. – deyə qışqırdı və xutorlularına çatmaq üçün hamıdan əvvəl özü atının cilovunu boşladı.

Xristonya axsaya-axsaya, məzəli, oynayırmış kimi yorta-yorta hamıdan arxada gedirdi. Bu günlərdə balıq ovunda onun dabanını qarğı kəsmişdi, buna görə də o, uzun ayaqlarına yaraşan bir qıvraqlıqla qaça bilmirdi. Qriqori özünü ona yetirib, qamçısını başı üzərində oynatdı. Xristonya dal tərəfində at ayağı tappıltısı eşitdi, dönüb geriyə baxdı və o saat yerişini bir az da sürətləndirdi.

– Hara gedirsən?! Dayan! Dayan deyirəm sənə! – deyə Qriqori əbəs yerə qışqırdı.

Xristonya dayanmaq fikrində deyildi. O, yerişini bir az da sürətləndirdi və dəvə kimi yortmağa başladı.

Bu zaman Qriqori xırıltılı səslə müdhiş bir ana söyüşü söydü, atına təpindi və özünü onun bərabərinə yetirərək Xristonyanın tərdən islanmış kürəyinə bərk bir qamçı çəkdi. Xristonya zərbədən yumaq kimi büzüşdü, dovşan sıçrayışına bənzər görünməmiş bir hərəkətlə kənara tullandı, yerə çökdü və yavaş, diqqətli bir halda kürəyini yoxlamağa başladı.

Qriqori ilə gələn kazaklar atlarını səyirdib qaçanların qabağını kəsir, onları dayandırır, lakin qamçıları işə salmırdılar.

– Döyün onları!.. Döyün!.. – deyə Qriqori qəşəng qamçısını havada oynadaraq, xırıltılı səslə çığırdı. At onun altında fırlanır,

şahə qalxır, irəli getmək istəmirdi. Qriqori atın başını çox çətinliklə çəkib yola salaraq, qabaqda qaçanlara tərəf çapdı. O, atını səyirdərkən bir kolun yanında dayanmış, kirimişcə gülümsünən Stepan Astaxovu ötəri gördü; Anikuşkanın da gülməkdən qarnını tutaraq yerə oturduğunu və əllərini şeypur kimi tutaraq, cingiltili, arvad səsi kimi səslə bu sözləri dediyini eşitdi:

– Qardaşlar! Qaçın! Canınızı qurtarın! Qırmızılardır!.. – Ayə, qoyma hey!.. Qaç, gəldi!..

Qriqori sırıqlı pencək geymiş və bərk qaçan bir xutorlusunu da haqladı. Bu şəxsin kələfcəyə oxşar görkəmi Qriqoriyə lap tanış gəldi, lakin onun kim olduğunu öyrənməyə macal yox idi; buna görə də Qriqori hələ ona çatmağa xeyli qalmış bağırdı:

– Dayan, köpək oğlu... Dayan, yoxsa doğraram!..

Birdən-birə pambıqlı pencək geymiş şəxs yavaşıdı, dayandı, səciyyəvi, Qriqoriyə uşaqlıq çağından tanış bir hərəkətlə son dərəcəyə çatan hirslilik əlaməti ilə üzünü geriyə çevirməyə başlayanda, Qriqori heyrətindən dondu və hələ üzünü görməmiş bunun öz atası olduğunu başa düşdü.

Panteley Prokofyeviçin yanaqları səyriyirdi.

– Kimdir köpək oğlu, öz doğma atan? Doğramaqla atanı hədələyirsən? – deyə qoca var qüvvəsi ilə qışqırdı.

Onun gözlərini tanış bir qəzəb dumanı elə bürümüşdü ki, Qriqorinin acığı o dəqiqə soyudu, zorla atının başını çəkib saxlayaraq o da qışqırdı:

– Ata, niyə qışqırırsan? Daldan tanıya bilmədim!

– Necə yəni tanıya bilmədim? Atanı tanıya bilməyibsən?!

Qoca kişinin belə bərk inciməsi o qədər pis və yersiz baş vermişdi ki, Qriqori daha özünü saxlaya bilməyərək, gülə-gülə atası ilə bərabərləşdi, barışmaq meyli ilə dedi:

– Ata, hirslənmə! Elə bir sürtuk geyibsən ki, mən bunu heç görməmişdim, bundan başqa, sən elə qaçırdın ki, elə bil cıdır atı süzür, heç axsaqlığın da sezilmirdi! Səni mən necə tanıyaydım?

Keçmişdə, evdə olduğu kimi, Panteley Prokofyeviç yenə də sakitləşdi, tövşüyə-tövşüyə danışsa da, yumşalmış halda oğlunun rəyilə razılaşdı:

– Əynimdəki sürtuk, düz deyirsən, təzədir, kürklə dəyişmişəm, kürk ağırdır, gəzdirmək olmur, amma axsaqlıq... Bu vurhavurda

axsamağa macal hanı? Burada, dostum, axsamaq yada düşməz! Ölüm başımızın üstünü almışdır, sən də ayaqdan söz salmısan...

– Yox, ata, hələ ölümə çox var, geri dön! Yəqin güllələri də tullamısan, hə?

– Geri dönmək nədir? – deyə qoca hirsləndi.

İş bu yerə çatanda Qriqori səsini ucaltdı, hər bir sözü kəlmə-kəlmə deyərək komanda etdi:

– Geri qayıtmağı əmr edirəm! Döyüş şəraitində komandirin sözünə baxmamaq üstündə, nizamnaməyə əsasən adama bilirsənmi nə edərlər?

Söz kəsərli çıxdı; Panteley Prokofyeviç tüfəngini düzəltdi, könülsüz geri döndü. Ondan da bir az könülsüz geriyə addımlayan bir qoca kişi ilə bərabərləşəndə köksünü ötürərək dedi:

– Gör bir zəmanəyə bax, nə cür oğullar əmələ gəlib!.. Ona çalışmır ki, atasına hörmət eləsin, məsəl üçün, onu davadan buraxdırsın, çalışır ki, davaya göndərsin... odun içinə salsın... bəə-ə-əli... Yox, mərhum Pyotr, Allah ona rəhmət eləsin, bundan çox yaxşı oğul idi! Ürəyi düz oğul idi, amma bu nadürüst Qrişka, diviziya komandiri, yaxşı xidmət göstərmiş və sairədirsə də elə deyildir. Elə bil ürəyi daşdandır, gərək yaxına getməyəsən, deyəsən, qoca vaxtımda məni vaxtından əvvəl qəbrə salacaqdır.

Tatarsklıları çox da zəhmət çəkmədən yola gətirə bildilər.

Bir azdan sonra Qriqori bütün bölüyü yığdı, onu bir dalda yerə apardı; yəhərdən düşmədən qısaca izahat verdi:

– Qırmızılar çayı bu tərəfə keçmişdir. Veşenskayanı almaq istəyirlər. Donun yaxınında bu saat vuruşma başlanmışdır. Bu iş zarafat sevən iş deyil və sizə boş yerə qaçmağı məsləhət görmürəm. Əgər bir də qaçası olsanız, Yerinskdə dayanmış atlı bölüyünə, xainlər kimi sizi qırmaq əmri verəcəyəm! – Qriqori hərəsi bir cür paltar geymiş xutorlularına göz gəzdirdi, açıq nifrətlə sözünü belə bitirdi:

– Bölüyünüzdə hər cür əclaflar toplanmışdır; vahiməni salan da elə bunlardır. Qaçağanlar, tumanlarını batıranlar, igidlərə bax! Adlarını da kazak qoyublar! Xüsusən sizə deyilir, babalar, üzümə düz-əməlli baxın! Davaya başlayıbsınız, zəhmət çəkin, başınızı paçanızın arasında gizlətməyin! Bu saat vzvodlarla qaça-qaça, bax o mövqeyə və kollarla Dona tərəf gedərsiniz. Don boyunca Semyonovsk bölüyünün bərabərinə qədər! Həmin bölüklə birlikdə qırmızılara cinahdan zərbə endirərsiniz. Marş! Cəld olun!

Tatarsklılar kirimişcə onun sözlərini dinlədilər və kirimişcə də kollara tərəf yönəldilər. Babalar qüssəli-qüssəli içlərini arıtlayır və geriyə dönərək, atını cəld sürüb onlardan uzaqlaşan Qriqoriyə və onun yanındakı kazaklara baxırdılar. Panteley Prokofyeviçlə ayaqlaşan qoca Obnizov şadlıq hissi ilə dedi:

– Allah sənə, doğrudan da, çox igid oğul verib! Tərlandır! Xristonyanın kürəyinə necə qamçı dartdığını gərək görəydin! Bir saatda hər şeyi öz qaydasına saldı.

Atalıq hissi cuşa gəlmiş Panteley Prokofyeviç də onun rəyinə həvəslə şərik oldu:

– Heç demə! Belə oğulu yer üzündə çıraqla da gəzsən tapa bilməzsən! Döşü xaçla dolmuşdur, bu zarafat deyil ha! Bax, Petro mərhum, Allah ona rəhmət eləsin, düzdür, doğmaca oğlum idi, ilkim idi, amma belə deyildi! O olduqca itaətkar idi, bir növ, lənət şeytana, yarımçıq kimi idi. Onun ürəyi arvad ürəyi kimi idi. Bu isə hər cəhətdən özümə oxşayıbdır! İgidlikdə də məni hələ bir az da ötübdür!

Qriqori yarım vzvodla Kalmık bərəsinə çatmaqda idi. Onlar meşəyə çatmaqla özlərini xətərsiz yerdə hesab edirdilər, lakin onları Donun o tayından, müşahidə məntəqəsindən görürdülər. Topçu dəstəsi onları atəşə tutdu. İlk atılan top gülləsi bədmüşk ağaclarının başı üstündən aşıb, harada isə fırçıltı ilə bataqlıq bir talaya girdi və partlamadı. İkinci güllə yoldan bir az kənarda olan qoca bir ağacın bayıra çıxmış köklərinə çırpıldı, ətrafa od saçıldı, kazakların üstünə uğultu ilə yumşaq torpaq və ovulmuş kötük qırıqları səpələdi.

Səsdən qulağı batmış Qriqori qeyri-iradi, əllərilə gözünü örtdü, elə bil atın sağrısına dəyən boğuq və nəm bir şappıltı duyaraq, yəhərin qaşına əyildi.

Yeri titrədən çatırtıdan kazak atları, komanda verilmiş kimi, hamısı birdən yerə çökdülər və qalxaraq irəli atıldılar: Qriqorinin altındakı at ağır-ağır şahə qalxdı, geriyə dartındı, yavaş-yavaş böyrü üstə yıxılmağa başladı. Qriqori cəld yəhərdən sıçrayıb düşdü, atın cilovunu əlinə aldı. İki top gülləsi də vıyıldayıb keçdi, sonra meşənin kənarına sükut çökdü. Barıt qoxusu otların üstünə yayılırdı; təzəcə eşilmiş torpaq və yarı çürümüş ağac ətri duyulurdu; xeyli uzaqda, talanın içində ürküdülmüş sağsağanlar bərk qırıldaşırdılar.

Qriqorinin atı fınxırır və titrəyən dal ayaqları üzərinə çökürdü. Atın dişlərinin sarı cərgəsi iztirabla çərəlmiş və boynu irəli uzanmışdı. Məxməri andıran boz yumşaq burnunun ətrafında çəhrayı köpük qabarcıqlanmaqda idi. At bərk titrəyir, kəhər dərisinin altında cəngilik dalğası gəzirdi.

– Birtəhər olubmu? – deyə atını Qriqorinin yanınca səyirtmiş bir kazak ucadan soruşdu.

Qriqori atın fəri sönən gözlərinə baxır, cavab vermirdi. O, atın hətta yarasına belə baxmadı və at ümidsiz, tələsik, var gücünü toplamaq istəyərək, dizləri üstə çökəndə və sahibindən nə isə üzr istəyirmiş kimi başını aşağı əyəndə, bir az kənara durdu. At boğuq bir zarıltı ilə böyrü üstə yıxıldı, görünür, onun son nəfəsi idi: titrətmə seyrəldi, gözləri solub getdi, boynundan buxar qalxdı.

Atın yalnız biləklərində, dırnaqları yanındakı damarlar son qanı atır, bədəni səyriyirdi, yəhərin sürtülmüş bir qanadı azacıq tərpənirdi.

Qriqori çəpəki atın sol sağrısına baxdı, geniş və dərin açılmış yaranı, yaranın içindən bulaq kimi axan isti qara qanı gördü, köməyinə gəlmiş kazaka dili dolaşa-dolaşa və gözlərindən axan yaşı silmədən dedi:

– Bir güllə vur, əziyyətdən qurtarsın! – Bunu deyib, mauzerini kazaka uzatdı.

Kazakın atına minərək, öz bölüklərinin durduğu səmtə çapdı. Orada artıq döyüş qızışmışdı.

Səhər açılanda qızıl əsgərlər hücuma keçdilər. Onların səfləri qalın səhər dumanında səngərdən qalxdı, sakitcə Veşenskayaya tərəf yönəldi. Sağ cinahda, su dolmuş bir dərənin yanında bir an qədər ilişib qaldılar, sonra döşlərinə qədər suya girərək, patron çantalarını və tüfənglərini başlarının üzərinə qaldıraraq, suyu keçməyə başladılar. Bir az da keçəndən sonra, Donun kənarındakı təpədən dörd batareya sahmanlı və əzəmətli bir səslə atəş açdı, top güllələri meşənin içinə düşərək, yelpik kimi onları tərpədəndə üsyançılar atəş açdılar. Qızıl əsgərlər daha yerimir, tüfənglərindən ikiəlli yapışaraq irəli qaçırdılar. Onlardan yarım verst qabaqda şrapnellər quru bir çatırtı ilə meşənin içinə düşür, top güllələrindən parça-parça olmuş ağaclar yerə yıxılır, ağımtıl duman şəklində tüstü qalxırdı. İki kazak pulemyotu qısa növbələrlə güllə yağdırırdı. İlk sıralarda gələn qızıl əsgərlər yıxılmağa başladılar. Atılan güllələr bürmələnmiş şinellərini çiyinlərinə keçirmiş adamları gah bu, gah da başqa tərəfdə yerə sərir, onları ya üzüqoylu, ya da dalı üstə

yıxırdı, lakin qalanları yerə yatmır, irəliləyirdilər, onları meşədən ayıran məsafə getdikcə azalırdı.

Başıaçıq, şinelinin ətəklərini kəmərinə sancmış, bir az qabağa əyilmiş komandir ikinci cərgənin qabağınca yüyürürdü. Cərgə bir an qədər hərəkətini yavaşıtdı; lakin komandir yüyürə-yüyürə onlara tərəf dönüb nə isə bağırdı və adamlar yenə də yüyürüşməyə başladılar, xırıltılı və müdhiş "Ura-a-a!" səsləri daha ucadan və qəzəblə səslənməyə başladı.

Bu zaman kazakların bütün pulemyotları işə düşdü, meşənin qırağında qızğın, arasıkəsilməyən tüfəng atışması başlandı... haradansa, öz bölükləri yerləşən meşənin qırağında durmuş Qriqorinin arxa tərəfindən, Bazkovsk bölüyünün dəzgahlı pulemyotu uzun növbələrdə güllə atmağa başladı. Qızıl əsgər cərgələri ürküşdü, yerə yatdı, atışmağa başladı. Döyüş yarım saat davam etdi, lakin atışmalarda yetişmiş qiyamçıların atəşi o qədər sərrast idi ki, ikinci cərgə duruş gətirə bilmədi, yerindən qalxdı və xırda-xırda, köməyə gələn üçüncü cərgənin adamlarına qatışdı... Çox keçmədi ki, biçənək başıpozuq halda geriyə qaçışan qızıl əsgərlərlə doldu. Bu zaman Qriqori yorğa yerişlə bölüklərini meşədən çıxartdı, nizama düzdü və qızıl əsgərlərin dalınca düşdü. Geri çəkilənlərin sallara doğru gedən yolunu isə atlarını bərk sürən Çir bölüyü kəsdi. Donun qırağındakı meşənin yanında, lap sahildə əlbəyaxa vuruşma düşdü. Qızıl əsgərlərin yalnız bir qismi özünü sallara yetirə bildi. Onlar sallara həddindən artıq adam dolduraraq sahildən aralandılar. Yerdə qalanı, Don sahilinə sıxışdırılanlar isə döyüşürdülər.

Qriqori öz bölüklərini atlardan düşürtdü, atçılara meşədən qırağa çıxmamaq əmri verdi və kazakları sahilə tərəf apardı. Kazaklar ağacların arası ilə irəliləyir, Dona yaxınlaşırdılar. Yüz əlliyə qədər qızıl əsgər əl qumbarası və pulemyot atəşi ilə üstlərinə gələn üsyançı piyadaları geriyə oturtdu. Sallar yenə sol sahilə doğru yönəlməyə başladı, lakin Bazkovsk bölüyünün kazakları tüfəng atəşilə, demək olar ki, avar çəkənlərin hamısını qırdı. Bu tərəfdə qalmış qızıl əsgərlərin işi artıq bitmişdi. Dəyanəti olmayanlar tüfənglərini atıb, çayı üzə-üzə o taya keçmək istədilər. Onları dikləriin yanında uzanmış qiyamçılar gülləyə tutdu. Qızıl əsgərlərdən çoxu, bərk axan Donun ortasından keçə bilməyib suda boğuldu. Yalnız ikicə adam o tərəfə salamat çıxdı. Bunlardan da biri zolaq-

zolaq matros köynəyi geymiş əsgər idi; görünür ki, o mahir üzücü imiş, uçurum sahildən təpəsi üstə çaya atıldı, suya cumdu və bir də başını çayın ortasında çıxartdı.

Qriqori şaxlı-budaqlı bir bədmüşkün dalında gizlənərək, matrosun iri, sajınlıq sıçrayışlarla o tərəfə çatdığını görürdü. Bir başqası da sağ-salamat çayı üzüb, o taya keçdi. Döşünə qədər suda ayaq üstə durub, güllələrinin hamısını atıb qurtardı; kazaklara tərəf yumruğunu göstərərək, qışqıra-qışqıra nə isə dedi və çəpinə suyu üzüb keçməyə başladı. Atılan güllələr onun hər tərəfində suya girir, lakin heç biri bəxtəvərə dəymirdi. Vaxtilə mal suvarılan bir yerə çatanda o, sudan çıxdı, üst-başının suyunu çırpdı, aramla yarğanın arası ilə həyətlərə tərəf getdi.

Don sahilində qalan qırmızılar, bir qumluq təpə arxasında yerə yatdılar. Onlar pulemyotun suyu qaynayıncaya qədər atışdılar.

Pulemyot səsini kəsən kimi, Qriqori qılıncını qınından çıxararaq yavaşdan: "Arxamca!" komandası verdi və təpə tərəfə getdi.

Kazaklar da ağır-ağır nəfəs alaraq onun dalınca getdilər.

Qızıl əsgərlərə çatmağa cəmisi 50 sajın qalmışdı. Üç yaylım atəşindən sonra qarabuğdayı, qara bığlı, ucaboy komandir qumlu təpədən ayağa qalxdı. Meşin pencək geymiş bir qadın onun qolundan tutub saxlayırdı. Komandir yaralı idi. Güllə qırmış ayağını güclə sürüyərək, təpədən endi, süngüsü keçirilmiş tüfəngini qolu üstündə düzəldərək, xırıltılı səslə komanda verdi:

– Yoldaşlar! İrəli! Ağları qırın!

Balaca bir dəstədən ibarət olan bu qoçaqlar "İnternasional" oxuya-oxuya əks-hücuma keçdi. Ölüm-dirim vuruşmasına atıldı.

Don sahilində sonuncu qırılan yüz on altı nəfərin hamısı İnternasional bölüyünün kommunistləri idi.

III

Qriqori qərargahdan mənzilinə gecədən xeyli keçmiş gəldi. Proxor Zıkov onu qapının ağzında gözləyirdi.

– Aksinyadan bir xəbər yoxdur ki? – deyə soruşdu. Onun səsində süni bir soyuqqanlılıq var idi.

– Yox. Bilmək olmur harada itib-batıb, – deyə Proxor əsnəyə-əsnəyə cavab verdi və o saat qorxu içində fikirləşdi: "Allah eləməsin, bu məni yenə Aksinyanı axtarıb tapmağa göndərə... Allahın lənətinə gəlmişləri cütləşdirmək mənim boynuma yüklənib!"

– Su ver, əl-üzümü yuyum. Tamam tər içindəyəm. Hə, cəld ol! – Qriqori bu sözləri hirsli-hirsli dedi.

Proxor otağa girib su gətirdi, Qriqorinin təknə kimi tutduğu ovuclarına parçdan xeyli vaxt su tökdü. O da ləzzətlə yuyundu. Bərk tər iyi gələn üst köynəyini çıxartdı. Proxordan rica etdi:

– Kürəyimə tök.

O, tərli kürəyini soyuq su üşütdükcə ufuldayır, fınxırırdı, qayış kəsmiş çiyinlərini və qıllı sinəsini dəsmalla xeyli vaxt və möhkəm sürtdü. Bədənini təmiz dəsmalla silib qurtardıqdan sonra, artıq şən bir səslə Proxora:

– Səhər mənə bir at gətirəcəklər, – təhvil al, qaşovla, arpa tap. Özüm qalxmayıncaya qədər məni oyatma. Yalnız qərargahdan adam gəlsə, durğuzarsan. Aydındırmı? – Tapşırığını verdikdən sonra mərəyin çardağı altına getdi. Arabanın içinə uzandı və o dəqiqə şirin yuxuya getdi. Dan yeri qızaranda üşüdüyü üçün ayaqlarını yığışdırdı, şehdən islanmış şinelini üstünə dartdı, günəş çıxandan sonra isə yenə mürgülədi və saat yeddidə bərk top atəşi səsinə yuxudan oyandı. Stanitsanın üstündə, mavi və saf göydə tutqun-tutqun parıldayan bir təyyarə fırlanırdı. Donun o tərəfində təyyarəyə top və pulemyotlardan atəş açırdılar.

Axura bağlanmış hündür kürən ayğırı əlindəki şotka ilə bərk-bərk sürtən Proxor mızıldadı:

– Bu yekəlikdə atı asanlıqla vura bilərlər ha! Bir gəl bax, Panteleviç, gör sənin üçün necə əntiqə at göndəriblər!

Qriqori gözucu ayğırı süzdü, məmnun halda soruşdu:

– Yaxşı seçə bilmirəm, neçə yaşardır. Altı yaşardır, eləmi?

– Altı yaşardır.

– Pəh-pəh, lap gözəldir! Ayaqları elə bil tökmə, qəlibdən çıxmış kimidir. Qəşəng atdır... hə, yəhərlə, gedim görüm bu gələn kimdir.

– Yaxşılığına söz ola bilməz. Görəsən qaçışı necədir. Amma bütün əlamətlərindən belə güman etmək olar ki, çox iti qaçan atdır, – deyə Proxor tapqırları çəkə-çəkə öz-özünə danışırdı.

Təyyarənin yaxınlığında şrapnelin ağ tüstü topası bir də göründü.

Təyyarəçi enmək üçün münasib yer seçəndən sonra sürətlə aşağı enməyə başladı. Qriqori atını minib qapıdan küçəyə çıxdı, təyyarənin düşdüyü yerə – stanitsa tövləsinə tərəf çapdı.

Stanitsa ayğırları üçün stanitsanın qurtaracağında daşdan tikilmiş uzunsov tövlə ağzına kimi dolu idi. Buraya səkkiz yüzdən çox əsir qızıl əsgər doldurmuşdular. Keşikçilər onları peşaba çıxmağa buraxmırdı, içəridə də qab yox idi. İnsan ifrazatının ağır, adamın nəfəsini kəsən qatı qoxusu tövlənin dörd tərəfini bürümüşdü. Qapıların altından pis iyli sidik axırdı; bunların üzərində zümrüd rəngli milçəklər bulud kimi fırlanırdı...

Gecə və gündüz bu məhkumların zindanından boğuq zarıltı kəsilmirdi. Yüzlərcə əsir taqətsizlikdən və aralarında bərk yayılmış yatalaq və ishal xəstəliyindən qırılırdı. Ölənləri bəzən günlərlə aparıb dəfn edən olmurdu.

Qriqori atın belində tövlənin həndəvərini dolaşıb yenicə atdan düşmək istəyirdi ki, Donun o tayındakı topdan yenə boğuq mərmi səsi gəldi. Yaxınlaşan top güllələsinin vıyıltısı getdikcə çoxaldı və ağır partlayışa qovuşdu.

Təyyarəçi və onunla gələn zabit təyyarədən çıxan kimi kazaklar onların başına yığışdı. O saat da dağın başındakı batareyanın bütün topları atəş açdı. Top güllələri səliqə ilə tövlə ətrafında yerə düşməyə başladı.

Təyyarəçi cəld kabinkaya girdi, lakin motor işə düşmədi.

– İtələyin! – deyə Donun o tayından gələn zabit kazaklara zil səslə komanda verdi və özü birinci olaraq təyyarənin qanadından yapışdı.

Təyyarə yırğalana-yırğalana asanlıqla şamlığa doğru yönəldi. Toplar onun arxasınca sürətlə atəş açdılar. Top güllələrindən biri içərisi ağzına qədər əsirlərlə dolu tövləyə düşdü. Tövlənin bir küncü uçdu, göyə əhəng tozu qarışıq tüstü qalxdı. Qızıl əsgərlərin qopardığı vahiməli fəryad tövləni titrətdi. Tövlənin uçmuş yerindəki oyuqdan üç nəfər özünü bayıra atdı, özlərini onlara yetirən kazaklar əsirlərin üçünü də atəşə tutub dəlmə-deşik elədilər.

Qriqori atını kənara sürdü.

Qorxudan rəngi qaçmış bir kazak onun yanından qaça-qaça gedərkən bağırdı:

– Burada güllə dəyər! Atını şamlığa sür!

Qriqori "Doğrudan da ara yerdə güdaza getmək olar. Şeytan işidir!" deyib, aramla atın başını evə tərəf çevirdi.

O gün Kudinov, Melexovu çağırmadan qərargahda çox gizli bir müşavirə çağırdı. Don ordusunun təyyarə ilə gəlmiş zabiti qısaca məlumat verdi ki, qırmızıların cəbhəsini bu günlərdə Kamenskaya stanitsası yaxınlığında toplanmış zərbə dəstəsi yaracaq və Don ordusunun atlı diviziyası general Sekretovun komandası altında irəliləyib, qiyamçılarla birləşəcəkdir. Zabit dərhal çaydan qoşun keçirmək üçün vəsait hazırlığı görülməsini təklif etdi; belə ki, Sekretovun diviziyası ilə birləşəndən sonra qiyamçıların atlı polklarını dərhal Donun sağ sahilinə keçirmək mümkün olsun; ehtiyat hissələrini mümkün qədər Don yaxınlığına gətirməyi məsləhət gördü və müşavirənin sonunda – çayı o taya keçmək və təqib hissələrinin hərəkətini istiqamətləndirmək planı tutulandan sonra soruşdu:

– Sizinkilər əsirləri nə üçün Veşenskayada saxlayırlar?

– Saxlamağa ayrı bir yerimiz yoxdur, xutorlarda elə bina yoxdur, – deyə qərargah işçilərindən kim isə cavab verdi.

Zabit tərtəmiz qırxılmış tərli başını yaylığı ilə silib, kitelinin yaxasını açdı və köksünü ötürərək dedi:

– Onları Kazanskaya stanitsasına göndərin.

Kudinov təəccüblə qaşlarını dartdı:

– Bəs sonra?

– Oradan da Veşenskayaya... – deyə zabit göy gözlərini qıyaraq izah etdi və dodaqlarını bir-birinə kip birləşdirərək sərtliklə sözünü bitirdi: – Cənab zabitlər, mən başa düşmürəm ki, niyə siz onların nazı ilə oynayırsınız? Belə güman edirəm ki, indi deyəsən, zəmanə elə zəmanə deyildir. Həm fiziki, həm də ictimai xəstəliklər mənbəyi olan bu əclafları qırmaq lazımdır. Onların dərdini çəkməyin mənası yoxdur! Sizin yerinizə mən olsaydım, məhz belə hərəkət edərdim.

Ertəsi gün, əsirlərin iki yüz nəfərlik birinci dəstəsini qumluqlara tərəf apardılar. Candan düşmüş, gömgöy göyərmiş ayaqlarını güclə sürüyən qızıl əsgərlər kölgə kimi yeriyirdilər. Qat-qarışıq yeriyən bu adamları atlı keşikçilər sıx aralığa almışdılar. Veşenskayadan Dubrovskaya gedən yolun on verstliyində iki yüz nəfər adamın

hamısını qılıncdan keçirdilər. Qırğına ikinci dəstə adamı axşamüstü apardılar. Keşikçilərə belə bir ciddi əmr verilmişdi: geridə qalanı ancaq doğramaq lazımdır, yalnız məcburiyyət məqamında güllə atmaq olar. Yüz əlli adamdan Kazanskayaya on səkkiz nəfəri gəldi... Bunlardan da birisi, qaraçıya oxşar bir gənc qızıl əsgər, yolda dəli oldu. O bütün yol uzunu mahnı oxuyur, qopardığı bir dəstə ətirli kəklikotunu bağrına basaraq, oynayır və ağlayırdı. O tez-tez üzüqoylu qızmar qumluğun üstünə yıxılırdı, külək onun bez köynəyinin kirli cırıqlarını yellədirdi: keşikçilər də bu zaman onun dərisi altından qabarmış sümüklü kürəyini və ayaqlarının qapqara pəncələrini görürdülər. Onu qaldırır, su qabından üzünə su çiləyirdilər, o da parıldayan qara gözlərini açır, sakitcə gülür və silkələnərək yenə yeriyirdi.

Ürəyi kövrək arvadlar xutorlardan birində keşikçilərin başına yığışdılar və içlərindən iri bir qarı keşikçi rəisinə üz tutaraq ciddi dedi:

– Sən bu qarayanız oğlanı azad elə. Onun ağlı başından çıxıb, Allaha yaxın olubdur, buna görə də siz belәsini öldürsəniz çox günah olar.

Keşikçi rəisi sarı bığlı bir qoçaq zabit gülümsünərək:

– Ay xala, biz əlavə bir günah iş görməkdən qorxmuruq. Fərqi yoxdur, bizdən mömin adam çıxmayacaqdır!

– Sən tərslik eləmə, onu burax, – deyə qarı inadla ricasını davam etdi. – Sizin də başınızın üstünə ölüm qanad gərmişdir...

Qalan arvadlar da onun sözünə qüvvət verdilər; zabit razılaşdı.

– Mənim nəyimə gərəkdir, aparın. Onun indi ziyanı yoxdur. Bizim rəhmimizin müqabilində isə, adambaşına hərəmizə üzü alınmamış bir qab süd verməlisiniz.

Qarı dəlini götürüb öz daxmasına apardı, yedirib doyurdu, yatmaq üçün dəhlizdə ona yer saldı. Oğlan bir gün bərk yatdı, sonra oyandı, dalını pəncərəyə çevirərək yavaşca oxumağa başladı. Qarı dəhlizə gəldi, keçib sandığın üstündə oturaraq əlini yanağına söykədi və oğlanın arıqlamış üzünə xeyli vaxt, həm də diqqətlə tamaşa etdi, sonra da yoğun səslə dedi:

– Deyəsən sizinkilər yaxınlaşır...

Dəli bir an qədər susdu və o dəqiqə yenə oxudu, lakin daha sakit oxuyurdu.

Bunu gördükdə qarı ciddi tərzdə mətləbə keçdi:

– Ay naxoş bala, sən gəl daha bu mahnı oxumağı boşla, özünü ələ salma və mənim də başımı ağrıtma. Mən dünyagörmüş qarıyam, sən məni aldada bilməzsən, mən axmaq deyiləm! Sənin ağlın yerindədir, bilirəm. Yuxuda necə danışdığını, özü də çox səlis danışdığını eşitmişəm.

Qızıl əsgər oxuyur, lakin getdikcə səsi yavaşıyırdı. Qarı sözünə davam etdi:

– Sən məndən qorxma, mənim sənə pislik eləmək fikrim yoxdur. Mənim iki oğlumu alman müharibəsində öldürüblər, kiçik oğlum da bu müharibədə Çerkasskda ölmüşdür. Onların hamısını bax, bu ürəyimin başında gəzdirmişəm... Yedirmişəm, içirmişəm, cavan vaxtlarımda gecələr yatmamışam... Ona görə qoşunda qulluq edən, müharibədə olan bütün cavan oğlanlara yazığım gəlir... – Qarı bir qədər susdu.

Qızıl əsgər də susdu. O, gözlərini qapadı və onun üzünün qarayanız əzələsinə çətinliklə sezilən xəfif bir qızartı gəldi; nazik və arıq boynundakı göy damar bərk atmağa başladı.

O müntəzir vəziyyət alaraq, bir dəqiqə qədər eləcə dayandı, sonra da qara gözlərini bir qədər geniş açdı. Bu baxışlar indi mənalı idi və onun gözlərində elə səbirsiz bir intizar var idi ki, qarının dodaqları qımışdı.

– Şumilinskaya yoluna bələdliyin varmı?

– Yox, xala, – deyə qızıl əsgər dodaqlarını yavaşca tərpətdi.

– Bəs nə təhər gedəcəksən?

– Bilmirəm...

– Odur ha! İndi mən səni nə edəcəyəm? – Qarı xeyli vaxt cavab gözlədi, sonra soruşdu: – Özün yeriyə bilərsənmi?

– Birtəhər yeriyərəm.

– İndi sənə birtəhər yerimək olmaz. Ancaq gecələr getmək, özü də bərk yerimək lazımdır. Bilirsən! Bu günü də qal, ondan sonra mən sənə yol üçün azuqə də verərəm, yol göstərmək üçün nəvəmi də sənə qoşaram, çıx get, uğurlu yol! Sizin qırmızılar, Şumilinskayanın o tərəfindədir, yaxşı bilirəm. Düz onların yanına gedərsən. Böyük yol ilə getməyin, çölləmə getmək, kol-kosla, meşə ilə, adam getməyən yerlə getmək lazımdır, yoxsa kazaklara rast gələrsən, özünü xataya salarsan. Bələdir, başına dönüm!

Ertəsi gün, axşam qaranlığı düşən kimi, qarı yola hazırlaşmış adamlara – on iki yaşlı nəvəsinə və kazak çuxası geyinmiş qızıl əsgərə xeyir-dua verib bərk-bərk tapşırdı:

– Gedin, Allah yaxşı yol versin! Ayıq olun ki, bizim adama rast gəlməyəsiniz!.. Dəyməz, başına dönüm, dəyməz. Məndən yox, Allahdan razılıq elə! Bircə mən belə deyiləm, biz anaların hamısı rəhmlidir... Ay Allahın lənətinə gəlmişlər, axı adamın sizə yazığı gəlir! Di yaxşı, gedin, gedin, Allah amanında! – Qarı daxmasının yana doğru əyilmiş və üstünə sarı gil yaxılmış qapısını örtdü.

IV

İliniçna hər gün səhər hava işıqlaşan kimi yuxudan oyanır, inəyi sağır və xörək bişirməyə başlayırdı. Evdəki sobanı yandırmır, bayırdakı yay buxarısını qalayır, nahar hazırlayır və yenə içəriyə – evə, uşaqların yanına gedirdi.

Natalya yatalaqdan yavaş-yavaş dirçəlirdi. Troitsa bayramının ikinci günü o, ilk dəfə yatağından durdu, arıqlığından bir dəri, bir sümük olmuş ayaqlarını çətinliklə sürüyə-sürüyə otaqları gəzdi, xeyli vaxt uşaqların başında bit-sirkə araşdırdı və hətta kətilin üstündə oturaraq uşaqlara paltar yumaq istədi.

Onun arıqlamış çöhrəsi gülümsəyir, batmış yanaqlarındakı qırmızılıq hələ də qalır, naxoşluq nəticəsində iriləşmiş gözləri isə uşaq doğandan sonra hiss olunan kimi parlaq, ürkək bir hərarət şöləsi saçırdı.

Natalya hər kəlməni uzada-uzada və inamsız-inamsız deyərək, qızının qara saçlı başını tumarlayır, zəif səslə soruşurdu:

– Polyacan, mənim qəşəngcə balam! Mən naxoş olanda səni Mişatka incitməyib ki?

– Yox, anacan! Mişka məni ancaq bir dəfə vurub, biz onunla həmişə yaxşı oynamışıq, – deyə qızı astadan cavab verdi və üzünü anasının dizlərinə bərk-bərk söykədi.

– Nənəniz sizə baxırdımı? – deyə Natalya gülümsünərək sorğusunu davam etdirdi.

– Çox yaxşı baxırdı!

– Bəs yad adamlar, qırmızı əsgərlər sizə dəymədilər ki?

– Onlar, məlun uşağı, bizim danamızı kəsdilər! – deyə hədsiz dərəcədə atasına oxşayan Mişatka yoğun səslə cavab verdi.

– Mişkacan, adam söyüş söyməz! Gör bir, kişilənməyinə bax! – Natalya gülümsəməsini saxlayaraq: – Böyüklərə pis söz demək olmaz! – deyə oğluna nəsihət elədi.

– Nənəmin özü də onlara belə söyürdü, istəyirsən Polkadan soruş, – deyə qaşqabaqlı kiçik Melexov özünü təmizə çıxardırdı.

– Düzdür, anacan, onlar bizim toyuqlarımızı da tərtəmiz kəsib yedilər!

Polyuşka balaca qara gözlərini işıldadaraq, qızıl əsgərlərin həyətə necə gəldiklərini, toyuqları, ördəkləri necə qovub tutduqlarını, nənəsi İliniçnanın, pipiyini don aparmış sarı xoruza, toxumluq qalmaq üçün dəyməməklərini onlardan necə xahiş etdiyini və bir kefcil qızıl əsgərin xoruzu fırlada-fırlada nənəsinə: "Bu xoruz, ay xala, Sovet hökumətinin əleyhinə banlayıb, buna görə də biz ona ölüm cəzası kəsmişik! Xahiş etsən də, etməsən də biz onu bişirib yeyəcək, əvəzində sənə köhnə bir keçə çəkmə verəcəyik!" deyə cavab verdiyini həvəslə nağıl elədi.

Polina əllərini geniş açaraq, hətta göstərdi də:

– Bax, gör necə çəkmə qoyublar! Yekə, lap yekə və hər yeri deşik-deşik!

Natalya gah ağlar, gah da gülər halda uşaqlarını oxşadı və heyrət dolu gözlərini qızcığazından çəkmədən şadlıqla astadan dedi:

– Ax, mənim qəşəng qızım! Atan Qriqorinin eynisən! Sən təpədən dırnağa atana oxşayırsan.

– Mən də oxşayırammı? – deyə Mişatka da qısqanclıqla soruşdu və hərəkətsiz bir şəkildə anasına söykəndi:

– Sən də oxşayırsan. Amma gözlə, böyüyəndə atan kimi avara olma...

– Atam avaradır? Niyə? Nə edibdir ki, avaradır? – deyə Polina da maraqlandı.

Natalyanın sifəti tutuldu. Suala cavab vermədi və çətinliklə kətildən qalxdı.

Söhbət vaxtı orada olan İliniçna narazılıqla üzünü o tərəfə çevirdi. Natalya isə uşaq danışığına məhəl qoymayaraq, pəncərənin

önündə durdu. Astaxovların pəncərə qapaqları örtülmüş evinə xeyli baxdı, köksünü ötürdü və köhnə, rəngi solmuş koftasının ətəyini həyəcanlı bir şəkildə didişdirdi...

Ertəsi gün səhər tezdən yuxudan oyandı, uşaqları oyatmamaq üçün sakitcə yatağından qalxdı, əl-üzünü yudu, sandıqdan təmiz yubka, kofta və ağ iri yaylıq çıxartdı. O çox həyəcanlı idi və İliniçna onun həm paltarını geyməsindən, həm üzündəki qüssəli və ciddi sükutdan başa düşdü ki, gəlini Qrişaka babanın qəbri üstünə gedəcəkdir.

– Hara hazırlaşırsan belə? – deyə İliniçna bilə-bilə soruşdu ki, mülahizəsinin düzgünlüyünü yəqin etsin.

– Babamın qəbri üstünə gedirəm, – deyə Natalya hönkürüb ağlayacağından çəkinərək, başını qaldırmadan ağızucu cavab verdi.

Natalya artıq bilirdi ki, Qrişaka baba ölmüş və Koşevoy onların mülkünü yandırmışdır.

– Zəifsən, gedə bilməzsən.

– Hovur-hovur birtəhər gedərəm. Uşaqları yedirərsiniz, anacan, demək olmaz, birdən mən orada ləngiyərəm.

– Niyə ləngiyirsən? Allah eləməsin, saat xoş olmaz, orada birdən şeytanlara tuş olarsan! Gəl heç getmə, Natalyacan!

– Yox, gedəcəyəm, – deyə Natalya qaşqabağını salladı və qapının dəstəyindən yapışdı.

– Yaxşı, bir dayan görüm, sən ac-acına nə təhər gedəcəksən? Dayan, a başına dönüm, heç olmasa qoy yol üçün bir az qatıq qoyum.

– Yox, ay ana, İsa haqqı istəmirəm... Gələndən sonra yeyərəm. – İliniçna gəlinin getməyi qət etdiyini görüb, belə bir məsləhət verdi:

– Onda Donun kənarı ilə, dirriklərin arası ilə get. Səni heç görən də olmaz.

Don üzərinə pərdə kimi duman sərilmişdi. Günəş hələ çıxmamışdı, lakin şərq tərəfdə, qabağı qovaq ağacları ilə tutulmuş göyün kiçik bir hissəsi qızarmaqda idi, buludların altından artıq səhər çağının soyuq küləyi əsməkdə idi.

Natalya böyrü üstə yıxılmış, hər tərəfini sarmaşıq bürümüş çəpərdən aşıb, bağlarına girdi. Əllərini ürəyinin başına sıxaraq, təzə torpaq təpəciyi yanında dayandı.

Gicitkən və alaq bağın hər yanını basmışdı. Havada, şehdən islanmış ayıpəncəsi yarpağı, yaş torpaq və duman iyi vardı. Yan-

ğından qurumuş qoca alma ağacına kəkilini pırpızlaşdırmış tək bir sığırçın qonmuşdu. Qəbrin üstünə tökülmüş torpaq çökmüşdü. Qurumuş gil arasından təkdənbir baş qaldırmış otların yaşıl saplaqları görünməkdə idi.

Birdən-birə xəyalını bürüyən xatirələrdən sarsılmış Natalya kirimişcə dizi üstə çökdü, üzünü sərt, əzəldən ölüm qoxusu saçan torpağa söykədi.

Bir saatdan sonra o, gizlincə bağdan çıxdı, duyduğu ağrılardan ürəyi sıxıla-sıxıla gəncliyini keçirdiyi bu yerlərə – kimsəsiz qalmış həyətin hər tərəfinə, yanğından sonra mərəklərin kösövə dönmüş pərdilərinə, uçub üst-üstə tökülmüş soba və bünövrə xarabalarına bir də son dəfə baxdı və yol ilə sakitcə getməyə başladı.

* * *

Günlər keçdikcə Natalya yaxşılaşırdı. Ayaqları möhkəmlənir, çiyinləri yumrulaşır, bədəninə sağlam bir köklük gəlirdi. Bir az da keçdi, o xörək bişirməkdə qayınanasına kömək etməyə başladı. Sobanın yanında qurdalanaraq, onlar uzun-uzadı söhbət edirdilər.

Bir gün səhər Natalya ürəkdən hirslənərək dedi:

– Bəs bu işlər nə vaxt qurtaracaqdır? Dərddən ürəyimiz üzüldü!

– Görərsən, yaxınlarda bizimkilər Donun o tayından gələcəklər! – deyə İliniçna ona inamla cavab verdi.

– Bunu nədən bilirsən, ay ana?

– Ürəyimə damıb!

– Təki kazaklarımız sağ-salamat olsun. Allah eləməsin, birini vursunlar ya yaralasınlar. Qrişa bildiyin kimi, çox qoçaqdır, – deyə Natalya köksünü ötürdü.

– İnşallah ona heç nə olmaz, Allah rəhmli Allahdır. Çayı bu yana keçməyə, bizə baş çəkməyə bizim qoca söz vermişdi, gəlmədi, görünür, qorxubdur. Gəlsəydi, sən də xatadan uzaq olmaq üçün onunla çıxıb öz adamlarımızın yanına gedərdin. Bizim xutorlular, xutorun qənşərində müdafiədə durmuşlar. O günü sən, hələ huşun özündə olmayanda, naxoş yatanda, səhərçağı Dona getmişdim, qabı su ilə doldurmuşdum ki, birdən bir səs eşitdim, gördüm çayın o tayından Anikuşka səsləyir: "Salam, nənəcan! Qocadan salam!"

– Bəs Qrişa haradadır! – deyə Natalya ehtiyatla soruşdu.

– O, kazakların hamısına uzaqdan komanda edir, – deyə İliniçna sadəlövhcəsinə cavab verdi.

– Bəs haradan komanda edir?

– Deyəsən, Veşenskayadan. Daha ayrı haradan komanda edəsidir?

Natalya xeyli müddət susdu. İliniçna ona tərəf baxdı, qorxmuş halda soruşdu:

– Bu nədir belə? Niyə tutuldun?

Natalya cavab vermədən kirli ləçəyini üzünə sıxa-sıxa astadan hıçqırırdı.

– Hay-küy salma, Natalya! Ağlamaqdan bir şey çıxmaz. Allah qoysa, hamısını bir də sağ-salamat görərik. Sən çalış özünü qoru, boş yerə həyətə çıxma, yoxsa bu allahsızlar göz yetirər, görərlər...

Mətbəxdə hava bir az da qaranlıqlaşdı. Bayırda kimin isə gövdəsi pəncərənin qabağını tutdu. İliniçna pəncərəyə tərəf döndü və qışqırdı:

– Onlardır! Qırmızılardır! Natalyacan! Tez çarpayıya uzan, özünü yalandan naxoşluğa vur... Allah göstərməsin, bəlaya düşərsən... Al, bu şalı üstünə çək!

Natalya vahimədən titrəyə-titrəyə çarpayının üstünə yenicə uzanmışdı ki, qapının cəftəsi şıqqıldadı və başını əyərək, ucaboylu bir qızıl əsgər içəriyə girdi. Uşaqlar, üzünün rəngi qaçmış İliniçnanın ətəyindən yapışdılar. İliniçna isə sobanın yanında necə durmuşdusa, oradaca taxtın üstünə çökdü və bişmiş süd sərnicini yıxdı.

Qızıl əsgər cəld mətbəxi gözdən keçirərək ucadan dedi:

– Qorxmayın, adamyeyən deyilik. Salam!

Natalya yalandan zarıyaraq şalı üstünə çəkdi və başını örtdü, Mişatka isə gözlərini altdan-altdan qonağa zilləyərək diqqətlə baxandan sonra sevinclə dedi:

– Nənəcan! Bizim xoruzu kəsən bu idi! Yadındadırmı?

Qızıl əsgər xaki rəngli furajkasını çıxartdı, dilini marçıldadıb gülümsündü.

– Tanıyıbsan, ay bədzat! Sən bu xoruz haqqında nə çox danışırsan, yadından çıxarmırsan? Bunlar öz yerində, xalacan, belə bir iş var: sən bizim üçün çörək bişirə bilərsənmi? Bizim unumuz var.

– Olar... Eybi yoxdur... Bişirərəm... – deyə İliniçna qonağın üzünə baxmadan və dağılmış südü taxtın üstündən silə-silə tələsik cavab verdi.

Qızıl əsgər qapının yanında çömeldi, cibindən tənbəki kisəsini çıxartdı və papiros eşə-eşə söhbətə başladı:

– Axşama kimi bişirib verə bilərsənmi?

– Əgər tez lazımdırsa, axşamacan da bişirmək olar.

– Müharibə vaxtı həmişə tez lazımdır, nənəcan, xoruz məsələsindən isə inciməyin.

– Biz nə dedik ki, canım! – deyə İliniçna təşvişə düşdü. – Bu nadürüst uşaqlar həmişə lazım olmayan şeyi yadda saxlar!

Çox danışmağı sevən qonaq üzünü Mişatkaya tutub:

– Amma yamanca xəsis adamsan ha... Hə, adamın üzünə canavar balası kimi niyə baxırsan? Yaxın gəl, sənin xoruzun haqqında ağıllı-başlı danışaq.

– Yeri görək! – deyə İliniçna dizi ilə nəvəsini itələdi.

Lakin Mişatka nənəsinin ətəyini buraxıb aralandı və birdən mətbəxdən çıxıb qaçmaq üçün divarın dibi ilə böyrün-böyrün qapıya doğru irəlilədi. Qızıl əsgər uzun əlini uzadaraq onu tutub, özünə tərəf çəkdi və soruşdu:

– Mənə acığın tutub nədir?

– Yox, – deyə Mişatka yavaşcadan cavab verdi.

– Çox yaxşı. Xoruz da böyük bir şey deyil ki! Sənin atan haradadır? Donun o tayındadırmı?

– O tayındadır.

– Deməli bizimlə vuruşur?

Qızıl əsgərin mehriban rəftarından ürəklənmiş Mişatka həvəslə məlumat verdi.

– O bütün kazakların komandiridir!

– Ox, yamanca yalan danışırsan!

– İstəyirsən nənəmdən soruş!

Nənənin isə, nəvəsinin xəbərçiliyindən sarsıldığı üçün əllərini yanına çırpmaq, zarımaqdan başqa çarəsi qalmadı.

– Bütün kazaklara komanda edir? – deyə duruxmuş qızıl əsgər bir də soruşdu:

– Ola bilsin ki, hamısına yox... – Bu dəfə Mişatka nənəsinin şaşqın baxışlarından özünü itirərək inamsız halda cavab verdi.

Qızıl əsgər bir qədər susdu, sonra Natalyaya gözaltı baxaraq soruşdu:

– Bu gəlin naxoşdur nədir belə?

– Yatalaq azarından yatır! – deyə İliniçna könülsüz cavab verdi.

İki nəfər qızıl əsgər mətbəxə iki un kisəsi gətirdilər və qapının ağzına söykədilər.

Qızıl əsgərlərdən biri dedi:

– Dur ocağı qala, xala! Axşam çörək aparmağa gələcəyik.

– Yaxşı yoğur, çalış xəmiri yaxşı gəlsin, yoxsa sənin üçün yaxşı olmaz!

Təzə gələnlərin Mişatka ilə edilən qorxulu danışığın davam etdirilməsinə mane olmalarından olduqca sevinən İliniçna:

– Necə bacarıram, elə də bişirəcəyəm! – deyə cavab verdi. Mişatka mətbəxdən əkildi.

Bir nəfəri də başı ilə Natalyanı göstərərək soruşdu:

– Yatalaqdanmı yatır?

– Bəli.

Qızıl əsgərlər öz aralarında nə haqda isə danışdılar, sonra mətbəxdən çıxıb getdilər. Onların axırıncısı tini burulmamışdı ki, Donun o tayından tüfənglərdən çataçat güllələr açıldı. Qızıl əsgərlər bellərini əyə-əyə uçmuş daş hasara doğru qaçdılar, hasarın dalına yatdılar və tüfənglərinin çaxmağını birgə şaqqıldadaraq atışmağa başladılar.

Vahiməyə düşmüş İliniçna Mişatkanı axtarıb tapmaq üçün həyətə qaçdı. Hasarın dalından onu səslədilər:

– Ay arvad! Çıx get evə! Güllə dəyər!

– Bizim uşaq həyətdədir! Mişa! Haradasan, ay bala! – deyə gözləri yaşarmış qarı nəvəsini səslədi.

O, həyətin ortasına yüyürdü və o saat Donun o tərəfindən atılan güllələrin səsi kəsildi. Görünür, o tərəfdə olan kazaklar onu görmüşdülər. İliniçna yüyürüb yaxınına gəlmiş nəvəsinin əlindən tutaraq mətbəxə girən kimi, yenə atışma başlandı və ancaq qızıl əsgərlər Melexovların həyətindən çıxıb gedəndən sonra kəsildi.

İliniçna gəlini Natalya ilə astadan danışa-danışa xəmir yoğurdu, lakin o günü o, çörək bişirəsi olmadı.

Xutorda yerləşmiş pulemyot dəstələri, birdən-birə günorta üstü həyətlərdən tələsik çıxıb, pulemyotları darta-darta yarğanların arası ilə təpəyə doğru yönəldilər.

Təpənin üstündə səngərə girmiş bölük nizama düzüldü, tələsik böyük yola çıxdı.

Don ətrafına əzəmətli bir sükut sərildi. Top və pulemyotlar susdu. Yollarda, ot basmış yay cığırlarında xutorlardan böyük yola doğru saysız-hesabsız araba, top, piyada və atlı qoşunlar hərəkət edirdi.

İliniçna dəstələrdən dalda qalan qızıl əsgərlərin tabaşirli yoxuşlarla təpənin başına doğru dırmaşmalarına pəncərədən tamaşa edərək, önlüyü ilə əllərini sildi, kövrəlmiş halda xaç vurdu:

– Natalyacan, Allahın bizə rəhmi gəldi! Qırmızılar gedirlər!

– Yox, anacan, onlar xutordan çıxıb təpəyə – səngərlərə gedirlər, axşamüstü qayıdacaqlar.

– Bəs niyə belə tələsik gedirlər? Tələsməyə bizimkilər vadar edir! Məlunlar geri çəkilirlər! Allahsızlar qaçışırlar!.. – deyə İliniçna bərk sevindi və təzədən xəmir yoğurmağa başladı.

Natalya dəhlizdən çıxıb, kandarda durdu və əlini gözünün üstünə qoyaraq, gün düşən tabaşirli təpəyə və onun otu qurumuş ətəklərinə xeyli tamaşa etdi.

Təpənin o yanında göyün üzünü tufandan əvvəl duyulan əzəmətli sükut bürümüşdü, ağ bulud qalaqları mavi dərinliklərə dikələnirdi. Günorta günəşi torpağı təndir kimi qızdırmışdı. Örüşdə çöl siçanları civildəşir və onların bu sakit, bir növ kədərli çıxan civiltisi torağayların sevincək səslərilə əcaib bir ahəngdarlıq təşkil edirdi. Top güllələrinin uğultusundan sonra ortalığa çökmüş sükut Natalyanın ürəyini o qədər açmışdı ki, o, yerindən qımıldanmayaraq torağayların mahnılarını da, su quyusu çarxının cırıltısını da, bürkülü küləyin pıçıltısını da böyük həvəslə dinləyirdi.

Əsən bu çöl küləyi, bu qanadlı şərq küləyi acı və tünd idi. Onun nəfəsindən qızmış qaratorpaq bürküsü, günəşin istisindən boynu bükülmüş otların məstedici hənirtisi gəlir, lakin indicə yağış yağacağı duyulurdu: Dondan şirin su ətri gəlirdi, haça qanadlarının iti uclarını az qala yerə toxundurараq şütüyən qaranquşlar havanı yarayara süzür və mavi səma dərinliyində bir çöl qartalı qanad çala-çala yaxınlaşan tufandan aralanırdı.

Natalya həyəti gəzməyə başladı. Daş hasarın dalındakı ayaqlanmış otların üstü sarı tüfəng gilizləri ilə dolu idi. Evin pəncərə şüşələrində və ağardılmış divarlarında güllələr çoxlu deşik açmışdı.

Salamat qalmış toyuqlardan biri Natalyanı görən kimi, qaqqıldaya-qaqqıldaya anbarın damına uçdu.

Xutor üzərində duyulan bu xoş sükut çox çəkmədi. Külək qopdu, boş qalmış evlərin açıq qalmış pəncərə qapaqları və qapılar şaqqıldadı. Qar kimi ağ, dolulu bulud, amiranə bir şəkildə günəşin qabağını tutdu və qərbə doğru süzdü.

Natalya küləyin üzünə dağıtdığı saçlarını əli ilə tutaraq bayır mətbəxə yaxınlaşdı, oradan dönüb bir də təpəyə baxdı. Cüttəkər arabalar və tək-tək süvarilər atlarını səyirdərək gedir və arxalarınca toz qoparırdılar. "Deməli, düzdür, gedirlər!" deyə Natalya da arxayın oldu.

O, dəhlizə yenicə girmişdi ki, təpənin dalında, xeyli uzaqlarda top güllələri guruldadı və bunlarla səsləşirmiş kimi, Veşenskayanın hər iki kilsəsinin şadlıq zəngi Donun üzərində dalğalanmağa başladı.

Donun o tayında kazaklar meşənin içindən böyük izdihamla çıxdılar. Onlar qayıqları sürüyüb Dona tərəf gətirir, sonra da suya salırdılar. Avar çəkənlər qayığın burnunda ayaq üstə duraraq tələsik avar çəkirdilər. Otuza qədər qayıq bir-birilə ötüşərək xutora tez çatmağa çalışırdı.

– Natalyacan! Əziz bala! Bizimkilər gəlirlər!.. – deyə mətbəxdən bayıra yüyürmüş İliniçna hönkürə-hönkürə ağlayırdı.

Natalya Mişatkanın qolundan yapışıb, yuxarıya qaldırdı. Onun gözləri parıldayırdı, sevinə-sevinə bu sözləri deyəndə isə səsi lap kəsik-kəsik çıxdı:

– Bax, qadan alım, bax, sənin gözlərin itidir... Gör, bəlkə atan da kazakların içindədir... Tanıya bilmirsən? Qabaqca gələn qayıqdakı o deyilmi? Eh, sən heç bu tərəfə baxmırsan ki...

Körpüdə onların qabağına yalnız çox arıqlamış Panteley Prokofyeviç çıxdı. Qoca hər şeydən əvvəl öküzlərin, mülkün, taxılın salamatlığından əhval tutdu, nəvələrini qucaqlayanda ağladı. Yeyin-yeyin və axsaya-axsaya gedərək, doğma həyətə çatanda rəngi qaçdı, diz çökdü, ürəkdən xaç çevirdi və şərq tərəfə səcdəyə düşərək, ağarmış başını isti gündən qovurulmuş torpaqdan xeyli müddət qaldırmadı.

V

Don ordusunun altı at qoşulan topu, on səkkiz ağır pulemyotu olan üç min nəfərlik süvari qoşunu general Sekretovun komandası altında iyun ayının 10-da Ust-Belokalitvenskaya stanitsası yaxınlığında cəbhəni sarsıdıcı zərbə ilə yarıb, dəmiryol xətti boyunca Kazanskaya stanitsasına tərəf yollandı.

Üçüncü gün səhərçağı 9-cu Don polkunun zabit dəstəsi Don yaxınlığında üsyançıların səhra keşikçilərinə rast gəldi. Süvari dəstəsini görən kimi, kazaklar yarğanlara təpildilər, lakin dəstənin komandiri olan kazak yasavulu paltarlarından bunların üsyançı dəstəsi olduğunu başa düşdü, qılınca keçirdiyi cib yaylığını havada yelləyərək zil səslə qışqırdı:

– Özünüzünkülərdir!.. Qaçmayın, ay el uşağı!

Zabit dəstəsi qorxusuz atlarını yarğanın ətəyinə doğru səyirtdilər. Üsyançı keşikçilərin rəisi çalbaş qoca vaxmistr şehdən islanmış şinelinin yaxasını yeriyə-yeriyə düymələyərək gələnlərin qabağına çıxdı. Zabitlərin səkkizi də atdan düşdü və yasavul vaxmistrə yaxınlaşarkən ağappaq zabit kokardlı xaki rəngli furajkasını başından götürüb, gülümsünə-gülümsünə dedi:

– Salam, ay el uşağı! Nə olar, gəlin köhnə kazak qaydası ilə öpüşək! – Bunu deyib, vaxmistrin o üzündən-bu üzündən öpdü, dodaqlarını və bığlarını yaylığı ilə sildi və yoldaşlarının intizarlı nəzərlərinin ona dikildiyini duyaraq mənalı bir rişxəndlə sözləri kəlmə-kəlmə deyərək soruşdu:

– Hə, necədir, ağlınız başınıza gəldimi? Gördünüz ki, özümüzünkülər bolşeviklərdən yaxşıdır?

– Düzdür, cənab zabit! Günaha batmışdıq... Üç aydır vuruşuruq, sizin gəlib çıxacağınıza ümid eləmirdik.

– Bu, yaxşıdır, gec də olsa ağlınızı başınıza toplamısınız. İndi olan olub, keçən keçmişdir, kim köhnə ədavəti ürəyində saxlasa, onun gözü çıxsın. Hansı stanitsadansınız?

– Kazanskayadanıq, cənab zabit!

– Sizin hissə Donun o tayındadırmı?

– Bəli, o taydadır.

– Qırmızılar Dondan hansı səmtə yönəldilər?

– Çay boyunca yuxarıya; güman ki, Donetsk kəndinə gedirlər.

– Sizin süvari hissəniz hələ çayı keçməmişdir?

– Yox, keçməmişdir.

– Niyə?

– Bilmirəm, cənab zabit. Hamıdan əvvəl bu tərəfə bizi keçirdilər.

– Onların burada topu var idimi?

– İki batareyası var idi.

– Onlar nə vaxt yerlərindən tərpəndilər?

– Dünən gecə.

– Təqib etmək lazım idi! Fərasətsizlər, – deyə yasavul kazaklara söz atdı və atına yaxınlaşaraq, çöl çantasından bloknot və xəritə çıxardı.

Vaxmistr dimdik, əllərini yanına salıb dayanmışdı. İki addım ondan dalda kazaklar toplaşmışdılar; onlar həm şadlıq, həm də anlaşılmaz təşviş qarışıq bir hiss ilə zabitlərə, cins, lakin çox sürülməkdən arıqlamış atların yəhərlərinə baxırdılar.

Səliqə ilə tikilmiş poqonlu ingilis frençi və enli şalvar geymiş zabitlər, atların yanında gəzişir və oğrun-oğrun kazakların üzünə baxırdılar. İndi bunların heç birinin çiynində 1918-ci ilin payızında olan karandaşla çəkilmiş, əldəqayırma poqon yox idi. Ayaqqabıları da, yəhərlər də, güllə çantaları da, durbinlər də, yəhərlərə bağlanmış tüfənglər də təzə idi, Rusiyada qayrılmış şeylər deyildi. Yalnız bircə zabit – görkəmindən hamıdan yaşlı olan bir zabit, zərif sürməyi mahuddan çərkəzi paltar geymiş, başına xurmayı Buxara dərisindən Kuban kazak papağı qoymuş və dağlılar kimi, dabansız çəkmə geymişdi. Hamıdan əvvəl o, asta addımlarla kazaklara yaxın gəldi, heybəsindən zərli-bəzəkli və üstündə Belçika kralı Albertin şəkli olan bir qutu papiros çıxararaq kazaklara təklif etdi:

– Çəkin, qardaşlar!

Kazaklar acgözlüklə papirosa əl uzatdılar. O biri zabitlər də yaxına gəldilər.

– Deyin görək, bolşeviklərin hakimiyyəti altında gününüz necə keçirdi? – deyə iribaş və enlikürək bir zabit soruşdu.

Uzun və köhnə arxalıq geymiş bir kazak papirosu acgözlüklə qullablayaraq və gözlərini zabitin yoğun baldırlarını kip tutmuş, diz qapağına qədər bağlanmış qəşəng getrdən çəkməyərək ehtiyatla cavab verdi:

– O qədər də şirin keçməyib...

Kazakın çarığı ayağından çıxırdı. Onun dönə-dönə gözənmiş və şalvarının balağının içinə qoyduğu ağ yun corabları cırıq-cırıq olmuşdu; məhz buna görə də kazak, altı qalın və mis pistonları par-par parıldayan ingilis çəkmələrinə heyran-heyran baxırdı. O özünü saxlaya bilmədi və sadəlövhcəsinə heyrətini bildirdi:

– Amma ayaqqabınız yaxşıca şeydir ha!

Lakin zabit belə mülayim danışıqları sevən deyildi. Acı və tənəli bir tərzdə dedi:

– İndi ki, xarici təchizatdan Moskva çarığını üstün tutmaq sizə daha xoşdur, onda özgə malına həsəd etmək də lazım deyil!

– Bir səhvdir olub. Təqsirkarıq... – deyə kazak öz yoldaşlarının üzünə baxıb, onlardan kömək umarcasına cavab verdi.

Zabit tənəli sorğu-sualını davam etdirdi:

– Sizin də ağlınız öküzünkü kimi imiş. Axı öküz də elədir. Əvvəl addımını atar, sonra da fikirləşməyə başlar. Bir səhvdir olub! Bəs payızda, cəbhə açanda nə xəyala düşmüşdünüz! Komissar olmaqmı istəyirdiniz! Bunlara bax! Vətən müdafiəçilərinə bax!..

Cavan bir bölük komandiri özündən çıxmış zabitin qulağına yavaşca pıçıldadı: "A kişi, bəsdir, əl çəksənə!" Bundan sonra zabit papirosunun kötüyünü yerə atıb tapdadı, tüpürdü, yanlarını basa-basa atlara tərəf getdi.

Yasavul ona bir yazılı kağız verdi, astadan nə isə dedi.

Ağır görünən zabit gözlənilməz bir cəldliklə atın belinə sıçradı, sərt hərəkətlə atın başını çevirdi və qərbə tərəf səyirtdi.

Kazaklar dilxor-dilxor susmuşdular. Onlara yaxınlaşan yasavul, səsini qəsdən yavaşcadan və nəşə ilə çıxardaraq soruşdu:

– Buradan Varvarinsk xutoruna neçə verst olar?

– Otuz beş, – deyə bir neçə kazak birdən cavab verdi.

– Yaxşı. Belədir, el uşağı, gedin və rəislərinizə xəbər çatdırın ki, süvari hissələri, bir dəqiqə belə yubanmadan çayın bu tayına keçirsinlər. Bizim bir nəfər zabitimiz də sizinlə bərabər keçidə qədər gedəcək və süvariləri buraya gətirəcək. Piyadalar isə qoy səfəri yürüşlə Kazanskayaya tərəf yerisin. Anlaşıldımı? Hə, necə deyərlər, sol yana marş, Allah amanında, marş!

Kazaklar dəstə ilə təpənin ətəyinə doğru getdilər. Yüz sajın qədər getdilər, onlar sözləşmiş kimi susmuşdular, sonra birisi, bədhövsələ zabitin bərk sıxma-boğmaya saldığı uzun arxalıq geymiş

çirkin, balaca kazak, başını yırğaladı və qəmli-qəmli köksünü ötürərək dedi:

– Budur, qardaşlar, birləşdik...

Bir başqası həvəslə onun sözünü tamamladı:

– Düz deyiblər ki, qatıqotu turpdan şirin olmaz! – Sözünü qurtarıb, biabırçı bir söyüş söydü.

VI

Qızıl Ordu hissələrinin tələsik geri çəkilməsi xəbəri Veşenskayaya yayılan kimi, Qriqori Melexov dərhal iki süvari polku ilə Donu üzə-üzə bu taya keçərək, irəli güclü kəşfiyyat dəstəsi göndərdi və cənuba tərəf hərəkət etdi.

Donun üstündəki təpənin ardında döyüş gedirdi. Top güllələrinin yerin altından çıxırmış kimi boğuq səsi gəlirdi.

Komandirlərdən biri atını Qriqorinin yanına sürərək heyrətlə dedi:

– Deyəsən kadetlərin gülləyə heyifi gəlmir! Atəşin arasını kəsmirlər!

Qriqori dinmirdi. O, dəstənin önündə gedir, ətrafı diqqətlə gözdən keçirirdi. Donla Bazkovsk xutoru arasındakı üç verstə qədər bir məsafədə üsyançılar tərəfindən tərk edilmiş minlərlə araba qalmışdı. Dona doğru geri çəkilən zaman mallarından beş əlli yapışmış adamların atıb getdikləri hər cür şeylər: qırıq sandıqlar, stullar, paltar, qoşqu şeyləri, qab-qacaq, tikiş maşını, taxıl kisələri meşənin içi dolu idi. Yol uzunu sapsarı buğda dizə çıxırdı. Ölmüş öküzlərin və atların şişmiş və üfunət yayan cəmdəkləri də oraya-buraya sərilmişdi.

Gördüyü bu mənzərədən sarsılmış Qriqori:

– Malı-dövləti pis qorumayıblar! – deyib furajkasını çıxartdı və nəfəsini almamağa çalışaraq, atını başında kazak furajkası olan, uzun arxalığı qana bulaşmış bir qoca kazakın üzüqoylu sərilmiş meyitinin və yerə tökülmüş taxıl yığınının yanından sürərək keçdi.

Kazaklardan kim isə yana-yana dedi:

– Baba malına yaxşı keşik çəkir! Axı onun burada nə işi var ki, belə də olub?!

– Neyləsin, yəqin buğdanı qoyub getməyə heyifi gəlmişdir...

– Durmayın, atları sürün gedək! Allah sən saxla, gör nə pis iy verir. Tərpənin görək!.. – deyə daldakı cərgələrdən qışqırdılar.

Bölük atlarını yortdurmağa başladı. Danışıq kəsildi. İndi yalnız çoxlu at ayağının tappıltısı, bir də qayışı bərk çəkilmiş kazak yəhərlərinin cırıltısı ahəngdar bir şəkildə meşəyə səs salırdı.

...Döyüş Listnitskilərin malikanəsi yaxınlığında gedirdi. Dərənin güneyində, Yaqodnıdan kənarda, qızıl əsgərlər topa-topa qaçışırdılar. Onların başı üzərində şrapnellər partlayır, arxalarınca pulemyotlar güllə yağdırır, təpənin döşü ilə də kalmık polku sel kimi axıb, onların yolunu kəsirdi.

Qriqori öz polkları ilə gəlib çatanda artıq döyüş qurtarmışdı. 14-cü Mironov diviziyasının bir-birindən ayrı düşmüş hissələrinin və karvanının geri çəkilməsini təmin etmək üçün Veşenskaya aşırımında qoyulmuş iki qızıl əsgər bölüyü 3-cü kalmık polku tərəfindən darmadağın edilərək, tamamilə məhv olmuşdu. Hələ təpənin üstündə ikən Qriqori komandanlığı Yermakova verərək dedi:

– Burada bizsiz də işləri keçmişdir. Qoşunu onlarla birləşdir, mən də bir dəqiqəliyə malikanəyə dəyim.

– Nə vacib olub? – deyə Yermakov təəccübləndi.

– Necə deyim, mən burada cavan vaxtı nökərçilik eləmişəm, ona görə də, nə isə məni burada köhnə yerlərə baxmağa vadar edir...

Qriqori Proxoru səsləyib, atının başını Yaqodnıya tərəf çevirdi və yarım verst qədər gedəndən sonra ən qabaqdakı bölüyün başı üzərində birdən-birə, kazaklardan biri tərəfindən ehtiyatkarlıqla ələ keçirilmiş bir ağ bez parçasının yüksəldiyini və havada yelləndiyini gördü.

Qriqori atlı dəstəsinin güney dərəyə yavaş-yavaş könülsüzcəsinə endiyinə, general Sekretov qoşunundan olan bir dəstə atlının isə göylüklərin içi ilə düz onun üstünə çapdığına baxaraq, təşviş və kədər hissi ilə düşündü: "Elə bil əsir düşürlər!"

Qriqori atını sürüb malikanənin qarayazı otu basmış həyətinə girdikdə onu elə bil qüssə və xarabalıq iyi vurdu. Yaqodnı tanınmaz bir hala düşmüşdü. Xarabalıq və yiyəsizliyin hər tərəfdə müdhiş izləri görünürdü. Vaxtilə bərli-bəzəkli bu ev sönükləşmiş və elə bil aşağı çökmüşdü. Neçə illərdən bəri rənglənməyən damın dəmirləri paslanmışdı, su borularının qırıqları artırmanın yanına atılmışdı, cəftəsi qopmuş pəncərə qapaqları böyrü üstə sallanmışdı, şüşələri

qırılmış pəncərələrdən külək vıyıltı ilə evə soxulur və içəridən adamı acı, xaraba evlərə məxsus kif iyi vururdu.

Evin şərq küncünü və artırmasını üçdüymə top gülləsi uçurmuşdu. Top gülləsinin böyrü üstə yıxdığı dirəyin başı dəhlizin darmadağın olmuş Venetsiya pəncərəsindən içəri soxulmuşdu. Dirək başını bünövrədən tökülmüş kərpic yığınına dürtərək, eləcə də qalmışdı. Boyu sürətlə artan sarmaşıq isə, saçaqlı tellərini ağacın solmuş budaqları üzərinə uzadıb getmiş, pəncərənin sağ qalmış şüşələrini qəşəng bir hörmə kimi sarmış, zehə doğru meyillənmişdi.

Zaman və pis havalar öz işini görmüşdü. Həyətdəki tikintilər o qədər köhnəlmişdi ki, elə bil insanın qayğıkeş əlləri illərdən bəri onlara toxunmamışdı. Yaz yağışları tövlənin daş divarını uçurub tökmüşdü. Fayton saxlanan yerin damını tufan söküb dağıtmış, damın qıraqlarında yarıya qədər çürümüş küləş çöpləri qalmışdı.

İnsanlara məxsus evin artırmasında vəhşiləşmiş üç tazı uzanmışdı. Onlar adam görən kimi yerlərindən sıçrayıb zingildəyə-zingildəyə dəhlizə təpildilər. Qriqori atını kiçik mülkün açıq pəncərəsinə tərəf sürdü, yəhərdən bir az aşağıya əyilərək ucadan soruşdu:

– Burada adam varmı?

Xırda mülkdən bir qədər səs çıxmadı, sonra cırıltılı bir qadın səsi cavab verdi:

– İsa eşqinə, bir az dayanın! Bu saat gəlirəm.

Xeyli qocalmış Lukerya, yalın ayaqlarını şappıldada-şappıldada artırmaya çıxdı; günəşdən qamaşan gözlərilə xeyli müddət Qriqoriyə baxdı.

Qriqori atdan düşərək soruşdu:

– Tanıya bilmirsən, Lukerya xala?

Yalnız bu sualdan sonra Lukeryanın çil üzündə nə isə bir şey tərpəndi və küt baxışları güclü həyəcanlar əvəz etdi. O ağladı və uzun müddət bir kəlmə də olsun danışa bilmədi.

Qriqori atını bağladı, səbirlə onu gözlədi.

– Heç bilmirsən başıma nələr gəlmişdir. Allah heç kəsin başına gətirməsin, – deyə Lukerya kirli kətan önlüyü ilə yanaqlarını silə-silə dərdini danışmağa başladı. – Elə bildim, onlar yenə də gəlmişlər... Ox, Qrişacan, heç bilirsən burada nələr olub... Deməyə adamın dili gəlmir!.. Mən burada tək qalmışam...

– Bəs Saşka baba hanı? Panlarla getdi?

– Kaş gedəydi, indi sağ-salamat olardı...

– Doğrudanmı o da ölmüşdür?

– Onu öldürdülər... Üç gündür meyiti anbarda qalmışdır... Qəbir qazmaq lazımdır, mən də ki, naxoşam... Güclə ayağa durmuşam... Bir də mən oraya onun, ölünün yanına getməkdən yaman qorxuram...

Qriqori başını qaldırmadan yavaşca soruşdu:

– Bəs nəyin üstündə öldürdülər?

– Madyanın üstündə... Bizim panlar tələsik geri çəkildilər. Yalnız pulu götürüb, qalan mülkü bütünlüklə, demək olar ki, mənə tapşırdılar. – Lukerya indi yavaş danışmağa başladı. – Hər şeyi ipdəniynəyə kimi yaxşıca saxlamışam! Yerə basdırılan şeylər indi də oradadır. Atlardan yalnız üç Orlov ayğırını apardılar, qalanını Saşka babaya tapşırdılar. Üsyan başlanan kimi bu atları bir tərəfdən kazaklar apardı, o biri tərəfdən də qırmızılar; Fırtına adlı qara ayğırı – bəlkə yadına gələ – yazbaşı qırmızılar apardı. Güclə yəhərlədilər. Onun beli ömründə yəhər görməmişdi. Lakin qırmızılar onu minib kef çəkə bilmədilər. Bunu bir həftə sonra buraya gələn Karginsk kazakları nağıl elədilər. Deməli, kazaklar təpədə qırmızılara rast gəlirlər, bir-birinə güllə yağdırırlar. Kazakların bir axmaq madyanı bu zaman necə olursa kişnəyir. Fırtına qırmızı əsgəri götürüb, birbaş kazakların arasına qaçırmasınmı! Atı minmiş həmin bu süvari nə qədər əl-ayaq çalırsa, onun başını saxlaya bilmir. Atlı görür ki, ayğırın öhdəsindən gələ bilməyəcək, buna görə də at gedə-gedə tullanmaq istəyir. Sıçramağına sıçrayır, amma ayağını üzəngidən çıxarda bilmir. Fırtına onu düz gətirib kazakların əlinə verir.

– Qiyamət işdir! – deyə təəccüblənmiş Proxor heyrətlə səsləndi.

– İndi bu ayğırı Karginsk zabiti minir, – deyə Lukerya aramla sözünə davam etdi. – Pan qayıdan kimi, ayğırı gətirib tövlədə təhvil verəcəyinə söz vermişdir. Atların hamısını apardılar, bircə Primerlə Sujenadan törəyən yorğa Strelka qalmışdı. At boğaz idi, buna görə də ona heç kəs dəymirdi. Bu yaxınlarda doğdu, Saşka baba da onun qulununu o qədər istəyir, o qədər istəyirdi ki, daha deməklə qurtarmaz! Onu hey qucağında gəzdirir, əmziklə süd verir, bir cür ot suyu içirdirdi ki, ayaqları möhkəm olsun. Bundan sonra bədbəxtlik üz verdi. Üç gün bundan qabaq axşamüstü buraya üç atlı gəldi. Baba bağda ot çalırdı. Onlar qocanı səsləmişlər: "Buraya gəl, ay filan-filan

şüdə!" O da dəryazı tullayıb onlara yaxınlaşdı, salam verdi, onlar isə süd içirdilər, onun üzünə baxmadan soruşdular: "At varmı?" Baba dedi: "Biri var, amma sizin hərbi iş üçün yarayan deyil. Madyandır, özü də qulunu var". Onlardan ən qəddarı olan birisi qışqırdı: "Bu sən qanan şey deyil! Atı buraya gətir, qoca axmaq! Mənim atımın beli yağır olmuşdur, mən onu hökmən dəyişməliyəm!" Belə yerdə o gərək tabe olub, madyanı verəydi, amma o, özün də bələd olmuş olarsan, tərs xasiyyətli qoca idi... Panın özünə də yeri düşəndə cavab qaytarırdı. Yəqin yadındadır?

– Bəs nə oldu, deməli, atı vermədi? – deyə Proxor da söhbətə qarışdı.

– Belə vəziyyətdə verməməkmi olardı? O, onlara elə bunu dedi: "Sizə qədər, deməli, buraya nə qədər atlı gəldisə, bütün atları apardı, amma buna rəhm etdi, lakin siz..." Söz bura çatanda onlar özlərindən çıxdılar: "Ay ağa nökəri, deməli, sən bu atı ağan üçün saxlayırsan?!" Bunu dedikdən sonra onu möhkəm döydülər... Birisi madyanı bayıra çıxardıb belinə yəhər qoymağa başladı, qulun da atın altına dürtülərək əmmək istəyirdi. Baba yalvarmağa başladı: "Aparmayın, – dedi, – yazığınız gəlsin! Bəs bu quluncuğazı mən nə edəcəyəm?" Onlardan biri: "Bax, belə elə!" deyib qulunu anasının yanından qovdu, tüfəngini çiynindən çıxararaq quluna bir güllə vurdu. Mən də ağlamağa başladım. Yüyürüb onlara yaxınlaşdım, yalvardım, babanı ətəklədim, onu xatadan uzaqlaşdırmaq istədim. O isə quluna baxan kimi saqqalı əsdi, rəngi ağardı və dedi: "İndi ki, elədir, it oğlu, bir güllə də mənə vur!" Onlara tərəf cumdu, dartışdı, atı yəhərləməyə qoymadı. Onlar da bərk hirsləndilər və qocanı deşik-deşik etdilər. Onlar qocaya güllə atanda ağlım başımdan çıxdı... İndi də özümə gəlməmişəm və onu nə edəcəyimi bilmirəm. Ona qəbir qazmaq və dəfn etmək lazımdır, ancaq bu arvad işidir?

– Get iki bel və külüng gətir, – deyə Qriqori xahiş etdi.

– Onu dəfn etmək istəyirsən? – deyə Proxor soruşdu.

– Bəli.

– Qriqori Panteleviç, belə şeylərə qəribə həvəsin var! Qoy gedim bu saat kazakları çağırım. Onlar ölü üçün tabut da hazırlar, münasib qəbir də qazarlar...

Görünür, Proxor tanımadığı bir qocanın dəfn işi ilə özünü zəhmətə salmaq istəmirdi, lakin Qriqori onun təklifini qəti rədd etdi.

– Özümüz qəbir də qazarıq, dəfn də edərik. Bu qoca çox yaxşı adam idi. Sən bağa get, məni gölün yanında gözlə, mən də gedim, ölüyə baxım.

Gölün qırağındakı həmin o qollu-budaqlı qocaman qovaq ağacının dibində, bir zaman Qriqori ilə Aksinyanın körpə qızını basdırmış Saşka baba, indi həmin yerdəcə özünə son sığınacaq tapdı. Onun təmiz, xəmir iyi gələn təknəyə qoyulmuş quru bədənini quyladılar, üstünü torpaqladılar. Əvvəlki balaca qəbrin yanında torpağı səliqə ilə tapdalanmış yeni bir qədir də dikəldi.

Xatirələrdən kədərlənmiş Qriqori, qəlbi üçün əziz olan bu kiçicik qəbiristanlıqdan bir qədər kənarda otun üzərinə uzandı və uzun müddət başı üzərində hər tərəfi əzəmətlə tutmuş mavi səmaya baxdı. Yuxarıda, harada isə sonsuz dərinliklər və enginliklər içərisində külək süzür, günəş işığından parıldaşan soyuq buludlar şütüyürdü. Kefcil mehtər və sərxoş Saşka babanı indicə bağrına basmış torpağın üzərində isə həmişəki kimi həyat yenə də qaynamaqda idi: yaşıl yaylımları ilə bağlara qədər uzanıb gəlmiş çöldə, köhnə xırmanın çəpəri yaxınlığındakı çöl çətənəsi kollarında bildirçinlərin arasıkəsilməyən şaqqıltısı ucalır, sünbülqıranlar fit çalır, arılar dızıldaşır, küləyin oxşadığı otlar xışıldayır, axan dumanlar içərisində torağaylar ötüşür və insanın təbiət aləmindəki qüdrətini təsdiq edirmiş kimi haradasa, çox uzaqlarda, quzeydə pulemyot inadlı, acıqlı və boğuq səslə şaqqıldayırdı.

VII

Veşenskayaya qərargah zabitləri və bir bölük şəxsi mühafizə kazakı ilə gəlmiş general Sekretovu duz-çörəklə, kilsə zənglərilə qarşıladılar. Pasxa bayramı kimi hər iki kilsədə səhərdən axşama qədər zənglər çalınırdı. Aşağı mahalların kazakları, çox yol getməkdən taqəti kəsilmiş Don atlarını küçələrdə səyirdirdilər. Onların çiyinlərindəki göy poqonlar nəzəri cəlb edirdi. General Sekretova mənzil edilmiş bir tacir evinin yanına – meydançaya çoxlu yavər toplaşmışdı. Onlar günəbaxan tumu çırtlayaraq, gəlib yanlarından keçən bəzənmiş stanitsa qızları ilə söhbət edirdilər.

Günorta üstü üç atlı kalmık, generalın mənzilinə on beş nəfər əsir qızıl əsgər gətirdi. İçərisinə nəfəslə çalınan musiqi alətləri yığılmış bir iki atlı araba da arxalarınca gəlirdi. Qızıl əsgərlər qəribə paltarda idilər, hamısının əynində boz mahud şalvar və qollarının köbəsi qırmızı qaytanlı gödəkçə var idi. Yaşlı bir kalmık təntənəli şəkildə qapının ağzına düzülmüş yavərlərə yaxınlaşıb, atdan düşdü və saxsıdan qayrılmış qəlyanını cibinə qoydu.

– Bizimkilər qırmızıların musiqi çalanlarını gətirmişdir. Başa düşürsənmi?

– Burada başa düşülməsi çətin olan nə var ki? – deyə iri sifətli bir yavər tum qabıqlarını ağzından kalmıkın toza bulanmış çəkmələrinin üstünə tüpürə-tüpürə həvəssiz cavab verdi.

– Hər nə, əsirləri təhvil al. Çox yeməkdən üzünü piy basmışdır, ağlına gələni sarsaqlayırsan!

– Ey, ey! Sən artıq-əskik danışma, qoyun quyruğu! – deyə yavər hirsləndi. Lakin əsir gətirildiyi barədə məlumat verməyə getdi.

Qapıdan bayıra qəhvəyi arxalığının beli bərk çəkilmiş yoğun bir yasavul çıxdı. O, yoğun ayaqlarını bir-birindən xeyli aralı qoyaraq, təşəxxüslə əllərini belinə vurub araya toplaşmış qızıl əsgərləri nəzərdən keçirdikdən sonra, yoğun səslə sözə başladı:

– Tambov tülüngüləri, komissarlara musiqi ilə həzz verirdiniz? Bu boz mundirləri sizə kim verib? Almanlarınmı əynindən çıxarmısınız?

Hamıdan qabaqda dayanmış qızıl əsgər gözünü tez-tez qırparaq cavab verdi:

– Yox, elə deyil. – Sonra da yeyin-yeyin danışaraq, məlumat verdi: – Bu formanı Kerenski vaxtında tikmişlər, iyun hücumu ərəfəsində... O zamandan geyirik...

– Mən sənə geyməyi göstərərəm! Göstərərəm! Sizə paltar geyməyi göstərərik! – Yasavul aşağı yatırdılmış Kuban papağını peysərinə itələdi: onun qırxılmış başında moruq rəngində yara yerinin bitişməmiş çapığı görsəndi; sonra yasavul dabanı çox dik olan çəkməsi üstündə fırlanaraq, sərt bir şəkildə çevrilib kalmıka dedi: – Bunların nəyini qovub gətirmisən, ay xaç suyuna çəkilməmiş kafir? Nəyə gərəkdir axı? Yolda hamısını xəkrizləyə bilməzdin?

Kalmık birdən sezilmədən özünü yığışdırdı, əyri ayaqlarını cəld cütlədi və sağ əlini furajkasının günlüyündən ayırmadan cavab verdi:

– Bölük komandiri əmr etdi ki, buraya qovub gətirmək lazımdır.

– "Buraya qovub gətirmək lazımdır!" – deyə təşəxxüslü yasavul kalmıkın ağzını əydi, rişxəndlə zərif dodaqlarını büzüb, baldırları şiş ayaqlarını ağır-ağır ataraq qalın sağrısı tərpənə-tərpənə qızıl əsgərlərin dövrəsinə dolandı, qızıl əsgərlərə çarvadar ata baxan kimi, xeyli və diqqətlə baxdı.

Yavərlər astadan gülüşdülər. Kalmık atlılarının üzü həmişəki kimi ehtirassız idi.

– Qapıları açın! Hamısını həyətə doldurun! – deyə yasavul əmr etdi.

Qızıl əsgərlər, qatma-qarışıq musiqi alətləri doldurulmuş araba ilə bərabər artırmanın qabağında dayandılar.

– Kapelmeysteriniz kimdir? – deyə papirosunu yandıran yasavul soruşdu.

– O yoxdur, – deyə bir neçə adam birdən cavab verdi.

– Bəs haradadır? Qaçmışdır?

– Yox, öldürmüşlər.

– Yaxşı ediblər ki, öldürüblər! Onsuz da keçinərsiniz. Hə, hər kəs öz alətini götürsün!

Qızıl əsgərlər arabaya yaxınlaşdılar. Həyətdə adamların qulağını dəng edən zəng zınqıltılarına qarışa-qarışa alətləri kökləməyə başladılar...

– Hazırlaşın! Bir "İlahi, çarı hifz et!" havasını çalın.

Musiqiçilər dinməzcə bir-birinin üzünə baxdılar. Heç kəs çalmağa başlamırdı. Bir dəqiqə qədər üzüntülü sükut oldu, sonra qızıl əsgərlərdən bir nəfəri, ayağı yalın, lakin baldırına səliqə ilə dolaq sarımış bir qızıl əsgər yerə baxa-baxa dedi:

– Bizdən heç kəs bu köhnə himni bilmir...

– Heç kəs bilmir? Çox maraqlıdır... Ey, bura baxın! Yarım vzvod silahlı yavər çağırın!

Yasavul çəkməsinin burnunu yavaşca yerə döyürdü. Dalanda tüfənglərini şıqqıldadaraq, yavərlər nizama düzülürdülər. Hasarın o tayında sıx akasiya ağaclarının başlarında sərçələr civildəşirdi. Həyətdə isə, günəşin istisindən bərk qızmış dəmir damların bürküsü və adamlardan qalxan tünd tər iyi gəlirdi. Yasavul günün altından kölgəyə çəkildi və bu zaman ayaqyalın musiqiçi qəmli-qəmli yoldaşlarına baxaraq, sakit bir səslə dedi:

– Zabit cənabları! Bizim hamımız cavan musiqiçilərik. Ömrümüzdə köhnə havalar çalmamışıq... Həmişə inqilabi marşlar çalmışıq... Cənab zabit!

Yasavul danışmırdı, kəmərinin bəzəkli ucunu dalğın-dalğın oynadırdı.

Çaparlar artırmanın yaxınlığında sıraya düzüldülər, əmri gözləyirdilər. Qızıl əsgərlərin dal cərgələrindən bir nəfəri, bir qədər yaşlı və bir gözü titəli bir musiqiçi qızıl əsgərləri itələyə-itələyə cəld irəli çıxdı; içini arıtlayaraq soruşdu:

– İcazə verirsinizmi? Mən çala bilərəm. – Razılıq cavabı gözləmədən günün istisindən qızmış faqotu titrək dodaqlarına yapışdırdı.

Böyük tacir imarəti üzərində tək səslənən bu kədərli ahəng, yasavulu qəzəbləndirdi, o üzünü turşutdu, əlini silkələyərək qışqırdı:

– Bəsdir! Elə bil dilənçinin tutub... çəkirsən! Bu da musiqidir?

Pəncərələrdən qərargah zabitləri və adyutantların başları bayıra çıxdı, gülümsünən çöhrələri görsəndi.

Belinə qədər pəncərədən sallanmış cavan bir bölük komandiri gənclərə məxsus tərzdə qışqırdı:

– Siz onlara matəm marşı çaldırın!

Adamları təngə gətirən zəng səsləri bir dəqiqəliyə susdu və yasavul qaşlarını oynada-oynada hiylə ilə soruşdu.

– "İnternasional"ı, zənnimcə çala bilərsiniz? Çalın görüm! Qorxmayın! Madam ki, əmr edirəm çalın.

Əmələ gəlmiş sükut içərisində, günortanın bürküsündə vuruşmaya çağırırmış kimi "İnternasional"ın müntəzəm və əzəmətli ahəngini, trubalar birdən-birə qəzəbli cingiltilərlə ətrafa yaydı.

Yasavul başını əymiş və ayaqlarını gen qoyub dayanmışdı; onun duruşu maneə qarşısında dayanmış öküzü xatırladırdı. Dayanıb dinləyirdi. Əzələli peysəri və qıyılmış gözlərinin göyümsov ağları qıpqırmızı idi.

Özünü saxlaya bilməyərək dəli kimi bağırdı:

– Da-yan-dı-rın!..

Orkestr o dəqiqə susdu, yalnız valtorn çalan gecikdi və bürkülü havada onun hələ bitməmiş ehtiraslı çağırışı xeyli dalğalandı.

Musiqiçilər qurumuş dodaqlarını dillərilə yaşladılar və sonra qolları, çirkli ovucları ilə sildilər. Onların çöhrələri yorğun və laqeyd idi. Yalnız bir nəfərinin gözündən süzülən xəyanətkar yaş, tozlu yanağı aşağı axaraq, arxasınca nəm bir iz buraxdı...

Hələ Rus-Yapon müharibəsi vaxtı orduda qulluq yoldaşı olan tanışının qohumlarıgildə nahar etmiş general Sekretov bu zaman sərxoş, adyutantının köməyi ilə meydana çıxdı. İsti və araq onu məst etmişdi. Gimnaziyanın kərpic binası qarşısındakı tində, sərxoş generalın ayağı daşa ilişdi, üzüqoylu qızmış qumun üstünə yıxıldı. Özünü itirmiş adyutant hədər yerə onu yerdən qaldırmağa çalışırdı. Bu zaman yaxınlığa toplaşmış camaat içərisindən adamlar ona köməyə yüyürdülər. İki nəfər qoca kazak böyük ehtiramla generalı ayağa qaldırdı, generalı buradaca, camaatın gözü qabağında öyümə tutdu. Qusmaq ara verdikdə isə, mübariz bir şəkildə yumruqlarını oynada-oynada nə isə demək istədi. Onu güc-bəla sakitləşdirib, mənzilə apardılar.

Bir qədər kənarda dayanmış kazaklar onun dalınca baxıb, astadan bir-birilə danışırdılar:

– Eh, biçarəni içki yamanca hala salmışdır! Özünü saxlaya bilmir, boş yerə general deyil ki.

– Üzüqara araq mənsəbə, ordenə baxmır.

– Süfrəyə qoyulmuş içkinin hamısını içmək lazım deyildi...

– Eh, ay quda, belə məqamda hər adam özünü saxlaya bilməz! Bəzi adam sərxoş olub özünü rüsvay edir və and içir ki, bir də içməyəcəkdir... Axı içmək dediyin belə şeydir ki, biri həvəsdir, ikisi dəm gətirir, çıxdı beşə, vur on beşə...

– Odur ha! Uşaqlara da bir hay gərək imiş. Dalınca gedirlər, həyasız balaları gözlərini bərəldib baxırlar, elə bil ki, ömürlərində kefli görməyiblər.

...Stanitsada ta qaranlıq düşənə qədər kilsədə zənglər çalındı, araq içildi. Gecə isə zabit məclisi üçün hazırlanmış evdə üsyançılar komandanlığı təzə qonaqlar üçün qonaqlıq düzəltdi.

Ucaboy və yaraşıqlı Sekretov – əslən kazak və Krasnokutskaya stanitsası xutorlarından birində doğulmuş bu adam, yaman atbaz idi, misilsiz minici, igid atlı generalı idi. Lakin o, natiq deyildi. Onun qonaqlıqda söylədiyi nitq başdan-ayağa sərxoş lovğalığı idi, həm də nitqin sonu Yuxarı Don camaatı ünvanına açıq məzəmmət və hədə mahiyyəti daşıyırdı.

Qonaqlıqda olan Qriqori, Sekretovun sözlərini gərgin və qəzəbli bir diqqətlə dinləyirdi. Hələ də keflilikdən ayılmamış

general, barmaqlarını stola söykəyərək stəkandakı arağı çalxalaya-çalxalaya hər bir ifadəni ifrat təmkinlə söyləyirdi:

– ...Yox, göstərdiyiniz köməyə görə biz sizə deyil, siz bizə təşəkkür etməlisiniz! Məhz siz təşəkkür etməlisiniz, bunu möhkəm demək lazımdır! Biz olmasaq qırmızılar sizi məhv etmişdilər. Bunu siz özünüz də yaxşı bilirsiniz. Biz isə sizsiz də bu əclafları əzişdirərdik. Biz onları əzişdiririk və yadınızda saxlayın, tərtəmiz Rusiyanın hər tərəfini təmizləyincəyə qədər əzişdirəcəyik. Siz payızda cəbhəni boşladınız, bolşevikləri kazak torpağına buraxdınız. Siz onlarla dinc yaşamaq istəyirdiniz. Lakin baş tutmadı! Bunu gördükdə siz üsyan qaldırdınız, öz mülkünüzü, öz həyatınızı xilas etməyə başladınız. Sadəcə desək, həm özünüzün, həm də heyvanlarınızın canını xilas etməyə başladınız. Mən keçmişi onun üçün xatırlamıram ki, günahlarınızın üstündə sizi məzəmmət edim... Bunu xatirinizə dəymək üçün demirik. Lakin heç vaxt həqiqəti müəyyənləşdirməkdən bir ziyan gəlməz. Sizin xəyanətinizi biz bağışlamışıq. Biz sizin yanınıza bir qardaş kimi, ən çətin dəqiqənizdə köməyə gəldik. Lakin sizin bədnam keçmişiniz gələcəkdə təmizə çıxarılmalıdır. Aydındırmı, cənab zabitlər? Siz özünüzü şücaətiniz və Sakit Dona sədaqətli xidmətinizlə təmizə çıxara bilərsiniz. Anlaşıldımı?

– Hə, içək təmizə çıxmağımız şərəfinə! – deyə təkbətəklikdə heç kəsə müraciət etməyən və Qriqorinin qabağında oturan bir yaşlı kazak – qoşun starşinası azacıq gülümsünərək dilləndi və o birilərinin içməsini gözləmədən özü içdi. Onun mərd, çiçəkdən azacıq çopurlamış sifəti və istehza dolu qonuş gözləri var idi. Sekretov nitq dediyi zaman onun dodaqları dəfələrlə istehzalı-istehzalı qaçmışdı; bu zaman gözləri bir qədər də qaralır və daha qara görünürdü, Qriqori bu qoşun starşinasına baxa-baxa orasına da diqqət yetirdi ki, həmin kazak Sekretovla "sən" deyə danışır və onunla münasibətində olduqca müstəqildir, halbuki qalan zabitlərlə o çox təmkinli və soyuq rəftar edirdi. Qonaqlıqda iştirak edənlər içərisində yalnız onun xaki rəngdə kitelinə həmin rəngdə poqon və qoluna da Kornilov şevronu tikilmişdi. "Çox qəribə kazakdır! Görünür könüllülərdəndir" deyə Qriqori düşündü. Qoşun starşinası at kimi içirdi. Nə bir şey yeyir, nə də keflənirdi, yalnız hərdənbir enli ingilis kəmərini boşaldırdı.

Qriqori onunla yanaşı oturmuş Boqatıryovdan pıçıltı ilə soruşdu:

– Bu, mənim qabaq tərəfimdə oturan çopur kimdir?

– Əşi, nə bilim kimdir, – deyə xeyli içmiş Boqatıryov əlini yellətdi.

Kudinov arağı əsirgəmirdi. Haradansa stolun üstünə spirt qoydular; Sekretov çox çətinliklə nitqini qurtararaq, xaki rəngli sürtükünün yaxasını açıb ağır-ağır stula çökdü. Cavan bir bölük komandiri – sifətində monqol tipinə məxsus cizgiləri aşkarca sezilən bir zabit generala tərəf əyildi və onun qulağına nə isə pıçıldadı.

– Cəhənnəm olsun! – deyə pörtmüş Sekretov cavab verdi və Kudinovun qulluq göstərənliklə tökdüyü spirti birnəfəsə başına çəkdi.

– Bəs o çəpgöz kimdir? Adyutantdır? – deyə Qriqori Boqatıryovdan soruşdu. O da əli ilə ağzını tutub cavab verdi:

– Yox, bu onun yetişdirməsidir. O, bunu yapon müharibəsi zamanı Mancuriyadan uşaq ikən gətirmişdir. Tərbiyə etmiş və yunker məktəbinə vermişdir. Nəticədə çinli balasından bir adam çıxmışdır. Yaman igiddir! Dünən Makeyevka yaxınlığında basqın edib, pul sandığını qırmızıların əlindən almışdır. İki milyon pul ələ keçirmişdir. Ora bax, bütün ciblərindən çəngə-çəngə pul çıxır! Məlunun bəxtini görürsən! Xalis xəzinədir! Əşi, içsənə, niyə onlara baxırsan?

Kudinov cavab nitqi söylədi, lakin heç kəs onu dinləmirdi. İçki məclisi get-gedə geniş əndazə alırdı. Sekretov sürtukunu ataraq bircə alt köynəyində oturmuşdu. Onun tərtəmiz qırxılmış başı tərdən işıldayırdı, süd kimi ağaran kətan köynəyi pörtmüş üzünü və gündən zeytun kimi qaralmış peysərini daha çox nəzərə çarpdırırdı. Kudinov ona nə isə yavaşca dedi, lakin Sekretov onun üzünə baxmadan, israrla təkrar edirdi:

– Yo-o-o-x, bağışlarsan! Gəl bu sözün üstündən keç! Biz sizə inanırıq, amma lazım olduğu qədər... sizin xəyanətiniz tezliklə unudulmaz. Qoy payızda qırmızıların tərəfinə keçənlərin hamısı, bunu qulaqlarında sırğa eləsinlər...

Bu zaman keflənmiş Qriqori də hirslənərək ürəyində: "Neynək, biz də sizə o qədər qulluq edərik, nə qədər ki, lazımdır" deyib ayağa durdu.

Furajkasını başına qoymadan artırmaya çıxdı və təmiz gecə havasından döşüdolusu rahat nəfəs aldı.

Donun qırağında yağış qabağı olduğu kimi, qurbağalar hay-küy salmışdı, su böcəkləri kədərlə vızıldaşırdı. Cüllütlər qumlu yalda qəmli-qəmli bir-birini səsləyirdi. Anasını itirmiş bir qulun uzaqdakı örüşdə sürəkli və incə səslə kişnəyirdi. Qriqori artırmadan

enərək qaranlıqda əlini sürtə-sürtə darvazanın bala qapısına tərəf gedərkən öz-özünə deyirdi:

"Sizinlə bizi uğursuz bir ehtiyac qəm ortağı etmişdir, yoxsa siz bizə bircə qırıq da lazım deyilsiniz. Əclaflar! İndi qız kimi naz eləyir, məzəmmət edir, bir həftədən sonra isə yapışacaq xirtdəyimizdən... Bax buna deyiblər ki, bəla yaxınlaşıb! Hər tərəfdən yol kəsilib. Mən bilirdim ki, belə olacaq... Gərək elə-belə də olaydı. Bax, indi kazaklar özlərini düzəldərlər! Bu cənabların qarşısında rəsmi təzim etməyi, hazır durmağı yadırğamışlar".

Spirt ona da təsir etmişdi; başı hərlənir, yeriyəndə səndələyirdi. O, darvazadan bayıra çıxanda yırğalandı, furajkasını başına bərk basdı, – ayaqlarını sürütləyə-sürütləyə küçə yuxarı getdi.

Aksinyanın xalası evinin yanında bir dəqiqəliyə dalğın halda dayandı, sonra qətiyyətlə artırmaya doğru yeridi. Dəhlizin qapısı örtülməmişdi. Qriqori qapını döymədən dəhlizə girən kimi, masanın arxasında oturmuş Stepan Astaxovu gördü. Aksinyanın xalası sobanın yanında iş görürdü. Üstünə təmiz süfrə salınmış stola yarıya qədəri içilmiş bir şüşə araq və içində quru balıq parçaları olan boşqab qoyulmuşdu.

Stepan stəkanı yenicə boşaltmışdı və belə görünürdü ki, qəlyanaltı etmək istəyirdi, lakin Qriqorini gördükdə boşqabı geri itələyib dalını divara söykədi.

Qriqori nə qədər kefli olsa da, hər halda həm Stepanın ağappaq olmuş sifətini, həm də onun qurd gözü kimi alışıb-yanan gözlərini seçə bildi. Qriqori bu təsadüfdən sarsılsa da bir növ özünü toplayıb xırıltılı səslə dedi:

– Salam, sağ-salamatsınızmı?

– Allaha şükür, – deyə ev sahibəsi qorxmuş halda ona cavab verdi; şübhəsiz, bu arvad Qriqori ilə öz bacısı qızının arasında olan münasibətlərdən xəbərdar idi və bu qəfil görüşdən, yəni ər ilə oynaşın üz-üzə gəlməsindən heç də yaxşı şey gözləmirdi.

Stepan alışıb-yanan gözlərini Qriqoridən çəkməyərək, kirimişcə sol əlilə bığlarını tumarladı.

Qriqori isə ayaqlarını bir-birindən aralı qoyaraq, kandarda dayanıb, dodağının ucunda gülümsünərək dedi:

– Mən də gəldim sizə baş çəkim... Bağışlayın.

Stepan susmuşdu. Bu münasibətsiz sakitlik ta ev sahibəsi Qriqorini süfrəyə dəvət edincəyə qədər davam etdi.

– Keçin əyləşin.

İndi Qriqori üçün heç bir şeyi gizlətməyin mənası yox idi. Aksinyanın mənzilinə gəlməsi Stepana hər şeyi aydınlaşdırırdı. Buna görə də Qriqori düzünə hərəkətə keçdi:

– Bəs arvadın hanı?

– Bəs sən... onu görməyə gəlmisən? – deyə Stepan sakitcə, lakin eşidiləcək bir şəkildə soruşdu və gözlərini titrəyən kirpiklərilə qapadı.

– Onu, – deyə Qriqori köksünü ötürərək etiraf etdi. O bu dəqiqədə Stepandan hər şey gözləyirdi və özü də ayılaraq müdafiəyə hazırlaşırdı. Lakin Stepan gözlərini açıb (bu gözlərdə artıq bayaqkı atəş yox idi) dedi:

– Mən onu araq dalınca göndərmişəm, indicə gələr. Otur gözlə.

Ucaboy, qədd-qamətli Stepan hətta ayağa qalxıb Qriqoriyə tərəf stul da itələdi və ev sahibəsinə baxmadan rica etdi:

– Xala, bir təmiz stəkan ver. – Sonra Qriqoriyə dedi: – İçəcəksənmi?

– Bir az olar.

– Di otur.

Qriqori keçib stolun arxasında oturdu... Stepan şüşədə qalmış arağı bərabər ölçüdə stəkanlara tökdü və gözlərini Qriqoriyə tərəf qaldırdı:

– Allah axırımızı xeyir eləsin!

– Sağ olaq, var olaq!

Stəkanları toqquşdurdular. İçdilər. Susdular. Siçan kimi cəld hərəkət edən ev sahibəsi qonağa bir boşqab, bir də sapı qırıq çəngəl verdi.

– Balıq yeyin! Bu, az duzlu balıqdır.

– Təşəkkür edirəm.

Ev sahibəsi bu vəziyyətdən sevinərək Qriqoriyə iltifatla dedi:

– Götürün boşqabınıza qoyun, şirin-şirin yeyin!

Bu qadın iki rəqib arasında hər şeyin xoşluqla, dava-dalaşsız, qab-qacaq sındırmadan, bədnam olmadan sovuşmasından çox məmnun idi. İçindən xata çıxası danışıq bitmişdi. Ər, arvadının

aşnası ilə bir süfrə başında mehriban əyləşmişdi. İndi onlar sakitcə xörək yeyir və bir-birinə baxmırdılar. Ehtiyatlı ev sahibəsi sandıqdan təzə dəsmal çıxartdı və onların dizləri üstünə sərməklə sanki Qriqori ilə Stepanı bir növ birləşdirdi.

– Sən nə üçün bölükdə deyilsən? – deyə Qriqori balıq sümüyünü sümürərək soruşdu.

Stepan bir az susduqdan sonra:

– Mən də baş çəkməyə gəldim, – deyə cavab verdi: onun səsinin ahəngindən sözlərini ciddimi söylədiyini, yoxsa istehzamı etdiyini müəyyənləşdirmək qətiyyən mümkün deyildi.

– Bölük komandiri evdədir?

– Hamı xutorda qonaqdır. Nə fikirdəsən qalanını da içəkmi?

– İçək.

– Sağ olaq!

– Salamatlığımız şərəfinə!

Dəhlizdə qapının cəftəsi şıqqıldadı. Tamamilə ayılmış Qriqori gözünün altı ilə Stepana baxdı, onun üzü təzədən ağarmışdı.

Cecim naxışlı şala bürünmüş Aksinya Qriqorini tanımayıb stola yaxınlaşdı, ona çəpəki baxdı və geniş açılmış qara gözlərində birdən dəhşət oyandı. Nəfəsi tutula-tutula çətinliklə dedi:

– Xoş gördük, Qriqori Panteleviç!

Stepanın stola söykənmiş yekə əlləri birdən xəfifcə titrədi və bunu görmüş Qriqori bir kəlmə də olsun danışmadan sakitcə Aksinyaya baş əydi.

Aksinya stolun üstünə iki şüşə araq qoyduqdan sonra yenə də, bu dəfə təşviş və gizli sevinc dolu nəzərlərini ona zillədi, geriyə çevrilərək otağın qaranlıq küncünə getdi, sandığın üstündə oturub titrəyən əllərilə saçlarını düzəltdi. Stepan həyəcanını yatırtdıqdan sonra, boğazını sıxan köynəyinin yaxasını açıb stəkanları ağzına qədər doldurdu və üzünü arvadına çevirdi:

– Bir stəkan gətir, keç süfrəyə otur.

– Mən istəmirəm.

– Otur!

– Axı Styopa, mən ki, araq içmirəm!

– Adama sözü neçə dəfə deyərlər? – Stepanın səsi titrədi.

Qriqori ürəkverici tərzdə gülümsünərək dedi:

– Qonşu, gəl əyləş!

Aksinya yalvarıcı baxışlarla ona baxıb cəld kiçik şkafa tərəf getdi. Rəfdən bir nəlbəki düşdü və cingilti ilə parçalandı.

– Ah, xataya baxırsanmı? – Ev sahibəsi yana-yana əllərini oynatdı.

Aksinya kirimişcə nəlbəkinin qırıqlarını yığışdırdı.

Stepan arvadına da bir stəkan araq tökdü, onun gözlərində yenə də qəm və nifrət qığılcımları görsəndi.

– Hə, içək... – deyə o, sözə başladı və susdu.

Məclisdə əmələ gəlmiş sakitlikdə Aksinyanın necə tövşüyə-tövşüyə və coşqunluqla nəfəs aldığı eşidilirdi.

– ...İçək, arvad, uzun sürən ayrılığımız münasibətilə. Bu nədir, içmək istəmirsən? İçmirsən?

– Sən ki, bilirsən...

– Mən indi hər şeyi bilirəm... Yaxşı, gəl ayrılığımız şərəfinə içməyək! Əziz qonağımız Qriqori Panteleviçin sağlığına içək.

– Onun sağlığına içərəm, – deyə Aksinya ucadan səsləndi və stəkanı başına çəkdi.

– Sən çox məğrursan! – deyə ev sahibəsi mətbəxə yüyürdü.

Ev sahibəsi bir küncə qısılaraq əllərini döşünə sıxıb gözləyirdi ki, indicə stol gurultu ilə itələnib tərsinə yıxılacaq, qulaqbatırıcı güllə səsləri eşidiləcək... Lakin otaqdan heç bir səs çıxmadı. Yalnız tavanda işıqdan narahat olmuş milçəklərin necə vızıldaşdığı, bir də bayırda gecə yarısını salamlayan xoruzların stanitsanın hər yanında necə bir-birilə səsləşərək banlaşdıqları eşidilirdi.

VIII

Donda iyun gecələri çox qaranlıq olur. Qatran kimi qara səmanın insanı üzən səssizliyi içərisində qızıl şölələr parlayır, ulduzlar düşür, Donun qıjov sularına şəfəq salır, quru və bürkülü külək çöldən insan məskəninə çiçəkləyən kəkotuların ənbər ətrini gətirir, çaybasar yerlərdəki nəm otların şirin ətri hər yanı bürüyür, hər yandan lil, rütubət iyi gəlir, çəkçəkinlər ara vermədən oxuyur, sahil boyundakı meşə əfsanələrdə olduğu kimi, başdan-başa gümüşü dumanla örtülü olur.

Proxor gecəyarısı yuxudan oyanıb mənzil sahibindən soruşdu:

– Bizim oğlan gəlmədi?

– Yox. Generallarla kef edir.

– Doğru deyirsən, güman ki, orada araq içirlər! – deyə Proxor qibtə ilə köksünü ötürdü və əsnəyə-əsnəyə paltarını geyinməyə başladı.

– Sən hara gedirsən?

– Gedim atları sulayım, bir də onlara yem verim. Panteleviç deyirdi ki, işıqlaşan kimi Tatarska yollanırıq. Bir gün orada qalıb sonra da öz hissəmizin dalınca gedərik.

– İşıqlaşana hələ çox qalır. Yataydın barı.

Proxor narazı-narazı cavab verdi:

– Sənin görkəmindən, baba, o saat görünür ki, cavanlıqda heç əsgəri xidmətdə olmamısan! Biz isə, bu qulluqda atları yemləməsək, onlara qulluq etməsək, onda yəqin bil ki, heç salamat qalmarıq. Məgər arıq atla adamın işi aşar? Altındakı heyvan nə qədər yaxşı olsa bir o qədər düşməndən tez qaçıb canını qurtararsan. Mən beləyəm: mən onları qovmaq həvəskarı deyiləm, əgər iş bərkə düşsə, qaçaqaç düşsə, onda hamıdan əvvəl mən əkiləcəyəm. Gör neçə illərdir ki, alnımı güllə qabağına verirəm, təngə gəlmişəm! Bir işıq yandır, babacan, patavalarımı tapmıram. Ay sağ ol! Bəli, bizim bu Qriqori Panteleviç özünü odun içinə soxur, xaç, rütbə alır, amma mən elə axmaqlardan deyiləm, mənim belə şeylərə ehtiyacım yoxdur. İndi də kim bilir, hansı cəhənnəmdədir, həm də lülqənbərdir.

Qapını ehmalca döydülər.

– Gəlin! – deyə Proxor qışqırdı.

Köynəyinin çiynində kiçik uryadnik poqonu və furajkasında kokardı olan bir yad kazak içəri girdi.

– Mən general Sekretov qoşunu qərargahının çaparıyam. Əlahəzrət cənab Melexovu görə bilərəmmi? – deyə kazak soruşdu, rəsmi təzim edib astanada dayandı.

Təlim görmüş çaparın səliqəsinə və müraciətinə heyran qalmış Proxor:

– Evdə yoxdur, – deyə cavab verdi. – A kişi, özünü çox dartma, mən özüm də cavan vaxtımda sənin kimi axmaq idim. Mən Melexovun mühafiziyəm. O sənin nəyinə gərəkdir?

– General Sekretovun əmrilə cənab Melexov üçün gəlmişəm. Xahiş edirlər ki, o, bu saat zabitlər evinə gəlsin.

– Melexov axşamdan ora getmişdir.

– Orada olmuşdur, amma sonra evinə getmişdir.

Proxor bir fit çaldı və çarpayıda oturmuş ev sahibinə göz vurdu:

– Başa düşdün, baba? Deməli, öz aşnasının yanına cummuşdur... Di sən get, mən də onu axtarıb tapım və dipdiri düz ora gətirim.

Proxor atları sulamağı və onlara yem verməyi qocaya tapşırıb, Aksinyanın xalasıgilə yollandı.

Stanitsada göz-gözü görmürdü. Donun qarşı sahilindəki meşədə bülbüllər səs-səsə vermişdilər. Proxor tələsmədən tanıdığı balaca evə yaxınlaşdı, dəhlizə girdi və yenicə qapının dəstəyindən tutmaq istəyirdi ki, Stepanın yoğun səsini eşitdi. "Odur ha... əcəb xataya rast gəldim! – deyə Proxor düşündü. – Soruşacaq ki, niyə gəlmisən? Mən isə deməyə söz tapmayacağam. Qərəz, hərçi badabad! Deyərəm ki, araq almağa gəlmişəm, deməli, qonşular bu evi nişan veriblər".

O, artıq cürətlənərək evə keçdi, heyrətdən sarsılaraq duruxdu, ağzı açıla qaldı: Qriqori Astaxovla bir stolun arxasında oturmuşdu və aralarında heç bir şey olmamış kimi, stəkandan bulanıq yaşıl araq içirdi.

Stepan Proxoru görüb zorla gülümsünərək dedi:

– Bu nədir, niyə ağzın açıla qalıb, heç salam da vermirsən? Yoxsa qəribə bir şey görmüsən?

Ayağının birini qaldırıb, o birini qoyan və hələ də heyrətdən özünü yığışdıra bilməyən Proxor cavab verdi:

– Elə şeyə oxşayır...

– Di qorxma, keç otur, – deyə Stepan onu süfrəyə dəvət etdi.

– Mənim oturmağa macalım yoxdur... Mən sənin dalınca gəlmişəm, Qriqori Panteleviç. Əmr var ki, bu saat general Sekretovun yanına gedəsən.

Qriqori, Proxor gəlincəyə qədər də bir neçə dəfə getməyə can atmışdı. O, qədəhi kənara qoymuş, ayağa durmuş və çıxıb getməsini Stepan qorxaqlıq əlaməti hesab edər deyə əyləşmişdi. Məğrurluq ona Aksinyanı buraxıb getməyə, öz yerini Stepana verməyə mane olmuşdu. O içirdi, lakin araq artıq ona təsir göstərmirdi. Buna görə də özünün dolaşıq vəziyyətini ayıq şəkildə mülahizə edən Qriqori işin aqibətini gözləyirdi. Ona bir an içərisində elə gəldi ki, Aksinya onun – Qriqorinin sağlığına içəndə əri Stepan onu vuracaq. Lakin o, səhv edirdi. Stepan əlini qaldırmış, kələ-kötür əlilə günəşdən yanmış alnını silmiş və azacıq bir sükutdan sonra heyran-

heyran Aksinyaya baxaraq demişdi: "Afərin, arvad! Cəsarətin xoşuma gəlir!"

Sonra Proxor gəldi.

Qriqori bir qədər götür-qoy edib hələ getməməyi qərara aldı ki, Stepan ürəyini boşaltsın, sonra üzünü Proxora tutub dedi:

– Get onlara de ki, tapmadım. Anladınmı?

– Anlamağına anladım. Ancaq Panteleviç, yaxşı olar ki, gedəsən ora.

– Sənə dəxli yoxdur! Get.

Proxor qapıya tərəf yönəldi. Lakin gözlənilmədən Aksinya söhbətə qarışdı. O, Qriqoriyə baxmadan quru bir şəkildə dedi:

– Yox, daha niyə qalasınız, Qriqori Panteleviç, birlikdə gedin! Sağ olun ki, gəldiniz, qonaq oldunuz, bizimlə vaxt keçirdiniz... Artıq gecə keçmişdir, xoruzlar ikinci dəfə banlamışdır. Bir azdan səhər açılacaq, biz də Styopa ilə dan yeri ağaranda evə getməliyik... Bir də ki, kifayət qədər içmisiniz. Bəsdir!

Stepan onların qalmalarını təkid eləmədi, Qriqori də ayağa durdu. Ayrılanda Stepan Qriqorinin əlini öz soyuq və sərt əlində saxladı, sanki axırıncı dəfə nə isə demək istədi, lakin heç bir söz demədi, Qriqorini qapıya tərəf kirimişcə, gözlərilə müşayiət etdi, əli içində araq qalmış şüşəyə doğru uzandı...

Evdən küçəyə çıxan kimi Qriqorini müdhiş bir yorğunluq bürüdü. Ayaqlarını çətinliklə ataraq birinci döngəyə çatdı, onun dalınca yeriyən Proxordan rica etdi:

– Get atları yəhərlə və bura sür! Gedə bilmirəm...

– Sənin gəldiyini onlara xəbər verimmi?

– Yox.

– Di dayan, mən bu saat yüyürə-yüyürə gedərəm!

Həmişə asta tərpənən Proxor bu dəfə mənzilə tərəf yüyürə-yüyürə getdi.

Qriqori hasarın dibində oturub bir papiros çəkdi. Xəyalında Stepanla olan görüşünün təfsilatını yenidən canlandıraraq laqeydcəsinə belə düşündü: "Demək indi o hər şeyi bilir. Kaş Aksinyanı döyməyə idi!" Yorğunluq və keçirdiyi həyəcan onu buradaca uzanmağa vadar etdi. Uzandı və mürgüləmdi.

Bir azdan Proxor atları gətirdi.

Bərəyə minərək Donun qarşı sahilinə keçdilər, atları yortma sürdülər.

Dan yeri ağaranda Tatarska çatdılar. Qriqori öz həyətlərinin qapısında atdan düşdü, cilovu Proxora verərək tələsik və həyəcanla evə girdi.

Çılpaq Natalya nə üçün isə dəhlizə çıxmışdı. Qriqorini görəndə onun yuxulu gözlərində elə bir sevinc qığılcımı parladı ki, Qriqorinin ürəyi yumşaldı və gözlənilməz halda bir an qədər gözləri yaşardı. Natalya kirimişcə Qriqorini qucaqladı. Bütün bədəninin ağırlığı ilə ona sığındı; onun çiyinlərinin atılıb düşməsindən Qriqori başa düşdü ki, Natalya ağlayır.

Qriqori evə girdi, ata-anasını və yatmış uşaqlarını dönə-dönə öpdü, mətbəxin ortasında dayandı.

– Hə, bu qarışıqlıqda neyləditiz, hər şey sağ-salamatdırmı? – deyə həyəcanından nəfəsi tutula-tutula soruşdu.

– Allaha şükür, ay oğul, çox qorxu çəkmişik, amma çox incimə-mişik, – deyə İliniçna cəld cavab verdi və ağlamış Natalyaya çəpəki baxaraq, acıqlı-acıqlı onun üstünə çığırdı: – Sevinmək lazımdır, amma sən haray salmısan, ay axmaq! Boş-bekar niyə durmusan? Odun gətir ocağı qala...

İliniçna ilə Natalya tələsik səhər xörəyi hazırlayıncaya qədər Panteley Prokofyeviç oğluna təmiz bir dəsmal gətirib dedi:

– Mən su töküm, sən əl-üzünü yu. Başın ayılar. Ağzından yaman araq iyi gəlir. Yəqin dünən kefdə bərk içmisən.

– Bir elə iş olub. Lakin hələ orası məlum deyildir: kefdənmi içmişəm, yoxsa dərddən...

– Necə yəni? – deyə qoca çox təəccüb etdi.

– Sekretov bizə qarşı yaman qəzəblidir.

– Eyb etməz, ziyanı yoxdur! Doğrudanmı o da sənlə içmişdir!

– Əlbəttə.

– Yox, a kişi! Qrişka, sən nə böyük şərəfə çatmısan! Əsl general-larla bir süfrədə oturmaq! Gör bir nə aləmdir! – Panteley Prokofye-viç mütəəssir-mütəəssir oğluna baxır, heyrətlə dilini marçıldadırdı.

Qriqori gülümsündü. Qoca atasının bu sadəlövh vəcdinə heç də şərik olmaq meyilində deyildi.

Qriqori yavaş-yavaş mal-qaranın və əmlakın sağ-salamat olub-olmadığını, nə qədər taxıl sahəsinin otarıldığını soruşarkən gördü ki, təsərrüfat danışıqları daha indi atasını əvvəlki qədər maraqlan-dırmır. Qocanın fikrində nə isə daha vacib bir şey dolaşır, nə isə ona əzab verirdi.

O dərdini tezliklə açdı:

– Bəs indi, Qrişacan, necə olacaqdır? Doğrudanmı yenə qulluq etmək lazım gələcəkdir?

– Sən kimlərin qulluq etməsini soruşursan?

– Qocaların, misal üçün, elə mənim özümün.

– Hələ məlum deyildir.

– Deməli, görünür, getmək lazım gələcək.

– Sən evdə qala bilərsən.

– Doğrudan? – deyə Panteley Prokofyeviç sevincək və həyə-canla mətbəxdə o yan-bu yana taytadı.

– Bir yerdə otur, ay çolaq şeytan! Evdə toz qaldırma! Sevindi, arıq küçük kimi sıçradı, – deyə İliniçna onun üstünə qışqırdı.

Lakin qoca bu qışqırığa heç əhəmiyyət də vermədi, bir neçə dəfə stolun yanından sobanın yanına və geri yeridi, əllərini bir-birinə sürtərək gülümsündü. Bu zaman ağlına bir şübhə gəldi:

– Sən özün azadlıq kağızı verə bilərsənmi?

– Əlbəttə.

– Kağız yazarsanmı?

– Bəs necə!

Qoca duruxdu, bir az tərəddüddə qaldı, yenə də soruşdu:

– Verdiyin kağız nə cür kağız olacaq... Möhürsüz olacaqdır! Yoxsa möhürü də var?

– Möhürsüz də kara gələr, – deyə Qriqori gülümsündü.

– Elədirsə, söhbət qurtardı. – Qocanın yenidən kefi kökəldi. – Allah səni sağ eləsin. Bəs sən özün nə vaxt getmək istəyirsən?

– Sabah.

– Sənin hissələrin qabağamı getmişdir? Ust-Medveditsaya tərəfmi yola düşmüşdür?

– Bəli. Amma ata, sən özün cəhətdən nigaran qalma. Fərqi yoxdur. Bu yaxınlarda sənin kimi qocaları evlərinə buraxacaqlar. Artıq siz qulluq edib borcunuzdan çıxmısınız.

– Allah ağzından eşitsin. – Panteley Prokofyeviç xaç çevirdi və görünür, tamam arxayınlaşdı.

Uşaqlar oyandılar. Qriqori onları qucağına götürüb dizlərinin üstünə qoydu və növbə ilə hər birini gülə-gülə öpərək uzun müd-dət şən danışıqlarını dinlədi.

Uşaqların saçlarından necə də xoş iy gəlir! Bunlardan günəş iyi, ot iyi, isti balış iyi, daha nə isə doğma bir iy gəlirdi. Uşaqların özləri də, bu kiçicik çöl quşları da, onun qanı-qanından və canı-canından olan balalarıdır. Atanın onları qucaqlayan iri, qara əlləri nə qədər də köntöy idi! Atdan yalnız bir gecəliyə düşmüş bu, səfərlər nəticəsində acı qorxu və qayış-gön iyi, tünd əsgər və at təri iyi verən atlı onların dinc ailəsi içərisində nə qədər yad görünürdü...

Qriqorinin gözlərini göz yaşı dumanlandırdı, bığlarının altında dodaqları titrədi... Üç dəfə o, atasının sualına cavab vermədi və yalnız Natalya onun köynəyinin qolundan tutub tərpədəndə, süfrənin kənarına getdi.

Yox, yox Qriqori qətiyyən əvvəlki adam deyildi, yaxşılaşmışdı. O heç bir zaman bu cür kövrək olmamışdı. Hətta uşaqlıq çağında belə, tək-tək hallarda ağlardı. İndi isə göz yaşları axır, ürəyi tez-tez bərk döyünür, onda belə bir hiss əmələ gəlirdi ki, sanki boğazında səsi çıxmayan kiçik bir qumrov səslənir... Bu əhval, keçən gecə çox içdiyinə və bütün gecəni yuxusuz qaldığına görə də ola bilərdi.

İnəkləri örüşə ötürməyə getmiş Darya da gəldi. O, gülümsünən dodaqlarını Qriqorinin sifətinə yaxınlaşdırdı və Qriqori zarafatla bığlarını tumarlayaraq üzünü Daryaya yaxınlaşdırdıqda o, gözlərini qapadı. Qriqori Daryanın kirpiklərinin külək dəymiş kimi, necə titrədiyini aydınca gördü. Bir anlığa Daryanın solmamış yanaqlarından – ənlikdən gələn kəskin ətri hiss etdi.

Budur, Darya yenə də əvvəlki Darya idi.

Sanki qəm-qüssə Daryanı nəinki yıxır, hətta onu heç əridə bilməzdi. Bu işıqlı dünyada o, qızıl söyüd çubuğu kimi yaşayırdı: elastik, göyçək və ələ keçə bilən idi.

– Qəşəngləşirsənmi? – deyə Qriqori soruşdu.

– Yollarda bitən bəng otu kimi! – deyə Darya parıldayan gözlərini qıyaraq şən-şən gülümsündü; o dəqiqə ləçəyinin altından bayıra çıxmış saçlarını düzəltmək və özünü bəzəyib-düzəltmək üçün güzgüyə yaxınlaşdı.

Bəli, Darya belə idi. Onu dəyişmək mümkün deyildi. Petronun ölümü sanki onu bir qədər qamçılamışdı, lakin özünü bir qədər düzəldən kimi onda həyata qarşı daha böyük bir ehtiras oyandı, özünə daha çox fikir verməyə başladı.

Anbarda yatan Dunyaşkanı da yuxudan oyatdılar. Duadan sonra külfətliklə süfrəyə oturdular.

– Ox, ay qardaş, yamanca qocalmısan! – deyə Dunyaşka təəssüflə dilləndi. – Canavar kimi bomboz olmusan!

Qriqori stolun o tərəfindən Dunyaşkaya kirimişcə və gülümsünmədən bir az baxdı, sonra dedi:

– Mən gərək belə də olam. Mən qocalmalıyam, sənin isə gəncləşmək, ər axtarmaq vaxtındır... Ancaq sənə bir söz tapşırım: Mişka Koşevoyu bu gündən etibarən yaddan çıxar! Eşitsəm ki, sən, bu söhbətdən sonra da onun dərdindən ölürsən, bir ayağımı ayağının üstünə qoyub, o biri ayağını dartıb səni qurbağa kimi cıraram! Anladınmı?

Dunyaşka pörtüb lalə kimi oldu, yaşarmış gözlərini Qriqoriyə dikdi.

Qriqori qəzəbli gözlərini Dunyaşkanın üzündən çəkmədi; onun bütün acıqlı sifətində, bığları altından çərələn dişlərində, qıyılmış gözlərində Melexovlara məxsus vəhşilik daha aydın göründü.

Dunyaşka da bu cinsdən idi: xəcalət və inciklikdən özünə gəldikdən sonra sakitcə, lakin qətiyyətlə dedi:

– Bilirsiniz, qardaş, nə var? Ürək deyilən şeyə əmr yoxdur!

– Sənin sözünə baxmayan ürəyi qoparıb atmaq lazımdır, – deyə Qriqori soyuqqanlılıqla ona məsləhət gördü.

İliniçna öz aləmində: "Ay oğul, bunu barı sən demə..." deyə düşündü.

Lakin bu vaxt Panteley Prokofyeviç söhbətə qarışdı. O, yumruğunu stola çırparaq bağırdı:

– Səsini kəs, itin qızı! Yoxsa mən sənə elə bir ürək düzəldərəm ki, heç bilməzsən başın harda qaldı! Bir buna bax, həyasızın biri! Dayan, indi bu saat gedib cilovu tapım... Sənə göstərərəm...

– Ay dədə! Bizim bir dənə də cilovumuz yoxdur. Hamısını aparıblar, – deyə Darya barışdırıcı bir tövrlə onun sözünü kəsdi.

Panteley Prokofyeviç acıqlı-acıqlı ona baxdı və səsini alçaltmadan, yenə də hirsini tökməyə davam etdi:

– ...Tapqırı götürüb sənə bir toy tutaram ki...

– Tapqırı da qırmızılar aparıb, – deyə Darya bir az ucadan bildirdi və yenə də bayaqkı kimi günahsız nəzərlərini qayınatasına zillədi.

Buna Panteley Prokofyeviç daha davam gətirmədi. Bir anlığa qəzəbdən mis kimi qızararaq gəlininin üzünə baxdı, bərk əsnədi, bu anda o, sudan yenicə çıxardılmış suf balığına oxşayırdı; sonra xırıltılı səslə çığırdı:

– Səsini kəs, məlun, boyunu yerə soxum! Adama söz deməyə imkan vermirlər. Bu nədir? Sən isə Dunka, yaxşı yadında saxla: dediyin iş ömründə baş tutmayacaqdır! Bir ata kimi sənə açıq deyirəm! Qriqori də çox düz dedi: o alçaq adamı yadından çıxartmasan səni öldürmək də azdır! Gör kimi tapıbsan! Ürəyinə bir cəllad girmişdir! Heç o insandır? Heç insafdırmı ki, o cür Allahından dönən bir adam mənim kürəkənim olsun?! O burada əlimə keçsə öz əlimlə onu öldürərəm! Hünərin var, səsini çıxart, çubuğu götürüb əzişdirəcəyəm...

İliniçna köksünü ötürərək dedi:

– Bizim həyətdə heç gündüz, çıraq işığı ilə də çubuq tapmazsan. İstəyirsən həyətin bu başından gir, o başından çıx, ocağa atmağa bir çöp də yoxdur. Gör nə günlərə qaldıq!

Panteley Prokofyeviç bu qərəzsiz söylənmiş sözdə də gizli bir eyham zənn etdi. O, bərəlmiş gözlərini qarıya zillədi, yerindən dəli kimi sıçrayıb həyətə çıxdı.

Qriqori qaşığı tullayıb dəsmal ilə üzünü tutdu, çiyinləri silkələnə-silkələnə için-için güldü. Onun acığı soyudu, Qriqori çoxdan belə gülməmişdi. Dunyaşkadan başqa hamı gülürdü. Süfrənin başında bir şənlik vardı. Panteley Prokofyeviç tappıltı ilə artırmaya çıxan kimi hamının sifəti ciddiləşdi. Qoca yel kimi içəri girdi, o darta-darta ardınca uzun bir qızılağac payası gətirirdi.

– Budur! Bax bu ağac sizin kimi diliuzun məlunların hamısına bəs edər! Uzun quyruqlu ifritələr!.. Çubuq yoxdur, bəs bu nədir?! Qoca kaftar, indi sən də payını alarsan. Mən indi bunu sizin belinizdə sındıraram!..

Qocanın gətirdiyi paya mətbəxə yerləşmədi, çuqun qazana dəydi, qoca onu götürüb dəhlizə tulladı, ağır-ağır nəfəs alaraq gəlib süfrənin kənarında oturdu.

Onun kefi əməlli-başlı pozulmuşdu. Fısıldayır və kirimişcə yeyirdi. O biriləri də kirimişdilər. Darya güləcəyindən qorxaraq, gözlərini süfrədən qaldırmırdı. İliniçna köksünü ötürür və astadan pıçıldayırdı: "Pərvərdigara, pərvərdigara! Günahlarımız çoxdur,

bizi bağışla!" Circə Dunyaşkanın gülməyə halı yox idi, qoca bayıra çıxanda məchul, əzablı bir təbəssümlə gülümsünmüş Natalya da təzədən kədərlənmiş və özünü yığışdırmışdı.

– Duz ver! Çörək gətir! – deyə hərdənbir Panteley Prokofyeviç hirsli-hirsli səslənir, süfrə başındakıları qəzəblə süzürdü.

Ailə qalmaqalı heç gözlənilmədən kəsildi. Hamı susduğu zaman Mişatka babasının xətrinə təzədən dəydi. O, nənəsinin dəfələrlə dalaşdığı zaman babasına hər cür nalayiq sözlər yağdırdığını eşitmişdi, ona görə də babasının indi hamını döyməyə hazırlaşmasından və otağı öz qışqırığı ilə doldurmasından uşaqcasına həyəcanlanmışdı, odur ki, burun pərləri əsə-əsə birdən cingiltili səslə dedi:

– Bəsdir dalaşdığın, çolaq şeytan! Bir dəyənək götürüb sənin başına çırpmaq lazımdır ki, sən nənəmlə bizi qorxutmayasan!..

– Mənə deyirsən... Öz babana... Eləmi?

– Sənə deyirəm! – deyə Mişatka sözünü mərdliklə təsdiq etdi.

– Bəs adam da doğma babasına belə söz deyər?!

– Bəs sən nə üçün hay-küy salmısan?

– Sən bir yağıya baxırsanmı? – deyə Panteley Prokofyeviç saqqalını tumarlayıb heyrətlə hamını süzdü. – Bunun hamısının təqsiri səndədir, ay qoca qarğa, bu sözləri o səndən eşitmişdir! Sən öyrətmisən!

– Kimdir onu öyrədən? Başdan-ayağa sənciyəzə, bir də atasına oxşamışdır! – deyə İliniçna acıqlı-acıqlı özünü təmizə çıxardırdı.

Natalya ayağa durub Mişatkanı kötəkləyərək dedi:

– Babanla bu cür danışmağı tərgit! Eşidirsənmi? – Mişatka hönkürdü, başını Qriqorinin paçası arasında gizlətdi. Panteley Prokofyeviç isə ömründə nəvələrinin circə qırıq da kefinə dəymədiyi üçün stolun dalından qalxdı və gözləri yaşarmış halda saqqalı aşağı yuvarlanan göz yaşlarını silmədən şən-şən qışqırdı.

– Qrişka! Bala! Anana azar dəysin! Allah haqqı nənən doğru deyir! Bizdəndir! Melexov cinsidir! Gör bu qan özünü harada göstərir!.. Beləsi heç kəsin qarşısında susmaz... Nəvəciyim! Dərdin alım!.. Al, əlinə nə keçsə, götür, götür bu qoca sarsağı döy!.. Saqqalından tut, sürütlə!..

Qoca, Mişatkanı Qriqorinin qucağından aldı və başının üstünə qaldırdı.

Xörəyi yedikdən sonra hamı süfrədən qalxdı. Qadınlar qabları yumağa başladılar, Panteley Prokofyeviç də tənbəki çəkə-çəkə üzünü Qriqoriyə tutub dedi:

– Səndən xahiş eləmək də bir növ münasibətsiz çıxır, çünki sən bizdə indi qonaq sayılırsan, amma çarə yoxdur... Kömək et, çəpəri düzəldək, xırmanı hasarlayaq. Yoxsa hər şey uçulub tökülür, özgədən də indi kömək istəməklə bir şey çıxmır, hamının, fərqi yoxdur, uçanı-dağılanı var!

Qriqori məmnuniyyətlə bu təklifə razı oldu, onlar birlikdə nahara qədər həyətdə işlədilər, çəpəri sahmana saldılar.

Qoca, dirrikdə paya basdırarkən soruşdu:

– Ot çalınana hələ çox var, bilmirəm ot alaq, yoxsa yox? Sən təsərrüfatımız haqqında nə fikirdəsən? Bu işlərin qeydinə qalmağa dəyərmi? Yoxsa bir aydan sonra qırmızılar yenə də böyürdən çıxacaq və hər şey təzədən hədərə gedəcəkdir?

– Bilmirəm, ay ata, – deyə Qriqori açıqca etiraf etdi. – Bu işin axırı necə qurtaracağını, kimin kimi yıxacağını bilmirəm. Elə dolan ki, nə anbarda, nə də həyətdə artıq bir şey olmasın. İndiki zəmanədə belə şeylər gərək deyil. Odur, qudamızgilə bax: bütün ömrü uzunu əlləşdi, qazanıb yığdı, həm özünün, həm də özgələrinin damarını sordu, axırı nə oldu? Təkcə yanmış direklər qaldı!

– Ay bala, mən özüm də elə bu cür düşünürəm, – deyə köks ötürməsini dayandırmış qoca onun rəyilə razılaşdı.

Bundan sonra daha təsərrüfatdan söhbət etmədilər. Yalnız günortadan sonra Qriqorinin səliqə ilə xırmanın qapısını düzəltdiyini gördükdə qoca pərtləşdi və aşkar bir acıqla dedi:

– Əşi, amanatı qayır getsin! Niyə bu qədər əlləşirsən? Yüz il qalası deyil ki!

Görünür ki, həyatı köhnə qaydasında nizama salmaq səylərinin hədər olduğunu qoca indi başa düşmüşdü...

Gün batana yaxın Qriqori işi buraxıb evə getdi. Natalya otaqda tək idi. O, bayramsayağı bəzənib-düzənmişdi. Geydiyi sürməyi yun yubka, döşü tikməli və qolu-yaxası krujevalı yarıipək-yarıyun mavi koftası ona yaxşı yaraşırdı. Üzündə zərif çəhrayılıq var idi. Bir az əvvəl sabunla əl-üzünü yuduğu üçün üzü azacıq parıldayırdı. O, sandıqda nə isə axtarırdı, lakin Qriqorini görən kimi sandığın qapağını örtdü və gülümsünərək dikəldi.

Qriqori sandığın üstündə oturub Natalyaya dedi:

– Bir qədər otur, yoxsa sabah çıxıb gedərəm, danışa bilmərik.

Natalya itaətlə onun yanında oturdu, ürkək baxışlarla ona çəpəki nəzər saldı. Lakin Qriqori gözlənilmədən onun əlindən yapışaraq nəvazişlə dedi:

– Sən elə qəşəngsən ki, elə bil heç xəstələnməmisən.

– Yaxşılaşmışam... Biz arvadların canı pişik canı kimi bərk olur, – deyə Natalya sözə başladı, cəsarətsiz bir şəkildə gülümsünüb başını aşağı dikdi.

Qriqori onun zərif qızartı çökmüş üstü xırda tüklərlə örtülü qulağına baxdı, gözü Natalyanın saçları arasına, boynunun sarımtıl dərisinə sataşdıqda soruşdu:

– Saçın tökülürmü?

– Demək olar ki, hamısı tökülüb, başım görsənir, tezliklə lap keçəl olacağam!

– Gətir başını dibdən ülgüclə qırxım, – deyə Qriqori birdən təklif etdi.

– Nə danışırsan? – Onda mən nəyə oxşaram?

– Saçını qırxdırmaq lazımdır, yoxsa tük bitməyəcəkdir!

– Anam demişdi ki, başımı qayçılayacaq, – deyə Natalya utana-utana gülümsündü və lillənmiş ağappaq yaylığını cəld başına örtdü.

O, Qriqorinin arvadı, Mişatka ilə Polyuşkanın anası, ərilə yanaşı oturmuşdu. O, Qrişa üçün bəzənib-düzənmiş və əl-üzünü sabunla yumuşdu. Xəstəlikdən sonra başının necə eybəcərləşdiyi görünməsin deyə, yaylığını cəld başına örtüb azacıq başını çiyninə doğru əymişdi; çox yazıq və pis otursa da hər halda yaraşıqlı idi, məchul və saf bir daxili gözəllik duyulurdu. O, həmişə yaxası dik paltar geyərdi ki, boynunu eybəcərləşdirmiş çapığı Qriqori görməsin. Bunun hamısını ondan ötrü etmişdi... Qriqorinin ürəyinə qüdrətli bir mərhəmət dalğası doldu. O, Natalyaya nə isə mehriban və hərarətli bir söz demək istədi, lakin münasib söz tapmadı, onu kirimişcə özünə doğru çəkərək, ağ girdə alnından və kədərli gözlərindən öpdü.

Yox, əvvəllər o heç bir zaman Natalyanı əzizləməmişdi. Aksinya ömrü uzunu onun qabağında çəpər olmuşdu. Ərinin göstərdiyi bu cür mehribanlıqdan sarsılmış və həyəcanından tamamilə pörtmüş Natalya Qriqorinin əlindən yapışıb dodaqlarına sarı çəkdi.

Bir dəqiqəyə qədər sakitcə oturdular. Batmaqda olan günəş otağa qırmızı şüalar salmışdı. Uşaqlar artırmada səs-küy salırdı. Daryanın yaxşı qızarmış qovurmanı sobadan necə çıxartdığı, narazı bir şəkildə qayınanasına bu sözləri dediyi aydınca eşidilirdi: "Siz yəqin ki, inəkləri də hər gün sağmırsınız! Qoca inək nə isə az süd verməyə başlamışdır..."

Naxır qayıdıb gəlirdi. İnəklər mələşir, naxırçılar şallaqlarını şappıldadırdılar. Xutor buğası xırıltılı və kəsik-kəsik böyürürdü. Onun ipək kimi yumşaq döşünü və hamar belini mozalan dişləyib qanatmışdı. Buğa acıqlı-acıqlı başını yırğalayırdı, birdən qısa, bir-birindən aralı buynuzlarını Astaxovların çəpərinə keçirdərək, çəpəri uçurdu və yoluna davam etdi. Natalya pəncərədən baxıb dedi:

– Buğa Donun o tərəfinə keçmişdi. Anam danışırdı ki, xutorda atışma düşən kimi buğa o saat örüşdən Dona tərəf qaçaraq çayı keçmişdi, həmişə gizlənirdi.

Qriqori fikirli-fikirli susurdu. Natalyanın gözləri niyə belə qəmlidir. Bu gözlərdə nə isə gizli, gah görsənən, gah qeybə çəkilən sezilməz bir sirr var idi. Natalya şadlığında da kədərli və bir növ anlaşılmaz olurdu... Yoxsa o, Veşenskayada Qriqorinin Aksinya ilə yenə tez-tez görüşdüyünü eşitmişdi? Nəhayət o soruşdu:

– Niyə belə tutqunsan? Ürəyində nə dərdin var, Natalya? Gəlsənə, söyləyəsən!

Qriqori göz yaşları, məzəmmətlər gözləyirdi... Lakin Natalya qorxmuş halda cavab verdi:

– Yox, yox, sənə elə gəlir, heç bir şey yoxdur... Düzdür, mən hələ əməlli-başlı sağalmamışam. Başım hərlənir, əyiləndə, yaxud bir şey qaldıranda gözlərimə qaranlıq çökür.

Qriqori onu sınayırcasına süzdü və yenə soruşdu:

– Mənsiz burada sənə dəyən olmamışdır ki... Toxunan yoxdur ki!

– Yox, nə danışırsan! Mən həmişə xəstə yatmışam. – O düz Qriqorinin gözünün içinə baxdı və hətta azacıq gülümsündü. Bir qədər susduqdan sonra soruşdu: – Sübh tezdənmi yola düşəcəksən?

– Səhər açılan kimi.

– Bir gün qala bilməzsən? – Natalyanın səsində hürkək və cəsarətsiz bir ümid vardı.

Lakin Qriqori başını buladı; Natalya köksünü ötürərək dedi:

– İndi sən necə... Poqonlarını tikmək lazımdırmı?

– Lazım gələcəkdir!

– Onda köynəyini çıxart, hələ göz görürkən tikim! Köynəyin hələ də təri qurumamışdı. Köynəyin dalında və çiyinlərində çiyin qayışlarının sürtüb parıldatdığı yerlərdə nəm, qaramtıl zolaqlar vardı. Natalya rəngi solmuş poqonları sandıqdan çıxardaraq soruşdu:

– Bunlarımı tikim?

– Özüdür ki, var! Saxlamısan?

– Biz sandığı yerə basdırmışdıq! – deyə Natalya iynənin gözünə sap keçirdərək astadan danışdı, tozlu üst köynəyini xəlvətcə üzünə yaxınlaşdırıb tanış, duz qoxusu gələn tər iyini məmnuniyyətlə iylədi...

– Bu nədir, sən nə edirsən? – deyə Qriqori təəccüblə soruşdu.

– Sənin iyin gəlir... – deyə Natalyanın gözləri parıldadı və bir-dən-birə yanaqlarını bürümüş qızartını gizlətmək üçün başını əydi, tez-tez iynəsini işlətməyə başladı.

Qriqori üst köynəyini geydi. Qaşqabağını sallayıb, çiyinlərini tərpətdi.

– Bunları taxanda sən qəşəng görünürsən, – deyə Natalya aşkar bir fərəhlə ərinə baxdı.

Lakin Qriqori özünün sol çiyninə çəpəki baxaraq köksünü ötürdü:

– Kaş bunların üzünü ömrümdə görməyə idim. Sən dünyada heç şey anlamırsan!

Onlar sandığın üstündə bir-birinin əlindən tutaraq hər kəs öz düşüncəsinə dalaraq uzun müddət oturdular.

Sonra tikintilərin qalın və abı kölgələri soyumuş torpağa səriləndə qalxıb mətbəxə, xörək yeməyə getdilər.

Gecə də gəlib keçdi. İşıqlaşana qədər göydə şölələr yandı, dan yeri ağarıncaya qədər albalı bağında bülbüllər cəh-cəh vurdu. Qriqori yuxudan oyandı, gözlərini qapayaraq xeyli vaxt yerindən qalxmadı, bülbüllərin gözəl və xoş nəğmələrini dinlədi, sonra Natalyanı yuxudan oyatmamağa çalışaraq ehmalca qalxdı, paltarını geyinib həyətə çıxdı.

Panteley Prokofyeviç Qriqorinin atına yem verirdi, o Qriqoriyə qulluq göstərənliklə dedi:

– Yola çıxmazdan əvvəl aparım onu bir yaxşı yuyummu?

– Onsuz da keçər, – deyə Qriqori səhərin rütubətindən büzüşərək cavab verdi.

– Yaxşı yatıbsanmı? – deyə qoca soruşdu.

– Yaxşı yatmışam! Amma bu bülbüllər yuxudan oyatdı. Bütün gecəni səhərə qədər yamanca özlərini yırtıblar!

Panteley Prokofyeviç yem torbasını atın başından çıxarda-çıxarda gülümsündü:

– Ay oğul, onların da işi budur də. Bəzən adam Allahın bu xırda quşcuğazlarının həyatına qibtə edir... Nə müharibə tanıyırlar, nə fəlakət...

Proxor atın üstündə darvazaya yaxınlaşdı. O, üzünü tərtəmiz qırxdırmışdı, həmişəki kimi şad və danışqan idi. Cilovu xışa bağlayıb Qriqoriyə yaxınlaşdı. Onun parusin köynəyi səliqə ilə ütülənmiş, çiyinlərinə də təzə poqon tikilmişdi.

Proxor Qriqoriyə yaxınlaşa-yaxınlaşa dedi:

– Qriqori Panteleviç, sən də poqon taxmısan? Zəhrimarlar bir yerə atılıb qalmışdı! İndi biz onları ha taxaq ki, köhnələcəkdir! Ölüncəyə qədər bizə çatar! Arvadıma dedim ki, "ay axmaq, bunu elə tikmə ki, ölənəcən qalsın, bekarca ilişdir ki, külək qoparıb atmasın, vəssalam!" Yoxsa kim bilir, başımıza nə gələcək? Əsir düşən kimi, o saat poqonlarımıza görə xəkrizləyəcəklər; düzdür, mənim rütbəm zabit rütbəsi deyil, amma fərqi nədir, baş uryadnik poqonu taxıram. "Aha, deyəcəklər bacar!" Görürsən, necə, amanatı tikilmişdir? Lap gülüncdür!

Proxorun poqonları, doğrudan da, nazik sapla tikilmişdi və birtəhər dayanırdı.

Panteley Prokofyeviç qaqqıltı ilə güldü. Onun çallaşmış saqqalı arasından vaxtın toxuna bilmədiyi ağ dişləri parladı.

– Bax, buna döyüşçü deyərlər! Deməli, bir az iş bərkə düşən kimi poqonlar gedəcək işinə?

– Bəs sən nə güman edirdin? – deyə Proxor gülümsündü.

Qriqori də gülümsünüb atasına dedi:

– Görürsən, ay ata. Mənim necə çaparım var? Belə adamla fəlakətə düşən qətiyyən məhv olmaz!

– Qriqori Panteleviç, özün bilirsən ki, belə də deyirlər... Bu gün sən öl, sabah mən, – Proxor özünü təmizə çıxartmağa çalışdı və ehmalca poqonlarını qopardaraq, laqeyd bir şəkildə cibinə dürtdü. – Cəbhəyə yaxınlaşanda tikmək olar.

Qriqori cəld səhər çörəyini yedi və ailə üzvlərilə vidalaşdı.

İliniçna oğlunun üzündən öpərək astadan dedi:

– Məryəm ana özü səni hifz etsin! Sən indi bizim var-yox bircəmizsən...

Qriqori səsi titrəyə-titrəyə:

– Di bəsdir, uzaq səfərə gedən üçün ağlamazlar. Sağlıqla qalın! – dedi, ayrıldı və atına yaxınlaşdı.

Natalya qayınanasının qara ləçəyini başına salaraq qapıdan bayıra çıxdı. Uşaqlar onun balağından yapışmışdılar. Polyuşka aramsız hönkürür, göz yaşları içində boğularaq anasına yalvarırdı:

– Onu qoyma getsin, qoyma getsin, anacan! Müharibədə adamları öldürürlər! Dədəcan, ora getmə!

Mişatkanın da dodaqları əsirdi, lakin yox, o ağlamırdı. O, mərdcəsinə özünü toxtadır, bacığazına hirsli-hirsli deyirdi:

– Boş-boş danışma, ay səfeh! Orada hamını öldürmürlər ki!

O, babasının sözlərini yadında möhkəm saxlamışdı: kazak ömründə ağlamaz, kazak üçün ağlamaq çox ayıbdır. Lakin atası onu atın belinə qaldırıb yəhərdə oturdaraq üzündən öpdükdə, atasının kirpiklərinin yaş olduğunu görüb heyrət etdi. Burada Mişatka da özünü saxlaya bilmədi: onun da gözlərindən yaş dolu kimi səpələndi. O, atasının qayışlarla çal-çarpaz örtülü döşünə qısılaraq qışqırdı:

– Qoy davaya babam getsin. O burada bizim nəyimizə gərəkdir... İstəmirəm sən gedəsən!..

Qriqori oğlunu ehmalca yerə qoydu, əlinin dalı ilə gözlərinin yaşını sildi və kirimişcə atını tərpətdi.

Əsgəri xidmət atı sərt şəkildə geri çevrilərək, doğma artırma yaxınlığında dırnaqları ilə yeri eşərək, onu yollarla və cığırsız çöllərlə onlarca dəfə cəbhəyə, ölümün kazakları qara bir taun kimi biçib tökdüyü yerlərə, kazak mahnısında oxunduğu kimi: "Hər gün, hər saat dəhşət və fəlakət" olan yerə aparmış, lakin Qriqori heç vaxt xutoru bu boş səhər çağındakı qədər ürəyində ağrı, dərd tərk etməmişdi.

O, anlaşılmaz ürək dammaları, təşviş və qüssə içində atını sürüb cilovu yəhərin qaşına keçirdərək gedir, qayıdıb geri baxmırdı; təpənin başına qədər o beləcə getdi. Dörd yolayrıcında, yol yel dəyirmanına doğru burulan yerdə Qriqori dönüb geriyə baxdı. Qapının ağzında təkcə Natalya dayanmışdı. Səhər nəsimi onun qara matəm ləçəyini dartıb əlindən almaq istəyirdi.

Küləkdən göyün əngin liyində qalaqlanmış buludlar süzür, süzürdü. Üfüqün dalğalı ətəkləri üzərinə bir sərab sərilmişdi. Atlar addımla yeriyirdi. Proxor yəhərdə yırğalandıqca mürgüləyirdi. Qriqori dişlərini qıcayaraq tez-tez qayıdıb dala baxırdı. O, əvvəlcə bədmüşk ağaclarının yaşıl təpəsini, qəşəng-qəşəng burulan gümüşü Donu görür, yavaş-yavaş fırlanan yel dəyirmanının pərlərinə tamaşa edirdi. Sonra yol cənuba tərəf dönüb, taxıl yerinin arasında gözdən itdi. Don, yel dəyirmanı görünməz oldu. Qriqori nəyi isə fitlə çala-çala gözünü atının xırda muncuq kimi tərlə dolu qızılı sarı boynuna zilləmişdi, daha yəhərin üstündə dönüb geri baxmırdı... Dava olanda nə olar, cəhənnəmə ki! Çirdə də müharibələr oldu, Dondan da gəlib keçər, sonra Xoprada, Medveditsada, Buzulukda gurultu salar. Bir də, nəhayət, düşmən gülləsinin onu harada yerə sərəcəyinin nə əhəmiyyəti var?

IX

Vuruşma Ust-Medveditsa stanitsası yaxınlığında gedirdi. Qriqori cığırdan keçərək Getman yoluna çıxdı və buradan uzaqdan atılan və boğuq səsi gələn top atəşi eşitdi.

Yol uzunu hər tərəfdə qırmızı hissələrin tələsik geri çəkildikləri aşkar görünürdü. Tərk olunmuş çoxlu iki və dördtəkərli arabalar qalmışdı. Matveyevsk xutorunun kənarında, dərədə, çaxmağını top gülləsi sındırmış və lülə yeri möhkəm əzişdirilmiş bir top qalmışdı. Top arabasının qabaq qoluna keçirilmiş qayış çəpinə kəsilmişdi. Dərədən yarım verst uzaqda, şoranlıq bir yerdə, gündən qovurulmuş otluqda yığın-yığın döyüşçü meyiti görünürdü: onların hamısının əynində xaki rəngli üst köynəyi və şalvar, ayaqlarında dabanı möhkəm nallanmış çəkmə var idi, hamısının baldırlarına dolaq sarınmışdı. Bunlar kazak atlıları tərəfindən yaxalanmış və qılıncdan keçirilmiş qızıl əsgərlər idi.

Qriqori at belində yol ilə keçərkən bunu asanlıqla ondan bildi ki, adamların büzüşmüş köynəklərinin üstündə çoxlu qan qurumuşdu, meyitlər pərakəndə sərilmişdi, çalınmış ot kimi tökülmüşdü. Kazaklar onların paltarını, güman ki, təqibi davam etdirdiklərinə görə soyundura bilməmişdilər.

Yemişan kolunun yaxınlığında bir kazak meyiti vardı. Onun gen açılmış ayaqlarındakı şalvarın lampasları qızarırdı. Kazakdan bir az aralı, onun vurulmuş açıq kürən atı yerə sərilmişdi, atın belindəki yəhər köhnə idi. Yəhərin taxtası sarı rəngə boyanmışdı.

Qriqori ilə Proxorun atları lap taqətdən düşmüşdü. Onları otarmaq lazım idi, lakin Qriqori bir az əvvəl müharibə meydanı olmuş bir yerdə dayanmaq istəmirdi. Odur ki, o bir verst qədər də yol getdi, dərəyə enib atın başını saxladı. Bir az o yanda, məcrası bəndinə qədər yaş bir gölməçə görünürdü. Proxor atını sürüb, kənarları çatdaq-çatdaq olmuş gölməçənin yanında düşmək istədi, lakin dərhal atını saxlayıb geriyə sürdü.

– Nə var ki, orada? – deyə Qriqori soruşdu.

– Atını yaxına sür! Gör nə var.

Qriqori atını bəndə tərəf sürdü. Suyun məcrasında bir arvad meyiti var idi. Onun üzünü göy tumanının ətəyi ilə örtmüşdülər. Sağrıları gündən qaralmış, dizlərinin ətində çökəklər əmələ gəlmiş, dolğun ağ ayaqları biabırçı və qorxunc bir şəkildə yanlara doğru açılmışdı. Sol qolu kürəyinin altında qalmışdı.

Qriqori cəld atdan düşdü, furajkasını götürdü, əyildi və meyitin tumanını düzəltdi. Qadının qarabuğdayı cavan çöhrəsi indi də gözəl idi. Çəkdiyi əzabdan bir qədər çatılmış qara qaşları altında yarıya qədər qapanmış gözləri sönük-sönük işıldayırdı, açıq qalmış qəşəng ağzında sıx dişləri sədəf kimi parıldayırdı. Nazik hörükləri ota söykənmiş yanağını örtmüşdü. Ölümün sapsarı zəfəran kimi kölgəsi çökmüş bu yanaqda indi atlı kimi çapan qarışqalar yerişirdi.

– İt uşağı! Gör necə əlləri gəlib belə gözəli öldürüblər, – deyə Proxor astaca səsləndi.

O bir dəqiqəyə qədər susdu, sonra qəzəblə tüpürdü.

– Mənim əlimə düşsə, belələrini, belə ağıllıları divara dirəyərdim! Gəl buradan çıxaq gedək, sən Allah. Mən bu arvada baxa bilmirəm. Ürəyim ağzıma gəlir!

– Gəlsənə onu basdıraq, hə? – deyə Qriqori soruşdu.

– Bu nədir, biz bütün ölüləri basdırmağı boynumuza götürməmişik ki? – deyə Proxor hiddətləndi. – Yaqodnıda bir qoca kişini dəfn elədik, indi də bu qadını... Biz bunların hamısını basdırmağa başlasaq, onda əllərimiz tamam qabar bağlar! Tutaq ki, basdırası olduq, bəs qəbiri nə ilə qazacağıq? Dostum, qılıncla qəbir qazılmaz; istidən yer bir arşın quruyub daşa dönübdür!

Proxor o qədər tələsirdi ki, ayağının ucunu güclə üzəngiyə keçirə bildi.

Təzədən təpənin üstünə çıxdılar, burada nə barədə isə gərgin fikirləşən Proxor soruşdu:

– Panteleviç, bəs deyil bu qədər qan axıdıldı?

– Demək olar ki, bəsdir.

– Sənin ağlın nə kəsir, bu işlərin axırı tezmi çatacaq?

– Bizi birtəhər eləyən kimi bu qalmaqal da qurtarar.

– Allah o günü heç düşmənə də qismət eləməsin! Heç olmasa bizi tez birtəhər edəydilər. Alman davasında, mağıl, birisi güllə ilə öz barmağını vurub qıran kimi onu sağ-salamat evinə buraxırdılar, indi isə istəyirsən on barmağının onunu da kəs, fərqi yoxdur, yenə də zorla qulluğa məcbur edirlər. Qolu əyri olanı da, çolağı da, çəpgözü də, qarnı yırtığı da, hər cür əclafı da aparırlar, təki, iki ayağı olsun. Belə olanda, heç zəhrimar dava qurtararmı? Allah bunları qırsın! – Proxor nifrətlə deyindi və yoldan çıxıb dodağı altında nə isə mızıldanaraq, atdan düşdü, atın tapqırlarını boşaltmağa başladı.

Qriqori Ust-Medveditsa yaxınlığındakı Xovansk xutoruna çatanda gecə idi. 3-cü polkun xutorun kənarına qoyulmuş keşikçiləri onu saxladı, lakin kazaklar, səsindən bunun öz diviziya komandirləri olduğunu tanıdılar və Qriqorinin suallarına cavab olaraq bildirdilər ki, diviziya qərargahı həmin xutorda yerləşmiş və qərargah rəisi bölük komandiri Kopılov səhərdən onun yolunu gözləyir. Keşikçilərin boşboğaz rəisi öz dəstəsindən bir kazak atlandırdı. Qriqorini qərargaha qədər ötürməsini ona tapşırdı; axırda da dedi:

– Qriqori Panteleviç, onlar yerlərini yamanca bərkidiblər və belə güman edirəm ki, biz Ust-Medveditsanı bu tezliklə ala bilməyəcəyik. O biri cəhətdən götürsək, kim bilir nə olacaq... Bizim də kifayət qədər qüvvəmiz var. Belə danışırlar ki, guya Morozovskaya tərəfdən ingilis qoşunu gəlir. Siz də belə bir söz eşitmisinizmi?

– Yox, – deyə Qriqori atını sürdü.

Qərargah yerləşən evin pəncərə qapaqlarını kip örtmüşdülər. Qriqori elə zənn etdi ki, otaqlarda adam yoxdur, lakin dəhlizə keçəndən sonra içəridə astadan şirin söhbət eşitdi. Gecə qaranlığında gəldiyinə görə, dəhlizin tavanından asılmış böyük lampanın işığı gözlərini qamaşdırdı, tünd və acı maxorka tüstüsü burnunu gicişdirdi.

– Axır ki, gəldin! – deyə stolun üstünə çökmüş göyümtül tütün dumanı içindən görsənən Kopılov sevinclə səsləndi. – Dostum, heç bilirsən nə qədərdir səni gözləyirik?

Qriqori evdəki adamların hamısı ilə əl tutuşub görüşdü, şinelini və furajkasını çıxardı, stolun dalına keçdi.

– Nə çox papiros çəkmisiniz, nəfəs almaq mümkün deyil! Heç olmasa bu pəncərənin bir tayını açın, nə olub, qapı-pəncərəni bu cür bərkidibsiniz! – deyə o, üz-gözünü turşutdu.

Kopılovla yanaşı oturmuş Xarlampi Yermakov gülümsündü:

– Biz bu tüstüyə öyrəşmişik, ona görə də bir şey duymuruq, – dedi və var gücü ilə pəncərə qapılarını dartıb, şaqqıltı ilə açdı, şüşələri sındı.

Sərin gecə havası otağa doldu. Lampa alovlandı və sonra da söndü.

– Bax, mal qədri bilmək buna deyərlər! Şüşələri niyə basıb qırdın? – deyə Kopılov əlini stolun üzərində gəzdirərək deyindi. – Kimdə kibrit var? Ehtiyatla tərpənin, burada, xəritənin yanında mürəkkəb var.

Lampanı təzədən yandırdılar, pəncərənin qırılan tayını örtdülər və Kopılov yeyin-yeyin danışmağa başladı:

– Yoldaş Melexov, cəbhədə vəziyyət bugünkü gündə belədir: qırmızılar Ust-Medveditsa stanitsasını əldə saxlayır, onu üç tərəfdən təxminən dörd min nəfərlik bir qoşun qüvvəsilə qoruyurlar. Özlərinin də kifayət qədər topu və pulemyotu vardır. Monastır yanında, bir də bir neçə başqa yerdə xəndək qazıblar. Don üstündəki dikləri də elə keçirmişlər. Hə, mövqelərinin necəliyinə gəlincə demək olmaz ki, onların mövqeyi alınmazdır, lakin hər halda, fəth etmək üçün xeyli çətin bir mövqedir. Bizim tərəfdə isə, düşmənin qabağında general Fitsxelaurovun diviziyasından və iki hücumçu zabit dəstəsindən başqa, bütünlükdə Boqatıryovun təzə gəlmiş 6-cı briqadası və bizim birinci diviziya durur. Lakin diviziyanın tərkibi tam deyildir, hələ ki, piyada polku yoxdur, bu polk Ust-Xoperskaya tərəfdədir, atlılar isə hamısı gəlmişdir, amma bölüklərdəki adamların sayı natamamdır.

Kopılovun dediyi bu sözü doğruldaraq, 4-cü polkun komandiri Dudaryov:

– Məsəl üçün, mənim polkumdakı üçüncü bölükdə ancaq otuz səkkiz kazak var, – dedi.

– Bəs əvvəlcə nə qədər idi? – deyə Yermakov soruşdu.

– Olub doxsan bir nəfər.

– Bəs sən nə ixtiyarla bölüyü dağıtmısan? Sən nə cür komandirsən? – deyə tutulmuş Qriqori barmağını stola döydü.

– Saxlamaq mümkün deyil! Xutorların arasında bir-bir itdilər, görüşməyə getdilər, qayıdıb gələrlər. Bu gün üçü gəlib çıxmışdır.

Kopılov xəritəni Qriqoriyə tərəf çəkdi, çeçələ barmağı ilə qoşun hissələrinin yerləşdiyi sahəni göstərərək, sözünə davam etdi:

– Biz hələ hücuma cəlb edilməmişik. Bizim yalnız ikinci polkumuz dünən piyada qaydasında, bax, burada hücuma keçmişdi, lakin nəticəsiz oldu.

– Tələfat çoxdur?

– Polk komandirinin verdiyi məlumata görə dünən onun hissəsindən ölənlərlə yaralananlar iyirmi altı adam olmuşdur. Bəli, qüvvələr arasındakı nisbət də belədir: bizim qoşun sayca düşməndən üstündür, lakin piyadaların hücumuna dayaq olmaq üçün pulemyotumuz çatışmır, top gülləsi cəhətdən də işimiz şuluqdur. Onların sursat rəisi bizə söz vermişdi ki, sursat gətirilən kimi sizə dörd yüz top gülləsi və yüz əlli min də patron verəcəyik. Lakin onlar sursatı kim bilir nə vaxt gətirəcəklər, halbuki hücuma sabah keçmək lazımdır, general Fitsxelaurovun əmri belədir. O bizə, hücumçulara kömək üçün bir polk qoşun ayırmağımızı təklif edir. Onlar dünən dörd dəfə həmlə etdilər və çox böyük tələfat verdilər. Ay inadla vuruşdular ha! Bəli, Fitsxelaurov sağ cinahı gücləndirməyi və zərbə mərkəzini buraya keçirməyi təklif edir, görürsənmi? Burada mövqe şəraiti düşmən səngərinə yüz, yüz əlli sajına qədər yaxınlaşmağa imkan verir. Onu da deyim ki, generalın adyutantı indicə yola düşdü. O bizə – səninlə mənə – sabah səhər saat altıda hərəkəti razılaşdırmaq üçün çağırılan müşavirədə iştirak etməyə dair şifahi tapşırıqla gəlmişdi. General Fitsxelaurov və onun diviziya qərargahı indi Bolşaya Senina xutorundadır. Ümumi vəzifə bundan ibarətdir ki, düşmən, ona Sebryakov stanitsasından kömək gələnə qədər, mövqeyindən çıxarılmalıdır. Donun o tayında bizimkilər çox da fəaliyyət göstərmirlər... Dördüncü diviziya Xoper tərəfdən bu taya keçmişdir, lakin qırmızılar güclü müqavimət dəstəsi göndərmişlər və dəmiryolna doğru gedən yolları əllərində möhkəm saxlayırlar. İndi isə hələlik onlar Donun üstündən süni körpü salmışlar, tələsik Ust-Medveditsaya hərbi ləvazimat və sursat aparırlar.

– Kazaklar çərənləyirlər ki, guya müttəfiqlərimiz bizə köməyə gəlir, düzdürmü?

– Belə bir şayiə var ki, Çernışevskayadan bu tərəfə bir neçə ingilis batareya və tankları gəlir. Bu məsələdə belə bir sual meydana çıxır: onlar bu tankları Donun üstündən necə keçirdəcəklər? Mənə elə gəlir ki, tank söhbəti axmaq sözdür! Bunu nə vaxtdır elə hey danışırlar...

Otağa uzun sükut çökdü.

Kopılov zabitlərə məxsus qəhvəyi frençinin yaxasını açdı, üstü şabalıd rəngdə tüklərlə örtülmüş kök yanaqlarına dirsəkləndi, sönmüş papirosunun kötüyünü fikirli-fikirli və sürətlə çeynədi. Onun geniş açılmış girdə, qara gözləri yorğunluqdan qıyılmışdı, göyçək üzü yuxusuz gecələrdən əzilmiş kimi idi.

O bir zamanlar stanitsada ruhani məktəbində müəllimlik edirdi, bazar günləri stanitsa tacirlərinə qonaq gedər, tacir arvadları ilə dərdləşər və tacirlərlə az puldan preferans oynardı. Çox məharətlə gitara çalardı. Müxtəsər, o çox kefcil, mehriban bir cavan oğlan idi; sonra gənc bir müəllimə ilə evləndi və beləcə stanitsada qalıb, dünyanı yola verəcək və yəqin ki, təqaüd də alacaqdı, lakin müharibədə onu da əsgəri xidmətə çağırdılar. Yunkerlik məktəbini bitirəndən sonra onu Qərb cəbhəsinə – kazak polklarından birinə göndərdilər. Müharibə Kopılovun nə xasiyyətini, nə də zahiri görünüşünü dəyişdirdi. Onun qısaboylu, dolğun gövdəsində, mehriban çöhrəsində, qılınc qurşamasında, ondan aşağı vəzifədə olanlara qarşı münasibətlərində nə isə bir fağırlıq, bir sadəlik var idi. Onun səsində komandirlərə məxsus cingilti yox idi, danışığında hərbilərə məxsus qısa və mənalı ifadədən əlamət tapılmazdı, geyindiyi zabit forması əynində torba kimi görünürdü, cəbhədə keçirdiyi üç il ərzində hərbilərə məxsus qıvraqlıq və yığcamlığı öyrənməmişdi; hər şey onun müharibəyə təsadüfi bir adam kimi gəldiyini açıqca göstərirdi. Odur ki, o, əsl zabitdən artıq, zabit paltarı geymiş gombul bir meşşana oxşayırdı; bununla belə kazaklar ona ehtiram göstərirdilər; qərargah müşavirələrində dediklərinə baxırdılar, qiyamçıların komanda dəfələrlə igidlik göstərməsinə görə onu çox qiymətləndirirdilər.

Kopılovdan əvvəl, Qriqorinin qərargah rəisi savadsız və ağıldankəm bir zabit Krujilin idi. Onu Çir tərəfdəki vuruşmalardan birində öldürdülər və o gündən qərargahı təhvil alan Kopılov işi

bacarıqla, fərasətlə, ağılla idarə edirdi. O, qərargahda döyüş əməliyyatlarının planlarını tərtib etmək işində də, vaxtilə şagirdlərin yazı dəftərlərini düzəltdikdə oturduğu kimi, gecələr saatlarla oturub işləyirdi. Lazım gəldikdə, Qriqori tapşırıq verəndə qərargahı buraxıb ata minir və komandirliyi qəbul edərək, polku döyüşə aparırdı.

Qriqori əvvəlcə yeni qərargah rəisinə etinasız yanaşırdı, lakin iki ay keçəndən sonra, onu yaxından tanıdı və bir dəfə lap açıqca dedi: "Mən sənin haqqında Kopılov, sarsaq şeylər fikirləşirdim, indi görürəm ki, səhv etmişəm, ona görə də sən gərək məni bağışlayasan". Kopılov gülümsündü, bir az susdu, lakin çox güman ki, bu qaba etirafdan onun xoşu gəldi.

Şöhrətpərəstliyi və sabit siyasi etiqadı olmayan Kopılov müharibəni qarşısıalınmaz bir şey hesab edir və onun qurtarmasını gözləmirdi. İndinin özündə də o, Ust-Medveditsanı almaq üçün aparılacaq vuruşmaların necə gedəcəyini heç düşünmürdü, yalnız o, evdəki adamlarını, doğma stanitsasını xatırlayır və onu fikirləşirdi ki, ay yarımlıq məzuniyyət alıb evə getmək heç də pis olmazdı...

Qriqori xeyli vaxt Kopılova baxdı, sonra ayağa qalxdı.

– Hə, ataman kazakları, dağılışın, gedək yatışaq, Ust-Medveditsanı necə almaq üçün baş sındırıb, özümüzü yormağımızdan bir fayda yoxdur. İndi generallar məsələni bizim də əvəzimizdən fikirləşər və həll edərlər. Sabah Fitsxelaurovun yanına gedərik, o da biz yazıq binəvaların başına ağıl qoyar... İkinci polk haqqında isə mən bu fikirdəyəm; hələ ki, hakimiyyət bizim əlimizdədir, dərhal polk komandiri Dudaryovu qulluqdan çıxarmaq, bütün rütbə və ordenlərindən məhrum etmək lazımdır...

– Yeyəcəyi xörəkdən də məhrum etmək lazımdır, – deyə Yermakov dilləndi.

– Yox, zarafat bir yana, – deyə Qriqori sözünə davam etdi. – Bu gündən onu bölük komandirliyinə keçirmək və polk komandirliyinə Xarlampini göndərmək lazımdır. Yermakov, bu saat dur oraya get, polku təhvil al və səhər bizim sərəncamımızı gözlə. Onun dəyişdirilməsi haqqındakı əmri də bu saat Kopılov yazar və özünlə apararsan. Mən görürəm ki, Dudaryov düzəlməyəcəkdir. O, heç bir şey qanmır və belə getsə kazakları qırğına verəcək. Piyada vuruşması oyun-oyuncaq deyil. Axmaq komandirin əlində qoşunu qırdırmaq çox asan işdir.

– Düzdür, Dudaryovun dəyişdirilməsinə mən də tərəfdaram, – deyə Kopılov dilləndi.

Qriqori Yermakovun simasında bir növ narazılıq duyaraq soruşdu:

– Yermakov, nə oldu, əmrdən narazısan?

– Yox, narazılığım yoxdur. Niyə elə fikirləşirsən?

– Daha yaxşı. Yermakov da zidd deyil. Onun atlı polkunu da hələlik Ryabçikov götürsün. Mixail Qriqoriç, əmri yaz və get yat. Səhər saat altıda durmalısan ki, generalın yanına gedək, özünlə də dörd nəfər mühafiz götürərsən.

Kopılov təəccüblə qaşlarını çatdı:

– O qədər mühafiz nəyə lazımdır?

– Yaraşıq üçün! Görsünlər ki, biz də uşaq-muşaq deyilik, diviziyada komanda edirik. – Bunu deyib Qriqori çiyinlərini dəbərdədəbərdə bərkdən güldü, şinelini çiyninə saldı və qapıya doğru yönəldi.

Qriqori atın tərliyini başının altına qoydu, çəkmələrini və şinelini çıxarmadan mərəyin çardağı altında uzandı. Mühafizlər həyətdə xeyli vaxt söhbət etdi, harada isə yaxınlıqda atlar fınxırır, aramla yem yeyirdilər. Gündüzün istisindən soyumamış torpaqdan quru təzək iyi gəlirdi. Qriqori mürgüləyir və ara-sıra mühafizlərin danışıq və gülüşməsini eşidirdi; bir nəfərin səsindən ehtimal ki, gənc bir mühafizin atı yəhərləyə-yəhərləyə köksünü ötürərək dediyi sözləri aydınca eşidirdi:

– Ey, ay uşaqlar, at belində gəzməkdən lap cəzanə gəldik! Gecə-gündüz paket apar, nə yuxumuz var, nə dincliyimiz!.. Ay çər dəymiş, dayan bir görək! Ayağını qaldır! Ayağını deyirlər sənə!

O biri isə kallaşmış yoğun səslə astadan mahnı oxuyurdu:

– Eh, ay əsgərlik, sən bizi lap cana gətirdin. Gözəl atcığazlarımızı əldən saldın... – Bunun dalınca yalvarıcı bir səslə yeyin-yeyin yoldaşına dedi: – Proşka, bir papirosluq bura maxorka tök görüm! Ay xəsissən ha! Belavin yaxınlığında sənə bir qızıl əsgər çəkməsi bağışladığım yadından çıxıb? Ay köpək oğlu, çəkməni bir ayrısına vermiş olsaydım, bu yaxşılığı ömrü uzunu yadından çıxarmazdı! Səndən bir papirosluq maxorka da çıxartmaq olmur!

Atın ağzına dəhnə keçirildiyi eşidildi. At bütün gövdəsi ilə nəfəs aldı, quru və çaxmaqdaşı kimi sərt torpaq üzərində tappıltı saldı. Qriqori də yuxu basmış gözünü açaraq gülümsədi və fikrində

o da: "Hamı bunu deyir... Eh, ay əsgərlik, sən bizi lap cana gətirdin" deyə təkrar etdi və dərhal yuxuladı. Yatan kimi də yuxu gördü; bu yuxunu o əvvəlcə də görmüşdü: boz bir çöllə, uca qoruğun içi ilə qızıl əsgər səfləri gəlir. Ön səflərin ucu-bucağı görünmür. Birinci səfin ardınca daha altı, yaxud yeddi səf gəlir, hücuma keçmiş qırmızılar insanın ürəyini üzən bir sükutla yaxınlaşırlar. Uzaqda qaralan adamlar getdikcə böyüyür, yekəlirlər və budur səndələyə-səndələyə yeyinləyən adamların necə gəldikləri görünür. Odur gəlirlər, lap tüfəng mənzilinə çatırlar, başlarına qulaqlı papaqlar qoymuş adamlar tüfəngləri döşlərinə götürmüş, ağızları geniş açılmış halda gəlirlər. Budur, Qriqori dayaz bir səngər içinə uzanmışdır. Əlləri əsə-əsə tüfəngin çaxmağını işlədir, tez-tez güllə atır; o, güllə atdıqca qızıl əsgərlər aşırılıb yerə sərilir; Qriqori tüfəngin sandığına bir daraq da güllə qoyur və ətrafına boylananda belə bir mənzərə görür: qonşuluqdakı səngərlərdən kazaklar sıçrayıb çıxır və geriyə qaçırlar; hamısını vahimə bürümüşdür, Qriqori sürətlə döyünən ürəyinin səsini özü də eşidir. Çığırır: "Atın! Köpək uşağı! Haraya?! Dayan, qaçma!.." O, gücü gəldiyi qədər qışqırır, lakin onun səsi heyrət ediləcək dərəcədə zəifdir, güclə eşidilir. Onun özü də dəhşətlənir. Onun özü də yerindən sıçrayıb qalxır və dinməzcə üstünə gələn ortayaşlı, qarabuğdayı bir qızıl əsgərə axırıncı güllәsini ayaq üstə atır, görür ki, gülləsi dəymədi. Qızıl əsgərin qəzəbli simasında heç bir qorxu əlaməti yoxdur. O, çox rahat yüyürür, demək olar ki, ayağı heç yerə dəymir, qaşları çatılmış, şapkası peysərinə doğru enmiş və şinelinin ətəkləri belinə sancılmışdır. Qriqori onun üstünə gələn düşməni bir an içərisində diqqətlə nəzərdən keçirir; onun parlaq gözlərini və qıvrım saqqalını, ağarmış yanaqlarını görür; çəkməsinin qısa, enli boğazlığını görür, bir az aşağıya salınmış tüfənginin qaralan lüləsini və lüləyə keçirilmiş, ayaqlarının hərəkətinə uyğun olaraq titrəyən iti süngünü görür. Qriqorini sonsuz bir qorxu bürüyür. O, tüfənginin çaxmağını çəkib çıxarmaq istəyir, lakin çaxmaq çıxmır, şişmişdir. Qriqori böyük bir şaşqınlıqla çaxmağı dizinə çırpır, – bu da heç bir fayda vermir! Qızıl əsgər isə yaxınlaşmışdır, aralarında cəmisi beş addımlıq məsafə var. Qriqori geriyə dönür və qaçır. Qarşısındakı bomboz çılpaq səhra boyu qaçışan kazakları görür. Qriqori arxa tərəfdən onu qovan adamın ağır hənirtisini, tappıltısını eşidir, bərk qaçmaq istəyir, lakin bacarmır.

İradəsi xilafına olaraq ağırlaşan ayaqlarını açıb, irəli qaçmaq üçün son dərəcə qüvvə sərf etmək lazım gəlir. Nəhayət, özünü yarım xarabazar qəmgin bir qəbiristana çatdırır, çökmüş qəbirlərin üstündən tullanır, böyrü üstə yatmış sərdabaların və xaçların arası ilə yüyürür. Bir qədər də uzaqlaşsaydı, canını qurtarmış olacaqdı. Lakin burada arxadan gələn ayaq səsi getdikcə artır, qulaqbatırıcı olur. Təqib edənin nəfəsi Qriqorinin boynunu yandırır və o dəqiqə hiss edir ki, onun şinelinin toqqasından və ətəyindən tuturlar. Qriqori boğuq səslə qışqırır və yuxudan oyanır, arxası üstə çevrilir. Dar çəkmədən sıxılan ayaqları şişmişdir, alnında soyuq tər var, bütün bədəni döyülmüş kimi ağrıyır. "Ah, lənət sənə, şeytan!.." deyə o fısıldayır, öz səsini özü məmnuniyyətlə dinləyir və hələ də inanmır ki, indicə başına gələn qəzavü-qədərin hamısı yuxuda olmuşdur. Sonra o, böyrü üstə çevrildi, şinelini başına çəkib xəyalən dedi: "Bu adamı lap yaxına buraxmaq, sonra bir zərbə ilə vurmaq, tüfəngin qundağı ilə aşırmaq, sonra qaçmaq lazım idi..." O, ikinci dəfə gördüyü bu yuxu haqqında bir dəqiqəliyə xəyala daldı, sevincək bir həyəcan keçirdi və bunların hamısı pis bir yuxudan başqa bir şey deyil, həqiqətdə heç bir şey onu qorxu altına almamışdır deyə: "Qəribədir, görəsən yuxuda gördüyüm bu əhvalat həqiqətdəkindən nə üçün on qat müdhişdir? Bu qədər qorxulu vuruşmalarda oldum, amma ömrümdə belə qorxduğum olmamışdır?" düşüncəsi Qriqorinin xəyalından keçdi, yenə yuxuya getdi və yorğun ayaqlarını ləzzətlə yığdı.

X

Səhər hava işıqlaşanda Kopılov onu yuxudan oyatdı.

– Qalx, getmək vaxtıdır! Əmr olunmuşdur ki, saat altıda orada olaq!

Qərargah rəisi yenicə üzünü qırxmış, çəkmələrini təmizləmiş və qırışmış, lakin təmiz frençini geymişdi. Görünür, tələsirmiş, şişman yanaqlarını iki yerdən ülgüc kəsmişdi. Lakin indi onun görkəmində bu vaxta qədər onda görünməyən şıqlıq hiss olunurdu.

Qriqori onu təpədən-dırnağa qədər diqqətlə nəzərdən keçirib, belə düşündü: "Buna bax, gör necə bəzənib! Generalın yanında özünü sındırmaq istəmir!.."

Kopılov, Qriqorinin düşüncəsini izləyirmiş kimi dedi:

– Səliqəsiz getmək yaxşı deyil. Sənə də üst-başını düzəltməyi məsləhət görürəm.

– Belə də keçər! – deyə Qriqori gərnəşdi. – Deyirsən səhər altıda hazır olmaq əmri verilmişdir? Səninlə mənə əmr verməyə başlayıblar?

Kopılov gülümsünüb çiyinlərini çəkdi:

– Vaxt dəyişəndə mahnılar da təzələnir. Rütbəyə görə biz onlara tabe olmalıyıq. Fitsxelaurov generaldır, o bizim yanımıza gələsi deyil ki!

– Orası elədir. Niyyətin hara, mənzilin də ora, – deyə Qriqori durdu və əl-üzünü yumaq üçün quyuya tərəf getdi.

Ev sahibəsi tez evə girdi, təmiz məhrəba gətirdi. Təzimlə Qriqoriyə verdi. Qriqori məhrəbanın ucu ilə soyuq sudan qırmızı kərpic kimi pörtmüş üzünü tələsik sildi, yaxınlaşan Kopılova dedi:

– Orası elədir: ancaq general cənabları bunu da düşünməlidirlər ki, inqilabdan sonra xalq dəyişmişdir, elə bil təzədən törəmədir! Amma onlar hər şeyi yenə də köhnə arşınla ölçürlər. Bu köhnə arşınlar isə, bir də görürsən qırıldı... Keçidlərdə onlar əl vermir. Bir az beyinlərinə təkər yağı sürtülsə bəd olmaz, beyinləri açılar!

– Sən nə barədə danışırsan? – deyə fikri dağınıq Kopılov soruşdu və frençinin qoluna düşmüş çöpü üfürdü.

– O barədə ki, hər şey onlarda köhnə qayda ilə gedir. Budur, mən alman müharibəsindən bəri zabit rütbəsi almışam. Bu rütbəni mən qanımın bahasına qazanmışam. Amma zabit məclisinə düşən kimi, elə bilirəm bir yalxı tumanda məni otaqdan ayaza çıxarıblar. Onları görəndə, bədənimə dəhşətli bir üşütmə çökür! – Bu sözləri deyəndə, Qriqorinin gözləri dəli gözü kimi parladı və özü də hiss etmədən səsini ucaltdı.

Kopılov narazı halda ətrafa baxıb, yavaşca dedi:

– Bir az yavaş danış, mühafizlər eşidərlər.

– Axı nə üçün belə olur? – deyə Qriqori səsini yavaşıdaraq sözünə davam etdi. – Çünki mən onların nəzərində bir alaqarğayam. Onların əlləri var, mənimki isə guya köhnə at dırnağıdır! Onlar ayaqları üstə gəzirlər, mən isə guya imək ləyirəm. Onlardan sabun və ənlik-kirşan iyi gəlir, məndən isə at sidiyi və tər iyi gəlir. Onların hamısı alim adamlardır, amma mən kilsə məktəbini gücbəla

qurtarmışam. Mən təpədən-dırnağa onlara yabancıyam. Bax, bunların hamısının səbəbi budur! Mən onların yanından bayıra çıxan kimi hər şey əlimdən gələr, elə bil üzümə hörümçək toru sərilmişdir, götürüldümü, onlarla mənimki tutmur, zəhləm gedir, ona görə də uzaqlaşıb, biryolluq saflaşmaq istəyirəm. – Qriqori məhrəbanı quyu taxtasının dəstəyinin üstünə tulladı, sınıq sümük daraqla saçlarını daradı. Onun gün dəyməmiş alnı qarabuğdayı üzündən çox seçilirdi, ağ idi. – Onlar başa düşmək istəmirlər ki, bütün köhnəliklər rədd olub getdi! – Bu sözləri Qriqori bir qədər sakitliklə dedi. – Onlar elə güman edirlər ki, bizim mayamız ayrı xəmirdəndir, alim olmayan sadə adamlar guya adam deyil, heyvan kimi bir şeydir. Onlar elə zənn edirlər ki, hərbi işi mən və ya mənim kimi başqa birisi onlardan az qanırıq. Qırmızıların komandiri kimdir? Budyonnı zabitdirmi? Köhnə ordunun vaxmistridir, amma baş qərargahın generallarına gördün nə toy tutdu? Zabit polkları onun qorxusundan cırmadılarmı? Quselşikov, kazak generalları içərisində ən igid generallardan biridir, ən şöhrətlisidir, amma bu qış bircə tumanda ata minərək, Ust-Xoperskayadan əkilən kim idi? Bilirsənmi, onu belə cırmağa vadar edən kim olmuşdur? Moskvalı bir çilingər – qırmızıların polk komandiri. Sonralar əsirlər nağıl edirdilər. Bunu anlamaq lazımdır! Biz savadsız zabitlər, məgər kazakları üsyana pis qaldırdıq? Bu işdə bizə generallar çoxmu kömək etdi?

– Az kömək etməmişlər, – deyə Kopılov mənalı-mənalı cavab verdi.

– Hə, bəlkə də Kudinova kömək ediblər, amma mən heç kəsdən kömək almamışam və heç kəsin məsləhətini dinləmədən qırmızıları döymüşəm.

– Sənin fikrin nədir! Hərbi işdə elmin əhəmiyyətini inkarmı edirsən?

– Yox, mən elmin əhəmiyyətini inkar etmirəm. Lakin dostum, müharibədə əsas şərt elm deyil.

– Bəs nədir, Panteleviç?

– Uğrunda vuruşmaya getdiyin iş...

– Bu başqa məsələdir... – Kopılov şübhələnib gülümsündü: – Orası aydın məsələdir... Bu işdə məfkurə əsas şərtdir. Nəyin uğrunda vuruşduğunu bilən və öz işinə dərindən inanan tərəf qalib gələr. Bu həqiqət qoca dünya qədər köhnədir və bunu sən nahaq

yerə yeni kəşf kimi qələmə verirsən. Mən köhnə həyatın, mehriban köhnə aləmin tərəfdarıyam. Ayrı cürə olsaydı, hayana isə və nəyin uğrunda isə vuruşmağa getmək üçün mən heç əlimi də tərpətməzdim. Bizimlə birlikdə olanların hamısı – silah gücünə öz köhnə səlahiyyətlərini müdafiə edənlərdir; öz məhvərindən çıxmış və üsyan etmiş xalqı sakitləşdirmək istəyənlərdir. Bizim hər ikimiz də həmin adamlardanıq. Lakin mən, demək olar ki, Qriqori Panteleviç, çoxdandır sənə göz yetirirəm, amma sənin nə istədiyini başa düşə bilmirəm...

– Sonra anlarsan. Gəl yola düşək, – deyə Qriqori ağızucu cavab verdi və mərəyə doğru getdi.

Qriqorinin hər bir hərəkətini izləyən ev yiyəsi onunrəxətri xoş olsun deyə təklif etdi:

– Bəlkə bir az süd içəsiniz?

– Sağ ol, anacan, süd içməyə vaxt yoxdur. Sonra içərik.

Proxor Zıkov mərəyin yanında tələsə-tələsə kasadan qatıq ötürürdü. O, gözlərini qırpmadan, Qriqorinin atı necə açdığına tamaşa edirdi. Köynəyinin qolu ilə dodağını silərək soruşdu:

– Uzağamı gedirsən? Mən də sənlə gedirəmmi?

Qriqori özündən çıxaraq, üzünü ona tutub acıqlı-acıqlı dedi:

– Axmağın biri axmaq, qulluq qaydasını bilmirsən? Nə üçün at yüyənli bağlanmışdır? Mənə atı kim verməlidir? Qarınqulu donuz! Hey tıxırsan yenə doymursan! Bu saat qaşığı tulla! Nizam-intizamı bilmirsən!.. Başımdan rədd ol, axmaq!

Proxor yəhərə qalxıb incimiş halda söyləndi:

– Yenə niyə özündən çıxırsan? Boş-boş çığırırsan. Çox artırmamısan! Yola çıxmazdan qabaq bir tikə çörək yemək də olmaz? De görək niyə özündən çıxmısan?

– Ona görə ki, sən mənim lap canımı boğazıma yığmısan, heyvərə haramzadə! Sən mənimlə necə rəftar elədiyini bilirsənmi? İndi generalın yanına gedirik, özünü yığışdır!.. Sən mənə hörmət etmirsən! Mən sənin üçün kiməm? Beş addım dalda gəl! – deyə Qriqori qapıdan çıxa-çıxa əmr etdi.

Proxor və üç nəfər də başqa mühafiz atlarını saxlayıb ara verdilər; Kopılovla yanaşı at sürən Qriqori bayaqkı söhbəti davam etdirərək istehza ilə soruşdu:

– De görüm nəyi başa düşə bilmirsən? İstəyirsən başa salım!

Kopılov öz səsindəki və sualındakı istehzanı sezmədən dedi:

– Bu işdə sənin tutduğun mövqeni başa düşə bilmirəm, bax məsələ belədir! Bir yandan sən köhnəlik uğrunda mübarizə aparırsan, o biri yandan, sərt dediyim üçün məni bağışla, bir növ bolşeviksən.

– Axı mənim bolşevik olmağım nədən görünür? – deyə Qriqori üz-gözünü turşutdu və cəld yəhərdə dikəldi.

– Mən demirəm bolşeviksən, deyirəm bir növ bolşevikə oxşayırsan.

– Bir zibildir. Mən soruşuram ki, mən hansı əlamətlərə görə bolşevikəm?

– Məsələn, zabit cəmiyyətinə dair söhbətlərində, sənə qarşı onların münasibəti söhbətində. Sən axı bu adamlardan nə istəyirsən? Mən bilmirəm ki, sən ümumiyyətlə nə istəyirsən? – deyə Kopılov mehribanlıqla gülümsündü və qamçısını oynadaraq əsl mətləbə keçdi. O, geri dönüb birlikdə həvəslə nəyi isə müzakirə edən mühafizlərə baxdı və ucadan danışdı: – Sən bundan inciyirsən ki, onlar səni bərabərhüquqlu bir adam kimi öz cərgələrinə qəbul etmirlər, sənə üstdən aşağı baxırlar. Onu da başa düşmək lazımdır ki, onlar da öz nöqteyi-nəzərlərincə haqlıdırlar. Düzdür, sən də zabitsən, lakin zabitlər içərisinə tamam təsadüfən düşmüş bir zabitsən. Zabit poqonları taxsan belə məni bağışla, hər halda zırrama kazaksan. Sən nəzakət bilmirsən, yanlış və qaba ifadələrlə danışırsan, tərbiyəli adamlara xas olan keyfiyyətlərin hamısından məhrumsan. Məsələn, bütün mədəni adamlar kimi, burnunu yaylıqla silmək əvəzinə, iki barmağını söykəyib fınxırırsan, yemək vaxtı əllərini gah çəkmələrinin boğazlığına, gah da saçına silirsən, əlini, üzünü yuyandan sonra iyrənməyib, üzünü atın tərliyi ilə silirsən, dırnaqlarını ya dişinlə qırıb atır, ya da qılıncının ucu ilə kəsirsən. Bundan betəri də var: yadındadırmı, bir dəfə qışda Karginskayada əri kazaklar tərəfindən həbsə alınmış bir ziyalı qadınla mənim yanımda danışarkən, onun gözünün qabağında şalvarını düymələyirdin...

– Deməli, açıq qalsa yaxşı olardı? – deyə Qriqori qaşqabaqlı halda gülümsünərək soruşdu. Onların atları yanaşı addımlayırdı, Qriqori çəpəki Kopılova, onun mehriban sifətinə baxır və dilxor-dilxor onun sözlərinə qulaq asırdı.

– İş onda deyil! – deyə pərtləşib üz-gözünü turşutmuş Kopılov cavab verdi. – Axı sən ümumiyyətlə əynində bircə şalvar, ayaqyalın, qadını necə qəbul etdin? Mənim bu da yadımdadır ki, sən hətta pencəyini də çiyninə salmamışdın! Bunlar əlbəttə, xırda şeylərdir, amma bunlar səni... bir insan kimi səciyyələndirir. Bilmirəm, heç necə deyim...

– Aydın danış!

– Səni cahil adam kimi göstərir. Necə danışdığını heç bilirsənmi? Adamı dəhşət götürür! Tamam savadsız danışırsan, hər kəlməni yanlış deyirsən. Hər bir savadsız şəxs kimi cingiltili əcnəbi sözlərinə səndə izahedilməz böyük bir həvəs var, onları yerli-yersiz işlədirsən, bəzən də təsvirə gəlməz dərəcədə təhrif edirsən, amma qərargah müşavirələrində sənin yanında bir sıra hərbi istilahlar işlədiləndə sən danışana heyran-heyran baxırsan, hətta demək olar ki, qibtə edirsən.

– Bura bax, burasını özündən toxudun, – deyə Qriqori dilləndi və üzündə şən bir canlanma sezildi. Atın qulaqlarının arasını sığalladı, yalının altındakı isti və ipək kimi yumşaq dərisini qaşıyaraq xahiş etdi, – hə, dalını da de, öz komandirinə döşə görək!

– Mənə bax, burada döşəmək məsələsi yoxdur! Onsuz da sən yəqin bilirsən ki, bu cəhətdən axsayırsan. Bundan sonra da inciyirsən ki, zabitlər səni adam sayıb, yaxşı rəftar eləmirlər. Nəzakət və savad məsələsində sən, sadəcə desək, heç nəsən! – Kopılov qəfildən bu cür təhqirli söz işlətdi və bu hərəkətindən özü də qorxdu. O bilirdi ki, Qriqori acıqlananda hədəqəsindən çıxandır və buna görə də indicə Qriqorinin qızacağından qorxurdu; lakin gözucu ona baxan kimi sakitləşdi: yəhərdə yanakı oturmuş Qriqori dümağ dişlərini bığlarının altından ağarda-ağarda səssizcə gülürdü. Dediyi sözlərin nəticəsi Kopılov üçün o qədər gözlənilməz, Qriqorinin gülüşü o qədər sirayətedici idi ki, Kopılov da gülə-gülə dedi: – Görürsən, başqası, zəkalı bir adam, belə rüsvay olmağın müqabilində ağlayardı, amma sən hırtıldayırsan... De görüm qəribə adam deyilsən?

– Deməli, deyirsən, mən çürük qozam, hə? Cəhənnəmə ki! – deyə Qriqori doyunca güləndən sonra dilləndi. – Sizin nəzakətliliyinizi və xoşrəftarlığınızı öyrənmək istəmirəm. Allah qoysa, sağlıq olsun, mən yenə öküzlə məşğul olsam, onda mən onlarla mazaqlaşıb deməyəcəyəm ki: "Ax, təpəl öküz, bir az o yana durun!

Ala öküz, məni bağışlayın! İcazənizlə, boyunduruğunuzu düzəldimmi! Zati-aliləri, cənab öküz çox rica edirəm, mərhəmət buyurub, samını qırmayasınız!" Öküz ilə danışıq qısa olmalıdır: a-ho, hiş-ş... vəssalam, onun bütün disklokasiyası bundan ibarətdir.

– Disklokasiya yox, dislokasiya! – deyə Kopılov onun səhvini düzəltdi.

– Yaxşı, qoy dislokasiya olsun. Amma bir məsələdə mən sənlə şərik deyiləm.

– Nədə?

– O məsələdə ki, mən çürük bir qozam. Mən sizin yanınızda heç nəyəm, amma bir azca dayan, möhlət ver, mən qırmızıların tərəfinə keçim, onda görərsən ki, mən çürük qoz yox, qurğuşundan da ağıram. Onda həddi var nəzakətli və savadlı müftəxorlar mənim rastıma gəlsinlər! Diri-diri dartıb içalatını bayıra tökəcəyəm! – deyə Qriqori yarızarafat, yarıciddi sözünü bitirdi və atını tərpədib bərk sürməyə başladı.

Don ətrafındakı səhər o qədər dilrüba, o qədər munis bir sükut içərisindən qalxırdı ki, hər bir səs, hətta kiçik bir səs belə, bu sükutu pozur və əks-səda doğururdu. Çöldə yalnız torağay, bir də bildirsinlər ötürdü, lakin aralıq xutorlarda, iri qoşun hissələrinin hərəkəti zamanı olan uğultu, tırıltılı asta bir səs-küy var idi. Top arabalarının və mərmi qutularının təkərləri çala-çuxur yerlərdə gurultu salır, quyu başlarında atlar kişnəşir, yoldan ötən piyada kazak bölüklərinin boğuq, lakin müntəzəm və yumşaq tappıltısı gəlir, cəbhə xəttinə döyüş ləvazimatı və sursat daşıyan biyar arabaları cırıldaşırdı; əsgəri mətbəxlərin yanından keçəndə şirin darı ətri, içinə dəfnə yarpağı tökülmüş ət qovurması və təzəcə bişirilmiş çörək iyi gəlirdi.

Ust-Medveditsanın lap kənarında tez-tez tüfəng səsi gəlirdi, tək-tək toplar da ağır səslə guruldayır, vuruşma yenicə başlanırdı.

Ortayaşlı, üz-gözündən bərkdən-boşdan çıxmış adama oxşayan adyutant general Fitsxelaurovun yanına girib:

– Birinci üsyançı diviziyanın komandiri Melexovla diviziyanın qərargah rəisi Kopılov gəlmişdir, – deyəndə general qəlyanaltı edirdi.

– Onları mənim otağıma çağır, – deyə Fitsxelaurov iri, damarları çıxmış əli ilə yumurta qabıqları ilə dolmuş boşqabı kənara itələdi, bir stəkan isti südü aramla içdi və dəsmalı sahmanla bükərək stolun dalından qalxdı.

Bir sajın boyu olan, qocalığından ağırlaşmış və əti boşalmış general, çərçivəsi əyilmiş kiçik pəncərəli bu kazak otağında ağla gəlməyəcək dərəcədə yekəpər görünürdü. Çox qəşəng tikilmiş mundirinin şax yaxalığını yeriyə-yeriyə düzəltdi, bərk öskürdü, yan otağa keçdi, o gələnə kimi ayağa duran Qriqori və Kopılov ilə müxtəsərcə salamlaşdı və ə! tutuşmadan işarə ilə onları stola yaxın dəvət etdi.

Qriqori qılıncını tutaraq, yavaşca kətilin bir küncündə oturdu, Kopılovun üzünə baxdı.

Fitsxelaurov ağır-ağır Vena stuluna oturdu, stul altında bərk cırıldadı, sonra baldırları yoğun ayaqlarını bükdü, yenə əllərini dizlərinin üstünə qoyub yoğun səslə sözə başladı:

– Cənab zabitlər, mən sizi bəzi məsələləri birgə həll etmək üçün çağırtdırmışam... Üsyançılar qaydasında partizançılıq qurtardı! Sizin hissələriniz artıq müstəqil vahid kimi mövcud deyil, əslinə baxsan, onlar əvvəlcə də bir bütünlük təşkil etmirdilər. Uydurma bir şey idilər. Onlar Don ordusuna qatılır. Biz planlaşdırılmış hücum əməliyyatına keçirik, bunu birdəfəlik başa düşmək və danışıqsız ali komandanlığın əmrlərinə tabe olmaq lazım gəlir. Zəhmət çəkin cavab verin, nə üçün dünən sizin piyada polkunuz zərbə batalyonunun hücumuna kömək etməmişdir? Mənim verdiyim əmri pozaraq, yenə həmin polk hücuma keçməkdən boyun qaçırıb? Sizin üzdəniraq diviziyanızın komandiri kimdir?

– Mənəm, – deyə Qriqori astadan cavab verdi.

– Zəhmət çəkin suala cavab verin!

– Mən diviziyaya yalnız dünən gəlib çıxmışam.

– Siz haraya təşrif aparmışdınız?

– Evimizə getmişdim.

– Diviziya komandiri vuruşma zamanı evlərinə baş çəkməyə getmişdir! Diviziya qəhbəxanaya çevrilmişdir! Başıpozuq düşmüşdür! Rüsvayçılıqdır! – Generalın yoğun səsi get-gedə ucalır və dar, balaca otağı götürürdü; adyutantlar, qapının arxasında barmaqlarının ucunda gəzir, pıçıltı ilə danışır, gülürdülər; Kopılovun rəngi qaçdı; Qriqori isə qeyzdən pörtmüş generalın çöhrəsinə, onun sıxılmış yekə yumruğuna baxır və hiss edirdi ki, içərisində qabağı saxlanılmayan bir qəzəb qaynamaqdadır.

Fitsxelaurov stulun söykənəcəyindən yapışaraq gözlənilməz bir cəldliklə sıçradı və bağırdı:

– Sizin diviziya əsgəri hissə yox, qızıl qvardiya yığınağıdır... Kazak yox, zir-zibildir! Sizə isə, cənab Melexov, diviziya komandirliyi yox, denşiklik yaraşır! Çəkmə təmizləmək! Eşidirsinizmi?! Nə üçün əmr yerinə yetirilməmişdir? Mitinq keçirmədiniz? Müzakirə etmədiniz? Bunu qulağınızda sırğa eləyin: burada yoldaş yoxdur və biz bolşevik qaydaları qoymağa sizə imkan verməmik!.. Yol ver-mə-rik!..

– Xahiş edirəm üstümə bağırmayın! – deyə Qriqorinin boğuq səsi eşidildi və qalxıb ayağı ilə kətili kənara itələdi.

– Nə dediniz? – Fitsxelaurov stolun üstündən ona doğru əyildi və həyəcanından səsi tutuldu.

– Xahiş edirəm mənim üstümə bağırmayın! – Qriqori ucadan təkrar etdi. – Siz bizi çağırmısınız ki, bəzi məsələləri həll edəsiniz... – Qriqori bir an qədər susdu, başını aşağı dikdi və gözlərini Fitsxelaurovun əlindən ayırmayaraq səsini lap pıçıltı dərəcəsinə qədər alçaltdı: – Əlahəzrət, əgər siz mənə barmağınızla da olsa toxunmaq fikrinə düşsəniz dərhal doğraram!

Otağa elə bir sükut çökmüşdü ki, hirslənmiş Fitsxelaurovun qırıq-qırıq çıxan həmirtisi aydınca eşidilirdi. Bir dəqiqəyə qədər sükut davam etdi. Qapı azacıq cırıldadı. Qorxmuş adyutant qapının deşiyindən baxdı. Qapı eyni ehtiyatkarlıqla da örtüldü. Qriqori əlini qılıncının qəbzəsindən çəkmədən dayanmışdı. Kopılovun dizləri yüngülcə titrəyirdi, divara göz gəzdirirdi, Fitsxelaurov ağır-ağır stula çökdü, qocalar kimi içini arıtladı və mızıldadı:

– Yaxşıca işdir! – Sonra tamamilə sakit halda, lakin Qriqoriyə baxmadan dedi: – Oturun! Qızışdıq, yetər. İndi qulaq asın, sizə əmr edirəm: dərhal bütün atlı hissələri... a kişi, oturun bir!

Qriqori oturdu, qəfil üzünü basmış təri qolu ilə sildi.

– ...Belədir, bütün atlı hissələri təcili surətdə cənub-şərq sahəsinə keçirdin və o saat da hücuma keçin. Sizin sağ cinahınızda qoşun starşinası Çumakovun ikinci batalyonu olacaqdır...

Qriqori yoğun səslə:

– Mən diviziyanı oraya aparmayacağam, – dedi, – yaylıq çıxarmaq üçün əlini şalvar cibinə saldı. Natalyanın tikdiyi krujevalı yaylığı ilə alnının tərini bir də silərək sözünü təkrar etdi: – Mən diviziyanı oraya aparmayacağam.

– Nəyə görə?

– Hissələrin yenidən düzəldilməsi çox vaxt aparacaqdır...

– Bunun sizə dəxli yoxdur. Əməliyyatın gedişinə mən məsulam.

- Yox, dəxli var, məsuliyyəti də təkcə siz daşımırsınız...

– Siz mənim əmrimi yerinə yetirməkdən boyunmu qaçırırsınız? – deyə Fitsxelaurov qəzəbini zorla saxlayırmış kimi xırıltılı səslə soruşdu.

– Bəli.

– Onda zəhmət çəkin, bu saat diviziya komandanlığını təhvil verin! İndi mənə aydın oldu ki, nəyə görə dünənki əmrim yerinə yetirilməmişdir...

– Nə istəyirsiniz edə bilərsiniz, lakin diviziyanı təhvil verməyəcəyəm.

– Sizi necə başa düşək?

– Mənim dediyim kimi də başa düşməlisiniz. – Sonra Qriqori azacıq seziləcək halda gülümsündü.

– Mən sizi komandanlıqdan kənar edirəm! – deyə Fitsxelaurov səsini yenə ucaltdı, Qriqori dərhal ayağa durdu.

– Əlahəzrət, mən sizə tabe deyiləm.

– Siz ümumiyyətlə bir adama tabesinizmi?

– Bəli, üsyançı qüvvələrin baş komandanı Kudinova tabeyəm. Sizdən isə bu dediklərinizin hamısını eşitmək mənə bir növ təəccüblü gəlir... Hələlik biz sizinlə bərabər hüquqdayıq. Siz də diviziyaya komanda edirsiniz, mən də. Ona görə də hələ siz mənim üstümə çığırıb-bağırmayın... Elə ki, məni bölük komandirliyinə keçirdilər, onda buyurmağa ixtiyarınız var. Lakin dalaşmaq... – Qriqori kirli şəhadət barmağını yuxarı qaldırdı, eyni zamanda həm gülümsünərək, həm də gözlərini dəli kimi bərəldərək sözünü bitirdi: – ...Dalaşmağa qalsa... o zaman heç kəs mənimlə bacarmaz! – Fitsxelaurov yerindən qalxdı, boğazını sıxan yaxalığını düzəltdi, yüngülcə baş əyərək dedi:

– Bizim daha danışmağımız artıqdır. İstədiyiniz kimi hərəkət edin. Sizin hərəkətiniz haqqında lap bu gün ordu qərargahına yazaram və sizi inandırıram ki, bu məsələ nəticəsiz qalmaz, hələ ki, hərbi-səhra məhkəməsi qəşəng işləyir.

Qriqori, Kopılovun məyus baxışlarına etina etmədən papağını başına basdı, qapıya doğru getdi. Kandarda dayanıb dedi:

– Siz haraya lazımdır, oraya da məlumat verin, amma məni qorxutmayın, çünki bərkdən-boşdan çıxmış adamlardanam... Hələlik də mənimlə işiniz olmasın. – Nə isə fikirləşdi və əlavə etdi: – Qorxuram ki, tərsinə ola, mənim kazaklarım sizi əzişdirələr... – təpiyi ilə vurub qapını açdı, qılıncı şaqqıldadı, iri addımlarla dəhlizdən keçdi.

Artırmaya çıxanda həyəcanlanmış Kopılov da ona çatdı.

O şaşqınlıqdan əllərini ovuşdura-ovuşdura yavaşca dedi:

– Sənin ağlın başından çıxmışdır, Panteleviç!

– Atları çəkin! – deyə Qriqori cingiltili səslə bağırdı. Qamçısını hövkələdi.

Proxor başılovlu özünü artırmaya yetirdi.

Darvazadan çıxandan sonra, Qriqori dönüb geriyə baxdı. Üç mühafiz general Fitsxelaurovu hündür, qəşəng yəhərli ata mindirirdi.

Yarım verstə qədər kirimişcə getdilər. Kopılov qəsdən susur, bilirdi ki, Qriqorinin danışmağa meyili yoxdur və indi onunla mübahisə etmək qorxuludur. Nəhayət, Qriqori özü dözmədi:

– Niyə kirimisən? – deyə acıqlı-acıqlı soruşdu. – Bəs nəyə gəlmişdin? Şahid olmağa? Qaradinməz oyunu oynayırdın?

– Dostum, yaman hoqqa çıxardın!

– Bəs o, hoqqa çıxartmadı?

– Fərz edək ki, o da haqlı deyildi. Bizimlə danışdıqda onun səsindəki ahəng lap adamı hövsələdən çıxardırdı!

– Məgər o bizimlə danışırdı? Görüşün lap əvvəlindən o çığırmağa başladı, elə bil yanbızına çuvalduz soxmuşdular!

– Amma sən də yazıq deyilsənmiş! Vəzifə etibarilə özündən böyük olana itaət etməmək... Döyüş şəraitində bu, dostum, bilirsən nədir?..

– Heç bir şey deyil! Çox təəssüf ki, o mənə yumruq hərləmədi! Mən onun alnının ortasından elə bir qılınc vuracaqdım ki, beyni göyə sovrulsun!

– Bunsuz da sənin işin şuluqdur, – deyə Kopılov narazılığını bildirdi və atını yavaş yerişə keçirdi. – Hər şeydən aşkar görünür ki, onlar indi nizam-intizamı möhkəmlədəcəklər, özünü yığışdır!

Atlar fınxırışır, quyruqları ilə at milçəklərini qovaraq yanaşı gedirdilər. Qriqori Kopılovu istehza ilə süzərək sonra soruşdu:

– Bir də görək, axı sən özünə nə üçün yar-yaraşıq vermişdin? Yəqin, elə güman edirdin ki, səni çaya qonaq edəcəklər? Ağ biləkli

xanımlar səni süfrə başına aparacaqlar? Buna bax, üzünü qırxıb, frençini təmizləyib, çəkmələrini güzgü kimi parıldadıb... Mən hətta yaylığını tüpürcəyinlə isladıb dizindəki ləkələri təmizlədiyini də gördüm!..

– Boşla, sən Allah! – deyə Kopılov qızarmış halda özünü doğrultmaq istədi.

– Sənin zəhmətlərinin hamısı hədərə getdi! – deyə Qriqori onu ələ salırdı. – Nəinki səni süfrəyə çağırdı. Heç əlini əlinə vurmağa da qoymadı.

– Sən olan yerdə bundan artıq nə gözləmək olardı, – deyə Kopılov yeyin-yeyin mızıldadı və gözlərini qıyaraq sevinclə dedi: – Ora bax! Bunlar bizimkilər deyilmi? Müttəfiqlərdir!

Dar kənd yolu ilə qatır qoşulmuş altı topdan ibarət bir ingilis batareyası onlara tərəf gəlirdi. Quyruğu gödək, kürən bir ata minmiş ingilis zabiti də atını topun yanı ilə sürürdü. Topa qoşulmuş qabaq qatırların birinə minmiş bir nəfər də ingilis əsgəri paltarında idi, lakin furajkasının kəmərciyi üzərində zabit kokardı və çiynində də poruçik poqonu var idi.

İngilis zabiti hələ Qriqoriyə bir neçə sajın məsafə qalmışdı ki, iki barmağını probkadan qayrılmış dəbilqəsinin kənarına qaldırdı, başının işarəsilə yol verilməsini rica etdi. Yol o qədər dar idi ki, yalnız atları daş hasara tərəf bərk qısnayıb, topun gəlib keçməsinə yol vermək olardı.

Acığından Qriqorinin yanaqları səyridi. O, dişlərini qıcıdaraq atını düz zabitin üstünə sürdü. Zabit təəccüblə qaşlarını qaldırdı və bir qədər yana çəkildi. Onlar dar yoldan çox çətinliklə, həm də ona görə ötüşdülər ki, ingilis zabiti sağ ayağını üzəngidən çıxarıb, dərisi günəşdən parlayan, tərtəmiz qaşovlanmış cins madyanın sağrısına qoydu.

Topçu nəfərlərindən – zahiri görkəmindən rus zabiti olduğu hiss olunan bir başqası da Qriqorini qeyzlə nəzərdən keçirdi.

– Məncə siz çəkilib yol verə bilərdiniz! Öz nadanlığınızı gərək buradadamı göstərəydiniz?

– Sən gəl yolunla kirimişcə öt, it küçüyü, yoxsa mən sənə indicə yol verməyi öyrədərəm!.. – deyə Qriqori yavaş səslə həmin şəxsə məsləhət verdi.

Zabit yəhərin qaşına doğru dikəldi, geriyə dönüb qışqırdı:

– Cənablar! Bu ədəbsizi yaxalayın! – Qriqori qamçını çox mənalı bir şəkildə oynadaraq, atını yavaşca dar yol ilə sürürdü. Çoxusu bığsız və cavan zabit olan yorğun, toza-torpağa batmış topçular Qriqorini düşmən baxışlarla süzdülər, lakin kimsə onu saxlamağa cəsarət etmədi. Altı toplu batareya döngədə gözdən itdi. Kopılov dodağını çeynəyə-çeynəyə atını lap Qriqorinin yanına sürdü.

– Səfehləyirsən, Qriqori Panteleviç! Özünü lap uşaq kimi aparırsan!

– Nə demək istəyirsən, səni mənə tərbiyəçi qoyublar? – deyə Qriqori acıqlandı.

– Mən anlayıram, Fitsxelaurov səni bərk qəzəbləndirmişdir, – deyə Kopılov çiyinlərini çəkdi, lakin burada ingilis zabitinin nə günahı var? Yoxsa sənə onun dəbilqəsi xoş gəlmir?

– Onun burada, Ust-Medveditsada olması heç də mənim xoşuma gəlmir... Yaxşı olardı ki, o bu dəbilqəni başına qoyub, ayrı yerdə gəzəydi... İki it bir-birilə dalaşanda, üçüncüsü özünü ortalığa qatmamalıdır, başa düşdünmü?

– Aha! Deməli sən ölkənin işinə xaricilərin müdaxiləsi əleyhinəsən? Lakin elə ki, adamı tutub boğazını üzürlər, köməyinə kim gəlsə sevinir.

– Neynək sən sevin, amma məndən olsa onları bizim torpağa ayaq basmağa belə qoymaram!

– Sən qırmızıların içərisində çinliləri görmüsən?

– Hə, nə olsun?

– Nə fərqi varmış? Bu da xaricilərin köməyi deyilmi?

– Bunu nahaq danışırsan! Çinlilər qırmızıların yanına könüllü gəlmişlər.

– Bəs sən necə zənn edirsən, elə bilirsən ki, bunları buraya zorla dartıb gətiriblər?

Qriqori cavab verməyə söz tapmadı, xeyli vaxt atını kirimişcə sürdü, çox iztirablı düşüncədən sonra səsində açıq bir dilxorluq dedi:

– Bax, siz alimlər həmişə beləsiniz... Sən gəl məni gopa basma! Mən, dostum, yaxşı duyuram ki, sən burasını düzgün demirsən, amma sənin düz demədiyini sübut edə bilmirəm... Gəl bu söhbəti boşlayaq. Məni dolaşığa salma, mən sənsiz də dolaşmışam!

Kopılov incimiş halda səsini kəsdi və mənzilə qədər onlar birbirilə daha söhbət etmədilər. Yalnız bircə Proxor atını onlara çatdırıb maraqla soruşdu:

– Qriqori Panteleviç, cənab zabit, sən Allah, bir də görək kadetlərin toplara qoşduqları heyvan nə olan şeydir? Qulaqları eşşək qulağı kimidir, qalan yerləri lap ata oxşayır. Adam necə şeydirsə, bu heyvana baxanda əti ürpəşir... Bu zəhrimar nə cins heyvandır belə, sən Allah, başa sal, yoxsa biz burada puldan mərc gəlmişik, amma bilmirik kim udub... – O sözünü qurtarıb beş dəqiqəyə qədər Qriqorinin dalınca gəldi, lakin bir cavab ala bilmədi, atının başını saxladı və qalan mühafizlərin atları da ona çatanda pıçıltı ilə dedi: – Uşaqlar, onlar özləri də dinməzcə gedirlər, görünür, onlar da bir şey bilmirlər, mat qalıblar ki, görəsən, bu murdar heyvan işıqlı dünyaya hayandan gəlibdir...

XI

Kazak bölükləri dördüncü dəfə idi ki, dayaz səngərlərdən ayağa qalxır və qırmızıların dolu kimi pulemyot atəşi altında təzədən yerə yatırdılar. Çayın sol sahilindəki meşəliyin içində yerləşdirilmiş qızıl əsgər batareyaları, səhər açılandan bəri dayanmadan kazakları və yarğanlara dolmuş ehtiyat hissəsi mövqelərini top atəşinə tuturdu.

Şrapnellərin süd kimi ağ, əriyib havaya qarışan tüstüləri Don ətrafındakı təpələr üzərində görünürdü. Kazak səngərlərinin əyri-üyrü xəttinin önündə və arxasında güllələr boz dumanı qaldırırdı.

Günortaya yaxın vuruşına qızışmağa başladı, günbatan küləyi top atışmasının səsini Don yuxarı, çox uzaqlara qədər yaydı.

Qriqori üsyançılar batareyasının müşahidə məntəqəsindən durbinlə, vuruşmanın gedişini izləyirdi. Verdikləri tələfata baxmayaraq, zabit bölüklərinin inadla hücuma keçdiklərini o, bu məntəqədən aydınca görürdü. Atəş gücləndikdə zabitlər aşağı yatır, səngər qazırdılar, sonra sıçrayaraq yeni mövqelərə doğru irəliləyirdilər; sol tərəfdə, monastır istiqamətində isə üsyançıların piyadası heç cür yerindən qalxa bilmirdi. Qriqori Yermakova kiçik bir məktub yazıb rabitəçi vasitəsilə ona göndərdi.

Son dərəcə hiddətlənmiş Yermakov yarım saatdan sonra gəlib çıxdı. O, batareya atlarının yanında atdan endi, nəfəsi təngimiş halda müşahidə məntəqəsinə dırmaşdı.

Yermakov hələ Qriqoriyə çatmamış, uzaqdan əllərini silkələyə-silkələyə bağırdı:

– Kazakları ayağa qaldıra bilmirəm! Qalxmırlar! İyirmi üç nəfər adamımız tələf olmuşdur! Görürsən qırmızılar pulemyotla necə biçib tökürlər?

– Zabitlər hücuma gedir, amma sən özününküləri qaldıra bilmirsən? – deyə Qriqori dişini-dişinə qıcadı.

– Sən bir bax, onların hər vzvodunda bir əl pulemyotu var, güllələri də ki, kefin istəyən qədər, bizim nəyimiz var?!

– Bəsdir, bəsdir, başımı ağrıtma! Bu saat adamlarını hücuma apar, yoxsa boğazını üzərik!

Yermakov ana söyüşü söyərək, dik aşağı yüyürdü. Qriqori də onun ardınca getdi. İkinci piyada polkunu o özü hücuma aparmağı qərara aldı.

Yemişan budaqları arasında məharətlə gizlədilmiş lap qıraqdakı topun yanında batareya komandiri onu dayandırdı.

– Qriqori Panteleviç, ingilis qayıran şeyə bir bax! Bu saat bunlardan körpüyə atəş açılacaqdır. Gəl o dikə çıxaq.

Qırmızıların istehkamçılarının Donun üstündən saldıqları ponton körpü, durbinlə baxanda ensiz zolaq kimi çətinliklə görünürdü. Bu körpünün üstü ilə aramsız olaraq araba gəlib keçirdi.

Daşlıq tirənin arxasındakı çökəklikdə yerləşdirilmiş ingilis batareyası on dəqiqədən sonra atəş açmağa başladı. Dördüncü top güllәsi ponton körpünü təqribən ortadan uçurdu. Araba gediş-gəlişi kəsildi. Qızıl əsgərlərin dağılmış arabaları və at meyitlərini tələsik Dona atdıqları görünürdü.

Dərhal sağ sahildən içi istehkamçılarla dolu dörd gəmi aralandı. Onlar dağılmış körpünü qayırıb qurtarmamışdı ki, ingilis batareyası yenidən bir neçə mərmi də artdı. Güllələrdən biri sol sahildəki bəndi xıncım-xıncım elədi, ikinci güllə də körpünün lap yaxınlığında suya düşdü, göyə yaşıl su sütunu qaldırdı və körpüdə bərpa edilməkdə olan hərəkət təzədən dayandı.

– İt uşaqları görürsən necə sərrast vururlar! – deyə batareya komandiri heyrətləndi. – İndi bu toplar gecəyə qədər onları bu taya keçməyə qoymaz... Bu körpü atəşdən salamat çıxmaz!

Gözlərindən durbini götürmədən Qriqori soruşdu:

– Yaxşı, bəs sən niyə susmusan? Öz piyadana kömək dursana. Odur bax, onlar qırmızıların pulemyot yuvalarıdır.

– Çox həvəslə atardım, amma bir tək gülləm də yoxdur! Yarım saat bundan əvvəl axırıncını atıb qurtarmışam.

– Bəs orıda burada niyə durmusan? Arabaya min və buradan cəhənnəm ol!

– Kadetlərin yanına güllə üçün adam göndərmişəm.

Qriqori qətiyyətlə dedi:

– Verməzlər.

– Bir dəfə vermədilər, bir də göndərmişəm. Bəlkə mərhəmətə gəldilər. Bizə çox yox, bu pulemyot yuvalarını dağıtmaq üçün lap iyirmicəciyi də bəs edər. Zarafatdırmı, – iyirmi üç adamımızı qırıblar. Hələ kim bilir, nə qədərini qıracaqlar! Bir gör nə gurhagur salıblar!..

Qriqori dönüb kazakların səngərlərinə baxdı, bu səngərlərin yanında, bir yamacda güllələr bayaqkı kimi quru torpağı cırmaqlayırdı. Pulemyot güllələri səpələnən yerdə gur bir toz zolağı əmələ gəlirdi, elə bil gözə görünməz bir əl səngərlər boyunca ildırım sürətilə bir toz xətti çəkirdi. Bütün mövqe boyunca, kazak səngərləri toz dumanına bürünmüş kimi idi.

İndi Qriqori daha ingilis toplarından atılan güllələrin hara dəydiyini izləmirdi. O, bir dəqiqəyə qədər arasıkəsilməyən top və pulemyot atəşinə qulaq asdı, sonra təpədən düşərək, gedib Yermakova çatdı.

– Məndən əmr alana qədər hücuma getmə! Topların yardımı olmasa, biz onları mövqelərindən çıxara bilmərik.

– Bəs mən də sənə bunu demirdimmi? – deyə Yermakov bərk sürülməkdən və atışmadan qızışmış atına minərək Qriqorini məzəmmətlədi.

Qriqori atəş altında atını igidliklə sürən Yermakovu nəzərlərilə müşayiət etdi və ürəyinə bir səksəkə gəldi. "Axı, niyə belə düzünə gedir? İndicə pulemyotla biçəcəklər! Heç olmasa, dərəyə enəydi, döşlə diklənib təpənin başına çıxaydı, oradan da xata-balasız öz hissəsinə çataydı". Yermakov atını ildırım kimi sürüb, dərəyə çatdı, oraya girdi və daha o biri tərəfdə görsənmədi. "Aha, deməli, başa düşdü! İndi sağ-salamat çatar" deyə Qriqori rahat nəfəs aldı və təpənin yaxınında uzandı, aramla papiros bükməyə başladı.

Bu an ona əcaib bir soyuqqanlılıq gəlmişdi! Yox, o, kazakları pulemyot atəşi altına aparmayacaqdır. Mənası yoxdur. Qoy Ust-Medveditsanı onlar alsınlar. Burada, təpənin altında uzanarkən, Qriqori ömründə ilk dəfə vuruşmada bilavasitə iştirakdan boyun

qaçırdı. İndi onda bu qərarı doğuran qorxaqlıq deyildi, ölüm qorxusu deyildi, mənasız tələfata razılıq verməmək də deyildi. Lap bu yaxınlara kimi o, nə öz həyatını, nə də komandanlığı ona etibar edilən kazakların həyatını əsirgəyirdi. Lakin indi qəlbində nə isə bir şey qırılmış kimi idi... Ətrafında olub-keçən hadisələrin mənasızlığını o, heç bir zaman bugünkü kimi aydın hiss etməmişdi. Onda indi gözlənilmədən əmələ gələn bu əhvali-ruhiyyəyə onun Kopılovla etdiyi söhbətmi, yaxud Fitsxelaurovla dalaşmasımı, bəlkə də bunların hər ikisi birlikdə səbəb olduğu məlum deyilsə də, hər halda o, bir daha atəş altına getməmək qərarına gəlmişdi. O, dumanlı bir şəkildə bunu düşünürdü ki, o istəsə də kazaklarla bolşevikləri barışdıra bilməyəcəkdir. Bundan başqa, o özü də ürəyində bolşeviklərlə barışa bilmirdi, bununla bərabər ruhən ona yabançı olan, ona düşmən kimi baxan adamları, Qriqoriyə bu qədər nifrət bəsləyən, Qriqorinin özünün də hədsiz nifrət bəslədiyi bütün bu Fitsxelaurovları müdafiə etmək də istəmirdi və edə də bilməyəcəkdi. Əvvəlki ziddiyyətlər, təzədən bütün amansızlığı ilə onun qarşısında durdu. "Qoy vuruşsunlar. Mən də qıraqdan durub baxaram. Diviziya məndən təhvil alınan kimi arxaya keçirilməyimi rica edəcəyəm. Bəsdir vuruşduğum!" O bu cür düşünürdü ki, xəyalən Kopılovla etdiyi mübahisəni xatırladı və özünün onda səhv etdiyini anladı ki, qırmızılara bəraət qazandırırdı. "Çinlilər qırmızıların yanına qulluğa yalxı əl ilə gəlir, lap az bir miqdarda əsgər maaşı aldıqları halda hər gün həyatlarını təhlükə altına atırlar. Burada maaşın mətləbə nə dəxli var? Bu maaşla nə almaq olar! Bir ona yarar ki, qumarda uduzasan... Deməli, burada qazanc yoxdur, nə isə ayrı şey var... Müttəfiqlər isə bizə zabit də, tank da, top da, hətta odur, qatır da göndəriblər! Sonra da başlayacaqlar bütün bunların pulunu tələb etməyə! Budur bax, fərq burasındadır! Yaxşı, axşam biz bu haqda mübahisə edərik! Qərargaha çatan kimi, onu bir kənara çəkər və deyərəm: "Ay Kopılov, arada fərq var, gəl sən mənim başımı dəng eləmə!"

Lakin bu haqda mübahisə etmək lazım gəlmədi. Günün ikinci yarısında Kopılov ehtiyatda dayanmış 4-cü polkun mövqeyinə getdi və yolda havayı güllə dəyib onu öldürdü. Qriqori bunu iki saat sonra öyrəndi...

Ertəsi günün səhəri general Fitsxelaurovun 5-ci diviziyasının hissələri Ust-Medveditsanı vuruşa-vuruşa aldılar.

XII

Qriqori gedəndən üç gün sonra Mitka Korşunov Tatarska gəldi. O tək gəlməmişdi, cəza dəstəsində xidmət edənlərdən iki nəfəri onu müşayiət edirdi. Bunlardan biri yaşı ötmüş bir kalmık, deyəsən, Manıç səmti adamı idi, o biri də Raspopinskaya stanitsasından olan xırda bir kazak idi. Mitka kalmıkın adını lağ ilə – "xodey" qoymuşdu. Raspopinskayalı əyyaş və cüvəllağı kazakı isə əzəmətlə Silanti Petroviç deyə çağırırdı.

Mitka Korşunov, görünür, cəza dəstəsində Don ordusuna çox canfəşanlıqla qulluq edirdi. Qış ərzində onu vaxmistr eləmiş, sonra ona kiçik zabit rütbəsi vermişdilər, xutora təzə zabit formasında geyinmiş-kecinmiş gəlmişdi. Hiss olunurdu ki, Donun o tayında kefi kök imiş; nazik frençi Mitkanın enli kürəklərində az qalırdı ki, partlasın; qırmızı boynunun yağlı əti sərt, qatlanmayan yaxalığının üstündən qat-qat sallanmışdı, göy diaqonaldan tikilmiş və lampaslı şalvarı daldan az qalırdı partlasın... Bu lənətə gəlmiş İnqilab olmasaydı, zahiri ləyaqətlərinə görə Mitka padşahın xüsusi qvardiyasında qulluq etməyə, sarayda yaşamağa və əlahəzrət imperatorun ailəsini qorumağa yarar bir adam idi. Lakin Mitka bunsuz da həyatından şikayətçi deyildi. Qriqori Melexov kimi həyatını təhlükə altına atmaqla və dönə-dönə igidliklər göstərməklə olmasa da, hər halda o da nəhayət zabitlik rütbəsinə çatmışdı. Xidmətdə yaxşı fərqlənmək üçün, cəza dəstəsində insandan başqa cür sifətlər tələb olunurdu... Bu sifətlər isə Mitkada istədiyiniz qədər vardı: o, kazaklara çox da etibar etmirdi, bolşevizmə rəğbətdə şübhəli görünən adamları özü aparıb xırıd edirdi, əsgərlikdən qaçanlara öz əli ilə qamçı və ya sünbə ilə divan tutmaqdan utanmırdı; dustaqları sorğu-sual məsələsində isə bütün dəstədə ona bərabər adam tapılmazdı. Hətta, qoşun starşinası Pryanişnikov da bu haqda söz düşəndə çiyinlərini çəkərək deyərdi: "Yox, cənablar, nə deyirsiniz deyin, bu işdə Korşunovu keçmək mümkün deyil! Bu insan deyil, əjdahadır!" Mitka başqa bir gözəl sifəti ilə də fərqlənirdi: cəza dəstəsinin adamları bir dustağı güllələyə bilmədikdə, eyni zamanda bu adamın sağ qalması da arzu edilmədikdə həmin şəxsə çubuq cəzası kəsilir və bu iş Mitkaya tapşırılırdı. Mitka da bu işi elə məharətlə icra edirdi ki, döyülən adam əllinci çubuqdan sonra aramsız qan qusmağa başlayır, yüzüncü zərbədən sonra isə

onun canı çıxıb-çıxmadığını yoxlamadan, xatircəmliklə həsirə büküb quylamağa aparırdılar... Cəza kəsilən dustaqlardan hələ heç kəs Mitkanın əlindən sağ-salamat qurtarmamışdı. O, özü də bu əməlindən xoşlanaraq dəfələrlə demişdi: "Əgər öldürdüyüm qırmızıların yubka və şalvarlarını soyundursaydım, Tatarsk xutoru camaatını başdan-başa geyindirərdim!"

Mitkaya hələ uşaqlıqdan xas olan rəhmsizlik, cəza dəstəsində nəinki işə yaradı, hətta heç bir hədd və çərçivə olmadığından hədsiz dərəcədə artdı. Xidmətdə hər cür zabit yığıntısı ilə – tiryək çəkən, arvad zorlayan, soyğunçu və sair ziyalı əclaflarla durub-oturan Mitka, qırmızılara kin bəsləyən zabitlərin öyrətdikləri bütün əməlləri həvəslə, bir kəndli səyi ilə mənimsəyir və çox zəhmət çəkmədən öz müəllimlərini ötüb keçirdi. Axıdılan qanları və insan iztirablarını görməkdən təngə gəlmiş əsəbi bir zabit daha cəzaya dözməyib, bir tərəfə çəkildiyi zaman Mitka yalnız sarı, xırda qığılcımlar saçan gözlərini qıyır və cəzanı başa çatdırırdı.

Kazak qoşun hissəsindən çıxıb rahat qulluğa – qoşun starşinası Pryanişnikovun cəza dəstəsinə gələn Mitka belə adam olmuşdu.

Gəlib xutora çatanda atını yavaş-yavaş sürüb, öz mülkünə tərəf yönəldi, yolda ona rast gələn arvadların salamını ağızucu alır və özünü çox lovğa tuturdu. Yarıya qədəri yanmış qapıda atdan endi, cilovu kalmıka verdi və geniş addımlarla həyətdə gəzməyə başladı. Silanti ilə birlikdə kirimişcə hərlənib, evin bünövrəsi ətrafına baxdı, qamçısının ucunu yanğın zamanı əriyib torpağa qarışan firuzəyə rəngli şüşəyə vurdu, şaşqınlıqdan xırıltılı bir səslə dedi:

– Yandırdılar... Amma yaxşı mülk idi! Xutorda birinci idi. Bizim xutorlumuz Mişka Koşevoy yandırıb, babamı da o öldürmüşdür. Belədir işlər. Silanti Petrov, ölmədik, doğma evimizin külə döndüyünü də gördük...

– Bu Koşevoylardan evdə heç bir adam yoxdurmu? – deyə kazak maraqla soruşdu.

– Gərək ki var. Biz onlarla görüşəcəyik hələ... İndi gedək bizim qudalarla görüşək.

Melexovlara gedəndə Mitka yolda Boqatıryovların ona rast gələn gəlinindən soruşdu:

– Anam Donun o tayından qayıdıb gəlməyib ki?

– Deyəsən hələ yox, Mitri Mironiç.
– Qudamız Melexov evdədirmi?
– Qocanımı deyirsən?
– Hə.
– Qoca evdədir, qısası, bircə Qriqoridən savayı bütün ailə evdədir. Petronu qışda öldürdülər, eşidibsənmi?

Mitka başını tərpətdi, atını dəbərtdi.

O, atını kimsəsiz küçə ilə sürürdü, lakin onun sarı gözlərində, bu tox və soyuq gözlərdə indi bayaqkı həyəcan və maraqdan kiçik bir əlamət də yox idi. Melexovların həyətinə yaxınlaşanda yanınca gələnlərin heç birinə müraciət etmədən astaca dedi:

– Demək doğma xutorumuz bizi belə qarşılayır! Nahar eləmək istəyirsən, onu da gedib qohumlarının evində yeməlisən... Eyb etməz, baxarıq!..

Panteley Prokofyeviç mərəyin altında taxılbiçən maşını sahmana salırdı. Atlı gəldiyini gördü və bunların arasında Korşunovu tanıyaraq, qapını açmağa getdi.

– Ay xoş gəlibsiniz, – deyə qoca sevincək qapını açdı. – Qonaqlarımız xoş gəlib, səfa gətirib!

– Xoş gördük, a quda! Sağ-salamatsınızmı?

– Allaha şükür, hələ ki, salamatıq. Sən deyəsən axı zabit olmusan, hə?

– Bəs sən elə güman edirdin ki, bircə sənin oğlanların ağ poqon taxa bilər? – deyə Mitka təmkinlə danışdı və uzun, damarları çıxmış əlini qocaya uzatdı.

– Mənimkilər zabitliyə çox da həvəsli deyildilər, – deyə Panteley Prokofyeviç gülümsündü və qabağa düşdü ki, atları haraya bağlayacaqlarını onlara göstərsin.

Duz-çörəkli İliniçna qonaqları yedirib-içirdi, sonra da söhbət başlandı. Mitka ailəsinə aid olan bütün məsələləri ətraflı soruşub öyrəndi, o çox sakit idi, qeyzli və qüssəli olduğunu qətiyyən sezdirmirdi. Guya sözarası Mişka Koşevoyun ailəsindən xutorda kimin qaldığını xəbər aldı və öyrəndi ki, kənddə həmin ailədən Mişkanın anası, bir də uşaqları qalır, bunu öyrənən kimi xəlvəti Silantiyə balaca him elədi.

Qonaqlar bir az keçmiş getməyə hazırlaşdılar. Panteley Prokofyeviç onları ötürərkən soruşdu:

– Xutorda çoxmu qalmaq fikrindəsən?
– İki ya üç gün.
– Ananla görüşəcəksənmi?
– Fürsət düşsə, əlbəttə.
– Bəs indi uzağamı gedirsən?
– Deməli... xutorlularımızdan bir parası ilə görüşməyə gedirəm. Tezliklə qayıdıb gələrik.

Mitka öz yoldaşları ilə Melexovlargilə hələ qayıdıb gəlməmişdi ki, xutora belə bir xəbər yayıldı: "Korşunov kalmıklarla xutora gəlib Koşevoyun bütün ailəsini qılıncdan keçiriblər!"

Heç bir şeydən xəbəri olmayan Panteley Prokofyeviç əlində dəryaz dəmirçixanadan yenicə gəlmişdi və təzədən otbiçən maşını sahmanlamaq istəyirdi ki, İliniçna onu səslədi:

– Prokofyeviç, tez buraya gəl! Cəld ol!

Qarının səsində təşviş duyulurdu, bundan təəccüblənmiş Panteley Prokofyeviç dərhal evə doğru getdi.

Çox ağlamış və rəngi qaçmış Natalya sobanın yanında dayanmışdı. İliniçna gözlərilə Anikuşkanın arvadını göstərək yavaşcadan soruşdu:

– Təzə xəbəri eşidibsənmi, a kişi?

"Vay, yəqin Qriqorinin başına bir iş gəlmişdir... Pərvərdigara, sən özün rəhm elə, yazığın gəlsin" deyə fikirləşən Panteley Prokofyeviçin bədəninə lərzə düşdü. Onun rəngi qaçdı və həm qorxudan, həm də heç kəsin dillənmədiyini görüb bərkdən çığırdı:

– Tez olun, deyin görüm nə olub, Allahın lənətinə gələsiniz! Hə, deyin görüm Qriqoriyə bir şeymi olub? – O qışqırmaqdan haldan düşmüş kimi taxtın üstünə çökdü və titrəyən ayaqlarını ovuşdurmağa başladı.

Hamıdan əvvəl Dunyaşka başa düşdü ki, atası Qriqori haqqında qara xəbərdən vahiməyə düşüb, ona görə də tez dedi:

– Yox, dədə, Qrişa haqqında bir xəbər yoxdur. Mitka Koşevoygili qırıbdır.

– Necə yəni qırıbdır? – O dəqiqə Panteley Prokofyeviçin ürəyi yerinə gəldi və Dunyaşkanın dediyi sözlərdən bir şey başa düşməyərək bir də soruşdu: – Koşevoygili? Mitri?

Xəbər gətirən qadın, Anikuşkanın arvadı dili dolaşa-dolaşa əhvalatı danışmağa başladı:

– Deməli, ay dayı, mən dananı axtarmağa getmişdim, Koşevoyların evinin yanından keçəndə gördüm üç atlı, Mitri və iki nəfər də onun qulluq yoldaşı atları sürüb Koşevoygilin həyətinə girdilər və birbaşa evə keçdilər. Mən o saat fikirləşdim ki, dana andır dəyirmandan o yana getməz, dana otarmaq növbəsi...

– Əşi, dalını söylə, sənin danan başına dəysin! – deyə Panteley Prokofyeviç qeyzlə onun sözünü kəsdi.

– ...Hə, onlar evə keçdilər, – deyə arvad boğazı tutula-tutula sözünə davam etdi, – mən də dayanıb gözlədim. Dedim, vallah, bunlar buraya heç də yaxşı işdən ötrü gəlməyiblər. Bir də gördüm içəridən qışqırtı qopdu, – döyürlər. Mən yamanca qorxdum, qaçmaq istədim, elə çəpərdən yenicə aralanmışdım ki, gördüm daldan tappıltı səsi gəlir; geriyə baxanda gördüm ki, sizin Mitri çatını salıb qarının boğazına, Allah göstərməsin, arvadı ölü it kimi sürütləyir! Onu sürüyüb mərəyin altına gətirdi, arvadın heç səs-səmiri də çıxmırdı, güman ki, huşunu itirmişdi; Mitrinin yanınca gələn kalmık dırmaşıb kərənə çıxdı... Gözümlə gördüm. Mitri çatının ucunu kalmıka verdi və qışqırdı: "Bərk çək, ilmək qayır!" Oy, Allah, nələr gördüm! Mənim gözümün qabağında biçarə qarını boğub öldürdülər, sonra da atlarını mindilər, küçə ilə getdilər, güman ki, dəftərxanaya yollandılar. Mən evə getməyə bərk qorxurdum... Axı gördüm ki, dəhlizdən, lap qapının altından güclü qan axır. Pərvərdigara, belə bir müsibəti bir də göstərmə!

– Gör, Allah bizə nə yaxşı qonaqlar göndərib! – deyə İliniçna intizarla ərinin üzünə baxdı.

Panteley Prokofyeviç əhvalatı böyük bir həyəcanla dinlədi və bir kəlmə də danışmadan o saat dəhlizə keçdi.

Bir az keçəndən sonra Mitka yoldaşları ilə bərabər darvazanın ağzında göründü. Panteley Prokofyeviç tələsik axsaya-axsaya onların qabağına getdi. Hələ onlara çatmamış ucadan çığırdı:

– Dayanın! Atınızı həyətə sürməyin!

– Nə olub, a quda? – deyə Mitka təəccüblə soruşdu.

– Atınızı geri sürün, – deyib Panteley Prokofyeviç lap qapıya yaxınlaşdı, Mitkanın parıldayan sarı gözlərinin içinə baxaraq qətiyyətlə dedi: – Xətrinə dəyməsin, quda, mən istəmirəm ki, sən mənim evimdə olasan, yaxşısı budur ki, hara ağlın kəsir, çıxıb oraya da gedəsən!

– A-h-a... – deyə Mitka məsələni başa düşdü və rəngi qaçdı: – Deməli bizi qovursan?

– İstəmirəm ki, sən mənim evimi murdarlayasan! – deyə qoca sözünü qətiyyətlə təkrar etdi. – Bir də sənin ayağın mənim evimə dəyməsin. Biz Melexovlar cəlladlarla qohum deyilik!

– Aydındır! Amma sən, qudacan, çox ifrat rəhmlisən!

– Amma arvadlarla balaca uşaqları qırırsansa, görünür, səndə rəhm deyilən şey yoxdur! Ox, Mitri, nə qədər murdar sənətin var, bilsən... Rəhmətlik atan səni görsə, güman ki, fərəhlənməzdi!

– Bəs sən, qoca axmaq, istəyirsən ki, mən onlarla mazaq-quzaq oynayım? Onlar mənim atamı öldürsünlər, babamı öldürsünlər, mən də durum onlarla qardaşlıq eləyim? Cəhənnəm ol gözümün qabağından! – Mitka hirsli-hirsli atın cilovunu dartdı və darvazadan çıxdı.

– Mitri, söyüş söymə, sən mənim oğlum yerindəsən! Şərikli bir şeyimiz də yoxdur! Çıx get, Allah rizasına!

Mitkanın get-gedə rəngi qaçırdı, kişini qamçı ilə hədələyərək, boğuq səslə çığırdı:

– Məni günaha batırma, sənə deyirəm məni günaha batırma! Natalyaya yazığım gəlir, yoxsa sənə rəhmli olmağı göstərərdim... Bələdəm sizə! Qəşəngcə görürəm ki, nə fikirdə olan adamsınız! Donun o tayına keçmədiniz? Qırmızılara satıldınız? Əlbəttə, sizin hamınızı, köpək uşağı, Koşevoyun ailəsi kimi məhv etmək lazımdır! Gedək, uşaqlar! Yaxşı, topal köpək, çalış ki, rastıma gəlməyəsən! Əlimə düşsən canını qurtarmayacaqsan! Verdiyin duz-çörəyi Allah qoysa yadına salaram! Belə qohumlara mən heç tüpürmək də istəmirəm!..

Panteley Prokofyeviç əlləri əsə-əsə qapının rəzəsini vurdu, axsaya-axsaya evə tərəf getdi. Natalyanın üzünə baxmadan dedi:

– Qardaşını qovdum.

Natalya ürəyində qayınatasının hərəkətini bəyənmişdi, lakin dinmədi. İliniçna isə tez xaç vurub sevincək dedi:

– Allaha çox şükür: xata-bala başımızdan uzaqlaşdı! Bədinə danışmağıma görə məni bağışla, Natalyacan, amma düzü, sizin bu Mitka çox haramzadə çıxdı! Gör özünə necə qulluq tapıb; başqa kazaklar kimi əməlli-başlı hissələrə deyil, gör özünü bir hara verib!.. Adamasan dəstəyə girib! Bu məgər kazak işidir, – cəllad olmaq, qarıları asmaq, balaca günahsız uşaqları doğram-doğram eləmək?!

Məgər onlar Mişkanın əvəzinə cavabdehdir? Belə olsa onda gərək qırmızılar Qrişanın heyifini səninlə məndən, Mişatka ilə Polyuşkadan alıb qılıncdan keçirə idilər, amma heç doğramadılar, rəhm elədilər! Yox, Allah sən özün saxla, mən belə şeyə razı deyiləm!

Natalya yaylığının ucu ilə gözlərinin yaşını silərək dedi:

– Anacan, heç mən özüm də qardaşımı müdafiə eləmirəm...

Mitka həmin günü çıxıb xutordan getdi. Bir az sonra xəbər gəldi ki, o guya Karginskaya səmtində öz cəza dəstəsinə qoşulmuş və dəstə ilə birlikdə Donetsk mahalının Ukrayna obalarında asayişi bərpa etməyə getmişdir; bu yerlərin camaatı yuxarı Don üsyanının yatırılmasında iştirak etməkdə təqsirləndirilirdilər.

O çıxıb gedəndən bir həftə sonra da xutorda bu əhvalat haqqında danışıq getdi. Camaatın çoxu Koşevoyun ailəsinə tutulan divanı pisləyirdi. Camaatdan pul yığaraq qırılanları dəfn etdilər; Koşevoyların daxmasını satmaq istədilər, lakin alan tapılmadı. Xutor atamanının əmrilə evin pəncərə-qapılarını çal-çarpaz taxta qoyub mıxladılar və uzun müddət körpə uşaqlar bu qorxulu evin yaxınında oynamaqdan çəkindilər, qarılarla qocalar isə xaraba qalmış daxmanın yanından keçərkən xaç çevirib qırılanların bağışlanması üçün dua edirdilər.

Sonra ot çalımı başlandı və bu hadisə də unudulub getdi.

Xutor yenə əvvəlki qaydasında – öz iş-gücü ilə və cəbhədən gələn xəbərlərlə yaşayırdı. Qoşqu heyvanı salamat qalmış evlər biyara araba verəndə narazılıq edirdilər. Öküzlərlə atları demək olar ki, hər gün işdən ayırıb stanitsaya göndərməli olurdular. Qocalar atları otçalan maşınlardan açıb verdikləri zaman axırı görünməyən müharibəyə dönə-dönə lənət deyirdilər. Lakin top güllələrini, güllələri, tikanlı məftil yumaqlarını, ərzağı cəbhəyə daşıyıb gətirmək lazım idi. Daşıyırdılar da. Tərs kimi, günlər çox yaxşı keçirdi, yetişmiş və çox şirəli otu biçib qotmanlamaq üçün fürsət idi.

Panteley Prokofyeviç ot çalımına hazırlaşırdı, amma Daryaya yaman acığı tutmuşdu. Çünki Darya bir cüt öküzü də götürüb güllə daşımağa getmişdi və təhvil məntəqəsindən gərək dönüb evə gələydi, ancaq bir həftə keçmişdi hələ qayıtmamışdı; bundan başqa, Daryanın apardığı qoca, səriştəli öküzlərsiz heç çölə çıxmağına dəyməzdi.

Əslinə baxsan, gərək heç Daryanı göndərməyəydi... Panteley Prokofyeviç Daryanın kefcil olduğunu və heyvana canıyanan olmadığını

yaxşı bilirdi, ancaq evdə ondan başqa göndəriləsi adam yox idi. Dunyaşkanı göndərmək olmazdı, çünki yad kazaklarla uzaq yola çıxmaq qız xeylağının işi deyildi: Natalyanın da uşaqları körpə idi; daha bu zəhrimara qalmış güllələri qoca özü aparası deyildi ki? Darya isə, getməyə çox həvəslə razı oldu. Əvvəllər də o hər yerə böyük həvəslə gedirdi: dəyirmana da, zibil daşımağa da, evin başqa çöl işinə də o gedirdi; həmişə də ona görə gedirdi ki, evdən kənara çıxanda özünü son dərəcə sərbəst hiss edirdi. Hər səfəri ona əyləncə və sevinc gətirirdi. Qayınatasının nəzarəti altından çıxan kimi, o, arvadlarla doyunca qeybət də qıra bilir və özü dediyi kimi, gözü tutmuş zirək kazakla "əlüstü eşqbazlıq" da edə bilirdi. Evdə isə, Petro öləndən sonra da tələbkar İliniçna ona göz verib işıq vermirdi, guya sağlığında ərinə xəyanət edən Darya, o öləndən sonra sədaqətli olmalı idi.

Panteley Prokofyeviç bilirdi ki, öküzlərə əməlli-başlı baxan olmayacaqdır, bununla belə naəlaclıqdan böyük gəlinini səfərə göndərməli oldu. Gəlinini göndərməyinə göndərdi, lakin düz bir həftə təşviş içində oldu, nigarançılıq çəkdi. O, arabir gecəyarısı yuxudan tələsik qalxır, ağır-ağır köksünü ötürərək deyirdi: "Öküzlərim gurultuya getdi!"

Darya ancaq on birinci günün səhəri gəlib çıxdı. Panteley Prokofyeviç çöldən yenicə qayıtmışdı. O, Anikuşkanın arvadı ilə şərikli ot çalırdı. Onunla Dunyaşkanı çöldə qoyub su və yemək aparmaq üçün xutora gəlmişdi. Pəncərənin yanından tanış araba təkərlərinin taqqıltısı gələndə qocalarla Natalya çörək yeyirdilər. Natalya tez pəncərəyə yüyürdü, başı gözünün üstünə qədər bürüncəkli olan Daryanın yoğun, arıqlamış öküzləri sürdüyünü gördü.

Qoca tikəsini ağzında saxlayaraq soruşdu:

– Odurmu, hə?

– Daryadır!

– Öküzləri bir də görəcəyimə ümidim yox idi! Şükür sənə, pərvərdigara! Avara məlun gəldi çıxdı! Güc-bəla ilə özünü həyətə yetirdi... – deyə qoca mızıldadı və bərkdən gəyirərək xaç çevirdi.

Darya öküzləri arabadan açdıqdan sonra mətbəxə keçdi, dördqat elədiyi döşəkçəni qapının kənarında yerə qoydu, evdəkilərlə salamlaşdı.

– Qadan alım, niyə belə tələsik qayıtmısan! Bir həftə də gəzəndən sonra gələrdin də! – deyə Panteley Prokofyeviç acıqlı-acıqlı deyindi, gözaltı tərs-tərs Daryaya baxıb onun salamını da almadı.

– Elə idi özünüz gedəydiniz! – deyə Darya tozlu yaylığını başından açа-açа çəmkirdi.

– Səfərin niyə belə uzun çəkdi? – deyə İliniçna da söhbətə qarışdı ki, arada olan bu dilxorluğu birtəhər yumşaltsın.

– Buraxmırdılar, onun üçün uzun çəkdi.

Panteley Prokofyeviç Daryanın sözünə inanmayıb başını buladı və soruşdu:

– Nə təhər oldu ki, Xristonyanın arvadını təhvil məntəqəsindən buraxırlar, amma səni buraxmırlar?

– Məni buraxmadılar! – deyə Darya acıqlı-acıqlı baxıb əlavə etdi: – Əgər inanmırsınızsa, karvanın üstünсə gedən rəisdən öyrənə bilərsiniz.

– Sənin işini soruşub öyrənməyə mənim vaxtım yoxdur, daha bir də belə səfərə getməyəcəksən. Səni ancaq ölümə göndərmək lazımdır.

– Elə bilirsiniz məni qorxutdunuz! Ox, yaman qorxutdunuz! Heç mən özüm də getməyəcəyəm! Lap göndərsəniz də getməyəcəyəm!

– Öküzlər sağ-salamatdırmı? – deyə qoca bu dəfə sakitliklə soruşdu.

– Salamatdır. Sizin öküzlərinizə heç nə olmayıbdır... – Darya könülsüz cavab verdi, bulud kimi tutulmuşdu.

Natalya belə düşündü: "Yəqin yolda xoşuna gələn bir adam əlindən çıxıb, indi ona görə belə hirslidir".

Natalya Daryaya və onun murdar məhəbbət oyunlarına həmişə bir təəssüf hissi ilə və iyrəncliklə baxardı.

Nahardan sonra Panteley Prokofyeviç çölə getməyə hazırlaşırdı ki, xutor atamanı onlara gəldi.

– Sənə yaxşı yol demək lazım idi, amma Panteley Prokofyeviç, dayan, hələ getmə.

Panteley Prokofyeviç hirsindən bağrı çatladığına baxmayaraq özünü zorla toxtadıb soruşdu:

– Yoxsa yüyürüb təzədən bir də araba istəməyə gəlmisən?

– Yox, ayrı bir əhvalat var. Bütün Don ordusunun komandanı, general Sidorinin özü bu gün bizə gəlir, başa düşdünmü? Bu saat stanitsa atamanından kağız almışam, bütün qocaları və arvadları yığıncağa toplamağımızı əmr edir.

– Əşi, onların ağlı başındadırmı? – deyə Panteley Prokofyeviç bərkdən çığırdı. – İşin bu qızğın vaxtında da yığıncaq düzəldərlər? Sənin general Sidorinin qış üçün mənə ot tədarük edəcək?

– O nə qədər sənin generalındırsa bir o qədər də mənimdir, – deyə ataman sakitcə cavab verdi. – Mənə nə əmr edilmişdirsə onu edirəm. Öküzləri aç! Kişini duz-çörəklə qarşılamaq lazımdır. Bunu da deyirlər ki, yanınca müttəfiqlərin generalları gəlir.

Panteley Prokofyeviç kirimişcə arabanın yanında durdu, bir qədər fikrində götür-qoy elədi və öküzləri arabadan açmağa başladı. Sözünün təsir etdiyini görüb sevinən ataman soruşdu:

– Sizin madyandan istifadə etmək olarmı?

– Madyanı neyləyirsən?

– Əmr var ki, yerin deşiyindən də olsa, üçatlı iki araba düzəldib onların qarşısına, gərək ki, Durnoy loqa göndərək. Mən indi bu minik arabasını və atları haradan tapacağımı bilmirəm. Hava işıqlaşmamış oyanıb xutoru dörd dolanmışam, beş dəfə köynəyim qantərə batmışdır – vur-tut dördcə at tapmışam. Camaatın hamısı işdədir, istəyirsən lap özünü öldür, yoxdur.

Yumşalmış Panteley Prokofyeviç madyanı verməyə razı oldu və hətta özünün yaylı arabasını aparmağı da təklif etdi. Hər halda gələn ordu komandanı idi, həm də yanında xarici ölkə generalları vardı; generallara qarşı isə Panteley Prokofyeviç həmişə qorxu qarışıq bir ehtiram hissi duyurdu...

Atamanın səyindən sonra, birtəhər üçatlı iki araba düzəltdilər və hörmətli qonaqları qarşılamaq üçün Durnoy loqa göndərdilər. Camaat da meydana yığışdı.

Bir çoxları ot çalınını buraxıb çöldən xutora gəldilər.

Panteley Prokofyeviç də cəhənnəmə ki deyib işə getmədi, yaxşıca bəzəndi, təmiz köynək geyindi, yanı lampaslı mahud şalvarını geydi, bir zaman Qriqorinin ona sovqat gətirdiyi furajkanı başına keçirdi, təşəxxüslə, axsaya-axsaya meydana tərəf yönəldi, qarısına da tapşırdı ki, Daryadan Dunyaşka üçün su və yemək göndərsin.

Bir az sonra böyük yoldan qalın toz dumanı ucaldı və bu duman sel kimi xutora doğru irəliləməyə başladı, sonra da tozun arasından, nə isə bir metal işıltısı görsəndi və hələ uzaqda olan avtomobil fitinin xoş səsi eşidildi. Qonaqlar tünd sürməyi boyaları göz qamaşdıran iki təptəzə avtomobildə gəlirdi; bomboş üçatlı arabaların ikisi

də xeyli uzaqdan ot çalınını buraxıb, xutora qaçışan adamların arxasınca çapırdı; görüş təntənəli olsun deyə atamanın xamıtlardan asdığı qumrovlar yavaş-yavaş zınqıldayırdı. Meydana toplaşmış adamlar arasında gözəçarpan bir canlanma əmələ gəldi, danışıq səsləri ucaldı, uşaqların şən bağırtıları eşidildi. Özünü itirmiş ataman tələsik camaat arasına qaçıb, duz-çörək təqdim edəcək hörmətli ağsaqqalları bir araya yığdı. Panteley Prokofyeviç də atamanın gözünə sataşdı və sevincək ona müraciətlə:

– Panteley Prokofyeviç, sən Allah, bizi qurtar! Sən dünyagörmüş adamsan, xoşrəftarlığın nə olduğunu da bilirsən... Yəqin onlarla necə əl tutuşmaq lazım olduğunu da, ayrı şeyləri də bilirsən... Sən eyni zamanda məclis üzvüsən, oğlun da ki, məlumdur... Rica edirəm, mən yamanca çəkinirəm, dizlərim əsir.

Göstərilən hörmətdən xoşlanmış Panteley Prokofyeviç, nəzakət xatirinə əvvəlcə boyun qaçırdı, sonra birdən başını yırğalayıb, bir çətin işi boynuna alırmış kimi tələsik xaç çevirdi və üstünə naxışlı örtük salınmış duz-çörəyi ondan aldı; dirsəkləri ilə camaatı itələyə-itələyə qabağa çıxdı.

Avtomobillər sürətlə meydana yaxınlaşırdı; bir sürü rəngbərəng və hürməkdən səsləri tutulmuş it də maşınların dalınca qaçırdı.

– Hə, necəsən? Qorxmursan? – deyə rəngi qaçmış ataman yavaşca Panteley Prokofyeviçdən soruşdu. Ataman ömründə birinci dəfə idi ki, bu qədər böyük vəzifəli adamlar görürdü. Panteley Prokofyeviç göy gözləri ilə ona çəpəki baxaraq, həyəcandan batmış bir səslə dedi:

– Al, bunu bir saxla, mən saqqalımı darayım. Tut görüm!

Ataman qulluq göstərənliklə məcməyini ondan aldı, Panteley Prokofyeviç də bığ-saqqalını darayıb tumarladı, döşünü cavan oğlan kimi qabağa verdi və axsamağı nəzərə çarpmasın deyə şikəst ayağının barmaqları ucunda qalxaraq, məcməyini təzədən aldı. Lakin duz-çörək kişinin əlində elə əsdi ki, ataman qorxub ondan soruşdu:

– Birdən salarsan ha? Ay aman, gözlə!

Panteley Prokofyeviç saymazyana çiynini dartıb dedi:

– Qorxma! Adam da belə axmaq söz danışar? Kim salar, məclis üzvü olan və sarayda hamı ilə əl tutuşub görüşən Panteley indi generaldan qorxacaq? Bu yazıq atamancığazın lap ağlı başından çıxmışdır! Sən nə danışırsan, mən qoşun məclisində olanda baş

atamanın özü ilə üzbəüz oturub çay içmişəm... – deyə Panteley Prokofyeviç söhbətə başlamaq istəyirdi, lakin susdu.

Qabaqda gələn avtomobil onun onca addımlığında dayandı. Üzünü təmiz qırxmış, başında günlüyü iri bir furajka və frençinin çiynində ruslarınkına bənzəməyən nazik poqon olan şofer cəld maşından sıçrayıb düşdü və maşının kiçik qapısını açdı. Avtomobildən iki nəfər hərbi paltarlı adam təmkinlə çıxıb, izdihama tərəf yönəldi. Onlar düz Panteley Prokofyeviçin üstünə gəlirdilər. Prokofyeviç isə dayandığı yerdə, daş kimi hərəkətsiz qalmışdı. O indi başa düşdü ki, generallar, bu təvazökarcasına geyinmiş iki şəxsdir, dalınca gələn çox yaraşıqlı geyinmiş adamlar isə sadəcə onları müşayiət edirlər. Prokofyeviç kirpiyini qırpmadan ona yaxınlaşan qonaqlara baxırdı; onun baxışlarında getdikcə artan bir heyrət əks olunurdu. Bəs bunların generallara məxsus çiyindən sallanan epoletləri hanı? Akselbantları və ordenləri hanı? Axı, bunlar necə generaldır ki, zahirən adi əsgər kargüzarlarından seçilmirlər? Birdən-birə Panteley Prokofyeviçi acı bir ümidsizlik bürüdü. Hətta o bir növ özünün təntənəli surətdə görüşə hazırlaşmasına da, general adını bihörmət edən bu cür generallar görməsinə də bərk pərt oldu. Lənət sənə şeytan, o bilsəydi ki, gələnlər belə generallardır, bu qədər səliqə-sahmanla geyinib bəzənməz, əsə-əsə bu qədər gözləməzdi. Bunlar bir yana, heç olmasa, içinə, kim bilir, hansı burnunun suyu axan qarınınsa bişirdiyi çörək qoyulmuş bu qabı axmaq kimi əlində tutub saxlamazdı. Yox, Panteley Melexov, bu günə qədər hələ ələ salınmamışdı, amma bu gün bu iş onun da başına gəldi; bir dəqiqə bundan əvvəl daldan balaca uşaqların ona baxıb pıqqıldaşdıqlarını o öz qulaqları ilə eşitmişdi, hətta o nadinclərdən birisi lap hündürdən demişdi: "Uşaqlar! Ora baxın! Topal Melexov gör özünü at kimi necə dartıb! Elə bil balıq udub!" Heç olmasa adamı bir şeyin üstündə lağa qoyaydılar və şikəst ayağını əziyyətə salmağa dəyəydi... Nifrətdən Panteley Prokofyeviçin az qalırdı bağrı çatlasın. Bütün bunların hamısına bu qorxaq ataman təqsirkar idi!

Gəldi, hay-küy saldı, madyanı və minik arabasını götürüb apardı, ləhləyə-ləhləyə bütün xutoru bir-birinə vurdu. Hətta arabalar üçün qumrov və zınqırov da tapdı. Doğrudan da, düz deyiblər: görməmişin bir oğlu oldu, vurub gözünü çıxardı. Ömrü boyu Panteley Prokofyeviç o qədər general görmüşdü ki! Elə imperatorun özünün

qoşunu gözdən keçirməsini götürək; budur biri gəlir – bütün döşü xaçdır, medaldır, zərbaftadır; üzünə baxanda adamın ürəyi açılır, general yox, lap elə bil ikonadır! Bunlara baxırsan, hamısı çil qarğa kimi yaşlıdır. Hətta birinin başında, formanın tələb etdiyi kimi furajka yox, qazana oxşayan bir şey var, özü də elə qırxılmışdır ki, çıraqla axtarsan da bir tük tapa bilməzsən... Panteley Prokofyeviç qaşqabağını salladı və nifrətdən az qaldı ki, tüpürsün, bu halda kim isə onu daldan bərk dürtmələyib, hündürdən dedi:

– Yeri, yeri, apar ver!..

Panteley Prokofyeviç irəli addımladı. General Sidorin onun başı üstündən ötəri izdihamı süzdü, ucadan dedi:

– Salam, cənab qocalar!

Xutorlular qarma-qarışıq cavab verdilər:

– Əleyküməssəlam, əlahəzrət!

General duz-çörəyi Panteley Prokofyeviçin əlindən ehtiramla aldı, "sağ olun" dedi və adyutantına verdi.

Sidorinlə yanaşı durmuş ucaboylu qarabəniz ingilis polkovniki gözünün üstünə kimi endirilmiş dəbilqəsi altından soyuqqanlı bir maraqla kazaklara tamaşa edirdi. Bu adam, Britaniyanın Qafqazdakı hərbi vəkilliyinin rəisi general Briqqsin əmri ilə bolşeviklərdən təmizlənmiş Don qoşunu torpaqlarını yoxlamağa çıxan general Sidorini müşayiət edir və mütərcim vasitəsilə kazakların əhvali-ruhiyyəsini öyrənir, habelə cəbhədəki vəziyyətlə tanış olurdu.

Yolun əziyyətləri, yeknəsəq çöl mənzərələri, adamı darıxdıran danışıqlar və böyük dövlət vəkilinin üzərinə düşən müxtəlif mürəkkəb vəzifələr polkovniki yormuşdu; lakin kral ordusunun mənafeyi hər şeydən üstün idi! Buna görə də o, stanitsalarda çıxış edən natiqlərin sözlərini çox diqqətlə dinləyir və demək olardı ki, danışığın hamısını başa düşürdü; çünki rus dilini bilir və bunu başqalarından gizlədirdi. O, bu döyüşkən step oğullarının müxtəlif xasiyyətli qarabuğdayı simalarını ingilislərə məxsus bir lovğalıqla nəzərdən keçirir və kazak izdihamına diqqətlə baxdıqda həmişə diqqəti cəlb edən irq qarışıqlığına təəccüb edirdi. Saçı sapsarı slavyan kazakla yanaşı tipik bir monqol durmuşdu, bunların da yaxınlığında sir-sifəti qarğa qanadı kimi qara, yaralanmış qolunu kirli sarğı ilə bağlayan bir cavan kazak, saçı-saqqalı İncildə deyilən kimi, dümağ keşişlə, astadan söhbət edirdi; mərc gəlmək olardı ki, bu

əsasına söykənmiş, əyninə qədim kazak arxalığı geymiş keşişin damarlarında xalis Qafqaz dağlılarının qanı vardır...

Polkovnik tarixi pis bilirdi. O bu kazakları nəzərdən keçirə-keçirə fikirləşirdi ki, nəinki bu barbarlar, heç onların nəvələri də hər hansı yeni Platovun komandası altında Hindistana gedə bilməyəcəkdir. Bolşeviklər məğlub edildikdən sonra, vətəndaş müharibəsi nəticəsində candan düşmüş Rusiya uzun zaman böyük dövlətlər sırasından çıxacaq və bir neçə on il ərzində Britaniyanın Şərq torpaqlarını heç bir təhlükə gözləməyəcəkdir. Bolşeviklərin məğlub ediləcəyinə gəlincə, buna polkovnik möhkəm inanmışdı. O, ayıq zəkalı bir adam idi, müharibəyə qədər Rusiyada xeyli vaxt yaşamışdı və aydındır ki, yarıvəhşi bir məmləkətdə utopik kommunizm ideallarının qələbə çalacağına inana bilməzdi...

Bir-birilə ucadan pıçıldaşan arvadların səsi polkovnikin nəzərini cəlb etdi. O, başını tərpətmədən qadınların günəşdən və küləkdən bərkimiş ətli üzlərinə baxdı və bir-birinə kip yapışmış dodaqlarında güclə sezilən bir istehzalı gülümsünmə göründü.

Panteley Prokofyeviç duz-çörəyi verən kimi, çəkilib camaata qarışdı. O, gələnləri Veşenskaya stanitsasının kazak əhalisi tərəfindən veşenskayalı bir dilavərin necə salamladığını dinləmədi, camaatı axsaya-axsaya yarıb qırağa çıxdı və bir qədər kənarda durmuş üçatlı arabaya tərəf yönəldi.

Atların hamısı köpük içində idi, ağır-ağır nəfəs alırdı. Qoca ortaya qoşulmuş madyanına yaxınlaşdı, qolu ilə atın burnunun üstünü sildi, köksünü ötürdü. O qədər dilxor idi ki, söyüb ürəyini boşaltmaq, buradaca madyanını arabadan açmaq və götürüb evə aparmaq istəyirdi.

Bu vaxt general Sidorin tatarsklılara nitq deyirdi. General tatarsklıların, qırmızıların arxasında apardıqları döyüş əməliyyatını çox bəyənib, tərifləndikdən sonra dedi:

– Siz ümumi düşmənimizə qarşı mərdliklə vuruşmusunuz. Getgedə bolşeviklərdən, onların müdhiş əsarətindən xilas edilən vətən, sizin xidmətinizi unutmayacaqdır. Mən istərdim ki, sizin xutordan bizə məlum olduğu üzrə, qırmızılara qarşı silahlı mübarizədə xüsusilə fərqlənmiş qadınlar təltif edilsinlər. Mən indicə familiyaları burada oxunacaq qəhrəman kazak qadınlarının irəli çıxmasını rica edirəm!

Zabitlərdən birisi qısa bir siyahı oxudu. Siyahıda birinci Darya Melexova yazılmışdı, qalanları üsyanın başlanğıcında ərləri öldürülmüş və özləri də Darya kimi, Serdobsk polku təslim olandan sonra adamları sürülüb Tatarsk xutoruna gətirilən əsir kommunistlərə divan tutmaqda iştirak etmiş dul arvadlar idi.

Panteley Prokofyeviçin tapşırmasına baxmayaraq Darya çölə getməmişdi. O burada, xutor arvadları arasındaca imiş, özü də elə bəzənib-düzənmişdi ki, elə bil toya gəlmişdi.

O, öz familiyasını eşidən kimi arvadları cəsarətlə yarıb keçdi və yeriyərkən qırağı krujevalı ağ yaylığını düzəldərək gözlərini qıyıb bir az utana-utana gülümsədi. Uzaq yoldan gəlməsinə və eşq macəraları keçirməsinə baxmayaraq, ölmüş yenə də qəşəng görünürdü. Günəşin hərarəti toxunmadığı solğun yanaqları qıyılmış, nə isə axtaran gözlərindəki qızğın parıltını daha kəskin nəzərə çarpdırırdı, sürmələnmiş qaşlarının çatılmasında, bir də gülümsünən dodaqlarının arasında nə isə haramzadə və adamaldadan bir ifadə var idi.

Dalı camaata sarı durmuş bir zabit onun yolunu kəsmişdi. Darya zabiti yavaşca kənara itələdi və:

– Gözəl oğlan, yol verin! – deyib Sidorinin yanına gəldi.

Sidorin lentdən asılmış Georgi medalını adyutantın əlindən aldı, barmaqlarını çətinliklə tərpədə-tərpədə lenti Daryanın koftasına, sol döşünün üstünə keçirdi və gülümsünərək Daryanın gözlərinin içinə baxdı:

– Siz mart ayında öldürülən cənab Melexovun arvadısınızmı?

– Bəli.

– İndi siz beş yüz manat pul alacaqsınız. Pulu sizə bu zabit verəcəkdir. Qoşun atamanı Afrikan Petroviç Boqayevski və Don hökuməti göstərdiyiniz yüksək igidliyə görə sizə təşəkkür edir və xahiş edir ki, onlardan başsağlığı qəbul edəsiniz... Onlar sizin müsibətinizə şərik olurlar.

Darya generalın dediyi sözlərin hamısını başa düşmədi. O, başını tərpədərək təşəkkür etdi, pulu adyutantın əlindən aldı və yenə kirimişcə gülümsünərək, o qədər də qoca olmayan generalın gözlərinin içinə baxdı. Onunla general demək olar ki, bir boyda idilər və Darya çəkinmədən generalın quru simasına tamaşa edirdi. "Mənim Petromun qan bahasını çox ucuz verirlər, bir cüt öküzün bahasından da azdır... Generalcığaz isə, öz aramızdır, pis deyil, babatdır" deyə

Darya bu anda yalnız özünəməxsus bir həyasızlıqla düşünürdü. Sidorin gözləyirdi ki, indicə bu arvad çıxıb gedəcəkdir, lakin Darya ayaq saxlamışdı. Sidorinin dalında dayanmış adyutant və zabitlər bir-birinə qaş-göz edib hallıca Daryanı göstərirdilər; onların gözlərində bir şənlik görünürdü; hətta ingilis polkovniki də bir az hərəkətə gəldi, kəmərini düzəltdi, ayağının birini götürüb o birini qoydu və onun ehtirassız sifətində təbəssümü andıran bir ifadə sezildi.

– Mən gedə bilərəmmi? – deyə Darya soruşdu.

– Bəli, bəli, əlbəttə! – deyə Sidorin tələsik icazə verdi.

Darya yöndəmsiz tərzdə pulu koftasının yaxasından içəri soxub camaata tərəf getdi. Nitqlərdən və mərasimlərdən bezmiş zabitlərin hamısı onun süzə-süzə yeriməsinə tamaşa edirdilər.

İndi də mərhum Martin Şamilin arvadı cəsarətsiz addımlarla Sidorinə tərəf getdi. Köhnəlmiş koftasına medal taxılanda, Şamilin arvadı birdən elə hönkürdü, elə möhkəm və arvad qaydası ürəkdən ağladı ki, zabitlərin üzündəki şən ifadə dərhal silindi, üzlər ciddiləşdi, qaşqabaqlı oldu.

– Sizin əriniz də öldürülmüşdür? – deyə qaşqabaqlı Sidorin soruşdu.

Ağlayan arvad əli ilə üzünü örtdü, kirimişcə başı ilə təsdiq etdi.

Kazaklardan kim isə yoğun səslə dedi:

– Bu arvadın düz bir sürü uşağı var!

Sidorin üzünü ingilisə tərəf tutub ucadan dedi:

– Biz bolşeviklərə qarşı vuruşmalarda müstəsna igidliklər göstərən qadınları təltif edirik. Bunların çoxunun ərləri bolşeviklərə qarşı qaldırılan üsyanın əvvəlində öldürülmüşdür və bu dul qalmış qadınlar öz ərlərinin intiqamını almaq üçün yerli kommunistlərin böyük bir dəstəsini məhv etmişlər. Mənim təltif etdiyim birinci zabit arvadı rəhmsizlikdə şöhrət qazanmış bir kommunist komissarını öz əllərilə öldürmüşdür.

Mütərcimlik edən zabit dərhal bu sözləri ingiliscə dedi. Polkovnik sözü axıra kimi dinlədi, başını əyərək dedi:

– Mən bu qadınların qəhrəmanlığına heyranam. General, deyin görək, bunlar da vuruşmalarda kişilərlə çiyin-çiyinəmi vuruşmuşlar?

– Bəli, – deyə Sidorin qısaca cavab verdi və əlini təmkinlə tərpədərək üçüncü dul arvadı yanına dəvət etdi.

Medallar verilib qurtarandan azacıq sonra qonaqlar stanitsaya getdilər. Camaat biçinə tələsdiyi üçün o saat meydandan dağıldı və

it hürüşməsi ilə müşayiət edilən avtomobillər kilsə hasarının yanında gözdən itəndən bir neçə dəqiqə sonra cəmisi üçcə qoca kişidən başqa meydanda heç kəs qalmadı.

– Qəribə zəmanə gəlib yetişibdir! – deyə onlardan biri əllərini təəccüblə açdı. – Keçmişdə Yeqorov xaçını və ya medalı müharibədə göstərilən çox zorba hünərə, igidliyə görə, həm də kimə verərdilər? Lap qurd ürəklilərə, əjdahaya! Xaç almaq hər adamın hünəri deyildi. Havayı yerə demirlər: "Ya xaç aldı evə getdi, ya güllə dəyib yerə getdi". İndi isə medalı gətirib arvadların döşünə keçirirlər... Barı bir hünərə görə versələr yenə dərd yarıdır, gör nəyə görə... Kazaklar bir dəstə adamı qovub xutora gətirib, bunlar da payını götürüb əsirləri, silahsız adamları öldürüblər. Bunun harası qəhrəmanlıqdır? Allah haqqı, başa düşmürəm bu nədir!

Koruş və arıq ikinci qoca ayaqlarını aralayıb, dürmək kimi bükülmüş qumaş tənbəki kisəsini aramla cibindən çıxartdı və dedi:

– Deyəsən onların böyükləri çərkəzdir. Deməli orada belə düşünüblər ki, arvadlara da bir şey verib şirnikdirsinlər, hamının ruhunu qaldırsınlar və adamlar da daha həvəslə vuruşsunlar. Bir tərəfdən medal, digər tərəfdən də hərəsinə beşcə yüz manat pul, hansı arvad belə ehtiramdan qaçar? Kazaklardan elələri var ki, heç cəbhəyə getmək istəməzdi, müharibədən canını qurtarmaq üçün bir yanda başını girlərdi, lakin bunu edə bilərmi? Bu gündən belə arvadlar beləsinin gözünü deşər! Məsəl var: "Köç qayıdanda axsaq keçi irəli düşər". Bundan sonra hər bir arvad fikirləşəcək ki: "Elə eləmək lazımdır ki, bir medal da mənim döşümdən assınlar!"

Üçüncü qoca ona etiraz elədi:

– Fyodor kirvə, sən bunu nahaq deyirsən! Təltif etmək lazım imiş, ona görə də elədilər. Arvadlardan dul qalanı çoxdur, təsərrüfat işində pul onların xeyli karına gələcəkdir, medalı da ki, onlara qoçaqlıqlarına görə veriblər. Melexovların Daşkası Kotlyarova birinci divan tutdu, lap haqqında da elədi! Onların divanını Allah özü vermişdir, amma arvadların da divanı pis deyildi. Canları yanır...

Qocalar kilsədə axşam zəngi çalınana qədər höcətləşib söyüşdülər. Zəngçalan zəngi danqıldadan kimi, qocaların üçü də qalxdı, papaqlarını çıxarıb, xaç çevirdilər, sonra aramla hasara girdilər.

XIII

Qəribədir, Melexovlar ailəsində həyat nə qədər dəyişmişdi! Lap bu yaxınlara qədər Panteley Prokofyeviç bu evdə ixtiyar sahibi idi, evdəkilərin hamısı danışıqsız ona itaət edirdilər, işlərin hamısı yerliyerində görülürdü, sevinclər də, dərdlər də bir idi, hər şeydə uzun illərdən bəri yaranmış bir qayda-qanun vardı. Möhkəm və mehriban bir ailə idilər, amma bu yazdan bəri ailədə hər şey dəyişmişdi. Əvvəlcə Dunyaşka aralandı. O, atasının sözünə açıq-aşkar itaətsizlik göstərmirdi, lakin ona tapşırılan bütün işləri könülsüz görürdü, elə bil ki, özü üçün yox, muzdla özgəsinə işləyirdi; o, zahirən də bir növ qaradinməz və adamayovuşmaz olmuşdu. Dunyaşkanın qayğısız gülüşü indi az-az eşidilirdi.

Qriqori cəbhəyə gedəndən sonra Natalya da qocalardan soyumuşdu: demək olar ki, bütün gününü uşaqları ilə keçirir, yalnız onlarla həvəslə danışır və məşğul olurdu; hiss olunurdu ki, Natalya nəyinsə bərk xiffətini edir, lakin öz qohumlarından heç kəsə, bir dəfə də olsun dərdini açıb demirdi, heç kəsə şikayətlənmir və bacardığı qədər həyatının ağır keçdiyini hamıdan gizlədirdi.

Darya barəsində isə danışmağa dəyməzdi: biyardan qayıdandan bəri Darya tamam dəyişmişdi. O, getdikcə tez-tez qayınatasının üzünə ağ olur, İliniçnaya heç məhəl qoymurdu, heç bir səbəb olmadan hamıya acıqlanırdı; xəstəliyi bəhanə edərək ot çalınına getmirdi və özünü elə aparırdı ki, elə bil bir-iki günə qədər Melexovların evindən çıxıb gedəcəkdi.

Ailə Panteley Prokofyeviçin gözü baxa-baxa dağılırdı. Panteley Prokofyeviç qarısı ilə birlikdə təkcə qalmışdı. Birdən-birə qohumluq əlaqələri pozuldu, aralarındakı xoş mehribanlıq yox oldu, danışıqlarında da bir-birinə qəzəb duyulurdu... Süfrə başında, əvvəllər olduğu kimi hamı birdən və mehriban ailə kimi deyil, təsadüfən bir yerə yığışmış adamlar kimi otururdular.

Bunların hamısının təqsiri müharibədə idi, Panteley Prokofyeviç bunu çox gözəl bilirdi. Dunyaşka ata-anasından ona görə incik idi ki, onlar Dunyaşkanın günlərin bir günündə Mişka Koşevoya, qayğısız qız könlü ilə sevdiyi yeganə şəxsə ərə getmək ümidini puça çıxarmışdılar; Natalya da Qriqorinin təzədən Aksinyaya uymasını dərd edib, özünəməxsus qaradinməzliklə iztirab çəkirdi.

Panteley Prokofyeviç bunların hamısını görür, lakin ailəni əvvəlki nizama salmaq üçün heç bir iş görə bilmirdi. Doğrudan da, qoca bu qədər əhvalatdan sonra razı ola bilərdimi ki, onun qızı qəddar bolşevikə ərə getsin; bir də ki, bu haramzadə harada isə, cəbhədə, qızıl əsgər hissəsində vurnuxduğu bir zamanda kişinin razılığının nə mənası vardı? Qriqori də bunun kimi: əgər o, zabit olmasaydı, Panteley Prokofyeviç çoxdan öhdəsindən gəlmişdi. Onu elə yumşaldardı ki, Qriqori heç Astaxovların həyətinə gözünün ucu ilə də baxa bilməzdi. Lakin müharibə hər şeyi alt-üst elədi, qocanı özü istədiyi kimi yaşamaq və evini idarə etmək imkanından məhrum etdi. Müharibə onu var-yoxdan çıxarmış, işə əvvəlki həvəsini öldürmüş, böyük oğlunu əlindən almış, ailəsinə tənəzzül və pozğunluq gətirmişdi. Müharibə onun həyatının üstündən, elə bil buğda zəmisinin üstündən tufan keçən kimi keçdi, ancaq buğda tufandan sonra da başını qaldırır, günəşə tamaşa edir, qoca isə özünü düzəldə bilmirdi. O fikrən əlini yellətdi: "Nə olacaq olsun!"

General Sidorinin əlindən medal alandan sonra Daryanın kefi kökəldi. O günü o, meydandan evə çox sevincək gəldi. Medalını fəxrlə Natalyaya göstərdi.

– Bunu sənə nəyə görə verdilər? – deyə Natalya təəccübləndi.

– Bunu, bizim o kirvə, Allah rəhmət eləmiş köpək oğlu İvan Alekseyeviçə görə verdilər! Bunu da Petyaya görə... – Bunun ardınca da öyünə-öyünə xışıldayan bir dəstə Don kağız pulunu çıxardıb ona göstərdi.

Darya çölə işə getmədi. Panteley Prokofyeviç istədi onunla çölə yemək göndərsin, lakin Darya qəti boyun qaçırdı.

– Məndən əl çək, ay ata, yol məni candan salıbdır!

Qocanın üzü tutuldu. Bunu görən Darya, qaba rədd cavabını bir az yumşaltmaq üçün yarızarafatla dedi:

– Belə bir gündə məni çölə göndərsəniz günaha batarsınız. Bu gün, axı mənim bayramımdır!

– Özüm apararam, – deyə qoca razılaşdı. – Hə, bəs pulu nə edəcəksən?

– Nə pulu? – deyə Darya təəccüblə qaşlarını çatdı.

– Soruşuram ki, pulu neyləyəcəksən?

– O mənim öz işimdir, haraya istərəm, oraya da xərclərəm!

– Bu nə deməkdir? Pulu ki, sənə Petroya görə veriblər!

– Pulu mənə veriblər və buna görə də onun ixtiyarı sizdə deyildir.

– Bəs sən də bu ailədən deyilsənmi?

– Bəs siz bu ailə üzvündən pulu almaqmı istəyirsiniz?

– Hamısını əlindən alan yoxdur, amma Petro, səncə bizim oğlumuzdur, yoxsa yox? Bu puldan qarı ilə mənim payımıza da düşmür?

Qayınatanın iddiası tamam yersiz idi. Buna görə də Darya qətiyyətlə istədiyini yeritdi. O, sakitcə və rişxəndlə dedi:

– Mən sizə heç nə verəsi deyiləm, bir manat da vermərəm! Bu puldan sizin payınız yoxdur, olsaydı, özünüzə verərdilər. Axı, haradan sizin ağlınıza gəlmişdir ki, bundan sizin də payınız var? Bu barədə heç danışıq da olmasın, siz mənimkinə tamah etsəniz də, heç bir şey almayacaqsınız!

Belə olanda Panteley Prokofyeviç axırıncı vasitəyə əl atdı:

– Sən bu ailədə yaşayır, bizim çörəyimizi yeyirsən, deməli, bizim hər şeyimiz ümumi olmalıdır. Bu nə qaydadır, hər kəs başlayıb özü üçün ayrılıqda təsərrüfat qurur? Mən belə şeyə yol vermərəm! – dedi.

Lakin Darya pulları əlindən almaq üçün edilən bu axırıncı təşəbbüsü də dəf etdi. Həyasız-həyasız gülümsünərək dedi:

– Ay ata, mən ki, sizinlə kəbin kəsdirməmişəm, bu gün sizdə yaşayıram, sabah isə ərə gedərəm, heç üzümü də görməzsiniz! Yediyim çörəyin isə haqqını verməli deyiləm. Mən sizin ailə üçün on il işləmişəm, can qoymuşam.

– Sən özün üçün işləmisən, ay avara qancıq! – deyə Panteley Prokofyeviç qəzəblə çığırdı. O daha nə isə çığıra-çığıra dedi, lakin Darya onun sözlərini heç vecinə də almadı, düz kişinin qabağında dönüb yubkasını yelləyərək, öz otağına getdi. "Özündən zırramasına rast gəlibsən!" deyə o, kişini ələ salaraq gülümsünürdü.

Bununla da söhbət qurtardı. Doğrudan da Darya elə aciz deyildi ki, qocanın hay-küyündən qorxub öz malını versin.

Panteley Prokofyeviç çölə getməyə hazırlaşdı və yola düşməzdən əvvəl İliniçnaya qısaca dedi:

– Gözün bu Daryanın üstündə olsun...

– Onun nəyinə göz olum? – deyə İliniçna təəccübləndi.

– Gözlə ki, birdən axmaqlayıb evdən çıxıb gedər və hələ bizim ev şeyindən də götürüb aparar. Belə ki, görürəm, o, boş yerə belə tüğyan eləmir... Deyəsən özünə adam tapmışdır, bu gün-sabah çıxıb ərə gedəcəkdir.

– Deyəsən elədir, – deyə İliniçna köksünü ötürərək onun mülahizəsini təsdiq etdi. – Odur, xoxol kimi yalda yeyir, yaxada gəzir, heç şeyə ürəyi yanmır, heç şeydən xoşu gəlmir... O indi kəsilmiş tikə kimi bir şeydir, kəsilmiş tikə isə nə qədər əlləşsən də bitişən şey deyil.

– Bizim onu özümüzə yapışdırmağımıza ehtiyac yoxdur! Gözlə, ay qoca axmaq, əgər bu barədə söhbət-zad salsa, onu saxlamaq fikrinə düşmə. Qoy çıxıb cəhənnəm olsun. Onun nazı ilə oynamaqdan mən daha təngə gəlmişəm... – Panteley Prokofyeviç arabaya çıxdı; öküzləri sürərkən sözünün ardını dedi: – O, it milçəkdən qaçan kimi işdən qaçır, amma həmişə yağlı tikə istəyir, bir də ki, kefinin ardınca qaçır. Petrodan sonra, Allah günahından keçsin, belə arvadı ailədə saxlamamalıyıq. Bu arvad deyil, şortunun biridir!

Qocaların gümanı səhv idi. Çıxıb ərə getmək Daryanın heç xəyalına da gəlmirdi. O, ərə getməyi düşünmürdü, ürəyinin dərdi başqa idi...

O günü axşama kimi Darya hamı ilə danışır və şən görünürdü. Hətta pul üstündə gedən deyişmə belə onun kefini pozmamışdı. Xeyli müddət güzgünün qabağında o yan-bu yana fırlandı, medala dönə-dönə baxdı, zolaqlı Georgi lentinin hansı koftasına çox yaraşdığını yoxlamaq üçün azı paltarını beş dəfə dəyişdi. Zarafatyana öz-özünə dedi: "Mən indi bir neçə xaç da ala bilsəm bəd olmaz". Sonra İliniçnanı dəhlizə çağırdı və iki dənə 20 manatlıq kağız pulu onun koftasının qoluna soxaraq, hərarətli əlləri ilə İliniçnanın düyünlü alnını öz sinəsinə basaraq yavaşcadan: "Bunu Petyaya ehsan üçün verirəm... Anacan, tapşır dua oxusunlar, halva bişirək..." Bunu deyib ağladı... Lakin bir dəqiqədən sonra, yaşdan gözləri parladığı halda, Mişatka ilə oynayır, bayramlarda bağladığı ipək örpəyi ilə onun başını örtür və elə gülürdü ki, elə bil ömründə bu adam ağlamamışdı, acı göz yaşlarının nə olduğundan xəbərsizdi.

Dunyaşka çöldən gələndən sonra Daryanın kefi daha da açıldı. Ona medalı necə aldığını, generalın necə təntənə ilə danışdığını və ingilisin Daryaya necə qoyun kimi durub baxdığını məzəli surətdə nağıl elədi, sonra da kələkbazcasına Natalyaya göz vuraraq ciddi tərzdə Dunyaşkanı inandırmağa çalışdı ki, tezliklə ona, Daryaya, zabitin medal ilə təltif olunmuş dul arvadına, zabitlik rütbəsi verəcək və özünü də bir qoca kazak bölüyünə yəqin ki, komandir təyin edəcəklər.

Natalya əlində uşaq köynəyi yamaya-yamaya Daryanı dinləyir və gülümsəməkdən özünü zorla saxlayırdı, Dunyaşka isə əllərini döşünə qoyub yalvarırdı.

– Daryacan! Qadan alım! Sən Allah düzünü danış! Yoxsa, Allah haqqı başa düşmürəm, sənin dediklərinin hansı doğru və hansı yalandır? Bir əməlli-başlı danış görüm!

– İnanmırsan? Onda, məlum oldu ki, sən səfeh qızsan! Mən sənə doğrusunu deyirəm. Zabitlərin hamısı cəbhədədirmi, cəbhədədir, bəs onda qocalara məşq verməyi hərbi iş qaydasına görə, başqa cür təlimatı kim öyrədəcəkdir? Bax, buna görə də hamısını mənim komandam altına verəcəklər, mən də bu qoca kaftarları bilirəm necə idarə edərəm! Bax, mən onlara belə komanda verəcəyəm! – Qayınatası görməsin deyə Darya qapını örtdü, yubkasının ətəklərini cəld lifəsinə keçirib, lüt baldırlarını oynadaraq dəhlizdə addımlayıb Dunyaşkanın yanında dayandı və yoğun səslə komanda verdi: "Qocalar, farağat! Saqqallarınızı yuxarı tutun! Sol yana çar-x-x!"

Dunyaşka özünü saxlaya bilməyib üzünü əllərilə tutub pıqqıldadı. Natalya gülə-gülə dedi:

– Ox, dədəm bilsə səni əzişdirəcək! Gözlə, sevincək olarsan!

– Qorxma, heç bir şey olmaz. Vallah, əgər sizi güldürməyəm ha, qəmdən-qüssədən burada bağrınız çatlayar!

Lakin Darya birdən şənləndiyi kimi, birdən də bikefləndi. Yarım saatdan sonra, Darya çıxıb öz otağına getdi, başabəla medalı dilxorluqla çəkib döşündən qopartdı və sandığın bir tərəfinə atdı; əllərini yanaqlarına söykəyərək xeyli vaxt pəncərə qabağında oturdu, gecə hara isə çıxıb getdi və ancaq xoruzun ilk banından sonra gəlib çıxdı.

Bundan sonra o, çöldə dörd gün əməlli-başlı işlədi.

Ot çalınına könülsüz gedirdi. İşləyəsi adam çatışmırdı. Bir gün ərzində iki desyatindən artıq yer çala bilmədilər. Çalınmış otu yağış islatdı, adamların işi bir az da artdı: otu təzədən çevirmək, günəşdə qurutmaq lazım gəldi. Qurumuş otu yenicə qotmana vurmaq istəyirdilər ki, payız yağışı kimi axşamdan düz dan yeri ağarıncaya qədər güclü yağış yağdı. Sonra günəşli isti havalar düşdü, şərq küləyi əsdi, çöldə yenə otbiçən maşınlar şaqqıltı salmağa başladı, üstü qaralmış qotmanlardan kif iyi yayıldı, çölü buxar bürüdü; göyümsov buxar arasından keşikçi təpələrin seçilməz cizgiləri, göyərən dərələr və uzaqlardakı göllərin qırağındakı bədmüşk ağaclarının yaşıl təpəsi güclə seçilirdi.

Dördüncü günü Darya çöldən birbaş stanitsaya getməyə hazırlaşdı. O, bu fikrini düşərgədə günorta çörəyinə oturduqları zaman bildirdi.

Panteley Prokofyeviç narazılıqla və rişxəndlə soruşdu:

– Nə olub belə təntiyibsən? Bazar gününə kimi gözləmək olmaz?

– Görünür bir iş var, gözləmək mümkün deyil.

– Lap bircə gün də olsun gözləmək olmaz?

Darya hiddətlə cavab verdi:

– Yox!

– Yaxşı, indi ki, belə tələsirsən və gözləmək mümkün deyil, onda get. Yenə də bir de görək sənin belə nə vacib işin çıxıbdır? Bilmək olarmı?

– Hər şeyi bilsəniz tez ölərsiniz.

Həmişəki kimi Darya indi də söz altında qalmırdı, buna görə də Panteley Prokofyeviç dilxorluğundan tüpürüb sorğu-sualını kəsdi.

Ertəsi günü stanitsadan qayıdanda Darya xutora döndü. Evdə bircə İliniçna, bir də uşaqlar idi. Mişatka yüyürüb onu qucaqlamaq istədi, lakin Darya uşağı əli ilə soyuqca kənara itələdi və qayınanasından soruşdu:

– Natalya haradadır, anacan?

– Natalya dirrikdədir, kartofun alağını eləyir. O sənin nəyinə gərəkdir? Yoxsa qoca səni onu aparmağa göndərmişdir? Qoy ağlını itirməsin! Ona belə də deyərsən!

– Heç kəs onu çağırmağa göndərməyibdir, mən özüm ona bir-iki kəlmə söz demək istəyirəm.

– Sən piyadamı gəlmisən?

– Piyada gəlmişəm.

– Bizimkilər ot çalınını tezmi qurtarar?

– Güman ki, sabah qurtararlar.

– Dayan görüm, deyəsən, çox tələsmisən? Otu yağış çox korlamışdır? – deyə qarı ondan əl çəkmir, artırmadan düşən Daryanın dalınca gedirdi.

– Yox, çox korlamayıb. Di yaxşı, mən getdim, tələsirəm...

– Dirrikdən qayıt gəl, qocanın köynəyini də götür, eşidirsənmi?

Darya özünü eşitməməzliyə vurub tələsik mal pəyəsinə tərəf yönəldi. İskələnin yanında dayandı, gözlərini qıyaraq göyümtül və havaya içməli su iyi çökdürən Donun engin qucağına tamaşa elədi, yavaş-yavaş dirriklərə tərəf getdi.

Don üzərində külək oynayır, qağayı quşları qanadlarını parıldada-parıldada uçuşurdu. Dalğalar ətəkləri az maili sahili tənbəl-tənbəl döyürdü. Yasəməni kölgə düşmüş tabaşir dağları tutqun şəkildə işıldaşır, Donun o tayındakı yağışdan yuyulmuş sahil meşəsi isə yazın əvvəli kimi cavan və təravətli idi.

Darya keyimiş ayaqlarından çarıqlarını çıxardı, ayaqlarını yudu və günəşdən bərk qızmış bir daşın üstündə xeyli oturdu, əlini gözünün üstünə qoyub gündən qorunaraq, qağayıların qüssəli səslərini, dalğaların müntəzəm şappıltılarını dinlədi. Bu qəribə sükut, qağayıların ürək kövrəldən səsləri Daryanı ağlamaq dərəcəsinə gətirdi və bu günlərdə qəfildən onu yaxalamış bədbəxtlik bu an ona bir az da ağır, bir az da acı göründü.

Natalya belini güclə düzəldib durdu, kətməni çəpərə söykədi və Daryanı görüb onun qabağına getdi.

– Mənim dalımca gəlmisən, Darya?

– Sənin yanına, dərdimi deməyə gəlmişəm...

Onlar yanaşı oturdular. Natalya yaylığını başından açdı, saçlarını düzəltdi, Daryanın üzünə intizarla baxdı. Bu neçə gün ərzində Daryanın sifətinin belə dəyişməsi onu heyrətə saldı: Daryanın ovurdları batmış, sifəti qaralmışdı, alnında dərin bir qırış əmələ gəlmişdi, gözlərində odlu, səksəkəli bir parıltı vardı.

Natalya mərhəmətlə soruşdu:

– Ay qız, sənə nə olub? Üzün elə qaradır, elə bil yanıbdır?

– Qaralmasın neyləsin?.. – Darya zorla gülümsünüb susdu, – hələ işin çoxdurmu?

– Axşama qurtararam. De görüm, sənə nə olub belə?

Darya çəng olmuş adam kimi udqundu, boğuq səslə, yeyin-yeyin danışmağa başladı:

– Bu olub ki, naxoşam... Bir pis naxoşluğa tutulmuşam... Bu dəfə səfərə getdim ha, onda ilişdirdilər. Bir insafsız zabit məni bu hala saldı!

– Demək, gəzdin-gəzdin, axırı dincəldin!.. – Natalya qorxmuş və qəmgin halda əlini-əlinə çaldı.

– Gəzib dincəldim... daha nə deyiləsi bir söz var, nə də ki, şikayət ediləsi bir adam. Hamısı mənim zəifliyimdəndir... Zəhləmi tökdü, zalım oğlu, yoldan çıxardı... Dişi ağ, qəlbi qara çıxdı... İndi mən artıq məhv olmuşam...

– Ah binəva yazıq! Sən niyə belə iş elədin? Bəs indi nə edəcəksən? – Natalya geniş açılmış gözlərini Daryaya zilləmişdi, o isə özünü toxtatdı, başını xəcalətdən aşağı sallayaraq daha sakit-sakit sözünə davam etdi:

– Bilirsən, mən hələ yolda ikən başıma nə iş gəldiyini hiss etdim. Əvvəlcə fikirləşdik ki, bekara şeydir... Biz arvadlarda sən özün də bilirsən ki, hər cürə şeylər olur. Bir gün yazda buğda çuvalını götürdüm, düz üç həftə aybaşım kəsilmədi. Bu dəfə isə, gördüm yox, heç ona oxşayan şey deyil... Əlamətlər peyda oldu... Dünən stanitsaya feldşerin yanına getmişdim. Az qaldım xəcalətimdən yerə girim... Daha heç bir əlac yoxdur, öz əlimlə öz başıma daş saldım!

– Müalicə etmək lazımdır, amma nə qədər rüsvayçılığı var! Bunları, bu naxoşluqları, deyirlər müalicə edirlər.

– Yox, ay qız, mənimki müalicəsizdir – Darya bunu deyib pis-pis gülümsündü və başını bayaqdan bəri ilk dəfə yuxarı qaldırdı, alov saçan gözlərini Natalyaya dikərək dedi: – Mən sifilisəm. Bu, əlacı olmayan naxoşluqdur. O naxoşluq ki, ondan adamın burnu düşür... Andryuxanın naxoşluğu da bax, bundandır, görürsənmi?

– Bəs indi nə edəcəksən? – deyə Natalya ağlamsına-ağlamsına soruşdu və gözləri yaşla doldu.

Darya xeyli susdu. Qarğıdalının gövdəsinə sarmanmış sarmaşıq çiçəyini qopartdı, çiçəyi lap gözünə yaxın gətirdi. Çox şəffaf-səmavi, son dərəcə yüngül kiçicik çiçəyin incə və kənarları çəhrayı borucuğundan günəşdən qızmış torpağın ağır iyi gəlirdi. Darya çiçəyə böyük maraq və heyrətlə baxırdı, elə bil ki, bu sadə və çox da görkəmli olmayan çiçəkciyəzi ömründə birinci dəfə görürdü; burnunun göynəyən pərlərini geniş açaraq çiçəyi iylədi, sonra da onu yavaşca küləkdən qurumuş, boşalmış torpağın üstünə qoyaraq dedi:

– Deyirsən nə edəcəyəm? Stanitsadan gələndə bunu fikirləşir, götür-qoy edirdim... Özümü öldürəcəyəm, vəssalam! Düzdür, adam özünə qıymaq istəmir, amma görünür, mənim indi özgə əlacım yoxdur. Fərqi yoxdur, gedib müalicə olunsam da xutorda hamı biləcək, barmaqla göstərəcək, dallarını çevirəcək, güləcəklər... Belə sifətdə mən kimə lazımam? Gözəlliyim məhv olacaq, qupquru quruyacaq, diri gözlü çürüyəcəyəm... Yox, yaşamaq istəmirəm!.. – O elə danışırdı ki, elə bil öz-özü ilə danışırdı; hətta Natalyanın etiraz hərəkətlərinə də əhəmiyyət vermirdi. – Hələ stanitsaya getməmiş fikirləşirdim ki, əgər məndəki pis naxoşluqdursa – nə olar, müalicə etdirərəm. Bunun ucbatından pulumu da atama vermədim, dedim feldşerlərə verməyə gərək olar... İndi isə ayrı qərara gəlmişəm. Daha cana doymuşam! İstəmirəm.

Darya müdhiş bir kişi söyüşü söydü, tüpürdü və uzun kirpiklərindən sallanan göz yaşlarını əlinin dalı ilə sildi.

– Sən nələr danışırsan... Barı Allahdan qorx! – deyə Natalya yavaşcadan söyləndi.

– İndi mənə, Allahdan da bir haray yoxdur. Onsuz da mənim həyatımı alt-üst edən odur. – Darya gülümsündü; onun bu dəcəl və hiyləgər gülümsünməsində Natalya həmişəki Daryanı bir an qədər təkrar gördü. – Elə hey deyərdilər ki, bunu eləmək olmaz, onu olmaz, hey günahlarla, bir də müdhiş qiyamət cəzası ilə qorxudardılar... İndi mən özümə bir divan tutdum ki, bundan müdhiş cəza heç ağlına gəlməz. Dünyadan tamam bezmişəm, Natalya! Adamların hamısından ikrah edirəm... Mən özümlə haqq-hesabı asanlıqla çəkərəm. Mənim heç kəsim yoxdur. Ölsəm ağlayanım da olmayacaqdır... Belədir!

Natalya niyyətindən döndərmək üçün Daryanı dilə tutmağa başladı, xahiş etdi ki, ağlını başına yığsın və özünü öldürmək məsələsini tamam başından çıxarsın. Lakin Darya əvvəlcə onun sözlərini fikri dağınıq halda dinləyirdi, sonra birdən özünü toxtatdı və Natalyanın sözünü qəzəblə yarımçıq qoyaraq dedi:

– Sən bunları boşla, Natalya! Mən sənin yanına onunçun gəlməmişəm ki, mənə yalvarasan, məni fikrimdən daşındırmağa çalışasan! Mən gəlmişəm ki, öz dərdimi deyib, ürəyimi boşaldım və sənə xəbərdarlıq edəm ki, bu gündən öz uşaqlarını mənim yaxınıma buraxmayasan, mənim naxoşluğum, feldşer dediyindən görünür ki, adama keçəndir, bunun belə olduğunu mən özüm də eşitmişəm, ay yazıq! Qoy uşaqlara mənim naxoşluğum sirayət etməsin, qarıya da de, mənim üzümdən gəlmir. Sən elə güman etmə ki, bu gün-sabah başımı kəndirə keçirəcəyəm, vaxtı çatanda edəcəyəm... Bir az hələ yaşayacaq, işıqlı dünyadan bir az da kam alacaq, sonra vidalaşacağam. Məlumdur ki, biz necə yaşayırıq! Ürəyimizin başı sancınca gəzir, dörd tərəfimizdə heç nə görmürük... Bu günəcən gör bir mən necə ömür sürmüşəm, elə bil kor kimi yaşayırmışam, amma stanitsadan Donun kənarı ilə evə qayıdanda, bütün bunlarla tezliklə

vidalaşacağımı fikirləşəndə elə bil birdən-birə gözlərim açıldı! Dona baxdım, Donun üzü xırda ləpəli idi, günəşdən xalis gümüş kimi parlayırdı, elə işıldayırdı ki, adamın baxanda gözləri qamaşırdı. Geriyə döndüm, baxdım – ətraf nə qədər gözəl idi! Bu gözəlliyi mən o günə qədər görməmişdim... – Darya utana-utana gülümsündü, susdu, əllərini ovuşdurdu və boğazını tutan hıçqırığı boğaraq, yenə danışdı, səsi bir az da ucaldı və gərginləşdi: – Mən hələ yolda bir neçə dəfə hönkür-hönkür ağlamışam... Xutora yaxınlaşdım, gördüm balaca uşaqlar Donda çimişirlər... Dayanıb onlara doyunca baxdım, ürəyim atlandı, dəli kimi hönkürdüm, iki saata qədər qumun üstündə uzanıb qaldım. Fikirləşsən, mən qaragünlü olmuşam. – Darya yerindən qalxdı, yubkasını çırpdı, vərdiş elədiyi hərəkətlə yaylığını düzəltdi. – Ölümü fikirləşən kimi sevinirəm: axı, heç olmasa gedib o dünyada Petro ilə görüşəcəyəm... "Hə, deyəcəyəm, mənim əzizim Petro Panteleviç, gəlmişəm, buyur, avara arvadını gör!" – Yenə özünəməxsus abırsız şit zarafatla sözünə əlavə etdi: – O dünyada Petro mənimlə dalaşa bilməz, dalaşanları cənnətə buraxmırlar, elə deyilmi? Di sağlıqla qal, Nataşacan! Mənim başıma gələn müsibəti qayınanama deməyi unutma.

Natalya nazik, kirli əllərilə üzünü tutub oturmuşdu. Onun gözlərindən süzülən yaş barmaqları arasında şam ağacı yarığındakı qatran kimi işıldayırdı. Darya çırpıdan hörülmüş qapıya qədər getdi, sonra geri döndü, ciddi tövrlə dedi:

– Mən bu gündən etibarən ayrı qabda çörək yeyəcəyəm. Bunu anama da de. Hə, bir də, qarı bu əhvalatı atama deməsin, yoxsa kişi hirslənib məni evdən qovar. Bircə bu qalmışdı. Mən buradan birbaş ot çalmağa gedirəm. Sağlıqla qal!

XIV

Ertəsi gün ot çalanlar çöldən qayıdıb gəldilər. Panteley Prokofyeviç belə qərara gəlmişdi ki, nahar qurtaran kimi otu danışmağa başlasın. Dunyaşka öküzləri sulamaq üçün Dona sürdü, İliniçna ilə Natalya isə süfrə açdılar.

Darya süfrəyə hamıdan sonra gəlib lap kənarda oturdu, İliniçna onun qabağına balaca qabda borş, qaşıq və bir parça da çörək qoydu, qalanlarına isə xörəyi həmişəki qaydada böyük bir qabda gətirdi.

Panteley Prokofyeviç arvadına təəccüblə baxdı, gözü ilə Daryanın qabını göstərərək soruşdu:

– Bu nə olan şeydir? Niyə onun xörəyini ayrı verirsən? Yoxsa o, bizim məzhəbin adamı deyil?

– Nəyinə gərəkdir? Xörəyini ye!

Qoca rişxəndlə Daryaya baxıb gülümsündü:

– Aha, başa düşdüm. Medal veriləndən bəri ümumi qabdan xörək yemək istəmir. Daşka, düzünü de, yoxsa bir qabda bizimlə xörək yeməkdən iyrənirsən?

– İyrənmirəm, amma yemək olmaz, – deyə Darya xırıltılı səslə cavab verdi.

– Axı, nədən ötrü olmaz?

– Boğazım ağrıyır.

– Nə olsun ki, ağrıyır?

– Stanitsaya getmişdim, feldşer dedi ki, gərək ayrı qabda xörək yeyəsən.

– Mənim də boğazım ağrıyırdı. Amma heç adamlardan ayrılmadım, özü də Allaha şükür, azarım heç başqalarına keçmədi. Sənin azarın nə cür azardır ki, keçir?

Daryanın rəngi qaçdı, ovcunun içi ilə dodağını sildi və qaşığı yerə qoydu. Ərinin sorğu-sualından hiddətlənmiş İliniçna kişinin üstünə çığırdı:

– Axı, arvaddan nə istəyirsən? Süfrə başında da adama rahatlıq vermirsən! Elə ki, qara zəli kimi yapışdı, daha qopmaq bilmir!

– Əşi, mənə nə var? – deyə Panteley Prokofyeviç pərtləşərək mızıldandı. – İstəyir, allahvara xörəyinizi lap bir verst kənarda oturub yeyin!

Dilxor olmuş Panteley Prokofyeviç qaşığını doldurub ağzına boşaltdı, dilini-dodağını yandırdı və borşu ağzından qaytarıb saqqalına tökərək bədheybət bir səslə bağırdı:

– Allah qırmışlar, çörək çəkməyi də bilmirlər! Bu cür qaynar xörəyin süfrəyə verildiyi harada görünüb?!

– Süfrə başında az danışsaydın, ağzın da yanmazdı, – deyə İliniçna ona təskinlik verdi.

Dunyaşka hirsindən pörtmüş atasının saqqalı arasından kələmləri və kartof qırıqlarını necə təmizlədiyinə baxanda az qaldı pıqqıldasın, lakin yerdə qalanların simasındakı ciddiliyi görüb özünü toxtatdı və üzünü atasından çevirdi ki, yersiz gülməsin.

Nahardan sonra iki araba qoşdular, qoca ilə gəlinlərin ikisi də otu gətirməyə getdilər. Panteley Prokofyeviç uzun bir yaba ilə otu arabaya verir, Natalya da kif iyi gələn otu alıb arabaya yığır və üstündən tapdayırdı. Çöldən Natalya Darya ilə qayıtdı. Panteley Prokofyeviç qoca, cəld öküzlər qoşulmuş araba ilə xeyli irəli getmişdi.

Günəş təpənin dalına enirdi. Otu çalınmış çöldən gələn tünd yovşan iyi axşamüstü kəskinləşdi, lakin gündüzkü tünd və boğucu ağırlığını itirərək daha yumşaq, daha xoş oldu. Sərin düşmüşdü. Öküzlər yaxşı gedirdilər, onların dırnaqlarının altından qalxan toz yay yolunda havaya qalxır və yolun kənarında bitmiş qanqal kollarının üstünə çökürdü. Qanqalların başı, moruq rəngli gülləri, çilçıraq kimi alışıb-yanırdı. Kolların üstündə xırda mığmığalar hərlənirdi. Qızquşular bir-birini səsləyərək çöldəki uzaq gölməçəyə tərəf uçuşurdular.

Darya silkələnən ot arabasının içində dirsəklənərək üzü-üstə uzanmışdı, arabir Natalyaya baxırdı. Natalya nə barədə isə fikirləşə-fikirləşə günün batdığı yerə baxırdı; onun sakit və saf çöhrəsində mis rəngində qırmızı ləkələr vardı. "Nataşka xoşbəxtdir, əri də var, uşaqları da, dünyada bir arzusu yoxdur, özünün də ailədə hamı xətrini istəyir, mən isə məhv olmuş bir adamam. Öləcəyəm, heç uf deyən də olmayacaq". Birdən onun qəlbində Natalyanın qanını qaraltmaq, onu kədərləndirmək arzusu baş qaldırdı. Nə üçün məyusluq içində təkcə o – Darya çırpınmalıdır, gecə-gündüz məhv olduğunu düşünməli və bu qədər əzab çəkməlidir? O, Natalyaya bir də baxdı, səsini mümkün qədər səmimiləşdirərək dedi:

– Natalya, sənin yanında bir şeydə günahkaram, istəyirəm onu bağışlayasan...

Natalya dərhal cavab vermədi. O, qüruba baxaraq, bir zamanlar, xeyli vaxt bundan əvvəl, o hələ Qriqoriyə nişanlı olanda, Qriqorinin onunla görüşə gəldiyini və onun da Qriqorini qapıya qədər ötürdüyü günü xatırladı; onda qürub beləcə qızarırdı, dolaşalar bədmüşk ağaclarının başında oxuyurdu... Qriqori, yəhərin üstündə geriyə qanrılaraq gedir, o da həyəcanla dolu bir şadlıqdan gözləri yaşarmış halda onun dalınca baxır və əllərini şiş qız döşlərinin üstünə basaraq, ürəyinin toxmaq kimi döyündüyünü hiss edirdi... Daryanın birdən sükutu pozması Natalyanın xoşuna gəlmədi, könülsüz soruşdu:

– Nədə günahkarsan ki?

– Belə bir günah işləmişəm... Yazda Qriqorinin cəbhədən evə gəldiyi yadındadırmı? Həmin günü yadıma gəlir ki, axşam mən inəyi sağırdım, evə keçdim, bir də gördüm Aksinya məni səsləyir. Məni yanına çağırdı, zəli kimi yapışıb yalvar-yaxarla bunu, bax bu üzüyü, – Darya çeçələ barmağındakı qızıl üzüyü hərləyə-hərləyə göstərdi, – mənə bağışladı ki, Qriqorini tovlayıb onun yanına göndərim... Mənim işim çətin deyildi... Qriqoriyə dedim. O həmin gecəni səhərə qədər... Yadındadırmı, Qriqori deyirdi ki, guya o gecə Kudinov gəlmişdir, oturub söhbət eləmişlər? Hamısı yalan idi! O gecə o, Aksinyanın yanında idi!

Sarsılmış, rəngi tamam qaçmış Natalya quru çöl otunu dinməzcə qırıb tökürdü.

– Mənə acığın tutmasın, Nataşa. Mən bu söhbəti açıb sənə deməyimə özüm də peşmanam, – deyə Natalyanın gözlərinin içinə baxmağa çalışdı.

Natalya isə kirimişcə gözlərinin yaşını axıdırdı. Onu yenidən çulğamış bu müsibət o qədər böyük və gözlənilməz idi ki, Natalya Daryaya cavab vermək üçün deməyə özündə bir taqət tapa bilmədi və yalnız üzünü kənara çevirdi ki, əzabdan eybəcərləşmiş sifətini göstərməsin.

Araba lap xutora girəndə Darya öz əməlindən peşman olub belə düşündü: "Lənət şeytana, yazığın dərdini təzələdim. İndi düz bir ay gözünün qorasını axıdacaq. Gərək heç xəbər tutmayaydı. Belə inəklərə, kor kimi yaşamaq daha yaxşıdır". Dediyi sözün təsirini bir qədər yumşaltmaq üçün:

– Nataşka, özünü çox da öldürmə. Görəsən nə böyük iş olmuşdur? Mənim dərdim sənինkindən daha betərdir, lakin heç vecimə də almıram. Orasını indi nədən bilək, bəlkə də, Allah bilir, o heç Aksinya ilə görüşməmişdir, Kudinovun yanına getmişdir. Mən ki, dalınca düşüb güdmürdüm. Deyilənə deyil, gözünlə gördüyünə inanmalısan.

– Özüm də hiss eləmişdim... – deyə Natalya yaylığının ucu ilə gözlərini sildi.

– Yaxşı, indi ki, hiss eləmişdin bəs niyə hara getdiyini öyrənmirdin? Ay Allahın maymağı! Mənim ərim olsaydı, o heç tərpənə bilməzdi. Mən ona bir gəliş gələrdim ki, yediyi-içdiyi burnundan tökülərdi!

– Həqiqəti öyrənməkdən qorxurdum... Sən elə bilirsən bu asan işdir? – deyə Natalyanın gözləri parıldadı və o, həyəcandan kəkələdi.

– Sənə baxma... Sənə baxma... Sən Petro ilə yola gedirdin... Amma mənim yadıma düşəndə... başıma gələnləri xatırlayanda... çəkdiyim əzablar yadıma düşəndə... indi də dəhşətlənirəm!

– Di onda gəl bunları unut, – deyə Darya sadəlövhcəsinə ona məsləhət gördü.

– Məgər belə şeyləri unutmaq olar?! – deyə Natalya xırıltılı, dəyişmiş səslə cavab verdi.

– Mən olsam unudaram. Çox böyük işdir?

– Elədirsə sən də öz naxoşluğunu unut görüm!

Darya bərk güldü:

– Məmnuniyyətlə unudardım, amma məlun xəstəlik özü həmişə mənə özünü xatırladır! Bura bax, Nataşka, istəyirsənmi əhvalatı tərtəmiz Aksinyadan öyrənim? O mənə deyər! Allah haqqı deyər! Dünyada elə arvad tapılmaz ki, onu kimin və necə sevdiyini ürəyində saxlasın, deməsin. Bunu özümdən bilirəm!

Natalya ağızucu ona dedi:

– Sənin yaxşılığını istəmirəm, onsuz da yaxşılığını gördüm. Bu əhvalatı, qanmaz deyiləm, nə üçün danışdığını anlayıram. Sən oğraşlıq elədiyini mənə rəhmin gəldiyin üçün yox, mənim də qanımı qaraltmaq üçün dedin.

– Düzdür! – köksünü ötürərək Darya təsdiq etdi. – Özün fikirləş, niyə elə mən iztirab çəkməliyəm?

Darya arabadan düşdü, öküzlərin buynuzuna bağlanmış kəndiri əlində dəstələdi, ayaqlarını yorğun-yorğun atan öküzləri yoxuşdan endirdi. Araba kənd yoluna girəndə o, arabaya yaxınlaşdı.

– Ay Nataşka! Səndən bir söz xəbər alım... Sən özününkünü çoxmu sevirsən?

– Bacardığım qədər, – deyə Natalya yavaşca cavab verdi.

– Deməli çox sevirsən, – Darya köksünü ötürdü. – Amma mən ömrümdə heç bir kişini çox sevməmişəm. İt kimi sevmişəm, birtəhər, necə gəldi... Mən indi təzədən yaşamağa başlasam, – bəlkə tamam ayrı cür adam olardım!

Qısa yay toranlığı ardınca qaranlıq gecə düşdü. Qaranlıqda həyətdə ot yığırdılar. Qadınlar dinməzcə işləyirdilər, hətta Darya da Panteley Prokofyeviçin çığırtısına cavab vermirdi.

XV

Don ordusu ilə Yuxarı Don qiyamçılarının birləşmiş hissələri, Ust-Medveditsa stanitsasından geriyə çəkilən düşməni sürətlə təqib edə-edə şimala doğru irəliləyirdilər. 9-cu Qızıl Ordunun darmadağın edilmiş polkları Medveditsa mahalının Şaşkin xutoru yaxınlığında kazakların qabağını saxlamaq istədilər, lakin yenidən əzişdirildilər və demək olar ki, düz Qryaze-Tsaritsın dəmiryolu qoluna qədər heç bir ciddi müqavimət göstərmədən geri çəkildilər.

Qriqori öz diviziyası ilə Şaşkin xutoru yaxınlığındakı vuruşmada iştirak etdi və general Sutulovun cinah zərbəsinə məruz qalmış piyada briqadasına möhkəm kömək etdi. Qriqorinin əmrilə Yermakovun hücuma atılmış süvari polku iki yüzə qədər qızıl əsgəri əsir aldı, dörd dəzgahlı pulemyot və on bir güllə arabası ələ keçirdi.

Axşamüstü Qriqori birinci polkun bir dəstə kazakı ilə Şaşkin xutoruna girdi. Diviziya qərargahının tutduğu evin yanında yarım bölük kazak bir araya toplaşıb durmuş əsirlərə keşik çəkirdi; əsirlərin çoxunun paltarını soyundurmuşdular, ona görə də əyinlərindəki tuman-köynəkləri ağarışırdı; bu boz-ağ izdiham içərisində yalnız təkdənbir, əynində yaşıl və çirkli üst köynəyi olan adam görsənirdi.

Proxor Zıkov əsirləri göstərərək:

– Ora bax, gör necə qaz kimi ağarışırlar!

Qriqori atın cilovunu çəkib yana çevirdi; kazaklar arasında Yermakovu görüb barmağı ilə yanına çağırdı.

– Atını bura sür, onun-bunun dalında niyə gizlənirsən?

Yermakov yumruğunu ağzına tutub öskürdü və atını yaxına sürdü. Onun seyrək qara bığları arasında əzilmiş dodaqlarında qan qurumuş, sağ yanağı şişmiş və təzəcə sıyrıntıdan göyərmişdi. Hücum vaxtı dördnala çapdığı atı birdən büdrəmiş, yıxılmış və yəhərdən daş kimi qopub aralanmış Yermakov iki sajına qədər çala-çökək yerlə qarnı üstə sürünmüşdü. O da, at da birdən sıçrayıb ayağa durmuşdular. Bir dəqiqə sonra isə sıçrayıb yəhərdə oturmuş, başıaçıq, üz-gözü al qana batmış, lakin yalın qılıncı əlində olan Yermakov, özünü sel kimi dağın ətəyinə axan kazaklara yetirmişdi...

Yermakov Qriqoriyə yaxınlaşıb təəccüblə ondan soruşdu:

– Niyə gizlənirəm ki? – deyə o, vuruşmadan sonra hələ sönməmiş qan sağılmış, müdhiş gözlərini kənara tutub təəccüblə soruşdu.

– Pişik yaxşı bilir ki, kimin ətini yemişdir! Niyə dalda gəlirsən? – deyə Qriqori qəzəblə soruşdu.

Yermakov şişkin dodaqları ilə birtəhər gülümsünərək tərs-tərs əsirlərə baxdı.

– Sən hansı ətdən söhbət edirsən? Sən gəl mənə tapmaca demə, təfavütü yoxdur, mən tapmaca bilmirəm, bu gün mən atın üstündən gurul-güppaz yıxılmışam...

– Sənin işindirmi? – deyə Qriqori qamçısı ilə qızıl əsgərləri göstərdi.

Yermakov özünü elə tutdu ki, guya əsirləri birinci dəfədir görür, təsvir edilməz bir heyrətlə dedi:

– Ay köpək uşağı! Haramzadələr hamısını soyundurublar! Bilmirəm buna nə vaxt macal tapdılar?.. Bir bunlara bax. İndicə atı sürüb aralandım və bərk-bərk tapşırdım ki, toxunmayın, bura bax, gör yazıqları necə tərtəmiz lütləyiblər!..

– Sən məni gəl ələ salma! Özünü niyə tülkülüyə qoymusan? Soyundurmağı sən əmr eləmisən?

– Allah eləməsin! Sən nə danışırsan, Qriqori Panteleviç!

– Əmr yadındadırmı?

– O barədə ki, deməli...

– Bəli, bəli, həmin barədə!..

– Əlbəttə, yadımdadır. Lap əzbər bilirəm! Uşaq vaxtı məktəbdə şeir əzbərlədiyim kimi əzbərləmişəm.

Qriqori qeyri-ixtiyari gülümsündü, yəhərdə ona doğru əyilərək Yermakovun çanta qayışından yapışdı. O, bu igid, son dərəcə cəsarətli komandiri sevirdi.

– Xarlampi! Zarafatı boşla, niyə belə şeyə izin vermisən? Qərargahda Kopılovun yerinə qoyulmuş təzə polkovnik bunu yerinə bildirəcək və cavab vermək lazım gələcəkdir. Özün bilirsən, bu sürüdürmə, bu yandan sorğu, o yandan istintaq başlananda başın ağrıyacaq.

– Dözə bilmədim, Panteleviç! – deyə Yermakov ciddi və sadəcə cavab verdi. – Hamısının əyni təptəzə idi, Ust-Medveditsada yenicə veriblər, bizim uşaqların isə əyni tamam tökülüb, elə evdə də palpaltarları yoxdur. Təfavütü yoxdur, onları arxaya göndərən kimi, hamısının paltarını soyundurasıdırlar! Biz onları əsir götürmüşük ki, arxadakı köpək uşağı soyundursun? Yox, elə şey yoxdur, qoy xeyrini bizimkilər görsün! Mən cavabdehəm, bərk ayaqda rüşvət

verərəm! Sən də xahiş edirəm ki, üstümə düşməyəsən. Mənim heç şeydən xəbərim yoxdur və belə şeylərlə də ömrümdə məşğul olmamışam!

Əsirlərin bərabərinə çatdılar. Pıçıltı kəsildi. Qıraqda duranlar atlılardan kənara çəkildilər, kazaklara qaşqabaqlı, hürkək və müntəzir bir səksəkə ilə baxdılar. Qızıl əsgərlərdən birisi, Qriqorinin komandir olduğunu başa düşüb, ona yaxınlaşdı, əlini üzəngiyə toxundurdu:

– Yoldaş rəis! Sizin kazaklara deyin ki, heç olmasa şinellərimizi qaytarsınlar! Mərhəmət eləyin! Gecələr soyuq keçir, biz də özünüz gördüyünüz kimi, lap lütük.

– Yayın ortasında, qorxma, donmazsan, ay sünbülqıran siçan! – deyə Yermakov sərt bir səslə söyləndi və atı ilə qızıl əsgəri geriyə itələyərək üzünü Qriqoriyə çevirdi. – Sən nigaran olma, mən deyərəm onlara köhnə bir-iki şey verərlər. Hə, qırağa durun, qırağa durun, ay qoçaqlar! Sizə kazaklarla vuruşmaq yox, oturub tumanınızı bitləmək yaraşar.

Qərargahda əsirlərin bölük komandirini danışdırmağa başladılar. Ortayaşlı, gicgahları tamam ağarmış, qulaqları uşaq qulağı kimi dik və iri, fındıqburun bir zabit olan yeni qərargah rəisi polkovnik Andreyanov üstünə müşəmbə salınmış stolun dalında oturmuşdu. Qırmızıların komandiri iki addım stoldan kənarda Andreyanovun qarşısında dayanmışdı. Sorğu-sual edilən komandirin dediklərini qərargah zabitlərindən birisi diviziyaya Andreyanovla birlikdə gəlmiş bölük komandiri Sulin yazırdı.

Qırmızıların ucaboy, sarıbığ, kül kimi boz saçları kirpi təhər vurulmuş komandiri, üstünə qırmızı rəng çəkilmiş döşəmədə narahat halda bədəninin ağırlığını yalın ayaqlarının gah birinə, gah da o birinə salaraq hərdənbir polkovnikə baxırdı. Kazaklar onun əynində sarı bezdən tikilmiş bircə sadə alt köynəyi qoymuşdular, əynindən çıxardıqları təzə paltarın əvəzinə ona lampasları bozarmış, yamaqları başdansovma salınmış və hər yanı cırıq-cırıq olmuş kazak şalvarı vermişdilər.

Stola yaxınlaşarkən Qriqori gördü ki, əsir ani bir utancaqlıqla şalvarını düzəltdi, görsənən ombasını örtməyə çalışdı.

– Deyirsiniz, Oryol vilayət hərbi komissarlığı göndərib? – deyə polkovnik eynəyinin üstündən əsirə ötəri baxaraq soruşdu və yenə

başını aşağı saldı, gözlərini qıyaraq əlindəki kağızı, ehtimal ki, sənədi, diqqətlə nəzərdən keçirməyə və o tərəf-bu tərəfə çevirməyə başladı.

– Bəli.

– Keçən ilin payızında?

– Payızın sonunda.

– Yalan deyirsiniz!

– Mən düzünü deyirəm.

– Təkrar edirəm ki, siz yalan danışırsınız!..

Əsir sakitcə çiyinlərini çəkdi. Polkovnik Qriqoriyə baxdı, başı ilə saymazyana istintaq etdiyi adama tərəf işarə edərək dedi:

– Baxın, ləzzət alın: sabiq imperator ordusunun zabitidir, amma indi, gördüyünüz kimi bolşevikdir. Ələ keçib deyə özündən toxuyur ki, guya onu səfərbərliyə alıblar, qırmızıların yanında təsadüfən xidmət edir. Kökündən yalan danışır, gimnazist kimi avamcasına yalan satır və elə güman edir ki, sözünə inanacaqlar, amma vətəndaşlıq cəsarəti çatışmır ki, vətənə xain çıxdığını boynuna alsın. Qorxur əclaf!

Əsir boğazı tutulmuş halda dedi:

– Mən görürəm ki, cənab polkovnik, əsiri təhqir etmək üçün sizdə vətəndaşlıq cəsarəti var...

– Mən əclaflarla danışmıram!

– Mənə isə indi danışmaq lazım gəlir.

– Özünüzü gözləyin! Məni özümdən çıxarmayın, sizi hərəkətimlə təhqir edə bilərəm!

– Siz vəziyyətdə olan bir adam üçün bu heç də çətin deyil və xüsusən qorxusuzdur!

Qriqori dinməzcə keçib stolun dalında oturdu və nifrətindən rəngi qaçmış, qorxmaz-qorxmaz danışan əsirə rəhmli bir təbəssümlə baxdı. "Polkovniki nə qəşəng sancdı", deyə Qriqori məmnuniyyətlə düşündü və Andreyanovun acığından titrəyən ətli yanaqlarına baxaraq həzz aldı.

Qriqori öz qərargah rəisini ilk görüşdən sevməmişdi. Andreyanov dünya müharibəsi illərində cəbhədə olmamış, nüfuzlu qohum-əqrəbasının, xidmət adamlarının, tanışlarının yardımından istifadə edərək özünü arxada, arxayın yerlərdə qulluğa vermiş, var qüvvəsilə qorxusuz xidmətdən yapışıb qalmış zabitlərdən idi. Polkovnik

Andreyanov vətəndaş müharibəsi dövründə də kələkbazlıqla Novoçerkasskda oturub, yenə müdafiə işində işlədi və yalnız ataman Krasnov iş başından götürüləndən sonra cəbhəyə getmək məcburiyyətində qaldı.

Andreyanovla bir mənzildə qaldıqları iki gecə ərzində Qriqori onun söhbətindən öyrəndi ki, o çox Allah adamıdır, kilsədəki təntənəli dini mərasimlərdən söhbət düşəndə gözləri yaşla dolar, arvadı dünyada xəyala gətirilə bilən ən nümunəvi arvaddır, adı da Sofya Aleksandrovnadır və bir zaman, baş ataman baron fon Qrabbe özü ona bənd olmuşdusa da, bundan bir şey çıxmamışdı; bundan başqa, polkovnik lütfkarlıqla, müfəssəl surətdə, mərhum atasının neçə mülki olduğunu da, özünün, yəni Andreyanovun polkovniklik rütbəsinə necə gəlib çatdığını da, 1916-cı ildə hansı yüksək mənsəb sahiblərilə birlikdə ova çıxdığını da danışdı, bunu da bildirdi ki, onun ən çox xoşladığı oyun vist və ən xeyirli saydığı içki – içinə zirə yarpağı atılmış konyak, ən əlverişli qulluq isə qoşun intendantlığında xidmət etməkdir.

Polkovnik Andreyanov yaxında top atılanda həmişə səksənərdi, qara ciyərinin xəstə olduğunu bəhanə edərək, yola atlı çıxmağa könülsüz razılıq verərdi; qərargahda mühafizlərin artırılmasına həmişə qayğı göstərərdi, kazaklara isə çox da etibar etməzdi, çünki onun dediyinə görə, kazakların hamısı 1917-ci ildə vətənə xain çıxmışdı və bu tarixdən də o, heç bir fərq qoymadan "aşağı rütbə" adamlarına nifrət bəsləyirdi. Polkovnik "Rusiyanı yalnız dvoryanlıq xilas edəcəkdir!" deyir, sözarası buna da işarə edirdi ki, özü də dvoryan nəslindəndir və Andreyanovlar Donda ən qədim və ən şanlı nəsillərdəndir.

Andreyanovun əsas eyibi, heç şübhə yoxdur ki, onun naqqal olması idi; bəzi yaşı ötmüş və gənclik çağından hər şey haqqında utanmadan və açıq-saçıqlıqla mühakimə yürüdən sözbaz və ağıldan kəm adamlarda rast gəlinən qabağı alınmaz, müdhiş və zəhlətökən naqqallığı idi.

Qriqori bu cür quş cinsli adamlara ömründə az rast gəlməmişdi: həmişə də bələlərinə dərin nifrət bəsləmişdi. Tanışlıqlarının ikinci günü Qriqori onunla görüşməməyə çalışdı və gündüz buna müvəffəq oldu, lakin gecələmək üçün bir yerdə qalan kimi Andreyanov soraqlaşıb onu tapdı və tələsik soruşdu: "Bir yerdəmi gecələyirik?"

və hələ sözünə cavab almamış, başladı: "Bura bax, mənim əzizim, siz deyirsiniz ki, kazaklar piyada vuruşmasında acizdirlər, mən isə əlahəzrətin yanında xüsusi tapşırıq üzrə zabit vəzifəsində olanda... Ey, orada kim var, mənim çamadanımla yatağımı buraya gətirin!" Qriqori arxası üstə uzandı, gözlərini yumub, dişlərini qıcayaraq onu dinlədi, sonra da saymazyana dalını ona çevirərək başını şineli ilə örtüb lal bir qəzəblə düşündü: "Başqa yerə göndərilmək haqqında əmr alan kimi bunun başından ağır bir şey ilə vuracağam, bəlkə bundan sonra, heç olmasa bir həftəliyinə dilini kəsə!" – "Siz yatırsınızmı?" deyə Andreyanov soruşdu. "Yatıram" deyə Qriqori boğuq bir səslə cavab verdi. "Bağışlayın, mən hələ sözümü qurtarmamışam!" deyib hekayəsini davam etdirdi. Qriqorinin gözünə yuxu gedərkən belə fikirləşirdi: "Bu heyvərəni mənim yanıma qəsdən göndəriblər. Güman ki, buna Fitsxelaurov çalışmışdır. Bir deyin görək, bununla, belə gic beyinlə necə işləyəsən?" Yuxuya gedəndən sonra da o, polkovnikin dəmir evin damına səpələnən, yağış kimi səslənən, qulaq deşən uca səsini eşidirdi.

Bax, məhz buna görə Qriqori onun çənədən saz qərargah rəisini əsir komandirin məharətlə biabır etməsinə baxıb ləzzət alırdı.

Bir dəqiqəliyə Andreyanov susdu, gözlərini qıydı və onun yekə qulaqlarının sallanan ucları qızardı, stolun üzərinə qoyduğu şəhadət barmağında yoğun qızıl üzük olan kök, ağ əli titrəyirdi.

– Bura bax, düdəmə! – deyə o, həyəcandan kallaşmış səslə dilləndi. – Mən sizi yanıma mənimlə mübahisə etmək üçün gətirmək əmri verməmişəm, bunu yaddan çıxarmayın! Bilirsinizmi ki, buradan canınızı qurtara bilməyəcəksiniz?

– Çox yaxşı bilirəm.

– Sizin üçün daha yaxşı. Nəhayət, sizin qırmızıların qulluğuna könüllümü və ya səfərbərlik yolu ilə aparıldığınızın mənim üçün heç bir fərqi yoxdur. Bu vacib deyil, orası vacibdir ki, sizdə olan yanlış şərəf məfhumunun təhrikilə düzünü deməkdən boyun qaçırdırsınız...

– Belə görünür ki, sizinlə mən şərəf məsələsini ayrı-ayrı mənada anlayırıq.

– Bu onun nəticəsidir ki, sizdə şərəf adına heç bir şey yoxdur!

– Cənab polkovnik, mənə elə gəlir ki, ümumiyyətlə bu vaxta qədər sizdə şərəf olmamışdır. Bunu, mənimlə etdiyiniz rəftar da sübut edir!

– Mən görürəm ki, siz işi tezliklə qurtarmaq istəyirsiniz.

– Siz elə bilirsiniz ki, işin uzanmasının mənə bir xeyri var? Məni qorxutmayın, bundan bir şey çıxmaz!

Andreyanov əli əsə-əsə papiros qutusunu açıb, bir papiros götürdü, həvəslə iki qullab vurdu və yenə əsirə müraciət etdi:

– Demək siz suallara cavab verməkdən boyun qaçırırsınız?

– Mən öz haqqımda danışdım.

– Cəhənnəm olun! Sizin murdar şəxsiyyətiniz məni hər şeydən az maraqlandırır. Belə bir suala cavab verin: Serbyakov stanitsasından sizə hansı hissələr yaxınlaşmışdır?

– Mən sizə cavab verdim ki, bilmirəm.

– Siz bilirsiniz!

– Yaxşı, qoy sizə bu ləzzət versin: bəli, bilirəm, lakin cavab verməyəcəyəm.

– Mən sizi sünbə ilə döydürərəm, onda danışarsınız!

– Heç elə şey yoxdur! – deyə əsir sol əli ilə bığını eşdi, təmkinlə gülümsündü.

– Bu vuruşmada Kamışinsk polku iştirak etdimi?

– Yox.

– Sizin sol cinahınızda süvari hissə olmuşdur, bəs bu hansı hissə idi?

– Boşlayın! Bir də təkrar edirəm ki, bu cür suallara cavab verməyəcəyəm.

– Özün bil: ya sən, itin biri, bu saat dilindən qıfılı götürüb danışacaqsan, ya da on dəqiqədən sonra divara dirənəcəksən! Tez ol?!

Söhbət bu yerə çatanda, əsir gözlənilmədən uca, oğlan səsi kimi cingildəyən bir səslə dedi:

– Siz məni təngə gətirdiniz, qoca axmaq! Kütbaş! Əgər siz mənim əlimə düşsəydiniz, mən sizi bu cür danışdırmazdım.

Andreyanovun üzü dümağ ağardı, naqanın qoburuna əl atdı. Onda Qriqori sakitcə ayağa qalxdı və əlini qaldıraraq "dayan" işarəsi verdi.

– Daha bəsdir! Xeyli danışdınız, yetər! Mən baxıram sizin ikiniz də qızğın adamsınız... Yaxşı, sözləriniz çəp gəldi, daha danışmağı kəsməli idiniz. O düzgün hərəkət edir ki, özlərinin sirrini vermir. Vallah mənim bundan xoşum da gəlir! Mən heç gözləməzdim!

– Yox, müsaidə edin!.. – deyə Andreyanov qızışdı və qoburun düyməsini açmağa çalışdı.

– İzin vermərəm! – deyə Qriqori şən-şən dilləndi. Stola yaxınlaşdı, gövdəsi ilə əsirin qabağını kəsdi. – Əsiri öldürmək çox asan işdir. Bunu, belə bir adamı vurmağa sizcə vicdanınız necə yol verir? Bunun silahı yoxdur, əsirdir, əynində paltar da qoymayıblar, amma siz onun üstünə cumursunuz...

– Rədd ol! Bu əclaf məni təhqir etmişdir! – Andreyanov güclə Qriqorini itələdi, naqanı çıxartdı.

Əsir cəld üzünü pəncərəyə tərəf tutdu, – üşüyürmüş kimi çiyinlərini qısdı. Qriqori gülümsünərək, Andreyanova baxırdı, o isə tapançanın çizgili dəstəsini ovcunda hiss edərək onu bir növ yöndəmsiz şəkildə əsirə doğru hərlədi, sonra da lüləni aşağıya doğru endirib, kənara çəkildi.

– Əlimi qana bulamaq istəmirəm... – deyə hövsələsini basdı və qurumuş dodaqlarını yaladı.

Qriqori özünü saxlaya bilməyib, sıx dişlərini ağardaraq dedi:

– Heç bulamayacaqdın da! Bir baxın, naqanınızda güllə yoxdur. Bir yerdə gecələyəndə səhər mən tezdən durdum. Onu stolun üstündən götürüb baxdım... İçində bir dənə də olsun güllə yox idi və güman ki, iki aydan artıqdır təmizlənməmişdir! Şəxsi silahınıza siz çox pis baxırsınız!

Andreyanov başını aşağı dikdi, baş barmağı ilə tapançanın topunu hərlədi, gülümsündü.

– Zəhrimara qalmışın doğrudan içi boş imiş...

Bütün bu mənzərəni kirimişcə və rişxəndlə müşahidə edən zabit Sulin, istintaq protokolunu bükərək dedi:

– Mən, Semyon Polikarpoviç, dəfələrlə sizə demişəm ki, silahla çox pis rəftar edirsiniz. Bugünkü əhvalat bunu bir daha isbat etdi.

Andreyanov qaşqabağını sallayıb qışqırdı:

– Ey, orada aşağı vəzifələrdən kim var? Bura gəlin! – Qarşı otaqdan iki mühafiz əsgər, bir də keşik rəisi içəri girdi.

– Aparın! – Andreyanov başı ilə əsiri göstərdi.

Əsir üzünü Qriqoriyə çevirdi və kirimişcə ona baş əyərək qapıya doğru getdi. Qriqoriyə elə gəldi ki, əsirin sarı bığları arasında təşəkkür əlaməti olaraq güclə sezilən bir gülümsünmə görsəndi və bundan onun dodaqları qımıldandı...

Gedənlərin ayaq səsləri kəsiləndən sonra, Andreyanov yorğun-yorğun eynəyini çıxartdı, çox səliqə ilə sildi, acı-acı dedi:

– Siz bu köpək oğlunu gözəl müdafiə etdiniz, buna sözüm yoxdur, sizin əqidənizə aid məsələdir, lakin onun yanında naqandan danışmaq və məni xəcil eləmək, bura baxın görüm, buna nə ad vermək olar?

– Çox da böyük dərd deyil, – deyə Qriqori barışdırıcı bir tərzdə cavab verdi.

– Yox, deməliyəm ki, nahaq idi. Bilirsiniz, mən onu öldürə bilərdim. Çox murdar tip idi! Siz gəlincəyə qədər mən düz yarım saat idi ki, əlləşirdim. O burada o qədər yalan danışdı, bizi dolaşdırdı, kələk gəldi, qəsdən yalan məlumat verdi ki, həddi-hesabı yox idi! Mən onun yalanının üstünü açan kimi, danışmaqdan sadəcə olaraq inadla boyun qaçırdı. Görürsünüzmü, onu düşmənə hərbi sirri verməyə qoymayan zabit şərəfidir. Bolşeviklərə nökərlik etməyə gedəndə, it oğlu, zabit şərəfi nə olduğunu heç düşünməmişdi... belə zənn edirəm ki, onu da, komanda heyətindən iki nəfərini də səssiz-səmirsiz güllələmək lazımdır. Bizi maraqlandıran məlumatları onlardan alacağımıza ümid olmaq havayı işdir: hamısı bərkimiş və islahedilməz yaramazlardır, deməli, onlara rəhm etməyin də mənası yoxdur! Siz nə fikirdəsiniz?

Cavab əvəzinə Qriqori ona belə sual verdi:

– Siz nə yol ilə öyrəndiniz ki, o, bölük komandiridir?

– Onun öz qızıl əsgərlərindən biri dedi.

– Mən bu fikirdəyəm ki, həmin qızıl əsgəri güllələmək, komandirləri isə sağ saxlamaq lazımdır! – Qriqori sözünü qurtarıb, müntəzir bir vəziyyətdə Andreyanova baxdı.

O, çiyinlərini çəkərək gülümsündü, adamlar, qarşısında söhbət etdiyi şəxs çox yersiz zarafat edəndə belə gülümsünərlər.

– Zarafatsız, ciddi soruşuram, siz nə rəydəsiniz?

– Elə mən indicə sizə söylədiyim rəydəyəm.

– Yaxşı, müsaidə edin, hansı mülahizəyə görə belə məsləhət görürsünüz?

– Hansı mülahizəyə görəmi? Rus ordusunda intizam və qanun-qaydanı saxlamaq mülahizəsinə görə. Dünən biz yatmağa başlayanda, siz, cənab polkovnik, bolşevikləri tar-mar edəndən sonra, cavanların canındakı qırmızılıq xəstəliyinə dağ basmaq üçün orduda hansı qayda-qanun yaratmaq lazım gələcəyinə dair çox ağıllı söhbət etdiniz, yadınızdadırmı? Mən də sizinlə tamamilə şərik oldum! – Qriqori bığlarını

tumarladı, polkovnikin get-gedə dəyişən üzünə fikir verərək, mühakiməli bir tərzdə dedi: – Bəs indi nə təklif edirsiniz? Bununla da siz pozğunluq salırsınız! Demək, belə çıxır ki, qoy əsgərlər bundan sonra da komandirlərini satsınlar? Bir görün, siz onları nəyə öyrədirsiniz? Bəlkə bizim özümüz belə bir vəziyyətə düşdük? Bəs onda necə olar? Yox, bağışlayın, bunda mən dirənirəm! Mən əleyhinəyəm.

Andreyanov soyuq bir ifadə ilə:

– Özünüz bilərsiniz, – dedi və diqqətlə Qriqoriyə baxdı. O eşitmişdi ki, üsyançıların diviziya komandiri qəribə xasiyyətli və məzəli bir adamdır, lakin bu cür qəribə hərəkəti heç gözləmirdi, o yalnız bunu əlavə etdi: – Biz adət üzrə əsir alınan qırmızı komandirlə, xüsusən sabiq zabitlərlə bu cür rəftar edirdik. Sizdə isə, nədənsə yeni bir qayda var... Bu cür, necə deyirlər, mübahisəsiz məsələyə sizin münasibətinizi anlaya bilmirəm.

– Biz onları adətən açıq vuruşmada öldürmüşük, lakin əsirləri boş yerə qırmamışıq! – deyə Qriqori qəzəbindən tutularaq cavab verdi.

– Yaxşı, elə olsun, onları arxaya göndərərik, – deyə Andreyanov onunla razılaşdı. – Belə bir məsələ də var: əsirlərin bir hissəsi, Saratov vilayətinin səfərbərliyə alınmış kəndliləri bizim sıralarımızda vuruşmaq istədiklərini bildirmişlər. Bizim üçüncü piyada polkumuz üç yüzdən də azdır. Diqqətlə yoxlayıb seçdikdən sonra, əsirlərdən könüllü olmaq istəyənlərin bir hissəsini həmin polka qatmağı mümkün hesab edirsinizmi? Ordu qərargahından da bu haqda bizə müəyyən göstərişlər vardır.

– Bir nəfər də olsun öz qoşunuma mujik qoymaram. Çatışmayan adamın yerinə qoy kazak versinlər, – deyə Qriqori qətiyyətlə bildirdi.

Andreyanov onu yola gətirməyə çalışdı:

– Bura baxın, mübahisə etməyək. Sizin diviziyanın niyə yalnız kazaklardan ibarət olmasını istəməyinizi mən anlayıram, lakin zərurət, bizi əsirlərdən də istifadə etmək məcburiyyəti qarşısında qoyur. Hətta könüllü orduda da bəzi polklar əsirlərdən təşkil edilmişdir.

– Onlar necə istəyirlər, qoy elə də etsinlər, mən isə, mujikləri götürməkdən boyun qaçırıram. Gəlin bu haqda bir də danışmayaq, – deyə Qriqori söhbəti kəsdi.

Bir az keçəndən sonra o, bayıra çıxaraq əsirlərin göndərilməsi haqqında sərəncam verdi. Nahar vaxtı isə Andreyanov həyəcanlı bir səslə Qriqoriyə dedi:

– Deyəsən biz bir yerdə işləyə bilməyəcəyik...

– Mən də bu fikirdəyəm, – deyə Qriqori soyuqqanlılıqla cavab verdi. O, Sulinin gülümsəməsini görmədi, boşqabdan bir parça bişmiş qoyun əti götürdü, ağzına təpib, bir qədər bərk xəmirçəyi dişləri ilə canavar kimi elə bərk çeynəməyə başladı ki, Sulin bir yeri bərk ağrıyırmış kimi üz-gözünü turşutdu, hətta bir anlığa gözlərini də yumub baxmadı.

İki gündən sonra, geriyə çəkilən qırmızı hissələrin təqibi işini general Salnikovun qoşun qrupu davam etdirdi, Qriqorini isə təcili qrup qərargahına çağırdılar; burada yaşlı və xoşsifət bir general – qərargah rəisi onu Don ordusu komandanının üsyançılar ordusunu yenidən təşkil etməyə dair verdiyi əmrilə tanış etdikdən sonra aş karca dedi:

– Qırmızılara qarşı partizan müharibəsi apardığınız zaman, siz diviziyaya bacarıqla komandanlıq etdiniz, indi isə biz sizə nəinki diviziya, hətta polk da tapşıra bilmərik. Sizin hərbi təhsiliniz yoxdur, buna görə də, geniş cəbhə şəraitində, vuruşmanın müasir idarə üsulları olduğu bir zamanda, siz iri əsgəri hissəyə komandirlik edə bilməzsiniz. Siz bununla razılaşırsınızmı?

– Bəli, – deyə Qriqori cavab verdi. – Diviziya komandirliyindən mən özüm boyun qaçırmaq istəyirdim.

– Çox yaxşı da eləyirsiniz ki, siz öz imkanlarınızı həddindən artıq qiymətləndirmirsiniz. İndinin zabitlərində belə sifət çox az-az rast gəlinən şeydir. Belədir: cəbhə komandanının əmrinə əsasən siz 19-cu polkun dördüncü bölüyünə komandir təyin olunursunuz. Polk indi yürüşdə, buradan iyirmi verst uzaqda, gərək ki, Vyaznikov xutoru yaxınlığındadır. Bu gün, uzaq başı, sabah oraya yola düşün. Deyəsən, nə isə bir söz demək istəyirsiniz?

– Mən xahiş edərdim ki, məni təsərrüfat hissəsinə göndərəydiniz.

– Bu mümkün deyil. Siz cəbhədə lazım olacaqsınız.

– Mən iki müharibədə on dörd dəfə yaralanmış, iki dəfə kontuziya olmuşam.

– Bunun əhəmiyyəti yoxdur. Siz gəncsiniz, vəziyyətiniz çox yaxşıdır və yenə də vuruşa bilərsiniz. Yaralanmaq məsələsinə gəlincə, zabitlərdən hansı yaralanmayıb ki? Gedə bilərsiniz. Uğurlar olsun!

Güman ki, üsyançılar ordusunun yenidən təşkili zamanı yuxarı donlular arasında hökmən baş verə biləcək narazılığın qabağını almaq üçün üsyan zamanı özünü göstərmiş bir çox sıravi kazakların Ust-Medveditsa alınan kimi poqonlarına əlavə bafta tikildi, vaxmistrlərin hamısı demək olar ki, kiçik zabit oldu, üsyanda iştirak edən zabitlərin isə həm rütbələri artırıldı, həm də təltif edildilər.

Qriqorini də yaddan çıxarmamışdılar. Onu bölük komandiri etdilər; ordu üzrə verilən əmrdə, qırmızılara qarşı vuruşmada onun göstərdiyi xidmətləri qeyd edildi və özünə də təşəkkür elan edildi.

Yenidən təşkil edilmə işi bir neçə gündə qurtardı. Savadsız diviziya və polk komandirlərini generallar və polkovniklər əvəz etdi, bölüklərə də təcrübəli zabitlərdən komandirlər təyin olundu; batareyaların və qərargahların komanda heyəti bütünlükdə dəyişdirildi; sıravi kazakları isə, Donetsk tərəfdəki vuruşmalarda əzişdirilmiş Don ordusunun nömrələnmiş polklarını tamamlamağa göndərdilər.

Qriqori axşamüstü kazakları topladı, diviziyanın yenidən təşkil ediləcəyini elan etdi və ayrılarkən dedi:

– Eloğlularım, dalımızca danışmayın! Birlikdə qulluq etdik, məcbur idik, amma bu gündən hərəmizin dərdimiz-çorumuz ayrı olacaqdır. Ən vacibi budur ki, başınızı qoruyun, gözləyin qırmızılar başınızı deşik-deşik eləməsin. Düzdür, bizim başımız sarsaqdır, amma onu havayı yerə güllə qabağına vermək də lazım deyil. Çünki bu başlarla möhkəm fikirləşməli, bu işlərin dalını düşünməli olacağıq...

Kazaklar onu pərt halda dinləyirdilər, sonra hamısı birdən, hərəsi bir səslə və ağır-ağır danışmağa başladılar:

– Yenə də köhnə qaydalar başlanır?

– İndi bizi hara göndərəcəklər?

– Köpək uşağı, başımıza oyun açırlar!

– Qoşunumuzun dağıdılmasını istəmirik! Bu nə hoqqadır çıxardırlar?

– Budur, uşaqlar, birləşib öz boynumuza kəndir keçirdik!..

– Əlahəzrətlər təzədən hökmranlıq edəcəklər!

– Hünərin var indi duruş gətir! Bel-buxunumuzu əzib qıracaqlar...

Qriqori kazakların sakitləşməsini gözlədi və sonra dedi:

– Boğazınızı hədər yerə cırırsınız. O əmrləri birlikdə müzakirə etdiyiniz və böyüklərə zidd çıxdığınız arxayınlıq çağları getdi.

Hamınız çıxıb mənzillərinizə gedin, bir də ki, dilinizi gödək edin. Yoxsa bu zəmanənin haqq-hesabilə diliniz sizi kefə yox, düz hərbi səhra məhkəməsinə, bir də cərimə bölüyünə aparıb çıxardar.

Kazaklar vzvod-vzvod yaxınlaşır. Qriqori ilə əl tutuşaraq görüşüb ayrılır və deyirdilər:

– Əlvida, Panteleviç! Sən də bizim nöqsanlarımızı bağışla.

– Ox, özgə adamlarla qulluq eləmək, heç bizə də asan olmayacaqdır!

– Sən nahaq yerə bizi güdaza verdin. Gərək diviziyanı təhvil verməyə razı olmayaydın!

– Qriqori Panteleviç, heyif ki, səndən ayrılırıq! Bəlkə də yad komandirlər səndən savadlıdırlar, amma bununla bizim işimiz heç də yüngülləşmir, bəlkə daha da ağır olacaq, bax, əsl müsibət burasındadır!

Yalnız bircə kazak, Napolovsk xutoru sakini hazırcavab və lotu bir kazak dedi:

– Qriqori Panteleviç, sən onlara inanma. Könlünə yatmayan bir iş görəndən sonra komandirin doğmadır ya yaddır, fərqi yoxdur, qulluğun ağır olacaqdır!

Qriqori gecə Yermakovla və başqa komandirlərlə birlikdə araq içdi, səhər isə Proxor Zıkovu da özü ilə götürüb 19-cu polkun dalınca getdi.

O, bölüyü hələ yenicə qəbul etmiş və adamlarla düz-əməlli tanış olmamışdı ki, onu polk komandirinin yanına çağırdılar. Səhər ertə idi. Qriqori atları gözdən keçirdi, bir qədər ləngidi və yarım saatdan sonra getdi. O, gözləyirdi ki, ciddi, zabitlərə qarşı tələbkar olan polk komandiri ləngidiyi üçün onu danlayacaqdır, lakin əksinə oldu, komandir Qriqori ilə çox mehribanlıqla salamlaşıb soruşdu:

– Bölüyünüzü necə görürsünüz? Layiqli camaatdırmı? – Sonra cavab gözləmədən, kənara baxa-baxa dedi:– Belədir, əzizim, sizə çox kədərli bir xəbər verməliyəm... Evinizdə böyük bir bədbəxtlik üz vermişdir. Dünən axşam Veşenskayadan teleqram gəlmişdir. Ailə işlərinizi sahmana salmaq üçün sizə bir aylıq məzuniyyət verirəm. Yola düşün.

Qriqori rəngi ağarmış halda:

– Teleqramı mənə verin, – dedi.

O, dörd bükülmüş kağızı aldı, açıb oxudu, bir an tər basmış əlində hövkələdi. Azacıq səydən sonra özünü toxtatdı və bir qədər duruxaraq dedi:

– Bəli, mən bunu gözləmirdim. Deməli, mən gedəsi oldum. Sağlıqla qalın!

– Məzuniyyət vəsiqəsi götürməyi unutmayın.

– Baş üstə. Sağ olun, unutmaram.

O dəhlizə keçəndə qılıncını adəti üzrə əli ilə tutaraq addımlarını inamla və möhkəm atırdı, lakin uca artırmadan enməyə başlayanda – birdən öz addımlarının səsi qulaqlarında eşidilməz oldu, o saat da ürəyinin başına süngü batmış kimi, bərk bir sancı hiss etdi.

Lap aşağı pilləkəndə o, büdrədi və sol əli ilə laxlayan sürahidən yapışdı, sağ əli ilə də cəld üst köynəyinin yaxasını açdı. Bir dəqiqə qədər dərindən və tez-tez nəfəs alaraq dayandı, bu bir dəqiqə ərzində elə bil iztirabdan kefləndi; əlini sürahidən çəkib darvazanın ağzında bağlanmış atına tərəf gedəndə azacıq yırğalana-yırğalana, ağır-ağır addımlayırdı.

XVI

Pis yuxu görən və bunun təzyiqindən canını qurtarmaq istəyən, lakin boğulan adam özünü necə hiss edərsə, Darya ilə söhbətlərindən bir neçə gün sonra Natalya da eləcə bir hiss ilə yaşayırdı. O bir münasib vaxt axtarırdı ki, Proxor Zıkovun arvadının yanına getsin və camaat geri çəkilib gedəndə Qriqorinin Veşenskayada necə dolandığını, o vaxt Aksinya ilə görüşüb-görüşmədiyini birtəhər ondan öyrənsin. O istəyirdi ki, ərinin müqəssirliyini yəqin etsin, Daryanın sözlərinə isə o həm inanır, həm də inanmırdı.

Axşamdan xeyli keçmiş o, əlindəki çubuğu saymazyana bulaya-bulaya Zıkovların həyətinə yaxınlaşdı. Proxorun arvadı, evinin işlərini görüb qurtarmış və darvazanın ağzında oturmuşdu.

– Jalmerka, əhvalın necədir? Bizim dananı görməmisən? – deyə Natalya soruşdu.

– Allaha şükür, əzizim! Yox, görməmişəm.

– Andıra qalmış elə avaradır ki, heç evə gəlmir. Əlli-ayaqlı itir! Heç bilmirəm gedim harada axtarım.

– Otur bir az dincəl, tapılar. Günəbaxana səni qonaq edimmi?

Natalya ona yaxınlaşıb oturdu, lağlağı arvad söhbəti başladı.

– Kazakından bir xəbər yoxdur? – deyə Natalya əhval soruşdu.

– Heç bir xəbər yoxdur. Elə bil ağır bir daş olub quyuya düşüb! Səninki necə, bir xəbər-zad göndərirmi?

– Yox. Yazmağa Qrişa söz vermişdi, lakin heç bir məktubu gəlmir. Camaat arasında danışırlar ki, bizimkilər Ust-Medveditsadan bir az o yana gediblər, bundan başqa heç nə eşitməmişəm. – Natalya söhbəti dəyişdirib bu yaxınlarda Donun o tayına çəkilməkdən söz saldı, ehtiyatla soruşmağa başladı ki, o zaman sənin kazakın Veşenskayada necə güzəran edirdi və yanında xutorlularımızdan kim var idi. Proxorun hiyləgər arvadı Natalyanın onun yanına nə üçün gəldiyini başa düşdü, ona görə də ehtiyatla, ağızucu cavab verirdi.

O, ərinin söhbətindən Qriqori haqqında hər şeyi öyrənmişdi, lakin dili gicişsə də Proxorun tapşırığını yadında saxlayıb danışmaqdan qorxurdu. Proxor ona demişdi: "Gör nə tapşırıram; bu barədə bir adama tək bircə kəlmə demiş olsan, başını qoyacağam kötüyün üstünə, sənin murdar dilini də düz bir arşın dartıb eşiyə çıxardacaq və oradaca kəsəcəyəm, çünki bu söhbət gedib Qriqoriyə çatsa, o saat məni öldürər! Onsuz da sən mənim canımı xirtdəyimə yığıbsan. Dünyada xoş bir gün görməmişəm, bildin? Di elə kiri ki, elə bil murdar olubsan, heç səsin çıxmasın!"

– Sənin Proxorun Veşenskayada Aksinya Astaxovanı görməyib ki? – deyə səbri tükənmiş Natalya açıqca sual verdi.

– Onu Proxor haradan görə bilərdi! Orada məgər belə şeyin hayında olmaqmı olardı? Allah haqqı, heç şey bilmirəm, Mironovna, heç bu barədə söz soruşma, xatircəm ol. Mənim o başı batmışımdan düz-əməlli bir söz ala bilməzsən. Onun bildiyi danışıq da budur, – bunu ver, onu götür.

Natalya buradan bir az da dilxor və həyəcanlanmış halda, bir şey öyrənə bilmədən çıxıb getdi. Lakin bir şey öyrənə bilməməsilə kifayətlənmədi, onu Aksinyanın yanına itələyib aparan da məhz bu oldu.

Qonşuluqda yaşadıqları üçün onlar son illərdə tez-tez görüşür, kirimişcə salamlaşır və bəzən də ağızucu bir-birinin halını soruşurdular. Əvvəllər üz-üzə gəldikdə salamlaşmayıb, bir-birini nifrətlə süzdükləri çağlar artıq geridə qalmışdı; aralarında olan küdurət öz kəskinliyini itirib səngimişdi və indi, Natalya Aksinyanın yanına gedərkən arxayın idi ki, Aksinya onu qovmaz, başqalarının

haqqında olmasa da, hər halda Qriqori haqqında ona bir söz deyər. Doğrudan da onun mülahizəsi səhv çıxmadı.

Aksinya təəccübünü gizlətmədən onu öz otağına dəvət etdi, pəncərələrin pərdələrini saldı, çırağı yandırıb soruşdu:

– Xeyir ola, ay Natalya, nə əcəb?

– Mən buraya xeyir iş üçün gəlmərəm...

– Pisini de. Yoxsa Qriqori Panteleviçə bir şey olub?

Aksinyanın sualındakı dərin və aşkar təşvişdən hər şey Natalyaya aydın oldu. Bir cümlədən Aksinyanın varlığı, onun nəyin xatirinə yaşadığı və nədən qorxduğu bilindi. Əslində, bundan sonra onun Qriqoriyə münasibətini soruşmaq da artıq idi, lakin Natalya getmədi, cavabı bir az ləngidib dedi:

– Yox, ərim sağ-salamatdır, qorxma.

– Mən heç də qorxmuram, sən bunu haradan düzəltdin? Onun sağ-salamatlığının dərdini sən çəkməlisən, mənim isə öz dərd-sərim kifayət qədərdir. – Aksinya sərbəst danışırdı, lakin pərtləşdiyini hiss edərək tələsik stola yaxınlaşdı və dalını qonağına çevirmiş halda onsuz da yaxşı yanan lampanın fitilini xeyli vaxt düzəltdi.

– Sənin Stepanından bir xəbər yoxdur?

– Bu yaxınlarda salam göndərmişdi.

– Sağ-salamatdırmı?

– Gərək ki, salamatdır. – Aksinya çiyinlərini qısdı.

Aksinya burada da hisslərini gizlədə bilmədi; ərinin müqəddəratına laqeydliyi o qədər aşkar idi ki, Natalya istər-istəməz gülümsündü.

– Görünür, sən heç onun xiffətini eləmirsən... Söz yox ki, bu sənin öz işindir. Mən isə bir məsələni səndən öyrənməyə gəlmişəm: xutorda belə bir dedi-qodu vardır ki, guya Qriqori yenə də sənə meyl göstərir, guya evə gələndə görüşürsünüz. Bu düzdürmü?

– Gör kimdən gəlib xəbər alır! – deyə Aksinya rişxəndlə dilləndi. – Qoy mən səndən soruşum ki, bu düzdür, yoxsa yox?

– Düzünü deməkdən qorxursan?

– Yox, qorxmuram.

– Onda düzünü de ki, mən bilim, xiffət eləməyim. Məni hədər yerə niyə üzürsən?

Aksinya qara qaşlarını oynadaraq gözlərini qıyıb:

– Fərqi yoxdur, mənim sənə yazığım gəlməyəcək, – deyə sərt başladı... – Səninlə mənim işim belədir, mən əzab çəkəndə sənə xoşdur, sən əzab çəkəndə isə mənə... Bir kişiyə ikimiz şərikik,

elədirmi? Hə, sözün düzü boş yerə çərənləmirlər. Qriqorini mən yenə ələ keçirmişəm və çalışıram ki, bu dəfə əlimdən buraxmayım. Hə, de görüm bundan sonra mənə nə edəcəksən? Gəlib evimin şüşələrini qıracaqsan, yoxsa məni bıçaqlayacaqsan?

Natalya ayağa durdu, əlindəki çubuğu əyib sobaya atdı və ondan gözlənilməyən bir qətiyyətlə dedi:

– İndi mən sənə heç bir pislik eləyəsi deyiləm. Gözləyəcəyəm Qriqori gəlsin, onunla danışıb məsələni həll edim. Sonra aydın olar ki, mən sizin ikinizlə nə etməliyəm. Mənim iki uşağım var, mən uşaqlarımı da, özümü də saxlaya bilərəm!

Aksinya gülümsündü:

– Demək mən hələlik rahat yaşaya bilərəm.

Natalya Aksinyanın istehzasını duymadan ona yaxınlaşdı və koftasının qolundan tutaraq:

– Aksinya! Sən ömrüm uzunu mənim yolumda bir maneə olmusan, lakin indi, yadındadırmı, keçmişdə elədiyim kimi, daha sənə yalvarmayacağam! Onda mən gənc idim, axmaq idim, elə zənn edirdim ki, ondan xahiş edərəm, mənə yazığı gələr, yumşalar və Qrişadan əl götürər. İndi eləməyəcəyəm! Mən anlayıram ki, sən onu sevmirsən, adətkərdə olduğuna görə dalınca sürünürsən. Sən heç vaxt onu mənim kimi sevməmisən. Sən Listnitski ilə də aranı sazladın, aşnalıq etmədiyin adam, ay şortu, qalıbmı? Sevənlər belə etmirlər.

Aksinyanın rəngi qaçdı, əli ilə Natalyanı itələyib sandığın üstündən qalxdı:

– O, məni şortuluqda təqsirləndirməyib, amma sən təqsirləndirirsən? Bunun sənə nə dəxli var? Olsun! Mən pisəm, sən yaxşısan, sonrası nə olsun?

– Vəssalam. Hirslənmə. Bu saat gedirəm. Sağ ol ki, açıb sözün düzünü dedin.

– Dəyməz, təşəkkür etmə, mənsiz də öyrənə bilərdin. Bir az dayan, mən də səninlə çıxım, pəncərə qapılarını örtüm. – Artırmada Aksinya dayandı və dedi: – Mən şadam ki, biz səninlə dava-dalaşsız, yaxşılıqla ayrıldıq, amma, hörmətli qonşucuğazım, mən sənə axır sözümü deməliyəm: gücün çatsa onu məndən alacaqsan, çatmasa, daha incimə. Xoşluqla mən ondan əl çəkəsi deyiləm. Mən indi, düzü, cavan deyiləm və sən məni şortu adlandırdınsa da sizin Darya kimi deyiləm, ömrümdə bu cür işlərlə məşğul olmamışam... Sənin

heç olmasa balaların var, amma o mənim, – Aksinyanın səsi titrədi, batdı, alçaldı, – bu işıqlı dünyada varım-yoxum bircə dənəmdir! Birinci və axırıncımdır. Bilirsən nə var? Gəl onun haqqında daha danışmayaq. Sağ qalar, Allah onu öz pənahında saxlar, qayıdar, özü istədiyi kimi edər...

Gecəni sübhəcən Natalya yatmadı, səhər ertə İliniçna ilə bərabər bağçanın alağını çəkməyə getdi. İşlədi, bir qədər yüngülləşdi. O, əlindəki kətməni müntəzəm surətdə günəşin qurutduğu kəsəklərə endirərək az fikirləşir, yalnız üzünün tərini silmək və su içmək üçün arabir qəddini düzəldirdi.

Küləyin parçaladığı ağ buludlar mavi göydə süzür, əriyirdi. Günəşin şüaları qızmış torpağı yandırırdı. Gündoğandan yağış havası gəlirdi. Natalya başını qaldırmadan, göydə süzən bir buludun günəşin qabağını tutduğunu duydu; bir an qədər sərinlik düşdü; od qalxan torpağın, qol-budaq atmış qarpız tağlarının, gövdəsi uca günəbaxanların üstünə sürətlə göy bir kölgə çökdü. Kölgə yamacda salınmış bağçanı, solub yerə yapışmış otları, yemişan kollarını, bir də yarpaqları üzərinə quş nəcisi düşmüş qaratikan kolluqlarını bürüyürdü. Bildirçinlərin şaqraq səsi daha cingiltilə səslənir, torağayların xoş mahnısı daha aydın eşidilirdi. Hətta otları tərpədən külək də elə bil sərinləmişdi. Sonra günəş qərbə doğru uçan buludun gözqamaşdıracaq dərəcədə ağ haşiyəsindən çəpinə süzələndi, yenidən dünyaya parlaq işıq axını yaydı. Buludun özü ilə bərabər süzən kölgəsi haradasa çox uzaqlarda, Don ətrafındakı dağların mavi qollarında hələ dolaşır və yerə düşərək onu ləkəli görsədirdi, bağçaların üzərində isə kəhrəba kimi sapsarı bir günorta hakim kəsilirdi, üfüqdəki axıcı sərab titrəyir, rəngdən-rəngə girir, torpaqdan və onun bəslədiyi otlardan da ağır və boğucu bir iy qalxırdı.

Günorta Natalya yarğanda qazılmış su quyusuna getdi, bir bardaq buz kimi sərin su gətirdi. Onlar İliniçna ilə doyunca su içdilər, əllərini yudular, süfrə açıb oturdular. İliniçna yerə saldığı pərdənin üstündə səliqə ilə çörək kəsdi, heybədən qaşıq və fincan çıxartdı. Üstünə gün düşməsin deyə koftasının altında gizlətdiyi və içində qatıq olan dar boğazlı küpəni çıxartdı.

Natalya çörəyi könülsüz yediyi üçün qayınanası soruşdu:

– Çoxdan göz qoyub görürəm ki, sən əvvəlki kimi deyilsən... Yoxsa Qrişka ilə aranda bir şey olubdur?

Natalyanın küləkdən qaysaqlanmış dodaqları yazıq bir vəziyyətdə titrədi:

– Anacan, o yenə də Aksinya ilə yaşayır.

– Bıy... bu nədən məlumdur ki?

– Mən dünən Aksinyanın yanına getmişdim.

– O əclaf da boynuna aldı?

– Bəli.

İliniçna fikrə-xəyala gedərək susdu. Onun büküşük üzündə, dodaqlarının künclərində ciddi qırışlar görsəndi.

– Bəlkə o lənətə gəlmiş özündən basıb bağlayır?

– Yox, ay ana, düzdür...

– Sən ona göz ola bilməmisən... – deyə qarı ehtiyatla dilləndi. – Belə ərin üstündən gərək gözünü çəkməyəsən.

– Heç belə də şey olar? Mən onun vicdanına arxayın oldum... Mən onu öz yubkama bağlayası deyildim ki? – deyə Natalya acı-acı gülümsündü, lap zəif eşidilən bir səslə əlavə etdi: – o Mişatka deyildir ki, tutub saxlayam. Saçı-saqqalı yarıyacan ağarıb, amma köhnə adətini unutmur...

İliniçna qaşıqları yudu və sildi, fincanları yaxaladı, qab-qacağı yığıb heybəyə qoydu, sonra soruşdu:

– Dərdin-qüssən elə budurmu?

– Nə danışırsan, ay ana... İşıqlı dünyası zəhrimara dönmək üçün adama elə bu dərd də çoxdur!

– İndi sən nə fikirdəsən?

– Nə fikirdə olacağam? Uşaqlarımı da götürüb atam evinə gedəcəyəm. Daha onunla yaşamayacağam. Qoy gedib onu gətirsin, onunla yaşasın. Daha bəsdir, əzab çəkməkdən cana doymuşam.

– Cavanlığımda mən də belə düşünürdüm, – deyə İliniçna köksünü ötürdü. – Mənimki də az aşın duzu deyildi. Onun mənim başıma nələr gətirdiyini deməklə qurtarmaz. Amma ərdən ayrılıb getmək asan iş deyil, mənası da yoxdur. Bir qədər fikirləşsən, özün də görəcəksən ki, belədir. Uşaqları atasından ayırıb aparmaq da yaxşı iş deyil! Yox, sən nahaq belə danışırsan, belə şeyləri başından çıxar, izin vermirəm!

– Yox, anacan, mən onunla yaşamayacağam, havayı yerə ağzınızı yormayın.

– Necə yəni ağzınızı yormayın? – deyə İliniçna qəzəbləndi. – Sən mənim kimimsən, mənim doğma balam deyilsən, nədir? Siz lənətə gəlmişlərə mənim yazığım gəlir, yoxsa yox? Həm də bunu sən mənə, qoca anana necə deyirsən? Madam ki, sənə bu fikri başından çıxar deyildi, deməli çıxarmalısan, vəssalam. Gör bir nə fikirləşib tapıb: "evdən gedəcəyəm!" Haraya gedəcəksən? Özününkülərdən hansı səni saxlayacaqdır? Atan yox, eviniz yandırılıb, anan özgələrin qapısında dolanacaq, sən də özünü ora dürtəcək və mənim nəvələrimi də yanınca sürütləyib aparacaqsan? Yox, əzizim, sən deyən baş tutmayacaqdır! Qrişka gələr, baxarıq, görək onunla nə edərik, indi isə bu barədə sən mənə bir kəlmə də danışma, icazə vermirəm və eşitmək də istəmirəm.

Uzun bir zamandan bəri Natalyanın ürəyinə yığışan qəhr-qəzəb birdən-birə coşqun, əsəbi bir hönkürtüyə çevrildi. O, qəzəblə yaylığı başından dartıb açdı, üzüqoylu quru, sərt torpağın üstünə sərildi və sinəsini yerə dirəyərək göz yaşı tökmədən hönkürdü.

İliniçna – bu müdrik və mərd qarı yerindən də qımıldanmadı. O, içində qatıq olan küpəni səliqə ilə koftasına bükdü, aparıb sərin yerə qoydu, sonra fincana su doldurdu, yaxınlaşıb Natalya ilə yanaşı oturdu. O yaxşı bilirdi ki, belə dərd əhlinə sözlə kömək etmək olmaz; bunu da bilirdi ki, belə halda insanın gözlərinin quru və dodaqlarının kip sıxılmasından göz yaşları axıtması yaxşıdır. Natalya doyunca ağlayıb ürəyini boşaldanacan o gözlədi, işdən kobudlaşmış əlini gəlinin başına qoydu, onun qara, parlaq saçlarını sığalladı, acıqlı-acıqlı dedi:

– Di bəsdir! Ağlamaqla gözünün yaşını qurtara bilməzsən, bir az da saxla, özgə vaxt ağlarsan. Al bu suyu iç.

Natalya sakitləşdi. Onun çiyinləri indi təkdənbir qalxıb düşür, bədəninə xəfif bir üşütmə çökürdü. O birdən-birə ayağa durdu, içində su olan fincanı ona uzadan İliniçnanı əli ilə kənara itələdi və üzünü gündoğana çevirərək göz yaşından islanmış əllərini dua edircəsinə tutdu, nəfəsi tutula-tutula yeyin-yeyin qışqırdı:

– Pərvərdigara! O verdiyi əziyyətlərilə mənim canımı boğazıma yığmışdır! Mənim belə yaşamağa daha taqətim qalmamışdır! O lənətə gəlmişə sən özün cəza ver! Orada onu məhv elə! Elə et ki, o daha sağ qalmasın, mənə əzab verməsin!..

Şərq tərəfdən qara bir bulud gəlirdi. Boğuq göy gurultusu eşidildi. Göz qamaşdıran şimşək çaxdı, buludların girdə təpələrinə soxularaq qırıldı. Külək tər otları qərbə doğru əyirdi, böyük yoldan acı toz gəlir, başları tumla dolu günəbaxanları lap yerə qədər əyirdi. Külək Natalyanın pırtlaşmış saçlarını oynadır, onun yaşlı üzünü qurudur, geydiyi köhnə yubkasının ətəklərini ayaqlarına çırpırdı.

Bir neçə saniyə İliniçna öz gəlininə mövhumi bir dəhşətlə baxdı. Göyün yarısını tutmuş qara buludun altında gəlini ona yad və müdhiş göründü.

Yağış sürətlə yaxınlaşırdı. Göy gurultusundan qabaqkı sükut çox sürmədi. Çöl siçanı yuvasının yanında civildədi, çəpinə süzən ley təşvişlə qıy vurdu, bərk əsən külək toz-torpağı İliniçnanın üzünə çırpdı, ayağa qalxdı. Onun rəngi qaçmışdı, yaxınlaşan tufanın uğultusu arasından gəlininə qışqırdı:

– Ağıllı ol! Allahını unutma! Kimə ölüm arzulayırsan?!

– Xudaya, ona divan tut! Pərvərdigara, divan elə! – deyə Natalya bağırır, çıldırmış gözlərini oraya, burulğandan şahə qalxmış, şimşəyin işıqlandırdığı buludların əzəmət və dəhşətlə qalaqlandığı yerə zilləmişdi.

Göy gurladı. Bərk qorxmuş İliniçna xaç çevirdi, ayaqları dolaşa-dolaşa Natalyaya yaxınlaşdı, onun çiynindən yapışdı:

– Diz çök! Eşidirsənmi, Nataşka?!

Natalya küt baxışlarla qayınanasının üzünə baxdı, iradəsi xilafına diz çökdü.

– Allahdan günahının bağışlanmasını istə! – deyə İliniçna hakimanə əmr etdi. – Xahiş et ki, sənin duanı eşitməsin. Sən kimə ölüm arzulayırdın? Öz balalarının doğma atasına. Gör bir nə böyük günahdır... Xaç çevir! Torpağa səril. De ki, "Pərvərdigara! Bağışla məni, günahkaram, təqsirimdən keç".

Natalya xaç çevirdi, qanı qaçmış dodaqları ilə nə isə pıçıldadı və dişlərini qıcıyaraq yöndəmsiz tərzdə böyrü üstə yıxıldı.

Yağış selində yuyunmuş çöl göyçək bir yaşıllığa bürünmüşdü. Uzaq gölməçədən ta Dona qədər tac kimi parlaq bir göy qurşağı çəkilmişdi. Günbatan tərəfdə hələ də göy guruldayırdı. Yarğanla bulanıq sel axır və qartal səsinə bənzər bir səs verirdi. Köpüklənmiş balaca çaylar aşağılara, Dona sarı, bağçalara doğru axırdı. Bu

çaylar yağışın tökdüyü yarpaqları, selin yuyub çıxardığı otları və qırılmış çovdar sünbüllərini də aparırdı. Bağçalardakı qarpız və yemiş tağlarını qum basmışdı; coşmuş sel, yay yolunu yuyub aparırdı. Uzaqdakı bir xəndəyin ətəyində ildırım düşmüş ot tayası yanıb qurtarmaq üzrə idi. Yanğından çox yüksəklərə qalxan göy tüstü az qalırdı göy qurşağına çatsın.

İliniçna ilə Natalya, yubkalarını çirməyərək, yalın ayaqlarını sürüşkən palçıqlı yol ilə ehtiyatla ata-ata xutora endilər. İliniçna dedi:

– Sizdə, siz cavanlarda, Allah haqqı, qəribə xasiyyətlər var! Bir şey olan kimi hədəqədən çıxırsınız. Bəs sən mən cavanlığımda dolandığım kimi dolansaydın, onda neylərdin? Bu qədər bir yerdə yaşayıbsınız, Qrişa bir dəfə də olsun sənə toxunmayıb, amma sən yenə də narazısan, gör bir nə hoqqa çıxartdın: onu atıb getməyə də hazırlaşıbsan, özündən gedib bir yerə də dəydin, nə əməllər qaldı ki, çıxarmayasan, öz murdar işinizə hələ Allahı da bir qatıb-qarışdırdın... Hə, bir de görək, ay qız, bu yaxşı işdirmi? Məni isə, mənim topalca kişim, günahım var, ya yox deməyib, düz cavan yaşımdan bəri o ki var döyübdür; onun qarşısında mənim heç bir günahım olmayıbdır. Bir şeyə acığı tutan kimi, heyifini məndən alırdı. Bir də görürdün ki, işıqlaşanda gəlirdi, acı-acı ağlayıb qışqırır, məzəmmət edirdim, o saat yumruğunu işə salırdı... Bəzən aylarla üz-gözüm dəmir kimi gömgöy gəzirdim, yenə də ölmədim, sağ qaldım, uşaqlarımı da böyütdüm, bir dəfə də olsun evdən çıxıb getmək fikrinə düşmədim. Mən Qrişkanı tərifləmirəm, ancaq onunla yaşamaq olar. Bu ilan olmasaydı Qrişka xutorumuzda barmaqla göstərilən birinci kazak olardı. Zalım oğlunun qızı onu tilsimə salmışdır.

Natalya kirimişcə nəyi isə düşünə-düşünə xeyli yol getdi və sonra dedi:

– Anacan, mən bu barədə daha danışmaq istəmirəm. Qriqori gələr, sonra baxarıq, nə edəcəyim bəlli olar... Bəlkə mən özüm getdim, bəlkə də o məni qovdu, indi isə mən sizin evdən heç yana tərpənməyəcəyəm!

– Bax, bayaqdan beləcə deməlisən! – deyə İliniçna sevindi. – Allah qoysa hamısı düzələcəkdir. O heç vaxt səni qovmaz, ağlına belə şeyləri gətirmə! O səni də, uşaqlarını da çox sevir. Yox, yox! O səni buraxıb Aksinyadan yapışmaz, o belə şey eləməz! Ev arasında nə desən baş verməz? Təki o sağ-salamat qayıtsın...

– Mən ona ölüm istəmirəm... Orada qızışdığımdan elə dedim... Bunun üstündə siz məni danlamayın... Onu ürəkdən çıxardıb atmaq olmaz, amma belə yaşamaq da çətindir!

– Elədir, dərdin alım, qurbanın olum! Elə bilirsən mən bilmirəm? Amma hövsələdən çıxıb adam ağlına gələni eləməz. Düz deyirsən, gəl bunu daha danışmayaq! Sən Allah, indi sən bu barədə qocaya heç bir söz demə. Ona aid iş deyil.

– Mən bir məsələni də sizə deməliyəm... Mənim Qriqori ilə yaşayıb-yaşamayacağım hələ məlum deyil, amma ondan daha uşaq doğmaq istəmirəm. Bunlarla da nə edəcəyimiz hələ məlum deyil... Özüm də hamiləyəm, ana...

– Çoxdandırmı?

– Üç aydır.

– Daha neyləyə bilərsən? İstəsən də, istəməsən də doğmalısan.

– Doğmayacağam, – deyə Natalya qəti bildirdi. – Lap bu gün Kapitonovna mamanın yanına gedəcəyəm. O bundan mənim canımı qurtarar. O, bəzi arvadlara əlac eləmişdir.

– Bu nə deməkdir, uşağı tələf etməkmi istəyirsən? Dilin bu sözü deməyə necə gəlir, ay vicdansız? – Hirslənmiş İliniçna yolun ortasında dayanıb, əlini-əlinə çaldı. O yenə nə isə demək istədi, lakin arxadan təkər taqqıltısı eşidildi, atların palçığın içində fırçıldayan dırnaqlarının səsi gəldi; kim isə onlara təpinirdi.

İliniçna ilə Natalya yoldan çıxdılar və çırmanmış yubkalarını tələsik aşağı saldılar. Araba ilə çöldən gələn qoca Besxlebnov Filip Ageyeviç onlara yaxınlaşan kimi, oynaqlayan madyanın başını çəkdi.

– Oturun, ay arvadlar, sizi aparım, havayı yerə palçığı tapdalamayın.

– Ay sağ ol, Ageviç, palçıqda sürüşə-qalxa yeriməkdən lap yorulmuşuq, – deyə İliniçna razılıq etdi və əvvəlcə çıxıb geniş arabada əyləşdi.

İliniçna nahardan sonra Natalya ilə danışmaq, uşaq saldırmağın mənasız olduğunu ona sübut etmək istəyirdi; o, qabları yuyanda öz aləmində daha inandırıcı dəlillər axtarırdı, hətta bunu da fikirləşdi ki, Natalyanın niyyətini qocaya desin, əri ilə köməkləşsinlər, dəli kimi olmuş gəlini axmaq hərəkətdən daşındırsınlar; lakin o, işini qurtarıncaya qədər Natalya xəlvətcə hazırlaşıb əkildi.

İliniçna Dunyaşkadan soruşdu:

– Natalya hanı?

– Bir boğça da götürüb çıxıb getdi.

– Hara? Bir söz demədi? Boğça nədir?

– Mən nə bilim, ay ana? Yaylığın arasına təmiz yubka, bir də nə isə başqa bir şey qoydu, heç nə deməyib getdi.

– Vay, biçarə yazıq! – deyə İliniçna taxtın üstünə çökdü, acı-acı ağladı; Dunyaşka mat qaldı.

– Nə olub, anacan? Allah xatirinə, niyə ağlayırsınız?

– Yaxamdan əl çək, ay sital! Sən qanan iş deyil! Bəs heç nə demədi? O yığışmağa başlayanda niyə mənə demədin?

Dunyaşka pərt halda cavab verdi:

– Lap özünüzü itirmisiniz! Bunu sizə demək lazım olduğunu, axı mən haradan bilirdim? Natalya evimizdən məgər həmişəlik çıxıb gedib? Çox güman ki, anasıgilə qonaq gedib; bundan ötəri niyə ağlayırsınız – heç başa düşmürəm!

İliniçna Natalyanın qayıtmasını çox böyük təşvişlə gözləyirdi. Məzəmmət və danlaqdan qorxaraq qərara gəldi ki, məsələni qocaya deməsin.

Gün batanda ilxı çöldən qayıtdı. Havaya seyrək axşam qaranlığı çökdü. Xutorda təkəmseyrək çıraqlar yandırıldı, amma Natalya gəlib çıxmadı. Melexovların evində axşam yeməyinə başladılar. Nigarançılıqdan rəngi qaçmış İliniçna, ailə üzvlərinə bitki yağında qızardılmış soğançalı ərişdə verdi. Qoca qaşığını götürdü, xörəyə bir qədər quru çörək ovdu, qaşıqlayıb hər tərəfi tüklə örtülmüş ağzına doldurdu və süfrə başındakıları dalğın baxışları ilə süzərək soruşdu:

– Natalya hanı?

– Yoxdur, – deyə İliniçna yavaşca cavab verdi.

– Bəs haradadır?

– Yəqin anasıgilə gedib, orada qonaq qalıb.

– Qonaqlığı uzun çəkir. Evdə qayda-qanun nə olduğunu bilmək lazımdır... – deyə Panteley Prokofyeviç donquldandı.

Həmişəki kimi o səylə, şirin-şirin yeyirdi; hərdən qaşığını stolun üstünə tərsinə qoyur, onunla yanaşı oturmuş Mişatkaya çəpəki, mehriban baxışlarla nəzər salırdı, qaba bir şəkildə deyirdi: "Üzünü bu tərəfə çevir, qadan alım, qoy dodaqlarını silim; ananız gəzəyən olduğu üçün, sizə baxan yoxdur..." Sonra da cod, iri əli ilə nəvəsinin zərif, çəhrayı dodaqlarını silirdi.

Axşam yeməyini kirimişcə yeyib stolun arxasından qalxdılar. Panteley Prokofyeviç əmr verdi:

– Çırağı keçirin. Neftimiz azdır, hədər yerə yandırmağın mənası yoxdur.

– Qapını bağlayaqmı? – deyə İliniçna soruşdu.

– Bağla.

– Bəs Natalya necə olsun?

– Gəlsə qapını döyər. Bəlkə səhərədək veyllənəcəkdir? Bu da təzə dəb tapıb... Sən ona bir az çox öyüd-nəsihət eləsən pis olmazdı, ay qoca kaftar! Gör nə əməllər çıxardır: Gecələr qonaq getmək... Mən ona səhər həddini bildirərəm. O da Daryanın yolu ilə gedir...

İliniçna paltarını soyunmadan yatağına uzandı. Yerində səssizcə gah bu, gah o biri böyrü üstə çevrilərək, köks ötürə-ötürə yarım saata qədər uzandı və yenicə yerindən qalxmaq, Kapitonovnanın yanına getmək istəyirdi ki, bayırda kimin isə ayaqlarını qorxa-qorxa ataraq sürüyə-sürüyə yaxınlaşdığını eşitdi. Qarı o yaşda adamlarda görünməmiş bir cəldliklə yerindən dik atıldı, tez dəhlizə yüyürdü və qapını açdı.

Sifəti ölü sifəti kimi ağarmış Natalya pilləkənin sürahisindən yapışa-yapışa çox çətinliklə artırmadan yuxarıya çıxırdı. On dörd gecəlik ay onun arıqlamış üzünü, çuxura düşmüş gözlərini, əzab-əziyyətdən əyilmiş qaşlarını aydınca işıqlandırırdı. O, ağır yaralanmış vəhşi kimi yırğalana-yırğalana yeriyir, ayaqlarını atdığı yer uzunu torpaqda tünd qanlı ləkələr qalırdı.

İliniçna onu dinməzcə qucaqladı, otağa gətirdi. Natalya dalını qapıya söykədi, xırıltılı səslə pıçıldadı:

– Hamı yatıb? Anacan, yerə damcılamış qanı silin... Görürsünüzmü, bunları mən eləmişəm...

İliniçna az qaldı hönkürtü ilə ağlasın, amma özünü toxtatdı, yavaşca hayqırdı:

– Gör başını nə yaman bəlaya saldın?!

Natalya gülümsəmək istədi, lakin bir şey çıxmadı, üzü büzüşdü, daha da eybəcər bir şəklə düşdü.

– Haray-dad salmayın, anacan... Yoxsa adamları oyadarsınız... Uşağı saldırdım. İndi ürəyim sakitdir. Amma məndən yaman qan gedir... Başı kəsilmiş heyvan kimi... Əlini mənə ver, anacan... Başım hərlənir.

İliniçna cəftəni keçirdi, titrək əli ilə qapının dəstəyini qaranlıqda xeyli axtardı, elə bil yad evində idi. Ayaqlarının ucunu yerə basaraq, Natalyanı böyük otağa gətirdi; Dunyaşkanı oyatdı, Daryanı çağırmağa göndərdi, çırağı yandırdı.

Mətbəxin qapısı açıq idi, buna görə də oradan Panteley Prokofyeviçin müntəzəm, bərk xorultusu eşidilirdi; balaca Polyuşka ağzında şirni varmış kimi yuxuda dodaqlarını marçıldadırdı. Qayğısız uşaq yuxusu çox şirin olur!

İliniçna balışı çırpana qədər Natalya taxtın kənarında oturdu, taqətdən düşdüyü üçün başını stolun qırağına söykədi. Dunyaşka istədi otağa girsin, amma İliniçna sərt bir şəkildə ona dedi:

– Rədd ol, ay həyasız, buralarda görsənmə! Sənə aid iş yoxdur.

Qaşqabağı yerlə gedən Dunyaşka yaş əsgini götürdü, yan otağa getdi. Natalya başını güclə qaldırdı, dedi:

– Çarpayının üstündəki təmiz paltarı götürün... Altıma təkcə palaz salın... Fərqi yoxdur, hamısını bulayacağam...

– Kəs səsini! – deyə İliniçna əmr etdi. – Soyun, yerinə uzan. Halın xarabdır? Gedim su gətirim?

– Yaman zəifləmişəm... Mənə təmiz köynək və su gətirin.

Natalya güclə yerindən qalxdı, ayaqları bir-birinə dolaşa-dolaşa çarpayıya yaxınlaşdı. İliniçna yalnız indi gördü ki, Natalyanın hər tərəfi qana bulaşmış yubkası ağır bir şey kimi sallanır, baldırlarına yapışır. Bərk yağışa düşmüş adam kimi Natalya əyilib yubkasının ətəyini sıxanda, paltarını soyunanda, İliniçnanı dəhşət bürüdü. Hıçqıraraq dedi:

– Ay qız, səni qan aparır ki!

Natalya gözlərini yumaraq, tövşüyə-tövşüyə paltarını soyundu. İliniçna gəlininin üzünə bir də baxdı və qətiyyətlə mətbəxə getdi. O, Panteley Prokofyeviçi çətinliklə silkələyib oyatdı, dedi:

– Natalya naxoşlayıb... Əhvalı çox pisdir, sonra birdən ölər... Bu saat atları qoş, get stanitsadan feldşeri gətir.

– Ay özündən hoqqa çıxardansan ha! Axı ona nə olmuşdur? Naxoşlamışdır? Onda qoy gecələr az veyllənsin...

Qarı əhvalatı ona qısaca başa saldı. Özündən çıxmış Panteley Prokofyeviç dik atıldı; şalvarının qabağını yeriyə-yeriyə bağlayaraq otağa getdi.

– Ah, alçaq! Ah, itin balası! Bu nə oyundur başımıza açırsan, hə?.. Məcburiyyət onu vadar etmişdir... Mən bu saat onun ağlını başına yığaram!

– Gicləşmisən, ay məlun? Hara soxulursan? Getmə ora, səni dinləməyə halı yoxdur!.. Uşaqları oyadarsan! Həyətə get, həm də atları tez qoş!.. – İliniçna qocanın qabağını kəsmək, onu otağa buraxmamaq istəyirdi, amma Panteley Prokofyeviç ona etina etmədi, otağın qapısına yaxınlaşdı, bir təpiklə onu açdı. Kandarda durub bağırdı:

– Başımızı bəlaya saldın, dinc əldinmi, şeytan toxumu!

Natalya əynindən çıxardığı köynəyin sinəsinə basaraq zəif çıxan səsi ilə gücü gəldiyi qədər bağırdı:

– Gəlmə! Dədə, içəri girmə! Sən Allah gəlmə!

Panteley Prokofyeviç söyə-söyə kürkünü, furajkasını, qoşqu ləvazimatını axtarmağa başladı. Kişi o qədər ağır tərpənirdi ki, axırda Dunyaşka davam gətirmədi, darıxıb mətbəxə girdi, doluxsunmuş halda atasının üstünə çığırdı:

– Tez ol, yola düş! Pıspısı peyində qurdalanan kimi, nə çox qurdalanırsan! Nataşka orada ölür, amma bu bir saatdır hazırlaşır, hələ də hazır deyil! Bir buna baxın! Bu da bizim atamız! Əgər getmək istəmirsənsə, açıqca de! Özüm arabanı qoşub gedərəm!

– Tfu sənin üzünə! Zəncirini qırmısan, nədir? Qotur azarımız çatışmırdı, o da böyürdən çıxdı! Gör atasının üstünə necə təpinir, əclaf! – Panteley Prokofyeviç kürkü qaldırdı ki, qızın təpəsinə çırpsın; o, Dunyaşkaya dodağının altında lənətlər yağdıraraq eşiyə çıxdı.

O çıxıb gedəndən sonra evdə hamı özünü sərbəst hiss etdi. Darya tez qeyzlə stulları, taxtı o yan-bu yana itələyərək, döşəməni yudu; atası getdikdən sonra otağa girməyə icazə verilmiş Dunyaşka, Natalyanın çarpayısının baş tərəfində stulda əyləşmişdi; onun balışını düzəldir, su istəyəndə su verirdi. İliniçna təkdənbir yan otaqda yatışmış uşaqların yanına gedir, onlara baş çəkib gəlir, əlini yanağına söykəyərək başını dərdli-dərdli yırğalayır, uzun-uzadı gəlininin üzünə baxırdı.

Natalya yatağında kirimişcə uzanmışdı, tərdən islanmış, saçları pırtlaşmış başını balışda gah bu, gah da o tərəfə qoyurdu. Ondan yaman qan gedirdi. Hər yarım saatdan bir İliniçna onu ehmalca qucaqlayıb azacıq qaldırır, qana bulaşmış əsgiləri götürür, yerinə təzəsini salırdı.

Saatbasaat Natalya zəifləyirdi. Gecə yarı olanda gözlərini açıb soruşdu:

– Səhərin açılmağına azmı qalmışdır?

– Hələ çox qalır, – deyə qarı onu sakit elədi, öz aləmində isə belə mülahizə elədi: "Deməli səhərə çıxmayacaqdır! Huşunu itirə biləcəyindən, uşaqları ilə görüşə bilməyəcəyindən qorxur..."

Qayınanasının xəyalından keçəni təsdiq edirmiş kimi, Natalya yavaşca ona dedi:

– Anacan, get Mişatka ilə Polyuşkanı oyat...

– Nəyinə gərəkdir, qadan alım! Gecənin bu vaxtında onları niyə oyadaq? Onlar üzünə baxan kimi qorxarlar, qışqırışarlar... Durğuzmağın nə mənası var!

– Onların üzünə doyunca baxmaq istəyirəm... Əhvalım xarabdır.

– Allah köməyində dursun, qızım, nələr danışırsan? Bu saat dədən feldşeri gətirər, o da sənə kömək edər. Gəlsənə bir az yatasan, hə?

– Heç mənim yatmaq məqamımdır! – deyə səsində xəfif bir pərtlik duyulan Natalya söyləndi. Bundan sonra o, uzun zaman dinmədi, müntəzəm nəfəs almağa başladı.

İliniçna səssizcə artırmaya çıxdı, gözlərinin yaşını sel kimi axıtdı. O, qayıdıb otağa gələndə üzü qıpqırmızı olmuş və şişmişdi. Bu zaman gün doğan tərəfdə dan yeri yenicə ağarırdı. Qapı cırıldayanda, Natalya gözlərini açdı, təkrar soruşdu:

– İşıqlaşana çoxmu qalır?

– İşıqlaşır.

– Kürkü gətirin, ayaqlarımın üstünə salın...

Dunyaşka qalın kürkü gətirib onun ayaqlarının üstünə saldı, yan tərəflərdən sallanan qalın yorğanın qıraqlarını içəri qatladı. Natalya baxışları ilə razılıq elədi, sonra İliniçnanı yanına çağırıb dedi:

– Anacan, gəl yanımda otur; Dunyaşka, sən də, Darya, sən də, bir hovurluğuna eşiyə çıxın, mənim anama sözüm var... Onlar çıxdılarmı? – deyə hələ də gözlərini açmamış Natalya soruşdu.

– Getdilər.

– Hələ dədəm gəlməyib?

– Tezliklə gələr. Sənin əhvalın daha da pisləşir, yoxsa?

– Yox, bunun fərqi yoxdur... Bax, sənə bunu demək istəyirdim... Mən tezliklə öləcəyəm, anacan... Ürəyimə dammışdır. Heç bilirsən məndən nə qədər qan gedib – hədsiz! Siz Daşkaya tapşırın ki, sobanı

qaladıqda mümkün qədər çoxlu su qızdırsın... Xahiş edirəm, mənim meyitimi özünüz yuyasınız, başqalarının yumasını istəmirəm...

– Natalya! Elə demə, başına dönüm! Niyə ölümdən danışırsan! Allah mərhəmətlidir, sənə rəhm edər, yaxşı olarsan!

Natalya zəif əl hərəkəti ilə qayınanasından dinməməsini rica edərək dedi:

– Xahiş edirəm ki, sözümü kəsməyəsiniz... Bu saat danışmağa da çətinlik çəkirəm, amma mən söz demək istəyirəm... Yenə də başım hərlənir. Mən sizə bu barədə bir şey deməmişəm ki? Deməli mən güclüyəmmiş... Kapitonovna mənə dediyim suyu günortadan yeridibdir, onun yanına gələn kimi... Yazıq arvad özü də yaman qorxuya düşdü... Ah, məndən nə qədər qan getmişdir... Kaş səhərədək sağ qala biləydim... Suyu mümkün qədər çox qızdırın... Öləndə təmiz olmaq istəyirəm... Dəfndən əvvəl, anacan, yaşıl yubkamı, o büzməsinin üstü naxışlını əynimə geyindirin... Mən onu geyinəndə Qrişkanın xoşuna gələrdi... bir də zərif parçadan tikilmiş koftamı... sandıqda üstdə, sağ küncdə, baş şalının altındadır... Mən öləndən sonra isə qoy uşaqları aparıb bizimkilərə versinlər... Yaxşı olardı ki, anamın dalınca adam göndərəsən, qoy gəlsin, görüşsün... Mən hamı ilə vidalaşmalıyam... Altımdakıları dəyişin. Hamısı yaşdır...

İliniçna bir qolunu Natalyanın belinə dolayaraq onu azacıq qaldırdı, altındakı əsgiləri çəkib çıxartdı, birtəhər yenisini qoydu. Natalya pıçıldadı:

– Məni... böyrü üstə çevirin! – Bunu deyə kimi də huşunu itirdi...

Pəncərələrdən içəriyə mavi səhər işığı süzüldü. Dunyaşka küpəni yudu, inəkləri sağmağa getdi. İliniçna pəncərələri taybatay açdı, havası təzə qan qoxusu, çıraqdan çıxan neft iyi ilə ağırlaşmış otağa yay səhərinin adamı dirçəldən saf və kəskin sərinliyi doldu. Yel albalı yarpaqlarının üstündəki şeh damlalarını silkələdi, pəncərənin taxtası üzərinə səpələdi; ilk quş civiltiləri, inəklərin mələşməsi, naxırçının qamçısının şaqqıltısı eşidildi.

Natalyanın huşu başına gəldi, gözlərini açdı, dilinin ucu ilə qurumuş, qanı qaçmış, sapsarı dodaqlarını yaladı, su istədi. O daha nə uşaqları, nə də anası barədə heç nə soruşmurdu, hər şey ondan uzaqlaşır və ehtimal ki, əbədi olaraq uzaqlaşırdı...

İliniçna pəncərəni örtdü, çarpayıya yaxınlaşdı. Ah, bir gecənin ərzində Natalya nə qədər dəyişmişdi! Bir gün əvvəl o çiçəkləmiş

cavan alma ağacı kimi gözəl, sağlam və güclü idi, indi isə yanaqları Don irəmələrindəki tabaşirdən də ağ idi, burnu nazilib biz kimi şiş olmuşdu, dodaqlarındakı bayaqkı təravətdən əsər-əlamət qalmamış, bir az nazilmişdi, elə bil ki, geniş açılmış ağzında dişlərinin üstünü örtə bilmirdi. Natalyanın əvvəlki kimi yalnız gözləri işıldayırdı, lakin bu gözlərdəki ifadə bambaşqa şey idi. İzahedilməz bir ehtiyacla, itaətlə, göyərmiş göz qapaqlarını hərdənbir qaldırıb gözlərini otağa zilladikdə onun nəzərlərində indi nə isə yeni, biganə və qorxunc ifadə görünməkdə idi...

Günəş doğanda Panteley Prokofyeviç qayıdıb gəldi. Gözlərindən yuxu tökülən, tif xəstəliyinə tutulanlara və yaralılara baxmaqdan təngə gəlmiş, necə gecələrlə yuxusuz qalmış, əldən düşmüş feldşer gərnəşərək arabadan düşdü, oturacaq yerindən bir düyünçə götürüb evə doğru yönəldi. Artırmaya çatanda brezent yağmurluğu əynindən çıxartdı; məhəccərin üstündən əyilərək tüklü əllərini xeyli sabunladı, gözlərinin altı ilə əlinə bardaqdan su tökən Dunyaşkaya baxdı, hətta ona iki dəfə də göz vurdu. Sonra otağa girdi, əvvəlcə hamını otaqdan bayıra çıxardaraq, Natalyanın yanında on dəqiqəyə qədər qaldı.

Panteley Prokofyeviç ilə İliniçna mətbəxdə oturmuşdular.

Ər-arvad otaqdan çıxan kimi qoca tez pıçıltı ilə əhval bilmək üçün dedi:

– Hı, necədir?

– Pisdir...

– O bu işi özbaşınamı eləmişdir?

– Öz ağlına gəlmişdir... – deyə İliniçna başdansovdu cavab verdi.

Feldşer tükləri pırtlaşmış başını qapıdan bayıra çıxarıb dedi:

– Tez isti su hazırlayın!

Su qaynadılıncaya qədər feldşer mətbəxə gəldi.

Qocanın gözlərindəki sualı gördükdə ümidsiz bir hərəkətlə əlini yellətdi:

– Günortaya kimi sağ qalar. Çox qan itirib. Ona heç bir əlac yoxdur! Bu barədə Qriqori Panteleviçə xəbər vermisinizmi?!

Panteley Prokofyeviç suala cavab vermədi, axsaya-axsaya tez dəhlizə yönəldi. Darya gördü ki, qoca getdi, mərəyin çardağı altında otbiçən maşının dalında yerə çökdü, başını quru təzək tığına söykəyib uşaq kimi hönkür-hönkür ağladı...

Feldşer yarım saat da qaldı, artırmada əyləşdi, doğan günəşin şüaları altında bir az da mürgülədi, samovar qaynayanda bir də otağa keçdi, Natalyaya kamfora iynəsi vurdu, bayıra çıxdı, süd istədi. Əsnəməsini çətinliklə dayandırıb, iki stəkan süd içdi və dedi:

– Siz bu saat məni geriyə, stanitsaya aparın. Orada yaralılarla xəstələr yolumu gözləyir, həm də ki, mənim burada qalmağımın bir xeyri yoxdur. Əlac yoxdur. Qriqori Panteleviçə səmimi-qəlbdən qulluq eləmək istərdim, amma düzünü deməliyəm: iş işdən keçib, kömək edə bilmərəm. Biz balaca adamlarıq: biz yalnız xəstələri müalicə edirik, ölüləri diriltməyi isə hələ öyrənməmişik. Sizin bu gəlini elə hala salıblar ki, yaşamağına imkan qalmamışdır... Uşaqlığını parça-parça eləyiblər, bir tikə də sağ yeri qalmamışdır. Bunu edən qarı, görünür, dəmir qarmaqla iş görmüşdür. Hamısı avamlığımızın nəticəsidir, olacağa çarə yoxdur!

Panteley Prokofyeviç arabaya ot atıb Daryaya dedi:

– Onu stanitsaya sən apar. Dona çatanda, yadından çıxmasın, madyanı sula.

Qoca feldşerə pul vermək istədi, amma feldşer qətiyyətlə rədd etdi, qocanı məzəmmətlədi:

– Ayıbdır, Panteley Prokofyeviç, sən gərək bu barədə heç danışmayaydın. Sən özümüzünküsən, amma mənə pul təklif edirsən. Yox, yox almaram, heç yaxın da gəlmə! Yaxşılığımdan necə çıxasan? Heç danışmağa dəyməz! Əgər mən sizin gəlini yaxşı eləyib ayağa qaldırmış olsaydım, bu başqa məsələ olardı.

Səhər saat altıya yaxın Natalya özünü xeyli yaxşı hiss etdi. O su istədi, əlini-üzünü yudu, Dunyaşkanın əlindən tutduğu güzgüyə baxıb saçlarını daradı, qeyri-adi görünən sevinc dolu baxışları ilə ailə üzvlərini süzərək zorla gülümsədi:

– Hə, daha yaxşılaşmağa başlayıram! Amma düzü yamanca qorxmuşdum... Elə güman edirdim ki, hər şey bitmişdir, axır nəfəsimdir... Uşaqlar niyə bu qədər çox yatırlar? Dunyaşka, bir get bax gör oyanmayıblar ki?

Lukiniçna qızı Qripaşka ilə gəldi. Qarı qızına baxan kimi ağladı, lakin Natalya yeyin-yeyin və həyəcanla danışıb onu toxtatdı:

– Nə var, ay ana, niyə ağlayırsan? Mənim əhvalım o qədər də pis deyil... Siz ki, məni dəfn etməyə gəlməmisiniz? Hə, düzünü deyin görək niyə ağlayırsınız?

Qripaşka yavaşca anasını dümsüklədi; o da mətləbi başa düşdü, tez gözlərinin yaşını sildi, qızını sakitləşdirərək dedi:

– Neyləyim, ay bala, səni gördüm, axmaqlığımdan gözlərim yaşardı. Üzünə baxan kimi ürəyimin başına od düşdü... Sən çox dəyişmisən...

Mişatkanın səsi, Polyuşkanın qaqqıltısını eşitdikdə Natalyanın yanaqlarında xəfif bir qızartı göründü. Xahiş elədi:

– Onları çağırın bura gəlsinlər! Tez olun çağırın! Paltarlarını sonra geyinərlər...

Əvvəlcə otağa Polyuşka girdi, kandarda dayandı, balaca yumruğu ilə yuxulu gözlərini ovuşdurmağa başladı.

Natalya gülümsünərək dedi:

– Anacığazın naxoşlayıb, bala. Yaxına gəl, qurbanın olum!

Polyuşka taxtın üstündə ədəblə əyləşmiş yaşlı adamlara təəccüblə baxdı; anasına yaxınlaşanda qüssəli bir səslə dedi:

– Bəs məni niyə durğuzmurdun? Bu adamlar buraya nəyə yığışıbdır?

– Onlar məndən əhval bilməyə gəliblər... Səni isə mən nədən ötəri durğuzmalı idim ki?

– Durğuzsaydın sənə su gətirərdim, yanında oturardım...

– Elə isə get əlini-üzünü yu, saçlarını dara, Allaha dua elə, sonra gəl, yanımda otur.

– Səhər yeməyi zamanı sən yatağından duracaqsanmı?

– Bilmirəm. Deyəsən yox.

– Onda mən sənin xörəyini buraya gətirərəm, yaxşımı, anacan?

– Elə bil atasının özüdür, bircə ürəyi onunkuna oxşamır, nisbətən yumşaqdır... – Natalya bunları zəif bir təbəssümlə dedi, başını balışa söykədi və üşüyən adamlar kimi yorğanı ayaqlarının üstünə çəkdi.

Bir saatdan sonra Natalyanın əhvalı qarışdı. O, barmağı ilə işarə edərək uşaqları yanına çağırdı, bir-bir bağrına basdı, xeyir-dua verdi, üzlərindən öpdü və anasından xahiş etdi ki, uşaqları öz evinə aparsın. Lukiniçna uşaqları aparmağı qızı Qripaşkaya tapşırdı, özü isə qızının yanında qaldı.

Natalya gözlərini yumdu, huşsuzluq aləmində imiş kimi dedi:

– Deməli mən onu bir də görməyəcəyəm... – Sonra, birdənbirə nəyi isə xatırlayaraq, tez yatağında azacıq dikəldi. – Mişatkanı bura gətirin!

Gözləri yaşlı Qripaşka Mişatkanı anasının otağına saldı, özü isə mətbəxdə qaldı, həzin-həzin bacısı Natalyanı oxşamağa başladı.

Qaşqabaqlı, nəvazişə biganə, Melexov baxışlı Mişatka çəkinəçəkinə çarpayıya yaxınlaşdı. Anasının üzündəki kəskin dəyişiklik onu yad, tanınmaz bir adam şəklinə salmışdı. Natalya oğlunu dartdı, özünə doğru çəkdi, Mişatkanın balaca ürəyinin tutulmuş sərçə kimi yeyin-yeyin çırpındığını hiss etdi. Natalya xahiş elədi:

– Mənə tərəf əyil, oğlum! Bir az da yaxın gəl!

O, Mişatkanın qulağına nə isə pıçıldadı, sonra özündən kənar elədi, imtahan edircəsinə gözlərinin içinə baxdı, titrəyən dodaqlarını büzdü və yazıq-yazıq gülümsünərək soruşdu:

– Yadından çıxmaz ki? Deyəcəksənmi?

– Yadımdan çıxmaz... – Mişatka anasının şəhadət barmağından yapışdı, isti ovucu arasında sıxdı, bir dəqiqəyə qədər saxladıqdan sonra buraxdı. Çarpayıdan uzaqlaşdıqda, nədənsə ayaqlarının ucunu yerə basa-basa, yerişini qolları ilə tarazlayaraq getdi...

Natalya oğlu qapıdan çıxıncaya qədər onun dalınca baxdı, sonra kirimişcə üzünü divara çevirdi.

Günortaçağı o vəfat etdi.

XVII

Qriqori cəbhədən doğma xutora gələnədək keçən iki gün ərzində çox şey fikirləşdi, çox şey xatırladı... Çöldə başına gələn müsibəti yalqızlıqda düşünməmək üçün, xəyalından bir an belə olsun çıxmayan Natalyanın dərdindən dəli olmamaq üçün o, Proxor Zıkovu da özü ilə apardı. Bölüyün dayandığı yerdən aralaşan kimi, Qriqori müharibədən söhbətə başladı. Avstriya cəbhəsində 12-ci polkda necə xidmət etdiyini, Rumıniyaya necə getdiyini, almanlarla necə vuruşduqlarını söylədi. O ara vermədən danışır, polklarındakı adamların başlarına gəlmiş gülməli əhvalatları nağıl edir, gülürdü...

Sadəlövh Proxor əvvəlcə heç nə başa düşməyib tərs-tərs Qriqorinin üzünə baxır, onun həddindən artıq danışqanlığına təəccüb edirdi; sonra isə, nəhayət başa düşdü ki, Qriqori uzaq keçmişdə baş vermiş bu əhvalatları danışmaqla ağır fikirlərdən qaçmaq istəyir; bundan sonra o da danışığa qoşuldu, hələ bir az da artıq səy göstərdi.

Proxor vaxtilə Çerniqov hərbi xəstəxanasında yatdığı zaman başına gələnləri bütün təfsilatı ilə danışanda təsadüfən Qriqorinin üzünə baxdı, onun qarabuğdayı yanaqlarından sel kimi göz yaşı axdığını gördü... Proxor ehtiram üçün ondan bir neçə sajın geri qaldı, yarım saat atını arxadan sürdü, sonra yenə də atını onunla yanaşı sürdü, kənar, heç bir əhəmiyyəti olmayan bir məsələ barədə söhbətə başlamaq istədi, lakin Qriqori söhbətə qoşulmadı. Onlar beləcə, kirimişcə, yanaşı, üzəngi-üzəngiyə günortayadək at sürdülər.

Qriqori yaman tələsirdi. Havanın bürkülü olmasına baxmayaraq, o, atını gah çapır, gah yortma yerişlə sürür, yalnız təkdənbir yavaş gedirdi. Yalnız günəş günorta yerinə qalxanda, onun tilinə enən şüalar bir şeyi qarsıb qovuranda Qriqori bir dərədə dayandı, atın yəhərini aldı, otlamağa buraxdı, özü isə sərinliyə çəkildi, üzüqoylu yerə sərildi və ta isti azalana qədər yerindən tərpənmədi. Onlar bir dəfə atlara vələmir vermişdilər, amma Qriqori müəyyən edilmiş fasiləni pozdu. Hətta onların uzun yola alışmış atları da bircə gündə xeyli arıqladı, yola çıxanda oynaqlayaraq həvəslə yeridikləri halda indi halları dəyişmişdi. Proxor vəziyyəti belə görüb öz aləmində fikirləşirdi: "Bu gedişlə atları tələf etmək çox da çətin deyil. Kim atı belə sürür? Bu məlunun nə vecinə, atı ölsə, istədiyi zaman beli yəhərli başqa bir at da tapar, bəs mən haradan alaram? Atları çatladarsa bu qədər uzaq yoldan düz Tatarskiyədək ya piyada getməli olacağıq, ya da at kirələmək lazım gələcəkdir!"

Ertəsi günün səhəri Fedoseyevskaya stanitsası xutorlarından birinin yaxınlığında Proxorun səbri tükəndi, davam gətirməyib Qriqoriyə dedi:

– Elə bil sən heç ömründə mal-heyvan görməmisən... Kim bu cür, dincəlmədən, gecəli-gündüzlü at sürür? Bir atlara bax, gör necə əldən düşüblər?! Gəl heç olmasa, bu axşamçağı onları əməlli-başlı yemləyək.

– Sür, geri qalma, – deyə Qriqori dalğın halda cavab verdi.

– Mən sənə çata bilmirəm, mənim atım yerimir. Gəlsənə dincələk, hə?

Qriqori dinmədi. Onlar atlarını yarım saat da dinib-danışmadan bərk sürdülər; sonra Proxor qətiyyətlə dedi:

– Qoysana atlarımız bir az dincəlsin! Bu cür mən daha gedə bilmərəm! Eşidirsənmi?

– Dəhmərlə atını, dəhmərlə!

– Nə vaxtadək dəhmərləyim? Dırnaqları qopub düşənə qədər?

– Danışma!

– İnsaf elə, Qriqori Panteleviç! Mən istəmirəm atımın beli yağır olsun, amma deyəsən, belə getsə elə də olacaqdır...

– Yaxşı, dayanaq, səni görüm lənətə gələsən! Bax gör harada yaxşı ot var!

Qriqoriyə göndərilmiş teleqram onu tapmaq üçün Xopersk mahalının stanitsalarında əldən-ələ ötürüldüyü üçün sahibinə çox gec çatdırılmışdı... Qriqori evlərinə Natalya dəfn olunandan üç gün sonra çata bildi. Küçə qapısında atdan düşdü, evdən ağlaya-ağlaya qarşısına yüyürən Dunyaşkanı tələsik bağrına basdı, qaşqabağı sallanmış halda xahiş elədi:

– Atı apar, yaxşıca gəzdir... həm də çığır-bağır salma! – Sonra dönüb Proxora dedi: – Sən də evinə get, lazım olsan çağırtdıraram.

İliniçna Mişatka ilə Polyuşkanın əlindən yapışdı, oğlunu qarşılamaq üçün artırmaya çıxdı.

Qriqori uşaqlarının hər ikisini qucağına götürdü, titrək səsi ilə dedi:

– Qışqırışmayın! Ağlaşmayın! Mənim əzizlərim! Deməli, yetim qaldınız? Anan bizə vəfasız çıxdı...

Amma özü hönkürtüsünü zorla saxlayırdı; o, evə girib atası ilə görüşdü.

– Saxlaya bilmədim... – deyə Panteley Prokofyeviç səsləndi və o dəqiqə axsaya-axsaya dəhlizə yönəldi.

İliniçna Qriqorini otağa apardı, Natalyanın macərasını uzun-uzadı danışdı. Qarı hər şeyi bildirmək istəmirdi, amma Qriqori ona sual verdi:

– Onun doğmaq istəməməsinin səbəbi nə imiş, bilmirsən?

– Bilirəm.

– Hə, nə imiş?

– Bu əhvalatdan bir az əvvəl Natalya sənin adamının yanına getmişdi... Aksinya hər şeyi açıb ona söyləmişdir...

– Aha... bu imiş? – Qriqorinin sifəti yamanca pörtdü, başını aşağı saldı.

Otaqdan çıxanda o qocalmış, rəngi tamam ağarmışdı; gömgöy olmuş titrək dodaqları tərpənə-tərpənə keçib stolun arxasında

əyləşdi, uşaqlarının hərəsini bir dizinin üstünə qoyub, onları xeyli vaxt əzizlədi, sonra isə yan çantasından toza bulaşmış bir parça qənd çıxartdı, qəndi ovcunun içində bıçaqla iki parça elədi, təqsirkar adam kimi gülümsünərək dedi:

– Bu da sizin sovqatınız... Sizin belə atanız var, bax... hə, indi həyətə yüyürüşün, babanızı çağırın.

– Qəbir üstünə gedəcəksənmi? – deyə İliniçna soruşdu.

– Macal tapıb sonra gedərəm... Ölülər belə şeydən incimirlər... Anaları öləndə Mişatka, Polyuşka neylədilər? Bir şey olmadı ki?

– Birinci günü hər ikisi qışqırırdı, xüsusən, Polyuşka... İndi isə sözləşibmişlər kimi, bizim yanımızda onun adını da çəkmirlər, amma bu gecə Mişatka həzin-həzin ağlayırdı... Səsi çıxmasın deyə başını balışın altına soxmuşdu... Yaxınlaşdım, soruşdum: "Nə var, qadan alım? İstəyirsən, gəl mənim yanımda yat, gəlirsənmi?" O isə dedi: "Bir şey yoxdur, nənəcan, yəqin yuxuda ağlamışam..." Sən onları danışdır, əzizlə. Dünən səhər gördüm öz aralarında danışırlar, Polyuşka qardaşına deyirdi: "Anam qayıdıb evimizə gələcəkdir. O, hələ cavandır, cavanlar isə heç vaxt ölmürlər". Özləri hələ uşaqdırlar, amma balaca ürəkləri böyüklərinki kimi ağrıyır... Sən yəqin acsan, hə? Bu saat sənə yeməyə bir şey hazırlayıb verərəm, niyə dillənmirsən?

Qriqori otağa girdi. Buraya ilk dəfə girirmiş kimi divarları diqqətlə gözdən keçirdi, nəzərləri səliqə ilə yığışdırılmış, balışları çırpılmış çarpayıya sataşdı. Natalya bu çarpayının üstündə ölmüş, onun səsi son dəfə burada səslənmişdi... Natalyanın uşaqlarla necə görüşüb ayrıldığı, onları necə öpdüyü, hətta onlara xeyir-dua verdiyi gözləri önündə canlandı; Natalyanın ölümü haqqında teleqramı oxuduqda ürəyinin başı göynədiyi, sancdığı kimi indi də elə bil ürəyinin başına bıçaq soxdular, qulaqları ağır-ağır cingildədi.

Evdə gözəçarpan hər kiçik şey Natalyanı xatırladırdı. Xatirələr silinməz və üzüntülü idi. Qriqori səbəbini özü də bilmədiyi halda bütün otaqları gəzdi və cəld, az qala yüyürə-yüyürə artırmaya atıldı. Ürəyinin başındakı ağrı getdikcə artırdı. Alnını tər bürümüşdü. O artırmadan endi, qorxmuş halda əlini sinəsinin sol hissəsinə qoydu və öz aləmində belə fikirləşdi: "Deməli gördüyüm ağacları çoxdan küləklik üçün kəsiblər..."

Dunyaşka atı həyətdə gəzdirirdi. Anbarın yanında at yüyəni dartışdıraraq dirəndi, torpağı iylədi, boynunu uzadaraq, üst dodağını

qaldırdı, sapsarı dişlərini çərəltdi, sonra fınxırdı və yöndəmsiz bir vəziyyətdə qabaq ayaqlarını qatlamağa başladı. Dunyaşka yüyəni dartdı, amma at onun sözünə baxmayaraq yerə çökməyə başladı.

Panteley Prokofyeviç tövlədən qızının üstünə qışqırdı:

– Qoyma yatsın! Görmürsən yəhərlidir? Niyə yəhərini almamısan, ay Allahın gici?

Qriqori aramla, hələ də sinəsinə fikir verə-verə ata yaxınlaşdı, yəhəri açdı, öz zəifliyinə dov gələrək Dunyaşkanın üzünə gülümsündü:

– Dədən yenə hay-haray salırmı?

– Elə həmişəki kimidir, – deyə Dunyaşka da onun üzünə gülümsündü.

– Bir az da gəzdir, bacı.

– Təri daha quruyub, yaxşı, gəzdirərəm.

– Eşələnmək istəsə, qoy eşələnsin, mane olma.

– Yaxşı, yaxşı, qardaşım... Natalyanın xiffətini eləyirsənmi?

– Bəs sən nə güman edirsən? – deyə Qriqori qəhərdən boğulaboğula cavab verdi.

Dunyaşka qardaşına yazığı gəldiyi üçün onun çiynini öpdü, sonra nəyə görə isə bərk dilxor oldu, tez üzünü kənara çevirdi, atı mal həyətinə apardı.

Qriqori atasının yanına getdi. Qoca səylə tövlənin peyinini kürüyürdü.

– Sənin atına yer hazırlayıram.

– Bunu bəs niyə mənə demədin? Özüm təmizlərdim.

– Sən də söz danışdın! Mənə nə olub bəyəm, acizəm? Mən də, qardaş, çaxmaqlı tüfəng kimi bir şeyəm. Dünyada mənə kardan düşmək yazılmayıb! Hələ ki, canımda qüvvə var, atılıb düşə bilirəm. Sabah ot biçməyə getmək istəyirəm. Sən burada çoxmu qalacaqsan?

– Bir aylığa gəlmişəm.

– Bax, bu çox yaxşı oldu! Birlikdə çölə gedərik, eləmi? İşlərsən, sənin üçün də yüngüllük olar.

– Mən özüm də belə fikirləşmişəm.

Qoca yabanı kənara tulladı, qolu ilə üzünün tərini sildi, səsində məhrəmanə tellər duyuldu:

– Gedək evə, nahar elə. Dərd-qəm bir elə şeydir ki, ondan qaçıb gizlənə bilməzsən... Nə qaçmaqla yaxanı qurtara bilərsən, nə də gizlənməklə. Görünür qəzanın qədəri beləymiş...

İliniçna süfrə saldı, çörək qoydu, təmiz dəsmal verdi. Qriqorinin yenə də yadına düşdü: "Bir zamanlar Natalya ona xörək çəkərdi..." Həyəcanlı olduğunu hiss etməsinlər deyə xörəyini yeyin-yeyin yeməyə başladı. Atası gedib anbardan ağzına ot basılmış bir bardaq cecə arağı gətirdikdə Qriqori onun üzünə dərin hörmət və minnətdarlıqla baxdı. Panteley Prokofyeviç möhkəm səslə dedi:

– Götür içək, mərhumu yada salaq, cənnətlik olsun!

Hərəsi bir stəkan içdi. Qoca dərhal stəkanları bir də doldurdu, köksünü ötürdü:

– Bir il ərzində ailəmizdən iki nəfər rəhmətə getdi... Ölüm qapımızı yaman tanıyıb.

Qriqori xahiş elədi:

– Dədə, gəl bu barədə danışmayaq!

O ikinci stəkanı birnəfəsə içdi, bir parça qaxac balığını xeyli vaxt çeynədi; o bununla çalışırdı ki, araq başına vursun, ondan əl çəkməyən fikri-xəyalı qovsun.

– Çovdar bu il yaxşıdır! Bizim zəmilər isə başqalarınkından tamamilə fərqlənir! – deyə Panteley Prokofyeviç lovğalandı. Qriqori onun bu öyünməsində, sözləri nə kimi bir ahənglə deməsində sünilik, gopçuluq duydu.

– Bəs buğdamız necədir?

– Buğdamızmı? Bir para yerini don vurmuşdur, amma babatdır, otuz beş, qırx pud məhsul götürəcəyik. Qarnovka əkənlərin kefi kökdür, yamanca məhsul var, amma biz tərs kimi ondan əkmədik. Amma mən buna çox da heyifsilənmirəm. Belə tar-marçılar zəmanəsində taxılı harada saxlayacaqsan? Aparıb Paramonov taxıl məntəqəsinə verə bilməyəcəksən, daqqalarda isə saxlaya bilməzsən. Cəbhə buralara yaxınlaşan kimi, yoldaşlar gəlib aparacaqlar, dibinə süpürgə çəkəcəklər. Amma sən fikir eləmə, builki məhsulumuz olmasa da taxılımız iki il bizə çatar. Allaha şükür olsun, daqqalarda da taxılımız var, hələ ayrı yerlərdə də saxlamışıq... – Qoca hiyləgərcəsinə göz vurub dedi: – Sən hələ Daşkadan soruş, desin ki, qara gün üçün nə qədər taxıl gizlətmişik! Hündürlüyü sən boyda, eni qulac

yarım quyunu ağzına qədər taxılla doldurmuşuq! Bu lənətə gəlmiş həyat bizi bir az kasıblaşdırdı, yoxsa biz də beş kişinin biri deyildikmi?.. – Qoca kefli-kefli öz zarafatına güldü, lakin bir az keçəndən sonra saqqalını təşəxxüslə tumarladı və bu dəfə işgüzarcasına, ciddiyyətlə dedi: – Bəlkə sən qayınanangilin dərdini çəkirsən, onda eşit, gör nə deyirəm: mən onu da unutmamışam, ehtiyaclarını nəzərə alıb kömək eləmişəm. O, bu barədə heç ağzını açmamış, ertəsi günü, çəkisiz-ölçüsüz bir araba taxıl apardım. Rəhmətlik Natalya çox razı qaldı, bu işdən xəbər tutan kimi gözləri yaşardı... Gəl oğul, bir stəkan da içək, hə? Mənim bu dünyada ürəyimi şad edən bir adam varsa, o da sənsən...

Qriqori stəkanını ona doğru uzadaraq razılaşdı:

– İçək deyirsən, içək.

Bu zaman Mişatka yanı-yanı və çəkinə-çəkinə stola yaxınlaşdı. Dırmaşıb atasının dizi üstündə oturdu, sol qolunu boynuna salıb yöndəmsiz bir şəkildə onun dodaqlarından marçamarç öpdü.

Qriqori onun göz yaşlarından dumanlanmış uşaq gözlərinin içinə baxdı, cecə arağının iyi onu vurmasın deyə nəfəsini kənara verərək həyəcanlanmış halda soruşdu:

– Nə olub, oğul?

Mişatka yavaşca cavab verdi:

– Anam otaqda yatdığı zaman, hələ onda sağ idi, məni yanına çağırdı, getdim, sənə bu sözləri deməyimi əmr etdi: "Atan gələndə mənim əvəzimdən onu öp, həm də de ki, sizə yazığı gəlsin, əzizləsin". Anam bir neçə söz də dedi, amma yadımdan çıxmışdır...

Qriqori stəkanı stolun üstünə qoydu, üzünü pəncərəyə tərəf çevirdi. Otağı uzun zaman üzüntülü bir sükut bürüdü.

– İçəkmi? – deyə Panteley Prokofyeviç soruşdu.

– İstəmirəm, – deyə Qriqori oğlunu dizinin üstündən düşürdü, ayağa qalxdı, tələsik dəhlizə doğru yönəldi.

– Ay oğul, bir dayan, ətimiz var axı! Bişmiş toyuğumuz da var, nazik yağlı fətir də bişirmişəm, – deyə İliniçna əl-ayağa düşdü, lakin Qriqori artıq qapını örtüb çıxmışdı.

O, həyətdə boş-bekar dolaşdı, mal həyətini, tövləni nəzərdən keçirdi; ata baxdıqda belə düşündü: "Onu çimdirmək lazımdır", – sonra da mərəyin çardağı altına gəldi. Biçinə hazırlanmış maşının böyründə, yerdə şam ağacı qırıntıları, ayaq altına tökülmüş qamqalaq

gördü. Qriqori mətləbi anladı: "Deməli Natalya üçün tabutu atam hazırlamışdır". Sonra tələsik artırmaya doğru addımladı.

Panteley Prokofyeviç oğlunun təkidinə güzəştə gedərək səfərə hazırlaşdı, tez atları taxılbiçən maşına qoşdu, bir çəllək su götürdü; Qriqori ilə birlikdə gecə çölə yola düşdülər.

XVIII

Qriqori təkcə ona görə əzab çəkmirdi ki, Natalyanı o özünə xas bir məhəbbətlə sevirdi, birlikdə keçirdikləri altı illik ər-arvadlıq illərində ona çox öyrəşmişdi, bir də ona görə əzab çəkirdi ki, Natalyanın ölümündə özünü təqsirkar hesab edirdi. Natalya bu qisasını ondan sağlığında alsaydı, yəni uşaqlarının qolundan yapışıb anası evinə getsəydi, xain ərinə kin bəsləyərək əri ilə barışmamış atası evində ölsəydi, güman ki, Qriqori bu itkinin ağırlığını o qədər də hiss etməzdi, peşmançılıq, çox ehtimal ki, onu bu qədər üzməzdi. Lakin Qriqori anasından öyrəndi ki, Natalya onu sevdiyi üçün bütün günahlarından keçmişdir və həyatının son dəqiqələrinədək onu unutmamışdır. Bu da Qriqorinin əzabını artırır, məzəmmətlər ağır bir daş kimi vicdanı üzərinə çökür, keçmişi, o zamankı rəftarlarını təzədən götür-qoy eləməyə vadar edirdi...

Bir zamanlar Qriqori özündə arvadına qarşı soyuq laqeydlikdən, hətta nifrətdən başqa heç nə duymurdu, lakin son illərdə o, Natalyaya qarşı başqa cür münasibət bəsləməkdə idi, arvadı ilə rəftarındakı bu dəyişikliyin başlıca səbəbi uşaqlar idi.

Qriqoridə son zamanlarda uşaqlarına dərin atalıq hissi baş qaldırmışdı, amma əvvəllər onda bundan əsər-əlamət yox idi. O, qısa bir vaxt üçün cəbhədən evlərinə gələndə uşaqlarını mehribanlıqla dindirməyi də, əzizləməyi də bir vəzifə kimi yerinə yetirir, ananın xoşuna gəlsin deyə belə edirdi; canında isə nəinki belə bir ehtiyac duymur, hətta Natalyanın hərəkətlərinə də, ondakı coşqun ana hisslərinə də təəccüb edirdi. O bu balaca, hey qışqırışan körpələrin bu cür fədakarcasına sevilə biləcəyini anlamırdı; Natalya hələ uşaqları əmizdirdiyi aylarda gecələr onun üstünə qışqırır, pərtliklə, rişxəndlə belə deyirdi: "Bu nədir, dəli kimi niyə dik atılırsan? Uşaq hələ qışqırmamış sən ayağa qalxırsan. Qoy lap bərk ağlasın, çığırsın,

nə olar, dünya qara geyməz ki!" Uşaqlar da ona qarşı az laqeyd deyildilər, lakin yekəldikcə atalarına meyilləri artırdı. Uşaq məhəbbəti Qriqoridə də qarşılıqlı duyğuya təkan oldu, bu hiss qığılcım kimi Natalyaya da keçdi.

Aksinya ilə arası dəyəndən sonra Qriqori arvadından aralanmağı heç bir zaman xəyalına belə gətirməmişdi; Aksinya ilə barışandan sonra da heç bir zaman belə bir xəyala düşməmişdi ki, bir zamanlar Aksinya uşaqlarının anası olar. Qriqori onların hərəsini bir cür sevməklə, hər ikisi ilə yaşamağı mümkün hesab edir, bundan əl çəkmirdi, lakin indi arvadı öləndən sonra Aksinyaya qarşı qəlbində bir biganəlik duydu, sonra da aralarındakı sirri açıb söylədiyinə, bununla da Natalyanı ölümə sürüklədiyinə görə Aksinyaya qarşı sonsuz bir kin duydu.

Qriqori çöldə işləməyə getməklə dərdini unutmağa çalışdısa da, xəyalında bu dərddən ayrıla bilmədi. O, saatlarla otbiçən maşından düşmür, taqəti kəsilincəyədək işləyirdi, bununla belə yenə Natalyanı düşünürdü; hafizəsi, Natalya ilə birlikdə keçirdikləri günlərin çoxdan olub keçmiş müxtəlif, hətta çox vaxt əhəmiyyətsiz hadisələrini, söhbətlərini yada salırdı. O, itaətkar hafizəsinin cilovunu bircə dəqiqəliyinə boşlayırdı: canlı, gülərüz Natalya dərhal gəlib gözləri önündə dururdu. Qriqori onun qədd-qamətini, yerişini, saçlarını özünə xas bir əda ilə düzəltməsini, təbəssümünü, səsini xatırlayırdı...

Gəldiklərinin üçüncü günü arpanı biçməyə başladılar. Qriqori günortaçağı, Panteley Prokofyeviç atları dayandıranda, otbiçən maşının dal kürsüsündən hoppanıb düşdü, gödək yabanı maşına tullayaraq dedi:

– Dədə, istəyirəm bir hovurluğuna evə gedəm.

– Nədən ötəri?

– Uşaqları görmək istəyirəm, darıxıram...

– Nə olar, get, – deyə qoca həvəslə razılaşdı. – Sən gəlincə biz də biçdiyimizi xotmanlayarıq.

Qriqori o saat maşından öz atını açdı, mindi, sarı və cod kövşənlə böyük yola sürdü. Natalyanın səsi Qriqorinin qulaqlarında cingildəyirdi: "Atana deyərsən ki, sizə yazığı gəlsin, əzizləsin!" Qriqori gözlərini yumdu, cilovu boşladı, xatirələr aləminə dalaraq, ata istədiyi yolla getməyə imkan verdi.

Tünd mavi səmada küləyin ətrafa yaymış olduğu seyrək buludlar, elə bil tərpənmirdi. Kövşənlərdə dolaşalar yanlarını basa-basa gəzişirdilər. Onlar xotmanların üstünə dəstə-dəstə qonurdular; yaşlı dolaşalar yenicə pərvazlanmış, hələ cəsarətlə, sərbəst uça bilməyən balalarını dimdiklərinə götürdükləri dənlə yemləyirdilər. Taxılı biçilmiş zəmilərdə dolaşa səsindən qulaq tutulurdu.

Qriqorinin atı yolun kənarı ilə getməyə çalışır, arabir yeriyə-yeriyə boynunu uzadıb yerdən xəşəmbül qırpır, onu ağzındakı gəmi dişləyə-dişləyə çeynəyirdi. At iki dəfə dayandı, uzaqda çoxlu at görüb kişnədi və yalnız bu zaman Qriqori xəyaldan ayıldı, ata təpindi; onun gözləri çölə, tozlu yollara, saralan düzlərə, artıq yetişməkdə olan yaşılı-boz darı qurşaqlarına tamaşa edirdisə də heç nə görmürdü, xəyalı başqa aləmdə idi.

Qriqori evlərinə yenicə çatmışdı ki, havanın isti olmasına baxmayaraq, ingilis mahudundan frenç və enli bric geymiş Xristonya onlara gəldi; o, qaşqabaqlı idi. Xristonya təzə yonulmuş göyrüş ağacından qayırdığı dəyənəyə söykənə-söykənə yaxınlaşıb salam verdi.

– Sizdən bir əhval bilmək üçün gəlmişəm. Başınıza gələn müsibəti eşitmişəm. Deməli Natalya Mironovnanı dəfn etdiniz?

– Sən cəbhədən nə cür olub ki, gəlmisən? – deyə Qriqori soruşdu; özünü elə tox tutdu ki, guya ona verilmiş sualı eşitmədi, Xristonyanın yekəpər, bir qədər donqarlaşmış gövdəsinə həzz ilə tamaşa elədi.

– Yaralanandan sonra evə buraxdılar ki, yaxşılaşım. Qarnıma bir-birinin dalınca iki güllə girmişdir. Bu vaxtadək də orada, bağırsaqlarımın arasında qalmışdır; zəhrimar ilişib çıxa bilmir. Bunun ucbatından da əsa ilə gəzirəm. Görürsənmi?

– Səni harada bu cür korlayıblar?

– Balaşov tərəfdə.

– Oranı aldınızmı? Bəs necə oldu ki, sənə güllə dəydi?

– Hücuma keçmişdik. Deməli Balaşovu da aldıq, Povorinonu da aldıq. Mən aldım.

– Yaxşı, bir söylə görək, kiminlə birlikdə qulluq edirsən, hansı hissədəsən, bizim yerlilərdən yanında kim var? Otur, bu da tütün!

Qriqori evə təzə bir adamın gəlməsinə, kənar şeylərdən söhbət eləmək imkanı əldə etməsinə sevindi. Xristonya özü də bir az ağıllı tərpəndi, başa düşdü ki, onun dil-ağız eləməsinə Qriqorinin ehtiyacı

yoxdur; buna görə də Balaşovun alınması, özünün yaralanması əhvalatlarını həvəslə, amma yavaş-yavaş nağıl etməyə başladı. O, iri papirosunu tüstülədə-tüstülədə, səsi guruldaya-guruldaya dedi:

– Biz piyada sıraları ilə günəbaxanların arası ilə irəliləyirdik. Onlar bizim üzərimizə pulemyotlardan və toplardan, bir də məlum işdir ki, tüfənglərdən atəş açırdılar. Mən də bildiyin kimi gözə tez çarpanam, sırada yeriyirəm, elə bil toyuqların arasında qaz yeriyir; bəli, elə buna görə də onların atdığı güllələr axırda məni tapdı. Bu da böyük xoşbəxtlikdir ki, boyu uca adamam, bir az gödək olsaydım, güllə düz kəlləmə dəyəcəkdi! Düzdür, güllələr uzaqdan atılırdı, amma, deməli, qarnıma elə təpildilər ki, içərimdə hər şey qarışdı, hər biri də sobadan indicə çıxarılmış kimi yamanca isti idi... Əlimi güllələr girən yerə basdım, hiss etdim ki, ikisi də içəridədir, dərimin altında bir-birindən azacıq aralı piy qatı kimi tərpənir. Bəli, mən onları hövkələdim və deməli, yıxıldım. Fikirləşdim: "ox, bu, sarsaq zarafatdır, cəhənnəm olsun belə zarafat! Uzansam yaxşıdır, yoxsa başqa bir güllə, bir havayı güllə vıyıltı ilə gələr, bu yanımdan girib o yanımdan çıxar. Deməli, dediyim kimi də elədim, uzandım. Nə qədər istədim güllələrə əlimi vurmayım, amma dinc durmadım, onları qurdaladım. Hiss elədim ki, ikisi də orada, içərimdə bir-birinin yanındaca durmuşdur. Bir də fikirləşəndə yamanca qorxdum: onlar dərinin altından qarnımın içinə düşsələr onda halım necə olar? Bağırsaqlarımın arasına girsə, doktorlar onları necə axtarıb taparlar? Başıma nə oyunlar açılmaz? İnsan bədəni, o cümlədən mənimki, yumşaq bir şeydir, gülləciklər yeriyə-yeriyə gedib lap o yoğun bağırsağa çatacaq. Bundan sonra poçt zınqırovu kimi dınqıldaya-dınqıldaya gəz. Hər şey tamam korlanacaq. Yerdə uzanmışdım, bir günəbaxanın başını qopardıb tumunu çırtlayırdım, amma vahimədə idim. Bizim hücuma atılmış sıralarımız uzaqlaşmışdı. Həmin dediyim Balaşovu alan kimi, məni də oraya yolladılar. Tişanskayada hərbi xəstəxanada yatdım. Orada sərçə kimi çevik bir həkim var idi. Məni hey dilə tuturdu: "Gəl qarnını yaraq, güllələri çıxardaq, razısanmı?" Amma mənim ağlım başımda idi... Sonra soruşdum: "Cənab, güllələr irəliləyib qarnıma dola bilərmi?" "Yox, – dedi, – qarnına girə bilməz". Mən də ürəyimdə dedim: onda qarnımı yarmağa qoymaram! Mən bunun nə cür zarafat olduğunu bilirəm! Güllələri çıxardacaqlar, yaranın yeri sağalmamış

deyəcəklər yenə öz hissənə qayıt! "Yox, – dedim, – cənab həkim, yarılmağa razı deyiləm. Güllələrlə birlikdə keçinmək, hətta mənim üçün bir az da maraqlıdır. İstəyirəm onları evimizə aparım, arvadıma göstərəm; mənim əlimə-qoluma dolaşmırlar, ağırlıqları da elə böyük deyildir". Mənə ağzına gələni dedi, amma bir həftəliyə evə getməyə icazə verdi.

Qriqori onun sadədil söhbətini gülümsünə-gülümsünə axıradək dinləyib soruşdu:

– Sən haraya düşmüsən, hansı polkdasan?

– Dördüncü yığma polkunda.

– Həmyerlilərimizdən orada kimlər var?

– Orada bizimkilərdən çoxdur: Anikuşka-Skopets, Besxlebnov, Akim Koloveydin, Syomka Miroşnikov, Tixon Qorbaçov.

– Hə, kazaklar nə danışırlar? Şikayətlənmirlər ki?

– Deməli ki, zabitlərdən yaman narazıdırlar. Elə əclafları işə qoyublar ki, günümüz-diriliyimiz yoxdur. Hamısı da rusdur, içlərində bir nəfər də olsun kazak yoxdur.

Xristonya söhbət elədikcə frençinin gödək qolunu dartışdırıb çəkir və öz gözlərinə inanmayan adam kimi, möhkəm, xovlu ingilis mahudundan tikilmiş şalvarının dizini sığallayır, təəccüblə baxırdı. O, fikri dağınıq halda dedi:

– Ayaqqabı məsələsinə gəldikdə isə ayağıma çəkmə tapılmadı. Orada, İngiltərə məmləkətində belə zırpı ayağı olan yoxdur... Bizlər buğda əkirik və onun çörəyini yeyirik, orada isə, Rusiya kimi, deyəsən, çovdarla güzəran edirlər. Daha belə ayaq onlarda haradan olsun? Bölüyə ucdantutma təzə paltar geyindirdilər, təzə ayaqqabı verdilər, bir cür ətirli papiros payladılar, amma nə olsun ki, yenə də işlər fənadır...

– Nə fənadır? – deyə Qriqori maraqlandı.

– Üzdən yaxşıdır, amma astarı fənadır. Bilirsən nə var, kazaklar yenə də müharibə eləmək istəmirlər. Deməli ki, bu müharibədən heç bir şey çıxmayacaqdır. Deyirdilər ki, Xopersk mahalından qırağa çıxmayacaqlar...

Qriqori Xristonyanı ötürüb qısaca fikir-xəyaldan sonra belə qərara gəldi: "Evimizdə bir həftə qalaram, sonra cəbhəyə gedərəm. Burada adam qüssədən məhv olar". O, axşamadək evdə qaldı. Uşaqlığı yadına düşdü və qarğıdan Mişatka üçün yeldəyirmanı

sazladı, sərçə tutmaq üçün at tükündən cələ düzəltdi, diqqətlə, səylə çalışıb qızı üçün təkərləri fırlanan, dişləsi bərli-bəzəkli balaca bir araba qayırdı, parça qırıqlarından hətta kiçicik bir gəlincik düzəltmək niyyətinə də düşdü, lakin bundan heç bir şey çıxmadı; gəlincik yalnız Dunyaşkanın köməyi ilə düzəldi.

Qriqoridən indiyədək bu qədər diqqət və mehribanlıq görməyən uşaqlar, əvvəlcə onun işlərinə etimadsız yanaşırdılar, lakin sonra isinişdilər, ondan bir dəqiqə belə olsun aralanmadılar; axşamüstü, Qriqori çölə getməyə hazırlaşanda isə Mişatka doluxsunmuş halda dedi:

– Sən elə həmişə beləsən! Bir saatlığa gəlir, sonra da bizi yenə tək qoyub gedirsən... Götür o cələni də, dəyirmanı da, cır-cındır da apar, hamısını apar! Mənə lazım deyil!

Qriqori oğlunun balaca əllərini iri əlləri arasına alıb dedi:

– İndi ki, elədir, gəl şərtləşək: sən kazaksan, ona görə gəl mənimlə çölə gedək, orada arpa biçək, dərz bağlayaq, babanla taxılbiçən maşında yanaşı otur, atlarımızı sür. Heç bilirsən orada otların arasında nə qədər cırcırama var! Dərədə o qədər müxtəlif quş var ki! Polyuşka da evimizdə qalar, nənəsinin yanında olar. Getdiyimizə görə o bizdən inciməz. O, qızdır, qızın işi odur ki, evi süpürsün, balaca vedrəsini su ilə doldurub nənəsinə su gətirsin, bundan başqa evdə görüləsi qadın işi o qədərdir ki! Razısanmı?

– Elə razıyam! – deyə Mişatka vəcdlə səsləndi. Hətta çöldə alacağı ləzzətdən indidən gözləri parıldadı.

İliniçna istədi uşağı aparmağa qoymasın.

– Axı sən onu hara aparırsan? Qəribə adamsan, ağlına nə gəlir tutursan! Bəs o harada yatacaqdır? Orada ona kim baxacaqdır? Allah göstərməsin, ya atlara yaxınlaşar, qarnına bir təpik ilişdirərlər, ya da ilan çalar. Atanla getmə, dərdin alım, evimizdə qal! – deyə o nəvəsinə üz tutdu.

Lakin bu zaman Mişatkanın qıyılmış gözləri od kimi parıldadı; qəzəbləndikdə babası Panteley də beləcə olurdu; yumruğunu düydü, ağlamsınaraq ucadan çığırdı:

– Nənəcan, danışma!.. Desən də gedəcəyəm, deməsən də! Atacan, başına dönüm, nənəmin sözünə baxma...

Qriqori gülə-gülə oğlunu qucağına götürdü, anasını sakitləşdirdi:

– Oğlum mənim yanımda yatacaqdır. Gedəndə atı yavaş sürəcəyəm, qucağımdan salmayacağam ki? Gəl, anacan, onun üçün paltar hazırla, həm də arxayın ol, sağ-salamat saxlaram, sabah axşam da gətirərəm.

Mişatka ilə Qriqori arasında dostluq belə başlandı.

Tatarskda qaldığı iki həftə ərzində Qriqori Aksinyanı yalnız üç dəfə, həm də ötəri görmüşdü. Aksinya özünə xas olan fərasət və təmkinlə çalışırdı ki, Qriqoriyə rast gəlməsin; başa düşürdü ki, Qriqorinin gözlərinə görünməsə yaxşıdır. O, qadın həssaslığı ilə Qriqorinin indi nə kimi əhvali-ruhiyyədə olduğunu dərk etmişdi; mülahizə eləmişdi ki, Qriqoriyə bəslədiyi hisslərini ehtiyatsızlıqdan ya tələsdiyindən büruzə versə, Qriqorinin acığı tutar, qarşılıqlı münasibətlərini ləkələyər. Aksinya gözləyirdi ki, Qriqori özü onunla danışsın. Bu da Qriqori cəbhəyə yola düşməzdən bir gün əvvəl baş verdi. Qriqori taxılla dolu arabada çöldən evə gəlirdi, nədənsə gecikmişdi; axşam şər qarışanda xutorun ucqarındakı küçədə Aksinyaya rast gəldi. Aksinya uzaqdan ona salam verdi, güclə hiss ediləcək halda gülümsədi. Onun bu təbəssümü müntəzir və təşvişli idi. Qriqori onun salamını aldı, lakin dinməzcə aralana bilmədi.

Qriqori hiss olunmadan cilovları dartdı, atları yavaşıdıb soruşdu:

– Necəsən?

– Sağ ol, pis deyiləm, Qriqori Panteleviç.

– Niyə görünmürsən?

– Çöldə idim... Təkbaşına təsərrüfatda əlləşirəm.

Mişatka da arabada, atasının yanında idi. Ola bilsin ki, məhz buna görə də Qriqori atların başını çəkib saxlamadı, Aksinya ilə söhbəti davam etdirmədi. Qriqori bir neçə sajın ondan uzaqlaşmışdı ki, səs eşitdi, geriyə çevrildi. Aksinya çəpərin yanında dayanmışdı.

Aksinya qopartdığı çobanyastığı çiçəyinin ləçəklərini həyəcanla didişdirib, yerə tökərək soruşdu:

– Xutorda çoxmu qalacaqsan?

– Bir-iki günə gedirəm.

Aksinyanın bir an qədər duruxub qalmasından belə məlum oldu ki, o Qriqoridən yenə nə isə soruşmaq istəyir. Amma nədənsə soruşmadı, əlini yellətdi, bir daha dönüb geri baxmadan örüşə getdi.

XIX

Buludlar göyün üzünü bürümüşdü. Ələkdən ələnir kimi narın yağış yağırdı. Təzə ot, alaq, çölün hər yanına səpələnmiş cır göyəm kolları işıldayırdı.

Xutordan vaxtından tez yola düşmələrindən qanı qaralmış Proxor atını dinməzcə sürür, Qriqori ilə kəlmə kəsmirdi. Sevastyanovsk xutorundan o yanda onlar üç atlı kazaka rast gəldilər. Kazaklar yanaşı gedir, atları dəhmərləyə-dəhmərləyə şirin söhbət edirdilər. Bunlardan biri, evdə toxunma cod şaldan boz zipun geymiş ahıl və sarısaqqal kişi, hələ uzaqdan Qriqorini tanıyıb yoldaşlarına ucadan dedi: "Ay qardaşlar, bu ki, Melexovdur!", – və Qriqorinin bərabərinə çatdıqda, hündür kəhər atının başını çəkdi.

– Kef-əhvalınız, Qriqori Panteleviç? – deyə Qriqorini salamladı.

– Sağ ol! – deyə Qriqori cavab verdi; bu sarısaqqal, görkəmindən qaraqabaq kazakı harada gördüyünü nə qədər fikirləşdisə tapa bilmədi.

Kazaka görünür yaxınlarda zabitlik rütbəsi verilmişdi; o da sadə kazaklardan biri sayılmasın deyə təptəzə poqonları düz zipununun çiyinlərinə tikmişdi.

Kazak atını bir az da Qriqorinin yaxınına sürdü və üstü qıpqırmızı tüklərlə örtülmüş yekə əlini ona uzatdı, ağzından tünd araq qoxusu gələ-gələ soruşdu:

– Tanıya bilmirsən?

Təzəcə mənsəbə çatmış bu adamın simasında küt bir özündən bədgümanlıq duyulmaqda idi, xırdaca göy gözləri parıldayırdı, kürən bığlarının altında dodaqları qımışır, yayılırdı.

Zipununun çiyninə poqon taxmış zabitin axmaq görkəmi Qriqoriyə məzəli gəldi. İstehzasını gizlətmədən dedi:

– Tanıya bilmirəm. Belə görünür ki, mən sənə rast gələndə sən hələ sıravi kazak imişsən... Sənə zabitliyi bu yaxınlarda veriblər?

– Elədir ki, var! Bir həftə olar. Səninlə mən Kudinovun yanında, qərargahda, gərək ki, bayram qabağı görüşmüşük. O vaxt məni sən bir fəlakətdən qurtarmısan, yadına sal görüm! – Saqqallı kazak bir qədər kənarda dayanmış yoldaşlarına üz tutub dedi: – Ey, Tifon! Siz atlarınızı yavaş-yavaş sürüb gedin, mən sizə çataram!

Qriqori sarısaqqal zabitlə nə şəraitdə rastlaşdığını çətinliklə yadına saldı, kazaka verilmiş "Semak" ləqəbi də, Kudinovun bu kazak barədə dediyi sözlər də yadına düşdü: "Zalım oğlu, gülləni elə sərrast atır ki, hamısı hədəfə dəyir. Dovşanı qaça-qaça aşırır, vuruşmada da igiddir, həm də yaxşı kəşfiyyatçıdır, ağılda isə uşaq kimi bir adamdır." Semak, üsyan başlananda bölük komandiri olduğu zaman böyük səhvə yol vermişdi; bunun üstündə Kudinov ona divan tutmaq istəyirdi, amma Qriqori Semakı müdafiə etdi, onun günahından keçdilər, yenə də bölük komandiri vəzifəsində saxladılar.

Qriqori ondan soruşdu:

– Cəbhədən gəlirsiniz?

– Cəbhədən gəlirik, Novoxoperskdə məni məzuniyyətə buraxdılar. Bir qədər, yüz əlli verst yoldan yana buruldum, Slaşşevskaya stanitsasına getdim, orada qohumlarım var. Mən yaxşılığını unutmamışam, Qriqori Panteleviç! İcazə ver, səni bir şeyə qonaq edim, olarmı? Heybəmdə iki şüşə xalis spirt var, gəl bu spirtləri bu dəqiqə içək, hə?

Qriqori içməkdən qətiyyətlə boyun qaçırtdı, amma peşkəş verilmiş bir şüşə spirti qəbul elədi.

Semak lovğalanaraq danışırdı:

– Əşi, orada qiyamət var idi! Kazaklar da, zabitlər də ev əşyasından yüklərini o ki var tutublar! Mən Balaşovda da olmuşam. Biz Balaşovu alan kimi hər şeydən əvvəl dəmiryolna cumduq; çünki içi yüklə dolu qatarların sayı-hesabı yox idi, yolların hamısı tutulmuşdu. Bir vaqonda qənd, digərində paltar, ayaqqabı, başqalarında müxtəlif əşya var idi. Kazaklardan bəziləri düz qırx dəst paltar götürdü. Sonra da başladılar cuhudları talamağa, bir həngamə idi ki, gəl görəsən! Mənim bölüyümdə olan bir dilavər kazak cuhudların evini axtarıb, on səkkiz dənə cib saatı yığmışdı, bunun on dənəsi qızıl idi; köpək oğlu saatların hamısını döşündən, ciblərindən asmışdı, qıraqdan baxanda elə bilirdin ki, dünyanın ən varlı taciri elə budur ki, var! Çırpışdırdığı üzüklərin isə sayı-hesabı məlum deyildi! Hər barmağına iki-üç üzük keçirmişdi...

Qriqori Semakın domba, basıla-basıla doldurulmuş heybəsini göstərək soruşdu:

– Sənin bu heybəndəkilər nədir?

– Elə-belə... müxtəlif şey-şüydür.

– Sən də bunları talamısanmı?

– Eh, söz tapdın deməyə – talamısanmı? Talamamışam, bəlkə qanunla əldə etmişəm. Polk komandirimiz bizə belə dedi: "Şəhəri alsanız onu iki günlüyünə sizin ixtiyarınıza veririk". Bu nədir, mən başqalarından acizəm? Əlimə hökumət əşyasından nə keçdisə götürdüm... Başqaları məndən betər işlər tutublar.

– Qiyamət əsgərlərsiniz! – Qriqori talançı zabiti nifrətlə başdan-ayağa süzdü, sonra dedi: – Sən və sənin kimilər müharibə etməməli, böyük yolda, körpünün altında gizlənib, gələni-gedəni soymalıdır! Siz müharibəni talançılığa çevirmisiniz! Ah, əclaflar! Özünüzə təzə peşə tapmısınız! Sən elə bilirsən ki, belə şeyin üstündə bir zamanlar sənin də, sənin o polkovnikinin də dərisini boğazından çıxarmayacaqlar?

– Axı nəyə görə?

– Elə həmin indicə dediyin işlərə görə!

– Bizim dərimizi kim boğazımızdan çıxaracaqmış?

– Kim sizdən vəzifəcə böyükdür o!

Semak rişxəndlə gülümsəyib dedi:

– A kişi, onlar özləri də talançıdırlar! Biz heybədə, ya da arabada aparırıq, amma onlar taladıqlarını karvanla daşıyırlar.

– Sən bunu öz gözünlə gördünmü?

– Heç bu da sözdür – gördünmü? Belə araba karvanlarından birini mən özüm Yarıjenskaya stanitsasına aparmışam. Arabalardan biri təpələmə gümüş qab-qacaqla, fincanla, qaşıqla dolu idi! Zabitlərdən bəzisi başımızın üstünü alıb qışqırırdı: "Apardığınız nədir? Tez olun, göstərin". Bu şeylər filan generalındır deyən kimi, dinməzcə çıxıb gedirdilər.

Qriqori gözlərini qıyıb, əsəbiliklə cilovu dartışdıraraq soruşdu:

– Generalın adı nədir?

Semak hiyləgərcəsinə gülümsünüb cavab verdi:

– Familiyası yadımdan çıxıb... xudaya, yadıma sal; onun famili nə idi? Yox, fikrimdən çıxıb, yadıma sala bilmirəm! Sən, Qriqori Panteleviç, nahaq yerə məni danlayırsan. Sənin canın üçün hamı belə edir. Başqalarına baxanda mən qurda nisbətən quzu kimi bir şeyəm; mən yüngülvarı yüklənmişəm, amma başqaları adamları düz küçənin ortasında lütləyirdilər, cuhud arvadlarını gözgörəti zorlayırdılar! Belə şeylərlə mən məşğul olmamışam, özümün

halalca yaxşı arvadım var; həm də ki, arvad deyil, əməlli-başlı ayğırdır! Yox, yox, sənin mənə nahaq yerə acığın tutur. Dayan görüm, sən hara gedirsən?

Qriqori başını tərpədib, Semakla soyuq şəkildə vidalaşdı, Proxora dedi:

– Dalımca gəl! – bunu deyən kimi də atını səyirtdi.

Yol uzunu onlara tək-tək, dəstə-dəstə evlərinə məzuniyyətə buraxılmış kazaklar rast gəlirdi. Hərdənbir cütatlı araba da görünürdü. Arabaların yükü üstünə brezent ya palaz salınmış, səliqə ilə iplə bağlanmışdı. Əyinlərinə təzəcə yay gimnastyorkası, xaki rəngində qızıl əsgər şalvarı geyinmiş kazaklar arabaların dalınca gəlir, atların üstündə üzəngiyə dirənərək qalxır-düşürdülər. Kazakların toza batmış, günəşin hərarətindən qaralmış sifətləri şən və nəşəli idi, lakin köhnə kazaklar Qriqori ilə qabaqlaşan kimi, ondan tez aralanmağa cəhd edir, komanda verilmiş kimi əllərini furajkalarının günlüyü bərabərinə qaldırıb, rəsmi-təzim edərək uzaqlaşırdılar, yalnız ondan xeyli aralandıqdan sonra söhbət eləməyə başlayırdılar.

Talan edilmiş əşya dolu arabaların üstüncə gələn atlıları hələ uzaqdan görən Proxor rişxəndlə dedi:

– Tacirlər gəlir!

Amma evə gedənlərin hamısı qənimət aparmırdı. Atları sulamaq üçün xutorlardan birində su quyusunun yanında dayandıqları zaman, Qriqori qonşuluqdakı həyətdə mahnı oxunduğunu eşitdi. Cavan oğlan səsi kimi saf və gözəl səslərdən anlaşılırdı ki, mahnı oxuyanlar cavandır.

Proxor quyudan vedrə ilə su çəkərək dedi:

– Deyəsən əsgərliyə gedən cavan oğlanı yola salırlar.

Bir az əvvəl içdiyi bir şüşə spirtdən sonra o yenə də içmək, damağını durultmaq arzusunda idi; buna görə də atları tez-tələsik suladı, gülə-gülə dedi:

– Biz də onların yanına getsək, necə olar, Panteleviç? Bəlkə qonaqlıq olduğuna görə biz də hərəmiz bir parç içdik? O evin damı, doğrudur, qamışla örtülmüşdür, amma varlı kişinin evinə oxşayır.

Qriqori "sütüllərin" səfərə necə yola salındığına tamaşa etmək üçün oraya getməyə razı oldu. Onlar atları çəpərə bağlayıb həyətə yönəldilər. Mərəyin çardağı altında, girdə axurun qabağında beli yəhərli dörd at vardı. Bir yeniyetmə oğlan, əlində vələmirlə dolu

çanaq anbardan çıxdı. Qriqoriyə ötəri nəzər salıb, kişnəyən atların yanına getdi. Evin tinindən mahnı səsi gəlirdi. Birisi uca kişi səsi ilə titrək-titrək oxuyurdu:

Vaxt var idi o yolla, bu iş deyildir əbəs,
Piyada getməyibdi, getməyibdi heç bir kəs.

Yoğun, papiros çəkməkdən bir az xırıltılı çıxan ikinci səs mahnının dalını təkrar edir, səsini birinci səsə qoşurdu; sonra mahnıya digər rəvan səslər də qoşulurdu, mahnı əzəmətlə, sərkeşliklə, həzin-həzin səslənirdi. Qriqori gözə görünüb, mahnının dayandırılmasını istəmirdi; o, Proxorun qolundan yapışıb ona dedi:

– Dayan, özünü onlara göstərmə, qoy mahnını qurtarsınlar.

– Bu, kazakın hərbi xidmətə yola salınması ilə əlaqədar qonaqlıq deyil. Yelansklılar mahnını bu qayda oxuyurlar. Amma zalım uşağı, qəşəng oxuyurlar! – deyə Proxor mahnını tərifləndi və ovqatına soğan doğrandığı üçün tüpürdü: hər şeydən əvvəl aşkarca görünürdü ki, onun araq içmək niyyəti baş tutmayacaq.

Mahnını başlayan kişi – xoş zil səsli kazak, müharibə zamanı səhv iş tutmuş bir kazakın başına gələnləri axıra kimi nağıl elədi:

Adam izi, at izi görünmürdü o yolda,
İndi kazak alayı görünürdü o yolda.
Alayın arxasınca qəşəng bir at səkirdi,
Çərkəzi yəhərciyi düşüb yana çəkirdi.
Onun tesma yüyəni keçib sağ qulağına,
İpək-zərli cilovu dolaşır ayağına,
Cavanca Don kazakı qaçırdı yol uzunu
Öz vəfalı atına deyirdi qəlb sözünü:
"Əziz atım, can atım, bir dayan dərdin alım,
Gəl qıyma bu səhrada kimsəsiz, tənha qalım,
Çeçenlər tutar məni, sənsiz pis olar halım..."

Qriqori, dalını bünövrəsi ağardılmış evin divarına söykəyib, mahnını heyranlıqla dinləyir, nə atların kişnəməsini eşidirdi, nə də küçədən keçib gedən arabaların cırıltısını...

Mahnı oxuyanlardan biri, mahnı qurtaran kimi öskürərək dedi:

– Bəd olmadı! Əşi, neyləyək, bacardığımız budur! Siz isə, ay nənələr, səfərə gedənlərə yolda yemək üçün bir şey versəniz pis

olmazdı. Qarnımızı yaxşıca doydurdunuz, Allah razı olsun, amma yeməyə heç nəyimiz yoxdur...

Qriqori xəyaldan ayıldı, evin tinindən aralandı. Artırmanın aşağı pilləkənində dörd nəfər cavan kazak oturmuşdu; mahnı səsinə qonşu həyətlərdən yüyürüşüb gəlmiş arvadlar, qarılar və uşaqlar da onların dövrəsinə toplaşmışdılar. Arvadlar hıçqırışaraq, ağlaşaraq onları dinləyir, yaylıqlarının ucu ilə gözlərinin yaşını, burunlarını silirdilər; boyu uca, gözləri qara, şəkillərdə gördüyümüz gözəlliyin nişanələri solğun simasında hələ də qalmış bir qarı, Qriqori artırmaya, onlara yaxınlaşanda kəlmələri uzada-uzada deyirdi:

– Mənim əziz balalarım! Heç bilirsiniz nə qədər qəşəng və təsirli oxuyursunuz! Yəqin sizin hər birinizin ananız var, güman ki, oğlunun müharibədə məhv olacağı yadına düşən kimi, gözlərinin yaşını sel kimi axıdır... – Sonra da saralmış gözləri ilə adamlara salam verən Qriqorinin üzünə tərs-tərs baxaraq, birdən-birə qəzəblə dedi: – Sən də, cənab zabit, bu cür gül kimi balaları ölümə göndərirsən? Müharibədə qırdırırsan?

Qaşqabağı sallanmış Qriqori cavab verdi:

– Nənəcan, bizim özümüzü qırdırırlar.

Tanımadıqları zabitin gəlişindən özlərini itirmiş kazaklar, cəld ayağa qalxdılar, pilləkəndə qoyulmuş və içində xörək artıqları qalmış boşqabları ayaqları ilə qıraga itələdilər; tüfənglərinin qayışlarını, üst köynəklərini, aşırmalarını düzəltdilər. Onlar mahnı oxuyanda da tüfənglərini çiyinlərindən çıxartmamışdılar. İçlərində ən böyük görsənənin yaşı iyirmi beşdən artıq olmazdı.

Qriqori onların gənc, təravətli sifətlərini nəzərdən keçirərək soruşdu:

– Haradansınız?

Kazaklardan biri – fındıqburun, gözləri güləş bir oğlan cürətsiz cavab verdi:

– Hissədən...

– Mən sual verdim ki, haralısınız, hansı stanitsadansınız? Buralı deyilsiniz, eləmi?

– Yelansklıyıq, cənab zabit, məzuniyyətə buraxılmışıq.

Qriqori mahnını başlayan oğlanı səsindən tanıdı, gülümsünərək soruşdu:

– Mahnını başlayan sən idinmi?

– Mən idim.

– Hə, çox yaxşı səsin var! Bəs nə münasibətlə mahnı deyirdiniz? Şadlıqdan? Sir-sifətinizdən içmiş adama oxşamırsınız.

Ucaboy, sarıyanız, toza-torpağa bulaşmış saçlarını səliqə ilə geriyə daramış, qarabuğdayı yanaqları qıpqırmızı bir cavan gözünün altı ilə qarılara baxıb, utana-utana gülümsəyərək, könülsüz bir halda cavab verdi:

– Şadlıq nədir, canım... Bizi oxutduran ehtiyacdır! Bu mahallarda yol adamını sən deyən qədər doydurmurlar, istəyəndə bir parça çörək verirlər, vəssalam. Biz də onlara kələk gəldik, mahnı oxuduq ki, qarnımızı doyduraq. Mahnını başlayan kimi, arvadlar tökülüb gəlir, qulaq asırlar; biz qəmgin bir mahnı oxuyanda bundan onların hamısı kövrəlir və evə qaçıb kimi bir parça piy, kimi bir qab süd və ya başqa yeməli şey gətirir...

– Biz bir növ keşiş kimi şeyik, cənab zabit, mahnı oxuyur və sədəqə yığırıq! – Mahnı oxuyan bunu dedi və yoldaşlarına göz vurdu, güləş gözləri təbəssümdən qıyıldı.

Kazaklardan biri üst köynəyinin döş cibindən bir parça yağlov kağız çıxardıb Qriqoriyə göstərdi:

– Buyurun, bu bizim məzuniyyət kağızımızdır.

– Mənim nəyimə gərəkdir?

– Bəlkə şübhələnirsiniz, amma biz əsgərlikdən qaçan deyilik...

Qriqori dilxor olub ona dedi:

– Bunu cəza dəstəsi ilə qabaqlaşanda, onlara göstərərsən... – amma getməzdən əvvəl onlara tövsiyə elədi: – Gecələr yol gedin, gündüzlər bir tərəfə çəkilib dayanmaq olar. Əlinizdəki kağız bekara şeydir, başınıza bəla açmasa yaxşıdır... Möhürü varmı?

– Bizim bölükdə möhür yoxdur.

– Kalmıkların sizi yerə uzadıb sünbə ilə döymələrini istəmirsinizsə, mənim məsləhətimə əməl edin!

Xutordan üç verst aralandıqda, yola dirənmiş kiçik meşəyə yüz əlli sajın qalanda Qriqori gördü ki, qarşıdan iki nəfər atlı gəlir. Onlar bir dəqiqə dayandılar, diqqətlə qabağa baxdılar, sonra cəld yoldan çıxıb meşəyə buruldular.

Proxor Qriqoriyə baxıb dedi:

– Bax, bunların heç bir kağızı yoxdur. Gördün özlərini necə meşəyə verdilər? Gör necə gicdirlər ki, gündüz yol gedirlər!

Qriqori ilə Proxoru görən bir neçə başqa kazak da yoldan çıxır, qaçıb gizlənməyə cəhd edirdi. Evinə gizlincə əkilən ortayaşlı bir kazak qaça-qaça günəbaxanların arasına girdi, köbər qırağına çökmüş, torpağa qısılmış dovşan kimi büzüşdü. Proxor atını sürüb onun yanından ötəndə üzəngiyə qalxıb bağırdı:

– Ey, həmyerli, yaxşı gizlənə bilməmisən! Başını gizlətmisən, amma g... görünür! – Sonra da süni bir qəzəblə güldü, atını səyirdərək kişini qovmaq istədi, lakin Qriqori qoymadı:

– Gicləşmə! Qoy rədd olsun, onsuz da nəfəsi kəsilincəyədək qaçacaqdır. Həm də, tutsan, qorxusundan bağrı çatlar...

– Ay dedin ha! Onu indi heç tazı ilə də tuta bilməzsən! O, indi birnəfəsə düz on verst qaçacaqdır. Günəbaxanların arasından necə sivişdiyini gördünmü! Belə məqamlarda adamlarda bu cür qıvraqlıq nədən əmələ gəlir, fikirləşəndə mat qalıram.

Proxor əsgərlikdən qaçanların hərəkətini pisləyərək deyirdi:

– Qaçanda da dəstə ilə gedirlər! Elə bil kisədən tökülüblər! Özünü yığışdır, Panteleviç, belə getsə, cəbhəni sənin lə mən saxlamalı olacağıq...

Cəbhəyə yaxınlaşdıqca Don ordusunun pozulduğunu göstərən iyrənc mənzərə Qriqorinin gözləri önündə daha geniş ölçüdə açılmaqda idi; bu pozğunluq, qiyamçılarla təkmilləşdirilmiş ordu Şimal cəbhəsində ən çox müvəffəqiyyət qazandığı zamandan başlanmışdı. Ordu hissələri bu vaxt nəinki qəti hücuma keçməyə və düşmənin müqavimətini qırmağa qadir deyildi, hətta özləri də ciddi təzyiq qarşısında duruş gətirə bilməzdilər.

Yaxın ehtiyat qüvvələri yerləşdirilmiş stanitsalarla kəndlərdə zabitlər gecə-gündüz sərxoşluq edirdilər; talan olunmuş və hələ arxaya göndərilməmiş əmlakla yüklü hər çeşid arabalar aparılan qəniməti tutmurdu; hissələrdə əsgərlərin ən çoxu altmış faizi qalmışdı; kazaklar məzuniyyətə özbaşına gedirdilər və kalmıklardan təşkil edilmiş cəza dəstələri çöllərdə at səyirtsələr də kütləvi fərariliyin qarşısını almaq mümkün deyildi. Saratov vilayətinin işğal edilmiş kəndlərində kazaklar özlərini yad ərazinin fatehləri kimi aparırdılar: camaatı talayır, qadınları zorlayır, taxıl ehtiyatını məhv edir, mal-qaranı kəsirdilər. Ordunu təkmilləşdirmək üçün yeniyetmələri və əlli yaşını keçmiş kişiləri əsgərliyə aparırdılar. Səfəri bölüklərdə kazaklar dava eləmək istəmədiklərini açıqdan-açığa

söyləyirdilər, Voronej tərəfə göndərilmiş hissələrdə isə zabitlərin əmrinə aşkarca itaət etmirdilər. Şayiələrə görə ön-atəş xəttində zabitlərin öldürülməsi halları get-gedə artırdı.

Qriqori Balaşova çatmamış qaranlıq qovuşdu; o, gecələmək üçün balaca bir kənddə qaldı. Yaşlı kazaklardan ibarət 4-cü əlahidə ehtiyat bölüyü ilə Taqanroq polkunun istehkamçılar rotası balaca kənddəki bütün yaşayış binalarını tutmuşdu. Gecəni qalmaq üçün Qriqori yer axtarıb tapınca xeyli çəkdi. Onlar həmişəki kimi, gecəni çöldə də qala bilərdilər, lakin axşamüstü yağış çisələdi, həm də vaxtaşırı başlayan titrətmə-qızdırma Proxorun canına titrətmə salmışdı; harada olursa-olsun bir damın altında qalmaq lazım gəlirdi. Kəndin kənarında, hər tərəfində qovaq ağacları olan böyük bir evin yanında, top gülləsi ilə əzişdirilmiş zirehli avtomobil vardı. Qriqori atını onun yanından sürəndə maşının yaşıl dəmiri üzərindəki yazını oxudu: "Ağ əclaflara ölüm!" Dəmirin aşağısında isə maşının adı yazılmışdı: "Svirepıy". Həyətdə atlar fınxırır, adamların səsi eşidilirdi; evin dalında, bağda ocaq yanırdı, yerdən qalxan tüstü ağacların yaşıl zirvələrinə yayılırdı; kazaklar ocağın dövrəsində tərpəndikcə işıqda görünürdülər. Külək ocaqdan yanmış saman qoxusu və donuz tükü iyi gətirirdi.

Qriqori atdan düşdü və evə doğru yönəldi. O, adamla dolu, alçaq bir otağa girib soruşdu:

– Ev sahibi kimdir?

– Mənəm. Nə istəyirsiniz? – Dalını sobaya söykəmiş ortaboylu bir mujik yerindən tərpənmədən Qriqoriyə baxdı.

– İcazə verərsinizmi bu gecə burada qalaq? İki nəfərik.

Taxtın üstündə uzanmış ahıl bir kazak narazılıqla mırtdandı:

– Onsuz da çoxuq.

– Mən bir söz demirəm, amma burada adam həddindən çoxdur, – deyə ev sahibi səsləndi, onun bu sözü üzr kimi çıxdı.

Qriqori əl çəkmədi:

– Birtəhər yerləşərik. Gecəni yağışın altında qalmayacağıq ki? Mənim yavərim naxoşdur.

Taxtın üstünə uzanmış kazak içini arıtladı, ayaqlarını yerə salladı, Qriqorinin üzünə zənn ilə baxandan sonra, başqa bir ahənglə dedi:

– Biz, cənab zabit, burada iki balaca otaqda ev sahibi ilə birlikdə on dörd nəfərik; üçüncü otağı isə iki nəfər nökəri ilə ingilis zabiti tutmuşdur, bizim zabitlərdən biri də onların yanındadır.

Saqqalının çox hissəsi ağarmış, çiynində baş uryadnik poqonu olan başqa bir kazak xeyirxahlıqla dedi:

– Bəlkə siz özünüzə onların yanında yer eləyəsiniz?

– Yox, mən burada qalsam yaxşı olar. Mənə o qədər də çox yer lazım deyil, yerinizi dar eləmərəm, döşəmədə yataram. – Qriqori şinelini soyundu, əli ilə saçını sığal!adı, keçib stolun dalında oturdu.

Proxor bayıra, atları yerbəyer eləməyə getdi.

Bu söhbəti, görünür, qonşuluqdakı otaqda eşitmişdilər. Beş dəqiqədən sonra, balaca, şıq geyinmiş bir poruçik qapını açdı.

– Siz gecələmək üçün yer axtarırsınız? – deyə o, Qriqoriyə üz tutdu və bir an qədər onun poqonlarına baxıb iltifatlı bir təbəssümlə dedi: – Cənab zabit, bu biri otağa, bizim yanımıza keçin. Bunu mən də xahiş edirəm, ingilis ordusu leytenantı cənab Kempbel də, ora sizin üçün daha münasib olar. Mənim familiyam Şeqlovdur. Sizinki nədir? – O, Qriqorinin əlini sıxıb soruşdu: – Cəbhədən gəlirsiniz? Aha, məzuniyyətdən qayıdırsınız! Gedək, gedək! Biz sizə qonaqpərvərlik eləsək buna şad olacağıq. Siz ehtimal ki, acsınız da, bizdə yeməyə bir şey tapılar.

Poruçikin qəşəng, açıq yaşıl mahuddan tikilmiş frençinin döşündən zabitlərə verilən Georgi ordeninin lenti sallanırdı, saçını çox göyçək bir şəkildə yanlara daramışdı, çəkmələri səliqə ilə təmizlənmiş, silinmişdi, qırxılmış, tutqun qarabuğdayı sifətindən, boy-buxunlu vücudundan təmizlik, bir də nə isə bir cür tünd odekolon ətri gəlirdi. Dəhlizdə o ehtiramla Qriqorini qabağa buraxdı, xəbərdarlıq edərək dedi:

– Soldakı qapıdan girin. Ehtiyatlı olun, burada qutu var, gözləyin ayağınıza toxunmasın.

Gənc, ucaboy, dolu gövdəli, çəpinə çapılmış üst dodağı yumşaq qara bığları ilə örtülmüş, ala gözləri bir-birinə yaxın bir leytenant Qriqorini qarşılamaq üçün ayağa qalxdı. Poruçik Qriqorini ona təqdim etdi, ingiliscə nə isə dedi. Leytenant qonağın əlindən yapışıb bərk-bərk silkələdi və gah poruçikin, gah da onun üzünə baxıb bir neçə kəlmə söz dedi, işarə ilə Qriqorini əyləşməyə dəvət etdi.

Otağın ortasında dörd səfər çarpayısını yanaşı qoymuşdular, küncdə bir növ qutular, yol torbaları, dəridən hazırlanmış çamadanlar üst-üstə yığılmışdı. Sandığın üstündə Qriqorinin tanımadığı sistemdən olan bir döş pulemyotu, durbin qutusu, patron qabları, qundağı tünd sarı, lüləsi təptəzə, gömgöy və sığallı bir tüfəng var idi.

Leytenant Qriqorinin üzünə dostcasına baxaraq, adama xoş gələn, yavaşdan çıxan yoğun səslə nə isə deyirdi. Qriqori ona yad, qulaqlarında əcaib şəkildə səslənən bir dildə nə deyildiyini başa düşmürdü, lakin söhbətin onun haqqında getdiyini başa düşərək, özünü bir az narahat hiss edirdi. Poruçik çamadanların birində nə isə axtararaq, gülümsünə-gülümsünə leytenantı dinləyirdi, sonra dedi:

– Mister Kempbel deyir ki, o kazaklara dərin hörmət bəsləyir, çünki onlar əla süvari və əsgərdirlər. Siz yəqin ki, bir şey yemək istərdiniz, eləmi? İçənsinizmi? O deyir ki, təhlükə insanları birləşdirir... Eh, bir çeşid cəfəngiyat danışır! – Poruçik çamadandan bir neçə qutu konserv, iki şüşə konyak çıxartdı və tərcüməsinə davam edərək, yenə də çamadanın üzərinə əyildi: – Onun dediyinə görə kazak zabitləri onu Ust-Medveditsa stanitsasında çox nəzakət və hörmətlə qarşılamışdır. Onlar orada bir-iki çəllək Don şərabı içmişlər; hamısı sərxoş olubmuş, həm də vaxtlarını gimnazistkalarla çox yaxşı keçirmişlər. Həmişə kefin axırı belə qurtarır. Ona göstərilmiş bu qonaqpərvərliyin müqabilində o da indi belə bir qonaqpərvərlik etməyi özü üçün xoş vəzifə sayır. Siz də onun qonaqpərvərliyinə davam gətirməli olacaqsınız. Mənim sizə yazığım gəlir. Siz içirsinizmi?

– Sağ olun. İçirəm, – deyə Qriqori cavab verdi, yüyən tutmaqdan, yolların tozundan-torpağından kirlənmiş əllərinə xəlvəti nəzər saldı.

Poruçik konserv bankalarını stolun üstünə qoydu, onları bıçağın ucu ilə məharətlə açdı, köksünü ötürərək dedi:

– Bilirsiniz nə var, cənab zabit, bu ingilis donuzu məni yaman zara gətirmişdir! Səhər açılandan gecə yarısına qədər içir. Hey içir, ara vermir, mən belə şey görməmişəm. Bilirsiniz nə var, mən özüm də içənəm, amma bu qədər içməyi bacarmaram. Amma bu, – poruçik gülümsəyərək leytenanta baxdı. Qriqori gözləmədiyi halda ana söyüşü söydü, – acqarına da içir, toxqarına da!

Leytenant da baxıb gülümsünür, başı ilə təsdiq edir, rus kəlmələrinin qolunu-qabırğasını qıra-qıra deyirdi:

– Ta, ta! Xo-ro-şo... Nato vıpit faş zdor-ov![1]

Qriqori güldü, saçını silkələdi. Onun bu adamlardan xoşu gəldi, mənasızcasına gülümsəyən, rus dilində əcaib danışan leytenant isə lap qiyamət kişi idi.

[1] Bəli, bəli, yaxşıdır... Sizin sağlığımıza içmək!

Poruçik stəkanları silə-silə deyirdi:

– Düz iki həftədir onunla avaralanıram, inanırsınızmı? O, bizim İkinci korpusa verilmiş tanklarda sürücü təlimatçısı vəzifəsində çalışır, məni də onun yanında tərcüməçi qoyublar. Mən ingiliscə sərbəst danışa bilirəm, elə başımı bəlaya salan da bu oldu... Bizlərdə də içirlər, amma bu qədər yox. Amma bu, Allah bəlasını versin, ölçü-biçi bilmir! İndicə onun şücaətini görəcəksiniz! Təkcə onun özü üçün içməyə gündə azı dörd-beş şüşə konyak lazımdır. O, azacıq fasilələrlə konyakları içib şüşələrini boşaldır, amma keflənmir, hətta bu qədər vurandan sonra işləyə də bilir. O, məni zara gətirmişdir. Mənim yavaş-yavaş mədəm xəstələnməyə başlayıb, son günlərdə əhvali-ruhiyyəm tamamilə xarabdır, bütün vücuduma o qədər spirt dolub ki, yanan çırağın yanında oturmaqdan qorxuram... Gör, nə xətaya düşmüşəm! – O danışa-danışa iki stəkanı konyakla doldurdu, amma öz stəkanına az tökdü.

Leytenant gözləri ilə stəkanları göstərib, gülə-gülə, qızışmış halda nə isə deməyə başladı. Poruçik əlini ürəyinin başına basaraq yalvarır, təmkinlə gülümsəyib, ona cavab verirdi, yalnız hərdənbir qara və mehriban gözlərində təkdənbir və bir anlığına kinli qığılcımlar görünürdü. Qriqori stəkanı götürdü, xoşsifət ev sahiblərinin stəkanları ilə toqquşduraraq birnəfəsə içdi.

– O-oo! – deyə ingilis belə içməyi ürəkdən bəyənircəsinə səsləndi və o da öz stəkanından bir qurtum içib, nifrətlə poruçikə baxdı.

Leytenant iri, əsmər, işlək əllərini stola söykəmişdi, əllərinin üstündəki xırda deşiklərdə maşın yağı izləri vardı, tez-tez benzinə bulaşan barmaqlarının dərisi qabıq qoymuşdu, cırmaq-cırmaq idi, sifəti isə təmiz, kök və qırmızı idi. Onun əlləri ilə sifəti arasındakı təzad o qədər böyük idi ki, Qriqori hərdənbir elə güman edirdi ki, leytenant maska geyinib əyləşmişdir.

Poruçik stəkanlardan ikisini yenə ağzına qədər doldurub dedi:

– Siz mənim canımı qurtarırsınız.

– Bəs o özü təkə-təklikdə içmir?

– Elə iş də orasındadır ki, içmir! Səhər açılandan təkcə içir, amma axşam içə bilmir. Neynək, qaldırın içək.

– Yaman tünddür... – Qriqori öz stəkanındakı konyakın bir qədərini içdi, qalanını isə boğazına tökdü, – bunu gördükdə leytenant heyrətlə onun üzünə baxdı.

– O deyir ki, siz qoçaq kişisiniz. Sizin konyak içməyiniz ona çox xoş gəlir.

– Mən öz vəzifəmi sizinki ilə dəyişərdim, – deyə Qriqori gülümsündü.

– Əminəm ki, iki həftə tamam olan kimi qaçardınız!

– Belə içkidənmi?

– Başqasını bilmirəm, amma mən bu nemətdən qaçıb yaxamı qurtaracağam.

– Cəbhə buradan pisdir.

– Bura da cəbhədir. Orada adamı güllə və ya mərmi qəlpəsi aşıra bilər, o da əgər adamı əcəl hərləyirsə, amma burada mənim yaxam qara qızdırmanın əlinə keçmişdir. Bu meyvə konservlərinin dadına baxın. Donuz əti istəyirsinizmi?

– Sağ olun, yeyirəm.

– İngilislər belə şeylərin ustasıdırlar. Onlar ordularını biz yedirtdiyimiz kimi yedirtmirlər.

– Çox təəssüf ki, dediyiniz doğrudur. Bununla belə əsgəri bu cür yedirtməklə çox iş görə bilməzsən; xüsusən ona əhalini talamağa icazə verilsə işlər daha bərbad olar...

Qriqori diqqətlə poruçikin üzünə baxıb soruşdu:

– Sizin səfəriniz uzaqdırmı?

– Bizim ki, yolumuz eynidir, bunun nəyini soruşursan? – Leytenant şüşəni götürdü, poruçikin stəkanını konyakla doldurdu, poruçik isə bunu görmədi. Qriqori gülümsünüb dedi:

– İndi siz stəkandakı konyakı son damlasına qədər içməli olacaqsınız.

– Başlanır! – deyə poruçik stəkanı gördü və ah çəkdi. Onun yanaqlarına zərif qızartı gəldi.

Hər üçü stəkanlarını bir-birinə toqquşduraraq içdilər.

– Yolumuz birdir, amma hərə bir yana gedir... – deyə Qriqori yenə söhbətə girişdi, üz-gözünü turşudaraq əlindəki çəngəllə boşqabda o yana-bu yana sürüşən ərziyi götürməyə çalışdı, amma götürə bilmədi. – Qatar kimi biri yaxında düşür, o biri uzağa gedəsi olur...

– Məgər siz axırıncı stansiyayadək getmək fikrində deyilsiniz?

Qriqori hiss elədi ki, keflənir, lakin içki hələ onu gücdən sala bilməmişdi; gülə-gülə belə cavab verdi:

– Son stansiyayadək getmək üçün bilet pulum çatmaz. Siz necə?

– Eh, mən tamamilə başqa vəziyyətdəyəm: məni itələyib vaqondan yerə salsalar da, şpalların üstü ilə axıradək piyada getməliyəm!

– Onda sizə uğurlar olsun! Götürün içək!

– Əlacım yoxdur. Qaradan artıq rəng olmaz...

Leytenant stəkanını Qriqorinin və poruçikin stəkanı ilə toqquşdurub, kirimişcə içir, heç nə yemirdi. Onun sifəti pörtmüş, kərpic kimi olmuşdu, gözləri işıqlanmışdı, hərəkətlərində isə ölçülmüş-biçilmiş bir lənglik müşahidə edilirdi. İkinci şüşə hələ boşalmamış o yerindən ağır-ağır qalxdı, çamadanlara tərəf getdi; üç şüşə konyak çıxartdı. Konyakları stolun üstünə qoydu, dodaqları qaçdı, nə isə dedi.

– Mister Kempbel deyir ki, kef məclisini davam etdirmək lazımdır. Görüm bu misteri Allahın qəzəbinə gəlsin! Siz nə fikirdəsiniz?

– Neynək, davam etdirmək olar, – deyə Qriqori razılaşdı.

– Hə, əndazəni görürsənmi? Bu adam cismən ingilisdirsə də ruhən rus taciridir. Mən, deyəsən, artıq dəmlənmişəm...

Qriqori ona kələk gəldi:

– Üz-gözünüzdən hiss olunmur.

– Ay dedin ha! Mən bu saat zəifləyib qız kimi bir şey olmuşam... Lakin hələ dayana bilərəm, bəli, bəli, dayana bilərəm!

Poruçik indicə içdiyi bir stəkan konyakdan sonra hiss ediləcək halda süstləşdi; onun qara gözlərinə elə bil yağ sürtülmüşdü; bir az da əyilmişdi, üzünün əzələləri boşalmışdı, dodaqları demək olar ki, sözünə baxmırdı; tutqun əti altında qan damarları əhəngdar bir tərzdə atırdı. İçdiyi konyak ona sarsıdıcı təsir göstərmişdi. Poruçik, başı kəsilməzdən əvvəl təpəsinə on girvənkəlik daş vurulmuş öküzü xatırladırdı.

– Siz hələ möhkəm dayanmısınız. Çox içmisiniz, amma o sizə güc eləyə bilməmişdir, – deyə Qriqori poruçikin son sözlərini təsdiq elədi. Qriqori özü də xeyli kefli idi, lakin hiss edirdi ki, hələ xeyli içə bilər.

– Doğrudanmı? – Poruçik şənləşdi. – Yox, yox, mən əvvəlcə bir az məst idim, amma indi tök gəlsin, nə qədər desələr içə bilərəm! Bir də deyirəm: nə qədər desələr içərəm! Cənab zabit, siz mənim xoşuma gəlirsiniz. Mənə qalırsa deyərdim ki, sizdə qüvvət və səmimiyyət hiss olunmaqdadır. Bu da mənim xoşuma gəlir. Gəl bu axmaq və sərxoş kişinin sağlığına içək. Düzdür, o özü heyvan kimi bir şeydir, amma vətəni yaxşı yerdir. "Dəryalar sənin hökmün

altındadır, Britaniya!" İçirikmi? Ancaq dolu stəkanı yox! Mister Kempbel, sizin vətəniniz şərəfinə! – Poruçik içdi, üz-gözünü iyrənc bir şəkildə turşutdu, donuz əti yedi. – Heç bilirsən nə gözəl məmləkətdir, zabit! Siz bunu təsəvvürünüzə gətirə bilməzsiniz, amma mən orda yaşamışam, bilirəm... hə, içək!..

– Ana ki var, nə qədər pis olsa da yaddan adama yaxın və əziz olar.

– Mübahisə etməyək, içək.

– İçək.

– Bizim vətənimizdə başıpozuqluq atəş və dəmirlə məhv edilməlidir, amma biz buna qadir deyilik. Axırda iş o yerə gəlib çıxmışdır ki, bizim ümumiyyətlə vətənimiz olmadığı aşkar olmuşdur. Cəhənnəmə ki! Kempbel inanmır ki, biz qırmızıların öhdəsindən gələ bilərik.

– İnanmır?

– Bəli, inanmır. O bizim ordu haqqında mənfi rəydədir, qırmızıları isə tərifləyir.

– O vuruşmalarda iştirak etmişdirmi?

– Bəs necə! Onu az qalmışdı ki, qırmızılar qomarlayıb tutsunlar! Səni zəhrimara dönəsən, konyak!

– Yaman tünd şeydir! O da spirt kimidirmi?

– Bir qədər zəifdir. Kempbeli xatadan süvarilər xilas etdilər, yoxsa çoxdan elə keçmişdi. Bu əhvalat Jukov xutoru yaxınlığında oldu. Orada qırmızılar bizim bir tankımızı elə keçirmişdilər... Siz qüssəli görünürsünüz. Nə olub?

– Bu yaxınlarda arvadım vəfat etmişdir.

– Fəlakətdir! Uşağınız qalmışdırmı?

– Qalmışdır!

– Sizin balalarınızın sağlığına içək! Mənim uşağım yoxdur, ola bilsin ki var, amma varsa, ehtimal ki, hayanda isə küçələrdə qaçışaraq qəzet satırlar... Kempbelin İngiltərədə adaxlısı var. Mister ona müntəzəm surətdə, həftədə iki dəfə məktub yazır. Mən demək olar ki, bu adama nifrət edirəm. Nə dediniz?

– Heç nə demirəm. Bəs o niyə qırmızılara "hörmət bəsləyir"?

– Kim deyir ki, "hörmət bəsləyir"?

– Siz dediniz.

– Ola bilməz! O, qırmızılara hörmət bəsləmir, bəsləyə bilməz, səhv edirsiniz! Eybi yoxdur, bu saat ondan soruşaram.

Kempbel kefli və rəngi tamamilə qaçmış poruçikin sözlərini diqqətlə dinlədi, nə isə uzun-uzadı danışdı.

Qriqori gözləyə bilməyib soruşdu:

– Nə çərənləyir?

– Kempbel ayağı çarıqlı qırmızıların piyada cərgələr halında tankın üzərinə hücuma atıldıqlarını görmüşdür. Bu dəlil kifayətləndiricidirmi? O deyir ki, xalqı məğlub etmək olmaz. Axmaqdır! Siz onun dediklərinə inanmayın!

– Necə yəni inanmayın?

– Ümumiyyətlə.

– Axı necə?

– Çünki o keflidir, ağlına gələni danışır. Xalqı məğlub etmək olmaz nə deməkdir? Xalqın bir hissəsini məhv etmək, qalanını idarə etmək olar... Nə cür dedim? Yox, idarə etmək yox, itaət altına almaq olar. Bu neçənci konyak şüşəsidir ki, boşaldırıq? – Poruçik başını qollarına söykədi, içində konserv olan bankanı dirsəyi ilə itələyib yerə saldı və düz on dəqiqə sinəsini stola dirəyib tövşüyə-tövşüyə qaldı.

Bayır zil qaranlıq idi. Gur yağış pəncərə taxtalarını döyürdü. Harada isə xeyli uzaqda bərk gurultu oldu, Qriqori bunun göy gurultusumu, top səsimi olduğunu anlaya bilmədi. Mavi siqar dumanı içində olan Kempbel yenə də konyak içirdi. Qriqori poruçiki silkələyib ayıltdı, özü də ayaq üstdə səndələdiyi halda dedi:

– Mənə bax, ondan soruş görək: niyə qırmızılar bizi əzişdirməlidir?

– Cəhənnəm ol, əşi! – deyə poruçik mızıldandı.

– Yox, sən soruş.

– Cəhənnəm ol! Rədd ol buradan!

– Sənə deyirlər ki, soruş!

Poruçik bir dəqiqə çaşqın-çaşqın Qriqoriyə baxdı, sonra onu diqqətlə dinləyən Kempbelə dili dolaşa-dolaşa nə isə dedi və başını yenə də küp qulpu kimi cütləşdirdiyi qollarının üstünə söykədi. Kempbel tənəli bir təbəssümlə poruçikə baxdı, əlini Qriqorinin qoluna toxundurdu, dinməzcə izah etməyə başladı: şaftalı çəyirdəyini sürüşdürüb stolun ortasına gətirdi, iri əlini ona müqabil böyrü üstə qoyub, dilini marçıldatdı, əlini çəyirdəyin üstünə qoydu.

– Pah, kişi təzə şey fikirləşib! Bunu mən sənsiz də anlamışam... – deyə Qriqori dalğın-dalğın mızıldandı. Ayaq üstdə bir az yırğalanaraq, qonaqpərvər leytenantı qucaqladı, əlini gendən hərləyib stolu göstərərək baş əydi: – Qonaqlıq elədiyinizə görə təşəkkür edirəm! Xudahafiz. Bilirsənmi sənə nə demək istəyirəm? Başın buralarda əzilməmiş, fürsət var ikən tez evinizə yola düş. Bunu mən sənə ürəkdən deyirəm. Anlaşıldımı? Bizim işlərimizə siz qarışmasanız yaxşıdır. Başa düşdünmü? Çıx get, yoxsa buralarda səni şil-küt edərlər!

Leytenant ayağa qalxdı, baş əydi, qızğın surətdə nə isə danışdı; o hərdənbir artıq yuxulamış poruçikə baxır, əlini dostcasına Qriqorinin kürəyinə döyürdü.

Qriqori qapının cəftəsini çox çətinliklə tapdı, açdı, səndələyə-səndələyə artırmaya çıxdı. Çəpinə səpələnən xırda yağış onun üzünə çırpırdı. Bərk şimşək çaxdı, geniş həyət, çəpərin islanmış payaları, bağda ağacların parıldaşan yaş yarpaqları aydınca görünürdü. Qriqori artırmadan düşəndə ayağı sürüşdü, yıxıldı və ayağa qalxanda qulağına səs gəldi.

Dəhlizdə kibrit yandıran birisi sual verirdi:

– Zabitciyəzlərimiz hey içirlər, hə?

Yavaşdan danışan, soyuq dəymədən bir qədər kallaşmış səsində toxtaq təhdid sezilən bir başqası ona cavab verirdi:

– Bu içki onların axırına çıxacaqdır... İçmək onları cəzalarına çatdıracaqdır!

XX

Don Ordusu 1918-ci ildəki kimi, Xopersk mahalının hüdudunu keçdikdən sonra hücum qabiliyyətini itirdi. Donun yuxarı mahallarının kazakları ilə xoperlilərin bir qismi əvvəlki kimi, yenə də Don ölkəsi hüdudundan uzaqlarda vuruşmaq istəmirdilər; digər tərəfdən də təzəcə göndərilmiş əsgəri hissələrlə təkmilləşən, həm də əhalisi onlara rəğbət bəsləyən mahalların ərazisində vuruşan qırmızıların müqaviməti güclənmişdi. Kazaklar yenə də müdafiə müharibəsinə meyilli idilər. Don Ordusu komandanlığının heç bir tədbir və kələyi, onları bu yaxınlara qədər öz ərazilərində inadla vuruşduqları kimi

çarpışmağa vadar edə bilmirdi; halbuki, cəbhənin bu sahəsində qüvvələrin nisbəti onların xeyrinə idi: 11000 nəfər piyadası, 5000 atlısı, 52 topu olan və son vuruşmalarda əzişdirilmiş 9-cu Qızıl Ordunun qabağında 14400 piyadası, 10600 atlısı, 53 topu olan bir neçə kazak korpusu dayanmışdı.

Ən çox fəal hərbi əməliyyat, cinahlarda və məhz Könüllü-Kuban cənub ordusunun hissələri vuruşduğu yerlərdə keçirilirdi. Eyni zamanda general Vrangelin komandası altında olan Könüllü ordunun bir hissəsi müvəffəqiyyətlə Ukrayna ərazisinin içərilərinə doğru irəliləyir, 10-cu Qızıl Ordunu bərk sıxışdırır, onu geriyə oturdur, şiddətli vuruşmalarla Saratov istiqamətində irəliləyirdi. İyulun 28-də Kuban atlıları lap Kamışinə yaxınlaşdılar, oranı müdafiə edən qoşunun çox hissəsini əsir aldılar. 10-cu ordu hissələri tərəfindən başlanmış əks-hücum dəf edildi. Kuban-Terek yığma atlı diviziyasının cəsarətli manevr ilə qırmızıların sol cinahına keçmək təhlükəsi yarandıqda, 10-cu ordunun komandanlığı öz əsgəri hissələrini Borzenkovo-Latışevo-Krasnı Yar-Kamenko-Bannoye cəbhəsinə göndərmək məcburiyyətində qaldı. Bu vaxt 10-cu ordunun tərkibində artıq 18000 piyada, 8000 atlı, 132 top var idi; onunla üz-üzə durmuş Könüllü-Kuban ordusunun isə 7600 piyadası, 10750 atlısı, 68 topu vardı. Bundan başqa ağların tank dəstələri, habelə kəşfiyyat işləri görən və hərbi əməliyyatlarda iştirak edən çoxlu təyyarəsi də var idi. Lakin general Vrangelə fransız təyyarələri də, ingilis tank və batareyaları da kömək edə bilmədi; o Kamışinodan bir addım belə olsun irəliyə gedə bilmədi. Cəbhənin bu sahəsində uzun sürən, həm də inadlı vuruşmalar getdi, bu da cəbhə xəttində yalnız əhəmiyyətsiz dəyişikliklər əmələ gətirdi.

İyulun sonunda Qızıl Ordu Cənub cəbhəsinin bütün orta hissəsində geniş miqyasda hücuma keçmək üçün hazırlıq işləri aparmağa başladı. Bu məqsədlə 9-cu və 10-cu ordular Şorinin komandası altında, zərbə qrupu kimi birləşdirildilər. Şərq cəbhəsindən bura göndərilmiş 28-ci diviziya ilə keçmiş Qazan istehkam rayonu briqadası, bir də 25-ci diviziya ilə Saratov istehkam rayonu briqadası həmin zərbə qrupunun ehtiyat mənbəyini təşkil etməli idi. Bundan əlavə, Cənub cəbhəsi komandanlığı həm cəbhənin ehtiyatında olan qoşunlarla, həm də 56-cı atıcı diviziyası ilə zərbə dəstəsini gücləndirməkdə idi. Əlavə zərbəni Voronej tərəfdən 8-ci Qızıl Ordu

endirməli idi. Şərq cəbhəsindən gətirilmiş 31-ci atıcı diviziyası və 7-ci atıcı diviziyası ona kömək etməli idi.

Hər yerdə hücum avqustun biri ilə onu arasında başlamalı idi. Qırmızıların baş komandanlığının tərtib etdiyi plana görə 8-ci ordu ilə 9-cu ordu hücuma keçdikdə cinahlardakı ordular düşmənin arxasına keçməli idi; bu zaman 10-cu ordunun üzərinə xüsusilə məsuliyyətli və çətin vəzifə düşürdü; həmin ordu Donun sol sahilində hərbi əməliyyatı davam etdirib irəliləməli, düşmənin başlıca qüvvələrinin Şimali Qafqaz tərəfdən yolunu kəsməli idi. Qərbdə isə Çaplino-Lozovaya xəttinə doğru 14-cü ordunun bir hissəsi ilə şiddətli, nümayişkaranə hərəkət nəzərdə tutulmuşdu.

9-cu və 10-cu orduların tutduğu sahələrdə lazımi qruplaşma işləri keçirilən zaman, ağların komandanlığı, düşmən tərəfindən hazırlanmaqda olan hücum əməliyyatını pozmaq məqsədilə Mamontov korpusunun təşkili işlərini başa çatdırmaqda idi; onlar cəbhəni yarmaq və korpusu Qızıl Ordunun arxasına, xeyli içərilərə atmaq niyyətində idi. Vrangel ordusunun Tsaritsın tərəfdə müvəffəqiyyət qazanması bu ordunun cəbhə xəttini sola doğru uzatmağa imkan yaratdı və beləliklə də Don ordusunun cəbhəsi qısaldıldı, tərkibindən bir neçə atlı diviziyasını aparmaq mümkün oldu. Avqustun 7-də Uryupinskaya stanitsasına 6000 atlı, 2800 piyada və hər birində 4 top olan üç batareya toplandı. Avqustun 10-da isə təzəcə təşkil edilmiş korpus general Mamontovun komandası altında qırmızıların 8-ci ordusu ilə 9-cu ordusu arasından cəbhəni yardı və Novoxoperskdən Tambovun üstünə getdi.

Ağ komandanlığın ilk mülahizələrinə görə general Mamontovun korpusundan başqa general Konovalovun atlı korpusu da qırmızıların arxasında hərbi əməliyyata göndərilməli idi, lakin Konovalovun korpusuna daxil olan hissələrin tutduğu sahədə vuruşmaların ara-bərəsi kəsilmədiyindən, onu cəbhə xəttindən götürmək mümkün olmadı. General Mamontovun üzərinə qoyulan vəzifənin məhdudluğunun səbəbi də bu idi; ona tapşırılmışdı ki, çox da irəlilərə getməməli, Moskva üzərinə yürüş xəyalına düşməməlidir, bəlkə düşmənin arxa mövqeləri ilə rabitə xətlərini dağıdaraq, təzədən ordu hissələri ilə birləşməlidir; halbuki əvvəlcə ona da, general Konovalova da əmr verilmişdi ki, sərəncamlarındakı bütün atlı qoşunlarla mərkəzdə yerləşdirilmiş qırmızıların cinahlarına və arxalarına sarsıdıcı zərbə endirməli.

bundan sonra isə geniş ölçüdə vuruşa-vuruşa Rusiyanın içərilərinə doğru irəliləməli, öz qüvvələrini əhalinin antisovet əhvali-ruhiyyəli təbəqələri hesabına təkmilləşdirməli, Moskvaya qədər getməlidirlər.

8-ci ordu ordu ehtiyatından istifadə etməklə, sol cinahdakı vəziyyətini düzəldə bildi. Aşkar oldu ki, 9-cu ordunun sağ cinahı daha çox pozulmuşdur. Əsas zərbə qrupunun komandanı Şorin müəyyən tədbirlər görərək, hər iki ordunun daxili cinahlarını düzəldə bildi, lakin general Mamontovun atlılarını dayandıra bilmədi. Şorinin əmri ilə ehtiyatda saxlanmış 56-cı diviziya Kirsanov rayonundan qaldırılıb, Mamontovun qabağına göndərildi. Bu diviziyanın arabalara doldurulmuş və Sampur stansiyasına göndərilmiş bir batalyonu, Mamontov korpusunun yan dəstələrindən biri tərəfindən üz-üzə başlanmış vuruşmada darmadağın edildi. Tambov-Balaşov dəmiryol sahəsini mühafizə üçün göndərilmiş 36-cı atıcı diviziyasının, süvari briqadasının aqibəti də belə oldu. Briqada qəfildən sel kimi axışan Mamontov süvariləri ilə qabaqlaşdı, qısa bir vuruşmadan sonra pərən-pərən salındı.

Avqustun 18-də Mamontov sürətli yürüşlə Tambovu işğal etdi. Lakin bu, Mamontova qarşı mübarizə üçün zərbə qrupunun tərkibindən, demək olar ki, iki piyada diviziyası ayırmağa məcbur olmuş Şorinə, zərbə qrupunun əsas qüvvələrini hücuma aparmağa mane ola bilmədi. Eyni zamanda Cənub cəbhəsinin Ukrayna sahəsində də hücum başlandı.

Şimalda və Şimal-şərqdə Starı Oskoldan Balaşovadək uzanan, yalnız bir ucu Tsaritsinə dirənən cəbhə xətti düz xətt olmağa başlamışdı. Kazak polkları düşmənin üstün qüvvələrinin təzyiqi altında duruş gətirə bilməyib, cənuba doğru geri çəkilir, ara-sıra əks hücumlara keçir, hər bir yenə mövqedə yerlərini möhkəmləndirmək istəyirdilər. Don torpağına qayıdandan sonra onlar yenə də əvvəlki kimi döyüşkən oldular; əsgərlikdən qaçma halları çox azaldı; qoşuna orta Don stanitsalarından çoxlu kömək gəlməyə başladı. Şorinin zərbə dəstəsinin hissələri Don Ordu ölkəsi ərazisinin içərilərinə doğru irəlilədikcə onlara göstərilən müqavimət də gücləndi və inadlı olmağa başladı. Yuxarı Don mahalının üsyan qaldırmış kazakları öz təşəbbüsləri ilə mahalın hər tərəfində yığıncaqlar keçirdib ucdantutma səfərbərlik elan edir, kilsələrdə dua edəndən sonra oradan dərhal cəbhəyə yola düşürdülər.

Şorinin zərbə qrupu vuruşmaların ardını-arasını kəsməyərək, Xopra və Don çaylarına doğru irəliləyir, ağların qızğın müqavimətini qırır, əhalisinin əksəriyyəti qırmızılara qarşı açıqdan-açığa düşmən olan ərazidə iş görməli olurdu, buna görə də öz hücum şövqünü gündən-günə itirirdi. Bu vaxt ağların komandanlığı Kaçalinskaya stanitsası ilə Kotluban stansiyaları rayonunda üç Kuban korpusu ilə 6-cı piyada diviziyasından ibarət böyük bir əməliyyat qrupu düzəltmişdi, hərbi əməliyyatı daha çox müvəffəqiyyətlə inkişaf etdirməkdə olan 10-cu ordu üzərinə zərbə endirməyə hazırlaşırdı.

XXI

Melexovların ailəsi bir il ərzində yarıbayarı azaldı. Panteley Prokofyeviç bir gün ölüm qapımızı tanımışdır deməkdə haqlı idi. Natalyanı yenicə dəfn eləmişdilər ki, Melexovların geniş otağını buxur və peyğəmbər çiçəyi bürüdü. Qriqori cəbhəyə yola düşəndən on gün sonra Darya Donda boğuldu.

Şənbə günü çöldən qayıdandan sonra, Darya Dunyaşka ilə çayda çimməyə getdi. Dirriklərin yanında pal-paltarlarını soyunub, yumşaq və tapdaq otun üstündə xeyli oturdular... Hələ səhər ertədən Daryanın kefi yox idi, baş ağrısından və süstlükdən şikayətlənirdi, bir neçə dəfə də xəlvətcə ağlamışdı... Dunyaşka suya girməzdən əvvəl saçlarını təpəsində düydü, ləçəyi ilə bağladı və gözaltı Daryaya baxıb təəssüflə dedi:

– Yamanca arıqlayıbsan, Daşka, bütün damarların görünür!

– Tezliklə kökələrəm!

– Başının ağrısı kəsibmi?

– Kəsib. Di gəl çimək, yoxsa vaxt keçir. – O qaça-qaça birinci olaraq suya atıldı, baş vurdu, sonra başını sudan çıxardaraq, ağzına dolmuş suyu fınxıra-fınxıra boşaldaraq, suyun ortasına üzdü. Sürətli axın onu götürüb aparmağa başladı...

Daryanın kişilər kimi qollarını gen ata-ata üzməsindən şövqlənmiş Dunyaşka da belinə qədər suya girdi, əlini-üzünü yudu, sinəsini və günəşdən isinmiş qüvvətli, qadınlara xas olan koppuş qollarını islatdı. Yaxınlıqdakı dirrikdə Obnizovların gəlinləri kələm sulayırdılar. Onlar Dunyaşkanın gülə-gülə Daryanı necə səslədiyini eşidirdilər:

– Daşka, geriyə üz. Yoxsa orada naqqa balığı səni udar!

Darya geriyə yönəldi, üç sajın qədər üzdü, sonra bədənini bir an qədər sudan yarıya qədər çıxartdı, qollarını başı üzərində cütləyərək qışqırdı: "Əlvida, qızlar!" O dəqiqə də daş kimi suyun dibinə getdi.

On beş dəqiqədən sonra, rəngi tamamilə ağarmış Dunyaşka əynində yalnız bir dizlik, özünü yüyürə-yüyürə evə yetirdi. Tövşüyə-tövşüyə güclə bunu dedi:

– Darya suda boğuldu, anacan!..

Daryanın meyitini yalnız ertəsi günün səhəri balıqçı qarmağı ilə çəkib çıxartdılar. Tatarskda ən qoca və təcrübəli balıqçı olan Arxip Peskovatskov, dan yeri ağaranda Daryanın batdığı yerdən aşağıya doğru balıqçı ipinə altı qarmaq keçirdib suya saldı, yoxlamağa isə Panteley Prokofyeviçlə birlikdə getdi. Sahilə çoxlu arvad-uşaq yığışmışdı, Dunyaşka da bunların arasında idi. Arxip küreyin ucunu dördüncü ipə ilişdirib qayığı sahildən on sajın qabağa sürəndə, Dunyaşka onun yavaşca da olsa bu sözləri dediyini eşitdi: "Deyəsən, buradadır..." Bundan sonra qoca dərində olan ipi, ağırlaşdığına görə güc verə-verə, lakin ehtiyatla dartmağa başladı. Sonra sağ sahildə nə isə ağardı, qocaların hər ikisi suyun üzərinə əyildilər, qayığın qırağından su doldu; qaldırılaraq qayığın içərisinə atılmış insan cəsədinin küt tappıltısını kipkirimiş, tamaşaya durmuş adamlar da eşitdi. İzdiham rahat nəfəs aldı. Arvadlardan birisi yavaşca hönkürdü. Yaxında dayanmış Xristonya uşaqların üstünə zodlu-zodlu qışqırdı: "Haydı, buradan rədd olun!" Dunyaşka göz yaşları arasından gördü ki, Arxip qayıqda ayaq üstə durmuşdur, küreyi səssizcə və məharətlə suya salıb avar çəkir, sahilə doğru üzür. Qayıq gəldi, sahildəki tabaşirli torpağı xışıltı və xırçıltı ilə yardı, torpağa dirəndi. Daryanın ayaqları qatıb ağaca dönmüş, yanağının biri qayığın sulu tərkinə yapışmışdı. Onun ağ, azacıq göyərmiş, bir növ mavi görkəm almış bədənində dərin dəliklər görünürdü Bunlar ətinə batmış qarmaqların yeri idi. Arıq, qarabuğdayı baldırlarında, dizindən bir az aşağıda, qalın corabbağı yerində (çimməyə hazırlaşanda Darya görünür bunu açmağı unutmuşdu) təzəcə cırmaq yeri vardı, qan axırdı. Qarmağın ucu ayağına doğru sürüşmüş, oranı əyri bir xətt şəklində yaralamışdı. Dunyaşka önlüyünü rəşəli bir hərəkətlə əlində əzişdirərək, hamıdan əvvəl Daryaya yaxınlaşdı və tikiş yeri sökülmüş kisəni onun üstünə saldı. Panteley Prokofyeviç vacib

iş görən adamlar kimi, cəld şalvarının balağını çirmədi, qayığı qırağa dartmağa başladı. Tezliklə at arabası da gəldi. Daryanı arabaya qoyub Melexovların həyətinə apardılar.

Dunyaşka qorxuya və iyrənməyə dov gəlib, Daryanın soyuq, çayın dərin yerlərinin buz kimi soyuqluğunu hələ də saxlamış meyitini yumağa anasına kömək elədi. Daryanın bir qədər şişmiş sifətində, sudan rəngini itirmiş gözlərinin tutqun işıltısında nə isə yabançı və ciddi bir ifadə var idi. Saçlarının arasına dolmuş çay qumu gümüş kimi parıldayırdı, ipək kimi yumşaq yaşıl yosun yanağına yapışmışdı, taxtın kənarından taqətsiz halda aşağıya sallanmış qollarında isə elə qorxunc bir süstlük var idi ki, Dunyaşka ona baxan kimi tez uzaqlaşır, ölü Daryanın dünənə qədər zarafat edən, deyib-gülən, həyatı sevən Daryaya heç də bənzəmədiyinə heyrət edib dəhşətlənirdi. Hələ bu hadisədən xeyli keçəndən sonra da Dunyaşka Daryanın məmələrinin və qarnının, daş kimi soyuq, qatıb ağaca dönmüş qeyri-üzvlərinin bərkliyini xatırladıqda bədəni uçunur, bütün bu həngaməni tez unutmağa cəhd edirdi. Dunyaşka qorxurdu ki, ölmüş Darya onun yuxusuna girər; buna görə də düz bir həftə anası ilə yatdı; hər gecə də yatmazdan əvvəl dua edir, ürəyində deyirdi: "Xudaya! Elə et ki, o mənim yuxuma girməsin! Onu məndən uzaqlaşdır, ya Rəbbi!"

Obnizovların gəlinləri, Daryanın "Əlvida, qızlar!" deyə bağırdığını danışmasaydılar, Daryanı sakitcə, səssiz-küysüz dəfn edəcəkdilər, lakin Daryanın özünə qəsd etmək niyyətində olduğuna aşkar bir sübut olan bu qışqırtı məsələsini eşidən kimi, keşiş Vissarion qətiyyətlə bildirdi ki, özünü öldürmüş adamın meyitini dualamayacaqdır. Panteley Prokofyeviç özündən çıxdı:

– Necə yəni dualamayacaqsan? Deməli səncə o xristian deyil?

– Özünü öldürənləri mən dəfn edə bilmərəm, buna şəriət yol vermir.

– Bəs səncə onu neyləyək, aparaq it kimi quylayaq?

– Məncə sən onu harada istəyirsən, necə istəyirsən elə də dəfn et, amma qəbiristanlığa aparma, çünki orada namuslu xristianlar dəfn edilmişdir.

Panteley Prokofyeviç yalvarmağa başladı:

– Sən gəl insaf elə, bizi yola ver! Bizim ailədə heç bir zaman belə bədnamlıq olmamışdır.

– Yox, bacarmaram. Sənə, Panteley Prokofyeviç, mömin adam kimi hörmətim var, amma bunu edə bilməyəcəm. Əhvalatı gedib baş keşişə xəbər versələr, mütləq başım qalmaqala düşər, – deyə keşiş tərsliyindən əl çəkmirdi.

Bu rüsvayçılıq idi. Panteley Prokofyeviç inadından əl çəkməyən keşişi yola gətirmək üçün çox çalışdı, artıq pul verəcəyini, haqqını etibarlı Nikolay əsginası ilə ödəyəcəyini, üstəlik bir qısır qoyunu da peşkəş verəcəyini bildirdi, amma axırda gördü ki, keşişə bütün bu yalvar-yaxar təsir eləmir; onda o da keşişi hədələməyə keçdi:

– Mən, – dedi, – onu qəbiristanlıqdan qıraqda dəfn edəsi deyiləm. O məndən ötəri yad, biganə adam deyil, gəlinimdir. Onun əri qırmızılarla döyüşdə həlak olmuşdur, zabit idi, qadının özü isə Georgi medalı ilə təltif edilmişdir, sən də başlamısan mənə çərənpərən danışmağa?! Yox, ay keşiş ağa, sənin dediyin baş tutmayacaqdır; sən onu dəfn edəcəksən, həm də lazımi qaydasında! Qoy onun meyiti hələlik orada dəhlizdə qalsın, mən də gedim bu əhvalatı bu saat stanitsa atamanına çatdırım. O, səninlə danışar.

Panteley Prokofyeviç xudahafizləşmədən keşişin evindən çıxdı, hətta çıxanda qapını hirsli-hirsli çırpdı. Bununla belə onun təhdidi təsirini göstərdi: yarım saatdan sonra keşiş Vissarion adam göndərdi ki, indicə dua kitabını da götürüb gələcəkdir.

Daryanı el qaydası ilə qəbiristanda Petro ilə yanaşı dəfn etdilər. Qəbir qazanda Panteley Prokofyeviç özünə də yer seçdi. Yeri qaza-qaza ətrafa göz gəzdirdi, götür-qoy elədi ki, bundan yaxşı yer yoxdur və axtarmaq da lazım deyil. Petronun qəbri üzərində bu yaxınlarda əkilmiş qovaq ağacının budaqları xışıldayırdı; yaxınlaşmaqda olan payız artıq ağacın zirvəsində yarpaqları saraltmış, soldurmuşdu. Danalar dağılmış çəpərin arasından qəbirlərə doğru cığır salmışdılar; çəpərin yanından yel dəyirmanına yol gedirdi; ölənlərin qayğıkeş qohum-əqrəbalarının əkdikləri ağaclar – ağcaqayınlar, qovaqlar, akasiyalar, cır göyəm kolları öz yaşıllıqları ilə ətrafa şənlik və təravət yayırdı; onların dövrəsini sarmaşıq basmışdı, ikinci dəfə göyərmiş vəzərək saralmış, haçaquyruqlar və ayrıq otları sünbülləmişdi. Xaçlara aşağıdan yuxarıya göyçək sarmaşıqlar dolanmışdı. Bu yerlər doğrudan da ürəkaçan və quru idi...

Qoca qəbir qazır, tez-tez dayanır; nəm gilli torpağın üstündə əyləşib papiros çəkir, ölüm haqqında fikirləşirdi. Lakin zəmanə,

deyəsən, xarab olmuşdu; elə zəmanə deyildi ki, qoca kişilər doğma yurdlarında rahatca ölsün, dədələri-babaları yatdığı yerdə əbədi istirahət məkanı tapıb dincəlsinlər...

Darya dəfn olunduqdan sonra Melexovların evində sakitlik bir az da artdı. Taxılı daşıyıb gətirir, xırmanda çalışır, dirriklərdən bol məhsul götürürdülər. Qriqoridən bir xəbər gözləyirdilər, lakin o cəbhəyə yola düşəndən bəri heç bir xəbər-ətər yox idi. İliniçna dönə-dönə söylənirdi: "Lənətə gəlmiş, uşaqlarına salam da göndərmir! Arvadı öldü, indi daha bizim heç birimiz ona gərək deyilik..." Sonra isə hərbi xidmətdə olan kazaklar Tatarskiyə tez-tez gəlməyə başladılar. Belə bir şayiə yayıldı ki, kazakları Balaşov cəbhəsində əzişdiriblər, Dona doğru geri çəkilirlər ki, çayın sərhəd olmasından istifadə edərək, qışa qədər özlərini müdafiə etsinlər. Bəs qışda nə olacaqdır? Səbhəçilərin hamısı bu haqda açıqca belə deyirdilər: "Donda buzlar əriyən kimi qırmızılar bizi düz dənizə qədər qovacaqlar!"

Taxıl döyməklə məşğul olan Panteley Prokofyeviç Don boyunca hər yerə yayılmış şayiələrə sanki o qədər də məhəl qoymurdu, amma ətrafında baş verən hadisələrə laqeyd qala bilmirdi. O, İliniçnanın, Dunyaşkanın üstünə indi daha çox və tez-tez çığırırdı, cəbhənin yaxınlaşdığını biləndən daha da hövsələsiz olmuşdu. O hərdənbir təsərrüfata gərək olan bir şey sazlayırdı, amma iş sahmanlı çıxmadıqda, onu tüpürə-tüpürə, söyə-söyə qeyzlə kənara tullayır, hirsini soyutmaq üçün tez xırmana qaçırdı. Dunyaşka onun bu cür hövsələdən çıxmasının dəfələrlə şahidi olmuşdu. Bir gün qoca boyunduruğu sahmanlamağa başladı, ancaq bir şey çıxmırdı, belə olduqda kişi cinləndi, baltanı götürdü, boyunduruğu əzib qamqalaq elədi. Xamutu yamayanda da belə oldu. Panteley Prokofyeviç axşam çıraq işığında sap eşdi, xamutun cırılmış yerini tikməyə başladı; sapmı çürük idi, qocamı əsəbiləşirdi, qərəz, nədənsə sap dalbadal iki dəfə qırıldı, onun cinlənməsi üçün elə bu da bəs idi: Panteley Prokofyeviç dəhşətli bir söyüş söydü, dik atıldı, altındakı kürsü aşdı, o da kürsüyə bir təpik ilişdirdi, sobanın yanına tolazladı və it kimi mırıldana-mırıldana xamutun dəridən çəkilmiş köbəsini dişləri ilə dartıb qopartmağa başladı, axırda xamutu ayağının altına saldı, xoruz kimi atılıb düşə-düşə onu o ki var tapdaladı. Ertədən yatmış İliniçna səs-küy eşidib, qorxmuş halda oyandı, dik atıldı,

lakin diqqətlə baxdıqda işin nə yerdə olduğunu gördü, səbri tükəndi, qocanı danlamağa başladı:

– Qoca vaxtında, ay məlun, lap ağlın azmışdır! O xamıtın təqsiri nədir?

Panteley Prokofyeviç çılğınlaşmış gözlərini arvadının üzünə bərəldərək çığırdı:

– Kəs səsini filan-filan olmuş!!! – Bunu deyər-deməz xamutun bir parçasını qapıb qaldırdı, qarının təpəsinə endirdi.

Dunyaşka gülməyini zorla saxlayıb, güllə kimi dəhlizə yüyürdü. Qoca bir az da tufan salandan sonra sakitləşdi, qəzəbləndiyi, arvadına ağır sözlər dediyi üçün ondan üzr istədi və uzun zaman içini arıtlayaraq, peysərini qaşıyaraq, başabəla xamutun cırıqlarına baxa-baxa qaldı, ürəyində götür-qoy elədi ki, bunlar indi görəsən, nəyə məsrəf oluna bilər? Bu cür şiddətli hirslənmə halları onda dəfələrlə baş verirdi, ancaq başı çox bəlalar çəkmiş İliniçna bu dəfə işə başqa cür müdaxilə etməyi qərara aldı: Panteley Prokofyeviç ağzını açıb gözlərini yumaraq, dişinin dibindən çıxanı yağdıranda, evə-eşiyə gərək olan bir şeyi qıranda, qarı itaətkarcasına, amma kifayət qədər ucadan deyirdi: "Vur, Prokofiç! Dağıt, sındır! Sağlıq olsun, yenə qazanıb alarıq!" Hətta həmin şeylərin qırılmasında-dağılmasında ərinə kömək də eləyirdi. Bunu görən kimi Panteley Prokofyeviçin hirsi o dəqiqə yatır, bir an qədər heç nə dərk etməyən gözləri ilə arvadına baxır, sonra isə əlləri əsə-əsə ciblərini qurdalayır, kisəsini axtarır, tapır, kor-peşman gedib bir tərəfdə oturur, papiros çəkirdi, beləliklə, hədəqədən çıxmış əsəblərini sakitləşdirir, həm də öz aləmində ona nə qədər ziyan dəydiyini hesablayırdı. Bağçaya soxulmuş üçaylıq çoşqa da kəmhövsələ qocanın qəzəbinin qurbanı oldu. Panteley Prokofyeviç paya ilə vurub onun belini qırdı, beş dəqiqədən sonra isə başını kəsdiyi çoşqanın tüklərini mıxla yolub təmizləyəndə qaşqabağı yerlə gedən İliniçnanın üzünə təqsirkar adam kimi yaltaqcasına baxa-baxa deyirdi:

– Bu çoşqa da matah bir şey deyildi, başımıza bəla idi... Onlu da, onsuz da gəbərməli idi. Elə bu vaxtlarda onların içinə taun naxoşluğu düşür; yaxşı ki, indi ətini bişirib yeyəcəyik, yoxsa hədər yerə puç olacaqdı. Düzmü deyirəm, qarı? Hı, nə olub, yenə qara bulud kimi tutulubsan? Cəhənnəmə ki, çoşqa tələf olmuşdur! Barı çoşqa olsaydı, yenə adamı yandırardı, amma çoşqa deyil, ölüvay bir şey idi! Onu nəinki

paya ilə, lap çubuqla da vursan yıxmaq olardı! Həm də necə ziyankar idi, bilirsənm?i! Qırx kartof kolunu eşələyib atım-atım eləmişdir!

İliniçna sakitcə onun səhvini düzəltdi:

– Bağçada heç cəmisi otuz kol kartofumuz yoxdur!

– Nə olsun ki, qırx kol olsaydı, elə murdar heyvandır ki, qırxını da murdarlardı! Allaha çox şükür olsun ki, bu yağının əlindən canımız qurtardı! – deyə qoca fikirləşmədən ona cavab verdi.

Uşaqlar atalarını yola saldıqdan sonra darıxırdılar. Evlə-eşiklə məşğul olan İliniçna onlara lazımınca fikir verə bilmirdi; başlıbaşına qalmış uşaqlar da səhərdən axşamadək ya bağda, ya da xırmanda oynayırdılar. Bir gün nahardan sonra Mişatka yoxa çıxdı və evə yalnız gün batanda gəldi. İliniçnanın harada idin sualına Mişatka cavab verdi ki, çay yaxınlığında uşaqlarla oynayırdım, lakin Polyuşka buradaca onun yalan danışdığını bildirdi:

– Yalan deyir, nənəcan! O Aksinya xalanın yanında idi!

Bu xəbərdən xoşagəlməz bir heyrətə düşmüş İliniçna soruşdu:

– Bəs sən bunu haradan bilirsən?

– Mən onun Aksinyagilin həyətindən, çəpərdən aşdığını gördüm.

– Onlarda idin? Hə, danış, qurbanın olum, daha niyə qızarırsan?

Mişatka düz nənəsinin gözlərinin içinə baxdı, cavab verdi:

– Mən, nənəcan, düz danışmadım, səni aldatdım... Doğrudur, mən çayın yaxınlığında deyildim, Aksinya xalanın yanında idim.

– Bəs sən oraya niyə gedibsən?

– O məni çağırdı, mən də getdim.

– Bəs onda niyə deyirdin ki, uşaqlarla oynayırdım?

Mişatka bir an qədər donuxdu, lakin sonra doğruluq ifadə edən balaca gözlərini nənəsinin üzünə zilləyib pıçıldadı:

– Qorxurdum ki, mənə acıqlanarsan...

– Mən nəyə görə sənə acıqlanmalı idim ki? Yo-x... Bəs o səni nə üçün çağırmışdı? Sən onun yanında nə edirdin?

– Heç nə. O məni görən kimi səslədi: "Yaxına gəl!" Mən də getdim, o məni otağa apardı, stulun üstündə oturtdu...

– Hə, sonra? – deyə səbri tükənmiş İliniçna soruşdu, o, həyəcanını məharətlə gizlətdi.

– ...Soyuq, yağlı fətir yedirtdi, sonra da bunu verdi, bax. – Mişatka cibindən bir parça qənd çıxartdı və qəndi iftixarla göstərib təzədən cibinə qoydu.

– Bəs sənə nə dedi? Bəlkə bir şey soruşmuşdur?

– Deyirdi ki, tez-tez yanıma gəl, təklikdən darıxıram, mənə sovqat da verəcəyini vəd etdi... Bir də tapşırdı ki, onun yanına getdiyimi heç kəsə deməyim. Yoxsa, dedi, nənən bilsə dalaşar.

Nifrətini boğmaqdan qəhərlənmiş İliniçna səsləndi:

– Belə de... hə, səndən daha başqa şey də xəbər aldımı?

– Xəbər aldı.

– Nəyi xəbər aldı? Sən hamısını danış, qadan alım, qorxma!

– Soruşdu ki, atasız darıxırsanmı? Mən də dedim ki, darıxıram. Bir də soruşdu ki, o nə vaxt gələcəkdir, onun haqqında nə danışırlar; dedim ki, bilmirəm, o müharibədə dava eləyir. Axırda o məni dizinin üstündə oturtdu və mənə nağıl söylədi. – Mişatka şənləşdi, gözləri işıldadı, gülümsündü. – Yaxşı bir nağıl! Qazların, quların qanadları üstündə süzən Vanya ilə küpəgirən qarının nağılını.

İliniçna dodaqlarını bir-birinə kip qısaraq, Mişatkanın söhbətini axıradək dinlədi, ciddi surətdə tapşırdı:

– Bir daha, bala, onun yanına getmə, lazım deyil. Onun verdiyi sovqatı-zadı da alma, lazım deyil, yoxsa baban bilər, səni kötəkləyər! Allah eləməsin, bu əhvalatı baban bilsin, dərini soyar! Getmə ora, başına dönüm!

Lakin ciddi tapşırıq verilməsinə baxmayaraq, iki gündən sonra Mişatka yenə Astaxovların evinə getdi. İliniçna bunu Mişatkanın köynəyinə baxanda başa düşdü; uşağın köynəyinin qolu cırılmışdı, səhər qarının bunu tikməyə macalı olmamışdı, amma budur, həmin cırıq qəşəngcə tikilmişdi, yaxalığında da təptəzə bir düymə sədəf kimi parıldayırdı. İliniçna taxıl döyümünə başı qarışmış Dunyaşkanın gündüz uşaq paltarını yamamağa, tikməyə vaxtı olmadığını bilə-bilə Mişatkanı danladı:

– Yenə qonşuya getmişdin?

– Getmişdim... – deyə Mişatka özünü itirmiş halda cavab verdi və dərhal əlavə etdi: – Daha getməyəcəyəm, nənəcan, daha dalaşma...

Həmin günü İliniçna qərara aldı ki, Aksinya ilə danışsın, ona qəti bildirsin ki, Mişatkanı rahat buraxsın, peşkəşlərlə, nağıl söyləməklə onun qəlbini ələ almaqdan vaz keçsin. "Allahın lənətinə gəlmiş Natalyanı çərlədib öldürdü, indi də cəhd edir ki, uşaqlar ona isinişsin, sonra da onların vasitəsi ilə Qriqorini dolaşdırsın. Vay səni, əfi ilan! Əri ola-ola başqasının gəlini olmaq niyyətindədir! Elə biabırçılıqdan sonra məgər Qrişka onu alar?" – Qarı belə fikirləşirdi.

Qriqori evdə olduğu zaman Aksinya ilə görüşməkdən çəkinirdi; bu ananın hər şeyi sezən və qısqanan baxışlarından yayınmamışdı. İliniçna başa düşürdü ki, oğlu adamların məzəmmətindən ehtiyat etdiyinə görə yox, arvadının ölümündə Aksinyanı müqəssir hesab elədiyinə görə belə edir. İliniçna ürəyində ümid edirdi ki, Natalyanın ölümü Qriqorini Aksinyadan həmişəlik uzaqlaşdıracaq və Aksinya heç vaxt onların ailəsinə ayaq basa bilməyəcəkdir.

Həmin günün axşamı İliniçna Donun kənarında körpüdə Aksinyaya rast gəldi, onu yanına çağırdı:

– Bir hovurluğuna yaxına gəl, səninlə danışmaq lazımdır...

Aksinya vedrələri yerə qoydu, sakitcə yaxınlaşdı, salam verdi.

İliniçna qonşusunun göyçək, amma onun nəzərində mənfur simasına diqqətlə baxıb sözə başladı:

– Bilirsənmi, nə var, əzizim. Sən niyə başqalarının uşaqlarını tovlaşdırıb yanına aparırsan? Nə üçün bizim oğlanı yanına çağırırsan, onu dilə tutursan? Onun köynəyinin qolunu tikməyi, şey bağışlamağı səndən kim xahiş eləmişdir? Sən də güman edirsən anaları öldüyü üçün onlara baxan yoxdur? Sənsiz onların işi aşmaz? Arınnamusun yoxdur, həyasız-həyasız hələ üzümə də baxırsan?

– Mən nə pis iş görmüşəm ki? Niyə məni danlayırsınız, ay nənə? – deyə Aksinya bərk pörtmüş halda soruşdu.

– Necə yəni "nə pis iş görmüşəm ki?" Natalyanın ölümünə bais sən özün olduğun halda, sənin nə ixtiyarın var onun uşaqlarına əlini toxundurasan?

– Nə danışırsınız, nənəcan! Hövsələnizi basın! Kim onun ölümünə bais olmuşdur? Natalya özü özünü öldürmüşdür.

– Nədən ötəri? Sənin ucbatından öldürmədimi?

– Mənim bundan xəbərim yoxdur, bilmirəm.

– Sən bilmirsən, amma mən bilirəm, – deyə həyəcanlanmış İliniçna onun üstünə çığırdı.

– Çığır-bağır eləməyin, nənəcan, mən sizin gəlininiz deyiləm ki, üstümə çığırasınız. Çığırmağa adam var – ərim var.

– Mən sənin nə fikirdə olduğunu aşkar görürəm! Nə xəyalda olduğunu görürəm! Gəlinim deyilsən, amma olmaq üçün irəli dürtülürsən! Əvvəlcə uşaqları özünə alışdırmaq, sonra da Qrişkanın əl-ayağını yığmaq istəyirsən?

– Mən sizə gəlin olmağa hazırlaşmıram. Sizin ağlınız başınızdan çıxmışdır, ay nənə! Mənim sappasağ ərim var.

– Elə iş də orasındadır ki, sən bu dipdiricə ərindən canını qurtarıb, başqasına yapışmağa cəhd eləyirsən!

Aksinya hiss olunacaq dərəcədə ağardı:

– Heç bilmirəm nəyə görə mənim üstümə çığırır, məni rüsvay eləyirsiniz?.. Mən heç vaxt heç kəsə yapışmamışam və yapışmağa hazırlaşmamışam, sizin nəvənizi çağırıb yanıma aparmışamsa, bunda nə yamanlıq var? Siz özünüz də bilirsiniz ki, mənim uşağım yoxdur, başqalarının uşağını görəndə sevinirəm, təsəlli tapıram, mən də onu çağırdım... Eşidən də elə bilər ki, mən ona nə bağışlamışam! Mən ona bir parça qənd vermişəm, məgər bu da şey bağışlamaqdır? Bir də ki, mən ona nədən ötəri şey bağışlamalıyam? Allah göstərməsin, ağzınıza nə gəlir deyirsiniz...

– Gərək ki, anasının sağlığında sən onu heç yanına çağırmazdın! Amma Natalya ölüb, rəhmli olmusan!

– O mənim yanıma Natalyanın sağlığında da qonaq gəlib, – deyə Aksinya hiss ediləcək halda gülümsündü.

– Yalan danışma, həyasız!

– Siz əvvəlcə bunu ondan xəbər alın, sonra məni yalançı adlandırın.

– Müxtəsər, nə olubsa, olub, amma bundan sonra uşağı dilə tutub yanına aparma. Həm də elə güman etmə ki, sən bu hərəkətinlə Qriqorinin nəzərində əziz adam olarsan. Sən onun arvadı ola bilməyəcəksən, bunu yaxşı yadında saxla!

Qəzəbindən üz-gözü əyilmiş Aksinya boğula-boğula dedi:

– Sus! O bunu səndən soruşmayacaqdır. Sən gəl başqalarının işinə qarışma!

İliniçna ona daha nə isə demək istədi, amma Aksinya kirimişcə dönüb vedrələrə yaxınlaşdı, vedrə ağacını cəld çiyninə qaldırdı, suyu saçalada-saçalada cığırla yeyinlədi.

O vaxtdan bəri Aksinya rast gəldikdə Melexovlardan heç birinə salam vermir, iblisanə bir qürurla, burnunun pərləri qabarmış halda yan keçirdi, lakin bir yerdə Mişatka gözünə görünən kimi ətrafına döyükürdü, yaxınlıqda heç kəs olmadıqda, qaça-qaça onun yanına gəlir, əyilib onu qucaqlayır, bağrına basır, günəşdən qaralmış balaca alnından, Melexovlara xas olan qəmli, balaca qara gözlərindən

öpür, gah gülərək, gah da ağlayaraq pıçıldayırdı: "Qriqorinin oğlu, mənim əzizim! Mənim qəşəngim! Görürsənmi, mən sənsiz necə darıxıram! Sənin bu Aksinya xalan axmaq adamdır... Ax, heç bilmirsən necə axmaqdır!" Bundan sonra titrək bir təbəssüm onun dodaqlarını uzun zaman tərk etmir, yaşarmış gözləri isə cavanca qız gözləri kimi bəxtiyarlıqla parıldayırdı.

Avqustun sonunda Panteley Prokofyeviçi də səfərbərliyə apardılar. Silah götürməyə qadir bütün kazaklar Tatarskdan cəbhəyə getdilər. Xutorda kişi xeylağı indi yalnız əlillər, yeniyetmələr, bir də çox qoca olan kişilər qaldı. Səfərbərlik ucdantutma idi, buna görə də tibb komissiyalarında, şikəstliyi məlum olanlardan başqa heç kəs əsgərlikdən azad edilmədi.

Panteley Prokofyeviç toplaşma məntəqəsinə getmək haqqında xutor atamanından əmr alan kimi, cəld qarı ilə, nəvələri və Dunyaşka ilə vidalaşdı, içini arıtlayaraq dizi üstə çökdü, iki dəfə yerə qədər təzim etdi, ikonalar tərəfə xaç çevirib dedi:

– Salamat qalın, mənim əzizlərim! Belə ki, görürəm, deyəsən, biz bir də görüşməyəcəyik, görünür, ömrümün axır günləridir. Mənim sizə tapşırığım budur: taxılımızı gecə də döyün, gündüz də, yağışlar başlanana qədər qurtarmağa çalışın. Lazım olsa adam tutun, sizə kömək eləsin. Payızadək qayıtmasam, işlərinizi mənsiz aşırın; gücünüz çatdığı qədər herik şumu edin, heç olmasa bircə desyatin buğda əkin. Bura bax, qarı, gözün işin üstündə olsun, qolların boşalıb yanına düşməsin! Qriqori ilə mən qayıtsaq da, qayıtmasaq da sizə taxıl hər şeydən çox lazım olacaq. Müharibə öz yerində, amma taxılsız yaşamaq olmaz! Di Allah amanında!

İliniçna qocanı meydana qədər ötürdü, onun Xristonya ilə yanaşı yeridikcə necə axsamasına, arabaya çatmağa tələsməsinə son dəfə olaraq bir də baxdı, sonra isə ağlamaqdan şişmiş gözlərini yaylığının ucu ilə sildi, dönüb dala baxmadan evinə yönəldi. Xırmanda döyülməmiş buğda onu gözləyirdi, süd hələ sobanın içində idi, uşaqlar səhərdən ac idilər; qarının o qədər görüləsi işi var idi ki, heç yerdə dayanmadan evə tələsir, təkdənbir rastına gələn arvadlara baş əyib kirimişcə salam verir, amma heç kəslə danışmırdı; yalnız tanış qadınlardan biri ona canı yanıb: "Kişini əsgərliyə yola salıb gəlirsən, deyəsən?" – soruşduqda başını əyərək təsdiq etməklə kifayətlənirdi.

Bir neçə gündən sonra, İliniçna səhər tezdən inəkləri sağıb küçəyə qovdu, yenicə həyətə qayıtmaq istəyirdi ki, qulağına bir cür boğuq, usandırıcı uğultu gəldi. O, hər tərəfi nəzərdən keçirdi, göydə bir dənə də olsun bulud görmədi. Bir az keçəndən sonra həmin uğultu bir də eşidildi.

İnəkləri bir araya yığan qoca naxırçı soruşdu:

– Eşidirsənmi, ay arvad musiqini?

– Nə musiqi, a kişi?

– Bax o təkcə yoğun səs çıxardan musiqini.

– Səsini eşidirəm, amma bunun nə olduğunu başa düşə bilmirəm.

– Çox çəkməz başa düşərsən. O taydan xutora güllə yağanda, o dəqiqə anlayacaqsan! Bunlar atəş açan topların səsidir. Bizim qocaların içalatını bayıra tökürlər...

İliniçna bir də xaç çevirdi, kirimişcə qapıya doğru getdi.

O gündən top atəşinin səsi ara vermədən dörd gün gurladı. Atılan topların səsi xüsusən dan yeri ağaranda yaxşı eşidilirdi. Şimal-şərq küləyi əsəndə isə uzaqlarda gedən döyüşlərin gurultusu gündüzlər də eşidilməkdə idi. Xırmanlarda arvadlar bir hovurluğuna işi dayandırır, xaç çevirir, qohumlarını yadlarına salıb dərindən ah çəkir, dodaqlarında dua pıçıldayır, sonra isə üstünə çoxlu daş yığılmış vəllər xırmana sərilmiş dərzlərin üstündə yenə xışıldaya-xışıldaya fırlanır, xırmandöyən yeniyetmələr atların, öküzlərin üstünə qışqırır, sovuruq maşınları şaqqaşaq işləyir, zəhmət günü öz qanun-qaydası ilə davam edirdi. Külək saman tozunu xutora sovurur, havada təzəcə döyülmüş çovdar həşəminin şirin ətri duyulurdu. Günəş göydən yerə od ələyir, lakin hər şeydə artıq yaxınlaşmaqda olan payızın hənirtisi hiss olunurdu. Örüşdə gömgöy görsənən yovşan çiçəklədikdən sonra tutqun bir şəkildə ağarırdı, Donun o tayında qovaqların başı saralmışdı, bağlarda yaylıq almanın ətri daha da kəskin duyulmaqda idi, uzaq üfüqlər payıza xas bir şəkildə aydınlaşır, bomboş tarlalarda köçməyə hazırlaşmış durna qatarları görünməyə başlayırdı.

Böyük yolla araba karvanları hər gün qərbdən şərqə gedirdi; onlar Don çayının bərələrinə hərbi sursat daşıyırdılar; çay ətrafındakı xutorlarda qaçqınlar görünürdü. Onlar söyləyirdilər ki, kazaklar vuruşa-vuruşa geri çəkilirlər; bəziləri inandırırdılar ki, guya bu qəsdən geri çəkilməkdir, qırmızıları aldatmaq, sonra mühasirəyə alıb məhv etmək üçündür. Tatarsklılardan bəziləri səssiz-küysüz

xutordan getməyə hazırlaşırdı. Adamlar atları, öküzləri bordayır, gecələr taxılı quyulara doldurur, ən qiymətli şeyləri doldurulmuş sandıqlarını gizləyirdilər. Bir neçə gündən bəri uğultusu kəsilmiş kimi görünən top atəşi sentyabrın 5-də təzədən və daha güclü səsləndi, bu dəfə gur və dəhşətli çıxdı. Vuruşmalar Donun qırx verstliyində, Tatarskdan şimal-şərqdə gedirdi. Bir gün sonra isə çayın axarının günbatanında da qızışdı. Cəbhə çaya yaxınlaşırdı.

Xutor əhalisinin əksəriyyətinin çəkilib getməyə hazırlaşdığını bilən İliniçna, Dunyaşkaya getməyi təklif etdi. Qarı özünü itirmiş və çaşbaş qalmışdı, təsərrüfatı, ev-eşiyi nə edəcəyini bilmirdi: bütün bunları buraxıb adamlarla birlikdə çıxıb getsinmi, yoxsa evdəmi qalsın? Panteley Prokofyeviç cəbhəyə yola düşməzdən əvvəl taxılı döyməyi, herik şumu eləməyi, mal-qaraya baxmağı tapşırmışdı, amma cəbhə birdən Tatarsk xutoruna yaxınlaşsa, nə etmək lazım gəldiyi barədə heç nə deməmişdi. Hər ehtimala qarşı İliniçna belə qərara aldı: Dunyaşka ilə uşaqları qiymətli ev əşyası ilə birlikdə həmyerlilərindən birisi ilə yola salacaq, özü isə hətta qırmızılar xutoru işğal etsələr də yerindən tərpənməyəcək, evində qalacaqdır.

Sentyabrın 17-də Panteley Prokofyeviç gözlənilmədən evə gəldi. O Kazanskaya stanitsası yaxınlığından xutora qədər piyada gəldiyindən yaman əziyyət çəkmişdi, acıqlı idi. Yarım saata qədər dincəldikdən sonra keçib stolun dalında oturdu, İliniçnanın bu yaşa kimi görmədiyi bir iştahla yeməyə başladı: bir qara qazan dolusu ətsiz şorbanı içdi, sonra da qaşığı götürüb, darı xəşilinin üstünə cumdu. Heyrət içində qalmış İliniçna təəccüblə əlini əlinə vurdu.

– Bıy, Allah, bu nə cür yeyişdir, Prokofiç! Elə yeyir, elə bil ki, üç gün dilinə çörək dəyməyib!

– Bəs sən nə güman edirdin, elə bilirsən yemişəm, ay axmaq? Düz üç gündür ki, dilimə bir şey dəyməyibdir!

– Bu necə işdir, məgər orada sizi yedirtmirlər?

Panteley Prokofyeviç ağzı xəşillə dolu olduğundan kəlmələri pişik mırıltısını xatırladan bir şəkildə deyərək cavab verdi:

– Elə yeməyi Allah yox eləsin! Axtarıb bir şey çırpışdıra bilsən, yeyirsən, mən isə hələ ki, oğurluğa öyrəşməmişəm. Belə iş cavanların əlindən gələr, onlarda bircə qəpiklik də vicdan qalmamışdır... Onlar bu lənətə gəlmiş müharibə ərzində oğurluğa elə dadanıblar ki, əllərinə keçəni çırpışdırırlar, mən də bu işə əvvəlcə mat qaldım,

qaldım, sonra susdum. Gözlərinə nə görünsə dartır, aparır, sürütləyirlər... Müharibə deyil, Allahın bəlasıdır!

– Sən gəl, birdən çox yemə. Sonra sənə ziyanı dəyər. Ora bax, gör qarnın necə dombalıb, elə bil hörümçəksən!

– Səsini kəs! Get mənə süd gətir, həm də xaması çox olsun!

İliniçna neçə günlərlə ac qalmış ərinə baxdı, baxdı, hövlündən ağladı.

Panteley Prokofyeviç xəşili silib-süpürdükdən sonra İliniçna soruşdu:

– Həmişəliyəmi gəlmisən?

– Orası sonra məlum olar... – deyə kişi başdansovdu cavab verdi.

– Deməli, siz qocaları qoca olduğuna görə evə buraxdılar.

– Heç kəsi buraxmayıblar. Qırmızılar bizimkiləri Dona doğru sıxışdırdıqları bir zamanda, adamları necə buraxmaq olar? Mən özüm gəlmişəm.

– Bunun üstündə səni sorğu-suala çəkməzlər? – deyə İliniçna qorxuya düşdü.

– Əllərinə keçsəm, ola bilsin ki, sorğu-suala çəkəcəklər.

– Bu nədir, yoxsa sən gizlənmək fikrindəsən?

– Bəs sən nə güman edirsən, elə bilirsən toya oynamağa, bir də qonaqlığa gedəcəyəm? Tfu, sənin küt başın batsın! – Panteley Prokofyeviç qəzəblə tüpürdü, amma qarı onun yaxasından əl çəkmədi:

– Ox, gör nə günah iş tutursan! Başımız bəlaya düşəcək, səni bərk sıxışdıracaqlar...

Panteley Prokofyeviç yorğun halda dedi:

– Orada əlimdə tüfəng çöllərdə dolaşmaqdansa qoy burada tutsunlar, aparıb həbsxanaya salsınlar, belə yaxşıdır. Mən onlardan ötəri cavan oğlan deyiləm ki, gündə qırx verst yol gedəm, səngər qazam, hücuma atılam, yerlə sürünə-sürünə irəliləyəm, özümü güllədən qoruyam. Zəhrimar güllədən heç şeytan da canını qurtara bilməz! Krivaya Reçka tərəfdə yaşayan, mənimlə yaşıd bir kazakın sol kürəyinə güllə dəydi, o saat canı çıxdı, heç ayağını da tərpədə bilmədi. Belə işlərin nəyini xoşlayasan!

Qoca tüfəngi və patronları ilə birlikdə patrondaşı aparıb samanlıqda gizlətdi, İliniçna soruşanda ki, bəs zipunun hanı, qaşqabağı yerlə getdi, könülsüz cavab verdi:

– Əldən çıxıb. Doğrusu, tullamışam. Şumilinskaya stanitsasından o tərəfdə bizi elə qısnaşdırdılar ki, dəli kimi hər şeyimizi atdıq

qaçdıq. Elə vaxtda zipun yada düşər!.. Bəzilərinin gödək kürkü var idi, onları da tulladılar... Bir də bu zipun nə matah şeydir ki, yadından çıxmır? Yenə zipun olsaydı, dərd yarı idi, o ki dilənçi köhnəsi kimi bir şey idi...

Əslində zipun möhkəm, təzə idi, amma əlindən çıxmış hər şeyi o heç nəyə yaramayan, lazımsız şey hesab edirdi. Özünə bu qayda təsəlli vermək əzəldən onda bir vərdiş olmuşdu. İliniçna onun bu xasiyyətinə bələd idi, bu səbəbə zipunun yaxşılığı-pisliyi barədə höcətləşmədi.

Gecə ailəvi məşvərətdə belə qərara gəldilər: İliniçna ilə Panteley Prokofyeviç son imkana qədər uşaqlarla birlikdə evdə qalsın, əmlakı qorusun, döyülmüş taxılı yerə basdırsınlar, Dunyaşka isə bir cüt öküz qoşulmuş arabada sandıqları götürüb, Çir çayı tərəfə, Latışev xutoruna, qohumlarının yanına getsin.

Bu planın bir qismi baş tutmadı. Dunyaşkanı səhərçağı yola saldılar, günortaüstü isə Salsk mahalının kazaklarından, kalmıklarından təşkil edilmiş cəza dəstəsi Tatarskiyə təpildi. Deyəsən, Panteley Prokofyeviçin xəlvətcə evə gəldiyini həmyerlilərindən kim isə görmüşdü; cəza dəstəsi xutora girəndən yarım saat sonra dörd nəfər kalmık atlarını Melexovların həyətinə tərəf səyirtdi. Panteley Prokofyeviç atlı gəldiyini görüb görünməmiş bir cəldlik və qıvraqlıqla çardağa dırmaşdı; İliniçna qonaqların qabağına yeridi.

Ortayaşlı, boy-buxunlu, çiynində baş uryadnik poqonu olan bir kalmık atdan düşüb İliniçnanın yanından qapıya doğru yönəldikdə soruşdu:

– Sənin ərin haradadır?

– Cəbhədədir. Harada ola bilər, – deyə İliniçna kobud bir şəkildə cavab verdi.

– Gedək evə, axtarış aparacağam.

– Nəyi axtaracaqsan axı?

– Sənin ərini axtaracağam. Ayıb deyilmi? Qoca arvadsan, amma yalan danışırsan! – deyə dilavər uryadnik başını məzəmmətlə buladı, sıx ağ dişlərini ağartdı.

– Dişlərini ağartma, ay kafir! Sənə dedilər ki, yoxdur, deməli yoxdur!

– Uzun danışma, evə apar! Aparmazsan, özümüz gedərik, – deyə incimiş kalmık acıqlandı, əyri qılçaları ilə iri addımlar ataraq, qətiyyətlə artırmaya yönəldi.

Onlar otaqları yoxladılar, öz aralarında kalmık dilində nə isə danışdılar, sonra iki nəfəri həyəti-bacanı yoxlamağa getdi, bir nəfəri – boyu qısa, sifəti qapqara, üzü çopur və burnu yastı birisi isə kənarında qırmızı zolaq olan enli şalvarının ayağını çırmalamış halda dəhlizə keçdi. İliniçna açıq qalmış qapının arasından gördü ki, kalmık yuxarıya hoppandı, damın dirəyindən ikiəlli yapışdı və qıvraqlıqla dama dırmaşdı. Beş dəqiqədən sonra o quş kimi atılıb damdan yerə düşdü, üstü-başı torpağa bulaşmışdı, saqqalına hörümçək toru yapışmış Panteley Prokofyeviç də hıqqıldaya-hıqqıldaya onun dalınca düşdü. O dodaqlarını bir-birinə kip qısmış qarısına baxıb dedi:

– Tapdılar kafirlər! Deməli, xəbər verən olub.

Panteley Prokofyeviçi keşikçilərin nəzarəti altında Karginskaya stanitsasına apardılar; hərbi-səhra məhkəməsi burada idi; İliniçna isə bir az gözlərinin yaşını axıdaraq, təzədən guruldamağa başlamış top atəşinin səsinə, çayın o tayında aydınca eşidilən pulemyot taqqıltısına qulaq asıb anbara yönəldi ki, taxıldan heç olmasa bir qədərini gizlətsin.

XXII

Əsgərlikdən qaçmış on dörd adam mühakimə olunmaq intizarında idi. Mühakimə müxtəsər və mərhəmətsiz idi. Məhkəmə iclaslarında sədrlik edən çox qoca yasavul məhkəmə məsuliyyətinə cəlb edilmiş şəxsdən familiyasını, adını, atasının adını, rütbəsini və xidmət etdiyi hissəni soruşur, müqəssirin nə vaxt qaçdığını öyrənir, sonra məhkəmə üzvləri ilə – bir qolu kəsik zabitlə, müftə yeməkdən, rahat keçinməkdən yeyib yoğunlamış pələbığ, enlisifət vaxmistrlə üç-dörd kəlmə danışaraq, hökmü elan edirdi. Əsgərlikdən qaçanların çoxuna çubuq cəzası kəsilirdi. Bunu da xüsusi bir otaqda kalmıklar yerinə yetirirdi. 1918-ci ildəki kimi müqəssirləri aşkarda, camaatın gözünün qabağında döymək mümkün deyildi, döyüşən Don ordusunda əsgərlikdən qaçanların sayı-hesabı yox idi...

Panteley Prokofyeviçi say hesabı ilə altıncı müqəssir kimi çağırdılar. O qollarını yanına salıb hakimlər oturan stolun qarşısında dayandı, həyəcanlı idi, rəngi qaçmışdı.

Yasavul danışdırdığı adamın üzünə baxmadan soruşdu:

– Familiyan nədir?

– Melexovdur, cənab.

– Adını, atanın adını de.

– Panteley Prokofyeviç, cənab.

Yasavul başını kağızların üzərindən qaldırdı, qocanın üzünə diqqətlə baxdı.

– Siz haralısınız?

– Vyoşenskaya stanitsasının Tatarsk xutorundanam, cənab.

– Yoxsa siz bölük komandiri Qriqori Melexovun atasısınız?

– Doğru buyursunuz, atasıyam, cənab. – Panteley Prokofyeviç o saat özünə gəldi, hiss elədi ki, deyəsən onun qoca bədəninə vurulacaq çubuqlar uzaqlaşdı.

Yasavul tənəli baxışlarını Panteley Prokofyeviçin arıqlamış sifətindən çəkməyərək soruşdu:

– Mənə baxın, heç əməlinizdən utanırsınız?

Bu zaman Panteley Prokofyeviç nizamnaməni pozdu, sol əlini sinəsinə qoyub, ağlamsınaraq dedi:

– Başına dönüm, cənab yasavul! Məni döydürməyin, ömrüm uzunu canınıza dua eləməyə vadar eləyin! Mənim iki evli oğlum var... böyük oğlumu qırmızılar öldürüblər... Nəvələrim var, belə düşkün qocanı döymək lazımdır məgər?

Qolu kəsik zabit qocanın sözünü kəsdi. Dodaqları əsəbiliklə dartına-dartına dedi:

– Biz qulluq etmək qaydasını qocalara da öyrədirik. Bəs sən nə güman edirdin, elə bilirdin hissədən qaçdığına görə sənə medal verəcəklər?

– Medal mənim nəyimə gərəkdir... Məni öz hissəmə yollayın, namusla, sədaqətlə qulluq edəcəyəm... heç özüm də bilmirəm, necə oldu ki, qaçdım: görünür, məni şeytan yoldan çıxarmışdır... – Panteley Prokofyeviç hələ döyülüb qurtarmamış taxıl barədə, öz axsaqlığı, başlı-başına qalmış təsərrüfatı barədə nə isə rabitəsiz şəkildə söyləyirdi, lakin yasavul əlinin işarəsi ilə onu susmağa vadar elədi, başını zabitə doğru əydi və uzun zaman qulağına nə isə pıçıldadı. Zabit razı olduğunu bildirmək üçün başını tərpətdi, yasavul üzünü Panteley Prokofyeviçə çevirdi:

– Yaxşı. Sözünüzü qurtardınızmı? Mən sizin oğlunuzu tanıyıram və təəccüb edirəm ki, onun bu cür atası var. Siz hissədən nə vaxt qaçmısınız? Bir həftə bundan qabaq? Yaxşı, siz, deməli, istəyirsiniz

ki, qırmızılar xutorunuzu alsınlar, sizin dərinizi soysunlar? Cavan kazaklara göstərdiyiniz nümunə budurmu? Qanuna əsasən biz sizi mühakimə etməli və döydürməliyik, lakin oğlunuzun xatirinə mən sizi bu rüsvayçılıqdan azad edirəm. Siz sıravi əsgərmi idiniz?

– Bəli, cənab.

– Rütbəniz nə idi?

– Kiçik uryadnik olmuşam, cənab!

Yasavul onunla "sən" deyə danışmağa başlayaraq bağırdı, kobud şəkildə əmr etdi:

– Poqonlarını çıxart! Bu saat hissənə yola düş! Bölük komandirinə məlumat ver ki, hərbi-səhra məhkəməsinin hökmünə əsasən uryadniklikdən məhrum edilmisən. Bu müharibədə, ya əvvəlkində təltif olunmusan?.. Get!

Sevindiyindən özünü itirmiş Panteley Prokofyeviç eşiyə çıxdı, üzünü kilsə günbəzinə tutub xaç çevirdi və... təpənin üstü ilə, kənar yerlərlə birbaş evə yönəldi. O, təzə biçilmiş və ot cücərmiş kövşənliklərlə axsaya-axsaya gedəndə belə düşünürdü: "Xeyir a, bu dəfə mən ayrı cürə gizlənərəm. Elə gizlənərəm ki, dalımca üç bölük kalmık da göndərsələr məni tapa bilməz!"

O çöldə belə qərara gəldi ki, yolçuların diqqətini cəlb etməmək üçün yol ilə getsə yaxşıdır. Əkin yerindən çıxıb bağayarpağı basmış köhnə bir cığıra çıxanda ürəyində danışa-danışa belə mühakimə yürüdür və daha nədənsə özünü fərari hesab eləmirdi: "Qıraqdan baxan da, gerçəkdən, elə güman edə bilər ki, mən əsgərlikdən qaçanlardanam. Qulluq adamlarından birisinə rast gələrsən, tutub məhkəməsiz-zadsız çubuqları yanbızına zollarlar".

O Don çayına yaxınlaşdıqca rast gəldiyi qaçqın arabaları da çoxaldı. Yazda üsyançılar Donun sol sahilinə çəkiləndə buralarda baş vermiş hadisələr təkrar olunurdu: çölün hər tərəfində içərisinə ev əşyası doldurulmuş iki və dördtəkərli arabalar hərəkət etməkdə idi, səfəri yürüşdə olan süvariləri andıran mal-qara böyrüşə-böyrüşə gedir, qoyun sürülərinin ardınca toz qalxırdı... Təkərlərin cırıltısı, atların kişnəməsi, adamların qışqırtısı, heyvan dırnaqlarının tappıltısı, qoyunların mələşməsi, uşaqların ağlaşması – bütün bu hay-huy çöllərin sakit qoynunu aramsız və əndişəli bir şəkildə doldurmaqda idi.

Gəlib yoldan keçən, başı tənziflə sarınmış, Panteley Prokofyeviçin tanımadığı bir kazak qışqıra-qışqıra ona dedi:

– Heç bilirsənmi, hara gedirsən, ay baba? Geri qayıt, qırmızılar dalımızca gəlirlər.

Panteley Prokofyeviç çaşbaş qalıb dayandı:

– Yalan danışma, kişi! Qırmızılar haradadırlar ki?

– Donun o tayında. Vyoşkiyə yaxınlaşırlar. Sən də onların yanına gedirsən.

Panteley Prokofyeviç sakitləşib yoluna davam etdi və axşam Tatarskiyə yaxınlaşdı. O, təpədən enəndə ətrafına diqqətlə baxırdı. Xutordakı səssizlik onu heyrətə saldı. Küçələrdə bir nəfər də olsun adam yox idi. Sahibləri tərəfindən tərk edilmiş, qapıları bağlanmış evlərə səssizlik çökmüşdü. Nə bir insan səsi eşidilirdi, nə heyvan böyürtüsü; adamlar yalnız Donun kənarında görünür və yaman qaynaşırdılar. Yaxınlaşdıqdan sonra Panteley Prokofyeviç asanlıqla başa düşdü ki, bunlar silahlı kazaklardır, qayıqları darta-darta xutora tərəf gətirirlər. Xutoru camaat buraxıb getmişdi, – bu Panteley Prokofyeviçə aydın oldu. O, ehtiyatla öz döngələrinə girib evə doğru addımladı. İliniçna nəvələri ilə birlikdə mətbəxdə oturmuşdu.

Mişatka sevinclə babasının boynuna sarılaraq səsləndi:

– Bu da babacığazımız!

İliniçna şadlığından ağladı, göz yaşları içində dedi:

– Səni bir də görəcəyimə ümidim yox idi! Bura bax, Prokofiç, sən özün bilərsən, amma mən burada qalmağa razı deyiləm! Qoy burada nə varsa od tutub yansın, amma qalıb bomboş otaqlara qarovul durası deyiləm. Demək olar ki, xutor camaatının hamısı çıxıb gedib, amma mən, gic kimi, uşaqlarla qalmışam! Bu saat madyanı arabaya qoş, çıxaq, hara gəldi, gedək! Səni buraxdılar?

– Buraxdılar.

– Həmişəliyəmi?

– Həmişəliyə, yəni bir də tutana qədər...

– Odur ha, burada sən də gizlənə bilməyəcəksən! Bu gün tezdən qırmızılar çayın o tayında elə atəş açırdılar ki, adamın bağrı yarılırdı. Atəş ara verincəyədək mən uşaqlarla zirzəmiyə girmişdim. İndi onları geriyə qovublar. Kazaklar xutora gəlir, süd istəyir, həm də köçüb getməyi məsləhət görürlər.

Panteley Prokofyeviç pəncərə çərçivəsinin haşiyəsindən güllənin açdığı təzə deşiyə diqqətlə baxıb maraqlandı:

– Kazaklar bizim yerlilər yox, özgə mahalın adamları idi, eləmi?

– Yox, yerlilərimiz deyildi, deyəsən Xopra tərəfin adamları idi.

– Onda köçüb getmək lazımdır, – deyə Panteley Prokofyeviç ah çəkdi.

O, şər qarışmamış təzək damında bir quyu qazdı, içinə yeddi kisə buğda doldurdu, ağzını torpaqla örtdü, üstünə çoxlu təzək yığdı, qaranlıq qovuşan kimi madyanı balaca arabaya qoşdu, içinə iki kürk, bir kisə un, ayaqları bağlanmış qoyun qoydu, inəklərin hər ikisini arabanın dalında dal şırağula bağladı, İliniçnanı, nəvələrini arabaya oturdub səsləndi:

– İndi gedə bilərik, Allah yaxşı yol versin! – Arabanı sürüb həyətdən çıxartdı, cilovu qarıya verdi, küçə qapısını bağladı, balaca arabanın yanı ilə yeriyərək, düz təpənin başına qədər arxalığının qolu ilə burnunu sildi, gözlərinin yaşını qurutdu.

XXIII

Şorinin zərbə qrupunun hissələri sentyabrın 17-də 30 verstlik yürüş keçirdib Donun lap yaxınlığına çatdı. Sentyabrın 18-də səhər açılanda Medveditsa çayının aşağısından Kazanskaya stanitsasına qədər hər tərəfdə qırmızıların batareyaları gurladı. Piyadalar qısa top atəşi hazırlığından sonra Don ətrafındakı xutorları və Bukanovskaya, Yelenskaya, Veşenskaya stanitsalarını işğal etdilər. Gün ərzində yüz əlli verstdən artıq bir məsafədə çayın sol sahili ağlardan təmizləndi. Kazak hissələri geriyə çəkilir, nizamla Don çayından bu tərəfə keçir, əvvəlcədən hazırlanmış mövqelərini tuturdular. Çaydan keçmək üçün lazım olan vəsaitin hamısı onların əlində idi, amma azca qalmışdı ki, qırmızılar Veşenski körpüsünü alsınlar. Kazaklar geri çəkiləsi olsalar, körpünü yandırmaq üçün vaxtında onun yanına çoxlu küləş yığmış, körpünün taxtası üzərinə güclü neft tökmüşdülər; elə yandırmağa hazırlaşdıqları vaxt çapar xəbər gətirdi ki, 37-ci polkun bir bölüyü Perevoznoy xutorundan Veşenskaya keçidinə gəlməkdədir. Geridə qalmış bu bölük atları dördnala səyirdərək körpüyə o vaxt çatdı ki, qırmızıların piyadaları artıq stanitsaya girmişdi. Kazaklar pulemyot atəşi altında yenə də körpüdən keçə bildilər, on nəfərdən çoxu öldü və yaralandısa da, bir o qədər də atları tələf oldusa da, körpünü yandıra bildilər.

9-cu Qızıl Ordunun 22-ci və 23-cü diviziyalarının polkları Donun sol sahilində işğal etdikləri xutor və stanitsaları sentyabrın sonunadək əllərində saxladılar. Düşmənləri bir-birindən ayıran çay idi; çayın da eni o zaman ən çoxu 80 sajın idi. Qırmızılar çayı keçməyə fəal təşəbbüs göstərmirdilər; onlar bəzi yerlərdə çayı sallarla keçmək istəsələr də geri oturduldular. Bu sahədə bütün cəbhə xətti boyunca iki həftə qızğın top və tüfəng atışması getdi. Kazaklar ətraf ərazi üzərində hakim yerləri – çay kənarına yaxın təpələri tutub, düşmənin çay yaxınlığında topladığı qoşunları güllələyir, gündüzlər ona çaya yaxınlaşmağa imkan vermirdilər; lakin bu sahədəki kazak hissələrinin özləri də döyüş qabiliyyəti məhdud birləşmələrdən – qocalardan, bir də on yeddi-on doqquz yaşlarında cavanlardan ibarət olduqlarından çayı keçməyə, qırmızıları geri oturtmağa və sol sahil boyunca hücuma atılmağa cəhd etmirdilər.

Donun sağ sahilinə çəkildikdən sonra kazaklar birinci gün gözləyirdilər ki, qırmızıların işğal etdikləri xutorlarda od vurulmuş evlərin alovu indicə göylərə qalxacaqdır; lakin onlar çayın sol sahilində kiçicik bir tüstü belə görmədilər, təəccüb elədilər; hələ bu bir yana – gecə çayın o tayından addamış yerlilər xəbər gətirdilər ki, qızıl əsgərlər əhalinin əmlakından heç nəyi götürmür, aldıqları ərzağın, qarpızın və südün dəyərini sovet pulu ilə artıqlaması ilə ödəyirlər. Bu, kazakların arasında şaşqınlıq əmələ gətirdi, onları mat qoydu. Onlara elə gəlirdi ki, üsyandan sonra qırmızılar üsyan qaldırmış bütün xutor və stanitsaları mütləq yandırıb külə döndərməlidirlər; onlar gözləyirdilər ki, əhalinin sağ qalmış hissəsi, heç olmasa hökmən kişilər, amansızcasına məhv ediləcəkdir, amma mötəbər məlumata görə, qırmızılar dinc əhalidən kimsəyə toxunmurdular və bütün əlamətlər onu göstərirdi ki, onlar qisas almaq niyyətində deyillər.

Veşenskayanın qarşısında pusquda durmuş xoperli kazaklar sentyabrın 19-da gecə düşmənin bu qəribə hərəkətlərinin səbəbini öyrənmək üçün kəşfiyyata çıxmağı qərara aldılar; səsi çox güclü olan bir kazak əllərini şeypur kimi tutub qışqırdı:

– Ey, qırmızıbaşlar! Niyə bizim evləri odlamırsınız? Yoxsa kibritiniz yoxdur, üzüb bu tərəfə, yanımıza gəlin, sizə kibrit verərik!

Qaranlıqdan ona zil səsli birisi belə cavab verdi:

– Sizi yaxalaya bilməyiblər, yoxsa evlərinizlə birlikdə yandırardılar!

– Kasıblamısınız? Od vurmaq üçün bir şeyiniz yoxdur? – deyə xoperli kazak yenə sataşdı.

Ona sakitcə və nəşəli-nəşəli cavab verdilər:

– Ay ağ fahişə, sən bu tərəfə üz, sənə elə bir qulaqburması verək ki, dadı damağında qalsın!

Pusqularda uzun zaman bir-biri ilə söyüşdülər, sataşdılar, axırda bir az sakitləşdilər.

İki korpus qədər olan və Kazanskaya-Pavlovsk sahəsində mərkəzləşdirilmiş Don Ordusunun əsas qüvvələri oktyabrın əvvəllərində hücuma keçdi. 8000 nəfər piyadası, 6000-dən çox atlısı olan 3-cü Don korpusu Pavlovskdan bir az bəridə Don çayını keçdi, qırmızıların 56-cı diviziyasını geriyə oturtdu, şərqə doğru müvəffəqiyyətlə irəliləməyə başladı. Tezliklə 2-ci Konovalov korpusu da çayı keçdi. Əsasən süvarilərdən ibarət olması bu korpusa düşmən mövqelərinin xeyli içərilərinə soxulmağa, ona sarsıdıcı zərbələr endirməyə imkan verdi. Qırmızıların bu vaxtadək cəbhə ehtiyatında saxladıqları, amma indi vuruşmaya cəlb etdikləri 21-ci atıcı diviziya 3-cü Don korpusunun irəliləməsini bir qədər dayandıra bildi. Ancaq birləşmiş kazak korpuslarının təzyiqi altında geri çəkilməyə məcbur oldu. 2-ci kazak korpusu oktyabrın 14-də şiddətli vuruşmada qırmızıların 14-cü atıcı diviziyasını tar-mar etdi, demək olar ki, əksəriyyətini qırıb məhv elədi. Bir həftə içərisində qırmızılar Donun sol sahilindən ta Veşenskaya stanitsasına qədər geriyə oturduldular, Kazak korpusları geniş əməliyyat meydanı tutaraq, 9-cu Qızıl Ordu hissələrini Luzevo-Şirinkin-Vorobyovka cəbhəsinə doğru sıxışdırdılar. 9-cu ordunun 23-cü diviziyasını təcili surətdə öz mövqeyini tərk etməyə, Veşenskayanın günbatanında, Kruqlovsk xutoru səmtində cəbhə tutmağa vadar etdilər.

Kletskaya stanitsası istiqamətində olan 1-ci Don korpusu da, təqribən general Konovalovun 2-ci korpusu ilə bir zamanda öz sahəsindən Donu keçdi.

Qırmızıların sol cinahda olan 22-ci və 23-cü diviziyaları mühasirəyə alınmaq təhlükəsi qarşısında qaldılar. Bunu nəzərə alaraq, cənub-şərq cəbhəsi komandanlığı 9-cu orduya İkorets çayının mənsəbi – Buturlinovka-Uspenskaya-Tişanskaya-Kumıljenskaya cəbhəsinə çəkilmək əmri verdi. Lakin ordu bu cəbhə xəttində də duruş gətirə bilmədi. Orduya ümumi səfərbərliklə aparılmış kazaklardan

təşkil edilmiş saysız-hesabsız və pərakəndə kazak bölükləri Donu sağ sahildən keçərək, həm də 2-ci kazak korpusunun müntəzəm əsgəri hissələri ilə birləşərək, qırmızıları sürətlə şimala qovmaqda idi. Oktyabrın 24-ü ilə 29-u arasında ağlar Filonovo və Povorino stansiyalarını, Novoxopersk şəhərini işğal etdilər. Bununla belə, oktyabrda Don ordusunun müvəffəqiyyətləri nə qədər böyük idisə də, kazaklarda yaz çağı, ölkənin şimal hüduduna doğru müvəffəqiyyətlə yürüş zamanı görünən, onları ruhlandıran inam artıq yox idi. Cəbhəçilərin əksəriyyəti anlayırdı ki, bu müvəffəqiyyət müvəqqətidir, qışdan o yana düşmənin qarşısında duruş gətirmək mümkün olmayacaqdır.

Tezliklə Cənub cəbhəsində vəziyyət kəskin surətdə dəyişdi. Oryol-Kromsk istiqamətində böyük vuruşmada Könüllü ordunun məğlub olması ilə Budyonnı süvarilərinin Voronej tərəfdəki gözəl əməliyyatı mübarizənin müqəddəratını həll etmiş oldu, noyabrda Könüllü ordu cənuba doğru axışıb getdi, Don Ordusunun sol cinahını açıq qoydu, beləliklə həmin ordunu da geri çəkilməyə məcbur etdi.

XXIV

Panteley Prokofyeviç öz ailəsi ilə birlikdə Latışevo xutorunda yarım aydan artıq əmin-arxayın yaşadı, qırmızıların Dondan çəkilib getdiklərini eşidən kimi, evinə yola düşməyə hazırlaşdı. Xutordan beş verst aralandıqdan sonra o qəti görkəmlə arabacığından yerə düşdü, dedi:

– Yavaş getmək məni lap hövsələdən çıxardır! Bu lənətə gəlmiş inəklərin ucbatından arabanı yeyin sürə bilmirsən! Heç bilmirəm bunları niyə özümüzlə sürükləyib gətirmişik? Dunyaşka! Öküzləri dayandır! İnəkləri öz arabana bağla, mən kəndə yeyin getmək istəyirəm. İndi, orada kim bilir, ev-eşikdən bir ovuc kül qalmışdır...

Bütün vücuduna hakim kəsilmiş böyük bir səbirsizliklə o uşaqları öz balaca arabasından götürdü, Dunyaşkanın yekə arabasında oturtdu, artıq yükü də o birinə qoydu, yüngülləşəndən sonra kələkötür yolla arabasını gurultu ilə səyirtdi. Bircə verst gedən kimi madyan tərlədi; sahibi onunla heç vaxt belə rəhmsiz rəftar eləməmişdi: qırmancını əlindən yerə qoymur, elə hey qovurdu.

Arabanın laydırından bərk-bərk yapışmış İliniçna, silkələnməkdən üz-gözünü əzabla turşudaraq söylənirdi:

– Madyanı yorub əldən salarsan! Bu nədir, arabanı niyə dəli kimi sürürsən?

– Nə olsun ki, fərqi yoxdur, mən öləndən sonra qəbrimin üstündə ağlamağa gəlməyəcəkdir... Ye-ye-e-e, çər dəymiş! Tər-lədin! Orada, kim bilir, evdən indi quruca kösövlər qalmışdır... – deyə Panteley Prokofyeviç qəzəblə deyinirdi.

Onun təşvişə düşməsi hədər imiş: ev tamamilə salamat idi, lakin demək olar ki, bütün pəncərə şüşələrini qırmışdılar, qapı həncaməsindən çıxardılmış, güllələr divarları dəlik-deşik eləmişdi. Həyət elə bil sahibsiz xaraba idi. Tövlənin bir küncünü top gülləsi tamam uçurmuşdu, ikinci top güllәsi su quyusunun yanında düşüb yerdə dayaz çala əmələ gətirmişdi; mərmi eyni zamanda pərdini dağıtmış, quyunun mancanağını ortadan qırmışdı. Panteley Prokofyeviç müharibədən qaçırdı, amma müharibə onun həyətinə gəlmiş, iyrənc xarabazarlıq izləri buraxmışdı. Xutorda keşikdə durmuş xoperli kazaklar təsərrüfata daha artıq ziyan vurmuşdular: onlar mal həyətində çəpərləri tamamilə dağıtmış, adam boyu dərinliyində səngərlər qazmışdılar; özlərini əziyyətə salmamaq üçün, anbarın divarlarını söküb gətirmiş, direklərini də səngərlərin çardağı üzərinə döşəmişdilər; daşdan hörülmüş divarı sökmüş, pulemyotlar üçün mazğallar quraşdırmışdılar; atlarını birbaşa ot tayalarının üstünə buraxmaqla yarım tayalıq otu korlamışdılar; çəpərlərin çubuqlarını söküb yandırmış, yay ocaq yerini tamam murdarlamışdılar...

Panteley Prokofyeviç evi və dövrəsindəki tikintiləri nəzərdən keçirdikdə alışıb-yandı. Əldən çıxan hər şeyin lüzumsuz olduğunu danışmaq, onu heçə-puça çıxarmaq adəti bu dəfə onda güclü çıxa bilmədi. Lənət sənə şeytan, axı o deyə bilməzdi ki, bu vaxtadək qazandığı, aldığı, düzəltdiyi bu ev-eşik bir qəpiyə dəyməz və ancaq dağıdılmağa yarar? Anbar zipun deyildi, onun tikilməsi ucuz başa gəlməmişdi!

İliniçna baxıb dedi:

– Ora bax, elə bil burada heç anbar olmayıb!

– Anbar var idi... – deyə tez Panteley Prokofyeviç səsləndi, lakin sözünü bitirmədi, əlini yellədib xırman tərəfə getdi.

Evin top güllələrinin qəlpələrindən, tüfəng güllələrindən çopurlaşmış, eybəcərləşmiş divarlarına baxdıqca adam uyuxur, özünü xarabazarlıqda hiss edirdi. Otaqlarda külək vıyıldayırdı, stollarla stulların üstündə əl qalınlığında toz var idi... Hər şeyi qaydasına salmağa çox vaxt lazım idi.

Panteley Prokofyeviç həmin gün ertəsi atlanıb stanitsaya getdi və xeyli zəhmətdən sonra tanıdığı feldşerdən belə bir şəhadətnamə aldı ki, ayaqları xəstə olduğuna görə kazak Melexov Panteley piyada yeriyə bilməz, müalicəyə ehtiyacı var. Belə bir şəhadətnamə Panteley Prokofyeviçə cəbhəyə göndərilməkdən xilas olmağa imkan verdi. O şəhadətnaməni atamana göstərdi və xutor dəftərxanasına gedəndə hamını öz əhvalına inandırmaq üçün əlindəki əsaya söykənə-söykənə yeriyir, gah sağ, gah da sol ayağının üstə axsayırdı.

Camaat qaçaqaçdan qayıdıb xutora gəlmişdi, amma həyat olduqca çaxnaşmalı və qatma-qarışıq idi. Adamlar həyətləri bir-bir gəzir, xoperlilər tərəfindən talanmış şeylərini axtarır, naxırdan itkin düşmüş inəklərini tapmaq üçün çöllərdə, dərələrdə at səyirdirdilər. Tatarsk top atəşinə tutulan günü xutorun yuxarı başında üç yüz qoyundan ibarət sürü tamam yoxa çıxdı. Çobanın dediyinə görə top güllələrindən biri, otlayan sürünün qabağında partladı, qoyunlar da, quyruqları atıla-atıla, dəhşət içində baş alıb çölə getdilər və o gündən itdilər. Sürü xutordan 40 verst uzaqda, Yelanskaya stanitsası ərazisində camaat xutora qayıdandan bir həftə sonra tapıldı; sürünü xutora gətirdikdə, aşkar oldu ki, sürüdəki qoyunların yarısı başqa adamlarındır, qulaqlarında tanımadıqları bir damğa var; Tatarsk xutorunun öz qoyunlarından isə düz əllisi çatışmadı. Boqatıryovların tikiş maşını Melexovların dirriyindən tapıldı, Panteley Prokofyeviç də öz anbarının taxtapuş dəmirini axtararkən buna Anikuşkanın xırmanında rast gəldi. Qonşu xutorlarda da belə idi. Don çayı dövrəsindəki yaxın və uzaq xutorların sakinləri xeyli vaxt Tatarskiyə gəlirdilər; adamlar bir-birinə rast gəldikcə uzun zaman belə suallar verirdilər: "Sol buynuzu yana əyilmiş, təpəsi qaşqalı qızıl inəyə rast gəlməmisiniz ki?" "Təsadüfən bir ala dana azıb sizlər tərəfə gəlməyib ki?"

Şübhəsiz ki, kazak bölüklərinə xörək bişirilən iri qazanlarda və səyyar mətbəxlərdə belə danalardan bir çoxu bişirilmiş, yeyilmişdi; amma mallarını tapacaqlarına ümidlərini itirməmiş sahibləri uzun

zaman çölləri gəzir, axırda inanmalı olurdu ki, itən şeylərin hamısı tapılmaz.

Panteley Prokofyeviç əsgəri xidmətdən azad edildikdən sonra tikintiləri, çəpərləri səy ilə qaydaya saldı. Xırmanda hələ də döyülməmiş taxıl dərzləri qalırdı, acgöz siçanlar dərzlərin arasında şütüyürdü, lakin qoca taxıl döyməyə girişmirdi. Həyətin dövrəsində çəpər darmadağın edildiyi, anbar yerli-dibli olmadığı, təsərrüfatın görkəmindən xarabazarlıq yağdığı bir zamanda xırman qurmaq, taxıl döymək olardımı? Bundan başqa payız da xoş keçirdi, buna görə taxılı döyməyə tələsməyin mənası yox idi.

Dunyaşka ilə İliniçna evi suvadılar və ağartdılar, müvəqqəti çəpər çəkilməsində və sair təsərrüfat işlərində hər cəhətdən Panteley Prokofyeviçə kömək elədilər. Birtəhər şüşə tapdılar, pəncərələrə saldılar, ocağın dövrəsini, su quyusunu təmizlədilər. Quyuya qoca özü düşdü; görünür, burada ona soyuq dəymişdi, düz bir həftə öskürdü, asqırdı, köynəyi tərli-tərli gəzdi. Amma bir oturuma iki şüşə cecə arağı içib isti sobanın üstündə yatan kimi səhərisi günü naxoşluğu elə bil qeybə çəkildi.Əvvəlki kimi Qriqoridən yenə də xəbər-ətər yox idi. Panteley Prokofyeviç yalnız oktyabrın sonunda təsadüfən öyrəndi ki, Qriqori sağ-salamatdır və öz polku ilə indi Voronej vilayətindədir. Bu xəbəri qocaya, Qriqori ilə bir polkda xidmət edən, indi yaraladığına görə xutordan keçib evlərinə gedən kazak verdi. Kişi bərk sevindi, şadlığından qırmızı bibər qatılmış axırıncı şüşə cecə arağını da içdi; bütün günü səhərdən axşamadək gəzdi, adamlarla çoxlu danışdı, cavan beçə kimi təşəxxüsləndi, yoldan keçənləri dayandırıb dedi:

– Eşitmisiniz? Bizim Qriqori Voroneji alıb! Bizə belə bir xəbər çatıb ki, guya onun vəzifəsini böyüdüblər, indi o yenə də diviziyaya, hələ ola bilsin ki, korpusa komandirlik edir. Elə igidləri çıraqla da axtarsan tapmazsan! Özün də bilirsən, uşaq deyilsən ha... – Qoca şadlığını başqalarına çatdırmağa canında yenilməz bir ehtiyac duyaraq, özündən şeylər toqquşdurur, lovğalanırdı.

Həmyerliləri ona deyirdilər:

– Sənin oğlun qəhrəmandır.

Panteley Prokofyeviç bəxtiyarcasına göz vururdu:

– O kimin balasıdır ki, qəhrəman olmasın? Cavanlığımda, tərif olmasın, mən özüm də heç ondan geri qalan igid olmamışam! Ayağım

mane olur, yoxsa mən indi də hünərimi göstərərdim! Diviziyanı deyə bilmərəm, amma bölüyə nə cür sərəncam verməyi bilərdim! Bizim kimi qocaları daha çox cəbhəyə yollasaydılar, indi Moskva çoxdan alınmışdı, yoxsa, odur ha, bizimkilər batağa batmış kimi yerlərindən tərpənə bilmir, mujiklərin öhdəsindən gələ bilmirlər.

O günü Panteley Prokofyeviçin söhbət elədiyi axırıncı şəxs qoca Besxlebnov oldu. O, Melexovların həyətinin yanından keçib gedirdi, Panteley Prokofyeviç onu görən kimi dayandırdı:

– Ey, Filip Ageyeviç, bir dayan! Sağ-salamatsan! Bir hovurluğuna bizə gedək, bir söhbət eləyək.

Besxlebnov yaxınlaşdı, salam verdi. Panteley Prokofyeviç soruşdu:

– Mənim Qrişamın nə hünər göstərdiyini eşitmisən?

– Nə olub ki?

– Ona yenə də diviziya tapşırıblar! Gör bir nə qədər adama komanda verir!

– Diviziya tapşırıblar?

– Hə, diviziya!

– Gör ha!

– Elədir bəs! Sən nə fikirdəsən, ona da verməyib kimə verəcəklər?

– Aydın məsələdir.

Panteley Prokofyeviç müsahibini təkəbbürlə süzdü, ürəyinə yağ kimi yayılan söhbəti davam etdirdi:

– Oğlumun igidliyi hamını heyran qoyub. Döşündəki bantların hamısından xaç ordeni sallanır, bu məgər asan işdir? Gör, neçə dəfə yaralanıb, əzişdirilib! Onun yerinə başqası olsaydı, çoxdan gəbərmişdi, amma onun vecinə də deyil. Yox, sakit Donda əsl igid kazakların kökü hələ kəsilməyib!

Çox danışmağı o qədər də sevməyən Besxlebnov baba dalğın halda söyləndi:

– Kökü kəsilmədiyinə sözüm yoxdur, amma onların işindən camaata bir fayda yoxdur.

– Eh, necə yəni fayda yoxdur? Bir yaxşı bax, gör qırmızıları necə qovublar, Voronejdən də o yandadırlar, Moskvaya yaxınlaşırlar!

– Nədənsə çox gec yaxınlaşırlar!..

– Belə iş tez ola bilməz, Filip Ageyeviç! Sən özün də başına vur, müharibədə heç nə tələsik edilmir. Tələsimiş köpək süpürülmüş yerə

oturar. Belə işdə hər şeyi asta-asta, xəritələrin üzü ilə, onların dediyi, adı nədir, planla görmək lazımdır... Rusiyada mujikin sayı qarışqanın sayından çoxdur, amma biz kazaklar nə qədərik – bir ovuc!

– Bu dediklərinin hamısı düzdür, amma bizimkilər, deyəsən qabaqda uzun zaman duruş gətirə bilməyəcəklər. Qış olan kimi yenə də qonaqları gözləmək lazımdır, camaat arasında belə deyirlər.

– Bunu sən düz deyirsən ki, bizimkilər indi orada Moskvanı almasalar, onlar yenə buraya gələcəklər.

– Sən elə güman edirsən ki, alacaqlar?

– Almalıdırlar, amma Allahın işini bilmək olmaz. Doğrudanmı bizimkilər bu işin öhdəsindən gələ bilməyəcəklər? On iki kazak qoşununun hamısı ayağa qalxıb, yəni yenə öhdəsindən gələ bilməyəcəklər?

– Nə bilmək olar. Sən niyə evdəsən, daha davanı qurtarmısan yoxsa?

– Mənim haram döyüşçülüyə yaraşır? Ayaqlarım xəstə olmasaydı, düşmənlə nə cür vuruşmaq lazım olduğunu mən onlara göstərərdim. Biz qocalar canıbərk adamlarıq.

– Camaat danışır ki, həmin bu dediyin canıbərk qocalar Donun bu tayında qırmızıların qabağından elə qaçırmış ki, bir nəfərinin də əynində kürk qalmayıb; qaça-qaça əyinlərindəki paltarı bir-bir çıxardır və tullayırmışlar; belə ki, axırda lütcə yüyürürmüşlər. Gülüşürlər ki, çölün hər tərəfi bu tullanmış kürklərdən sapsarı olubmuş, sanki çölün müxtəlif yerlərində sarı çiçək açıbmış!

Panteley Prokofyeviç tərs-tərs Besxlebnovun üzünə baxıb, ağızucu dedi:

– Məncə bu yalandır! Ola bilsin ki, birisi, yükünü yüngüllətmək üçün, paltarını çıxarıb tullamışdır, amma adamlar birinin üstünə yüzünü qoyub yalan toxuşdururlar! Zipunu – yəni gödək kürkü soyunub tullamaq nə böyük müsibət imiş ki! Sual edirəm, insan həyatı bundan qiymətlidir, ya yox? Bundan başqa, hər qoca paltarlı-paltarlı yeyin qaça bilməz. Bu murdar müharibədə adama adi insan ayağı yox, tazı ayağı lazımdır ki, mən, məsəl üçün, belə ayağı haradan alım? Sən gör, Filip Ageyeviç, nəyin dərdini çəkirsən? Axı, bu gödək kürklər, bu andıra qalmışlar, Allah günaha yazmasın, sənin nəyinə gərəkdir? Əlbəttə, söhbət gödək kürkdə, ya da sözgəlişi, zipunda deyil, söhbət, düşməni müvəffəqiyyətlə vurub aşırmaqdadır, düzdürmü? Hə, hələlik salamat qal, yoxsa mən sənin-lə həddindən artıq danışdım, orada da iş tökülüb qaldı. Nə oldu, dananı tapa bildinmi? Hələ axtarırsan? Heç gördüm, eşitdim deyən də yoxdur? Onda belə məlum olur ki, dananı xoperlilər tıxayıblar, görüm sümüyü boğazlarında qalsın! Müharibə barəsində isə heç şəkkə düşmə: bizimkilər mujiklərə dov gələcəklər! – Bunu deyən kimi Panteley Prokofyeviç təşəxxüslə artırmaya doğru axsadı.

Lakin "mujiklərə" dov gəlmək, məlum oldu ki, o qədər də asan deyildir... Kazakların son hücumu da tələfatla nəticələndi. Bir saatdan sonra Panteley Prokofyeviçin yaxşı əhvali-ruhiyyəsini pis bir xəbər xarab elədi. O su quyusunun başına qoymaq üçün pərdi yonduğu zaman gördü ki, arvadlar qışqırışdı, sonra da ağlaşıb ağı deməyə başladı. Vay-şivən səsi getdikcə yaxınlaşırdı. Panteley Prokofyeviç Dunyaşkanı xəbər gətirməyə göndərdi. O, baltanı kötüyün üstünə sancıb dedi:

– Bir qaç, gör ölən kimdir?

Dunyaşka tezliklə belə bir xəbərlə qayıdıb gəldi ki, Filonovsk cəbhəsindən üç nəfərin – Anikuşkanın, Xristonyanın, bir də xutorun o biri başında yaşayan on yeddi yaşında bir oğlanın meyitlərini gətiriblər. Bu xəbərdən bərk sarsılmış Panteley Prokofyeviç papağını çıxartdı, xaç çevirdi.

– Allah hamısına rəhmət eləsin! Nə cantıraq kişi idi, – deyə Xristonyanı düşünərək yana-yana dilləndi; bu yaxınlarda onunla birlikdə Tatarskdan hərbi toplanış məntəqəsinə getdiyi yadına düşdü.

O, daha işləyə bilmədi. Anikuşkanın arvadı, əti kəsilirmiş kimi elə fəryad edir, elə ağı deyirdi ki, Panteley Prokofyeviçin ürəyi yerindən oynadı. Düz beyinə işləyən qadın fəryadını eşitməmək üçün, o, evə getdi, çəkib qapını möhkəm bağladı. Dunyaşka, dəhlizdə hıçqıra-hıçqıra anasına deyirdi:

– ...Baxdım, anacan, Anikuşkanın, demək olar ki, başı yox idi. Əvəzində başa oxşar xəşil görünürdü. Oy, necə dəhşətli idi! Düz bir verst kənardan iyi gəlir... Heç bilmirəm, onlar bunların meyitlərini nə üçün gətiriblər? Xristonya isə arabanın içində bu başdan o başa arxası üstə sərilmişdi, ayaqları şinelin altından sallanırdı... Xristonya tərtəmiz, ağappaq idi, elə bil qazanda qaynadılmışdı! Amma sağ gözünün altında deşik görünürdü, balaca, ikişahılıq iriliyində bir deşik; bir də qulağının ardında, qanı qurumuş kimi idi.

Panteley Prokofyeviç qəzəblə tüpürdü, həyətə çıxdı, balta ilə çatanı götürüb axsaya-axsaya Dona doğru getdi.

Gedəndə mətbəxin yanında oynayan Mişatkaya üz tutub dedi:

– Nənənə deyərsən ki, babam çayın o tayına çırpıya getdi. Yaxşımı, qadan alım?

Çayın o tayında meşədə payız sakit və xoş idi. Qovaqların qurumuş, xəzəl olmuş yarpaqları xışıltı ilə yerə düşürdü. İtburnu kolları alovlanıblarmış kimi alışıb-yanır, seyrək yarpaqlar arasındakı qırmızı gilələri isə qırmızı dilciklər kimi qızarırdı. Çürümüş palıd qalıqlarının acıtəhər, hər şeydən güclü iyi meşəni bürümüşdü. Qalın və gümrah böyürtkənlər torpağı basmışdı; onun yerlə sürünən və birbirinin belinə dolanmış budaqları arasında böyürtkənin qaramtıl və dəymiş salxımları günəşdən məharətlə qorunurdu. Kölgəlik yerlərdəki otluqlarda günortayadək şeh qalır, inci zərrəsini andıran şeh zərrələri ilə örtülmüş hörümçək toru parıldayırdı. Sükutu pozan yalnız ağacdələnin səy ilə ağacı hərdənbir dimdiyi ilə taqqıldatması, bir də çil qaratoyuqların səslərini qaynada-qaynada oxuması idi.

Meşənin sakit və zabitəli gözəlliyi Panteley Prokofyeviçin ürəyinə yatdı. O, kolların arası ilə sakitcə, ayaqları ilə yaş xəzəli sürüyə-sürüyə yeriyir, belə düşünürdü: "Bir gör həyat nə deməkmiş: həmin adamlar lap bu yaxınlaradək sağ idi, amma indi onları yuyurlar. Gör, bir nə zorbalıqda kişini aşırdılar! Lap bu yaxınlarda bizə baş çəkməyə gəlmişdi, biz Daryanın meyitini sudan çıxardanda çayın kənarında durmuşdu. Eh, Xristan, Xristan! Sənə də düşmən gülləsi dəydi?.. Anikuşkanın özü də... necə kefcil adam idi, içməyi, gülməyi çox xoşlardı, amma indi fərqi yoxdur, rəhmətə getmişdir... – Panteley Prokofyeviç Dunyaşkanın söylədiklərini xatırladı, Anikuşkanın daima gülən kosa, bir az çopur siması gözləri qarşısında o qədər gözlənilməz parlaqlıqla canlandı ki, indiki cansız, beyni-başı dağılmış Anikuşkanı təsəvvürünə gətirə bilmədi. Besxlebnov ilə söhbətini xatırlamış Panteley Prokofyeviç özünü məzəmmətlədi: "Qriqorini tərifləməklə mən Allahı nahaq yerə qəzəbləndirmişəm. Kim bilir bəlkə Qriqori də, indi bədəni deşik-deşik, harada isə yerə sərilmişdir? Ey Xuda, rəhm et, bunu mənə göstərmə! Onda biz qocalar bəs necə yaşarıq?"

Bir kolun altından qəhvəyi meşə cüllütü parıltı ilə qalxanda Panteley Prokofyeviç səksəndi. O, quşun sürətlə, çəpinə uçuşunu boş-boş izlədikdən sonra yoluna davam etdi. Bir kiçik gölməçənin

yanında bir-iki kol seçdi, qırmağa başladı. O işləmək və heç nə düşünmək istəmirdi. Bircə ilin ərzində ölüm onların o qədər qohum və tanışlarını aparmışdı ki, təkcə bunları fikirləşəndə kişinin ürəyinin başından ağır bir daş asılır, bütün dünya gözlərində sönür, sanki qara bir örtüyə bürünürdü.

– Bax, bu kolu qırmaq lazımdır. Yaxşı çırpısı var! Lap çəpərin hörülməsinə yarayan şeydir! – Panteley Prokofyeviç ürəksıxan düşüncələrdən yayınmaq üçün öz-özü ilə ucadan danışırdı.

Panteley Prokofyeviç xeyli işlədikdən sonra sırıqlısını soyundu, kəsib tökdüyü çırpı yığınının üstündə oturdu; o, saralmış yarpaqların kəskin qoxusu ciyərlərinə dolduqca xoşlandı, uzun zaman mavi duman içində olan uzaq üfüqlərə, artıq payızın nəfəsi toxunmuş gözəlliyini son dəfə nümayiş etdirən meşəliklərə tamaşa elədi. Ondan bir az kənarda isfəndan kolu görünürdü. Misilsiz dərəcədə yaraşıqlı olan bu kol soyuq payız günəşinin işığında parıldayırdı, onun ətrafa yayılmış şax-budağı, sədəf kimi işıldaşan yarpaqlarının ağırlığından yerdən göyə qalxan əfsanəvi quş qanadları kimi geniş açılmışdı. Panteley Prokofyeviç uzun zaman həvəslə bu kolu seyrə daldı, sonra təsadüfən gölməçəyə baxanda gördü ki, buradakı durğun, şəffaf suda iri sazanların beli aydınca görünür; balıqlar o qədər dayazda üzürdülər ki, onların yan üzgəcləri və tərpəndikcə qıpqırmızı qızaran quyruqları görünürdü. Onlar bəzən fincan çiçəyinin yaşıl qalxanları ardında gizlənir, amma sonra yenə üzə çıxır, bədmüşkdən qopub düşmüş, islandığı üçün batan yarpaqların üstünə cumurdular. Gölməçə payıza doğru xeyli qurumuşdu, sazanları tutmaq o qədər də çətin deyildi. Panteley Prokofyeviç qısa axtarışdan sonra yaxınlıqdakı gölün kənarında bir cırıq torba tapdı, gölməçənin yanına qayıtdı; şalvarını soyundu, su soyuq olduğundan əti bizbiz oldusa da, canına üşütmə çökdüsə də, balıqları tutmağa başladı. O, suyu bulandırır, dizinə qədər lilli suya girib gölməçənin qırağı ilə hərlənir, torbanı suya salır, qıraqlarını gölə basırdı; sonra əlini torbaya salır, gözləyirdi ki, indicə bir iri balıq suda şappıldayacaqdır. Onun zəhməti hədər olmadı; hər biri on girvənkə ağırlığında üç sazan tuta bildi. O, daha balıq ovunu davam etdirə bilməzdi, çünki canını bürümüş titrətmə şikəst ayağını haldan çıxarmışdı. Balıq tutduğundan kefi kökəlmiş halda sudan çıxdı, ayaqlarını otla sildi, şalvarını geyindi, qızışmaq məqsədi ilə yenə çırpı qırmağa başladı.

Bu, nə olur-olsun, əcəb qənimət idi! Gözlənilmədən bir pud balıq tutmaq hər adama qismət olan şey deyildi! Balıq ovu onun kefini açdı, ağır xəyalatı başından çıxartdı. O, yerdə qalan balıqları da gəlib tutmaq niyyəti ilə, torbanı etibarlı yerdə gizlətdi, ehtiyat üçün ətrafına göz gəzdirdi, tutduğu çoşqa kimi qızartdaq və yekə sazanları qırağa tullayanda, bunu birisinin görüb-görmədiyini yoxladı, sonra şələlədiyi çırpını, qulaqlarına çubuq keçirilmiş sazanları götürdü, yavaş-yavaş Don tərəfə yönəldi.

Evdə balıq ovunda bəxtinin yaman gətirdiyini xoş bir təbəssümlə arvadı İliniçnaya nağıl elədi, qıraqdan baxanda mis kimi qıpqırmızı görünən sazanlara bir də həvəslə tamaşa elədi, amma İliniçna onun şadlığına şərik olmaq meyilində deyildi. O, həmyerlilərinin meyitlərinə baxmağa getmişdi, oradan qəmgin-qüssəli gəlmişdi, ağlamaqdan gözləri şişmişdi.

– Anikeyə baxmağa gedəcəksənmi? – deyə ərindən soruşdu.

– Getməyəcəyəm. Nəyə gedim axı, ölü-zad görməmişəm məgər?

– Getsən yaxşıdır. Camaatdan ayıbdır, deyəcəklər heç vidalaşmağa gəlmədi!

– Əl çək, sən Allah! Dostum deyil, kirvəm deyil, uşağımı xaç suyunda çimdirməyib, mənim onunla vidalaşmağımın da mənası yoxdur! – deyə Panteley Prokofyeviç yamanca hirsləndi.

O, heç dəfn mərasimində də iştirak etmədi; səhər tezdən çayın o tayına getdi və bütün günü orada qaldı. Kilsə zəngi meyitlərin basdırılmasını xəbər verdikdə, o meşədə şapkasını çıxartmağa məcbur oldu, xaç çevirdi, sonra hətta keşişə yaman qəzəbləndi: bu qədər də uzun-uzadı zəng çaldırmaq olar? Hər zəngi bir dəfə danqıldatsaydılar, kifayət idi, vəssalam; amma budur bir saatdır eyni şeyi xəbər verirlər. Bir də, axı, zəng çalmağın nə faydası? Bu ancaq adamların ürəyini qopardır, ölümü bir daha onların yadına salır. Onsuz da payızda hər şey ölümü insanın yadına salmaqdadır: ağacdan qopub düşən yarpaq da, mavi səmada qışqırışa-qışqırışa uçub gedən qazlar da, saralmış, torpağa qısılmış otlar da...

Panteley Prokofyeviç özünü hər cür ağır xəyalatdan nə qədər qorusa da, çox keçməmiş yeni bir ruhi sarsıntı keçirməli oldu. Bir gün nahar vaxtı Dunyaşka pəncərədən eşiyə baxıb dedi:

– Cəbhədən bir adamın da meyitini gətirirlər! Sahibinin yəhərli atı da arabanın dalınca gəlir, atın cilovu arabanın dalına bağlanmışdır,

həm də arabanı yavaş sürürlər... Birisi atları sürür, meyit isə şinelin altındadır. Atları sürən adam dalı bizə tərəf oturmuşdur, tanıya bilmirəm, bizim yerlidir, yoxsa yox... – Dunyaşka arabaya diqqətlə nəzər saldı, sifəti ağappaq oldu. Bu ki... bu ki – deyə o yavaşca pıçıldadı və birdən qulun kimi çığırdı: – Qrişanı gətirirlər... At onunkudur! – Sonra hönkürə-hönkürə dəhlizə atıldı.

İliniçna süfrə başından qalxmadan, gözlərini tutdu. Panteley Prokofyeviç kürsünün üstündən ağır-ağır qalxdı, əllərini kor kimi qabağa verərək, qapıya doğru getdi.

Proxor Zıkov küçə qapısını açdı, artırmadan aşağıya, arabaya doğru qaçan Dunyaşkaya gözucu baxdı, könülsüz halda dedi:

– Qonaqları qəbul edin... Gözləmirdiniz?

Dunyaşka həyəcanla əllərini ovuşdura-ovuşdura zarıyırdı:

– Hamımızın əzizi! Qardaşcığazım!

Proxor qızın göz yaşından islanmış sifətinə, artırmada dinməzcə dayanmış və özünü itirmiş Panteley Prokofyeviçə baxandan sonra mətləbi başa düşdü, tez dedi:

– Qorxmayın, qorxmayın! Sağdır. Yatalaq naxoşluğuna tutulubdur.

Taqəti tamam kəsilmiş Panteley Prokofyeviç dalını qapının çərçivəsinə söykəyərək toxtadı.

– Sağdır!!! – Dunyaşka həm gülərək, həm ağlayaraq dədəsinə tərəf qışqırdı. – Qrişa sağdır! Eşidirsənmi? Naxoş olduğuna görə gətiriblər! Get, anama da de! Hə, niyə matın-qutun quruyub?

Proxor atların cilovundan yapışıb həyətə çəkdiyi zaman tez Dunyaşkanın dediklərini təsdiq elədi:

– Qorxma, Panteley Prokofyeviç! Sağca gətirmişəm, amma halını heç xəbər alma.

Panteley Prokofyeviç büdrəyə-büdrəyə bir neçə addım irəlilədi və pilləkənlərdən birinin üstünə çökdü. Anasını sakit etmək üçün Dunyaşka onun yanından evə güllə kimi getdi. Proxor atları lap artırmanın qabağında saxladı, Panteley Prokofyeviçə baxıb dedi:

– Niyə oturmusan? Dur, palaz gətir, naxoşu içəri aparaq.

Qoca kirimişcə oturmuşdu. Onun gözlərindən yaş dolu kimi yağırdı, amma üzündə bir donuqluq var idi, bir dənə belə olsun əzələsi qımıldanmırdı. İki dəfə qollarını qaldırmaq istədi ki, xaç çevirsin, hər ikisində də qolları alnına qalxmadı. Boğazında sanki bir şey qalmışdı, orada lıqqıldayırdı.

Proxor təəssüf hissilə ona dedi:

– Belə ki görürəm, qorxudan, deyəsən, ağlın başından çıxmışdır. Axı necə oldu ki, sizi xəbərdar etmək üçün qabaqcadan yanınıza adam göndərmək ağlıma gəlmədi? Belə məlum olur ki, mən axmağam, doğru deyirəm vallah, axmağammış. Hə, ayağa dur, Panteley Prokofyeviç, naxoşu içəri aparmaq lazımdır axı. Palazınız hanı? Yoxsa qucağımızda aparacağıq?

Panteley Prokofyeviç xırıltılı səslə dedi:

– Bir az səbr elə... Elə bil ayaqlarım dibindən üzülmüşdür... Elə bilirdim meyitini gətirirlər... Allaha şükür... Gözləmirdim. – O, köhnəlmiş köynəyinin yaxasının bir düyməsini dartıb qırdı, yaxasını açdı, havasız qalmış adam kimi dərindən ciyərlərini hava ilə doldurdu.

Proxor onu tələsdirdi:

– Qalx, qalx, Prokofiç! Sənin lə məndən başqa naxoşu içəriyə aparası adam yoxdur!

Panteley Prokofyeviç çətinliklə ayağa qalxdı, artırmadan düşdü, arabaya yaxınlaşdı, şineli kənara çəkdi və huşunu itirmiş Qriqoriyə tərəf əyildi. Onun boğazında yenə nə isə lıqqıldadı, lakin kişi özünü ələ aldı və üzünü Proxora tutub dedi:

– Qılçalarından yapış, içəri aparaq.

Qriqorini dəhlizə gətirdilər, çəkmələrini çıxartdılar, paltarını soyundurub, çarpayının üstünə uzatdılar. Dunyaşka həyəcan içində mətbəxdən çığırdı:

– Dədə! Anamın əhvalı qarışıbdır!.. Tez ol, bura gəl!

İliniçna mətbəxdə yerə sərilmişdi. Dunyaşka onun yanında dizi üstə çöküb anasının gömgöy sifətinə su çiləyirdi.

Panteley Prokofyeviç əmr etdi:

– Yüyür, Kapitonovna nənəni bura çağır, cəld ol! O, yaxşı qan almağı bacarır. De ki, anamdan qan almaq lazımdır, özü ilə lazım olan har-hacatı da götürüb gəlsin!

Nişanlanmalı yekə qız olmuş Dunyaşka xutorda başıaçıq halda ora-bura qaça bilməzdi ki! O tez örpəyi götürdü, cəld başına örtüb dedi:

– Ora bax, gör uşaqları necə qorxutmusunuz! Xudaya, bu nə fəlakətdir, belə... Dədə, gözün uşaqlarda olsun, mən bu saat, bir göz qırpımında qayıdıram!

Ola bilsin ki, Dunyaşka gözucu güzgüyə də baxmaq istərdi, amma özünə gəlmiş, dirçəlmiş Panteley Prokofyeviç gözlərini ona elə bərəltdi ki, qız mətbəxdən güllə kimi bayıra atıldı.

Dunyaşka küçə qapısından çıxdıqda Aksinyanı gördü. Aksinyanın dümağ simasında qan nişanəsi deyilən şey yox idi. O, dalını çəpərə söykəmiş, qolları ölü kimi yanlarına sallanmış halda durmuşdu. Onun dumanlanmış qara gözlərində yaş yox idi, lakin bu gözlərdə elə dərin bir iztirab və sözsüz yalvarış sezilirdi ki, bir saniyəliyə dayanmış Dunyaşka ixtiyarsız, özü də gözləmədiyi halda dedi:

– Sağdır, sağdır! Yatalaq naxoşluğuna tutulubdur. – Sonra da qaçdıqca atılıb-düşən dik məmələrini əlləri ilə tutaraq döngədə gözdən itdi.

Yetik arvadlar hər yandan Melexovların həyətinə doğru tələsirdilər. Onlar Aksinyanın aramla Melexovların küçə qapısından aralandığını, sonra da yeyinləyib əyildiyini, üzünü əlləri ilə örtdüyünü gördülər.

XXV

Bir aydan sonra Qriqori sağaldı. İlk dəfə yatağından noyabrın 20-dən sonra qalxdı və ucaboy, arıqlıqdan skeletə dönmüş halda ayaqları bir-birinə dolaşa-dolaşa otaqda gəzdi, pəncərənin qabağında dayandı.

Yerdə, mərəkələrin küləş döşənmiş damları üstündə təzəcə yağmış qar gözqamaşdıracaq dərəcədə parıldayırdı. Döngədə kirşələr keçib getdikdən sonra qalmış izlər görünürdü. Çəpərlərdə, ağaclarda maviyə çalan qırov işıldayır, batan günəşin şüaları altında rəngdən-rəngə çalırdı.

Qriqori dalğın halda gülümsünərək, sümükləri çıxmış barmaqları ilə bığlarını eşə-eşə xeyli vaxt pəncərədən çölə baxdı. Ona elə gəldi ki, ömründə belə qəşəng qış görməmişdir. Hər şey ona qeyriadi, yeni və mühüm görünürdü. Elə bil xəstəlikdən sonra onun gözləri işıqlanmışdı; o, yaşadığı mühitdə yeni şeylər görməyə, çoxdan tanıdığı əşyada dəyişikliklər tapmağa başlamışdı.

Qriqorinin xasiyyətində birdən-birə, bu vaxtadək onun üçün səciyyəvi olmayan bir xüsusiyyət – xutorda və təsərrüfatda baş

verən hər cür işə maraq və diqqət xüsusiyyəti təzahür etməyə başladı. Həyatda hər şey onun nəzərində nə isə yeni, gizli mənaya malik kimi idi, hər şey diqqətini cəlb edirdi. Təzədən qayıtdığı bu aləmə o bir qədər təəccüblə baxır, sadədilcəsinə, uşaqcasına təbəssüm uzun zaman dodaqlarını tərk etmirdi; bu təbəssüm onun əvvəlki sərt sifətini, baxışlarındakı vəhşiyanə ifadəni əcaib bir şəkildə dəyişmiş, dodaqlarının kənarındakı sərt qırışları yumşaltmışdı. O, bəzən uşaqlıq illərindən tanıdığı təsərrüfata aid bir şeyə o qədər gərgin diqqətlə, qaşlarını çataraq tamaşa edirdi ki, elə bil uzaq və yad bir məmləkətdən gəlmişdi, bu şeyləri birinci dəfədir ki, görürdü. İliniçna bir dəfə onun cəhrəni hərtərəfli nəzərdən keçirdiyini görəndə, son dərəcə təəccüb elədi. İliniçna otağa girən kimi Qriqori bir qədər utanıb cəhrədən uzaqlaşdı.

Dunyaşka qardaşının uzundraz, arıq, quru vücuduna baxanda gülməkdən özünü saxlaya bilmirdi. Qriqori otaqda yalxı tumanköynəkdə, tumanı düşməsin deyə bir əli ilə tumanından yapışmış halda, donqarlanmış vəziyyətdə, əti qurumuş ayaqlarını cəsarətsiz ata-ata gəzirdi; oturanda isə yıxılmaqdan qorxduğu üçün, mütləq bir şeydən yapışırdı. Naxoşluq dövründə bir az da uzanmış qara saçları indi tökülür, qıvırcıq ağ tüklər çoxalmış teli get-gedə gödəlirdi.

O, Dunyaşkanın köməyi ilə başını özü qırxdı, üzünü bacısına tərəf çevirdikdə ülgüc Dunyaşkanın əlindən yerə düşdü, əllərini qarnına söykəyib çarpayının üstünə yıxıldı, qəşş edincəyə qədər güldü.

Qriqori bacısı doyunca gülənə kimi səbirlə gözlədi, sonra hövsələdən çıxdı, titrək və zəif bir səslə dedi:

– Bura bax, ay qız, bu qədər gülməzlər, günahdır! Sonra güldüyünə peşman olarsan! Axı sən nişanlanası yekə qızsan! – Qriqorinin səsində xəfif bir inciklik var idi.

Şiddətli gülüşü ara verdiyi zaman Dunyaşka güclə bu sözləri deyirdi:

– Oy, qardaşım! Oy, mənim əzizim! Yaxşısı budur ki, mən gedim... Daha məndə can qalmadı! Oy, heç bilirsən nəyə oxşayırsan! Lap dirrik müqəvvasısan!

– Yatalaq naxoşluğundan yatmış olsaydın, mən də sənə baxar və nə halda olduğunu sənə deyərdim. Ülgücü götür, tez ol?!

İliniçna da Qriqoriyə tərəf çıxdı; dilxor olmuş halda dedi:

– Doğrudan da, nəyə gülürsən, at kimi kişnəyirsən belə? Axmaqsan, Dunya!

Dunyaşka gözlərinin yaşını silərək deyirdi:

– Ay ana, bir bax, gör nəyə oxşayır! Başının hər tərəfi şişib, qarpız kimi yupyumru olub, həm də qaralıbdır... Oy, daha buna necə gülməyəsən?

– Güzgünü mənə ver görüm! – deyə Qriqori güzgü istədi.

O, güzgü qırığını bacısından aldı, diqqətlə özünə tamaşa edib xeyli vaxt özü də kirimişcə güldü.

İliniçna narazılıq edərək deyinirdi:

– Başını nə üçün qırxdın, elə belə də gəzərdin də...

– Səncə keçəl olmaq daha yaxşıdır?

– Onsuz da başını ağıla gəlməyən biabırçı bir şəklə salmısan.

Qriqori firça ilə sabun köpüyünü qarışdırıb pərt olmuş halda dedi:

– Açılın başımdan, rədd olun!

Evdən bayıra çıxmaq imkanından məhrum qalmış Qriqori uzun zaman uşaqlarla məşğul olurdu. Onlarla hər barədə danışsa da, Natalyanın adını çəkməməyə çalışırdı. Lakin bir gün Polyuşka ona qısılaraq soruşdu:

– Atacan, anamız qayıdıb yanımıza gəlməyəcəkdir?

– Yox, balacan, oradan geriyə qayıtmırlar...

– Haradan? Qəbiristanlıqdan?

– Müxtəsəri, ölülər qayıdıb gəlmirlər...

– Anam tamam ölmüşdür?

– Bəs nə, ayrı cürə də olur? Əlbəttə ölüb.

Polyuşka yavaşca pıçıldadı:

– Mən də elə bilirdim, anam bizsiz darıxacaq, yanımıza gələcəkdir...

Qriqori boğuq bir səslə qızına dedi:

– Sən onun fikrini çəkmə, mənim qəşəng qızım, lazım deyil.

– Necə yəni onun fikrini çəkmə? O heç bizi görməyə də gəlməyəcək? Heç olmasa bircə saatlığına da görmək olmaz?

– Yox. Di get Mişatka ilə oyna. – Qriqori üzünü kənara çevirdi. Görünür, xəstəlik onun iradəsini zəiflətmişdi: gözləri yaşarmışdı; uşaqları onun ağladığını görməsinlər deyə üzünü pəncərəyə söykəyərək, xeyli vaxt orada durdu.

O, müharibə haqqında uşaqları ilə söhbət eləməyi sevmirdi, Mişatkanı isə dünyada müharibədən çox maraqlandıran məsələ yox idi. Oğlu tez-tez ondan əl çəkmir, müharibənin nə cür getdiyinə,

qırmızıların kim olduğuna, onları nə ilə öldürdüklərinə, nədən ötəri qırdıqlarına dair suallar verirdi. Qriqori qaşqabağını sallayır, qanı qaralmış halda deyirdi:

– Bu nədir, kor tutduğunu buraxmayan kimi məndən əl çəkmirsən! Axı bu müharibənin nə olduğu sənin nəyinə gərəkdir? Yaxşısı budur gəl, yayda tilov ilə necə balıq tutacağımızdan danışaq. Sənə tilov düzəldim? Yaxşılaşıb həyətdə gəzməyə başlayan kimi, sənə at tükündən qarmaq ipi sazlayacağam.

Mişatka müharibədən söz saldıqda, Qriqori daxili bir xəcalətdən sıxılırdı: o, uşağın ona verdiyi sadə və qərəzdən uzaq suallarına cavab verə bilmirdi. Həm də kim bilir, bunun səbəbi nə idi? Yoxsa bu onun nəticəsi idi ki, Qriqori özü də bu suallara cavab verə bilməmişdi? Bununla belə Mişatkanın əlindən yaxa qurtarmaq o qədər də asan deyildi: zahirən uşaq, atasının balıq ovuna aid planlarını diqqətlə dinləyirmiş kimi görünürdü, amma sonra yenə soruşurdu:

– Atacan, sən özün müharibədə adam öldürmüsənmi?

– Əl çək yaxamdan, ay pıtırqan!

– Adam öldürmək dəhşətli işdirmi? Onlar öldürülən kimi qanları axır, eləmi? Qan çoxmu gedir? Axıdılan qan toyuğun qanından çoxdur, yoxsa qoyunun?

– Mən sənə dedim ki, bu barədə danışmaqdan əl çək!

Mişatka bir dəqiqəyə qədər susdu, sonra xəyala dalmış halda dedi:

– Mən bu yaxınlarda babamın qoyun kəsdiyini görmüşəm. Mən baxırdım, heç qorxmurdum... Ola bilsin ki, bir azca, bir balaca qorxuludur, amma o qədər də yox!

İliniçnanın qanı qaralır, deyirdi:

– Onu yanından qov getsin! Bir quldurbaşı da burada yetişirmiş! Xalis qaniçəndir! İşi-peşəsi dava haqqında danışmaqdır, elə bil danışmağa başına söz qəhətdir. Heç sənə layiqdirmi, ay bala, Allah günaha yazmasın, sən bu lənətə gəlmiş müharibədən danışasan? Buraya gəl, bu fətiri al, heç olmasa səsini bir az kəs.

Lakin müharibə hər gün özünü adamlara hiss etdirirdi. Cəbhədən qayıtmış kazaklar Qriqoridən əhval bilməyə gəlir, Budyonnı süvarilərinin Şkuronu, Mamontovu tar-mar etməsindən, Oryol tərəfdə uğursuzluqla bitmiş döyüşlərdən, cəbhələrin hamısında başlanmış geriyə çəkilmə hadisəsindən söhbət edirdilər. Qribanovka ilə Kardail yaxınlığındakı vuruşmalarda tatarsklılardan daha iki

nəfərinə güllə dəymişdi; yaralanmış Gerasim Axvatkini xutora gətirdilər; yatalaq naxoşluğuna tutulmuş Dmitri Qoloşşyokov isə öldü. Qriqori iki müharibə dövründə öldürülmüş həmyerlilərini bir-bir yadına saldı; məlum oldu ki, Tatarskda bir nəfər kişisi ölməmiş ailə, demək olar ki, yoxdur.

Qriqori hələ evdən bayıra çıxmırdı; amma xutor atamanı ona stanitsa atamanının belə bir sərəncamını çatdırdı ki, bölük komandiri Melexov təcili təzədən müayinədən keçmək üçün tibb komissiyasına getməlidir.

Qanı qaralmış Qriqori dedi:

– Ona cavab yaz ki, ayağım yer tutan kimi, onların göstərişi olmadan mən özüm gələcəyəm!

Cəbhə getdikcə Dona yaxınlaşırdı. Xutorda yenə də çəkilib getmək barədə söhbətə başlamışdılar. Tezliklə meydanda mahal atamanının əmri elan edildi; əmrdə deyilirdi ki, yaşlı kazakların hamısı çəkilib getməlidir.

Panteley Prokofyeviç meydandan qayıtdı, əmr haqqında Qriqoriyə məlumat verib soruşdu:

– İndi biz nə edəcəyik?

Qriqori çiyinlərini çəkdi:

– Nə edəcəyik? Geriyə çəkilmək lazımdır. Əmr olmasa da hamı gedəcəkdir.

– Əşi, mən sənlə mənim nə edəcəyimizi soruşuram: birlikdə gedəcəyik, yoxsa ayrı cürə?

– Birlikdə gedə bilməyəcəyik. İki gündən sonra mən atlanıb özümü stanitsaya yetirəcəyəm, Vyoşkidən hansı hissələrin gəlib keçəcəyini öyrənib, onlardan biri ilə yola düşəcəyəm. Yoxsa sən əsgəri hissələrdən birinə düşmək istəyirsən?

Panteley Prokofyeviç qorxuya düşərək dedi:

– Allah vursun onu! Deməli, onda mən qoca Besxlebnovla gedərəm; o günü birlikdə getməyimizi təklif eləyirdi: fağırca qocadır, atı da çox yaxşıdır, hərəmiz bir at qoşar, yola düşərik. Bizim madyan da yamanca kökəlmişdir; çər dəymiş elə yoğunlayıb, elə harınlayıb ki, adam yaxınına gedə bilmir, yaxınlaşanda şıllağa qalxır!

Qriqori bu təklifə həvəslə tərəfdar oldu:

– Yaxşı, onunla da get. Hələlik isə gəl sizin gedəcəyiniz yol barədə məsləhətləşək; demək olmaz, bəlkə birdən mən də həmin yolla getməli oldum.

Qriqori yan çantasından Rusiyanın cənubunu göstərən bir xəritə çıxartdı, hansı xutorlardan keçib getmək lazım olduğunu atasına söylədi və bir kağız parçasına həmin xutorların adlarını yenicə yazmağa başlamışdı ki, gözlərini xəritəyə böyük ehtiram hissilə zillənmiş atası dedi:

– Səbir elə, yazma. Belə şeyləri sən, əlbəttə, məndən yaxşı bilərsən, xəritə çox ciddi işdir, səhv eləməz, həm də düzgün yol göstərər, amma mən onun üzü ilə necə hərəkət edim ki, bu mənə sərf eləmir? Sən deyirsən ki, əvvəlcə Karginskayadan keçib getmək lazımdır, yəni ondan sağa doğru yola düşməlisiniz, amma fərqi yoxdur, mən buradan da yana burulmalıyam.

– Yana burulmaq sənin nəyinə gərəkdir, axı?

– Ona görə lazımdır ki, Latışevo xutorunda mənim əmim qızı var, mən orada özümüzün də qarnımızı doyduraram, atlarımıza da yem taparam. Dalısını deyim: sən deyirsən ki, xəritənin üzü ilə Astaxovo kəndinə getməlisiniz, ora düz yoldur, amma mən Malaxovskiyə gedəcəyəm; orada da uzaq qohumlarım var, bir də dostum yaşayır; orada da öz otumuzu deyil, qıraqdan aldığımızı yedirdərik. Yaxşı yadında saxla ki, özünlə bir taya ot apara bilməzsən, qürbətdə isə yalvarmaqla ot ala bilmədiyin kimi, heç pula da satmaya bilərlər.

Qriqori istehza ilə soruşdu:

– Donun o tayında qohumun yoxdur ki?

– Orada da qohumlarım var.

– Onda bəlkə elə o tərəfə getmək məsləhətdir?

– Sən məni ələ salma! – deyə Panteley Prokofyeviç birdən hirsləndi: – Sən gəl işdən danış, zarafat vaxtı deyil! Bu da bizim ağıllımız, zarafat eləməyə vaxt tapdı!

– Sən də qohum-əqrəbanı yada salmaqdan əl çək! Geri çəkilmək lazımdırsa, çəkilməlisən, daha qohumlarının evinə getməyin mənası yoxdur, bayramdır, nədir?

– Bura bax, mənə göstəriş vermə, hara gedəcəyimi bilirəm.

– İndi ki, bilirsən, onda hara istəyirsən, ora da get!

– Axı mən sənin planınla gedə bilmərəm! Eşidibsənmi ki, düzünə uçan sağsağandır? Allah göstərməsin, birdən gedib elə yerə çıxaram ki, qışda orada heç yol olmur. Sən də ağlını-huşunu toplayıb mənə belə sarsaq söz deməyə hazırlaşırdın? Buna bax, özü də diviziyaya komanda verir!

Qriqori ilə atası uzun zaman deyişdilər, amma sonra, mətləbi hərtərəfli fikirləşmiş Qriqori etiraf etməli oldu ki, atasının dediklərində haqlı cəhətlər çoxdur, buna görə də mülayimləşərək dedi:

– Hirslənmə, ata, mən öz marşrutumu sənə zorla qəbul etdirmək istəmirəm, necə istəyirsənsə elə də get. Mən də Donetsin o tayında səni tapmağa çalışaram.

Panteley Prokofyeviç sevindi:

– Bayaqdan belə de də! Yoxsa başlamısan müxtəlif planlarla, marşrutlarla başımızı dəng eləməyə, orasını qanmırsan ki, plan öz yerində, amma ot-alaf olmasa atlar bir addım belə yol gedə bilməz.

Qoca, Qriqori hələ naxoş yatanda xəlvətcə səfərə hazırlaşırdı: madyanı əməlli-başlı və möhkəm yedirdirdi, kirşələri təmir etmişdi, təzə keçə çəkmə saldırmış, keçənin üstündən də öz əli ilə nəm havada suyu keçirməsin deyə dəri tikmişdi, çuvallara vaxtında əla vələmir doldurub hazır qoymuşdu. Həm də o geri çəkilməyə əsl əkinçi kimi hazırlaşmışdı: səfər zamanı lazım olan hər şeyi bəri başdan hazır edilmişdi. Kişi yola balta, əl mişarı, iskənə, çəkməçi har-hacatı, sap, hazır pəncə-daban, mıx, çəkic, bir dəstə qayış, qırmanc, bir parça qatran, hətta bir ifçin nal və mıx hazırlamış, bunların hamısını brezentə bükmüşdü, bircə dəqiqənin içərisində aparıb kirşəyə qoymaq olardı. Panteley Prokofyeviç hətta yaylı əl tərəzisini də götürməyi unutmamışdı; o, İliniçnanın yolda yaylı tərəzi sənin nəyinə gərəkdir sualına, məzəmmətlə belə cavab verdi:

– Ay arvad, deyəsən qocaldıqca ağlın da azalır, səfehləyirsən. Doğrudanmı sən belə sadə bir şeyi dərk edə bilmirsən? Çəkilib getdiyim yerdə mən otu ya samanı çəki ilə alacağam, yoxsa yox? Otu arşınla ölçüb satmırlar ki?

İliniçna təəccüb elədi:

– Məgər o yerlərdə tərəzi-zad yoxdur?

– Sən nə bilirsən ki, oradakı tərəzilər nə cürdür? – deyə Panteley Prokofyeviç hirsləndi: – Bəlkə oralardakı tərəzilər əskik çəkir, camaatı aldatmaq üçün quraşdırılıbdır. Belə işlər də var, bəs! Bilirik orada necə məxluq yaşayır! Otuz girvənkəlik bir şey çəkib verir, amma düz bir pudun qiymətini alır! Mən hər düşərgədə bir belə ziyana düşə bilmərəm, yaxşısı budur öz tərəzimi götürüm heç kəs də məni aldatmasın! Siz arvadlar isə tərəzisiz də dolanarsınız, sizin nəyinizə gərəkdir? Hərbi hissələr gəlib keçəndə otu çəkisiz aparır-

lar... Hünərin var onların yem tədarükünün öhdəsindən gəl. Onların hamısını görmüşəm, bu dələduzların hamısına yaxşıca bələdəm.

Əvvəllər Panteley Prokofyeviç arabanı da kirşənin dalına qoşub aparmaq niyyətində idi, yazda öz arabası ilə yoluna davam etmək istəyirdi, pul verib təzəsini almaq sərf eləmirdi; amma sonra götür-qoy elədi, bu bekara niyyətdən daşındı.

Qriqori də səfərə hazırlaşırdı. O, mauzerini, tüfəngini silib təmizlədi, ona sədaqətlə qulluq etmiş qılıncını sahmana saldı; sağalmasının həftəsi tamam olanda atına baxmağa getdi, atın sarğısının parıldadığını görüb, inandı ki, atası təkcə öz madyanını yox, bu atı da yaxşı yemləmişdir. Yeyib sinirmiş, harınlamış atı çətinliklə mindi, bir qədər səyirdib köpünü aldı, evə qayıdanda gördü ki, (kim bilir bəlkə də bu xəyal idi, Qriqorinin gözlərinə elə görünürdü) Astaxovların evində kim isə ona pəncərədən ağ dəsmal yellətdi...

Yığıncaqda tatarsklılar belə qərara aldılar ki, bütün xutor bir yerdə yola çıxır. Arvadlar düz iki gün səfərə çıxan kazaklar üçün çörək bişirdi, yeməli şeylər qızartdılar. Dekabrın on ikisində səfərə başlamalı idilər. Panteley Prokofyeviç axşamdan kirşəyə ot və vələmir qoymuşdu, səhər isə, dan yeri ağarar-ağarmaz kürkünü geyindi, toqqasını bağladı, astarsız dəri əlcəklərini qurşağına keçirdi, Allaha dua elədi, ailəsi ilə vidalaşdı.

Azacıq sonra xutordan yoxuşa doğru böyük bir karvan hərəkət elədi. Adamları yola salmağa çıxmış arvadlar arabaların ardınca uzun zaman yaylıqlarını yellətdilər, sonra çöldə boran başlandı, şiddətli yağan qar elə bil ağ duman idi, yavaş-yavaş yoxuşu qalxan arabalar da, onların böyrü ilə yeriyən kazaklar da görünmürdü.

Qriqori Veşenskayaya getməzdən əvvəl Aksinya ilə görüşdü. O, Aksinyanın yanına axşamçağı, xutorda çıraqlar yananda getdi. Aksinya yerdə oturub cəhrə əyirirdi. Anikuşkanın dul qalmış arvadı da onun yanında oturmuşdu, corab toxuyur, nə isə söyləyirdi. Evdə kənar adam olduğunu görən Qriqori Aksinyaya qısaca dedi:

– Bir dəqiqəliyə eşiyə çıx, işim var.

Aksinya dəhlizə gəldikdə əlini onun çiyninə qoyub dedi:

– Mən geriyə çəkilib gedəndə sən də mənimlə gedərsənmi?

Aksinya nə deyəcəyini xeyli fikirləşib dinmədi, sonra sakitcə dedi:

– Bəs təsərrüfat necə olsun? Ev-eşik?

– Birisinə tapşırarsan. Getmək lazımdır.

– Nə vaxt?

– Sabah mən sənin dalınca gələrəm.

Aksinya qaranlıqda gülümsünüb dedi:

– Yadındadırmı, mən sənə çoxdan demişəm ki, sənin lə dünyanın lap o başına gedərəm. Mən indi də o fikirdəyəm. Mənim sənə məhəbbətim safdır. Gedərəm, həm də qayıdıb heç nəyə baxmaram! Səni nə vaxt gözləyim?

– Axşamçağı. Özünlə çox şey götürmə. Paltarını götür, bir də çoxlu yeməli şey. Di hələlik, salamat qal.

– Sağ ol. İstəyirsən içəri gəl... Bu arvad indi gedəcəkdir. Elə bil səni yüz ildir ki, görməmişəm. Mənim mehribanım, Qrişacığım! Mən elə bilirdim ki, sən daha... yox! Deməərəm.

– Yox, indi gələ bilmərəm. Mən indi Vyoşkiyə getməliyəm, salamat qal. Sabah yolumu gözlə.

Qriqori dəhlizdən çıxıb darvazaya çatmışdı, amma Aksinya hələ də dəhlizdə idi, gülümsünür, əlləri ilə alışıb-yanan yanaqlarını ovuşdururdu.

Veşenskayada mahal müəssisələrini və əsgəri ləvazimat anbarlarını köçürməyə başlamışdılar. Qriqori mahal atamanının dəftərxanasında cəbhədəki vəziyyət haqqında məlumat aldı. Yavərlik edən cavanca bir zabit ona dedi:

– Qırmızılar Alekseyevskaya stanitsası yaxınlığındadırlar. Veşenskayadan hansı hissələrin gəlib keçəcəyi bizə məlum deyil, həm də gəlib keçəcəklərmi? Siz özünüz də gördüyünüz kimi, heç kəs heç nə bilmir, hamı qaçmağa tələsir... Mən bu saat hissənizi axtarmağı sizə məsləhət görmürəm, yaxşısı budur Millerovoya gedin, hissənizin harada olduğunu orada daha tez öyrənərsiniz. Sizin polk hər halda dəmiryol xətti ilə keçəcəkdir. Düşmənin qabağı Donun kənarında saxlanacaqmı? Zənn etmirəm. Bu yəqindir ki, Veşenskayanı vuruşmadan tərk edəcəklər.

Qriqori gecədən xeyli keçəndən sonra evlərinə qayıtdı. İliniçna ona şam hazırlarkən dedi:

– Sənin o Proxorun gəlmişdi. Sən atlanıb gedəndən bir saat sonra gəldi, vəd etdi ki, bir də gələcəkdir, amma nədənsə hələ gəlməmişdir.

Bu xəbərdən şad olmuş Qriqori axşam xörəyini tez-tələsik yeyəndən sonra Proxorun yanına getdi. Proxor onu qarşıladı, könülsüz gülümsəyib dedi:

– Mən də elə güman elədim ki, sən Vyoşkidən birbaşa geriyə çəkilmisən.

Qriqori gülə-gülə, əlini sədaqətli keşikçisinin kürəyinə şappıldadaraq soruşdu:

– Bir de görüm haralarda batmışdın, ay şeytan?

– Aydın işdir ki, cəbhədə idim.

– Qaçmısan?

– Nə danışırsan, a kişi, Allah eləməsin! Belə igid oğlan da cəbhədən qaçarmı? Qanuni gəlmişəm, isti məmləkətlərə sənsiz yola düşmək istəmədim. Günah işi birlikdə tutmuşuqsa, məhşər ayağına da birlikdə getməliyik. Orasını bilirsənmi ki, bizim işimiz fırıqdır?

– Bilirəm. Sən bunu söylə görək, səni hissədən nə cür oldu ki, buraxdılar?

– Bu, uzun bir dastandır, sonra danışaram, – deyə Proxor başdansovdu cavab verdi və sir-sifəti daha da qaraldı.

– Polk haradadır?

– Kim bilir indi polk haradadır.

– Bəs sən polkdan nə vaxt çıxmısan?

– İki həftə bundan əvvəl.

– Bəs bu iki həftə harada olmusan?

Proxor gözaltı arvadına baxaraq, narazılıq elədi:

– Vallah, qəribə adamsan... haradadır, necədir, nə cürdür. Harada idimsə, indi orada yoxam. Sənə dedim ki, sonra söylərəm, demək söylərəm. Ay arvad! Arağın varmı? Komandirlə bir qədər araqlayıb damağımızı durultsaq yaxşıdır. Varmı, yoxdurmu? Yoxdur? Onda dur, haradan istəyirsən tap gətir, özü də təpəsi üstə qayıt! Ərin yanında olmadığına görə hərbi nizam-intizamı da yadırğamısan! Tənbəlləşmisən!

Proxorun arvadı qımışıb soruşdu:

– Özündən niyə çıxmısan, a kişi? Çox da üstümə çığırma ha, bu evdə düz-əməlli sahibkar deyilsən evinə ildə iki dəfə gəlirsən.

– Hamı mənim üstümə çığırır, mən də sənin üstünə çığırmayanda kimin üstünə çığırmalıyam? Dayan, mən böyüyüb general

rütbəsinə çatanda, daha sənin üstünə yox, başqalarının üstünə qışqıracağam, hələlik isə döz, paltarını geyin, qaç araq dalınca!

Arvadı geyinib evdən çıxandan sonra Proxor məzəmmətli baxışlarla Qriqorini süzdü, danışmağa başladı:

– Panteleviç, sən heç him-cim qanmırsan... Arvadımın yanında mən hər şeyi sənə danışa bilmərəm ki! Sən də başlamısan necə oldu, nə oldu. Hə, sən özün danış görək, yatalaq naxoşluğundan sonra yaxşılaşmısanmı?

– Mən yaxşılaşmışam, sən özündən danış. Ay kafir oğlu kafir, sən nəyi isə məndən gizlədirsən... Düzünü de, niyə dolaşığa salırsan? Necə qaçmısan?

– Qaçmaq olsaydı, yaxşı iş idi, bundan betər bir əhvalatdır. Naxoş olanda ki, səni evinizə gətirdim, sonra hissəmizə qayıtdım. Məni bölüyə, üçüncü vzvoda göndərdilər. Mən də bilirsən ki, qızğın vuruşma həvəskarıyam! İki dəfə hücuma atıldıq, sonra fikirləşdim: "Deyəsən burada mənim əcəlim tamam olacaqdır! Nə isə bir yol tapıb aradan çıxmaq lazımdır, Proşa, yoxsa qəti məhv olacaqsan!" Bu vaxt, tərsliyə bax ki, döyüşlər çox şiddətləndi, bizə nəfəs çəkməyə imkan vermədilər! Harada cəbhə xəttini yardılarsa, bizim polku ora basdılar. Bircə həftədə bölüyümüzdən on bir nəfər kazak yağlı əppək olub yoxa çıxdı! Mən yamanca darıxdım; o qədər qüssələnmişdim ki, canımda bit də əmələ gəlmişdi. – Proxor papiros bükdü, tütün kisəsini Qriqoriyə uzatdı, aramla söhbətini davam etdirdi:

– Günlərin bir günü lap Liskinin yaxınlığında pusquda dayanmalı oldum. Atlanıb üç adam yola düşdük. Təpənin üstü ilə atlarımızı sürür, hər tərəfə baxırdıq; bir də gördüm ki, qırmızılardan bir nəfəri yarğanın içindən çıxdı, əllərini yuxarıya qaldıraraq yaxınlaşmağımızı gözlədi. Atlarımızı onun yanına səyirtdik, gördük qışqırır: "Həmyerlilərim! Mən də özümüzünkülərdənəm! Məni öldürməyin, sizin tərəfə keçirəm!" Burada şeytan məni dolaşdırdı: nədənsə hirsim başıma vurdu, yaxınlaşıb dedik: "A köpək oğlu, indi ki, davaya gəlmisən, təslim olmamalısan! Sən, dedim, görünür, alçaq adamsan! Bəs sən görmürsən ki, biz düşmən qarşısında güclə duruş gətiririk? Sən də təslim olub bizim qüvvəmizi möhkəmlədirsən?!" Bunu deyib, yəhərin üstündən qılıncımın qınını onun belinin ortasına ilişdirdim. Mənimlə gəlmiş digər kazaklar da onu biabır elədilər: "Bu cür dava eləmək, dörd gözlə ətrafa döyüküb durmaq, dava işinə

yaraşarmı? İşə əlbir girişsəydiniz, dava da qurtarardı!" Kimin ağlına gələrdi ki, bizim tərəfə keçmək istəyən bu adam zabitdir? O, dediyim kimi, zabit imiş! Mən qılıncımın qınını onun kürəyinə ilişdirən kimi rəngi dümağ oldu, sakitcə belə dedi: "Mən zabitəm, sizin məni vurmağa ixtiyarınız yoxdur! Mən özüm də keçmişdə qusar polkunda xidmət etmişəm, qırmızıların əlinə isə səfərbərliklə əlaqədar olaraq keçmişəm, siz məni komandirinizin yanına aparın, orada mən hər şeyi ona söylərəm". Biz dedik: "Vəsiqəni göstər". O isə təşəxüslə bizə belə cavab verdi: "Mən heç sizinlə danışmaq istəmirəm, məni komandirinizin yanına aparın!"

– Yaxşı, bəs sən niyə bunu arvadının yanında danışmaq istəmədin? – deyə təəccüblənmiş Qriqori onu dayandırdı.

– Söhbətin bir yerinə, arvadımın yanında danışa bilməyəcəyim əhvalata hələ gəlib çatmamışam, sən də, xahiş edirəm ki, sözümü kəsməyəsən. Biz bu qərara gəldik ki, onu bölüyə aparaq, amma nahaqca yerə belə elədik... Kaş onu oradaca öldürəydik, bununla da iş qurtaraydı. Biz, onu, qayda-qanun mövcibincə, qabağımıza qatıb gətirdik, amma ertəsi günü gördük ki, onu bizə bölük komandiri təyin ediblər. Bu necə işdir? Elə başımız da həmin gündən bəlaya düşdü. O, məni bir qədər vaxt keçəndən sonra çağırtdırdı, soruşdu: "Köpək oğlu, vahid, bölünməz Rusiya uğrunda beləmi vuruşarlar? Məni əsir aldıqda mənə nə dediklərin yadındadırmı?" Mən məsələni bu yana yozdum, o yana yozdum, amma o mənə göz verdi işıq vermədi, qılıncımın kürəyinə ilişdirildiyi yadına düşən kimi bədəni söyüd təki əsdi! "Bilirsənmi ki, mən qusar polkunun rotmistriyəm, zadəganam, sənin kimi bir gədə necə cəsarət edib mənim kimi adamı vururdu?" Yanına bir dəfə çağırtdırdı, iki dəfə çağırtdırdı, mənə qarşı çox rəhmsizlik edirdi. Vzvod komandirimizə tapşırıq verdi, növbədən əlavə məni keşikdə, pusquda durmağa yollatdı, mənə hey əlavə tapşırıqlar verdirdi; müxtəsər, bu it oğlu məni diri gözlü yeməyə çalışırdı! Mənimlə kəşfiyyata çıxmış və onu əsir almaqda iştirak etmiş digər iki yoldaşımın da başına oyunlar açdı, əziyyətlər verdi. Yoldaşlarım buna dözdülər, dözdülər və bir gün məni kənara çəkib dedilər: "Gəlin onu öldürək, yoxsa gün-güzəranımız olmayacaqdır!" Mən bir qədər fikrə getdim, əhvalatı polk komandirinə söyləməyi qərara aldım, vicdanım onu öldürməyə yol vermədi. Əsir alındığı zaman zabitin başını əzmək olardı, amma sonra nədənsə

onu öldürməyə qolum qalxmırdı... Arvadım toyuq başı kəsəndə gözlərimi yumuram, burada isə adam öldürmək lazım gəlirdi...

– Axırı ki, öldürdünüz, ya yox? – deyə Qriqori yenə onun sözünü kəsdi.

– Bir az da səbr elə, hamısını öyrənəcəksən. Bəli, əhvalatı gedib polk komandirinə söylədim, o da gülüb dedi: "Zıkov, sən onu qılıncla vurmusansa ondan nahaq yerə inciyirsən; nizam-intizamı isə o düzgün müəyyənləşdirir. O həm yaxşı, həm də işlərə bələd zabitdir". Bununla da söhbət qurtardı, mən oradan getdim, amma ürəyimdə dedim: "Əgər o yaxşı zabitdirsə xaç əvəzinə onu qaytana keçirt, boğazından as, mən isə onunla bir bölükdə qulluq edə bilmərəm!" Başqa bölüyə keçirilməyimi xahiş elədim, heç bir nəticə vermədi, dəyişmədilər. Elə bu zaman hissəmizdən əkilmək qərarına gəldim. Amma necə əkiləsən? Bizi bir həftəliyinə dincəlmək üçün yaxın arxaya göndərdilər, şeytan yenə məni dolaşdırdı... Fikirləşdim başqa çarə yoxdur, mən köhnəlmiş süzənək xəstəliyi olan bir arvad tapmalıyam, xəstələnərək xəstəxanaya göndərilərəm, bu zaman da geri çəkilmə başlanar, çünki işin gedişindən də belə görünürdü. O gündən ömrümdə tutmadığım bir əmələ qurşandım, arvadların dalına düşməyə, bunlardan hansının mən axtardığım arvada bənzədiyini bilməyə çalışdım. Baxmaqla, məgər, tanımaq olar? Alnında yazılmayıb ki, bu, xəstədir, indi gəl, çarə tap! – Proxor hirsli-hirsli tüpürdü, arvadının gəlib-gəlmədiyinə qulaq verdi.

Qriqori qımışdığını Proxor görməsin deyə əlini ağzına söykədi, gülməkdən gözləri büzüşmüş halda soruşdu:

– Tapdınmı?

Proxor yaşarmış gözlərini onun üzünə zillədi. Onun bu baxışları qocalmış, ömrünün son günlərini yaşayan köpək baxışları kimi qüssəli və sakit idi. Bir qədər susduqdan sonra dedi:

– Sən elə güman edirsən ki, beləsini tapmaq asan idi? Lazım olmayanda addımbaşı birinə rast gəlirsən, amma tərsliyə bax ki, nə qədər gəzdimsə də, ora-bura vurnuxdumsa da tapılmadı ki, tapılmadı.

Qriqori üzünü yarıya qədər kənara çevirərək kirimişcə gülürdü, sonra əlini üzündən çəkdi, Proxoru tələsdirən bir səslə soruşdu:

– Sən Həzrəti-İsa, adamı zara gətirmə! Tapdın ya yox?

Proxor bundan inciyərək deyindi:

– Əlbəttə, sənə gülməli gəlir. Belə qanıram ki, başqasının bədbəxtliyinə gülmək axmaq işdir.

– Əşi, mən gülmürəm... Sonra nə oldu bəs?

– Sonra mən ev sahibinin qızını yanlamağa başladım. Bu qızın qırx, bəlkə də bir qədər az yaşı olardı. Üzü sızaqla dolu idi, müxtəsər, sir-sifətdən, Allah göstərməsin, yamanca kifir idi! Qonşular söylədilər ki, bu qadın yaxınlarda tez-tez feldşerin yanına gedirdi. Ürəyimdə dedim: "Bax axtardığımı bunda tapacağam!" Bəli, mən cavan xoruz kimi bu arvadın dövrəsində fırlandım, çinədanımı pırpızlaşdırdım, söz atdım, him-cim elədim. Bu qədər sözü mən haradan tapıb deyirdim, heç özüm də başa düşə bilmirəm! – Proxor müqəssir kimi gülümsündü, hətta xatirələrdən bir az şənlənmiş kimi oldu. – Onunla evlənəcəyimi də vəd etdim, sair hər çeşid sarsaq sözlər də danışdım. Nəhayət, onu yumşaltdım, yola gətirdim, günaha batmaq məqamına çatmağa bir şey qalmayanda, gözlərinin yaşını sel kimi axıtmağa başladı! Mən beləyəm, mən eləyəm dedi, soruşdum: "Bəlkə sən xəstəsən, bunun heç də eybi yoxdur, əslinə baxsan daha yaxşıdır". Amma öz aramızdır, qorxudayam: çünki gecə idi, birdən birisi səsimizi eşidər, qapını itələyib açar, samanlığa – yanımıza gələ bilərdi. "Sən Allah, dedim, ahu-zar eləmə! Əgər sən xəstəsənsə, bundan qorxma, sənə məhəbbət bəslədiyimdən hər şeyə razıyam!" O isə dedi: "Mənim əziz Proxorcuğum! Mən naxoş deyiləm. Mən bakirə qızam, qorxuram, buna görə də ağlayıram". Sözümə inanmazsan, Qriqori Panteleviç, o mənə belə deyən kimi bədənimin hər yerindən soyuq tər açıldı! "Xudaya bu nə işdir, dedim, nə bəlayə düşmüşəm? Elə bircə bu qalmışdı?" Özümü itirmiş halda soruşdum: "Bəs, ay Allahın lənətinə gələsən, feldşerin yanına niyə tez-tez gedirsənmiş? Nə üçün adamlara kələk gəlirsən?" "Mən onun yanına, – dedi – üzümün dərisini təmizlətmək üçün dərman almağa gedirdim". Burada mən hövlümdən başımı əllərimin arasına aldım, dedim: "Qalx, bu saat buradan rədd ol, Allahın lənətinə gəlmiş sarsaq! Bakirə qız kimi sən mənə gərək deyilsən, mən səninlə evlənməyəcəyəm!" Proxor bayaqkından daha betər bir qəzəblə bir də tüpürdü, könülsüz söhbətini davam etdirdi: Deməli mənim əməyim, bələliklə, hədər getdi. Daxmaya gəldim, şələ-pələmi yığışdırdım və həmin gecə başqa mənzilə köçdüm. Sonra uşaqlar mənə bir dul arvadı göstərib him elədilər, mən də bu dul arvaddan mənə gərək olan şeyi aldım. Lakin bu dəfə mən işimi möhkəm tutdum, arvaddan kəsəsinə soruşdum: "Naxoşsanmı?" "Bir az sən deyəndən var". "Yaxşı, dedim, mənə də pudla

yox, bir az lazımdır". Məni çətinlikdən çıxartdığı üçün ona iyirmi manatlıq kerenski pulu verdim, ertəsi günü isə öz nailiyyətimdən xoşallanıb xəstəxanaya təpildim, oradan da birbaş evə gəldim.

– Sən atsız gəlmisən?

– Necə yəni atsız? Atlı gəlmişəm, həm də süvariyə gərək olan yaraq-yasağımla. Atı mənim yanıma, xəstəxanaya uşaqlar yollamışdılar. Lakin söz burasında deyil; sən məsləhət ver mənə: bu barədə mən arvadıma nə deyim? Bəlkə də eyibimin üstü açılmasın deyə, durum sizə gedim, gecəni orada qalım?

– Yox, yox, cəhənnəm ol! Öz evində qal! De ki, yaralanmısan. Tənzifin varmı?

– Şəxsi paketdə var.

– İndi ki, var işə başla.

– İnanmayacaq, – deyə Proxor sızıldadı, amma yenə də ayağa qalxdı. Çantasını töküşdürdü, yan otağa keçdi, oradan yavaşca dedi: – O gəlsə başını söhbətə qat, mən də bir dəqiqədə qurtararam!

Qriqori papiros bükərək səfər planını fikirləşdi. Qərara gəldi: "Atlarımızı arabaya qoşub ikilikdə yola çıxarıq. Xutordan qaranlıq qovuşandan sonra çıxmaq lazımdır ki, bizimkilər Aksinyanı da özümlə apardığımı görməsinlər. Cəhənnəmə görsünlər, onsuz da bilirlər..."

Proxor axsaya-axsaya otaqdan çıxdı, stolun yanına gəldi:

– Mən bölük komandirinin axırının nə olduğunu demədim. Mən xəstəxanaya getdikdən üç gün sonra uşaqlar onu öldürüblər.

– Yox əşi?

– Allaha and olsun! Vuruşma zamanı arxadan ona bir güllə vurublar, bununla da işi bitmişdir. Bundan da belə bir nəticə çıxır ki, mən yazıq başımı hədər yerə bəlaya salmışam, bax, adamı bu yandırır!

Fikri-xəyalı tamamilə qarşıdakı səfərdə olan Qriqori dalğın halda soruşdu:

– Müqəssiri tapmadılar ki?

– Haradan tapacaqdılar! Elə güclü bir çaxnaşma başladı ki, buna macal olmadı. Mənim bu arvadım hayanda batdı qaldı, görəsən? Bələliklə adam içmək həvəsindən də düşər. Nə zaman getmək fikrindəsən?

– Sabah.

– Bir gün də gözləsək olarmı?

– Bu nəyə lazım imiş?

– Mən heç olmasa bitimi-sirkəmi töküm, qırım, onlarla birlikdə yola çıxmaq yaxşı deyil.

– Yolda bitini-sirkəni tökərsən. İş elədir ki, gözləmək olmaz. Qırmızılar Vyoşkinin iki mənzilliyindədirlər.

– Səhər ertəmi yola çıxasıyıq?

– Yox, axşam qaranlığından sonra. Biz birtəhər Karginskaya stanitsasına çatmalıyıq, ora çatanda qalıb gecələrik.

– Birdən qırmızılar başımızın üstünü almazlar ki?

– Buna görə də hazır durmaq, ayıq olmaq lazımdır. Bir iş də var. Mən Aksinyanı da özümlə aparmaq niyyətindəyəm. Sənin buna etirazın yoxdur ki?

– Bunun mənə nə dəxli? İstəyirsən iki Aksinya apar. Atların yükü ağır olacaqdır.

– Onun o qədər də ağırlığı yoxdur.

– Arvadlarla yol getməkdən zəhləm gedir... Axı indi bu Aksinya sənin nəyinə lazımdır? Təkcə ikimiz yol getsək, heç bir ehtiyacımız da olmazdı! – Proxor köksünü ötürdü, kənara baxaraq dedi: – Mən o saat bildim ki, sən onu yenə ardınca sürüyüb aparacaqsan. Onunla hey aşnabazlıq edirsən, heç axırı görünmür, belə də iş olar? Qamçı çoxdan kürəyinin həsrətini çəkir!

Qriqori soyuq bir şəkildə ona dedi:

– Bunun sənə dəxli yoxdur. Arvadına da bu haqda söhbət salıb ağzına gələni çərənləmə.

– Mən əvvəllər çərənləmişəm? Heç olmasa insafla danış, vicdanın olsun! Bəs o evi kimə tapşırıb gedəcəkdir?

Dəhlizdə ayaq səsləri eşidildi. Proxorun arvadı içəri girdi. Onun yumşaq yundan toxunmuş boz baş şalının üzərində qar işıldayırdı.

– Borandır? – Proxor şkafdan balaca stəkanlar çıxardıqdan sonra soruşdu: – Sən bir şey gətirmisən ya yox?

Yanaqları qıpqırmızı olmuş arvad qoltuğundan iki üstü tərləmiş, dolu şüşə çıxartdı, gətirib stolun üstünə qoydu.

– Bax, beləcə səfərimizi uğurlu eləyək! – deyə Proxor şənləşdi. Arağı iylədi, iyindən keyfiyyətini təyin elədi: – Lap əlasıdır! Barıt kimi tünddür!

Qriqori iki balaca stəkan araq içdi, yorğunluğunu bəhanə edib, evlərinə getdi.

XXVI

Kirşə yoxuşun başına çatanda Proxor dedi:

– Bəli, müharibə qurtardı! Qırmızılar üstümüzə elə basqın edəblər ki, indi dənizə kimi, irtməyimiz duzlu suya dəyənə qədər geriyə çəkilməli olacağıq.

Aşağıda Tatarsk xutoru göyümsov tüstüyə bürünmüş kimi idi. Üfüqün çəhrayıya çalan qarlı ətəklərində günəş batmaqda idi. Kirşənin sürünəcəkləri altında qar xışıldayırdı. Atlar yavaş gedirdi. İki at qoşulmuş kirşənin geri tərəfində arxasını yəhərlərə söykəmiş Qriqori yarı uzanmış vəziyyətdə idi. Köbəsi yumşaq xəzdən Don kürkü geyinmiş Aksinya da onunla yanaşı oturmuşdu. Onun yumşaq ağ yundan toxunmuş şalının altında qara gözləri parlayır, ətrafa şadlıq qığılcımları saçırdı. Qriqori ona qıyqacı baxışlarla nəzər salır, ayazdan zərif bir qızartı çökmüş yanaqlarını, qalın qara qaşlarını, qırov bağlamış əyri kirpikləri altında parıldayan göyümsov göz almasını görürdü. Aksinya qarlı, çala-çuxurlu çölə, cilalanmış kimi olan hamar yollara, dumanlar içində gözdən itən uzaq üfüqlərə sonsuz maraqla tamaşa edirdi. Evindən uzağa getməmiş Aksinyaya hər şey yeni və qeyri-adi gəlirdi, hər şey onun diqqətini cəlb edirdi. Lakin hərdənbir başını aşağı dikdikdə, kirpiklərinin ucunda qırovun qıcıqlandırıcı xoş soyuğunu hiss etdikdə, çoxdan əsiri olduğu bir xəyalın – Qriqori ilə birlikdə Tatarskdan baş götürüb uzaqlara getmək, min əzab və iztiraba məhkum olduğu, sevmədiyi əri ilə ömrünün yarısını keçirdiyi, hər şeyi başdan-başa onu üzən ağır xatirələrdən ibarət doğma, lakin cəhənnəmdən başqa bir şey olmayan yerlərdən uzaqlaşmaq arzusunun birdən-birə və əcaib şəkildə həqiqətə çevrildiyinə sevinirdi. Qriqorinin onunla birlikdə olduğunu bütün vücudu ilə duyur, buna sevindiyi üçün gülümsünür, bu səadətin ona nəyin bahasına başa gəldiyini də, indi bu çöllərdəki əsrarəngiz üfüqlər kimi qaranlıq gələcəyini də düşünmürdü.

Proxor təsadüfən geriyə baxanda, Aksinyanın qırmızı və soyuqdan bir qədər şişmiş dodaqlarında ürkək bir təbəssüm görürdü.

– Hə, dişlərini niyə ağardırsan? Daha gəlinsən ki, gəlinsən! Evdən qaçıb canını qurtardığına sevinirsən?

– Bəs elə bilirdin ki, sevinmirəm? – deyə Aksinya ona cingiltili bir səslə cavab verdi.

– Sevinməyə şey tapdı... Sən axmaq arvadsan! Bizim bu gəzintimizin aqibəti hələ məlum deyil; odur ki, vaxtından tez sevinməyi boşla, ağzını ört, dişlərin görünməsin.

– Əvvəlkindən pis olmayacaq.

Proxor qamçını qəzəblə atların belinə endirdi.

– Elə ki, sizə baxıram, o saat ürəyim bulanır.

Aksinya gülə-gülə dedi:

– Sən də baxma, üzünü geriyə çevir, barmağını ağzına sal.

– Axmaq olduğunu bir də büruzə verdin! Deməli buradan dənizə qədər barmağım ağzımda yol gedim? Söz danışdın!

– Bəs sənin ürəyinin bulanmasına səbəb nə imiş?

– Yaxşısı budur, dinməyəsən! Bəs ərin hayandadır? Yad bir kişinin ətəyindən yapışıb, Allah bilir, hara gedirsən! İndi Stepan xutora gəlsə işlər necə olacaq?

Aksinya ondan xahiş elədi:

– Bilirsən, nə var, Proxor, sən bizim işlərimizə qarışmasan yaxşı olar, yoxsa sən özün də xoşbəxt olmazsan.

– Mən sizin işlərinizə qarışmıram, nəyimə gərəkdir? Amma mən öz rəyimi deyə bilərəm, ya yox? Yoxsa mən sizin yanınızda arabaçıyam və yol uzunu ancaq atlarla danışmalıyam? Heç bu da sözdür! Yox, Aksinya, istəyirsən acığın tutsun, istəyirsən tutmasın, səni yoğun bir çubuqla o ki var döymək lazımdır, həm də döydükdə çığırmağa icazə verməmək lazımdır. Xoşbəxtlik məsələsi barədə isə sən məni hədələmə, mən səadəti özümlə aparıram. Xoşbəxtlik məsələsi məndə xüsusidir, eşşək quyruğu kimi nə uzanır, nə də gödəlir... Hə, çər dəymişlər! Sizə qalsa yolu həmişə yavaş gedərsiniz, yaman çıxardasınız görüm!

Qriqori bu söhbəti gülümsünərək dinlədi, sonra onları barışdırırcasına dedi:

– Əvvəla, dalaşmayın. Çox uzaqlara gedirik, dalaşmağa macal taparsınız. Nə istəyirsən, Proxor, niyə ondan əl çəkmirsən?

Proxor qəzəblənərək dedi:

– Mən buna görə onun yaxasından əl çəkmirəm ki, dediklərimin ziddinə gedir, qoy mənimlə öcəşməsin. Mən belə düşünürəm ki, bu işıqlı dünyada arvadlardan pis şey yoxdur! Onlar elə gicitkən toxumudurlar ki... bunu da deyə bilərəm ki, qardaş, arvadları xəlq eləməsi Allahın tutduğu ən pis əməldir! Mənə qalsa bu müzür

şeytanların hamısını ucdantutma qırardım ki, yer üzündən toxumları kəsilsin! Gör mən onlardan necə yanıqlıyam! Bir de görək nəyə gülürsən, hə? Başqasının bədbəxtliyinə gülmək axmaq adamın işidir! Cilovu tut görüm, mən bir hovurluğuna düşüm.

Proxor uzun zaman kirşənin yanı ilə piyada yeridi, sonra çıxıb bir küncə qısıldı və daha söhbət eləmədi.

Karginskayada gecələdilər. Ertəsi günü səhər qəlyanaltı edib, yenə yola düşdülər və o günü axşama qədər altmış verst yol getdilər.

Qaçqınlarla dolu saysız-hesabsız araba karvanı cənuba doğru gedirdi. Veşenskaya ərazisindən uzaqlaşdıqca gecələməkçün yer tapmaq çətinləşirdi. Morozovskaya yaxınlığında ilk kazak əsgəri hissələrinə rast gəlməyə başladılar. Hərəkətdə olan süvari hissələrində cəmisi otuz-qırx atlı var idi, araba karvanlarının ucu-bucağı görünmürdü. Xutorlarda bütün binaları, axşam olmamış adamlar tuturdu, buna görə də nəinki gecələmək üçün ev tapılmırdı, hətta atları rahatlamaq üçün yer də yox idi; odur ki, Qriqori gecəni bir mərəkdə qalmalı oldu. Boran zamanı əyinlərində islanmış paltarları səhərçağı dondu, yığışdı, hərəkət etdikcə səs salırdı. Aksinya, Qriqori və Proxor, demək olar ki, bütün gecəni yatmamışdılar, yalnız səhər dan yeri ağaranda, həyətin geri yanında ocaq qaladıqdan sonra qızına bildilər.

Səhər açılanda Aksinya cürətsiz bir şəkildə dedi:

– Qrişa, bu gün burada qalsaq necə olar? Gecə hamımız soyuqdan əziyyət çəkmişik və demək olar ki, yatmamışıq, bəlkə bir az dincəlsək yaxşıdır?

Qriqori razı oldu. Gəzdikdən sonra uzanmaq üçün çox çətinliklə bir balaca guşə tapdı. Dan yeri ağaran kimi araba karvanı yola düşdü, amma yüzdən çox yaralısı və yatalaq naxoşluğuna tutulmuş xəstəsi olan səyyar xəstəxana da burada qalmalı oldu.

Balaca bir otaqda, çirkli torpaq döşəmə üstündə on nəfər kazak yatırdı. Proxor boğçanı və içində çörək-körək olan kisəni buraya gətirdi, daş kimi yatmış bir qoca kişinin ayağından yapışdı, sürütləyib kənara çəkdi, qaba bir nəzakətlə dedi:

– Uzan, Aksinya, dincəl, yoxsa o qədər əziyyət çəkmisən ki, sir-sifətdən çıxmısan!

Gecə həmin nahiyə yenə adamla doldu. Küçələrdə səhərədək ocaq qaladılar, adamların səs-küyü, at kişnəməsi, kirşələrin xırçıltısı

kəsilmədi. Dan yeri ağarar-ağarmaz Qriqori Proxoru oyatdı, yavaşca dedi:

– Atları qoş. Yola düşmək lazımdır.

Proxor əsnəyə-əsnəyə soruşdu:

– Bəs niyə belə tez?

– Dur, sözə bax.

Proxor başını yəhər döşəkçəsinin üstündən qaldırdı, diqqətlə qulaq asdıqda, uzaqda açılan top atəşinin boğuq gurultusunu eşitdi.

Əllərini-üzlərini yudular, bir qədər piy-çörək yedilər, adamların qaynaşdığı nahiyədən yola düşdülər. Küçələrdə kirşələr yan-yana düzülmüşdü, adamlar tələş içində qaçışırdılar, dan qaranlığında kim isə səsi xırıldaya-xırıldaya qışqırırdı:

– Xeyr a, özünüz dəfn edin! Biz altı adam üçün qəbir qazınca günorta olar!

İkinci bir kişi sakitcə soruşdu:

– Axı niyə onları biz dəfn etməliyik?

Səsi xırıltılı çıxan qışqırırdı:

– Qazarsınız, yaxşıca qazarsınız! İstəmirsinizsə qoy qalsınlar, iylənsinlər, bunun mənə dəxli yoxdur!

– Nə danışırsınız, cənab hakim! Yolçulardan burada ölənlərin hamısını biz dəfn etməli olsaq, onda bütün işlərimizi buraxıb ancaq qəbir qazmaqla məşğul olmalıyıq. Bunları bəlkə siz özünüz ortadan yığışdırasınız.

– Cəhənnəmə ol, Allahın dılğırı! Bu nədir, sənin ucbatından istəyirsən hərbi xəstəxananı qırmızılara təslim eləyim?

Qriqori balaca küçəni başdan-başa tutmuş araba karvanının böyründən ötəndə dedi:

– Ölülər heç kəsə lazım deyildir...

Proxor da onun səsinə səs verdi:

– Burada dirilərin dərdini çəkən yoxdur, o ki qaldı ölülər...

Donun bütün şimal stanitsaları cənuba hərəkət edirdi. Qaçqınlarla dolu saysız-hesabsız araba karvanları Tsaritsın-Lixaya dəmiryol xəttini keçmişdi, indi də Manıça yaxınlaşırdı. Qriqori yol gəldiyi bir həftə ərzində hamıdan tatarsklıları görüb-görmədiyini xəbər alırdı, lakin keçib getdiyi xutorların heç birisində öz həmyerlilərinə rast gəlmədi; çox ehtimal ki, onlar yolda bir az sola burulmuş, Ukrayna kəndlərinin yanından ötərək, kazak xutorlarının arası ilə Oblivskaya

tərəfə getmişdilər. Qriqori yalnız yola çıxdığının on üçüncü günü öz həmyerlilərinin sorağını ala bildi. Dəmiryol xəttindən keçəndə, xutorlardan birində təsadüfən öyrəndi ki, Veşenskaya stanitsası sakini olan bir kazak yaxınlıqdakı evdə yatalaq naxoşluğundan yatır. Qriqori xəstənin kim olduğunu öyrənmək üçün oraya getdi; içəriyə – alçaq bir daxmacığa girdikdə gördü ki, öz yerlisi qoca Obnizov döşəmədə yatır. Qriqori bu qocadan öyrəndi ki, tatarsklılar srağagün bu xutordan getmişlər, aralarında yatalaq naxoşluğuna tutulanlar çoxdur, yolda hətta iki nəfəri ölmüşdür, onu, Obnizovu isə, xahişinə görə, burada qoyub yola düşmüşlər.

Qoca Obnizov Qriqori ilə vidalaşdıqda dedi:

– Əgər bir qədər yaxşılaşsam, birtəhər sürünə-sürünə evimizə gedərəm, yaxşılaşmasam, harada ölməyin fərqi yoxdur...

Qriqori ondan atasını soruşdu, səhhətinə dair sual verdi, amma Obnizov cavab verdi ki, heç nə deyə bilməyəcəkdir, çünki araba karvanının lap gerisində idi, həm də Malaxovsk xutorundan sonra Panteley Prokofyeviçi görməmişdir.

Sonrakı gecələmədə Qriqorinin işi rast gətirdi: gecələməyə yer verilməsini xahiş eləmək üçün girdiyi ilk evdə Verxne-Çirsk xutorundan gəlmiş kazaklara rast gəldi. Onlar bir qədər sıxlaşdılar və Qriqori sobanın yanında özünə yer elədi. Otaqda on beş nəfər qaçqın böyür-böyürə söykənib yerdə yatışmışdı, bunlardan üçü tif naxoşluğuna tutulmuş, birini də don vurmuşdu. Kazaklar axşam yeməyi – piy ilə darı xəşili bişirdilər, xoş sifətlə təklif elədilər ki, bu xörəkdən Qriqori də yesin, yoldaşları da. Qriqori ilə Proxor xəşili iştahla yedilər, Aksinya yemək istəmədi.

Son günlərdə nədənsə Aksinyaya qarşı münasibətini dəyişmiş, onunla yenə kobud danışan, amma yazığı gələn Proxor soruşdu:

– Məgər ac deyilsən?

Aksinya yaylığını başına örtdü, eşiyə çıxdı:

– Nədənsə ürəyim bulanır...

Proxor Qriqoriyə üz tutub soruşdu:

– Yoxsa bu naxoşlamışdır?

– Kim bilir. – Qriqori xəşil boşqabını kənara qoydu, o da eşiyə çıxdı. Qriqori onu qucaqladı, təşvişlə soruşdu:

– Sənə nə oldu, Aksinyacan?

– Həm ürəyim bulanır, həm də başım ağrıyır.

– İçəri gedək, uzan, dincəl.

– Keç, bu saat gəlirəm.

Onun səsi boğuq və zəif idi, bədəni süstləşmişdi. O, sobası bərk qalanmış otağa girdikdə, Qriqori tam diqqətlə onun üzünə baxdı; gördü ki, yanaqları alışıb-yanır, gözlərində şübhəli bir parıltı var. Təşvişə düşdü, ürəyi sıxıldı: Aksinya gerçəkdən naxoşlamışdı. Qriqorinin yadına düşdü ki, Aksinya dünən də bədəninin ürpəşməsindən, başının hərlənməsindən şikayətlənirdi; səhərə yaxın isə elə bərk tərləmişdi ki, boynunda qıvrım saçları tamam islanmışdı, elə bil çimmişdi; Qriqori bunları səhərə yaxın yuxudan oyandıqda görmüş, uzun zaman gözlərini yuxulu Aksinyanın üzündən çəkməmişdi, Aksinyanı oyada biləcəyindən ehtiyat edərək yerindən qalxmamışdı.

Aksinya yol ilə əlaqədar məhrumiyyətlərə mərdliklə davam gətirirdi; dəfələrlə şikayətlənən Proxoru hətta ruhlandırırdı. Proxor tez-tez deyirdi: "Axı bu zəhrimara dönmüş müharibə nə olan şeydir, kim onu icad eləmişdir? Səhərdən axşamadək yol gedirsən, bir yerə çatanda da gecələməyə yer tapmırsan; həm də ki, heç məlum deyil, haçana qədər belə gəzərgi olacaqsan?" Lakin o günü Aksinya da davam gətirə bilmədi. Gecə adamlar yatanda, Qriqoriyə elə gəldi ki, Aksinya ağlayır.

Qriqori pıçıltı ilə soruşdu:

– Niyə belə eləyirsən? Yoxsa bir yerin ağrıyır?

– Naxoşlamışam... İndi nə edəcəyik? Məni tullayıb gedəcəksən?

– Nə danışırsan, ay axmaq? Mən səni atıb gedərəm? Ağlama, ola bilsin ki, yolda sənə soyuq dəymişdir, amma sən qorxuya düşmüsən.

– Qrişacan, bu yatalaq naxoşluğudur!

– Boş-boş danışma! Heç nədən belə olduğu görünmür; alnın buz kimidir, ola bilsin ki, heç yatalaq deyil, – deyə Qriqori onu sakit edirdi, amma ürəyində buna inanmışdı ki, Aksinyanın xəstəliyi səpmə yatalaqdır; buna görə də naxoşluq Aksinyanı yatağa salarsa, ona necə baxacağını fikirləşdikcə əzabdan üzülürdü.

Aksinya Qriqoriyə qısılaraq pıçıldayırdı:

– Oh, bu cür yol getmək çox ağırdır! Bir ora bax, gecələmək üçün gör nə qədər adam yığışmışdır! Qrişa bit bizi əldən salacaqdır! Hər yan kişi ilə dolduğu üçün əynimə-başıma baxmağa mümkünat yoxdur... Mən hələ dünən mərəyə girib üstümü-başımı çırpmışam, amma köynəyim bitlə doludur. Pərvərdigara, ömrümdə belə murdarçılığa düşməmişəm! Onlar yadıma düşəndə ürəyim qalxır, heç nə yemək istəmirəm... Sən taxtın üstündə yatmış qocanın üstündə dünən nə qədər bit yeridiyini gördün? Arxalığının üstü ilə gəzişirdilər.

Qriqori dilxor olub pıçıltı ilə dedi:

– Sən onları yadından çıxart, danışmağa başına söz qəhətdir, məgər? Nə olsun ki, bitdir də, qulluq vaxtı belə şeyə məhəl qoymurlar.

– Bədənimin hər yeri gizildəyir.

– Hamının bədəni gizildəyir, neyləmək olar? Səbr elə. Yekaterinodara çatanda orada çimərik, təmizlənərik.

– Təmiz paltar geyinməyin də faydası yoxdur. Bit bizi məhv edəcəkdir, Qrişa!

– Yat, sabah yola ertədən çıxacağıq.

Qriqori uzun zaman yata bilmədi. Aksinya da yatmırdı. O, kürkünün ətəyi ilə başını bürüyərək dəfələrlə hıçqırdı, sonra yerində xeyli qurcuxdu, ah çəkdi və yalnız Qriqori üzünü ona tərəf çevirəndən, onu qucaqlayandan sonra yatdı. Gecəyarısı qapı bərk döyüldükdə Qriqori oyandı. Kim isə qapını az qalırdı qırsın, zil səslə qışqırırdı:

– Bu saat qapını açın! Açmasanız sındıracağıq! Məlunlara bax, yatışıblar!

Yaşı ötmüş, fağır ev sahibi kazak dəhlizə keçib soruşdu:

– Kimsiniz? Nə istəyirsiniz? Gecələmək fikrindəsinizsə yer yoxdur, içəri adamla doludur, tərpənmək mümkün deyil.

Bayırdan qışqırırdılar:

– Sənə deyirlər qapını aç!

Beş nəfər silahlı kazak qapını taybatay açdı, yan otağa təpildi.

Kazaklardan biri – sifəti ayazdan qaralmış, çuqun kimi olmuş, soyuqdan büzüşmüş dodaqlarını çətinliklə qımıldadıb soruşdu:

– Evində gecələyənlər kimlərdir?

– Qaçqınlardır. Bəs siz kimsiniz?

Gələnlərdən biri böyük otağa doğru yeridi və qışqırdı:

– Bura baxın, ey! Bəsdir yatdığınız! Qalxın, bu saat buradan rədd olun! Buraya qoşun gəlir. Qalxın, qalxın! Bir az cəld tərpənin, yoxsa qılçalarınızdan yapışıb hamınızı bayıra atarıq!

Qriqori yuxulu-yuxulu, səsi bir qədər kallaşmış halda soruşdu:

– Belə ki, anqırırsan, bəs sən özün kimsən? – aramla yerindən qalxdı.

– Mən bu saat sənə kim olduğumu göstərərəm! – Kazak Qriqorinin üstünə yeridi, əlindəki naqanının lüləsi zəif çıraq işığında tutqun şəkildə işıldadı.

Qriqori pıçıltı ilə dedi:

– Deməli, sən yaman qoçaqsanmış! Əlindəki o oyuncağı göstər görüm – Qriqori cəld hərəkətlə kazakın biləyindən bərk-bərk yapışdı, onu var gücü ilə elə sıxdı ki, kazak zarıdı və barmaqları aralandı. Naqan palazın üstünə düşüb yavaşca tappıldadı. Qriqori kazakı qırağa itələdi, cəld əyildi və naqanı götürdü, cibinə qoydu, sakitcə dedi: – İndi gəl danışaq. Hansı hissədənsən? Burada sənin kimi diribaşlardan neçəsi var?

Gözlənilmədən xataya düşmüş kazak toxtayıb qışqırdı:

– Uşaqlar! Bura gəlin!

Qriqori qapıya yaxınlaşdı, kandarda dayandı, dalını qapıya söykəyərək dedi:

– Mən On ikinci Don polkunun bölük komandiriyəm. Sakit olun! Bağırmayın! Orada mırıldayan kimdir? Bu nədir, həmyerlilər, eloğlularımız, deyəsən, qoçaqlaşmısınız? Kimi sürütləyib bayıra tullayacaqsınız? Sizə belə ixtiyarı kim vermişdir? Haydı, marş, gedin buradan!

Kazaklardan biri ucadan səsləndi:

– Nə haray-dad salmısan? Biz hər çeşid bölük komandiri görmüşük! Sizcə, biz harada, eşikdəmi gecələməliyik? Binanı boşaldın! Bizə belə bir əmr verilmişdir ki, qaçqınları bütün evlərdən bayıra çıxardın, anladınızmı? Amma sən burada özündən çıxıbsan! Biz sizin kimilərini çox görmüşük!

Qriqori kazakın üstünə cumdu, dişlərini bir-birinə qıcayaraq dedi:

– Yox, sən beləsini hələ görməmisən. İndi sən axmağı ağıllandırımmı? Elə ağıllandırram ki! Daha niyə geriyə çəkilirsən! Bu mənim naqanım deyil, sənin yoldaşının əlindən almışam. Al, bunu ona verərsən, həm də buradan tezliklə cəhənnəm olub gedərsiniz, yoxsa tükünüzü didərəm! Qriqori kazakı yüngülcə yana çevirdi, qapıya doğru itələdi.

Üzünü dəvəyunu başlığa bürümüş cantıraq bir kazak xəyala dalmış halda soruşdu:

– Buna qulaqburması verimmi? – Həmin kazak Qriqorinin geri yanında durmuşdu, ayağının gah birini, gah da o birini qaldırıb yerə qoyur, üstünə dəri tikilmiş keçə çəkməsi qarın üzərində cırıldayırdı; o, diqqətlə Qriqorini nəzərdən keçirdirdi.

Qriqori üzünü ona tərəf çevirdi və ağlı başından çıxmış halda yumruğunu düydü, lakin kazak əlini qaldırdı, mehribanlıqla dedi:

– Bura bax, cənab zabit, yaxud bilmirəm necə deyim: səbr elə, yumruğunu hərləmə! Biz qalmaqaldan uzaqlaşarıq. Amma sən zəmanəyə bax, kazakların üstünə çox da qışqırma! İndi yenə on yeddinci ildəki kimi, çox ciddi bir zaman yaxınlaşmaqdadır. Qəzəblənəndə elə dəlisov adamlara rast gələrsən ki, səni tikə-parça eləyərlər! Biz sənin qoçaq zabit olduğunu görürük, danışığından da belə anlayıram ki, bizim öz aramızdan yetişənsən; odur ki, bir qədər özünü yığışdır, yoxsa xataya düşərsən...

Qriqorinin naqanını əlindən aldığı kazak yana-yana dedi:

– Canım, ona ayə-təfsir oxuduğun yetər! Gəlin qonşuluqdakı daxmaya gedək. – O hamıdan əvvəl özü qapıya doğru yönəldi. Qriqorinin yanından keçəndə tərs-tərs onun üzünə baxıb təəssüf hissi ilə dedi: – Biz sənə baş qoşmuruq, cənab zabit, yoxsa səni əzişdirərdik!

Qriqori istehza ilə dodaqlarını büzdü:

– Məni sənmi əzişdirərdin? Yeri, yeri, şalvarını çıxartmamış buradan rədd ol! Adam əzişdirənə bax! Heyif ki, naqanını özünə qaytardım, sənin kimi dil pəhləvanları böyründən naqan yox, qoyun şaqqıldağı asmalıdır!

Kazaklardan biri, çəkişmədə iştirak etməyən bir kişi, sadədilliklə gülüb dedi:

– Gedək uşaqlar, boşlayın, qoy cəhənnəm olsun! Basdıqca iylənəcək!

Kazaklar söyə-söyə, donmuş çəkmələri ilə tappıltı salaraq dəhlizdən keçdilər. Qriqori ev sahibinə qəti əmr verdi:

– Qapını heç kəsə açma! Döyərlər, döyərlər, gedərlər, getməsələr, məni oyadarsan.

Verxneçirskililər səs-küyə yuxudan oyandılar və yavaşca birbiri ilə danışmağa başladılar.

Qocalardan biri köksünü ötürüb yana-yana deyirdi:

– Gör nizam-intizam necə pozulmuşdur! İt uşaqları, gör, zabitlə nə cür danışırlar... Keçmişdə belə şeylər olardımı? Bunun üstündə adamı kürək cəzasına məhkum edərdilər!

– Bu cür danışmaqları hələ bir yana! Görmədin, dalaşmaq niyyətində idilər! Bir nəfəri, o palıd kimi cantıraq olanı, üzünü başlıqla bürümüş kazak dedi ki: "Buna qulaqburması verimmi?" Bir baxın, yağı uşağı yağı görün, nə qədər həyasızlaşıblar!

Kazaklardan bir nəfəri soruşdu:

– Sən onların bu təqsirindən elə-beləcə keçəcəksənmi, Qriqori Panteleviç?

Şinelinə bürünmüş Qriqori, qərəzsiz bir təbəssümlə deyilənlərə qulaq asıb, ona belə cavab verdi:

– Onlara neyləmək olar? Onlar indi hər kəsdən aralanıblar və kimsəyə tabe deyillər; quldur dəstəsi kimi komandirsiz qalıblar; məlum deyildir ki, hakimləri kimdir, rəisləri kimdir. Kim onlardan güclüdürsə, başçıları da odur. Çox güman ki, onların hissələrində indi bir nəfər də olsun zabit qalmamışdır. Mən belə bölükləri az görməmişəm: atasından-anasından küsənlər dəstəsi. Eh, gəlin yataq.

Aksinya astadan pıçıldadı:

– Axı sən onlara niyə qoşulursan, Qrişa? Sən Allah, bələləri ilə savaşma! Dəli-cinli adamlardır, səni vurub öldürə bilərlər.

– Yat, yat, sabah tezdən oyanacağıq. De görüm, özünü necə hiss edirsən? Yüngülləşirsənmi?

– Elə əvvəlki kimiyəm.

– Başın ağrıyırmı?

– Ağrıyır. Belə ki, görürəm, deyəsən, mən başımı bir də yerdən qaldırmayacağam.

Qriqori əlini Aksinyanın alnına qoydu, köksünü ötürdü:

– Bədənin od kimidir, elə bil təndirdəsən. Eybi yoxdur, qorxma! Sən sağlam qadınsan, sağalarsan.

Aksinya dinmədi. Susuzluq onu haldan salmışdı. O bir neçə dəfə mətbəxə getmiş, orada iyrənc ilıq sudan içmişdi; ürək bulanmasını və baş gicəllənməsini birtəhər boğub qayıtmış, yenə palazın üstünə uzanmışdı.

Gecə ərzində dörd dəstə adam gəldi, bu daxmada qalmaq istədi. Onlar tüfəngin qundağı ilə qapını döyür, pəncərə taxtalarını aralayır,

pəncərəni döyəcləyir və yalnız Qriqorinin öyrətdiyi ev sahibi dəhlizdən onların üstünə qışqıraraq: "Çıxın gedin buradan! Burada briqada qərargahı yerləşdirilmişdir!" dedikdən sonra əl çəkir, uzaqlaşırdılar.

Hava işıqlaşanda Proxor ilə Qriqori atları kirşəyə qoşdular. Aksinya çox çətinliklə paltarını geyindi, eşiyə çıxdı. Günəş çıxırdı. Evlərin bacalarından mavi səmaya göyümsov tüstü yüksəlməkdə idi. Alt tərəfdən üzərinə günəşin nuru yayılmış bir bulud səmanın dərinliklərində qıpqırmızı olmuşdu. Çəpərlərin üstünə, mərəklərin damlarına qalın qırov düşmüşdü. Atların belindən buxar qalxırdı.

Qriqori keçib kirşədə oturması üçün Aksinyaya yardım edərək soruşdu:

– Bəlkə sən kirşədə uzansan yaxşı olar? Elə etsən rahat olarsan.

Aksinya başını tərpədərək razı oldu. Qriqori onun ayaqlarını qayğı ilə örtəndə Aksinya sözsüz bir minnətdarlıqla onun üzünə baxdı, gözlərini yumdu.

Günortaçağı, atları yemləmək üçün yoldan iki verst kənarda olan Novo-Mixaylovsk qəsəbəsində dayandıqda, Aksinya ayağa dura bilmədi. Qriqori onun qolundan yapışaraq evə gətirdi, ev sahibinin arvadının qonaqpərvərcəsinə təklif etdiyi çarpayıya uzatdı.

Qriqori rəngi tamam qaçmış Aksinyaya doğru əyilib soruşdu:

– Əhvalın pisdir, əzizim?

Aksinya gözlərini çətinliklə açdı, dumanlanmış baxışları ilə onu süzdü və yenə huşsuzluq aləminə getdi. Qriqori əlləri əsə-əsə onun yaylığını başından açdı. Aksinyanın yanaqları buz kimi soyuq, amma alnı od kimi idi; buxarlanan gicgahlarında tər damlaları donmuşdu. Axşamüstü Aksinya şüurunu tamam itirdi. Bir az əvvəl o içmək üçün su istəyib xahiş elədi:

– Amma soyuq su verin, qar suyu. – Bir az susdu və dodaqları güclə qımıldanaraq dedi: – Qrişanı bura çağırın.

– Mən yanındayam. Nə istəyirsən, Aksinyacan? – Qriqori onun əlini əlləri arasına aldı, yöndəmsiz və utana-utana sığalladı.

– Məni atıb getmə, Qrişacan!

– Mən səni atıb getmərəm. Bu haradan ağlına gəldi?

– Məni qürbət eldə atıb getmə... Burada ölərəm.

Proxor ona su verdi. Aksinya qaysaqlanmış dodaqlarını acgözlüklə mis parçın qırağına söykədi, bir neçə qurtum içdi, zarıya-zarıya

başını balışın üstünə atdı. Beş dəqiqədən sonra o sayıqlamağa başladı. Aksinyanın yastığının yanında oturmuş Qriqori bu sözlərdən bir neçəsini başa düşdü. "Paltar yumaq lazımdır... bir qədər lil tap... tezdir..." Aksinyanın güclə eşidilən səsi tamam batdı, indi onun ancaq dodaqları qımıldanırdı. Proxor başını buladı, məzəmmətə başladı:

– Sənə dedimmi ki, onu aparma! Hə, de görək, indi nə edəcəyik? Allaha and olsun, xalis cəzadır çəkirik, vəssalam! Burada qalıb gecələyəcəyikmi? Karsan nədir, eşitmirsən? Soruşuram ki, burada qalıb gecələyəcəyikmi, yoxsa yola düşəcəyik?

Qriqori dinmirdi. O, beli bükülmüş halda oturub, gözlərini Aksinyanın avazımış üzündən çəkmirdi. Xoşsifət və mehriban bir qadın olan ev sahibəsi gözləri ilə Aksinyaya işarə edərək Proxordan yavaşca soruşdu:

– Onun arvadıdırmı? Uşaqları da varmı?

– Uşaqları da var, hər şeyləri də, amma bircə işimiz rast gətirmir, uğursuzuq, – deyə Proxor söyləndi.

Qriqori eşiyə çıxdı, kirşənin üstündə oturub, xeyli vaxt papiros çəkdi. Aksinyanı qəsəbədə qoyub getmək lazım idi, bu vəziyyətdə yol getməsi onu məhv edə bilərdi. Bu Qriqoriyə aydın idi. O, evə gəldi, yenə çarpayının baş tərəfində oturdu.

– Gecə burada qalırıq, yoxsa yox? – deyə Proxor soruşdu.

– Bəli. Ola bilsin ki, sabah da qalacağıq.

Bir az keçməmiş ev sahibi də gəldi; bu, qısaboy və zəif bir kişi idi; gözləri qaynaşırdı. Şikəst ayağına keçirdiyi taxta ilə tappıltı salasala qıvraqca stola yaxınlaşdı – ayağının biri dizinə qədər kəsilmişdi – üst paltarını soyundu, narazılıqla gözaltı Proxora baxıb soruşdu:

– Deyəsən, Allah qonağısınız? Haralısınız? – Sualına cavab gözləməyib arvadına əmr verdi: – Tez ol, mənə yeməyə bir şey gətir, it kimi acından ölürəm.

Kişi xeyli vaxt və iştahla çörək yedi. Onun qaynaşan gözləri gah Proxorun üzünə, gah da daş kimi hərəkətsiz Aksinyanın üzünə zillənirdi. Qriqori eşikdən içəriyə girdi, ev sahibinə salam verdi. Ev sahibi kirimişcə baş əydi və soruşdu:

– Geri çəkilirsiniz?

– Bəli, geri çəkilirik.

– Demək davanı qurtardınız, cənab zabit?

– Belə görünür.

– Bu kimdir, arvadınızdırmı? – Ev sahibi başı ilə Aksinyanı göstərdi.

– Arvadımdır.

Kişi arvadına üz tutub dedi:

– Niyə onu çarpayıda yatırtmısan? Bəs özümüz harada yatacağıq?

– Naxoşdur, Vanya, adamın yazığı gəlir.

– Yazığın gəlir! Bunların hamısına sənin yazığın gələ bilməz; ora bax, gör nə qədər tökülüb gələn var! Cənab zabit, siz bizi narahat eləyirsiniz...

Qriqori əlini döşünə qoyaraq, ev sahiblərinə üz tutub yalvarmağa başladı; onun səsində bu zaman Qriqoriyə qətiyyən xas olmayan üzrxahlıq ahəngi, yalvarış ahəngi sezilirdi:

– Mərhəmətli adamlar! Sizi İsaya and verirəm, mənə bu fəlakətdə yardım edin. Onu aparmaq mümkün deyil, ölər, icazə verin sizin evdə qalsın. Naxoşa baxmağınızın əvəzində mən sizə istədiyiniz qədər pul verərəm, həm də sizin yaxşılığınızı ömrüm uzunu unutmaram... Razı olun, mənə rəhm eləyin!

Ev sahibi əvvəlcə buna qəti razı olmadı, bunu bəhanə gətirdi ki, naxoşa baxan yoxdur, yeri darısqal edir, amma sonra naharını bitirdikdə dedi:

– Orası məlum işdir ki, naxoşa heç kəs müftə baxmaz. Siz xəstəyə baxılmaq xərci olaraq, nə qədər verə bilərsiniz! Çəkdiyimiz zəhmətin əvəzində nə qədər verməyə heyifiniz gəlməz?

Qriqori cibindəki pulun hamısını çıxartdı, ev sahibinə verdi. Kişi qətiyyətsiz bir şəkildə bir çəngə Don kağız pulunu aldı, barmaqlarını tüpürcəyi ilə isladıb pulları saydı, sual verdi:

– Sizdə Nikolay pulu yoxdur?

– Yoxdur.

– Bəlkə kerenski pulunuz ola? Çünki bu verdiyin kağız pullar o qədər də etibarlı deyil...

– Kerenski pulu da yoxdur... İstəyirsiniz atım sizə qalsın?

Ev sahibi xeyli götür-qoy elədi, sonra cavab verdi:

– Lazım deyil. Məndən olsa, əlbəttə, atı götürərdim, əkinçi üçün at ən vacib məsələdir, lakin zəmanəni nəzərə alanda, görürəm ki, əl vermir; ağlar da almasa, qırmızılar gəlib əlimdən alacaqdır, xeyrini görməyəcəyik. Odur bax, mənim özümün ayaqları topal madyanım var, taqəti yoxdur, güclə yeriyir, amma bir də görəcəksən ki, budur,

bunu da yallayıb apardılar. – Kişi tərəddüddə qaldığı üçün dinmirdi, o özünü təmizə çıxarmaq üçün əlavə etdi: – Siz elə güman eləməyin ki, Allah göstərməsin, mən yaman acgözəm! Amma özünüz mülahizə edin, cənab zabit: xəstə burada azı bir ay, bəlkə də daha çox qalacaqdır, ona gah bunu, gah onu vermək, bundan əlavə yedirtmək, çörək, süd, yeri düşəndə yumurta, ət vermək lazım gələcəkdir; bunun hamısı pul ilə alınan şeylərdir, düzmü deyirəm? Bundan başqa onun paltarları da yuyulmalıdır, özü də çimdirilməlidir, sair işlər görülməlidir... Mənim arvadım yalnız təsərrüfatımızda məşğul olmalı idi, indi buna da qulluq etməli olacaqdır. Bu, asan iş deyil! Yox, siz gəlin, xəsislik eləməyin, bunun üstünə bir şey də artırın. Mən, gördüyünüz kimi şikəst adamam, qılçamın biri yoxdur, məndən nə qazanc gətirən, işləyən ola bilər? Birtəhər dolanırıq, çörək kvasla gün keçirdirik...

Qriqori qızğın, amma boğuq bir qəzəblə dedi:

– Mən xəsislik eləmirəm, ay insaflı kişi. Mən olan-qalan pulumun hamısını sənə verdim, mən pulsuz da dolanaram. Bəs onda daha məndən nə istəyirsən?

Ev sahibi inanmazcasına gülümsədi:

– İnanım ki, olan-qalan pulunu mənə vermisən? Aldığınız maaşa baxsaq, sizdə çantalar dolusu pul olmalıdır.

Qriqori hirsindən ağarmış halda söyləndi:

– Sən açığını de görək, xəstənin evinizdə qalmasına razısan, yoxsa razı deyilsən?

– Yox, indi ki, siz belə hesab edirsiniz, onda naxoşu saxlamağımızın mənası yoxdur. – Səsindən ev sahibinin incik olduğu hiss edilirdi. – Bu asan işdir, məgər... Xəstə kimdir, zabit arvadıdır, söz yayılar, qonşular bilər, sonra da siz gedən kimi yoldaşlar gələr, məsələni öyrənər, adamı məhşər ayağına çəkərlər... Yox, indi ki, belə oldu, onda naxoşunuzu aparın, baxın, bəlkə qonşulardan biri razılaşar, onu götürər. – O, aşkar bir təəssüflə pulları Qriqoriyə qaytardı, tənbəki kisəsini çıxardıb, papiros bükməyə başladı.

Qriqori şinelini geyinib Proxora dedi:

– Naxoşun yanında ol, mən gedim mənzil axtarım.

O, qapının dəstəyindən yapışanda, ev sahibi onu dayandırdı:

– Səbr edin, cənab zabit, niyə tələsirsiniz? Siz elə zənn edirsiniz ki, mənim xəstə qadına yazığım gəlmir? Mənim ona çox yazığım

gəlir, mən özüm də əsgər olmuşam, sizin rütbəyə də, vəzifəyə də hörmətim var. Siz bu pulun üzərinə bir şey əlavə edə bilməzsinizmi?

Proxor özünü saxlaya bilmədi. Hirsindən qıpqırmızı olub çığırdı:

– Ay çolaq haramzadə, bunun üstünə daha nə artırmaq lazım imiş? Sənin o biri qılçanı da vurub qırmaq, pulun üstünə bunu artırmaq lazımdır! Qriqori Panteleviç! İcazə ver, mən bu saat bunu çoşqa kimi ayaqlayım, sonra da Aksinyanı kirşəyə qoyaq, yola düşək, Allah belə kafirə min kərə lənət eləsin!..

Ev sahibi gözlədi, nəfəsi kəsilə-kəsilə danışan Proxora mane olmadı, amma axırda dedi:

– Siz nahaq yerə mənim xətrimə dəyirsiniz, əsgərlər! Bu könül xoşluğu ilə aşan bir işdir, dalaşmağımızın, incişməyimizin mənası yoxdur. Hə, de görək, mənim üstümə niyə şeşələnirsən, ay balaca kazak? Məgər mən puldan söz salmışdım? Mən heç də pulun üstünə pul artırılmasından danışmırdım. Mən bunu deyirdim ki, sözgəlişi, pul yoxdursa, bəlkə artıq silah var, məsələn tüfəng, tapança-zad var. Sizin üçün indi bunun əhəmiyyəti yoxdur, yanınızda silah ola da bilər, olmaya da bilər, amma zəmanəyə baxanda, belə şey bizlərdən ötəri yeganə dövlətdir! Evdə mütləq silah saxlanmalıdır! Bax, mənim sizə demək istədiyim bu idi! Verdiyiniz pulları bəri verin, üstündə də tüfəngciyəzi artırın. Allah xeyir versin, xəstəniz burada qalsın, biz ona doğma övladımız kimi baxarıq, müalicə edərik! Allaha and içirəm ki, elə də edəcəyik!

Qriqori Proxora baxıb dedi:

– Mənim tüfəngimi də, patronlarımı da gətir ona ver, sonra da get atları qoş. Qoy Aksinya qalsın... Allah özü şahiddir ki, mən onu özümlə ona görə aparmıram ki, ölər!

XXVII

Yeknəsəq və sevincsiz günlər bir-bir gəlib keçirdi. Aksinyanı xutorda qoyandan sonra Qriqori heç şeylə maraqlanmırdı. Səhər açılanda kirşəyə minir, qarla örtülmüş ucsuz-bucaqsız çöllə yol gedir, axşam olanda da gecələmək üçün bir yerdə sığınacaq tapıb yatırdı. Günlər bir qayda ilə keçib gedirdi. İndi cənuba doğru uzanmış cəbhədə nələr olduğu onu maraqlandırmırdı. Başa düşürdü ki,

düşmənə əməlli-başlı və ciddi müqavimət göstərilməsi artıq bitmişdir, kazakların əksəriyyətində doğma yurdları müdafiə həvəsi tükənmişdir, işin gedişi nəzərə alınarsa, ağ ordular son səfərlərini yerinə yetirməkdədir, Don sahilində dayana bilmədilərsə Kubanda qəti dayana bilməyəcəklər.

Müharibə bitməkdə idi. İşin aqibəti sürətlə, qarşısıalınmaz bir şəkildə yaxınlaşdı. Minlərlə kubanlı cəbhəni boşlayır, evlərinə yola düşürdülər. Donlular basılmışdılar. Döyüşlər və yatalaq xəstəliyi nəticəsində zəifləmiş, tərkibinin dörddə üçünü itirmiş Könüllü ordu, son müvəffəqiyyətlərindən ruhlanmış Qızıl Ordunun təzyiqinə tək davam gətirə bilmirdi.

Qaçqınlar arasında danışırdılar ki, Kuban Radası üzvlərinə general Denikinin vəhşicəsinə divan tutması Kubanda əhalini qəzəbləndirmişdir, bu qəzəb getdikcə artmaqdadır. Kuban Könüllü orduya qarşı üsyana hazırlaşır və guya Qızıl Ordu nümayəndələri ilə Qızıl Ordunu maneəsiz Qafqaza buraxmaq haqqında danışıqlar gedir. Dönə-dönə bunu da söyləyirdilər ki, Kuban və Terek stanitsalarında Könüllü ordu adamlarına olduğu kimi donlulara da açıqdan-açığa düşmən kimi münasibət bəsləyirdilər; hətta guya bir Don diviziyası ilə Kuban piyadaları arasında ilk şiddətli vuruşma olmuşdur.

Qriqori düşərgələrdə adamların söhbətini diqqətlə dinləyir, ağların qəti və labüd məğlub olduqlarına hər gün daha çox inanırdı. Bununla belə onda hərdənbir belə tutarsız ümid də əmələ gəlirdi ki, başlarının üstünü təhlükə aldığı üçün, ağların pərakəndə olmuş, ruhdan düşmüş, bir-biri ilə ədavətə başlamış silahlı qüvvələri birləşəcək, qırmızıların müvəffəqiyyətlə irəliləyən hissələrini dəf edəcək, onu geriyə oturdacaqdır. Lakin Rostov şəhəri alındıqdan sonra onda bu ümid də yoxa çıxdı; Bataysk yaxınlığındakı qızğın vuruşmalarda qırmızıların geriyə çəkilməsi xəbərinə inanmadı. İşsizlikdən təngə gəlib bərk darıxdıqda, o hərbi hissələrdən birisinə qoşulmaq istədi, lakin Proxora söylədikdə Proxor qətiyyətlə rədd etdi. O, qəzəblənib dedi:

– Qriqori Panteleviç, deyəsən sən ağlını tamam itirmisən! Axı bir de görək, biz özümüzü bu odun-alovun içinə niyə dürtməliyik? Özün də görürsən ki, işlər bitmişdir, onda biz özümüzü niyə güdaza verək? Yoxsa sən elə güman edirsən ki, bizim onlara köməyimiz dəyər? Nə qədər ki, bizə dəymirlər, zorla hissəyə aparmırlar, bacardığımız qədər bu cəhənnəmdən tez uzaqlaşmalıyıq, amma sən

gör nə sarsaq söz danışırsan! Xeyr canım, razı deyiləm, gəl xahiş edirəm sakitcə, qocalar kimi çəkilək gedək. Səninlə mən bu beş ilin ərzində həddindən artıq vuruşmuşuq, indi isə qoy başqaları dadına baxsın! Ona görə süzənək xəstəliyinə müştəri çıxmışdım ki, məni yenə cəbhəyə sürütləsinlər? Sağ ol! İltifatın artıq olsun! Bu müharibə canımı o qədər boğazıma yığıb ki, indi də müharibəni xatırlayanda qusmağım gəlir! İstəyirsən sən get, mən isə razı deyiləm. Onda mən də özümü hərbi xəstəxanaya salaram, bəsdir!

Qriqori xeyli susduqdan sonra dedi:

– Sən deyən olsun. Gedək Kubana, sonra işə baxarıq.

Proxor canının hayında idi: hər iri yaşayış məntəqəsində feldşeri tapır, qayıdanda toz halında dərman və ya içməli dava gətirirdi; amma müalicəni başdansovdu edirdi; Qriqori ona sual verəndə ki, bəs niyə toz dərmanından birini atır, qalanını tullayırsan, qarın içinə atıb bərk-bərk tapdalayırsan, deyirdi ki, o xəstəliyini müalicə etmək yox, ancaq bir qədər dayandırmaq istəyir; çünki belə olsa tibbi komissiya onu təzədən yoxlayanda Proxor hissəyə göndərilmək xatasından asanlıqla qurtarar. Velikoknyajeskaya stanitsasında çox təcrübəli bir kazak ona məsləhət verdi ki, özünü bişirilmiş ördək ayaqlarının işgənəsi ilə müalicə elə. O gündən Proxor hansı xutor və ya stanitsaya çatırdısa rastına gələn ilk adamdan soruşurdu: "Zəhmət olsa da deyin, sizlərdə ördək saxlayan varmı?" Belə sualı təəccüblə qarşılayan yerli şəxs yaxında su olmadığını, deməli, ördək saxlamağın faydasız olduğunu deyəndə, Proxor ona sonsuz bir nifrətlə dişinin dibindən çıxanı deyirdi: "Burada yaşamağınıza baxmayaraq, sizə adam demək olmaz. Yəqin ki, ömrünüzdə bir dəfə də olsun ördək qığıltısı eşitməmisiniz! Çöl nadanlarısınız!" Sonra Qriqoriyə üz tutub yana-yana deyirdi: "Bu gün qabağımıza yəqin keşiş çıxıb! Heç yerdə işimiz rast gətirmir. Burada ördək tapılsaydı neçəyə olur-olsun birini alar, ya da oğurlardım, mənim işlərim də yaxşılaşmağa başlardı; yoxsa budur, xəstəliyim dingildəyir, qızışır! Əvvəllər bir əyləncə idi, yalnız yolda mürgüləməyə imkan vermirdi, amma indi zəhrimar kimi olmuşdur, mənə yaman sitəm verir! Adam kirşədə otura bilmir!"

Proxor Qriqorinin ona canı yanmadığını gördükdə, xeyli vaxt susur, bəzən saatlarla yol gedir, qaşqabağını sallayır, amma bir kəlmə belə danışmırdı.

Yola sərf olunan vaxt Qriqoriyə insana üzüntü verəcək dərəcədə uzun görünürdü, bitmək bilməyən qış gecələri isə bundan betər üzüntülü idi. Hal-hazırda fikirləşmək, keçmişi xatırlamaq üçün onun kifayət qədər vaxtı var idi. O, əcaib və səliqə-sahmansız həyatının keçən illərini hafizəsində uzun-uzadı gözü önünə gətirirdi. O, kirşədə oturub, dumanlı baxışlarını, üzərinə məzar sükutu çökmüş çölün qarlı ənginliklərinə zilləyəndə də, gecələr adamla dolu, havası boğucu balaca otaqda gözləri yumulmuş, dişləri qıcanmış halda yerinə uzandıqda da, bir şeyi – huşunu itirmiş, tanımadığı qəsəbədə qoyub getdiyi xəstə Aksinyanı, Tatarskda qalmış yaxın adamlarını düşünürdü... Orada, Donda indi Sovet hakimiyyəti qurulmuşdur; odur ki, Qriqori həmişə qüssə dolu bir əndişə ilə özündən soruşurdu: "Doğrudanmı mənim ucbatımdan anama və Dunyaşkaya əzab verərlər?" O saat da qızıl əsgərlərin heç kəslə işi olmadığına, işğal edilmiş stanitsaların əhalisi ilə yaxşı rəftar etdiklərinə dair yolda dəfələrlə eşitdiyi söhbətlər yadına düşür, sakitləşirdi. Onun təşvişi get-gedə azalır, anasının onun hərəkətlərinə görə incidiləcəyi fikri artıq ona inanılmaz, əcaib və tamam əsassız görünürdü. Uşaqları yadına düşəndə Qriqorinin ürəyi bir an qədər qüssədən sıxılırdı; o uşaqların yatalaq naxoşluğundan qorunmayacağından qorxurdu; eyni zamanda duyurdu ki, Natalyanın ölümündən sonra, uşaqlarını böyük məhəbbətlə sevsə də, heç bir dərd onu arvadının ölümü qədər sarsıtmağa qadir deyildir...

Salsk mahalının qış yataqlarından birində, atların yorğunluğunu çıxarmaq məqsədi ilə, dörd gün qaldılar. Həmin günlər ərzində Proxorla Qriqori bundan sonra nə edəcəkləri barədə dəfələrlə danışdılar. Qış yatağına gəldikləri ilk gündə Proxor ondan soruşdu:

– Bizimkilər Kubanda cəbhə xətti yaradacaq, yoxsa Qafqaza çəkiləcəklər? Nə fikirdəsən?

– Bilmirəm. Sənin üçün bunun nə fərqi var?

– Ay söz danışdın ha! Heç ola bilərmi ki, bunun məndən ötrü fərqi olmasın? Belə getsə bizi qovub müsəlman torpaqlarına, türklər yaşayan yerlərə qısnaşdıracaqlar, onda halın necə olar?

Qriqori ona narazılıqla belə cavab verdi:

– Mən sənin üçün Denikin deyiləm, ona görə də bizi qovub haraya qısnaşdıracaqlarını məndən soruşma.

– Mən ona görə soruşuram ki, belə bir şayiə eşitmişəm: Guya Kuban çayında yenidən müdafiəyə başlayacaqlar, yazda isə tamam hərəkətə keçəcəklər.

– Kim müdafiəyə başlayacaqdır? – deyə Qriqori gülümsədi.

– Kim ola bilər? Kazaklarla kadetlər!

– Axmaq söz danışırsan! Korsan nədir, ətrafında nələr olduğunu məgər görmürsən? Hamı cəhd edir ki, qaçıb aradan çıxsın, müdafiədə kim iştirak edəcəkdir?

Proxor ah çəkdi:

– Eh, ay oğlan, mən özüm də görürəm ki, işlərimiz fırıqdır, amma adam buna nədənsə inanmır... Hə, onu de görüm, işdir, qəzadır üzüb və ya xərçəng kimi sürünüb yad ölkələrə getmək lazım gəlsə sən nə edəcəksən? Gedərsənmi?

– Sən necə?

– Mənim işim belədir: sən hara getsən, mən də ora gedəcəyəm. Camaat axışıb gedəndən sonra mən təkcə qala bilərəmmi?

– Mən də o fikirdəyəm. İndi ki, qoyun kökünə düşmüşük, gərək onların dalınca gedək...

– Qoyun dediyin isə axmaq bir şeydir, bir də görürsən başını itirir, hara gəldi təpilir... Yox, sən bu lağlağılıqdan əl çək. İşdən danış!

– Əl çək yaxamdan, sən Allah! Orada məlum olar. Niyə biz işi vaxtından əvvəl vəravürd eləməliyik?

– Yaxşı, amin! Daha səndən heç nə soruşmayacağam! – deyə Proxor razılaşdı.

Lakin ertəsi günü, atların altını kürüməyə gələndə yenə həmin söhbətin üstünə qayıtdı:

– Bu yaşıllar barədə bir söz eşitməmisən ki? – deyə ona ehtiyatla sual verdi; özünü elə göstərdi ki, guya üçmilli dəmir yabanın sapını yoxlayır.

– Eşitməmişəm. Sonra nə demək istəyirsən?

– Bu yaşıllar haradan peyda olublar? Onlar kimin tərəfdarıdırlar?

– Qırmızıların.

– Bəs niyə adları yaşıldır?

– Kim bilir; meşələrdə girlənirlər, elə buna görə də onlara yaşıl deyirlər.

Proxor xeyli fikrə getdi, sonra cürətsiz dedi:

– Bəlkə biz də yaşıllaşsaq yaxşı olar?

– Həvəsim yoxdur nədənsə.

– Bu yaşıllardan başqa elələri yoxdurmu ki, adamları evlərinə itələyə? Mənim üçün heç fərqi yoxdur, istər yaşıl olsun, istər göy, istərsə də lap yumurta sarısı kimi sapsarı olsun, mən hansı rəngə deyirsən tabe olaram, təki onlar müharibəyə zidd olsunlar, əsgərləri evlərinə buraxsınlar...

Qriqori ona məsləhət verdi:

– Səbirli ol, bəlkə elələri də peyda oldu.

Yanvarın sonunda, dumanlı və havası ilıq günorta çağında Qriqori ilə Proxor Belaya Qlina kəndinə gəldilər. Kəndə on beş minə qədər qaçqın gəlmişdi, bunun yarısı səpmə yatalaq xəstəliyinə tutulanlar idi. Gödək ingilis şinelli, kürklü, arxalıqlı kazaklar küçələri dolaşır, özlərinə mənzil, atlarına yem axtarırdılar; arabalar, süvarilər hərəkət edirdilər. Həyətlərdə axurların qabağında onlarca arıqlamış at görünür, məlul-məlul saman çeynəyirdilər; küçələrdə, döngələrdə tərk edilmiş kirşələr, səfər arabaları, mərmi qutuları qalırdı. Proxor kirşəni sürüb bir küçədən keçəndə, çəpərə bağlanmış hündür kəhər ata diqqətlə baxaraq dedi:

– Bu ki, kirvəmiz Andryuşkanın atıdır! Deməli, bizim xutorlular buradadırlar. – Cəld hoppanıb kirşədən düşdü, xəbər bilmək üçün evə getdi.

Bir neçə dəqiqədən sonra Proxorun qonşusu və kirvəsi olan Andrey Topolskov çiynində şinel evdən çıxdı. O, Proxorla yanaşı, yavaş-yavaş addımlayaraq kirşəyə yaxınlaşdı, qaralmış, at təri hopmuş əlini Qriqoriyə uzatdı.

– Xutorun araba karvanı iləmi gəlmisən? – deyə Qriqori soruşdu.

– Hamımız zəlalətdəyik...

– Hə, necə gəlmisiniz?

– Necə gəldiyimiz məlumdur... Gecələdiyimiz hər yerdə adamımız ölür, atımız tələf olur...

– Bizim qoca necədir, sağ-salamatdırmı?

Topolskov Qriqorinin üzünə deyil, haraya isə kənara baxıb dedi:

– İşlər pisdir, Qriqori Panteleviç... Atana rəhmət oxu, dünən axşamüstü canını tapşırdı, vəfat elədi.

Rəngi dümağ olmuş Qriqori soruşdu:

– Dəfn elədinizmi?

– Deyə bilmərəm, bu gün orada olmamışam. Gedək mənzillərini sizə göstərim... A kirvə, kirşəni sağa sür, tindən sağ əldəki dördüncü evdədirlər.

Proxor kirşəni dəmir taxtapuşlu iri bir evə tərəf sürdü, atları hasarın yanında saxladı, lakin Topolskov kirşəni həyətə sürməyi məsləhət gördü.

– Burada da yer darısqaldır, iyirmiyə qədər adam var, amma birtəhər siz də yerləşərsiniz, – deyə Topolskov sıçrayıb kirşədən düşdü ki, qapını açsın.

Soba bərk qalanmış otağa əvvəlcə Qriqori girdi. Tanış həmyerliləri döşəmənin üstündə oturmuş ya da böyür-böyürə söykənərək uzanmışdılar. Kimisi də ayaqqabı və ya qayış-yüyən yamayırdı; üç kişi də, o cümlədən Panteley Prokofyeviçlə yoldaş olmuş qoca Besxlebnov, stolun arxasında şorba yeyirdilər. Kazaklar Qriqorini görən kimi ayağa qalxdılar, qısa salamına birlikdə cavab verdilər.

– Bəs atam hanı! – deyə Qriqori soruşdu, papağını çıxardıb otağa göz gəzdirdi.

Besxlebnov kirimişcə cavab verdi:

– Fəlakət üz vermişdir... Panteley Prokofyeviç öldü. – Qoca arxalığının qolu ilə ağzını silib qaşığı yerə qoydu, xaç çevirdi: – Dünən gecə canını tapşırdı, rəhmətə getdi.

– Bilirəm. Dəfn eləmisinizmi?

– Hələ dəfn eləməmişik. Biz onu bu gün dəfn eləməyə hazırlaşmışıq; indi o buradadır, aparıb soyuq otağa qoyublar. Bura gəlin. – Besxlebnov yan otağın qapısını açdı, üzr istəyirmiş kimi dedi: – Kazaklar meyitlə bir otaqda gecələmək istəmədilər, cəsədindən ağır iy gəlirdi, bura isə ondan ötəri daha da yaxşıdır... Ev sahibləri buranın sobasını qalamırlar.

Geniş yan otağın havasına tünd çətənə toxumu qoxusu və siçan iyi hopmuşdu. Otağın bir küncünə darı və çətənə tökmüşdülər; taxtın üstündə yan-yana düzülmüş kiçik daqqalar un və yağ ilə dolu idi. Panteley Prokofyeviçi otağın ortasında palazın üstünə uzatmışdılar. Qriqori, Besxlebnovu qırağa itələdi, otağa girdi, atasının yanında durdu.

Besxlebnov yavaşca deyirdi:

– İki həftə naxoş oldu. Yatalaq naxoşluğu onu Meçetka yaxınlığında yıxdı. Axırda atana gör harada ölmək nəsib imiş... Bizim günümüz-diriliyimiz belədir...

Qriqori qabağa əyilərək, atasına baxırdı. Xəstəlik atasının doğma simasını dəyişdirmiş, onu əcaib dərəcədə özünə oxşamaz və yad bir şəklə salmışdı. Panteley Prokofyeviçin avazımış, batmış yanaqları

qalın ağ tüklə örtülmüşdü, bığları çuxura düşmüş ağzı üzərinə sallanmışdı, gözləri yarıya qədər qapanmışdı, indi göyümsov görünən göz almacıqları əvvəlki təravət və parıltısını itirmişdi. Qocanın aşağıya sallanmış alt çənəsini çəkib qırmızı yaylıqla bağlamışdılar; saqqalının qıvırcıq ağ tükləri bu qırmızı parça fonunda bir az daha gümüşə çalır, daha da ağ görünürdü.

Qriqori atasına son dəfə olaraq diqqətlə baxmaq, doğma sifətini yadda saxlamaq üçün diz çökdü, lakin birdən qorxu və ikrah hissindən tükləri ürpərdi: Panteley Prokofyeviçin solmuş, şam kimi olmuş üzü, göz çuxurları, yanaqlarındakı qırışlar qaynaşan, yerişən bitlə dolu idi. Bitlər üzünü hərəkətdə olan bir bez parçasına bənzədir, saqqalında qımıldanır, qaşlarının arasında qaynaşırdılar, göy arxalığının dik yaxalığında boz bir qatı andırırdılar...

Qriqori iki nəfər kazakla donmuş, çuqun kimi bərk torpağı külünglə qazıb qəbir hazırladı. Proxor da taxta parçalarından birtəhər tabut sazladı. Günün axırında Panteley Prokofyeviçi aparıb yad Stavropol torpağında qulayladılar. Bir saatdan sonra isə kənddə çıraqlar yandırılanda, Qriqori Belaya Qlinadan çıxdı və Novopokrovskaya tərəfə yola düşdü.

Korenovskaya stanitsasına çatanda o özünü pis hiss elədi. Proxor onun üçün həkim axtardı və ancaq günortaüstü yarıkefli bir hərbi həkim tapa bildi; onu çətinliklə dilə tutdu, mənzilə gətirdi. Həkim şinelini soyunmadan Qriqorini müayinə etdi, nəbzini yoxladı, arxayınca dedi:

– Qayıtma yatalağıdır. Cənab bölük komandiri, səyahəti dayandırmağınızı məsləhət görürəm, yoxsa yolda ölərsiniz.

– Gözləyim ki, qırmızılar gəlsinlər? – deyə Qriqori kinayə ilə gülümsündü.

– Qırmızılar hələ çox uzaqdadırlar.

– Yaxına gələcəklər...

– Mən buna şübhə eləmirəm. Amma sizin üçün qalmaq yaxşı olar. Məndən olsaydı iki xatadan birini, daha kiçiyini üstün tutardım.

Qriqori qətiyyətlə dedi:

– Yox, birtəhər gedərəm. – Üst köynəyini geyindi. – Siz mənə dərman verirsinizmi?

– Özünüz bilərsiniz, gedirsiniz-gedin. Mənim borcum sizə məsləhət vermək idi, qalan işə qarışmıram, istədiyiniz kimi edin.

Dərman məsələsinə gəlincə ən yaxşı dərman dincəlməklə baxımdır; sizin üçün bir-iki dərman da yazmaq olardı, amma apteki köçürdüblər, məndə indi xloroform, yod və spirtdən başqa heç nə qalmamışdır.

– Heç olmasa bir qədər spirt verin!

– Məmnuniyyətlə verərəm. Siz yolda onlu da, onsuz da öləcəksiniz, buna görə də spirtin köməyi olmayacaqdır. Sizin xidmətçiniz mənimlə getsin, sizə min qram spirt buraxaram, mən mərhəmətli şəxsəm... Həkim rəsmi təzim elədi, ayaqları dolaşa-dolaşa eşiyə çıxdı.

Proxor gedib spirti gətirdi, haradan isə iki at qoşulan sarsaq bir araba tapdı, atları bu arabaya qoşdu, otağa girərək, zəhərli bir kinayə ilə dedi:

– Kolyaska hazırdır, cənab!

Məyusluqlarla dolu məşəqqətli günlər yenə bir-birinin dalına düzüldü.

Dağ ətəklərindən enmiş cənub baharı tələsik Kubana yaxınlaşmaqda idi. Düzənliklərdə qar hər yanda əriyirdi, qarı əримiş yerlərdə qaratorpaq üzə çıxmışdı, parıldayırdı, sellərdən əmələ gəlmiş çaylar gümüş kimi cingilti ilə şırıldayırdı; yollarda təkərlərdən aydın izlər qalır, uzaq mavi ənginliklər bahara xas olan bir təravətlə işıldayır, geniş Kuban səması daha da dərinləşir, maviləşir, işıqlanırdı.

İki gündən sonra faraş əkinlər cücərib günə çıxdılar, zəmilər üzərində ağ dumanlar gəzdi. Atlar artıq qarı əримiş yollarda topuqlarından yuxarıya qədər palçığa bataraq lehməni fırçıldada-fırçıldada qaçır, dərələrdə batıb qalır, bellərini bükə-bükə irəliyə dartınırdılar, bədənlərindən buxar qalxırdı. Proxor əkə-bükə əkinçi kimi hər ikisinin quyruğunu düymüşdü, tez-tez arabadan düşür, atların böyrü ilə yeriyir, ayaqlarını palçıqdan zorla çəkib çıxardaraq mırtlanırdı:

– Allaha and olsun ki, bu palçıq deyil qəliz qatrandır. Mənzildən mənzilə atların təri qurumur.

Arabada uzanmış, üşüdüyündən kürkünə bürünmüş Qriqori dinmirdi. Lakin Proxor müsahibsiz yol getməkdən darıxırdı; o əlini gah Qriqorinin ayağına, gah da qoluna toxunduraraq deyirdi:

– Heç bilirsən buranın palçığı necə bərkdir! Arabadan düş, özün də yoxla! Sən də naxoşlamağa vaxt tapdın!

Qriqori zəif bir səslə pıçıldayırdı:

– Cəhənnəm ol, əşi!

Proxor yolda birisinə rast gəldikdə soruşurdu:

– Buradan o yanda palçıq yenə belədir, yoxsa bundan qəlizdir?

Ona gülə-gülə, zarafatyana cavab verirdilər; Proxor da adamlarla bir neçə kəlmə söz danışmasından məmnun halda dinməzcə xeyli yol gedir, atları tez-tez dayandırır, şabalıdı alnından iri tər damlalarını silirdi. Atlılar gəlib ondan qabağa keçirdi, Proxor da, səbri tükəndiyindən onları – yolçuları dayandırır, hara getdiklərini, haralı olduqlarını soruşur, axırda da deyirdi:

– Nahaq yerə gedirsiniz. Oradan o yana getmək mümkün deyil. Niyə? Ona görə ki, qabaq tərəfdən gələn yolçular söyləyirdilər ki, orada ağla gəlməyən qalın palçıq var, atlar düz qarınlarına qədər palçığa batır, arabaların təkərləri fırlanmır, piyadalardan isə kimin boyu qısadırsa yolun ortasında yıxılır, palçığa batıb qalır, boğulur. Yalan demirəm, dediklərimin hamısı düzdür. Bəs biz niyə gedirik? Bizim başqa çarəmiz qalmamışdır, arabada apardığım baş keşişdir; o, qırmızılarla bir arada yaşaya bilməz...

Atlıların çoxu hirslənmədən Proxora söyür, yoluna davam edirdi; amma bəziləri, uzaqlaşmazdan əvvəl, dayanıb diqqətlə Proxora baxır və deyirdilər:

– Məgər Donda axmaqlar da geri çəkilirlər? Sizin stanitsada yaşayanların hamısı sənin kimidirmi?

Ya da buna bənzər, amma adamın xətrinə dəyən söz deyib ötürdülər. Kubanlılardan yalnız bir nəfəri – öz yol yoldaşlarından geridə qalmış, Proxorun axmaq söhbəti ilə ləngimiş bir kişi, istədi qamçısını Proxorun alnıqarışıq təpəsinə endirsin; bu zaman Proxor ağlagəlməz bir cəldliklə sıçrayıb arabaya mindi, palazın altındakı tüfəngi qapdı, dizinə söykədi. Kubanlı ana söyüşü söyərək atını sürüb aralandı, Proxor isə boğazı cırılıncaya qədər qəhqəhə çəkərək onun dalınca deyirdi:

– Bura Tsaritsın deyil ki, qaçıb qarğıdalıda gizlənəsən! Hazırından yeyən yalançı pəhləvan! Bəri qayıt, ay sərçə ürəkli! Deyəsən, özündən qıllısına rast gəldin? Şinelinin ətəyini yığışdır, yoxsa palçığa batarsan! Əl-ayaq açmaq istəyirdin, lotu? Sən ki, heç kişi deyilsənmiş! Zəhrimar patron da yoxdur ki, birini qabırğana sırıyım! Ey, mənə bax, qamçını tulla!

Qəm-qüssədən, işsizlikdən zara gəlmiş Proxor bir növ baş girləyir, istədiyi kimi əylənirdi.

Qriqori isə xəstəlik başlanandan bəri sanki röya aləmində idi. O aradabir huşunu itirir, amma sonra ağlı yenə də başına gəlirdi; bir

dəfə Qriqori huşunu xeyli itirdikdən sonra gözlərini açdı; bu zaman Proxor ona tərəf əyildi:

– Sən hələ sağsan? – deyə soruşdu, canıyanan adam kimi Qriqorinin bulaşıqlı gözlərinə dərindən nəzər saldı.

Onların başı üzərində günəş parlayırdı. Tünd qanadlı çöl qazları mavi səmanın qoynunda qatar-qatar süzür, gah duman kimi yayılayayıla, gah da qırıq və zil qara bir xətt şəklində qaqqıldaşa-qaqqıldaşa uçurdular. İstidən qızmış torpaq və təzə cücərmiş ot iyi insanı məst edirdi. Tövşüyə-tövşüyə nəfəs alan Qriqori baharın insana can verən havasını ciyərlərinə həvəslə doldururdu. Qulaqları Proxorun səsini çox çətinliklə eşidirdi, gözlərinə hər şey əfsanə kimi görünür, inanılmaz dərəcədə kiçilmiş və xeyli uzaqda duran əşyanı xatırladırdı. Arxa tərəfdə atılan topların səsi məsafəyə görə batqınlaşır, boğuq çıxırdı. Yaxında dəmiryolunda təkərlər ahəngdar və müntəzəm taqqıldayır, atlar fınxırışır, kişnəyirdi, adamların səs-küyü gəlirdi: biçmiş çörək, ot iyi, at tərinin qoxusu kəskin surətdə hiss olunurdu. Qriqorinin dumanlanmış şüuruna bütün bunlar başqa aləmdən gəlmiş kimi təsir göstərirdi. O, bütün iradəsini toplayaraq diqqətlə Proxorun nə dediyinə fikir verdi, çox gərgin səydən sonra məsələni başa düşdü: Proxor ondan soruşurdu:

– Süd içəcəksənmi?

Qriqori dilini güclə tərpədərək, qaysaqlamış dodaqlarını yaladı; qatı, şirinliyi ona tanış soyuq bir şeyin ağzına töküldüyünü duydu. Bir neçə qurtumdan sonra o dişlərini kilidlədi. Proxor su qabının qapağını bağladı, yenə Qriqoriyə doğru əyildi; Qriqori ona verilən sualı eşitmədisə də Proxorun küləkdən qurumuş dodaqlarının qımıldanmasından anladı ki, belə deyir:

– Bəlkə səni stanitsada qoyub gedim? Sənə çətin olar?

Qriqorinin sifətini iztirab və təşviş bürüdü; o bir də iradəsini toplayaraq pıçıldadı:

– Apar... mən ölüncəyə qədər...

Proxorun sifətindən başa düşdü ki, sözlərini eşitmişdir; buna görə də gözlərini arxayınca yumdu, huşsuzluq aləmini bu anda bir yüngüllük kimi qarşıladı, qaranlıq bir dünyaya girdi, bütün bu qışqırtılı, haylı-haraylı dünyadan uzaqlaşdı.

XXVIII

Abinskaya stanitsasına qədər Qriqorinin yadında yalnız bir şey qalmışdı: o zil qaranlıq gecədə adamın sümüyünə işləyən soyuqdan gözlərini açdı. Yol ilə yan-yana cərgələrlə çoxlu araba hərəkət edirdi. Sürücülərin səslərindən, təkərlərin arasıkəsilmədən taqqıltı salmasından məlum olurdu ki, bu böyük bir karvandır. Qriqorinin mindiyi araba bu karvanın ortasında idi. Atlar yavaş-yavaş yeriyirdilər. Proxor muşqurur, soyuqdan kallaşmış səslə hərdənbir atlara təpinir, "hə, qadanız alım!" deyir, qırmancı endirir, atların birdənbirə yan qayışlarını dartaraq, irəliyə atıldıqlarını, arabanın sürətlə dığırlandığını, bəzən də dişləsinin ucunun qabaqda gedən arabanın dalına dəyib səs saldığını duyurdu.

Qriqori kürkünün ətəyini güclə üstünə çəkdi, arxası üstə uzandı. Külək qaranlıq səmada qalaq-qalaq olmuş buludları cənuba qovurdu. Buludların kiçicik yarığı arasından sarımtıl bir qığılcım kimi hərdənbir tək ulduz görünür, çöl üzərinə yenə ucu-bucağı görünməyən qatı bir zülmət çökür, teleqraf direklərində simlər qəmli-qəmli güyüldəyir, muncuq kimi xırda və seyrək yağış səpələnirdi.

Yolun sağ tərəfi ilə süvarilərin səfəri dəstəsi hərəkət etməkdə idi. Qriqori ona çoxdan tanış kazak yarağının, əsgəri ləvazimatının müntəzəm və səlis çıqqıltısını, çoxlu at dırnağının palçıq içində müntəzəm fırçıltısını eşitdi. Yoldan ən azı iki bölük keçib getdi, amma tappıltı səsi yenə də kəsilmirdi; belə görünürdü ki, yolun kənarı ilə polk gedir. Birdən qabaqda sakit çölün üzərində mərdanə kobud mahnı quş kimi qanad çaldı:

Kamışanka sahili, oh, o günlər, o günlər,
Oh, Saratov çölləri, şərəfli-şanlı çöllər...

Yüzlərlə səs birləşdi, qədim kazak mahnısı əzəmətlə yüksəldi, dəmtutanın insanı heyrətə salan güc və gözəlliyə malik tenoru bütün səslərdən zilə qalxdı. Qaranlıqda bu cingildəyən, insanın qəlbini tel-tel edən tenor yavaşıyan yoğun səsləri batırır, harada isə əks-səda verirdi, lakin mahnıçı mahnının dalını deyirdi:

Orda ömr eləyərdi azad, xoşbəxt kazaklar,
Qrabenli, yaikli, donlu xoşbəxt kazaklar.

Elə bil Qriqorinin qəlbində nə isə qırıldı... hıçqırıqdan bütün vücudu silkələndi, boğazı tutuldu. Gözlərinin yaşını saxlaya bilməyib ağladı, mahnı başlayanın bir də oxumasını böyük həvəslə gözlədi, özü də onun ardınca yeniyetmə oğlan olduğu zamandan bəri əzbərlədiyi sözləri təkrar etdi:

Onların atamanı Yermak Timofeyeviç,
Onların yasavulu Astaşka Lavrentiyeviç.

Mahnı oxunmağa başlanan kimi, arabalarda bir-biri ilə söhbət edən kazakların səsi xırp kəsildi, atlara təpinən olmadı; karvan indi dərin və həzin bir sükut içərisində hərəkət edirdi: mahnı başlayan sözləri aydın deməyə səy edərək, mahnının əvvəlini oxuduqda isə yalnız təkər tıqqıltısı, bir də palçıqda yeriyən atların dırnaqları altından çıxan fırçıltı eşidilirdi. Qədim, əsrləri yola salmış kazak mahnısı qaranlığın qoynundakı çöl üzərində yaşayırdı, ona hakim kəsilmişdi. Bu sadə və səmimi sözlərdən yaranmış mahnı azad yaşamış kazakların ulu babalarının bir zamanlar çar qoşunlarını igidliklə tar-mar etdiyini, xırda oğru qayıqları ilə Don və Volqa sularında dolaşdığını, zəngin çar gəmilərini taladıqlarını, tacirləri, boyarları və valiləri "əlləşdirdiklərini", uzaq Sibiri tabeliyə vadar etdiklərini hekayə edirdi... Bu qüdrətli mahnını indi həmin azad kazakların nəsilləri – biabırçı vəziyyətdə geriyə çəkilən, rus xalqına qarşı şərəfsiz müharibədə əzişdirilənlər qəmli bir sükut içərisində dinləyirdilər...

Polk keçib getdi. Mahnı oxuyanlar arabalardan qabağa keçdilər, xeyli uzaqlaşdılar. Lakin araba karvanı bundan sonra da uzun zaman füsunkar bir sükut içərisində idi; arabalarda heç kəs danışmır, kimsə yorulmuş atlara təpinmirdi. Uzaqda, qaranlığın ağuşunda isə mahnı axdıqca axır, daşqın zamanındakı Don kimi geniş yayılırdı:

Onlar toplaşıb hamı birgə fikir edirdi
Yayın qızmar ayları artıq keçib gedirdi.
Qabaqdan yağı kimi gəlir boranlı qış, qar,
Harda qışlayacağıq, deyin görək qardaşlar?
Getsək Uaikə doğru – mənzil yaman uzaqdır,
Gəzsən Volqa boyunca – adın oğru kazakdır,
Qazanqrada getsək – ordadır əsəbi çar,
Çar İvan Vasilyeviç – o qorxunc, qəzəbli çar...

Mahnı oxuyanların səsi eşidilmirdi, amma dəmtutanın zil səsi hələ də cingildəyir, yavaşıyır, bir də yüksəlirdi...

...Yuxu aləmində imiş kimi Qriqorinin yadında qalan bir də bu idi: o gözlərini açanda gördü ki, bir isti otaqdadır, gözləri ilə görməsə də bütün vücudu ilə hiss edirdi ki, tərtəmiz yorğan-döşəkdədir, burnuna bir cür dərmanların iyi dolur. Əvvəlcə o elə bildi ki, hərbi xəstəxanadadır, lakin birdən o biri otaqdan şaqqıltılı və arasıkəsilməyən kişi qəhqəhəsi eşitdi; oradan qab-qacaq cingiltisi gəlir, sərxoş adamlar danışırdılar. Tanıdığı adamlardan biri, yoğun səsli bir kişi deyirdi:

– ...Yamanca ağıllı imişsən! Hissəmizin harada olduğunu öyrənib bilmək lazım idi, onda biz də sənə kömək edərdik. Hə, iç görək, niyə burnunu sallamısan?

Keflənmiş və ağlamsınan Proxor da ona belə cavab verirdi:

– Bəsdir, sən Allah, mən bunu haradan öyrənəydim? Elə güman edirsən ki, onunla az əlləşmişəm, nazını çəkmişəm? Mən körpə uşaq kimi çörəyi ona çeynəyərək yedirtmişəm, süd içirtmişəm, Allaha and olsun ki! Tiyəni dişlərinin arasına salıb, dişlərini zorla aralamışam... Bir dəfə də südü boğazına zorla tökürdüm, çeçədi, boğuldu, az qalmışdı ki, ölsün... Bir fikirləşin, görün mən nələr çəkmişəm!

– Dünən onu çimdirmisənmi?

– Çimdirmişəm də, saçını maşınla qırxmışam da, olan-qalan pulumu da südə xərcləmişəm... Mənim pula heç heyifim də gəlmir, Allah vurmuşdu onları! Amma onu çörəyi çeynəyərək yedirtmək, əl ilə bəsləmək sizə asan gəlir? Elə bilirsən sadə işdir? Heç vaxt, bu ki, sadə işdir demə, bir də desən, rütbəni-zadı vecimə almayıb, təpənə bir yumruq endirərəm!

Proxor, Xarlampi Yermakov, gümüşü Buxara papağını peysərinə endirmiş, çuğundur kimi qıpqırmızı Petro Boqatıryov, Platon Ryabçikov, iki nəfər də başqa kazak otağa, Qriqorinin yanına gəldilər.

Ayaqları bir-birinə dolaşan Yermakov dəli kimi çığırdı:

– Gözləri baxır!

Pinti və kefcil Platon Ryabçikov, araq şüşəsini silkələyərək ağlaya-ağlaya bağırırdı:

– Qrişa! Əzizim, Çirdə necə kef elədiyimizi yadına sal! Bəs nə cür vuruşurduq? Bizim o igidlik və şücaətimiz hanı?! Bu generallar bizim başımıza nə oyun açırlar, bizim ordunu nə hala saldılar?!

Onların qanına, qəlbinə lənət! Dirilibsən? Al iç, o saat yaxşı olacaqsan, xalis spirtdir!

– Səni güc-bəla tapmışıq! – deyə Yermakov mızıldanırdı, şadlığından şəvə kimi qara, yağlanmışa bənzər gözləri parıldayırdı. Ağır gövdəsini Qriqorinin çarpayısının üstünə saldı, çarpayı bu ağırlığa davam gətirməyib çökdü.

Qriqori gözlərini çətinliklə tərpədərək, kazakların tanış sifətlərinə baxdı və güclə eşidilən bir səslə soruşdu:

– Biz haradayıq?

– Yekaterinodar alınmışdır! Tezliklə daha irəlilərə təpiləcəyik! İç, Qriqori Panteleviç! Gözümüzün işığı Qrişa! Sən Allah, qalx, mən səni yatağa uzanmış halda görmək istəmirəm! – Ryabçikov Qriqorinin ayaqları üzərinə yıxıldı, lakin kirimişcə gülümsünən və görkəmindən hamıdan ayıq olan Boqatıryov onun kəmərindən yapışdı, asanlıqla qaldırdı və ehmalca döşəmənin üstünə qoydu.

– Şüşəni onun əlindən al! Ağzı açıqdır, yerə tökülər! – deyə Yermakov qorxmuş halda səsləndi, sərxoşlara xas olan bir təbəssümlə Qriqoriyə üz tutub dedi: – Bilirsənmi, biz niyə kef eləyirik? Qeyri-vaxtı dərdimizdən içirdiksə bu dəfə, Allah qürbət eldə kazaklara rəhm eləmişdir, əlimizə fürsət keçmişdir... Qırmızıların əlinə keçməsin deyə şərab anbarını talan etdik... Heç bilirsən orada nə qiyamət var idi... Belə şey adamın yuxusuna da girməz! Tüfənglərdən sisternaya güllə atmağa başladılar: hara dəydisə, ora deşildi, spirt fışqırmağa başladı. Sisternanın hər tərəfini dəlik-deşik elədilər, hərə bir deşiyin yanında durub, kimi papağını, kimi vedrəni, kimi su qabını altına tutub doldururdu; kimi də ovcunu doldurur, elə oradaca içirdi... Könüllülərdən anbara keşik çəkən iki nəfəri orada öldürdülər, adamlar onlarla tutaşdı, ayrı həngamə oldu! Balaca bir kazak gözümün qarşısında sisternanın üstünə çıxdı ki, at suladığı vedrəni yuxarıdan doldursun, amma əli-ayağı sürüşdü, kəlləmayallaq getdi sisternanın içinə, batdı, qaldı. Döşəmə sement idi, adam dizinə qədər spirtə batırdı, adamlar spirtin içində gəzişir, çayda su içən atlar kimi əyilib spirtdən içir, oradaca sərilib qalırdı... Adamın gülməyi də tutur, amma biabırçılıqdır da! Güman ki, orada indi bir neçəsi ölüncəyə qədər məst olmuşdur. Bax biz də orada dəmlənmişik. Bizə çox şey lazım deyildi: beş vedrəlik balaca bir çəlləyi dığırladıb apardıq, o da bizə bəs elədi. Gəl, kefim gəl! Fərqi

yoxdur, Sakit Don məhv olacaqdır! Az qalmışdı orada Platon spirtdə boğulsun! İtələyib yerə yıxdılar, ayaqlarının altına salıb tapdalamağa başladılar, ağzına spirt dolmuş Platon oldu ölü kimi. Mən onu spirtin içindən güc-bəla sürüyüb çıxartdım...

Gələnlərin hamısından kəskin spirt, soğan, tütün iyi gəlirdi. Qriqori boğazında yüngülvarı ürəkbulanması, baş gicəllənməsi hiss etdi, zəif, iztirablı bir təbəssümlə gülümsədi, gözlərini yumdu.

Qriqori Yekaterinodarda, Boqatıryovun tanıdığı bir həkimin evində bir həftə qaldı, xəstəlikdən sonra aramla yaxşılaşdı; sonra isə, Proxor demişkən, birdən-birə yaxşılaşma başlandı və geri çəkildikləri müddət ərzində birinci dəfə Abinskaya stanitsasında at belinə qalxdı.

Novorossiyskdə əhalinin şəhərdən köçürülməsi işləri başlanmışdı. Gəmilər rus varlılarını, mülkədarlarını, generalların və nüfuzlu siyasi xadimlərin ailələrini Türkiyəyə aparırdı. Körpülərdə gecə-gündüz gəmilər yüklənirdi. Yunkerlər yükçülər artellərində işləyir, gəmilərin anbarlarına hərbi ləvazimat, mötəbər qaçqınların çamadanlarını, qutularını daşıyırdılar.

Könüllü ordunun hissələri, qaçaqaçda donluları və kubanlıları qabaqlayaraq, onlardan qabaq Novorossiyskə çatmışdı, nəqliyyat gəmilərinə yüklənirdi. Könüllü ordu qərargahı isə hər cür ehtimala qarşı ingilis drednoutu "Hindistan imperatoruna" köçdü. Vuruşmalar Tonnelnaya tərəfdə gedirdi. Şəhərin küçələrinə on minlərlə qaçqın dolmuşdu. Bir yandan da hərbi hissələr gəlirdi. Körpülərin yanında təsviredilməz basabas var idi. Sahibləri tərəfindən başlıbaşına buraxılmış minlərlə at Novorossiysk ətrafında kirəcli dağların ətəklərində avaralanırdı. Körpüyə yaxın olan küçələrdə kazak yəhərləri, hərbi ləvazimat, əsgəri təchizat təpə kimi üst-üstə yığılmışdı. Bütün bu şeylər indi heç kəsə gərək deyildi. Şəhərdə belə bir şayiə yayılmışdı ki, gəmilərə ancaq Könüllü ordu yüklənəcəkdir, donlularla kubanlılar isə əsgəri yürüşlə Gürcüstana gedəcəklər.

Bir az əvvəl kazaklar arasında şayiə yayılmışdı ki, guya general Denikin belə bir əmr vermişdir: atını, silahını saxlaya bilmiş donluların hamısı Krıma aparılmalıdır. Buna görə də martın 25-də Qriqori ilə Platon Ryabçikov körpüyə gəldilər ki, İkinci Don korpusu hissələrinin gəmilərə yüklənib-yüklənməyəcəyini öyrənsinlər.

Salsk mahalının kalmıkları körpünün hər tərəfini tutmuşdular. Onlar Manıçdan, Salskdan ilxılarını, dəvə sürülərini, qabaqlarına qatıb gətirmişdilər. Qriqori ilə Ryabçikov izdiham arasından irəlilədikcə burunlarına qovurulmuş qoyun quyruğu cızdağının ləzzətli iyi dolurdu; onlar iskələdə dayanmış böyük yük gəmisinin pilləkəninə yaxınlaşdılar. Pilləkən Markov diviziyası zabitləri tərəfindən möhkəm qorunurdu. Gəmiyə minməyə hazırlaşmış donlu topçular da onların yaxınlığında idilər. Gəminin göyərtəsində quraşdırılmış topların üstünə xaki rəngdə brezent çəkilmişdi. Qriqori özünə çox çətinliklə yol açaraq qıvraq qarabığ vaxmistrdən soruşdu:

– Ay eloğlu, bu hansı batareyadır?

Vaxmistr tərs-tərs Qriqorinin üzünə baxıb könülsüz cavab verdi:

– Otuz altıncı.

– Karginskaya batareyasıdırmı?

– Özüdür ki, var.

– Burada gəmiyə yüklənmə işlərinə baxan kimdir?

– Odur bax, o məhəccərə söykənmiş polkovnik.

Ryabçikov Qriqorinin qolundan yapışdı, hirsli-hirsli dedi:

– Gəl buradan gedək, qoy cəhənnəm olsunlar! Məgər onlardan ağıllı-başlı bir xeyir görmək olar? Müharibə edəndə biz onlara gərək idik, indi isə biz heç nəyə yaramırıq...

Vaxmistr gülümsədi, növbəyə düzülmüş topçulara göz vurdu:

– Bəxtəvərsiniz, a topçular! Cənab zabitləri belə gəmiyə minməyə qoymurlar.

Yüklənmə işlərinə göz qoyan polkovnik cəld pilləkənlə aşağıya düşdü. Bahalı kürkünün yaxası açıq dazbaş bir məmur da ayaqları dolaşa-dolaşa ardınca gəlir, ona çatmağa tələsirdi. Məmur xəz şapkasını sinəsinə basaraq, yalvara-yalvara ona nə isə deyirdi; onun tərli üzü ilə qarov gözlərində elə yalvarışlı ifadə var idi ki, polkovnik özündən çıxır, üzünü ondan çevirərək qaba bir şəkildə qışqırırdı:

– Mən sizə cavabımı bir dəfə dedim! Yaxamdan zəli kimi yapışmayın, yoxsa bu saat əmr verərəm sizi sahilə atarlar! Siz dəli olmusunuz nədir! Sizin zir-zibillərinizi hara götürək? Korsunuz? Ətrafımızda nələr olduğunu görmürsünüz? A kişi, rədd ol buradan! Bəli, şikayət edin, istəyirsiniz lap general Denikinin özünə deyin! Sizə dedim ki, bacarmaram, demək bacarmaram, rus dilini başa düşmürsünüz?

Polkovnik onun zəhləsini tökən məmurdan uzaqlaşaraq, Qriqorinin yanından keçəndə Qriqori onun qabağını kəsdi, rəsmi təzimdə durub, həyəcanla soruşdu:

– Zabitlər də gəmiyə minəcəklərinə ümid edə bilərlərmi?

– Bu gəmi ilə getməyə yox. Yer yoxdur.

– Bəs hansı gəmiyə minmək olar?

– Bunu köçürmə məntəqəsindən öyrənin.

– Biz ora getmişdik, heç kəs heç nə bilmir.

– Mən də heç nə bilmirəm, yol verin keçim!

– Axı siz otuz altıncı batareyanı gəmiyə yükləyirsiniz! Onda bəs niyə bizə yer yoxdur?

– Sizə dedim ki, yol verin keçim! Mən məlumat bürosu deyiləm! – Polkovnik istədi Qriqorini ehmalca kənara itələsin, lakin Qriqori ayaqlarını yerə möhkəm basmışdı. Onun gözlərindən maviyə çalan qığılcımlar çıxır və sönürdü.

– Deməli, indi biz sizə daha lazım deyilik? Əvvəllər lazım idik? Əlinizi çəkin, siz məni itələyə bilməzsiniz!

Polkovnik Qriqorinin gözlərinin içinə baxdı, döyükdü, pilləkənin aşağısında dayanmış markovçular, tüfənglərini baş-başa verərək, irəliyə dürtülən izdihamın qabağını çətinliklə saxlayırdılar. O, Qriqorinin üzünə deyil, kənara baxaraq, yorğun adam kimi soruşdu:

– Siz hansı hissədənsiniz?

– Mən On ikinci Don polkundanam, qalanları müxtəlif polklardandır.

– Cəmisi neçə adamsınız?

– On nəfərik.

– Bacarmayacağam. Yer yoxdur.

Qriqori yavaşdan: "Bəs onda niyə başımızı ağrıdırsan, əclaf! Arxa biti! Bu saat bizi burax, yoxsa..." deyəndə Ryabçikov gördü ki, Qriqorinin burnunun pərləri qabardı. Öz aləmində fikirləşdi ki, "Bu saat Qrişa onu doğrayacaqdır", lakin markovçulardan iki nəfərinin tüfəngin qundağı ilə izdihamı yara-yara polkovnikin harayına gəldiklərini gördü, – Qriqorinin qolundan yapışıb ona him elədi:

– Ona baş qoşma, Panteleviç! Gedək...

Rəngi tamam ağarmış polkovnik Qriqoriyə dedi:

– Siz əbləhsiniz! Hərəkətinizə görə cavab verməli olacaqsınız! – sonra da köməyə gəlmiş markovçulara üz tutub Qriqorini göstərdi: – Cənablar! Bu dəlini ağıllandırın! Burada qayda-qanun yaratmaq lazımdır axı! Komendantın yanında təcili işim var, amma burada ləngiyib hər yoldan ötəndən müxtəlif sözlər eşidirəm... – Bunu deyən kimi cəld Qriqorinin yanından sivişdi.

Markov diviziyası zabitlərindən biri – ucaboy, göy paltarının çiynində poruçik poqonu olan, bığlarını ingilis qaydası ilə səliqəli qırxdırmış oğlan Qriqorinin lap yaxınına gəldi.

– Nə istəyirsiniz? Niyə qayda-qanunu pozursunuz?

– Mənə gəmidə yer lazımdır, bunu istəyirəm!

– Hissəniz haradadır?

– Bilmirəm.

– Sənədlərinizi göstərin.

Keşikçilərdən ikincisi – dodaqları şiş, gözlərində pensne olan cavanca oğlan qırıq çıxan yoğun səslə dedi:

– Onu keşikçilər otağına aparmaq lazımdır, Vısotski! Vaxtını hədər yerə itirmə!

Poruçik Qriqorinin vəsiqəsini diqqətlə oxudu, özünə qaytardı.

– Axtarın, hissənizi tapın. Sizə buradan getməyi, gəmiyə yüklənmə işinə mane olmamağı məsləhət görürəm. Bizə belə bir əmr verilmişdir: nizam-intizamı pozan və yüklənmə işinə mane olanları rütbəsindən asılı olmayaraq həbsə almalısınız. – Poruçik dodaqlarını kip qısdı, bir neçə saniyə gözlədi, bir gözü ilə Ryabçikova baxaraq Qriqoriyə tərəf əyilib pıçıldadı: – Sizə belə məsləhət verə bilərəm: otuz altıncı batareyanın komandiri ilə danışın, onlarla bir növbəyə durun, onda siz də gəmiyə minərsiniz.

Poruçikin pıçıltı ilə nə dediyini eşitmiş Ryabçikov sevinmiş halda dedi:

– Onda sən Karginin yanına get, mən də bu saat uşaqları tapım. Sənin şeylərindən çantadan başqa nə götürüm.

– Gəl birlikdə gedək. – Qriqori saymazyana belə dedi.

Onlar yolda tanış bir kazaka – Semyonovsk xutoru sakininə rast gəldilər. Həmin kazak körpüyə yekə bir arabada üstünə brezent örtülmüş bişmiş çörək aparırdı. Ryabçikov eloğlusunu səslədi:

– Ey Fyodor, salam! Çörəyi haraya aparırsan?

– A-a-a, Platon, Qriqori Panteleviç, salamlar! Polkumuz üçün yolda yeməyə çörək aparıram. Çox çətinliklə bişirdilər, yoxsa yolda yalnız dən çeynəyəcəkdik...

Qriqori dayandırılmış arabaya yaxınlaşdı, soruşdu:

– Bu çörək hamının ehtiyacı üçünmü bişirilib? Onu sayıblarmı?

– Kim bunu saymışdır? Yoxsa sizə çörək lazımdır?

– Lazımdır.

– Götürün!

– Nə qədər götürmək olar?

– Nə qədər aparırsan, apar, yerdə qalanı bizə kifayətdir!

Ryabçikov Qriqorinin kömbələri bir-bir götürdüyünü gördükdə təəccüb etdi, səbirsizliklə soruşdu:

– Bu qədər çörək sənin nəyinə gərəkdir, canım?

– Lazımdır, – deyə Qriqori qısaca cavab verdi.

Qriqori arabaçıdan iki kisə çörək verməsini xahiş etdi, aldı, kisələri doldurdu, yaxşılıq etdiyi üçün ona təşəkkür elədi və vidalaşdıqdan sonra Ryabçikova əmr etdi:

– Qaldır aparaq.

Ryabçikov kisəni dalına qaldıraraq, rişxəndlə soruşdu:

– Sən burada qışlamağa hazırlaşmırsan ki?

– Bunu mən özümdən ötəri aparmıram.

– Bəs kimdən ötəri aparırsan?

– Atdan ötəri.

Ryabçikov tez çörəklə dolu kisəni yerə qoydu, karıxmış halda soruşdu:

– Zarafat edirsən?

– Yox, doğru deyirəm.

– Deməli sən... bu nədir, sən nə xəyaldasan, Panteleviç? Belə qanıram ki, sən qalmaq istəyirsən, hə?

– Düz başa düşmüsən. Hə, kisəni qaldır, götür gedək. Atı yemləmək lazımdır axı, yoxsa axurun taxtasını tamam gəmirmişdir. At bizə yenə də gərək olacaqdır, piyada qulluq eləyəsi deyilik ki...

Mənzilə çatıncaya qədər Ryabçikov kisəni hıqqana-hıqqana gah bu, gah o biri çiyninə alır, dinmirdi, küçə qapısına çatdıqda soruşdu:

– Bunu uşaqlara deyəcəksənmi? – Sualına cavab verilməsini gözləmədi, səsində müxtəsər inciklik ahəngi sezildiyi halda dedi: – Sən bunu qiyamət fikirləşmisən... Bəs biz nə edək?

Qriqori süni bir laqeydliklə dedi:

– Necə istəyirsiniz. Bizi aparmırlar, hamı üçün yer yoxdur, deyirlər, lazım da deyil! Bizim onlara heç ehtiyacımız yoxdur, özümüzü zorla onlara bəyəndirməyəcəyik ki! Qalarıq. Bəxtimizi sınarıq. A kişi, gəl keç, qapının ağzında niyə məəttəl qalmısan?

– Belə sözlər eşidəndə məəttəl qalarsan da... Axı, mən heç qapını görmürəm. İşə bax, ha! Sən, Qrişa, elə bil başıma bir qazan qaynar su tökmüsən. Ağlımı başımdan çıxartmısan. Mən də fikirləşirdim: "Görəsən arabaçıdan yalvararaq niyə bu qədər çörək alır?" İndi uşaqlar bunu biləndə həyəcana düşəcəklər...

Qriqori maraq üçün sual verdi:

– Bəs sən nə fikirdəsən? Qalmazsan?

Ryabçikov qorxuya düşərək səsləndi:

– Nə danışırsan, canım!

– Fikirləş.

– Fikirləşməli bir şey yoxdur! Nə qədər ki, mümkünat var, danışıqsız gedəcəyəm. Gedib Karginsk batareyasına qoşulacaq, onunla birlikdə yola düşəcəyəm.

– Nahaq yerə.

– Odur ha! Yox, qardaş, mən başımı salamat saxlamalıyam. Buna heç meylim yoxdur ki, qırmızılar gəlsin, qılınclarını mənim kəlləmdə sınasınlar.

– Eh, Platon! Fikirləş! Belə bir iş var...

– Heç adını çəkmə! Bu saat gedirəm.

– Onda özün bil. Mən səni tovlaşdırmıram, – deyə Qriqori pərt oldu, qabağa keçərək artırmanın daş pilləkəninə çıxdı.

Mənzildə nə Proxor var idi, nə Yermakov, nə də Boqatıryov. Ev sahibəsi – ortayaşlı, donqar erməni qadını dedi ki, kazaklar gediblər, amma tezliklə qayıdacaqlar. Qriqori şinelini soyunmadan bir kömbəni iri-iri parçaladı, mərəyin altına, atların yanına gəldi. Çörəyi iki bərabər yerə böldü, bir payını öz atına, digərini Proxorun atına verdi, vedrəni yenicə əlinə götürüb, su gətirməyə getməyə hazırlaşmışdı ki, Ryabçikov qapıda görsəndi. O da iri doğradığı çörəyi şinelinin ətəyinə yığıb bərk-bərk tutmuşdu. Ryabçikovun atı, sahibinin gəldiyini duyub yavaşca kişnədi, at sahibi də təmkinlə gülümsünən Qriqorinin yanından ötdü, çörək parçalarını axura tökdü və Qriqorinin üzünə baxmadan dedi:

– Dişlərini ağartma, xahiş edirəm! İndi ki, iş belə oldu, onda mən də atımı bu qayda yemləməliyəm... Sən elə güman edirsən ki, aparsaydılar mən çox həvəslə gedərdim? Mənə qalsa heç o gəmiyə

yaxın getməzdim! Məni oraya qovan qorxu idi... Adamın başı var-yox bircə dənədir, ikincisi yoxdur, elədirmi? Birini qılıncla vurub salsalar, ikincisi bayrama qədər bitəsi deyil ey...

Proxor ilə başqa kazaklar yalnız axşamüstü qayıtdılar. Yermakov bir yekə şüşə qab spirt gətirdi, Proxor da bir kisə ağzı möhkəm qapalı, içində sarımtıl-bulanıq duru şey olan banka gətirmişdi.

Yermakov gətirdiyi yekə şüşəni göstərib, tərifləyə-tərifləyə izahat verdi:

– Yamanca qazanmışıq! Gecə səhərə qədər bizə bəs eləyər. Bir hərbi həkimə rast gəldik, xahiş elədi ki, anbardakı dava-dərmanı körpüyə daşıyın. Yükçülər daşıyırdılar, biz də onlara qoşulduq, işlədik. Həkim zəhmət haqqının əvəzində bizə bu spirti verdi, bu bankalara gəlincə, düzünü deyəcəyəm, Allah göstərməsin, Proxor oğurlamışdır!

Ryabçikov maraqla soruşdu:

– Bankaların içindəki nədir?

– Bu, qardaş, spirtdən də əla şeydir! – Proxor bankanın birini silkələdi, işığa tutaraq baxdı, tünd şüşənin içində qəliz maye qabarcıqlandıqda, lovğalanaraq sözünü bitirdi: – Bunu ki, görürsünüz, ən bahalı xarici ölkə şərabıdır. İngilis dilini başa düşən balaca yunker məni başa saldı ki, bunu ancaq xəstələrə verirlər. Gəmiyə minərək, dərdimizi dağıtmaq üçün bundan içər, "Ey bizdən üz döndərmiş vətən" mahnısını oxuyub, Krıma çatarıq, bankaları da dənizə tullarıq.

– Tez ol, qaç gəmiyə min, yoxsa gəmi sənə görə ləngiyir. Deyirlər: "O qəhrəmanlar qəhrəmanı olan Proxor hanı, üzə bilmirik!" – deyə Ryabçikov Proxora sataşdı. Bir qədər susdu, papiros eşməkdən saralmış barmağı ilə Qriqorini göstərib dedi: – O, fikrini dəyişmişdir, getmir. Mən də getmirəm.

– Nə deyirsən, əşi! – deyə Proxor bağırdı; o qədər təəccüb qaldı ki, az qaldı əlindəki bankanı yerə salsın.

– Bu nə işdir? Siz burada nə fikrə düşmüsünüz? – deyə Yermakov soruşdu, tam diqqətlə Qriqorinin gözlərinə baxdı.

– Qərara aldıq ki, getməyək.

– Niyə?

– Çünki orada bizə yer yoxdur.

Boqatıryov inamla dedi:

– Bu gün yer yoxdursa sabah olacaqdır.

– Sən körpüdə olmusanmı?

– Olmuşam. Nə olsun?

– Orada nə işlər baş verdiyini gördünmü?

– Hə, görmüşəm.

– Görmüsənsə onda danışmağa dəyməz. Ryabçikovu bir də məni – ikicə adam götürürdülər, bunu da bizə bir könüllü başa saldı: dedi ki, Karginskaya batareyasına qoşulun, başqa cür gedə bilməyəcəksiniz.

Boqatıryov tez soruşdu:

– Həmin batareya indi gəmiyə yüklənib, ya yox?

O, batareya nəfərlərinin növbəyə düzülərək yüklənməyə hazırlaşdığını öyrənən kimi, getməyə hazırlaşdı: tuman-köynəyini, ehtiyat şalvarını, üst köynəyini çantasına doldurdu, üstündən də çörək qoyub vidalaşdı.

– Petro, getmə qal! – deyə Yermakov ona məsləhət verdi. – Bir-birimizdən ayrı düşməyimizin mənası yoxdur.

Boqatıryov ona cavab vermədi, tərli əlini uzatdı və qapının astanasında bir daha baş əyib dedi:

– Sağlıqla qalın! Allah qismət eləyər bir də görüşərik! – deyən kimi də yüyürdü.

O gedəndən sonra otağı xoşagəlməz bir sükut bürüdü. Yermakov mətbəxə, ev sahibəsinin yanına getdi, dörd stəkan gətirdi, hamısına spirt tökdü, içi soyuq su ilə dolu iri mis çayniki də stolun üstünə qoydu, piy doğradı və yenə də səssiz-səmirsiz stolun arxasında əyləşdi, dirsəyini stola söykədi, bir neçə dəqiqə küt baxışlarla ayaqları altına baxdı, axırda çayniki götürdü, lüləyindən su içib səsi xırıldaya-xırıldaya dedi:

– Kubanın hər yerində sudan neft iyi gəlir. Görəsən bunun səbəbi nədir?

Heç kim onun sualına cavab vermədi. Ryabçikov təmiz bir cındırla nəm çəkmiş qılıncını silir, Qriqori sandıqçasında nə isə axtarırdı; Proxor isə dalğın halda, pəncərədən eşiyə, hər tərəfinə ilxılar yayılmış dağ ətəklərinə tamaşa edirdi.

– Yaxın gəlin, içək. – Yermakov yoldaşlarının gəlməsini gözləməyib yarım stəkan spirti ağzına boşaltdı, üstündən su içdi və bir parça qızarmış piyi çeynəyə-çeynəyə, nəşələnmiş gözlərini Qriqorinin üzünə zilləyib soruşdu:

– Qırmızı yoldaşlar bizim hamımızı məhşər ayağına çəkərlər?

– Hamını qırmazlar. Burada minlərcə insan salamat qalacaq, – deyə Qriqori cavab verdi.

– Mən hamının dərdini çəkmirəm, – deyə Yermakov güldü. – Öz canımın hayındayam...

Hamısı mükəmməl içəndən sonra söhbətləri də dərinləşdi. Bir az keçəndən sonra soyuqdan göyərmiş, qanı qaralmış və qaşqabağı yerlə gedən Boqatıryov heç də gözlənilmədən gəldi. O, gətirdiyi bir şələ təptəzə ingilis şinelini astanada yerə tulladı, kirimişcə soyunmağa başladı.

Proxor ona baş əydi, tənəli bir səslə dedi:

– Varid olmağınız münasibətilə təbrik edirəm!

Boqatıryov bir an Proxora qəzəblə baxdı, köksünü ötürərək dedi:

– Bütün bu Denikinlər də, sair q... yalvarsalar, yenə getmərəm! Növbəyə durmuşdum, ayazda qalmış it kimi dondum, amma faydası olmadı. Növbə mənə çatdıqda daha adam buraxmadılar. Məndən qabaqda iki nəfər durmuşdu, birini buraxdılar, o birini yox. Batareyanın yarısı qaldı, bu necə işdir, hə?

– Bax, sizləri belə ələ salıb oynadırlar ha! – deyə Yermakov qəhqəhə çəkdi və əlindəki şüşədən ətrafa spirt saçalayaraq, Boqatıryova stəkan dolusu spirt verdi. – Al, iç, dərdini dağıt. Yoxsa dalınca adam göndərib gəlməyini xahiş eləyənə qədər gözləyəcəksən? Bir pəncərədən eşiyə bax: sənin dalınca gələn bu şəxs general Vrangeldirmi?

Boqatıryov kirimişcə spirti içdi. Bu saat onun zarafat eləməyə halı yox idi. Yermakov ilə Ryabçikov hər ikisi yarıkefli olduqları bir yana dursun, ev sahibəsi olan qarını da mükəmməl kefləndirmişdilər, indi də danışıq gedirdi ki, görəsən, haradan bir qarmonçu tapa bilərlər.

Boqatıryov məsləhət üçün dedi:

– Stansiyaya getsəniz yaxşıdır. Orada vaqonları təmir edirlər. Bütün qatar paltarla doludur.

– Dediyin bu pal-paltar bizim nəyimizə lazımdır! – deyə Yermakov çığırdı. – Sənin sürütləyib gətirdiyin bu şinellər bəsimizdir! Artığını isə fərqi yoxdur, əlimizdən alacaqlar. Petro, mənə qulaq as, ay zırrama! Biz burada qırmızılar tərəfə keçməyi qərara alırıq, başa düşürsənmi? Biz kimik, kazak deyilikmi? Qırmızılar bizi sağ-

salamat qoyarlar, gedib onlara qulluq edərik! Biz Don kazakıyık! Həm də xalisindən, qanımızda qarışıq-zad yoxdur. Bizim sənətimiz doğramaqdır! Sən mənim necə qılınc çaldığımı bilirsənmi? Endirəndə dibindən üzürəm! Qabağımda dayan, göstərim! Odur ha, zəifləmisən? Bizim üçün kimi doğramağımızın fərqi yoxdur, təki doğramaq olsun. Düzmü deyirəm, Melexov?

Qriqori yorğun halda ondan üz döndərdi:

– Əl çək məndən!

Qan sağılmış gözləri ilə çəpəki baxan Yermakov istəyirdi sandığın üstünə qoyulmuş qılıncını götürsün. Boqatıryov sakitcə onu geriyə itələyib, xahiş edirdi, – hövsələni bas, ay igid kişi, yoxsa mən səni bir göz qırpımında dinçəldərəm. İçkini adam kimi iç, axı, sən zabit rütbəsindəsən.

– Bu rütbə indi bir çürük qoza da dəyməz! Donuza qəlib lazımdırsa, mənə də rütbə lazımdır! Bunu yada salma! Sən özün də beləsən ki! Gətir, poqonlarını kəsim, hə? Petya, sənin qadan alım, dayan, bu saat kəsim...

Keflənib özündən çıxmış dostunu qırağa itələyən Boqatıryov gülə-gülə deyirdi:

– Hələ bunun vaxtı deyil, buna macal taparıq!

Düz dan yeri ağarıncaya qədər içdilər. Hələ axşam şər qarışmamış haradan isə yad kazaklar da gəlmişdilər, birinin qoşadilli qarmonu var idi. Yermakov ayaq üstə dura bilməyib yıxılana qədər "kazak" rəqsi oynadı. Yıxıldıqda onu sürüyüb sandığın yanına gətirdilər; Yermakov oradaca, quru döşəmə üzərində, ayaqları geniş aralanmış, başı yöndəmsiz şəkildə yana əyilmiş halda o dəqiqə yuxuladı. Ləzzətsiz kef məclisi səhərədək davam etdi. Buraya təsadüfən gəlmiş ortayaşlı bir kazak da kefli idi, ağlaya-ağlaya deyirdi:

– Mən Kumşatskaya stanitsasındanam... Stanitsanın özündənəm! Bizlərdə elə öküzlər var idi ki, buynuzuna əl çatmazdı! Atlar var idi, şir kimi! İndi təsərrüfatda nə qalmışdır? Vur-tut tükü tökülmüş arıq bir qancıq! O da çox çəkməz gəbərər, yedirtməyə bir şey yoxdur.

Bir neçə yeri cırıq çərkəzi çuxa geyinmiş kubanlı oğlan qarmonçuya "naurski" rəqsi çaldırdı, qollarını təmtəraqla yanlara doğru açdı, bükdü, elə görünməmiş bir cəldliklə süzdü ki, Qriqori onun yüngül dağlı çəkməsinin pəncəsinin palçıqlı, zibilli döşəməyə dəymədiyini güman etdi.

Gecəyarısı kazaklardan birisi gedib haradansa darboğaz iki bardaq gətirdi; bardaqların üzərində yarıya qədər çürümüş etiketlər qaralırdı, probkalarının üstü surğuclanmışdı; tünd qırmızı surğuclu möhürlərin altından iri qurğuşun plomblar sallanırdı. Proxor bardağı əlində uzun zaman saxladı, dodağını iztirabla qımıldadır, etiketdə xarici dildə nə yazıldığını başa düşməyə çalışırdı. Yuxudan yenicə oyanmış Yermakov bardağı dartıb onun əlindən aldı, döşəmənin üstünə qoydu, qılıncını sıyırdı. Proxor "ax" deyənə qədər Yermakov qılıncını endirdi, bardağın boğazını çilik-çilik elədi, qışqırdı:

– Altına qab gətir!

Qatı, görünməmiş dərəcədə ətirli və tünd şərabı bir neçə dəqiqədə içdilər; bu hadisədən xeyli keçəndən sonra da Ryabçikov damağını marçıldadaraq mızıldanırdı: "Bu şərab deyildi, xalis dirilik suyu idi! Belə şərabı ancaq ölüm ayağında içəsən; həm də bunu hər adama vermək olmaz; ömründə qumar oynamayan, papiros çəkməyən və arvada toxunmayan kişilərə verilməlidir... Bir kəlmə ilə desək, abi-zəmzəmdir!" Burada Proxorun yadına düşdü ki, onun kisəsində xəstələrə verilən şərab bankaları var.

– Dayan, Platon, – dedi, – onu çox da tərifləmə! Məndəki şərab bundan yaxşı olar. Səninki zibildir, amma mən bunları anbardan gətirmişəm, çaxır buna deyərlər, bax! Lap ənbər qatılmış baldır. Hələ olsun ki, bir az da ondan yaxşıdır! Bu sən dediyin abi-zəmzəmdən deyil, açığını desək, padşah şərabıdır! Bunu keçmişdə ancaq padşahlar içərmiş, amma indi bizlərə də qismət olmuşdur... – deyə Proxor bankalardan birini açaraq lovğalanırdı.

İçki düşkünü olan Ryabçikov həmin şərabdan – bulanıq, sarı qatı mayedən yarım stəkan içdi, o dəqiqə rəngi ağardı, gözləri kəlləsinə çıxdı.

– Bu şərab deyil, karbolkadır! – deyə Ryabçikov xırıldadı, stəkanda qalmış içkinin qalığını hirslə Proxorun köynəyinin üstünə töküb, ayaqları bir-birinə dolaşa-dolaşa koridora çıxdı.

Proxor sərxoş yoldaşlarının qışqırtısından daha da hündürdən bağırmağa çalışıb deyirdi:

– O əclaf yalan deyir! İngilis şərabıdır! Özü də birinci növ! Onun sözünə inanmayın, qardaşlar! – Proxor özü də bu içkidən düz bir stəkan dolusu başına çəkdi; onun rəngi Ryabçikovdan betər ağardı.

Yermakovun burun deşikləri qabardı; o, Proxorun fəri sönmüş gözlərinin içinə baxaraq onu bərkə çəkmişdi:

– Hə, necə şeydir? Bu padşah şərabı nə cür şeydir? Tünddürmü? Şirindirmi? Dillənsənə, a şeytan, dinməsən bu bankanı qaldırıb kəllənə çırparam, vallah!

Proxor başını buladı, kirimişcə əzab çəkdi, sonra isə ürəyi bulanıb öyüdü. Cəld yerindən sıçradı. Ryabçikovun ardınca o da eşiyə qaçdı. Yermakov gülməkdən qəşş edib Qriqoriyə göz vurdu, eşiyə yüyürdü. O bir dəqiqədən sonra otağa qayıtdı. Onun çatıltılı qəhqəhəsinə hamı səsini kəsdi.

Qriqori yorğun halda ondan soruşdu:

– Niyə gülürsən, belə? Ay axmaq, nə olub belə hırtıldayırsan? Pul tapmısan?

– Ay öldüm, bir bayıra çıx, gör onların içalatları necə eşiyə çıxır! Bilirsən nə içiblər.

– Nədir?

– Bitləri qırmaq üçün ingilis mazı!

– Yalan deyirsən!

– Allaha and olsun ki, yox! Mən özüm də anbarda olanda əvvəlcə elə zənn etdim ki, bu, şərabdır, amma sonra həkimdən soruşdum: "Cənab həkim, bu nədir?" "Dərmandır" dedi. Soruşdum: "Təsadüfən bu dərman bütün dərdləri dağıdan dərman deyil ki? Spirtli içki deyil ki?" "Allah göstərməsin, – dedi, – bu müttəfiqlərimizin bitləri qırmaq üçün bizə yolladığı mazdır. Bu, – dedi, – sürtmə dərmandır, heç vaxt belə şeyi içmək yaramaz!"

Qriqori dilxor olub onu məzəmmətlədi:

– İndi ki, elə imiş, bunu onlara niyə demədin, ay haramzadə?

– Qoy bu məlunlar təslim ərəfəsində təmizlənsinlər, qorxma ölməzlər! – Yermakov bərk gülməkdən yaşarmış gözlərini sildi. Mərdimazarlığına ürəyində sevinərək əlavə etdi: – Bundan sonra içkini də bir qədər təhərində içərlər, yoxsa stoldan qədəh götürməyə macal vermirlər! İçki düşkünlərinə belə qulaqburması verilməlidir! Hə, de görüm, sənin lə mən içirik, yoxsa bir az gözləyək? Gəl bizim məhv olmağımız şərəfinə içək, hə?

Dan yeri ağaranda Qriqori artırmaya çıxdı, əlləri əsə-əsə bir papiros büküb, yandırıb çəkdi, dalını dumandan islanmış divara söykəyərək xeyli vaxt beləcə durdu.

Evdə sərxoş adamların qışqırtısı, qarmonun dillərindən yüksələn boğuq və yersiz zırıltı, dəlicəsinə çalınan fışqırıqlar ara vermirdi; məharətlə rəqs edənlərin dabanları yorulmadan yerə dəyir, quru tappıltı salırdı... Külək liman tərəfdən əsir, gəmilərin bacalarından yüksələn yoğun, amma yavaş uğultu gətirirdi, körpülərdə adamların səs-küyü birləşərək qatı bir uğultuya çevrilir, arabir də ucadan verilən komanda səsləri, at kişnəməsi, parovoz fiti eşidilirdi. Tonnelnaya istiqamətində harada isə vuruşma gedirdi. Toplar boğuq-boğuq gurlayır, arada pulemyotların qızğın şaqqıltısı az da olsa eşidilirdi. Marxot aşırımından o tərəfdə ətrafı işıqlandıran fişəng göydə xeyli yüksəklərə ucaldı. Üzərinə əsrarəngiz yaşıl parıltı yayılmış donqar təpələrin başı bir neçə saniyə apaydınca göründü, sonra isə mart gecəsinin qəliz zülməti təpələri təzədən qaranlıqlara qərq etdi, bunun ardınca da toplardan açılan yaylım atəşləri daha da ucadan və tez-tez gurladı, gurultular bir-biri ilə qovuşdu.

XXIX

Dəniz tərəfdən duzlu, qəliz, soyuq yel əsirdi. Külək yad ölkələrin iyini sahillərə gətirirdi. Lakin donlular üçün hər tərəfində yellər əsən, adamı darıxdıran bu sahil şəhərində təkcə külək yox, hər şey yabançı və biganə idi. Onlar ləpədöyəndə qalın və sıx izdiham halında bir araya yığışmışdılar, gəmiyə yüklənməyə müntəzir idilər... Sahildə yaşıl və köpüklü dalğalar oynaşırdı. Hənirtisiz günəş buludlar arasından dünyaya boylanırdı. Reyddə dayanmış ingilis və fransız mina gəmilərindən tüstü çıxırdı, zirehli hərbi gəmi suda boz və qorxunc div kimi ucalırdı. Tüstü qara bir bulud parçası kimi onun başı üzərinə yayılmışdı. Körpülərdə məşum bir sükut var idi. Bir az əvvəl, sonuncu nəqliyyat gəmisinin yırğalandığı yerdə – suyun içində zabitlərin yəhərləri, çamadanlar, gəmi körpüdən aralandıqda qarışıqlıq zamanı dənizə atılmış sair paltar-palaz üzüşürdü.

Qriqori atlanıb səhər tezdən körpüyə gəldi; atı Proxora tapşırıb xeyli vaxt izdiham arasında gəzdi, bəlkə bir tanışa rast gələrəm deyə diqqətlə adamların üzünə baxdı; adamların qırıq-qırıq və təşviş içində danışmalarına qulaq asdı. İstefada olan bir polkovnik "Svyatoslav" gəmisinin pilləkənində getmək üçün gəmidə ona yer vermədiklərinə görə, Qriqorinin gözü önündə özünü öldürdü.

Hadisədən cəmisi bir neçə dəqiqə əvvəl həmin polkovnik – saqqalı tamam ağarmış, ağlamaqdan gözləri şişmiş, gözlərinin altında torbacıqlar əmələ gəlmiş balaca və narahat bir kişi, mühafizə rəisinin kəmərindən yapışıb nə barədə isə onunla miskin-miskin danışırdı, gözlərinin yaşı ağzının-burnunun seliyinə qarışmışdı; çoxlu papiros çəkməkdən saralmış bığlarını, gözlərini, uçunan dodaqlarını kirli yaylığı ilə silirdi; sonra nə oldusa birdən-birə qətiləşdi və intihar etdi... Dərhal da bir qıvraq kazak, nikeli parıldayan brauninqi ölənin hələ soyumamış əlindən götürdü; meyiti – açıq boz şinelli polkovniki isə, dirək dığırladan kimi, ayaqları ilə itələyə-itələyə qutuların yaxınlığına gətirdilər; bundan sonra pilləkən başında camaat daha da qaynaşdı, növbə üstündə dava-dalaş daha da qızışdı; səsləri tutulmuş, qəzəbləri artmış qaçqınlar daha da şiddətlə ulaşmağa başladılar.

Axırıncı gəmi yırğalana-yırğalana körpüdən aralandıqda izdiham arasında qadın hönkürtüləri, özündən gedənlərin fəryadı, söyüşlər eşidildi.

Gəminin qısa, elə bil yorğun fiti yenicə kəsilmişdi ki, başında tülkü dərisindən qulaqlı papaq olan bir cavan kalmık suya tullandı, gəminin ardınca üzdü.

Kazaklardan biri köksünü ötürərək dedi:

– Ona bax, davam gətirmədi!

Qriqori ilə yanaşı durmuş bir başqa kazak dilləndi:

– Görünür, burada qalması qətiyyən mümkün deyil. Deməli, bu adam qırmızılara çox sitəmlər vermişdir...

Qriqori dişlərini bir-birinə qıcayaraq, suda üzən kalmıka baxırdı. Üzən oğlanın qolları yavaş-yavaş boşalır, çiyinləri get-gedə suya batırdı. İslanmış çuxası onu aşağıya dartırdı. Dalğalar kalmıkın qonur tülkü dərisindən tikilmiş qulaqlı papağını vurub suya saldı, geriyə axıtdı, arxalıqlı bir kazak təəssüf hissi ilə dedi:

– Batacaqdır, kafir oğlu kafir!

Qriqori sərt bir hərəkətlə geriyə çevrildi, atına tərəf getdi. Proxor, atlanıb onun yanına gəlmiş Ryabçikov və Boqatıryovla qızğın söhbət edirdi. Ryabçikov Qriqorini görən kimi yəhərdə qurcuxdu, atını səbirsizliklə dəhmərləyib qışqırdı:

– Cəld ol, aradan çıxaq, Panteleviç! – Həm də Qriqorinin nə vaxt yaxınlaşacağını gözləmədi, uzaqdan qışqırdı: – Fürsət var ikən

gedək! Burada əlliyə qədər kazak yığışmışdır, əvvəlcə Gelencikə, oradan da Gürcüstana getmək fikrindəyik. Sən nə fikirdəsən?

Qriqori əllərini şinelinin ciblərinə qoyub körpüdə boş-boş bir araya yığılmış kazakları itələyə-itələyə yaxınlaşdı.

Ryabçikov atını lap onun yanına sürüb təkidlə soruşdu:

– Gedirsən, yoxsa getmirsən?

– Yox, getmirəm.

– Bir nəfər qoşun starşinası da bizə qoşulmuşdur. O bu yerlərdəki yollara yaxşı bələddir, deyir ki: "Sizi gözü yumulu lap Tiflisə qədər apararam!" Gedək, Qrişa! Oradan da türklərin yanına gedərik, hə? Canımızı bir növ xilas etməliyik, ya yox? İşin intəhası gəlib çatıbdır, amma sən bir cürsən, elə bil balıq kimi yuxulusan...

– Yox, getmirəm, – deyə Qriqori cilovu Proxordan aldı, ağır-ağır, qocalarsayağı yəhərə qalxdı, əyləşdi: – Getməyəcəyəm. Nə mənası var? Həm də bir qədər gecdir... Ora bax!

Ryabçikov dönüb geriyə baxdı, məyusluq və qəzəblə titrədi, hirsindən qılıncının qəbzəsindəki qotazı hövkələdi, çəkib qopartdı: qırmızıların zəncir xətti təpə tərəfdən axışıb gedirdi. Sement zavodu yanında pulemyotlar qızğın atəş açırdı. Zirehli qatarlardan onların üzərinə toplardan atəş açılırdı. Aslanidi dəyirmanı yaxınlığında ilk mərmi partladı.

Birdən-birə kefi açılmış və tamam qıvraqlaşmış Qriqori əmr verdi:

– Gedək nıənzilə, uşaqlar, ardımca gəlin!

Lakin Ryabçikov Qriqorinin atının cilovundan yapışdı, qorxuya düşdü:

– Lazım deyil! Gəl burada qalaq... El ilə gələn qara gün toy-bayramdır, deyərlər...

– Ay şeytan, atını sür! Qara gün nədir? Nə çərənləyirsən? – Qanı qaralmış Qriqori daha nə isə demək istədi, lakin dəniz tərəfdən gələn və göy gurultusuna bənzəyən nərilti onun səsini batırdı. Müttəfiqi olduğu Rusiya sahillərini tərk edən "Hindistan imperatoru" ingilis zirehli hərbi gəmisi dənizə çəkildi, oradan on iki düyməli toplardan bir qatar top gülləsi atdı. O, limandan yola çıxmış gəmiləri qoruyaraq qırmızılarla yaşılların lap şəhərin kənarına çatmış zəncir xətlərinə atəş açır, sonra da qırmızıların batareyalarının görünməyə başladığı yeri – aşırımın belini güllələyirdi. İngilis

mərmiləri, körpüdə bir-birinin böyrünə qısılıb bir araya yığışmış kazakların başı üzərindən ulaya-ulaya keçirdi.

Boqatıryov atının cilovunu möhkəm dartdı, vahimələnib dal ayaqları üzərinə çökən atının başını zorla saxlayır, açılan top atəşi uğultusu arasından qışqırırdı:

– Bu ingilis topları nə yaman ulaşırlar! Onlar qırmızıları hədər yerə qəzəbləndirirlər! Atdıqları bu güllələrin faydası yoxdur, boş haraydır, vəssalam...

– Qoy qəzəbləndirsinlər! İndi bunun bizim üçün heç bir fərqi yoxdur, – deyə Qriqori gülümsünüb atını tərpətdi, küçə ilə sürdü.

Atlarını çaparaq səyirdən altı atlı qılınclarını sıyırmış halda tindən onun qabağına çıxdı. Öndə gələn atlının döşündəki qumaş lent çiyələk kimi qızarırdı.

SƏKKİZİNCİ HİSSƏ

I

İki gün cənubdan isti yel əsdi. Çöldə axırıncı qar da əridi. Köpüklənə-köpüklənə axan sel sularının şırıltısı kəsildi, çayların dövranı getdi. Üçüncü gün dan yeri qızaranda külək kəsildi, çöl üzərinə qalın duman çökdü, bildirki şiyav kollarının üstü gümüşü şehlə bəzəndi, təpələr, dərələr, stanitsalar, kilsələrin zəng qüllələrinin başları, göylərə ucalmış ehramvarı qovaqların zirvələri gözgözü görməyən duman içində görünməz oldu. Geniş Don düzlərində mavi bir bahar başlandı.

Aksinya bir dumanlı gündə, səhərçağı sağaldıqdan sonra ilk dəfə artırmaya çıxdı, təravətli bahar havasının məstedici şirinliyindən məst olaraq xeyli vaxt orada qaldı. O, ürək bulanmasını və baş gicəllənməsini dəf edərək bağdakı su quyusunun yanına gəldi, vedrəni yerə qoydu, quyu səkisinin kənarında oturdu.

Dünya ona indi başqa cür, füsunkar, cavanlaşmış və gözəlləşmiş görünürdü. O, parıldayan gözləri ilə həyəcanla ətrafını seyr edir, uşaq kimi paltarının büzmələrini əlləşdirirdi. Dumanlar ağuşundakı ənginlik, kökləri tamam su içində qalmış alma ağacları, islanmış çəpər, ondan o yanda isə yol, yolda suların dərinə saldığı köhnə təkər izləri – bütün bunlar Aksinyaya son dərəcə gözəl görünürdü; hər şey günəş nuru çilənmiş kimi qəliz və zərif boyalarla canlanırdı.

Lacivərdi səmanın dumanlar arasından boylanan kiçik bir parçası, soyuq maviliyi ilə Aksinyanın gözlərini qamaşdırırdı; çürümüş saman və qarı ərimiş qaratorpaq iyi o qədər tanış və xoş idi ki, Aksinya dərindən köksünü ötürdü və dodaqlarının ucu ilə qımışdı; duman içindəki çölün harasında isə ötən torağayın adi mahnısı onda acısını dərk etmədiyi bir kədər doğurdu. Onun bu qürbət eldə eşitdiyi mahnı qəlbini qapı toxmağı kimi tez-tez döyündürdü, gözlərindən iki damla yaş çıxartdı...

Həyata bir qədər də qayıtmasından qayğısızcasına həzz alan Aksinya, hər şeyə toxunmaq, hər şeyi seyrə dalmaq kimi qüvvətli bir arzu duyurdu. İstəyirdi ki, nəmişlikdən qaralmış qarağat kolunu

qurdalasın; yanağını üstü göyümsov məxməri pərdə çəkilmiş kimi görünən alma budağına söykəsin; dağılmış çəpərin üstündən hoppanıb küçəyə düşmək, palçığın içi ilə yerimək, hara gəldi ora ilə getmək, geniş dərənin qaşında əfsanəvi yaşıllığı uzaqlardakı dumanlarla qovuşmuş payızlıq zəmilərə qədər getmək istəyirdi...

Aksinya bir neçə günü bu gün-sabah Qriqori gələr ümidi ilə intizar içində keçindi, lakin sonra ev sahibinin yanına gəlmiş qonşulardan öyrəndi ki, hələ müharibə qurtarmamışdır, kazaklardan bir çoxu Novorossiyskdən dənizlə Krıma çəkilmişdir, yerdə qalanı isə Qızıl Ordu sıralarına və mədənlərə getmişdir.

Həftənin sonunda Aksinya evinə getməyi qəti qərara aldı, bu yandan da tezliklə ona yol yoldaşı tapıldı. Günlərin birində axşamçağı, qapını döymədən təknəli balaca bir qoca içəri girdi. O kirimişcə baş əydi, əyninə yekə olan, hər tərəfi kirli, tikiş yerləri sökülmüş ingilis şinelinin düymələrini açdı.

Çağırılmamış qonağı təəccüblə süzən ev sahibi ondan soruşdu:

– Ay Allah bəndəsi, bu nədir, salam verməyə-verməyə bizimlə yaşamağa hazırlaşırsan?

Qoca cəld şinelini soyundu, kandarda çırpdı, ehmalca gətirib çəngəldən asdı və qısa vurulmuş ağ saqqalını sığalladıqdan sonra gülümsəyib dedi:

– Ay mehriban kişi, səni and verirəm İsaya, məni bağışla, neyləyim ki, zəmanə bizi belə alışdırıbdır: əvvəlcə paltarını soyun, sonra gecələmək üçün icazə istə, yoxsa səni heç kəs içəri buraxmaz. Məxluq indi çox kobudlaşmışdır, qonaq gələndə üz göstərmirlər...

Ev sahibi bir qədər mülayimləşərək dedi:

– Bəs səni harada yerləşdirəcəyik? Özün də görürsən ki, yerimiz darısqaldır.

– Mənə bir balaca yer olsa kifayət edər. Bax, lap elə bu qapının ağzında qıvrılaraq yataram.

Ev sahibəsi maraqlandı:

– Bəs sən kimsən, ay baba? Qaçqınsan?

– Bax, o dediklərindənəm, qaçqınam. Qaçdım, qaçdım, düz dəryanın kənarına çatana qədər qaçdım, qaçmaqdan bərk yorulmuşam... – deyə söhbətcil qoca cavab verdi, astanada çömeltmə oturdu.

Ev sahibi sorğu-sualını davam etdirib dedi:

– Axı, kimsən? Haralısan?

Qoca cibindən yekə bir dərzi qayçısı çıxartdı, əlində fırlatdı, bayaqkı kimi yenə də gülümsəyərək dedi:

– Mənim rütbəmi göstərən sənəd budur, bunu da özümlə götürüb düz Novorossiyskdən gəlirəm, haralı olduğumu bilmək istəyirsənsə, çox uzaqdanam, Veşenskaya stanitsasından da o yandanam.

Aksinya şadlığından qıpqırmızı oldu, dedi:

– Mən də Veşenskaya tərəfdənəm, babacan.

– Doğrudanmı, ay qız! – deyə qoca da səsləndi. – Bir baxın öz yerlimiz olan qıza harada rast gəlmək nəsib imiş! Amma indiki zəmanədə belə şeylər heç də təəccüblü deyildir: biz bu saat yəhudilər kimiyik, dünyanın hər tərəfinə səpələnmişik, Kubanda indi beladir: iti vurursan, donlu kazak olduğu aşkara çıxır. Bizim adamlar özlərini hər yerə təpmişdir, əllərindən tərpənmək mümkün deyil, yerə quylananların sayı isə bundan çoxdur. Bu geriyə çəkilmə zamanı mən, ay Allahın mehriban bəndələri, nə desəniz görmüşəm. İnsanların necə zillət çəkdiyini dillə söyləmək qeyri-mümkündür! Srağagün stansiyada idim, bir eynəkli nəcib qadın da mənimlə yanaşı oturmuşdu, üstündə yerişən bitlərə tamaşa edirdi. Bitlər onun üstündə piyada qoşun kimi yeriyirdi. Qadın bitləri bir-bir barmaqları ilə götürüb atır, özü də üz-gözünü elə turşudurdu, o qədər iyrənirdi ki, elə bil canına qor doldururdular! Halbuki ürəyi sərt olan bir başqası adam öldürür, amma heç üz-gözünü də turşutmur, ağzı-burnu da əyilmir. Mənim gözlərimin qarşısında bir qoçaq oğlan üç nəfər kalmıkı doğradı, sonra isə qılıncının qanını atının yalına sürtərək təmizlədi, bir papiros çıxartdı, yandırıb çəkdi, atını yanıma sürüb soruşdu: "Bu nədir, baba, gözlərini niyə bərəltmisən? İstəyirsən sənin də boynunu vurum?" "Nə danışırsan, – dedim, – oğul, Allahın yoxdurmu? Sən mənim boynumu vursan, bəs mən onda çörəyi nə cür çeynərəm?" Güldü, məndən uzaqlaşdı.

Ev sahibi mənalı bir şəkildə haşiyə çıxdı:

– Adam öldürməyə vərdiş eləmiş elə şəxslər var ki, onların əlində adam öldürmək bit əzişdirməkdən də asandır.

– Doğru sözdür, – deyə qonaq təsdiq elədi. – İnsan dediyimiz heyvan deyil, hər şeyə öyrəşir. Mən də həmin qadından soruşdum ki: "Siz kimsiniz? Zahiri görkəminizdən sadə adamlara oxşamırsınız". Qadın üzümə baxdı, gözlərindən sel kimi yaş axdı. "General-mayor Qreçixinin arvadıyam" dedi. Öz aləmimdə fikirləşdim: generala, özü də

mayoruna bax, arvadına bax, amma üstündəki bit qotur pişiyin bədənindəki birədən də çoxdur! Odur ki, dedim: "Siz, xanım, bağışlayın, üstünüzdəki bitləri, həşəratı qırmağa başlasanız bunları bayrama qədər ancaq qırıb qurtararsınız. Dırnaqlarınız da tamam qırılıb tökülər. Siz onların hamısını birdən qırın!" Soruşdu ki, "Necə yəni birdən". Mən də ona təhərini öyrətdim. "Paltarınızı soyunun, dedim, bərk yerə sərin, butulkanı götürüb əzişdirin". Baxdım ki, general arvadı əkildi, suvuran maşının arxasına keçdi, şüşəsi yaşıl bir butulka tapıb köynəyinin üstündə dığırladır, həşəratı elə qırır, elə səliqə ilə iş görür ki, elə bil həmişə bu işlə məşğul olmuşdur! Mən ona xeyli həvəslə tamaşa elədim və ürəyimdə dedim: Allahın büsatına bax, nəcib adamların da üstünə cür-cücü buraxmış, qoy demiş, onlar ağaların da şirin qanını sorsunlar; həmişə zəhmət adamlarının qanını sormalı deyildirlər ki... Allah dediyimiz uşaq deyil ha! O nə elədiyini yaxşı bilir. Bəzən də insanlara qarşı o qədər düzgün sərəncamlar verir ki, bundan yaxşısı insanın xəyalına gələ bilməz.

Şam elədikdən sonra yatmağa hazırlaşdıqda, o, Aksinyadan soruşdu:

– Ay həmyerli qızım, hələ burada çoxmu qonaq qalacaqsan?

– Evimizə getməyə hazırlaşıram, babacan.

– Yaxşı, onda elə mənimlə birlikdə gedərsən, yolda darıxmarıq.

Aksinya bu təklifə həvəslə razı oldu; səhər ertə ikən ev sahibləri ilə vidalaşdı, çölün bir bucağında yerləşmiş Novo-Mixaylovsk qəsəbəsindən qoca ilə birlikdə yola çıxdı.

On iki gün yol gedəndən sonra gecə Milyutinskaya stanitsasına gəldilər. Varlı mülkünə oxşayan böyük bir evdə gecələməyə icazə aldılar. Səhər Aksinyanın yol yoldaşı bir həftə stanitsada qalmağı, sürtülməkdən yara olmuş ayaqlarını sağaltmağı qərara aldı. Qoca daha yol gedə bilmirdi. Həmin evdə onun üçün dərzilik işləri də tapıldı, öz peşəsindən çoxdan aralandığı üçün darıxmış qoca, tez pəncərə qarşısında özünə yer düzəltdi, qayçısını və iplə bağlanmış eynəyini çıxartdı, köhnə paltarı cəld sökməyə başladı.

Çoxdanışan və kefcil qoca Aksinya ilə vidalaşanda ona xeyir-dua verdi, həm də birdən-birə kövrəldi, lakin dərhal gözünün yaşını sildi, adi qaydası ilə zarafatyana dedi:

– Ehtiyac insan üçün doğma ana deyil, amma adamları doğma edir. Budur, səndən ayrıldığıma heyifsilənirəm... Neynək, çarə

yoxdur, özün təkcə get, qızım, bələdçinin ayaqları tamam kardan düşmüşdür, görünür ki, ona harada isə arpa çörəyi veriblər... Onu da deyim ki, biz səninlə birlikdə xeyli yol gəlmişik, yetmiş yaşlı bir kişi kimi bu məndən ötrü hələ bir az da çoxdur. Təsadüfən rast gəlsən mənim qarıma de ki, sənin göy göyərçinin sağ-salamatdır; həvəngdəstə ilə də döydülər, ayaqlar altında da tapdaladılar, amma yenə də diridir, yolüstü yaxşı adamlar üçün şalvar tikir, evə nə vaxt təşrif gətirəcəyi hələ məlum deyil... Elə bu cür də de: qoca axmaq, deməli, geriyə çəkilmə işini qurtarıb, indi də evə doğru hücuma keçmişdir, nə vaxt sobanın qırağına çatacağını bilmir...

Aksinya bir neçə gün daha yol gəldi. Bokovskaya stanitsasından Tatarskiyə qədər həmin yolla gedən arabaya mindi. Axşamdan xeyli keçmiş həyətinin taybatay açıq qapısından içəri girdi, Melexovların evinə baxdı və birdən-birə boğazına tıxanmış hönkürtüdən nəfəsi kəsildi. Bomboş qalmış, insan hənirtisi kəsilmiş mətbəxdə oturdu, uzun zamandan bəri sinəsinə dolmuş göz yaşlarını axıtdı, doyunca ağlayıb ürəyini boşaltdı, sonra su gətirmək üçün çaya getdi, sobanı qaladı, stolun arxasında oturdu, əllərini dizlərinə söykədi. O qədər fikrə getmişdi ki, qapının cırıltı ilə necə açıldığını eşitmədi, İliniçna içəri girib onunla danışanda ayıldı:

– Hə, xoş gördük, a qonşu! Xeyli vaxt olar ki, qürbət ellərdəsən, səsin-sorağın gəlmir...

Aksinya qorxmuş halda onun üzünə baxdı, ayağa qalxdı.

– Niyə üzümə belə zənn ilə baxırsan, dinmirsən? Yoxsa pis xəbərlə gəlmisən? – İliniçna yavaş-yavaş stola yaxınlaşdı, taxtın kənarında oturdu, diqqət dolu baxışlarını Aksinyanın üzündən çəkmədi.

Aksinya özünü itirmiş halda danışdı:

– Yox, məndə nə xəbər ola bilər... Mən sizin gələcəyinizi gözləmirdim, fikrə getmişdim, içəriyə girdiyinizi də eşitmədim...

– Yamanca arıqlamısan, burnunu sıxsalar, canın çıxar...

– Yatalaq naxoşluğuna tutulmuşdum...

– Bizim Qriqoridən nə xəbər var... Necədir... Sən ondan harada ayrıldın? Sağ-salamatdırmı?

Aksinya əhvalatı müxtəsərcə nağıl elədi. İliniçna bir kəlmə belə olsun danışmadan onu axıradək dinlədi, sonra soruşdu:

– Səni kənddə qoyub yola düşəndə özü xəstə deyildi ki?

– Yox, xəstə deyildi.

– Bundan sonra sən onun haqqında heç nə eşitməmisən?

– Yox.

İliniçna rahat nəfəs aldı:

– Hə, yaxşı söz danışdığına görə sağ ol. Amma burada, xutorda onun barəsində hərə bir söz danışır...

– Nə deyirlər ki? – deyə Aksinya yavaşca soruşdu.

– Elə-belə, boş-boş sözlərdir... hamısını deməyə dəyməz. Bizim yerlilərdən qayıdıb gələn yalnız Vanka Besxlebnovdur. O, Qrişanı Yekaterinodarda xəstə ikən görmüşdür, başqalarının sözünə inanmıram!

– Bəs nə deyirlər, nənəcan?

– Belə bir söz eşitmişik, Singinsk xutoru sakini bir balaca kazak söyləyirmiş ki, guya Qrişanı qırmızılar Novorossiysk şəhərində öldürüblər. Ana ürəyi, bilirsən də, belə xəbəri eşidəndə rahat dura bilməz, mən də piyada düz həmin Singinsk xutoruna getdim, həmin balaca kazakı tapdım. Belə söz dediyini boynundan atdı. Mən, dedi, Qrişanı nə görmüşəm, nə də ondan bir xəbər eşitmişəm. Bir dəfə də belə bir şayiə yayıldı ki, onu həbsə alıblar, orada yatalaqdan ölmüşdür...

İliniçna başını aşağı dikdi, düyünlü, qırışmış əllərinə tamaşa edərək, xeyli vaxt danışmadı. Qarının şiş üzü sakit idi, dodaqları bir-birinə kip qısılmışdı, lakin birdən necə oldusa üzünün əsmər əzələlərinə qızartı gəldi, göz qapaqları xəfifcə səyridi. O od kimi alışıb-yanan gözlərini Aksinyanın üzünə zillədi, xırıltılı bir səslə dedi:

– Mən bunlara inanmıram! Bu mümkün deyil ki, mənim sonuncu oğlum da əlimdən getsin! Elə bir günahım da yoxdur ki, Allah mənə cəza versin... ömrümün axırına da az qalmışdır... Bundan sonra çox az yaşayacağam, onsuz da dərdim-çorum həmişə xirtdəkdən olmuşdur!.. Qrişa sağdır! Ürəyim deyir ki, sakit ol, deməli, mənim əziz balam sağdır!

Aksinya kirimişcə üzünü kənara çevirdi.

Mətbəxə uzun sükut çökdü, sonra yel əsdi, dəhlizin qapısı açıldı; Donun o tayında sel sularının qovaqlar arasında necə boğuq səslə çağladığı, çöl qazlarının axmazlarda səksəkə içində səsləşdikləri aydınca eşidildi.

Aksinya qapını örtdü, dalını sobaya söykədi. Sakitcə dedi:

– Siz ondan nigaran olmayın, nənəcan. O cür adama zərər toxuna bilərmi? O möhkəmdir, elə bil dəmirdəndir. Belələri ölmür. Ayazlı, insanın sümüklərinə qədər işləyən şaxtalı günlərdə o yol uzunu əlcəksiz idi...

İliniçna yorğun-yorğun soruşdu:

– Uşaqcığazlarını heç yada salırdımı?

– Sizi də yadına salırdı, uşaqlarını da. Onlar sağ-salamatdırmı?

– Sağ-salamatdırlar, onlara nə olasıdır ki? Bizim Panteley Prokofyeviç isə geri çəkiləndə ölmüşdür. Biz indi tək qalmışıq.

Aksinya kirimişcə xaç çevirdi; ürəyində qarının öz ərinin ölüm xəbərini belə sakitcə bildirməsinə təəccüb elədi.

İliniçna bir əlini stola dirəyərək yerindən ağır-ağır qalxdı:

– Çox oturdum, hava qaralır.

– Oturun, nənəcan.

– Getmək lazımdır, Dunyaşka təkdir. – O, yaylığını düzəltdi, mətbəxə göz gəzdirib üz-gözünü qırışdırdı: – Sobadan tüstü çıxır. Evdən çıxıb gedəndə gərək burada qalmağa bir adam qoyaydın. Di salamat qal, – qapının dəstəyindən yapışdıqda, dönüb dala baxmadan dedi: – Evini-eşiyini sahmanlayandan sonra bizə də gəl, əhval tut. Bəlkə Qriqori haqqında bir şey eşitdin, bizə də de.

O gündən Melexovlar ailəsi ilə Aksinya arasındakı münasibət kökündən dəyişdi. Qriqorinin həyatı ilə əlaqədar olan təşviş onları bir növ yaxınlaşdırdı və doğma elədi. Ertəsi günü səhər Dunyaşka Aksinyanın həyətə çıxdığını görüb onu çağırdı, çəpərə yaxınlaşdı, Aksinyanın arıqlamış çiyinlərini qucaqladı, mehriban-mehriban üzünə gülümsündü:

– Aksinyacan, yaman arıqlamısan! Bircə sümüklərin qalmışdır.

– Belə yaşamaqdan arıqlarsan də, – deyə Aksinya da gülümsədi, qızın çiçəklənən kamil gözəlliyinə, qırmızı yanaqlarına daxili bir qibtə hissi ilə tamaşa elədi.

Dunyaşka nədənsə yavaşca, pıçıltı ilə soruşdu:

– Dünən anam sizə gəlmişdi?

– Gəlmişdi.

– Mən bildim ki, sənin yanına gəlmişdir. Qriqorini soruşdu?

– Hə.

– Vay-şivən salmadı ki?

– Yox, o möhkəm qarıdır.

Dunyaşka tam etimadla Aksinyaya baxıb dedi:

– Vay-şivən salsaydı, daha yaxşı olardı, halı yüngülləşərdi. Bilirsən nə var, Aksinya, anam bu qışdan bəri əcaibləşmişdir, əvvəllər gördüyün adam deyil. Atamın ölüm xəbərini eşitdi, elə bilirdim ki, ürəyi partlayacaqdır, yaman qorxuya düşdüm, amma gördüm gözlərindən bir damcı da yaş çıxmadı. Elə bircə bunu dedi: "Allah rəhmət eləsin, mənim əzizimin canı cəfalardan qurtardı..." Düz axşamadək heç kəslə danışmadı. Mən onun o tərəfinə keçdim, bu tərəfinə keçdim, nə qədər əlləşdimsə, məni geriyə itələdi, dinmədi. O günü mən yaman səksəkələndim! Axşamüstü mal-qaranın altını təmizlədim, içəri gəlib soruşdum: "Anacan, axşama yemək üçün bir şey bişirəcəyikmi?" Ürəyi toxtadı, danışmağa başladı... – Dunyaşka ah çəkdi, xəyala dalmış halda Aksinyanın çiyinləri üzərindən kənara baxaraq soruşdu: – Bizim Qriqori ölmüşdür? Bu çərənləmələr gerçəkdir?

– Bilmirəm, qadan alım.

Dunyaşka Aksinyanın üzünə yandan, lakin zənn ilə baxıb köksünü daha da dərindən ötürdü:

– Anam onun xiffətini eləməkdən, demək olar, tamam üzülmüşdür! Adını çəkəndə də mütləq belə deyir: "Mənim kiçiyim". Buna qətiyyən inanmır ki, oğlu ölmüşdür. Onu da deyim ki, Aksinyacan, anam bilsə ki, oğlu gerçəkdən ölmüşdür, onun özü də dərddən çatlayıb ölər. Onun demək olar ki, canı getmiş, bircə ilişiyi qalmışdır, bu da Qriqoridir. Anam hətta nəvələrinə qarşı da bir növ biganə olmuşdur, işləyəndə də, götürdüyü hər şey əlindən düşür... Sən özün də fikirləş, bircə ilin ərzində bizim ailədən dörd adam yox olmuşdur.

Qonşularının müsibətinə ürəkdən acıyan Aksinya başını çəpərin üstündən əydi, Dunyaşkanı bağrına basdı, yanaqlarından marçamarç öpdü.

– Ananın başını bir şeylə qat, mənim qəşəngim, çox qüssələnməyə qoyma.

– Ax, onun başını nə ilə qatım? – Dunyaşka yaylığının ucu ilə gözünün yaşını sildi, xahiş elədi: – Sən özün bizə gəl, onunla söhbət elə, onda onun əhvalı yüngülləşər. Daha sənin bizdən kənar gəzməyinin mənası yoxdur!

– Fürsət tapıb gələrəm, mütləq gələrəm!

– Mən sabah, güman ki, çölə gedəcəyəm. Anikuşkanın arvadı ilə hərəmiz bir at qoşub heç olmasa iki desyatin buğda əkmək istəyirik. Sən taxıl əkmək fikrində deyilsən ki?

Aksinya könülsüz gülümsədi:

– Heç mənim kimi əkinçi olar? Əkməyə bir şey də yoxdur, əkməyin mənası da yoxdur. Tək canıma mənə az şey gərəkdir, əkinsiz də dolanaram.

– Ərin Stepandan nə xəbər var?

– Bir xəbər yoxdur, – deyə Aksinya saymazyana cavab verdi, özü də gözləmədiyi halda belə dedi: – Mən heç o qədər də onun dərdini çəkən deyiləm. – Bunu birdən çaşaraq etiraf etməsindən utandı, xəcalətini pərdələmək üçün tez dedi: – Salamat ol, ay qız, mən də gedim, ev-eşikdə əlləşim.

Dunyaşka Aksinyanın karıxdığını gördüsə də özünü o yerə qoymadı, kənara doğru baxıb dedi:

– Bir az dayan, getmə, gör nə deyirəm, sən işdə bizə kömək edərsənmi? Torpaq quruyur, qorxuram, biz işin öhdəsindən gələ bilməyək, xutorda isə vur-tut iki kişi qalıb, ikisi də şikəst.

Aksinya həvəslə razılıq verdi, bundan çox şad olmuş Dunyaşka hazırlaşmağa getdi.

Dunyaşka səhərdən çölə getməyə hazırlaşırdı: Anikuşkanın dul arvadı ilə toxumu ələmiş, birtəhər dırmığı sahmanlamış, arabanın təkərlərini yağlamış, toxumsəpən maşını səliqəyə salmışdı. Axşamüstü isə yaylığının arasına xeyli arıtlanmış buğda doldurdu, qəbiristana getdi, səhərçağı quşlar uçub doğma qəbirlərin üstünə gəlsinlər deyə Petronun, Natalyanın, Daryanın qəbirləri üstünə səpdi. O, uşaq sadəlövhlüyü ilə buna inanırdı ki, ölülər quşların şən civiltilərini eşidəcək, buna şad olacaqlar...

Don çayı vadisində yalnız dan yerinin ağarmasına bir az qalanda sakitlik olurdu. Sellərin altında qalmış meşədə su boğuq şırıltı ilə axıb gedir, açıq yaşıl gövdəli qovaqların gövdələrini yuyur, palıd kollarının, vələs pöhrənliklərinin sudan yuxarıda qalmış şüylərini həzin-həzin yırğalayırdı; suyu çoxalmış göllərdə axardan qəddi əyilmiş qamışların başları xışıldayırdı; seldən ucqar axmazlar əmələ gəlmiş, suyun sehrlənmiş kimi sakitcə durduğu, sinəsində ulduzlarla

dolu səmanın alaqaranlığını əks etdirən guşələrdə, çöl qazlarının səsləşməsi güclə eşidilir, çay yaşılbaşları yuxulu kimi qığıldaşır, hərdənbir də sakitlikdə gecələmiş köçəri qu quşlarının gümüş kimi cingiltili çıxan səsləri yüksəlirdi. Bəzən də asudəlikdə kökəlmiş bir balıq qaranlığın qoynunda suyu şappıldadırdı; üstündə qızılı xallar görünən suda zəif dalğa əmələ gəlir, onu xeyli uzaqlara qədər ləpələndirir, ürküdülmüş bir quşun xəbərdarlıq üçün qığıldadığı eşidilir və Don vadisi təzədən sükuta qərq olurdu. Səhər açılan kimi dağların tabaşirli ətəkləri üzərinə şəfəqdən al bir tor sərildikdə isə, aşağılardan yel əsməyə başlayırdı. Bu qatı və güclü külək suyun axarı əksinə əsirdi. Donda adam hündürlüyündə dalğalar oynaşır, meşədə su dəlicəsinə hayqırır, ağaclar zarıya-zarıya yırğalanırdı. Külək səhərdən axşamadək vıyıldayır, ancaq gecəyarısından sonra sakitləşirdi. Bir neçə gün havalar bu cür keçdi.

Çöl üzərinə yasəməni bir duman çökdü. Torpaq cadar-cadar oldu, otlar daha boy atmadı, payız şumları arasında çatlaqlar əmələ gəldi. Saatlar gəlib keçdikcə yer qaysaqlanırdı, amma Tatarsk xutorunun əkin yerlərində demək olar ki, bir nəfər də olsun adam görünmürdü. Xutorda vur-tut bir-iki qoca kişi qalmışdı, geriyə çəkilib gedənlərdən isə qayıdıb gələnlər işləməyə qadir olmayan, əl-ayağını dov aparmış, ya da naxoşlamış kazaklar idi. Küçələrində insan görünməyən xutorda külək toz qaldırır, evlərin pəncərə taxtalarını bir-birinə çırpıb şaqqıltı salır, mərəklərin damlarındakı küləşi göyə sovururdu. Qocalar deyirdilər: "Bu il taxılsız qalacağıq. Əkin yerlərində işləyənlər təkcə arvadlardır, onların da üç nəfərindən biri taxıl əkir. Ölü yer isə məhsul vermir..."

Çölə işə getdikləri günün sabahı, günəş batmağa başlayanda Aksinya öküzləri göldə sulamağa apardı. Obnizovun on yaşında olan balaca oğlu yəhərli atın yüyənindən yapışaraq, bəndin yanında dayanmışdı. Su içmiş at dodaqlarını çeynəyir, boz məxməri andıran ağzından-burnundan su damcılayıb yerə tökülürdü, atdan düşmüş oğlan uşağı da əylənirdi: suya quru torpaq parçaları tullayır, bunun suyu necə ləpələndirdiyinə tamaşa edirdi.

Aksinya ondan soruşdu:

– Hara hazırlaşırsan, Vanyuşka?

– Anama yemək gətirmişdim.

– Hə, xutorda nə var, nə yox?

– Bir şey yoxdur. Gerasim baba dünən gecə tor atıb çox zırpı bir sazan tutmuşdur. Bir də geriyə çəkilmiş Fyodor Melnikov qayıdıb gəlmişdir.

Oğlan ayaq barmaqlarının ucunu yerə dirədi, yüyəni atın ağzına keçirdi, yalının bir çəngəsindən yapışdı, görünməmiş bir qıvraqlıqla yəhərin üstünə sıçradı. Gölün qırağından atı ağıllı-başlı kişi kimi yavaş sürdü, lakin bir az keçəndən sonra, qayıdıb Aksinyaya baxdı və atı elə bərk səyirtdi ki, rəngi solmuş mavi göy köynəyi qovuq kimi şişdi.

Öküzlər sudan doyunca içənə qədər Aksinya bəndin qırağında uzandı və oradaca xutora getmək qərarına gəldi. Melnikov xidmətdə çox olmuş bir kişi idi. Qriqorinin müqəddəratından o hər halda bir şey bilməli idi. Aksinya öküzləri qovub düşərgəyə gətirdi, Dunyaşkaya dedi:

– Xutora gedirəm, səhər tezdən gələcəyəm.

– İşin var?

– İşim var.

Ertəsi günün səhəri Aksinya xutordan qayıtdı. O əlindəki çubuğu qayğısızcasına oynada-oynada öküzləri qoşan Dunyaşkaya yaxınlaşdı, lakin qaşları çatılmışdı, dodaqlarının kənarlarında qüssədən doğan qırışlar görünürdü.

– Melnikov Fyodor gəlmişdir. Yanına getmişdim, Qriqorini soruşdum. Heç nə bilmir, – deyə Aksinya müxtəsərcə danışdı və sərt bir hərəkətlə geriyə çevrildi, toxumsəpən maşına tərəf getdi.

Səpindən sonra Aksinya da təsərrüfatını sahmanlamağa girişdi: bostanda bir az qarpız əkdi, evi suvadı, üstündən də ağartdı, küləşin qalığı ilə, bacardığı qədər, mərəyin damının üstünü döşədi. Başını işlə qarışdırır, günlər bir-bir gəlib keçirdi, lakin Qriqorinin həyatından nigarançılıq bir an belə olsun Aksinyanı tərk etmirdi. O Stepanı həvəssiz xatırlayırdı və nədənsə ona elə gəlirdi ki, Stepan bir də xutora qayıtmayacaqdır, amma xutora bir kazak gələn kimi, Aksinya əvvəlcə soruşurdu: "Mənim ərim Stepanı görməmisiniz ki?", sonra isə ehtiyatla, dolayı yolla Qriqoridən xəbər tutmağa çalışırdı. Xutorda onunla Qriqorinin yaxınlığı hamıya məlum idi. Hətta qeybət qırmağı iş-peşə eləmiş arvadlar da onlardan danışmağı boşlamışdılar; bununla belə Aksinya öz duyğularını etiraf etməkdən utanırdı; nadir hallarda, əsgərlikdən gəlmiş adam Qriqorinin adını çəkmədikdə,

Aksinya gözlərini qıyır və aşkarca xəcalət çəkərək, sual verirdi: "Bizim qonşumuza, Qriqori Panteleviçə rast gəlməmisiniz ki? Anası yaman xiffət eləyir, yazıq quruyub çöpə dönmüşdür..."

Don Ordusu Novorossiyskdə təslim olandan sonra xutor sakinlərindən heç biri nə Qriqorini görmüşdü, nə də Stepanı. Yalnız iyunun axırında, Kolundayevski xutorundan Stepanla birlikdə xidmətdə olmuş bir kazak, Donun o tayına addamış kişi, Aksinyanın yanına gəldi. Həmin şəxs ona belə məlumat verdi:

– Lap gerçək sözümdür, Stepan Krıma yola düşdü. Onun gəmiyə mindiyini mən öz gözümlə gördüm. Danışmaq mümkün olmadı. Elə bərk basabas idi ki, adamlar bir-birinin başından keçirdilər. – Qriqorini soruşanda başdansovdu cavab verdi: – Ona körpüdə rast gəldim, poqonlu idi, amma sonra heç yerdə görmədim. Zabitlərdən bir çoxunu Moskvaya apardılar, kim bilir indi haradadır...

Bir həftədən sonra da yaralanmış Proxor Zıkov Tatarskiyə gəldi. Onu Millerovo stansiyasından biyar arabasında gətirdilər. Aksinya bu xəbəri eşidən kimi, sağdığı inəyi yarımçıq qoydu, buzovunu altına buraxdı və atüstü yaylığını başına bağlayaraq yeyinlədi, demək olar, Zıkovun həyətinə qaça-qaça getdi. "Proxor ondan xəbər bilir; o, mütləq xəbər bilməlidir! Birdən desə ki, Qrişa sağ deyil, onda necə olacaq? Onda mən nə edərəm?" Aksinya yol uzunu belə düşünür, dəqiqələr gəlib keçdikcə addımlarını yavaşıdır, əlini ürəyinin başına basır, qara xəbər eşidəcəyindən dəhşətlənirdi.

Proxor onu gülə-gülə, sol qolunun kəsiyini dalında gizlədərək dəhlizdə qarşıladı:

– Xoş gördük, ay dost! Xoş gördük! Səni sağ-salamat gördüyümə şadam! Amma biz elə bilirdik ki, sən o qəsəbədə çoxdan o dünyaya getmisən. Oh, aman Allah, heç bilirsən, nə qədər ağır xəstə idin... hə, danış, görək, bu yatalaq, yaxşı şeydirmi? Məni də, necə ki, görürsən, ağ polyaklar bu hala salıblar, onların canı yansın! – Proxor üst köynəyinin ucu büzməli, içi boş qolunu ona göstərdi. – Arvad görən kimi ağladı, vay-şivən saldı, mən də ona: "Ay axmaq, dedim, haray-dad salma, başqalarının başını qopardırlar, yenə də incimir, qol nə artıq şeydir ki, ağlayırsan! İndi taxtadan qol qayırırlar. Elə qol yaxşıdır, soyuqdan qorxmaz, kəssən qanı çıxmaz". Bircə burası fəlakətdir ki, ay qız, tək əllə iş görməyə öyrəşməmişəm. Şalvarımın qabağını düymələyə bilmirəm, vəssalam. Düz Kiyevdən

evimizə qədər şalvarımın qabağı açıq gəlmişəm. Gör nə rüsvayçılıqdır! Odur ki, sən mənim üstümdə-başımda səliqəsizlik görsən, gərək bağışlayasan... Di gəl, içəri keç, qonağımız ol. Səninlə arvad gəlincəyə qədər söhbət edək. O kafiri araq dalınca yollamışam. Əri bir qolu kəsilmiş halda evinə gəlmişdir, amma arvadın bu gəlişi keçirmək üçün, heç nəyi yoxdur. Siz arvadlar ərsiz qaldıqda həmişə beləsiniz; siz məlunlara mən incədən-incəyə yaxşı bələdəm!

– Sən bir danışsana, görək...

– Bilirəm nə deyirsən, danışacağam. Bax, tapşırdı ki, bu cür baş əyərsən, – Proxor zarafatyana Aksinyaya baş əydi, başını qaldıranda təəccüblə qaşlarını oynatdı: – Heç dəxli var! Daha niyə ağlayırsan, ay səfeh? Siz qadınlar elə bu cür qışqırıqçısınız! Adam öldürülür, ağlaşırlar, sağ-salamat olur, yenə də ağlaşırlar. Sil gözünün yaşını, sil! Ağzının-burnunun seliyi bir-birinə niyə qarışdı? Sənə deyirəm ki, sağ-salamatdır, həm də kəl kimi boynu yoğunlanıbdır. Onunla birlikdə Novorossiyskdə Budyonnı yoldaşın süvari ordusuna daxil olduq, On dördüncü diviziyaya yazıldıq. Bizim Qriqori Panteleviçə bölük, deməli çaşdım, yəni eskadron verdilər, mən də, özün bilirsən ki, onun yanından əl çəkmədim, birlikdə, səfəri yürüşlə Kiyev tərəfə yönəldik. Ay qız, bu ağ polyaklara o ki, var toy tutduq! O tərəfə gedəndə Qriqori mənə dedi: "Mən almanlara qılınc çalmışam, avstriyalıları doğramışam, doğrudanmı bu polyakların kəlləsi onlarınkından möhkəmdir? Mənə elə gəlir ki, özümüzünküləri, rusları qırmaqdan bu polyakları doğramaq daha asan olacaqdır, sən nə fikirdəsən?" – bunu dedi və mənə göz vurdu, dişlərini ağartdı. Qızıl Orduya daxil olandan bəri o tamamilə dəyişmişdir, şən və kefi kök adam olmuşdur, yabı kimi kökəlmişdir. Hə, amma aramızda bir az incikliyimiz də oldu... Mən bir gün atımı onun yanına sürüb zarafat üçün dedim: "Cənab zabit, yoldaş Melexov, dincəlmək üçün dayanmaq vaxtıdır!" Gözlərini bərəltdi, mənə dedi: "Sən, gəl, mənimlə belə zarafatlar eləmə, yoxsa axırı pis olar". Axşamüstü idi, bilmirəm nə işdən ötəri isə məni yanına çağırtdırdı, yenə də şeytan məni yoldan çıxartdı, ona "cənab zabit" dedim... O dəqiqə əlini mauzerinə atdı! Rəngi qaçdı, dümağ oldu, dişlərini canavar kimi ağartdı, dişləri də yerbəyerində, azı, güman ki, yüz dişi var. Mən qaçıb özümü atın qarnı altına saldım, oradan da əkildim. Azca qalmışdı ki, məni öldürsün. Qriqori belə dəlicinlidir.

Aksinya kəkələyərək səsləndi:

– Deməli, ola bilsin ki, o məzuniyyət də alar...

Proxor onun sözünü kəsib dedi:

– Heç belə xəyala düşmə! Deyirdi ki, keçmiş günahlarımı təmizləyincəyə qədər qulluq eləyəcəyəm. O, bunu edəcəkdir də, axmaq işlər tutmaq çətin deyil... Bir qəsəbə yaxınlığında o bizi hücuma apardı. Mənim gözlərimin qarşısında onların dörd atlısını doğradı. Axı, bu məlun solaxaydır, buna görə də düşmənə qılıncını sağdan da çalırdı, soldan da... Vuruşma qurtaranda Budyonnı özü sıraya düzülmüş süvarilər qarşısında onun əlini sıxdı, həm ona, həm də eskadrona təşəkkür elan elədi. Sənin Panteleviçin bax, belə hünər göstərir!

Aksinya tilsimlənmiş kimi onu dinləyirdi... Yalnız Melexovların küçə qapısına çatanda huşu başına gəldi. Dunyaşka dəhlizdə süd süzürdü; başını qaldırmadan soruşdu: – Sən maya dalıncamı gəlmisən? Mən sənə söz vermişdim ki, gətirərəm, amma huşumdan çıxıbdır. – Lakin Aksinyanın yaşla dolu, sevincdən parıldayan gözlərinə baxdıqda, bir kəlmə belə olsun danışmadısa da, hər şeyi anladı.

Aksinya şadlığından alışıb-yanan üzünü Dunyaşkanın çiyninə söykədi, pıçıltı ilə dedi:

– Sağdır, salamatdır... Salam-dua göndərib... Di, durma get! Anana da xəbər ver!

II

Geriyə çəkilmiş kazaklardan otuz nəfəri yay girənə qədər Tatarskiyə qayıtdı. Bunların əksəriyyəti qocalar və hərbi xidmətə getmiş yaşlı kişilər idi, amma xəstələrlə yaralıları çıxanda, bir nəfər də olsun cavan və ortayaşlı kazak yox idi. Bunların bir hissəsi Qızıl Ordu sıralarında idi, qalanı isə, Vrangel polklarının tərkibindəkilər, Krımda oturub məqam gözləyir, Don üzərinə yeni hücuma hazırlaşırdılar.

Geriyə çəkilənlərin çox hissəsi yad ellərdə qalmışdı: kimisi yatalaq naxoşluğundan ölmüş, bəziləri Kubandakı son çarpışmalarda qırılmış, bir neçəsi araba karvanından ayrı düşüb, Manıçdan o yanda çöldə-ayazda donmuşdu, iki nəfərini də qırmızılar-yaşıllar

əsir almış və itkin düşmüşdü. Tatarskda kazaklardan çox adam tələf olmuşdu. Qadınlar gərgin və səksəkəli intizar içində gün keçirir, hər dəfə, örüşdən qayıdan inəkləri gətirməyə gedəndə, uzun zaman dayanır, əllərini gözlərinin üstünə qoyub yollara baxır, axşamın sürməyi alaca qaralığı çökmüş yolla gecikmiş yolçu gəlib-gəlmədiyini bilmək istəyirdilər.

Ev sahiblərindən birisi pal-paltarı cırıq, üstünü bit basmış, arıqlamış halda evinə çatan kimi şadlıq, mənasızcasına tələş başlayırdı; kirdən bədəni qapqara olmuş kişini çimdirmək üçün su qızdırırdılar, uşaqlar bir-birinə macal vermədən dədələrinə yanaşmağa çalışır, onun hər bir hərəkətini izləyirdilər; bəxtiyarlığından özünü itirmiş ev sahibəsi isə gah yüyürüb stolun üstünə süfrə salır, gah sandıq tərəfə atılır, ərinə təzə tuman-köynək çıxarmağa tələsirdi. Tərsliyə bax ki, tuman-köynək də gözənməmiş, yamanmamış olur, ev sahibəsinin titrək barmaqları nə qədər çalışırdısa sapı iynənin gözündən keçirdə bilmirdi... Belə bəxtiyarlıq dəqiqələrində uzaqdan sahibini tanımış, düz qapının astanasına qədər onun dalınca qaçmış, əlini yalamağa başlamış həyət itinə də evə girməyi qadağan eləmirdilər; uşaqlar qabı sındırmış, südü tökmüş olsaydılar da onları danlamırdılar, hər cür bəd hərəkətlərini bağışlayırdılar... Ev sahibi çimməndən sonra paltarını geyinib qurtaran kimi daxma arvadlarla dolurdu. Hamı öz adamının müqəddəratını bilmək üçün gəlir, gələnin dediyi hər kəlməni qorxa-qorxa, maraqla eşitməyə cəhd edirdilər. Bir az da keçəndə bu qadınlardan biri həyətə çıxır, əllərini göz yaşlarından islanmış üzünə söykəyərək, küçədə kor kimi yeriyir, yolu seçə bilmir; budur, balaca evlərdən birində, artıq dul qalmış qadın ölən ərinə ağı deyir, vay-şivən salır, uşaqlar da ağlaşaraq, bir-birinə qarışır, evi matəm iniltiləri bürüyürdü. O vaxt Tatarskda insanların günü belə idi: şadlıq bir evi sevindirəndə, toxtadanda, digərini yasa batırırdı.

Ertəsi gün, üzü tərtəmiz qırxılmış ev sahibi dan yeri ağarar-ağarmaz yatağından qalxır, təsərrüfatına nəzər salır, əvvəlcə nədən başlamaq lazım gəldiyini müəyyənləşdirirdi. O, qəlyanaltı eləyən kimi işə başlayırdı. Bir də görürdün ki, budur, mərəyin çardağı altında rəndə xışıltı ilə taxta yonur, yainki balta taqqıldayır; sanki bunlar bu həyətdə gecə-gündüz işləmək, hər şeyi sazlamaq həvəsində olan kişi olduğunu xəbər verirdi. Dünən ata və ya ərin öldü xəbərini eşitmiş ailələrdə isə ev də, həyət də üzüntülü bir sükuta

qərq olurdu. Yasa batmış ana kirimişcə uzanır, bir gecədə böyümüş yeniyetmələr də onun dövrəsinə yığışaraq, bir-birinə qısılırdılar.

İliniçna yerlilərindən birisinin qayıdıb gəldiyini eşidən kimi deyirdi:

– Görəsən bizimki nə vaxt gələcəkdir? Camaat gəlir, amma bizimkindən xəbər-ətər yoxdur.

Dunyaşka dilxor olub anasına belə cavab verirdi:

– Cavan kazakları evlərinə buraxmırlar, ay ana, sən bunu niyə başa düşmürsən!

– Necə yəni evlərinə buraxmırlar! Bəs Tixon Gerasimov niyə gəlib? O, Qrişadan bir yaş kiçikdir.

– Ay ana, axı o yaralıdır!

– Onun harası yaralıdır! – deyə İliniçna etiraz edirdi. – Dünən onu dəmirçixananın yanında görmüşəm, oğlan kimi qıvraqca gəzir. Elə yaralı görünməyib.

– O yaralı idi, indi sağalmışdır.

– Bəs bizimki az yaralanıb? Bədəninin hər yeri çapıq-çapıqdır, səncə ona da sağalmaq lazım deyil?

Dunyaşka hər vasitə ilə anasına sübut eləməyə çalışırdı ki, indi Qriqorinin gələcəyinə ümid etmək olmaz, lakin İliniçnanı bir şeyə inandırmaq o qədər də asan iş deyildi. O, Dunyaşkanın üstünə çığırıb deyirdi:

– Kəs səsini, səfeh! Mən səndən az bilmirəm, ananı öyrətmək üçün sən hələ uşaqsan. Sənə deyirəm ki, o gəlməlidir, deməli gələcəkdir. Yeri, yeri mən heç səninlə danışmaq istəmirəm!

Qarı böyük bir səbirsizliklə oğlunun yolunu gözləyir və adı dilindən düşmürdü. Mişatka onun sözünə baxmayanda, itaət etməyəndə qarı o saat onu hədələyirdi: "Dayan, ay dələduz dəcəl, atan gəlsin, bunları ona deyərəm, səni yaxşıca ağıllandırar!" Pəncərə qarşısından keçən bir arabada təptəzə laydır görən kimi köksünü ötürür, hökmən belə deyirdi: "Səliqəsindən o saat məlum olur ki, sahibi evdədir, elə bil, evinin yolunu yanılıbdır..." İliniçna ömründə tütün qoxusunu sevməz və bütün papiros çəkənləri mətbəxdən eşiyə qovardı, lakin son zamanlarda o bu cəhətdən də dəyişmişdi. Bir neçə dəfə Dunyaşkaya demişdi: "Get, o Proxoru bura çağır, qoy gəlsin, bir papiros büküb çəksin, yoxsa buradan cənazə iyi gəlir. Qrişa qulluqdan evə qayıdanda evimiz yenə insan məskəni həddinə

düşəcək, burada kazak ruhu bərpa olacaqdır..." O, hər gün xörək bişirdikdə bir az artıq hazırlayır və nahardan sonra şorba qazanını sobanın içinə qoyurdu. Dunyaşkanın bunu nə üçün edirsən sualına İliniçna təəccüblə belə cavab verirdi: "Bəs nə təhər olsun? Bəlkə qulluqdakı adamımız bu gün gəldi, onda dərhal isti xörək yeyər; amma sobaya qoymasan onu qızdırınca, onu-bunu verincə vaxt keçər, gələn də, güman ki, acdır..." Dunyaşka bir gün bostandan qayıdanda gördü ki, Qriqorinin köhnə çuxası ilə qırmızı haşiyəsi solmuş furajkası mıxdan asılmışdır. Dunyaşkanın sualedici baxışları anasının üzünə zilləndi; İliniçna da təqsirkar adam kimi, miskincəsinə gülümsündü, qızına dedi: "Dunyaşka, bunları sandıqdan mən çıxartmışam. Həyətdən evə gəlib bunları görəndə adam bir növ yüngülləşir. Elə bil ki, evdə yanımızdadır..."

Qriqori haqqında ara-bərəsi kəsilməyən söz-söhbət Dunyaşkanı təngə gətirmişdi. Axırda o, bir gün davam gətirmədi, anasını məzəmmətlədi:

– Bəs deyilmi, anacan, eyni şeydən danışmaqdan yorulmadınmı? Danışıqlarınızla hamının zəhləsini tökmüsünüz. Ayrı şey eşitmək olmur, hey deyirsən: Qrişa, Qrişa...

İliniçna sakitcə dedi:

– Öz doğma oğlumdan danışmaq məni necə yora bilər? Zəhmət çək, özün uşaq doğ, onda bunun nə olduğunu bilərsən...

Bu əhvalatdan sonra o, Qriqorinin çuxasını, furajkasını mətbəxdən öz otağına apardı və bir neçə gün oğlu barədə bir kəlmə də olsun danışmadı. Lakin ot çalınının başlanmasına bir az qalanda Dunyaşkaya dedi:

– Mən Qrişanı yada salanda sənin buna acığın tutur, bəs de görək, biz onsuz nə cür yaşayacağıq? Heç bunu fikirləşirsənmi, ay səfeh qız? Ot çalını gəldi çatdı, amma bizim otçalan maşının bıçaqlarını itiləyən yoxdur... Gör bir nə qədər iş var, sənինlə mənə qalsa, bunları heç vaxt eləyə bilməyəcəyik... Evin-eşiyin gərək yiyəsi ola...

Dunyaşka səsini çıxarmadı. O çox yaxşı bilirdi ki, anasını narahat edən heç də təsərrüfat deyil, bütün bu söhbətlər Qrişa barədə danışmaq üçün, ürəyini boşaltmaq üçün sadəcə bəhanədir. İliniçna oğlunun xiffətini əvvəlkindən daha artıq edir və bunu gizlədə bilmirdi. Axşam o xörək yemədi və Dunyaşka ondan soruşanda ki: "Yoxsa naxoşlamısan? – könülsüz belə cavab verdi:

– Daha qocalmışam... Qriqorinin xiffətindən ürəyim ağrıyır. Elə ağrıyır ki, gözümə heç şey görünmür, işıqlı dünyaya gözümün ucu ilə də baxmaq istəmirəm...

Lakin Melexovlar mülkündə sahiblik eləmək Qriqoriyə nəsib olmadı... Ot çalınına bir-iki gün qalanda Mişka Koşevoy cəbhədən xutora gəldi. O, gecə uzaq bir qohumunun evində qaldı və tezdən durub Melexovların yanına gəldi. Qonaq nəzakət üçün qapını döydü, cavab almadıqda mətbəxə girdi; İliniçna xörək bişirirdi; Koşevoy köhnə əsgər furajkasını çıxartdı, İliniçnanın üzünə gülümsündü:

– Salam, İliniçna xala, gələcəyimi gözləmirdiniz, hə?

– Salam. Sən mənim nəyimsən ki, yolunu gözləyəydim? Eşşəyimizin qurd dayısı? – deyə İliniçna qaba bir surətdə ona cavab verdi və Koşevoyun nifrət bəslədiyi sifətinə kinli-kinli baxdı.

Mişka bu cür qarşılanmasından qətiyyən sınmadı, dedi:

– Yaman dedin... hər halda tanışlığımız var.

– Vəssalam, ayrı heç nə yoxdur.

– Gəlib adamlardan əhval bilmək üçün elə bu da yetər. Mən buraya sizin evdə yaşamaq üçün gəlməmişəm ki.

– Elə bircə bu qalmışdı, – deyə İliniçna mırtdandı və qonağın üzünə baxmadan öz işi ilə məşğul oldu, xörək bişirdi.

Mişka onun sözlərinə məhəl qoymadı, diqqətlə mətbəxi nəzərdən keçirib dedi:

– Gəldim ki, sizdən əhval bilim, görüm necə yaşayırsınız... Bir ildən çox olar ki, görüşmürük.

– Sənsiz o qədər də darıxmamışıq, – deyə İliniçna söyləndi və maşa ilə qara qazanları qeyzlə qırağa itələdi.

Dunyaşka otağı yığıb-yığışdırırdı, Mişkanın səsini eşitdikdə rəngi dümağ oldu, səssizcə əllərini bir-birinə çaldı. O, taxtın üstündə oturub, qımıldanmadan mətbəxə, anası ilə Mişanın danışığına qulaq asırdı. Dunyaşkanın sifəti gah alışıb-yanır, gah da yanaqları elə avazıyırdı ki, burnunun incə tili üzərində köndələn ağ zollar əmələ gəlirdi. O, Mişkanın ayağa qalxıb mətbəxdə arxayınca gəzdiyini, stulda əyləşdikdə stulun cırıldadığını, sonra da kibrit çəkərək papiros yandırdığını eşidirdi. Papiros tüstüsü otaq tərəfə də yayılırdı.

– Deyirlər qoca ölmüşdür?

– Ölmüşdür.

– Bəs Qriqori?

İliniçna xeyli susdu, sonra həvəssiz dedi:

– Qırmızılara qulluq edir. Onun da furajkasında sənin bu taxdığın ulduzdan var.

– O bu ulduzu furajkasına çoxdan taxmalı idi.

– Özü bilər.

– Bəs Yevdokiya Panteleyevna haradadır?

Bu sualı verən Mişkanın səsində təşviş sezildi.

– Otağı yığışdırır. Bir qonaq kimi çox tezdən gəlmisən, yaxşı adamlar belə tezdən gəzməyə getmirlər.

– Adamı pis eləyirlər, neyləyəsən. Darıxdım, ona görə gəldim. Daha bundan ötəri vaxt ayırmağın mənası yoxdur.

– Ah, Mixayil, gəlsənə məni hövsələdən çıxarmayasan...

– Mən nə edirəm ki, xalacan, siz hövsələdən çıxırsınız?

– Elə bununla, bax!

– Yenə də nə ilə?

– Bax bu cür söhbətlərinlə!

Dunyaşka Mişkanın dərindən ah çəkdiyini eşitdi. O, davam gətirə bilmədi: dik atıldı, yubkasını düzəltdi, mətbəxə keçdi. Saralmış, tanınmaz dərəcədə arıqlamış Mişka pəncərənin qarşısında oturmuşdu, papirosunu çəkib qurtarmaq üzrə idi. Dunyaşkanı gördükdə onun bulaşıqlı kimi olan gözləri işıqlandı. Üzünə xəfif bir qızartı gəldi. Cəld yerindən qalxıb xırıltılı bir səslə dedi:

– Hə, salam!

– Salam... – deyə Dunyaşka astadan cavab verdi.

İliniçna ani bir baxışla Dunyaşkaya əmr etdi:

– Get, bu saat su gətir.

Mişka Dunyaşkanın sudan qayıtmasını səbirlə gözlədi. İliniçna dinmirdi. Mişka da susmuşdu, sonra papiros kötüyünü barmaqları arasında söndürüb soruşdu:

– Niyə mənə ədavət bəsləyirsən, ay xala? Mən sizin yolunuzu kəsmişəm, yamanlıq eləmişəm bəyəm?

İliniçna ilan çalmış adam kimi, üzünü sobadan bu yana çevirdi:

– Ay həyasız adam, – dedi, – bizim evə gəlməyə sənin üzün necə gəldi? Hələ məndən səbəbini də soruşursan? Ay cəllad!

– De görək, mən nə üçün cəlladam?

– Əsl cəlladsan! Petronu kim öldürdü? Sən öldürmədin məgər?

– Mən öldürmüşəm.

– Odur ha! Belə olduqda de görək sən kimsən? Bundan sonra sən hələ bizə də... gəlirsən... keçib otursan... – İliniçnanın boğazı tutuldu, susdu, amma toxtayıb sözünə davam etdi: – Mən Petronun anasıyam, ya yox? Bəs onda sən mənim üzümə necə baxırsan?

Mişkanın rəngi dümağ oldu. O belə bir söhbətin olacağını gözləyirdi. Həyəcanından dili azacıq da olsa dolaşa-dolaşa dedi:

– Gözlərimi yummağımın mənası yoxdur! Petro məni elə keçirsəydi, nə edərdi? Elə bilirsən alnımdan öpəcəkdi? O da məni öldürəsi idi. Biz bu təpələrin başında ona görə vuruşmurduq ki, bir-birimizin nazını çəkək! Elə buna görə də belə şeylərə müharibə deyirlər.

– Bizim kirvəmiz Korşunovu öldürmək nə idi? Fağır bir qoca kişini öldürmək də müharibədir?

– Bəs nə idi? – deyə Mişka təəccüb elədi. – Əlbəttə müharibə idi! Mən bu fağır dediklərinə yaxşı bələdəm! Belə fağırlar evində oturar, tumanını tuta-tuta gəzər, amma insanlara ön atəş xəttindəkindən qat-qat artıq ziyan vurar... Kazakları bizim əleyhimizə qaldıranlar da elə həmin Qrişaka kimi qocalar idi. Elə bu müharibənin başlanmasına bais olanlar da onlar idilər! Bizə qarşı təbliğat aparan kimlər idi? Bax, həmin bu fağır dediyin adamlar. Sən də başlamısan ki, "cəllad"... yaman da cəllad tapmısan! Mən vaxt olub ki, bir quzu və ya çoşqa kəsə bilməmişəm, bilirəm ki, indi də kəsə bilmərəm. Mənim belə heyvanata əlim qalxmaz. Bunları başqaları kəsəndə də mən görürdün ki, qulaqlarımı tıxayıram, oradan kənara çəkilirəm, uzaqlaşıram, belə şeyləri görmək və ya eşitmək istəmirdim.

– Bizim qudanı necə...

– Ay canım, bu qudadan əl çəksənə! – deyə Mişka dilxor olub onun sözünü ağzında qoydu: – Onun verdiyi xeyir keçi südü kimi az, amma vurduğu ziyan çox idi. Mən ona dedim ki: evdən çıx, çıxmadı, buna görə də oradaca sərildi, qaldı. Mən belələrinə, bu cür qocalara qarşı çox kinliyəm! Mən bir heyvanı vurub öldürə bilmərəm, bəlkə qəzəblənsəm öldürərəm, amma məni bağışlayın, belə murdar adamları – sizin quda kimilərini, yaxud bu cür başqa yağıları istədiyiniz qədər qıraram! Bu düşmənlərə, işıqlı dünyada nahaq yerə yaşayanlara qarşı məndə rəhm ola bilməz! Əlim möhkəm işləyər!

– Elə əlin bu cür möhkəm olduğu üçün də, yəqin quruyub qaxaca dönmüsən, – deyə İliniçna onu sancdı. – Görünür, vicdan əzabı çəkirsən...

– Heç də elə deyil! – deyə Mişka sadəlövhcəsinə gülümsədi. – Sizin bu qoca qudanız kimi zir-zibildən ötəri niyə mən vicdan əzabı çəkməliyəm? Məni isitmə-qızdırma əldən salmışdır, yaman candan düşmüşəm, yoxsa, anacan, mən onların...

– Haradan oldum mən sənin anan? – deyə İliniçna bərk hirsləndi. – Get, qancığa ana de!

– Sən məni qancığa övlad eləmə! – deyə Mişka boğuq halda səsləndi və gözləri məsum bir surətdə büzüşdü. – Mən sənin ağzına gələn hər sözə dözməyi boynuma götürməmişəm. Səni, xalacan, adam kimi başa salıram: Petroya görə mənimlə düşmən olma. O, istədiyinə çatdı.

İliniçna təkidlə sözünü təkrar edirdi:

– Sən cəlladsan! Cəllad! Çıx, get buradan, səni görməyə gözüm yoxdur.

Mişka bir papiros da yandırdı, çəkdi, sakitcə soruşdu:

– Bəs sizin qudanız Mitri Korşunov necə, cəllad deyil? Bəs Qriqori nədir? Oğlunun cəlladlığının üstünü örtürsən, amma o xalis cəlladdır, aşqarsız!

– Yalan danışma!

– Dünəndən yalan danışmıram. Hə, de görək bəs o kimdir? O, bizimkilərdən nə qədər adam qırmışdır, bunu bilirsənmi? Odur ha, bilmirsən! İndi ki, sən, xalacan, davada olanların hamısını cəllad adlandırırsan, onda bizim hamımız cəlladıq. Amma iş burasındadır ki, nədən ötəri adamların canını alırsan, kimləri qırırsan. – Son sözlərini Mişka mənalı-mənalı dedi.

İliniçna dinmədi, amma qonağın yerindən tərpənmək xəyalında olmadığını görüb, sərt bir şəkildə dedi:

– Kifayətdir! Mənim sənlə danışmağa macalım yoxdur, çıx get evinə.

– Dovşanın yuvası varsa, mənim də evim var, – deyə Mişka gülümsədi və ayağa qalxdı.

Belə haray-dadlar və danışıqlarla onu pisikdirmək və əzmindən döndərmək mümkün olan şey deyildi! Mişka elə həssas adamlardan deyildi ki, cinlənmiş qarının təhqiredici sözlərinə fikir versin. O bilirdi ki, Dunyaşka onu sevir; buna görə də qalan hər şeyə, o cümlədən qarıya məhəl qoymurdu.

Ertəsi günün səhəri, aralarında heç nə olmayıbmış kimi, o yenə də gəldi, salam verdi, keçib pəncərə qarşısında oturdu, Dunyaşkanın hər bir hərəkətinə göz qoymağa başladı.

İliniçna Mişkanın salamını almadan ona söz atdı:

– Əhval bilməyə nə tez-tez gəlirsən...

Dunyaşkanın canına od düşdü, alışıb-yanan gözlərini anasının üzünə zillədi, amma bir kəlmə belə demədən başını aşağı saldı.

Mişka gülə-gülə ona cavab verdi:

– İliniçna xala, nahaq yerə qəzəblənirsən, mən buraya sənin yanına gəlmirəm.

– Bizim evin yolunu unutsan yaxşı olardı.

– Bəs hara gedim? – deyə Mişka bir qədər ciddiləşərək soruşdu: – Qudanızın oğlu Mitrinin sayəsində tək qalmışam, boş daxmada isə yalquzaq kimi nə qədər oturmaq olar? İstəsən də, istəməsən də, xalacan, mən buraya, sizin evə gələcəyəm, – deyə o sözünü bitirdi, ayaqlarını araladı, yerində daha da rahat oturdu.

İliniçna diqqətlə onun üzünə baxdı. Bəli, güman ki, belə adamı evdən çıxartmaq o qədər də asan iş deyildi. Mişkanın təknəli görkəmi, başını yana doğru əyməsi, dodaqlarını bir-birinə kip qısması onun öküz kimi tərs olduğunu göstərirdi...

O gedəndən sonra İliniçna uşaqları həyətə ötürdü, Dunyaşkaya üz tutaraq dedi:

– O, bir də buraya ayaq basmamalıdır. Anladınmı?

Dunyaşka gözlərini qırpmadan anasına baxdı. Bütün Melexovlarda olan xasiyyət – gözlərini dəli kimi qıymaq özünü onda da büruzə verdi: hər kəlməsini ağzında bir şey çeynəyirmiş kimi, ayrıca-ayrıca dedi:

– Yox! Gələcəkdir! Əmr eləməyin! Gələcəkdir! – Sözünü bitirən kimi də hirsi yatmadığından, önlüyü ilə üzünü örtdü, dəhlizə atıldı.

İliniçna ağır-ağır köksünü ötürdü, pəncərə qarşısında oturdu: başını kirimişcə bulaya-bulaya baxsa da heç nə görməyən gözlərini çölün xeyli uzaqlarına, günəş işığında gümüşə oxşayan təzə yovşan topalarının yerlə göyü qovuşdurduğu yerlərə zilləyərək, orada xeyli oturdu.

Axşam qaranlığı qovuşmazdan əvvəl Dunyaşka ilə anası, küsülü və kirimişcə, Don kənarındakı dirrikdə yıxılmış çəpəri düzəltdilər. Mişka da onlara yaxınlaşdı. O, beli dinməzcə Dunyaşkanın əlindən aldı və dedi:

– Torpağı dayaz qazırsan. Yel əsəcək, əsən kimi də çəpər yenə yıxılacaqdır, – bunu deyərək payalar üçün qazılmış çalaları dərinləşdirdi, sonra çəpərin quraşdırılmasına kömək elədi, payalara bəndlədi, çıxıb getdi. Səhər iki təzəcə rəndələnmiş dırmıq ilə iki bel sapı gətirdi, Melexovların artırması yanında yerə qoydu; İliniçnaya salam verərək, işgüzarcasına soruşdu:

– Biçənəyin otunu çalmaq fikriniz varmı? Camaat artıq çayın o tayına yola düşmüşdür.

İliniçna dinmədi. Anasının əvəzinə Dunyaşka cavab verdi:

– Bizim çayı o taya keçməyə bir şeyimiz yoxdur axı. Qayıq payızdan mərəyin altında qalıb qupquru olubdur.

Mişka məzəmmətlə dedi:

– Onu yazda suya salmaq lazım idi. Bəlkə biz onu kəpitkələsək əmriniz aşar? Qayıqsız bir iş görə bilməyəcəksiniz.

Dunyaşka itaətkarcasına, müntəzir vəziyyətdə anasının üzünə baxdı. İliniçna kirimişcə xəmir yoğurur və özünü elə aparırdı ki, guya bütün bu söhbətlərin ona dəxli yoxdur.

Mişka azacıq hiss olunan bir tərzdə gülümsünüb soruşdu:

– Kənaf varmı?

Dunyaşka anbara getdi, oradan bir qucaq kənaf gətirdi.

Mişka günortaya qədər qayığın yırtıq-deşiyini tutdu, mətbəxə gəldi.

– Hə, qayığı saldım suya, qoy islansın. Onu bir kötüyə bağlayın, yoxsa birisi götürüb gedər. – Yenə sualını təkrar etdi: – Bəs, ay xala, ot çalını haqqında qərarınız nə oldu? Bəlkə sizə kömək lazımdır? Onsuz da mən bu saat bekar adamam.

– Ondan soruş, bax, – İliniçna başı ilə Dunyaşkaya işarə elədi.

– Mən ev sahibindən soruşuram.

– Belə görünür ki, mən burada ev sahibi deyiləm.

Dunyaşka ağladı, çıxıb otağa getdi.

Mişka boğazını arıtlayaraq qətiyyətlə dedi:

– Onda kömək etmək lazım gəlir. Sizin xarratlıq har-hacatınız haradadır? Sizə dırmıq sazlamaq istəyirəm, köhnə dırmıqlar, deyəsən, kara gələn şeylər deyildir.

O, mərəyin çardağı altına çəkildi və fit çala-çala dırmıq üçün dişlər hazırlamağa başladı. Balaca Mişatka onun ətrafında fırlanır, yalvarıcı baxışlarla onun üzünə baxaraq xahiş edirdi:

– Mixayil dayı, mənə balaca dırmıq qayır, başqa adam yoxdur qayırsın. Nənəm də bacarmır, xalam da... Təkcə sən bacarırsan, həm də yaxşı bacarırsan!

– Qayıraram, adaş, vallah qayıraram, amma bir az qırağa dur, yoxsa talaşa sıçrayıb gözünə girə bilər, – deyə Koşevoy onu gülə-gülə dilə tuturdu; uşağa baxdıqca heyrət içində belə düşünürdü: "Bir gör, şeytan balası, dədəsinə necə oxşayır... Elə bil bir almadır, yarıya bölüblər! Gözləri də oxşayır, qaşları da, bunun da üst dodağı dartılır... Bax, iş buna deyərlər!"

O, kiçik bir uşaq dırmığı sazlamağa başladı, amma qurtara bilmədi; dodaqları gömgöy oldu, saralmış sifətində qəzəbli, lakin eyni zamanda itaətkar bir ifadə görünürdü. O, daha fit çalmırdı, bıçağı yerə qoydu və üşüdüyündən çiyinlərini silkələdi. O uşağa dedi:

– Adaş, Mixaylo Qriqoriç, get bir palaz gətir, mən bir az uzanım.

– Niyə uzanırsınız ki? – deyə Mişatka maraqlandı.

– Naxoşlamaq istəyirəm.

– Nəyə görə axı?

– Eh, sən də lap pıtraq kimi imişsən, yapışanda əl çəkmirsən... Naxoşlamaq vaxtım gəlmişdir, ona görə uzanıram, vəssalam! Yeri, palazı tez gətir!

– Bəs mənim dırmığım necə olacaqdır?

– Sonra qurtararam.

Güclü titrətmə Mişkanın vücudunu silkələyirdi. Onun dişləri bir-birinə dəyib şaqqıldayırdı, Mişatkanın gətirdiyi palaza bürünüb, furajkasını çıxartdı, onunla üzünü örtdü.

Mişatka kədərlənərək soruşdu:

– Bu nədir, deməli, sən naxoşladın?

– Özüdür ki, var, naxoşladım.

– Bəs niyə uçunursan?

– Məni silkələyən isitmədir.

– Bəs dişlərini niyə bir-birinə vurub şaqqıldadırsan?

Mişka furajkası altından bir gözü ilə zəhlətökən adaşının üzünə baxdı, müxtəsərcə gülümsədi və daha onun suallarına cavab vermədi. Mişatka qorxuya düşdü, onun üzünə baxaraq otağa qaçdı.

– Nənə, ay nənə! Mixayil dayı mərəyin çardağı altında yerə uzanmışdır, elə titrəyir, elə titrəyir, elə bil ki, onu döyürlər!

İliniçna pəncərədən eşiyə baxdı, çəkilib stolun yanında durdu, nə barədə isə fikrə gedərək uzun zaman dinmədi.

Səbri tükənmiş Mişatka nənəsinin koftasının qolunu dartışdıraraq soruşdu:

– Bəs niyə dinmirsən, nənə?

İliniçna üzünü ona tərəf çevirdi, qətiyyətlə dedi:

– Bir yorğan götür, dərdin alım, apar o kafirə ver, qoy üstünə salsın. Onu isitmə haldan salmışdır, belə bir naxoşluq var. Yorğanı apara bilərsənmi? – İliniçna bir də pəncərəyə yaxınlaşdı, həyətə baxdı, tez dedi: – Dayan, dayan! Aparma, lazım deyil.

Dunyaşka öz kürkünü Koşevoyun üstünə örtdü və başını bir az aşağıya əyərək, ona nə isə dedi.

Mişka, titrəmə-qızdırması kəsəndən sonra, axşam qaranlıq qovuşana qədər ot çalınına hazırlıq işləri ilə əlləşdi. O, hiss ediləcək dərəcədə zəifləmişdi. Hərəkətləri süstləmişdi, yarıtmaz idi, lakin yenə də Mişatkanın dırmığını sazlayıb başa çatdırdı.

Axşam İliniçna adamları şama çağırdı, uşaqları stolun arxasında oturtdu, Dunyaşkanın üzünə baxmadan dedi:

– Get, onu da... adı nədir... onu da çağır.

Yorğunluqdan beli bükülmüş Mişka gəldi, xaç çevirmədən keçib stolun dalında oturdu. Onun saralmış, təri quruyandan sonra hər tərəfində kirli zolaqlar görünən siması yorğunluq ifadə edirdi, qaşığı ağzına doğru qaldıranda əli yavaşca əsirdi. O təkdənbir süfrə başında oturmuş adamlara laqeydcəsinə nəzər salır, xörək yeyir, amma az və iştahasız yeyirdi. Lakin İliniçna "cəlladın" fəri sönmüş gözlərinin balaca Mişatkaya zillənəndə dirçəldiyini, hərarətlə isindiyini, gözlərində bir an qədər də olsa heyranlıq və nəvaziş qığılcımlarının yanıb-söndüyünü, gizli bir təbəssümün uzun zaman dodaqlarının kənarından çəkilmədiyini gördükdə, mat qaldı. Bundan sonra Mişka gözlərini yana çevirir, simasına yenə küt bir laqeydlik damğası vurulurdu.

İliniçna Mişkanı xəlvətcə müşahidə altına aldı və yalnız indi başa düşdü ki, o naxoşlayandan bəri xeyli arıqlamışdır. Mişkanın toza-torpağa batmış üst köynəyinin altında körpücük sümüklərinin tilləri görünürdü, qupquru olmuşdu, enli kürəklərinin sümükləri arıqlıqdan biz kimi idi, uşaq boynu kimi nazilmiş boynu, sarı tüklə örtülmüş saqqalı və hülqumu məzəli görünürdü... İliniçna "cəlladın"

donqarlaşmış gövdəsinə, şam kimi ərimiş simasına baxdıqca daxilən nə isə get-gedə artan bir narahatlıq, bir haçalanma duymaqda idi. O, sevmədiyi bu adama qarşı canında birdən-birə öz-özünə baş qaldırmış mərhəmət hissi, ən iradəli qadınları belə yumşaldan ana şəfqəti duyurdu. O, qəlbinə hakim kəsilmiş bu yeni hissin qarşısını almaqda aciz qalaraq südlə dolu qabı Mişkaya tərəf itələyərək dedi:

– Sən Allah, düz-əməlli çörək ye! O qədər arıqlamısan ki, baxanda adamın qanı qaralır... Adını da adaxlı qoyub!

III

Xutorda Koşevoy ilə Dunyaşka haqqında söz gəzirdi. Arvadlardan biri bir gün körpüdə Dunyaşkaya rast gələndə açıqdan-açığa rişxənd ilə sual verdi: "Mixayili olmaya rəncbər tutmusunuz? Nə iş varsa həyətinizdən kənara çıxmır..."

İliniçna qızının bütün yalvar-yaxarı qarşısında inadla deyirdi: "Nə qədər yalvarırsan-yalvar, səni ona vermərəm! Mən bu işə xeyir-dua verməyəcəyəm!" O, öz qərarını yalnız iş bərkə düşəndə, Dunyaşka Koşevoya qoşulub gedəcəyini bildirib pal-paltarını yığışdıranda dəyişdi.

– Ağlını başına yığ! – deyə qorxmuş halda səsləndi: – Mən burada təkcə qalıb uşaqlarla nə edəcəyəm? Biz, səncə, məhv olmalıyıq?

Dunyaşka sandıqdan pal-paltarını çıxarmasına davam edərək, sakit-sakit dedi:

– Necə istəyirsiniz elə də edin, anacan, amma mən xutorda camaat arasında məsxərəyə qoyulmaq istəmirəm.

İliniçna uzun zaman kirimişcə mızıldandı, sonra ayaqlarını ağır-ağır sürüyərək, otağın küncünə yönəldi. O, divardan ikonanı götürüb pıçıldadı:

– Neyləyim, qızım, indi ki, sən bu niyyətdəsən, get, xudavəndi aləm sənə yar olsun...

Dunyaşka cəld anasının qarşısında diz çökdü. İliniçna ona xeyir-dua verdi, titrək səslə dedi:

– Bu ikona ilə rəhmətlik anam mənə xeyir-dua vermişdi... Ox, atan səni görsəydi, bilirsən indi neylərdi... Sənin adamın haqqında

onun nə dediyi yadındadırmı? Allah özü şahiddir ki, mən nə qədər əzab çəkirəm, – dedi və kirimişcə geriyə çevrildi, dəhlizə keçdi.

Mişka çox çalışdı ki, nişanlısı kilsədə kəbin kəsdirmək qərarından əl çəksin, xeyli yalvardı, amma inad qız dediyini yeritdi. Əlacı kəsilmiş Mişka da razılıq verdi. Xəyalında dünyanın hər işinə lənət oxuyaraq kəbin kəsdirilməsinə elə hazırlaşırdı ki, elə bil o günü Mişkanı dar ağacından asacaqdılar. Gecə keşiş Vissarion onları boş kilsədə yavaş-yavaş mehrabın başına dolandırdı. O, mərasim bitdikdən sonra cavanları təbrik etdi, nəsihət üçün dedi:

– Budur, gənc sovet adamı, baxın, həyatda nələr olur: keçən il siz mənim evimə od vurdunuz, onu, deməli yandırıb kül elədiniz, bu gün isə mən sizə kəbin kəsirəm... Atalar demişdir: su quyusuna tüpürmə, bəlkə lazım oldu. Bununla belə mən şadam, çox şadam ki, siz ağıllanmısınız, xristian kilsəsi yoluna qayıtmısınız.

Mişka buna davam gətirmədi. O, xasiyyətinin yumşaqlığından xəcalət çəkib, kilsəyə gələndən bəri dinmir, özünə nifrət edirdi, amma keşiş belə deyəndə, kinli keşişin üzünə qəzəblə baxdı, Dunyaşka eşitməsin deyə yavaşca pıçıldadı:

– Təəssüf ki, o vaxt sən xutordan qaçdın, yoxsa ay şələsaqqal şeytan, səni də evinlə birlikdə yandırardım! Anladınmı nə deyirəm?

Belə gözlənilməz hərəkətdən çaşmış keşiş tez-tez kirpik çalaraq, gözlərini Mişkanın üzünə zillədi; Mişka isə cavan arvadının qolundan tutub dartaraq ciddi dedi: "Gedək!" Əsgər çəkmələri ilə bərk tappıltı salaraq qapıya doğru getdi.

Bu soyuq keçən toyda nə cecə arağı içildi, nə də bağıra-bağıra mahnı oxuyan oldu. Toyda sağdış olan Proxor Zıkov ertəsi günü xeyli vaxt söyüb-söyləndi və Aksinyaya şikayətləndi:

– Amma, ay qız, yaman da toy idi! Mixayil kilsədə qoca keşişə nə isə elə sarsaq söz deyib ki, yazığın ağzı əyilib! Şam üçün, bilirsən, nə bişirilmişdi? Qızardılmış toyuq əti ilə qatıq... məlunlar, heç olmasa bir damcı da olsun araq qoymamışdılar! Gərək Qriqori Panteleviç burada olaydı, bacısının toyunu görəydi!.. Görsəydi əllərini dizinə döyərdi! Yox, ay qız, yetər! Mən bu təzə toylara gedən deyiləm! İt toyu da bundan şən keçir; düzdür orada köpəklər bir-birini boğur, tükünü didir, səs-küy edirlər, amma bu Allahın lənətinə gəlmiş adamların toyunda nə içki var idi, nə dalaşma. İnanırsanmı, toydan sonra kefim elə pozulmuşdu ki, gecə səhərədək yata bilmədim, yerimə birə dolubmuş kimi, gah bu böyrüm üstə aşmışam, gah da o böyrüm üstə...

Mixayil Koşevoy Melexovların evində məskən salandan sonra həyət-baca tamam dəyişdi: o, az vaxt içərisində hasarı düzəltdi, çöldəki otu daşıdı və gətirib xırmanda taya vurdu, tayanın dövrəsini məharətlə hamarladı; taxıl biçininə hazırlaşanda taxılbiçən maşının ləmələri ilə yanlarını tamam təzələdi, xırman yerini səliqə ilə təmizlədi, köhnə sovuruq maşınını təmir elədi və yəhər-yüyən qayışlarını yamadı; çünki ürəyində öküzləri bir atla əvəz etmək niyyətində idi, hətta bu haqda Dunyaşkaya dəfələrlə belə demişdi: "Biz mütləq bir at almalıyıq. Bu tısbağa yerişli heyvanlarla əmrimiz aşmayacaqdır". O, anbardan təsadüfən bir vedrə belil və göy rəng tapdı və o günü köhnəlmiş, bozarmış pəncərə qapılarını rəngləməyi qərara aldı. Melexovların evi sanki cavanlaşdı, pəncərələr açıq mavi gözlərini dünyaya zillədi.

Mişka qeyrətli kişi çıxdı. O, xəstə olduğu halda yorulmaq bilmədən işləyirdi. Dunyaşka hər bir işdə ona kömək edirdi.

Ərə getdiyi beş-on gün ərzində Dunyaşka aşkarca qəşəngləşmiş, elə bil çiyinləri ilə sağrıları enlənmişdi. Onun baxışlarında, yerişində, hətta saçlarını düzəltmək tərzində nə isə bir yenilik sezilirdi. Əvvəlki xasiyyətləri – hərəkətlərinin yöndəmsizliyi, uşaqcasına ora-bura yüyürmək və qıvraqlıq artıq qeybə çəkilmişdi. Daim gülümsünən və sakitləşmiş Dunyaşka gözlərini məftun-məftun ərinin üzünə zilləyir və ətrafda heç nəyi görmürdü. Bəxtiyarlığın gənclik çağı həmişə belədir, o heç nə görmür.

İliniçna isə onu yaxalamış yalqızlığı daha kəskin, daha mərəzi bir şəkildə hiss etməkdə idi. O, demək olar ki, ömrünü keçirdiyi bu evdə indi artıq adam kimi olmuşdu. Dunyaşka ilə əri elə səylə çalışırdılar ki, elə bil boş yerdə yuva tikirdilər. Onlar heç bir şeydə İliniçna ilə məsləhətləşmir, təsərrüfatda bu və ya digər işi gördükdə onun buna razı olub-olmadığını soruşmurdular; onlar qarıya deməyə bir kəlmə xoş söz də tapmırdılar. Yalnız xörək vaxtı, stolun arxasında əyləşəndə bir neçə kəlmə söhbət edirdilər; sonra İliniçna yenə də öz qəmli fikirləri ilə tək qalırdı. Qızının xoşbəxtliyi, evdə yad adamın olması – o, kürəkənini əvvəlki kimi yenə də yad hesab edirdi, – onu sevindirmirdi, ona əzab verirdi. Həyatın özü də ona ağır yük olmuşdu. Bu il ərzində hər biri ürəyinin bir parçası olan dörd adamını itirmiş qarı iztirab çəkməkdən üzülmüş, qocalmış və yazıq günə qalmışdı. Onun başı çox müsibətlər çəkdi, hətta

həddindən artıq müsibət çəkdi. O, indi bu müsibətlərə tab gətirmək iqtidarında deyildi, belə bir mövhumi ürəkdamması ilə yaşayırdı ki, qapılarını tez-tez döyməyə adət etmiş ölüm qədim Melexovlar evinin astanasından bundan sonra da girəcəkdir. İliniçna Dunyaşkanın ərə getməsinə razılıq verdikdən sonra bircə şey istəyirdi: Qriqorini gözləsin, uşaqlarını ona təhvil versin, sonra da əbədi olaraq həyata gözlərini yumsun. Uzun sürən və çətinliklər içində keçən həyatı ona belə bir istirahətə haqq verirdi.

Uzun yay günləri qurtarmırdı. Göydən od yağırdı. Lakin İliniçnanın canı qızmırdı. O, hər gün artırmada, lap günə qarşı saatlarla oturur, yerindən qımıldanmır, ətrafdakılara etina etmirdi. O, artıq bayaqkı hər şeyin qeydinə qalan, hər şeyə can yandıran ev sahibəsi deyildi. O, heç bir iş görmək istəmirdi. Bunların hamısı indi onun nəzərində gərəksiz və lazımsız şey idi; bundan başqa keçmiş əyyam kimi işləmək üçün onda indi taqət də yox idi. O, uzun illər işləməkdən əzilmiş əllərinə baxaraq, ürəyində belə deyirdi: "Əllərciyəzim daha kardan düşmüşdür... Daha dincəlmək vaxtımdır... dövranımı sürmüşəm, yetər... Bircə Qrişa gəlincəyədək ölməyəydim..."

İliniçnanın üzü yalnız bircə dəfə güldü, o da çox çəkmədi. Stanitsadan xutora qayıtmış Proxor onu görüb hələ uzaqdan bağırdı:

– İliniçna, muştuluğumu ver! Oğlundan məktub gətirmişəm.

Qarının rəngi ağardı. Onun təsəvvüründə məktub mütləq fəlakətlə bağlı idi. Lakin Proxor yarısı qohumlara salam-duadan ibarət olan, ancaq axırında onun, yəni Qriqorinin payızda evə gəlməyə çalışacağı bildirilən qısa məktubu oxuduqdan sonra, İliniçna sevindiyindən xeyli vaxt heç nə deyə bilmədi. Onun qonur sifətindən, yanaqlarındakı dərin qırışların arasından muncuq kimi xırda göz yaşları süzülməyə başladı. O, başını aşağıya əyərək, bu yaşları gah koftasının qolu, gah da kələ-kötür əli ilə silirdi, lakin göz yaşları yenə də ara vermədən aşağıya süzülür, ləçəyinin üstünə tökülür, tez-tez yağan isti yağış kimi onu isladırdı. Qadınların ağlamasından Proxorun nəinki zəhləsi gedirdi, hətta buna dözə bilmirdi; ona görə də o üz-gözünü turşutdu, aşkar bir dilxorluqla dedi: – Eh, ağlamaqdan gözlərin çıxdı ki, nənəcan! Sizin bu arvad tayfasının gözündə nə qədər yaş var... Sevinmək lazımdır, ağlamaq yox. Di, onda mən getdim, salamat qal! Qanımı qaraldırsan.

İliniçna birdən səhvini anladı, onu dayandırdı:

– Mənim əzizim, belə şad xəbər gətirdiyinə görə... Bu nədir, mən niyə belə eləyirəm... Dayan, səni qonaq eləyim, – deyə o rabitəsiz halda söylənir, xeyli vaxt bundan əvvəl saxlanılmış bir şüşə cecə arağını sandıqdan çıxardırdı.

Proxor əyləşdi, bığlarını tumarladı.

– Bu şadlıq münasibəti ilə sən də mənimlə birlikdə içərsənmi? – deyə soruşdu. O dəqiqə də canına vəlvələ düşdü: "Lənət sənə şeytan, gör ha, dilim yenə dinc durmadı! Yenə də xəbər tutacaq, əsgəri hissəyə aparacaqlar, orada isə bu arağın heç üzünü görməyəcəyəm..."

İliniçna içməkdən boyun qaçırtdı. O məktubu səliqə ilə qatladı, aparıb mücrüyə qoydu, lakin görünür, fikrini dəyişmişdi, məktubu təzədən götürdü, bir qədər əlində saxladıqdan sonra qoltuğuna qoydu, ürəyinin başına sıxdı.

Çöldən qayıdıb gəlmiş Dunyaşka məktubu uzun-uzadı oxudu, sonra gülümsəyərək köksünü ötürdü:

– Ah, kaş tez gələydi! Yoxsa, anacan, siz yaman xarab olmusunuz, özünüzə oxşamırsınız.

İliniçna qısqanırmış kimi məktubu onun əlindən aldı, yenə də qoltuğuna qoydu və gülümsünərək, sevindiyindən qıyılmış gözlərini qızının üzünə zilləyib dedi:

– Mənim nə cür olduğumu heç it-qurd da yadına salmır, amma budur, kiçik oğlum anasını yaddan çıxarmamışdır! Bir gör nə yazır! Məni atamın adı ilə çağırır, İliniçna yazır... Hörmətli əziz anamın qarşısında, balalarımın qarşısında dərin hörmətlə baş əyirəm, səni də unutmamışdır... Hə, daha niyə gülürsən? Ay Dunyaşka, sən səfehsən, lap səfeh!

– Nə oldu, anacan, gülə də bilmərəm! Hara hazırlaşırsınız belə?

– Dirriyə gedirəm, kartof yığacağam.

– Sabah mən gedəsiyəm. Siz oturun evdə. Gah şikayətlənirsiniz ki, naxoşlamısınız, gah da özünüzə iş tapırsınız.

– Yox, gedəcəyəm... Şad xəbər almışam, yalqız qalmaq istəyirəm, – deyə İliniçna ürək sözünü söylədi və cavanlar kimi yaylığını cəld başına örtdü.

Yolüstü Aksinyagilə dəydi, əvvəlcə nəzakət üçün başqa şeylərdən danışdı, sonra isə məktubu qoltuğundan çıxartdı.

– Bizim Qrişa məktub göndərib, anasını sevindirib, evimizə gələcəyini vəd edibdir. Al, oxu, ay qonşu, oxu, mən bir də eşidim.

O vaxtdan bəri Aksinya həmin məktubu dəfələrlə oxumuşdu. Axşam olan kimi İliniçna onun yanına gəlir, bir yaylığın arasına səliqə ilə qoyulmuş sarı paketi çıxardır, köksünü ötürərək xahiş edirdi:

– Oxu, görək, Aksinyacan, nə yazmışdır, bu gün ürəyim çox narahatdır, yuxuma girmişdir, gördüm ki, kiçik yaşlarındadır, məktəbə oxumağa gedir...

Vaxt keçdikcə karandaşla yazılmış hərflər sürtülüb gedir, birbirinə qarışırdı; bir çox sözlər seçilmirdi, lakin bu Aksinya üçün çətinlik törətmirdi: o bu məktubu o qədər oxumuşdu ki, əzbərləmişdi. Sonralar, nazik kağız parçası artıq cındır kimi bir şeyə çevrildikdə Aksinya duruxmadan məktubu başdan-ayağadək nəql edə bilirdi.

İki həftədən sonra İliniçna özünü çox pis hiss elədi. Dunyaşka xırmanda taxıl döyürdü, İliniçna onu işindən ayırmaq istəmirdi, amma özünün də xörək bişirməyə halı yox idi. O qızına dedi:

– Bu gün mən yerimdən qalxa bilməyəcəyəm. Sən özün birtəhər mənsiz keçin.

– Bəs haran ağrıyır, anacan?

İliniçna köhnə koftasının qırışlarını sığalladı, başını qaldırmadan cavab verdi:

– Hər yerim... Elə bil içalatımı əzişdiriblər. Cavanlığımda, hərdənbir, rəhmətlik atan bərk qəzəblənər, məni döyərdi... Yumruğu da elə ağır idi ki, zindan kimi... Bir həftə yerimdə ölü kimi qalardım. Bax, indi də eləyəm, hər yerim qırılır, ağrıyır, sanki bərk əzişdirilmişəm...

– Mixayili feldşerin dalınca yollayımmı?

– Nəyimə gərəkdir, birtəhər qalxaram.

İliniçna ertəsi günü doğrudan da ayağa qalxdı, həyətdə gəzdi, lakin axşamçağı yenə yatağa düşdü. Onun üzü azca şişdi, gözlərinin altında torbacıqlar əmələ gəldi. O, gecə dəfələrlə dirsəyinə söykənərək, başını çox hündür olan balışdan qaldırdı, tövşüyə-tövşüyə nəfəs aldı; nəfəsi təngişirdi. Sonra sakitləşdi. O, daha arxası üstdə rahat uzanır, hətta yatağından da qalxa bilirdi. Bir neçə günü dünyadan əlini üzmüş, yalqızlığı, sükutu arzulayan adam kimi keçindi. O, təkcə olmaq istəyirdi, Aksinya gəlib ondan əhval bilmək istəyəndə suallarına könülsüz cavab verir, Aksinya gedəndə

isə yüngülləşmiş kimi, rahat nəfəs alırdı. İliniçna uşaqların günün çoxunu həyətdə keçirmələrinə də, Dunyaşkanın çox az gəlməsinə də, hər cür sualları ilə onu narahat etməməsinə də sevinirdi. İndi o kimsənin rəğbət və ya təsəllisinə möhtac deyildi. Həyatından bir çox şeyləri yada salmaq üçün yalqız qalmağı amiranə tələb edən bir məqam gəlib çatmışdı. O da gözlərini yarıya qədər yumur, qımıldanmadan yerində saatlarla uzanır, yalnız şişkin barmaqları yorğanın sırıqlarını qurdalayır, bu saatlar ərzində keçirdiyi həyat gəlib gözləri önündən keçirdi.

Təəccüblüdür ki, həyatı ona çox qısa və yoxsul görünürdü, ağır və qara günlər o qədər çox idi ki, qarı bunları yada salmaq istəmirdi. Xatirələrində, düşüncələrində nədənsə hamıdan çox Qrişaya üz tuturdu. Bu bəlkə də onun nəticəsi idi ki, həmişə, müharibə başlanandan bəri, Qriqorinin həyatı barədə təşviş bir gün belə onu tərk etməmişdi, onu bu həyatda bağlayan da Qriqori idi. Ya da böyük oğlu ilə ərinin qüssəsi artıq kütləşmiş, zaman gəlib keçdikcə zəifləmişdi; o bunları – ölənləri tək-tək hallarda xatırlayırdı; həm də onlar indi qarıya boz duman arxasından görsənirdilər. İliniçna cavanlığını, ərdə olduğu illəri könülsüz xatırlayırdı. İndi bunlar büsbütün lüzumsuz bir şey idi, xeyli uzaqlarda qalmışdı, nə şadlıq gətirmişdi, nə ürək sakitliyi. Son xatirələri ilə həyatının keçmiş günlərinə bir də qayıtdıqda yenə də ciddi və məsum insan kimi qalırdı. Amma "kiçik" oğlu hafizəsində aydın, demək olar, hiss ediləcək dərəcədə parlaq canlanırdı. Lakin qarı kiçik oğlunu fikirləşən kimi ürəyi qapı toxmağı kimi yeyin-yeyin döyünürdü, bunu özü də hiss edirdi. Sonra boğulan kimi olur, sifəti qaralırdı, xeyli vaxt huşunu itirmiş halda qalırdı, amma özünə gələn kimi yenə də Qrişasını düşünürdü. Axı, o sonuncu oğlunu unuda bilməzdi!

Bir gün İliniçna otaqda uzanmışdı. Bayırda günorta günəşi dünyanı nura qərq etmişdi. Göyün cənub ətəyində, maviliyi gözqamaşdıran ənginlikdə, küləkdən qalaq-qalaq olmuş ağ buludlar əzəmətlə süzürdü. Ətrafı sarmış sükutu yalnız cırcıramaların yeknəsəq, yuxu gətirən cırıltısı pozurdu. Bayırda, lap pəncərənin altında, divarın dibində bir tala yarı solmuş sirkən, haçaquyruq və ayrıq otu qalmışdı; cırcıramalar, bu otun arasına girib cırıldaşırdılar. İliniçna onların aramsız cırıltısına qulaq verir, günəşdən qızmış ot iyinin dəhlizə dolduğunu hiss edirdi; bu anda avqustda günəşdən qarsalanmış, kül

olmuş çöl, sapsarı buğda zəmiləri, sürməyi tülə bürünmüş kimi olan zil mavi səma bir sərab kimi gözləri önündə canlandı...

O, yovşanlı köbərdə otlayan öküzləri, üstünə günlük çəkilmiş arabanı aydınca gördü, cırcıramaların qulaq batıran səsini eşidir, yovşanın tünd acı ətri ilə ciyərlərini doldururdu... Onun özü də – cavan, boylu-buxunlu, göyçək İliniçna da gözləri önündə durdu... Budur, o düşərgəyə çatmağa tələsir. Ayaqları altında çör-çöp xışıldayır, açıq baldırlarını dalayır, yubkasının içinə salınmış köynəyinin tərdən islanmış kürəkləri isti yel əsdikcə quruyur, boynunu yandırır. Pörtdüyündən yanaqları alışıb-yanır, qan başına vurduğundan qulaqlarında həzin cingilti var. O qollarını qatlayıb ağır, koftada kip duran, südlü döşlərini yırğalanmağa qoymur və hıçqıra-hıçqıra ağlayan uşaq səsi eşidən kimi yeyinləyir, yeriyə-yeriyə köynəyinin yaxasını açır.

Arabanın içərisində asılmış nənnidən balaca, qarabuğdayı Qrişanı götürdükdə onun qaysaqlanmış dodaqları titrəyir, gülümsəyir. O, boynundan asdığı balaca xaçın tərdən islanmış qaytanını dişi ilə tutub, tez uşağı əmizdirir, astadan pıçıldayır: "Mənim əziz balam, oğlum! Mənim qəşəngim! Anan səni acından öldürdü..." Arabir yenə də hıçqıraraq ağlayan Qrişka isə əmir, balaca dişləri ilə məmənin giləsini dişləyir. Qrişkanın cavanca, bığları qapqara atası da budur, yaxındadır, kərəntinin ağzını itiləyir. Kişi göz qapaqlarını endirmiş olsa da, o ərinin altdan-altdan gülümsədiyini, istehzalı baxan gözlərinin mavi gilələrini görür... İliniçna istidən çətinliklə nəfəs alır, alnından süzülən tər yanaqlarını yandırır, işıqlı dünya get-gedə gözlərində sönür, sönür...

İliniçna xəyaldan ayıldı, əlini göz yaşlarından islanmış üzünə çəkdi, sonra nəfəsi bərk təngişdi, arabir də huşunu tamam itirdi, xeyli vaxt beləcə qaldı.

Axşam Dunyaşka ilə əri yatandan sonra, İliniçna son qüvvəsini topladı, ayağa qalxdı, eşiyə çıxdı. Xırmandan qayıtmamış inəyini axşamdan xeyli keçincəyə qədər axtaran Aksinya evinə qayıdanda gördü ki, İliniçna lap asta-asta səndələyə-səndələyə xırmana tərəf gedir. Aksinya təəccüb elədi... "Görəsən, bu naxoş arvad niyə ora getdi?"; sonra da Melexovların xırmanına bitişik çəpərə yaxınlaşdı, xırmana baxdı. Göydə on dörd gecəlik ay işıq saçırdı. Çöl tərəfdən xəfif meh əsirdi. Üstü daşlı vəllərlə hamarlanmış xırman üzərinə

küləş tayasından qalın kölgə düşmüşdü. İliniçna əlləri ilə çəpərdən yapışıb çölə baxır, otçalanların qaladıqları ocağa tamaşa edirdi; ocaq əlçatmaz səmadakı uzaq bir ulduz kimi işıldayırdı. Aksinya ayın mavi işığında İliniçnanın şişmiş üzünü, qarılar örtdüyü qara baş şalı altından çıxmış dümağ saçlarını apaydınca gördü.

İliniçna ala-qaranlıq içində göyümsov görsənən çölə xeyli vaxt tamaşa elədi, sonra yavaş səslə, oğlu Qrişa burada yaxında imiş kimi səsləndi:

– Qrişacığım! Mənim əziz balam! – Susdu və bu dəfə başqa ahənglə, daha da yavaş və boğuq səslə dedi: – Canım-ciyərim, oğul!..

İzahedilməz bir nigarançılıq və qorxu hiss edən Aksinyanın bədəninə titrətmə gəldi və o, sərt bir hərəkətlə çəpərdən aralandı, evinə getdi.

Həmin gecə İliniçna başa düşdü ki, tezliklə öləcəkdir, ölüm başının üstünü almışdır. Dan yeri ağaranda sandıqdan Qriqorinin köynəyini çıxartdı, qatlayıb balışının altına qoydu; sonra da öz paltarlarını, nəfəsi ağzından çıxandan sonra geyindiriləcəyi paltarlarını çıxartdı.

Səhər açılanda Dunyaşka həmişəki kimi anasına baş çəkməyə gəldi. İliniçna balışının altına qoyduğu və səliqə ilə qatlanmış köynəyi çıxartdı, kirimişcə Dunyaşkaya uzatdı.

– Bu nədir? – deyə Dunyaşka təəccüblə soruşdu.

– Qrişanın köynəyidir... Ərinə ver, geysin; yəqin köynəyi köhnəlib, tər çürüdüb... – İliniçnanın səsi çox zəif çıxırdı.

Dunyaşka sandığın üstündə anasının qara yubkasını, can köynəyini, parçadan tikilmiş çustlarını görəndə dümağ oldu; çünki bunları ölən arvada geyindirir, aparıb dəfn edirdilər.

– Bu nədir, anacan, qadan alım, ölü pal-paltarını niyə hazır saxlamısan? Səni and verirəm İsaya, bunları oradan yığışdır! Xudavəndi-aləm sizə yar olsun, ana, ölməyi fikirləşməyiniz hələ tezdir!

– Yox, vaxtım çatmışdır... – deyə qarı pıçıldadı. – İndi növbə mənimdir... Qrişa qayıdıb gəlincəyə qədər uşaqlara yaxşı bax, üstlərində göz ol... Mən isə, deyəsən, onunla görüşə bilməyəcəyəm... Yox, görüşə bilməyəcəyəm!

Dunyaşka ağlamağını görməsin deyə, İliniçna üzünü divara çevirdi, yaylığı ilə örtdü.

Üç gündən sonra o vəfat etdi. Tay-tuşları gəldilər, onu yudular, geyindirdilər, qaldırıb ortalıqdakı stolun üstünə qoydular. Axşam

Aksinya onunla vidalaşmağa gəldi. O, üzü ciddi ifadəli, qəşəngləşmiş balaca qarını, əvvəlki məğrur və mərd İliniçnanı güclə tanıdı. Aksinya dodaqlarını mərhumun saralmış soyuq alnına toxundurduqda qarının cod, həmişə ağ baş yaylığı altından çıxan qar kimi ağarmış tanış saçlarını, bir də cavan qadınlarınkı kimi balaca və yumruca qulaq seyvanını gördü.

Aksinya Dunyaşkadan razılıq alıb, uşaqları apardı. O, yeni ölüm hadisəsindən qorxmuş və qaradinməz olmuş uşaqları yedirtdi, hər ikisini yanında yatırtdı. Hərəsi bir tərəfdən ona qısılmış balaları – sevdiyi adamın sakitləşmiş uşaqlarını qucaqlayanda Aksinya qəribə bir duyğu hiss edirdi. Uşaqların başını qatmaq, əyləndirmək, nənələrinin öldüyünü unutdurmaq üçün Aksinya kiçik yaşlarında eşitdiyi nağıllardan birini asta-asta onlara söyləməyə başladı. O, yoxsul və yetim bir uşaq olan Vanyuşkanın nağılını sakitcə, səsini uzada-uzada söyləyib qurtardı:

A qazlar, quba qazlar, qoparın məni.
Alın ağ qanadlara, aparın məni,
Bilsəniz hara –
Doğma diyara...

O nağılı söyləyib qurtarmamış uşaqların ahəngdar və şirin-şirin mışıldadıqlarını eşitdi. Mişatka qıraqda yatmış, üzünü Aksinyanın çiyninə söykəmişdi. Aksinya çiyni ilə uşağın yana əyilmiş başını ehmalca düzəltdi və birdən-birə elə bil ürəyinin başına xəncər soxdular, mərhəmətsiz, göynədici bir qüssədən qəhərləndi, az qaldı nəfəsi kəsilsin. O, vücudunu saran hıçqırtılardan titrəyə-titrəyə acı-acı ağladı, lakin gözlərinin yaşını silə bilmirdi: qucağında Qriqorinin uşaqları yatmışdı, Aksinya onları oyatmaq istəmirdi.

IV

İliniçnanın vəfatından sonra evdə külli-ixtiyar Koşevoy oldu, adama elə gəlirdi ki, o, təsərrüfatı təzədən qurmaq, onu daha da genişləndirmək üçün əvvəlkindən artıq səylə işləyəcək, amma tərsinə oldu: günlər keçdikcə Mişka həvəssiz işləyir, evdən tez-tez çıxıb hara isə gedir, axşamlar isə gecədən xeyli keçənə qədər

artırmada oturub papiros çəkir, öz aləmində nəyi isə fikirləşirdi. Ərində baş vermiş bu dəyişikliyi Dunyaşka görməyə bilməzdi. O, əvvəllər fədakarlıqla işləyən Mişkanın birdən-birə, heç bir səbəb olmadan, əlindəki baltanı və ya kərkini yerə tulladığını, kənarda oturub dincəldiyini dəfələrlə görmüş və buna təəccüb etmişdi. Payızlıq çovdar əkəndə də belə olmuşdu: Mişka cəmisi iki şırım yer şumlayıb, öküzləri dayandırmış, papiros bükmüş, qaşqabaqlı halda şumun içində əyləşib hey papiros çəkmişdi.

Atadan keçmə irsi bir dərrakə ilə Dunyaşka təşvişə düşdü, fikrə getdi: "Bu nə bəladır onu tutub... Ya naxoşdur, ya da ki, özünü tənbəlliyə qoyub. Belə kişi ilə yaşamaq məni fəlakətə sürüklər! Elə bil yadların yanında yaşayır: günün yarısını papiros çəkir, yarısında da özünə gəlir, işləməyə vaxtı qalmır... Acığı tutmasın deyə onunla yavaşca dərdləşmək, mətləbi açmaq lazımdır, yoxsa bundan sonra da belə işləsə, evdə yeməyə çörək tapılmaz, ehtiyac xirtdəkdən olar..."

Bir gün Dunyaşka ehtiyatla soruşdu:

– Mişa, niyə belə olmusan, bəlkə xəstəsən?

– Naxoşluq nədir! Burada naxoşluq olmasa da adamın qanı qaralır, – deyə Mişka pərt oldu və öküzləri sürüb toxumsəpən maşını gətirməyə getdi.

Dunyaşka sorğu-sualı davam etdirməyi münasib görmədi; hər halda ərinə ağıl öyrətmək arvad xeylağının borcu deyildi. Bununla da söhbət qurtardı.

Dunyaşka öz gümanında yanılmışdı. Mişkaya əvvəlki kimi səylə işləməyə mane olan yeganə səbəb bu idi ki, onun əqidəsincə, doğma xutorda vaxtından tez məskən salmışdı. O, mahal qəzetində cəbhələrdəki vəziyyətə dair məlumatı oxuyanda, yaxud axşamlar ordudan buraxılmış qızıl əsgərlərin – kazakların söhbətlərini dinləyəndə, pərt olub ürəyində deyirdi: "Təsərrüfatdan tez yapışdım, tələsdim..." Lakin həmyerlilərinin əhvali-ruhiyyəsi onu xüsusilə narahat edirdi: bəziləri açıqdan-açığa danışırdılar ki, qışa qədər Sovet hakimiyyətinə son qoyulacaqdır, Vrangel Krımdan bəriyə çıxmışdır, Maxno ilə birlikdə artıq Rostova yaxınlaşmaqdadır, müttəfiqlər Novorossiysk şəhərinə külli miqdarda desant çıxarmışlar... Biri digərindən sarsaq şayiələr bütün xutoru bürümüşdü. Əsir düşərgələrindən və mədənlərindən evlərinə qayıtmış, yay ayları ərzində ev çörəyi-xörəyi yeyib gümrahlaşmış kazaklar isə heç kəsə

qaynayıb qarışmır, ayrıca durub oturur, gecələr cecə arağı içir, öz aralarında söhbət edir, Mişka ilə üz-üzə gələndə isə süni bir laqeydliklə soruşurdular: "Koşevoy, sən bu qəzetləri oxuyursan, işdən xəbərdarsan, Vrangeli tezmi əzişdirərlər? Bir də müttəfiqlərin yenə bizim üstümüzə soxulduqları yalandır, yoxsa gerçək?"

Bazar gününün axşamı Proxor Zıkov onun yanına gəldi. Mişka çöldən yenicə gəlmişdi, artırmanın yanında durub əl-üzünü yuyurdu. Dunyaşka bardaqdan onun əlinə su tökür, gülümsünərək ərinin arıqlamış, günəşdən qaralmış peysərinə baxırdı. Proxor salam verdi, artırmanın aşağı pilləkənində əyləşib soruşdu:

– Qriqori Panteleviçdən bir xəbər-ətər yoxdur?

– Yoxdur, – deyə Dunyaşka cavab verdi, – məktub yazmır.

Mişka əlini, üzünü sildi, gülümsəmədən Proxorun gözlərinin içinə baxdı:

– Onsuz darıxırsan?

Proxor köksünü ötürdü, köynəyinin içi boş qolunu düzəltdi.

– Aydın işdir. Qulluğa başlayandan bir yerdə olmuşuq.

– Yenə də bir yerdə olmaq niyyətindəsiniz?

– Nəyi deyirsən?

– Xidməti deyirəm.

– O da, mən də kifayət qədər xidmət edib borcumuzdan çıxmışıq.

Mişka yenə də eyni ciddiyyətlə sözünə davam etdi:

– Mən də elə güman etdim ki, yenə birlikdə xidmət etmək üçün sən onun yolunu gözləyirsən, o da gəlib çıxmır. Yenə də Sovet hakimiyyətinə qarşı vuruşmaq istəyirsiniz...

Proxor incik-incik dedi:

– Sən bu sözü nahaq deyirsən, Mixayil.

– Niyə nahaq? Xutora yayılmış söz-söhbətləri eşidirəm.

– Mən də belə sözlər danışmışam? Haradan eşitmisən?

– Sən danışmamısan, amma sənin kimiləri ilə Qriqori kimiləri, "öz adamlarının" yolunu gözləyənlər danışırlar.

– Mən "öz adamlarımızın" yolunu gözləmirəm, məndən ötəri heç fərqi yoxdur.

– Elə orası pisdir ki, səndən ötəri heç fərqi yoxdur. Dur, daxmaya gedək, məndən incimə, bunu zarafatla dedim.

Proxor könülsüz-könülsüz pilləkənlərlə artırmaya qalxdı və dəhlizin astanasından girəndə dedi:

– Sənin zarafatların, qardaşım, heç də xoşagələn şey deyil... Köhnə işləri yaddan çıxarmaq lazımdır. Mən bu müddət ərzində köhnə günahlarımı yumuşam.

Mişka keçib stolun arxasında otura-otura soyuq tərzdə dedi:

– Köhnə işlərin hamısı yaddan çıxmır. Otur bizimlə çörək ye.

– Sağ ol. Əlbəttə, hər şey unudulmur. Budur, mənim bir qolumu kəsiblər, bunu şadlıqla yaddan çıxardardım, amma unuda bilmirəm, hər saniyə yada düşür.

Dunyaşka stolun üstünə süfrə saldı, ərinin üzünə baxmadan soruşdu:

– Sənin sözündən belə çıxır ki, kim ağlara qulluq eləmişdirsə, heç vaxt bağışlanmayacaqdır?

– Bəs sən nə fikirdə idin?

– Mən bu fikirdəyəm ki, kim köhnə ədavəti unutmasa onun gözləri çıxarılmalıdır.

Mişka soyuq-soyuq dedi:

– Xeyr, ola bilsin ki, İncildə belə deyilir. Mənə qalsa, insan öz əməllərinə cavabdeh olmalıdır.

Dunyaşka sakitcə dedi:

– Hökumət bu barədə heç nə demir.

Dunyaşka kənar adam yanında əri ilə höcətləşmək istəmirdi, amma qəlbində Mixayildən incimişdi; Dunyaşkanın fikrincə əri Proxor ilə çox yersiz zarafat elədi, bundan başqa qardaşı Qriqoriyə ədavət bəslədiyini də açıq-aydın söyləməkdən çəkinmədi.

– Hökumət sənə heç nə demir, çünki onun sənin lə danışmalı sözü yoxdur, amma ağlara xidmət edənlər sovet qanunu qarşısında cavab verməlidirlər.

Proxor maraqla soruşdu:

– Deməli mən də cavabdeh olmalıyam?

– Sənin işin asandır: ağa dedi sür dərəyə, sən də sürdün. Yavərlərlə işləri yoxdur, amma Qriqori evə gələndən sonra cavab verməli olacaqdır. Biz ondan üsyan barədə haqq-hesab istəyəcəyik.

– Bu haqq-hesabı sənmi çəkəcəksən? – Dunyaşka içi südlə dolu camı stolun üstünə qoyanda gözlərindən od parladı.

– Mən də çəkəcəyəm, – deyə Mişka sakitcə cavab verdi.

– Bu, sənə aid iş deyil... Sənsiz də sorğu-sual edən tapılar. O, Qızıl Orduda xidmət etməsilə günahını yuyub...

Dunyaşkanın səsi titrəyirdi. O, stolun dalında oturmuşdu, barmaqları döşlüyünün büzmələrini dartışdırırdı. Mişka, arvadının necə həyəcanlandığını görmürmüş kimi eyni sakitliklə sözünə davam etdi:

– Sorğu-sual aparmaq mənim üçün də maraqlı olar. Bağışlamaq məsələsinə gəldikdə, bunu gözləmək lazımdır... Onun bağışlanmağa layiq olduğu diqqətlə yoxlanılmalıdır. O, bizim adamların qanını çox axıtmışdır. Kimin qanı daha çox axıdıldığı hesablanmalıdır...

Dunyaşka ilə birlikdə yaşadığı müddət ərzində bu, onunla arvadı arasında baş vermiş ilk toqquşma idi. Mətbəxə ağır bir sükut çökmüşdü. Mişka kirimişcə süd içir, hərdənbir dodaqlarını yaylığı ilə silirdi. Proxor papiros çəkir, Dunyaşkanın üzünə baxırdı. Sonra o təsərrüfatdan danışdı. Yarım saata qədər də oturdu. Getməzdən əvvəl soruşdu:

– Kiril Qromov gəlmişdir. Eşitmisənmi?

– Yox. O haradan gəlmişdir?

– Qırmızıların yanından. O da Birinci Süvari Orduda olmuşdur.

– Mamontovun yanında qulluq eləyən odur?

– Özüdür ki, var.

– Çox qoçaq döyüşçü idi, – deyə Mişka gülümsədi.

– Yox, canım, nə danışırsan! Talançılıqda birinci olub. Belə işləri çox asanlıqla görür.

– Onun barəsində belə söz çıxmışdı ki, əsirləri qılıncla mərhəmətsizcəsinə doğrayır. Təkcə çəkməsindən ötrü öldürürmüş.

– Bəli, belə bir söz çıxmışdı, – deyə Proxor da təsdiq elədi.

Mişka hiyləgərcəsinə soruşdu:

– Onu da bağışlamaq lazımdır, eləmi? Deməli, xudavəndi-aləm düşmənlərini bağışlardı, belə eləməyi bizə də əmr etmişdir, eləmi?

– Necə deyim, heç bilmirəm... Haqq-hesab ayağına çəkməklə ondan nə alacaqsan?

– Mən alaram... – Mişka gözlərini qıydı. – Mən onu elə məhşər ayağına çəkərdim ki, bu həngamədən sonra canı çıxardı! O, bu haqq-hesabdan yaxasını qurtara bilməyəcəkdir. Vyoşkidə Fövqəladə Komissiya var, onun köpünü yaxşı alarlar.

Proxor gülümsədi:

– Vallah, yaxşı deyiblər ki, qozbeli qəbir düzəldər. O, Qızıl Ordudan da qənimət gətirib. Arvadı bizimkinə lovğalanırmış ki, ərim mənə bir cür arvad paltosu, çoxlu paltar və sair müxtəlif şeylər

gətirmişdir. O, Maslakın briqadasında imiş, oradan da evə əkilmişdir. Güman ki, əsgərlikdən qaçmışdır, silahını da gətirmişdir.

– Nə silah? – deyə Mişka maraqlandı.

– Məlum işdir: gödək lüləli tüfəngini, naqanını, bəlkə başqa şey-şüy də gətirmişdir.

– Gedib Sovetdə qeyd olunmuşdur?

Proxor güldü, əlini yellətdi:

– Onu heç kəmənd ilə də dartıb Sovetə apara bilməzsən! Belə ki, görürəm, o qaçmağa hazırlaşır. Bu gün-sabah evdən əkiləcəkdir. Hər şeydən görünür ki, Kiril yenə də vuruşmaq istəyir, amma sən mənə böhtan atdın. Yox, qardaş, mən davadan zara gəlmişəm, yetər, özü də xirtdəyə qədər; daha heç yana gedən deyiləm.

Bir az keçəndən sonra Proxor getdi. Bir qədər sonra Mişka da həyətə çıxdı. Dunyaşka uşaqları yedirtmişdi, yenicə yataqlarına uzandırmağa hazırlaşırdı ki, Mişka içəri girdi. Onun əlində kisə cırığına bükülmüş nə isə var idi.

Dunyaşka acıqlı-acıqlı soruşdu:

– Hansı cəhənnəmdə idin?

– Cehizimi çıxardırdım, – deyə Mişa arxayınca gülümsədi.

O, kisəni açdı, səliqə ilə bükülmüş tüfəngini, içi ağzına kimi patronla dolu yan çantasını, naqanını və iki qumbara çıxartdı. Hamısını taxtın üstünə yığdı, nəlbəki gətirdi, içinə ehmalca bir az neft tökdü.

Dunyaşka qaşları ilə silaha işarə edib soruşdu:

– Bunları haradan almısan?

– Özümünküdür, cəbhədən gətirmişəm.

– Bəs harada gizlətmişdin?

– Hara gizlətmiş olsam da, budur, salamat saxlaya bilmişəm.

– Bəs belə, deməli sən sirr saxlayırsan. Bu barədə mənə bir kəlmə də deməmisən. Deməli, arvadından xəlvət işlər tutursan?

Mişka süni bir laqeydliklə gülümsədi:

– Dunyaşka, bunları bilmək sənin nəyinə gərəkdir? Belə şeylər arvad işi deyil, axı. Qoy bunlar, bu dövlət evdə qalsın, belə şey evdə kara gələr.

– Bəs niyə bunları evə gətirmisən? Sən ki, qanun tərəfdarısan, hər şeydən xəbərdarsan... Belə şeylər saxladığına görə qanun qarşısında cavab verməli olmazsan?

Mişkanın siması sərtləşdi, dedi:

– Axmaqsanmış! Kiril Qromov evinə silah gətirəndə, bunun Sovet hakimiyyətinə ziyanı dəyər; mən gətirsəm, Sovet hakimiyyəti bundan yalnız xeyir görəsidir. Başa düşdünmü? Ağzına nə gəldi çərənləyirsən, yıxıl, yat!

O, öz mülahizəsinə görə, yeganə düzgün nəticə çıxarmışdı: əgər ağların tör-töküntüləri evlərinə silahla qayıdırlarsa, Mişka da ehtiyat üçün ayıq olmalıdır. O, tüfəngini, naqanını səliqə ilə silib təmizlədi, ertəsi gün, səhər dan yeri ağaran kimi piyada Veşenskiyə yola düşdü.

Dunyaşka onun heybəsinə yol üçün çörək-xörək qoyanda dil-xorluqla və acı-acı dedi:

– Sən mənimlə hələ də qaradinməz oyunu oynayırsan! Heç olmasa bunu de, görüm, neçə günlüyə gedirsən, nədən ötəri gedirsən? Belə günə-güzərana lənət! Hazırlaşıb səfərə çıxır, amma bir kəlmə söz eşitmirsən!.. Sən mənim ərimsən, yoxsa yadsan, yoldan ötənsən?

– Mən Vyoşkiyə, komissiyaya gedirəm, bundan başqa sənə nə deyim? Qayıdaram, hər şeyi bilərsən.

Mişka çantasını əlində tutaraq çaya endi, qayığa mindi, sürətlə qayığı çayın o biri sahilinə doğru sürdü.

Veşenskayada tibb komissiyasının müayinəsi qurtardıqda həkim Mişkaya qısaca dedi:

– Əziz yoldaş, siz Qızıl Ordu sıralarında xidmətə yaramırsınız. Müalicə lazımdır, yoxsa axırı pis olar. Sənin kimilər Qızıl Orduya gərək deyil.

– Bəs neçəsi lazımdır? İki il qulluq eləyəndə gərək oldum, indi lazım deyiləm?

– Orduya hər şeydən əvvəl sağlam adamlar lazımdır. Sağalsanız siz də lazım olarsınız. Bu resepti götürün, aptekdən kinə alın.

– Belə-ə-ə işlər, hər şey aydındır. – Koşevoy üst köynəyini elə geyinirdi ki, elə bil gəhgir atın başına xamıt keçirirdilər: başını gəzdirir, köynəyin yaxasından bayıra çıxarda bilmirdi, şalvarının qabağını küçədə düymələdi və birbaş mahal partiya komitəsinə getdi.

...Qayıdanda Mişka Tatarsk xutor inqilabi komitəsinin sədri idi. O, atüstü arvadı ilə salamlaşandan sonra dedi:

– Hə, indi baxarıq, görək nə olur!

– Sən nədən danışırsan? – deyə Dunyaşka təəccüblə soruşdu.

– Yenə həmin mətləbdən.

– Nədən?

– Məni sədr təyin elədilər. Anlaşıldımı?

Dunyaşka bəlaya düşmüş adam kimi əlini əlinə vurdu. O, ərinə nə isə demək istədi, amma Mişka onun sözlərinə qulaq asmadı; güzgü qarşısında rəngi solmuş xaki köynəyinin üstündən çəkilmiş kəmərini düzəltdi və Sovetə getdi.

İnqilab komitəsinin sədri, qış girəndən bəri, qoca Mixeyev idi. Bir qədər koruş və kar olan bu adam vəzifəsindən yaman şikayətçi idi və əvəzinə başqasının təyin olunduğunu öyrəndikdə, buna hədsiz şad oldu. O, aşkar bir sevinclə danışır, xaç çevirir və əllərini bir-birinə sürtüb deyirdi:

– Bax, ay bala, sənin qadanı alım, bu kağızlar, bu da xutorun möhürü, sən Allah bunları götür. Səksən yaşındayam, ömrümdə vəzifə görməmişəm, amma burada bu yaşımda iş tapşırdılar... Belə iş sizin kimi cavan adamların işidir, mənim harama yaraşır! Nə düz-əməlli görürəm, nə də eşidirəm... Mənim Allaha ibadət vaxtımdır, amma gətirib sədr qoyublar.

Mişka stanitsa inqilab komitəsi tərəfindən göndərilmiş sərən-camlarla əmrlərə ötəri nəzər salıb soruşdu:

– Bəs katib haradadır?

– Nə dedin?

– Lənət sənə şeytan, deyirəm katib haradadır?

– Katibmi? Buğda səpir. Allah onun başına daş salsın, buraya həftədə bircə dəfə gəlir. Bəzən stanitsadan kağız yollayırlar, oxumaq lazımdır, amma katibi çıraqla da tapa bilmirsən. Vacib kağız neçə günlərlə oxunmamış qalır. Mənim isə savadım yoxdur, heç yoxdur! Qolumu çətinliklə çəkirəm, amma heç şey oxuya bilmirəm, əlimdən möhür basmaqdan başqa bir iş gəlmir...

Koşevoy qaşlarını çatdı, inqilab komitəsinin bomboş otağını nəzərdən keçirdi; burada divara yapışdırılmış və hər tərəfinə çibin oturmuş köhnə plakatdan başqa bəzək naminə heç nə yox idi.

Qoca vəzifəsindən belə gözlənilmədən çıxarılmasına o qədər sevinmişdi ki, cəsarətlənib hətta zarafat da elədi: bir cındıra bükülmüş möhürü Koşevoya verəndə dedi:

– Xutorun bütün var-dövləti bundan ibarətdir, pul-mul yoxdur; Sovet hakimiyyəti dövründə isə ataman əsası gəzdirməyə icazə

verilmir. İstəsən bu qoca kişi əsasını sənə bağışlaya bilərəm. – Bunu deyib gülümsədi, əsasını Koşevoya uzatdı. Gülümsəyəndə ağzı açıldı, onun ağzında bir dənə də diş yox idi.

Lakin Koşevoyun zarafat etməli halı yox idi. O, miskin otağa bir də göz gəzdirdi, qaşqabağını salladı, köksünü ötürərək dedi:

– Belə hesab edək ki, baba, mən işləri səndən təhvil aldım. İndi isə buradan çıx get, gözümə görsənmə! – O, gözləri ilə mənalı-mənalı qapını göstərdi.

Sonra stolun dalına keçdi, dirsəklənərək, dişlərini bir-birinə qıcamış, alt çənəsi irəliyə çıxmış halda xeyli tək oturdu. Pərvərdigara, o son zamanlarda, torpağın içində başını qaldırmadan eşələnəndə, ətrafında nələr olduğuna dürüst fikir verməyəndə nə qədər axmaq adam imiş! Həm özünə, həm də ətrafındakı hər şeyə son dərəcə qəzəblənmiş Mişa stolun arxasından qalxdı, üst köynəyini düzəltdi, dişlərini qıcadı, məchul bir nöqtəyə baxaraq dedi:

– Mən indi, ay qoçaqlar, Sovet hakimiyyətinin nə olduğunu sizə göstərərəm!

O, qapını kip örtdü, rəzəni halqaya keçirdi, meydandan keçib evə doğru yönəldi. Kilsə yaxınlığında yeniyetmə Obnizova rast gəldi, saymazyana ona başını tərpətdi, yanından ötdü, birdən yadına vacib bir şey düşdüyündən geriyə döndü, oğlanı səslədi:

– Ey, Andryuşa! Bir dayan, buraya gəl!

Sir-sifətdən kürən və utancaq olan oğlan kirimişcə ona yaxınlaşdı. Mişka, böyük adamla görüşürmüş kimi, ona əl verdi, soruşdu:

– Hara gedirsən? Bu tərəfəmi gedəsisən? Hə, deməli gəzirsən, hə? Yoxsa işin var? Səndən belə bir şey soruşmaq istəyirəm: sən, gərək ki, orta məktəbdə oxumusan. Oxumusanmı? Çox yaxşı. Dəftərxana işini bilirsənmi?

– Nə dəftərxana?

– Adi dəftərxana. Daxili və xarici dəftərlər saxlanan yer, bunu bilmirsən?

– Yoldaş Koşevoy, sən nədən danışırsan?

– İdarəyə göndərilən kağızlardan. Sən bunu bilirsənmi? Deməli, bəziləri göndərilir, başqa cürələri də olur. – Mişka qeyri-müəyyən şəkildə barmaqlarını tərpətdi və oğlanın cavabını gözləməyərək qətiyyətlə dedi: – Eybi yoxdur, bilməsən də sonra öyrəşərsən. Mən bu saat xutor inqilab komitəsinin sədriyəm, səni də savadlı bir oğlan

kimi, katibliyə təyin edirəm. İnqilab komitəsi binasına get, gözqulaq ol, işlərin hamısı stolun üstündədir, mən də tezliklə qayıdıram. Anladınmı?

– Yoldaş Koşevoy!

Mişka əlini yellətdi, səbri tükəndiyindən dedi:

– Bu barədə biz səninlə sonra danışarıq, hələlik get, vəzifənə başla. – Sonra da aramla, müntəzəm addımlarla getdi.

O, evdə təzə şalvarını geyindi, naqanını cibinə qoydu və güzgü qarşısında furajkasını səliqə ilə başına qoyandan sonra arvadına dedi:

– İş üçün bir yer var, ora gedirəm. Birisi gəlib soruşsa ki, sədr haradadır, deyərsən ki, tezliklə qayıdacaqdır.

Sədr vəzifəsi onun boynuna bəzi şey qoyurdu. Mişka aramla və təşəxxüslə yeriyirdi; onun yerişi o qədər qeyri-adi idi ki, həmyerlilərindən bəziləri onunla qarşılaşdıqda dayanır, gülümsünə-gülümsünə dalınca baxırdılar. Ona döngədə rast gəlmiş Proxor Zıkov zarafatyana hörmətlə geri çəkildi, çəpərə söykənərək soruşdu:

– Bu nədir, ay Mixayil? İş-güc vaxtı bayramsayağı bəzənmisən, elə bil rəsmi keçiddəsən... Yoxsa təzədən evlənməyə gedirsən?

– Buna oxşar bir şeydir, – deyə Mişka cavab verdi, mənalı tərzdə güldü.

Qromovların darvazasına çatanda o ayağını saxlamadan əlini cibinə saldı, tənbəki kisəsini çıxartdı, geniş həyəti, çoxlu dağınıq tikintiləri, otağın pəncərələrini diqqətlə nəzərdən keçirdi.

Kiril Qromovun anası dəhlizdən eşiyə çıxırdı. O, başını bir az geriyə əymiş halda, tas dolusu xırda doğranmış yem aparırdı. Mişka ona ehtiramla salam verdi, artırmaya yönəldi.

– Kiril evdədirmi, xala?

– Evdədir, evdədir, – deyə qarı kənara çəkildi, Mişkaya yol verdi.

Mişka qaranlıq dəhlizə girdi, qapının dəstəyini axtarıb tapdı.

Qapını Kiril özü açdı, bir addım geriyə çəkildi. Üzü tərtəmiz qırxılmış, gülümsər və bir az kefli olan Kiril nədən ötrü gəldiyini bilmək istəyən baxışlarla Mişkaya nəzər salıb dedi:

– Əsgəri xidmətdə olmuş birisi də gəldi! Keç, otur, Mişka, qonağımız ol. Biz də burada bala-bala vururuq...

Mişka ev sahibinin əlini sıxdı, stolun arxasında əyləşənlərə göz gəzdirib dedi:

– Duz-çörək də var, şirin şərab da.

Onun gəlişi buradakıları açmadı. Qarşıdakı küncdə yayılıb oturmuş enlikürək, Mişanın tanımadığı bir kazak, Kirilin üzünə ani və sualedici nəzər saldı, stəkanını kənara itələdi. Stolun bu tərəfində əyləşmiş Semyon Axvatkin, Korşunovların uzaq qohumu, Mixayili görəndə qaşqabağını salladı, üzünü kənara çevirdi.

Ev sahibi xahiş etdi ki, Mişka keçib stolun dalında əyləşsin.

– Təklifinizə görə sağ olun!

– Yox canım, otur, xətrimizə dəymə, bizimlə iç.

Mişka keçib oturdu. O, ev sahibinin verdiyi cecə arağı ilə dolu stəkanı aldı, baş əyib dedi:

– Kiril İvanoviç, xoş gəlmisən!

– Sağ ol. Sən ordudan çoxdanmı gəlmisən?

– Çoxdan gəlmişəm. Evə-eşiyə öyrəşmişəm də.

– Deyildiyinə görə evə-eşiyə öyrəşmisən də, evlənmisən də, düzdürmü? A kişi, niyə belə çəkinirsən ey? Kefin istədiyi qədər iç!

– İstəmirəm. Mənim sənlə işim var.

– Elə şey yoxdur! Sən mənimlə belə zarafatlar eləmə! Bu saat mənim işdən danışmağa vaxtım yoxdur. Bu gün mən dostlarımla kef eləyirəm. Əgər sənin mənimlə işin varsa, onda sabah gəl.

Mişka stolun dalından qalxdı, arxayınca gülümsəyib dedi:

– İş deyəndə boş bir şeydir, amma tələsikdir. Gəl bir hovurluğa eşiyə çıxaq.

Kiril səliqə ilə eşilmiş və ucları burulmuş qara bığlarını tumarladı, bir az susdu, sonra ayağa qalxdı.

– Bəlkə sözünü elə burada deyəsən? Axı niyə məclisimizi pozaq?

Mişka təmkinlə, lakin israrla xahiş elədi:

– Yox, gəl eşiyə.

Mişkanın tanımadığı enlikürək kazak Kirilə dedi:

– A kişi, onunla eşiyə çıx, niyə çənə döyürsünüz?

Kiril könülsüz mətbəxə keçdi. Sobanın yanında qurdalanan arvadına pıçıldadı:

– Katerina, buradan get! – Və taxtın üstündə oturub saymazyana soruşdu: – De görək nə işdir?

– Sən neçə gündür ki, evdəsən?

– Necə məgər?

– Sual edirəm, neçə gündür evinə gəlmisən?

– Deyəsən dördüncü gündür.

– İnqilab komitəsinə gedibsənmi?

– Hələ yox.

– Vyoşkiyə, hərbi komissariata getmək fikrin var?

– Sən sözü azdırıb haraya aparırsan? İşdən ötəri gəlmisənsə, o barədə də danış.

– Mən elə iş barəsində danışıram.

– Onda cəhənnəm ol buradan! Sən kimsən, nəçisən ki, mən sənə haqq-hesab verim?

– Mən inqilab komitəsinin sədriyəm. Hissədən verilmiş vəsiqəni göstər.

– Belə de-e-e-e-e! – deyə Kiril səsini uzatdı və ayazımış gözlərini Mişkanın bəbəklərinə zillədi. – Sən indi, beləsənmiş!

– Elədir ki, var. Vəsiqəni göstər!

– Bu gün Sovetə gələrəm, gələndə gətirərəm.

– Bu saat göstər!

– Vəsiqəm əldə deyildir, hara isə qoymuşam.

– Axtar, tap.

– Yox, indi axtarmayacağam. Çıx, get evinə Mixayil, qalmaqal salma.

– Mənim sənlə qalmaqalım çox müxtəsərdir... – Mişka əlini sağ cibinə saldı. – Paltarını geyin!

– Boşla, Mixayil! Sən mənə toxunmasan yaxşı olar...

– Sənə deyirəm, geyin gedək!

– Haraya?

– İnqilab komitəsinə.

– Getməyə heç həvəsim yoxdur. – Kirilin rəngi dümağ oldu, amma rişxəndlə danışırdı.

Mişka sol tərəfə burxularaq naqanı cibindən çıxartdı, ayaqda saxladı.

– Sən gedəcəksən, yoxsa yox? – deyə yavaşca soruşdu.

Kiril kirimişcə otağa doğru yönəldi, lakin Mişka onun qabağına keçdi, gözləri ilə dəhlizə keçməyi işarə elədi.

Kiril süni bir xatircəmliklə qışqırdı:

– Uşaqlar! Deyəsən məni burda həbs edirlər! Arağın yerdə qalanını mənsiz için!

Otağın qapısı taybatay açıldı, Axvatkin istədi kandardan keçsin, amma naqan lüləsinin düz ona tuşlandığını görəndə cəld geri çəkildi, divarın dalında gizləndi.

Mişka Kirilə əmr etdi:

– Düş qabağıma!

Kiril yırğalana-yırğalana qapıya doğru getdi, könülsüz-könülsüz dəstəkdən yapışdı və birdən bir sıçrayışla dəhlizdən keçdi, evin çöl qapısını bərk çırpıb, artırmadan hoppandı. O, sinə-sinə həyətdən bağın içinə qaçıncaya qədər Mişka iki güllə atdı, amma güllələrin heç biri dəymədi. Mişka naqanın lüləsini, qatladığı sol dirsəyinə söykədi, ayaqlarını aralı qoydu, diqqətlə nişan aldı. Üçüncü güllə açılandan sonra deyəsən Kiril büdrədi, amma özünü yığışdırıb, çəpərin üstündən quş kimi atıldı. Mişka artırmadan ona tərəf yüyürdü. Onun dalınca evdən güllə atıldı. Güllə Mişkanın qabağında mərəyin ağardılmış divarına girdi, torpağı dağıtdı, yerə boz daş ovuntusu səpələndi.

Kiril rahatca və sürətlə qaçırdı. Onun bükülmüş gövdəsi alma ağaclarının yamyaşıl çətirləri altında şütüyürdü. Mişka da hoppanıb çəpərdən aşdı, yerə yatdı, uzanmış halda qaçan Kirilə iki güllə daha atdı, üzünü evə doğru çevirdi. Evin çöl qapısı taybatay açıq idi. Kirilin anası artırmaya çıxmışdı, əlini gözlərinin üstünə qoyub bağ tərəfə baxırdı. Beyni kütləşmiş kimi olan Mişka ürəyində deyirdi: "Onu danışıqsız yerindəcə güllələmək lazım idi!" O, evdən gözlərini çəkməyərək bir neçə dəqiqə daha çəpərin altında yerdə uzandı, dizinə yapışmış palçığı mexaniki və müntəzəm hərəkətlərlə təmizləyib, ayağa qalxdı, çəpərin üstündən ağır-ağır aşdı və naqanın lüləsini aşağıya salaraq evə getdi.

V

Kiril Qromov ilə birlikdə Axvatkin də, Koşevoyun Qromovun evində gördüyü, amma tanımadığı kazak da aradan çıxdılar. Həmin gecə kazaklardan iki nəfəri də xutordan yox oldu. Don Fövqəladə Komissiyasının kiçik bir dəstəsi Veşenskayadan Tatarskiyə gəldi. Kazaklardan bəzilərini həbsə aldılar, hissələrindən sənədsiz gəlmiş dörd nəfərini isə Veşenskaya cərimə rotasına yolladılar.

Koşevoy səhərdən axşamadək inqilab komitəsində olur, qaranlıq qarışanda evə gəlir, dolu tüfəngi çarpayısının yanına söykəyir, naqanını balışının altına qoyur, paltarını soyunmadan yatırdı.

Kirilə güllə atandan üç gün sonra o Dunyaşkaya dedi:

– Gəl dəhlizdə yataq.

– Niyə? – deyə Dunyaşka heyrətindən dondu.

– Pəncərədən güllə ata bilərlər. Çarpayımız pəncərənin qabağındadır.

Dunyaşka kirimişcə çarpayını dəhlizə çəkdi, axşam isə soruşdu:

– Bu nədir, elə ömrümüz boyu dovşan kimi səksəkə içərisində yaşayacağıq? Qış gələcək, biz yenə də dəhlizdə yuva salacağıq?

– Qışa hələ çox qalır, hələlik belə yaşamaq lazımdır.

– Bu "hələlik" nə vaxtadək davam edəcəkdir?

– Mən Kirili öldürüncəyə qədər.

– Sən elə bilirsən ki, o gəlib qabağında duracaq ki, gülləni kəlləmə çax?!

– Bir gün gəlib duracaqdır, – deyə Mişka ona inamla cavab verdi.

Lakin onun haqq-hesabı düz çıxmadı: Donun o tayında harada isə dostları ilə birlikdə gizlənmiş Kiril Qromov Maxnonun yaxınlaşdığını eşidib, Donun sağ sahilinə keçdi, Krasnokutskaya stanitsasına getdi. Şayiələrə görə Maxnonun quldur dəstəsinin ön hissələri burada idi. Gecə o xutora gəlmiş, küçədə təsadüfən Proxor Zıkovla qabaqlaşmış, ona əmr etmişdi ki, Koşevoya deyərsən: Qromov ona dərin hörmətlə baş əyir, yolunu gözləməsini xahiş edir. Proxor ertəsi günü Kirillə qarşılaşdığını, onunla söhbətini Mişkaya söylədi.

Mişka Proxoru axıradək dinləyib dedi:

– Eybi yoxdur, gəlsin. Bir dəfə əkilə bildi, amma ikinci dəfə canını qurtara bilməyəcəkdir. O, bələləri ilə necə rəftar etmək lazım olduğunu mənə öyrətdi, buna görə də təşəkkür edirəm.

Maxno doğrudan da Yuxarı-Donsk mahalı ərazisində görsəndi. O, Konkovo xutoru yaxınlığında, Veşenskayadan onun üstünə göndərilmiş piyada batalyonu kiçik bir toqquşmada darmadağın etdi, amma mahal mərkəzinə doğru getmədi, Millerovo stansiyasına tərəf yönəldi, ondan şimalda dəmiryolnu keçib Starobelsk tərəfə getdi. Ən fəal ağqvardiyaçı kazaklar onun dəstəsinə qoşuldu, amma əksəriyyəti evlərində qaldı; onlar işin axırını gözləyirdilər.

Koşevoy əvvəlki kimi yenə də sayıq dolanır, xutorda olub keçən hər işə göz qoyurdu. Tatarskda isə həyat o qədər də qəşəng deyildi. Kazaklar çəkdikləri qıtlığa görə Sovet hakimiyyətini söyürdülər. Yaxınlarda təşkil edilmiş istehlak cəmiyyətinin balaca dükanında, demək olar ki, heç nə tapılmırdı. Sabun, qənd, duz, neft, kibrit, maxorka, araba yağı kimi camaata çox lazım olan şeylərin heç biri satışda yox idi; dükanın boş qəfəsələrində yalnız bahalı asmolov papirosu, bir də aylardan bəri alınmayan dəmir məmulat yatıb qalırdı.

Neft əvəzinə gecələr nəlbəkiyə ərinmiş yağ və ya piy töküb yandırırdılar. Maxorkanı özlərinin əkdikləri tənbəki əvəz edirdi. Kibrit tapılmadığı üçün çaxmaqdaşı ilə dəmirçilər tərəfindən alətləsik hazırlanan polad tiyə geniş yayılmışdı. Tez alışsın deyə qovu, günəbaxan gülü tökülmüş suda qaynadırdılar, lakin camaat hələ buna öyrəşmədiyindən od çətin əldə edilirdi. Mişka axşamlar inqilab komitəsindən evə qayıdanda papiros çəkənlərin küçədə bir araya toplaşıb, tiyəni hamısı birdən çaxmaqdaşına çırparaq yavaşdan ana söyüşü yağdırdıqlarını, "Ay Sovet hakimiyyəti, od ver görək!" dediklərini dəfələrlə eşitmişdi. Nəhayət, bu adamlardan birinin quru qovu alışır, hamı başını əyib yanan odu üfləyir, papiroslarını yandırır, kirimişcə çömeltmə oturur, təzə xəbərlərdən danışırdılar. Papiros bükmək üçün kağız da qəhətə çıxmışdı. Kilsə zirzəmisindəki bütün metrik dəftərləri çırpışdırıb aparırdılar, bunlar qurtardıqdan sonra kiçik yaşlı uşaqların dərs kitablarına, qocaların saxladığı dini kitablara əl atdılar, bütün bunlara papiros bükməyə başladılar.

Melexovların köhnə evinə çox tez-tez gəlməyə başlamış Proxor Zıkov papiros kağızını Mixayildən alır, qəmgin-qəmgin söylənirdi:

– Bizim arvadın sandığının qapağına çoxlu köhnə qəzet yapışdırılmışdı, hamısını dartıb qopartdım, papiros bükdüm. Əhdi-cədid dini kitabı var idi, onu da papirosa işlətdim. Sonra Əhdi-ətiqi işlətdim. Peyğəmbərlər, imamlar belə kitabları az yazıblarmış... Arvadın şəcərə kitabı var idi, orada ölmüş və sağ qohum-əqrəbası qeyd olunmuşdu, onu da işlətdim. İndi neyləyim, tütünü kələm yarpağınamı büküm, yoxsa ocaqda ayıpəncəsi qurudub ondan kağızmı hazırlayım? Yox, Mixayil, necə edirsən et, amma mənə qəzet ver. Papirossuz keçinmirəm. Mən Almaniya cəbhəsində bəzən çörək payımı əlli qram maxorkaya dəyişmişəm.

O ilin payızında Tatarskda həyat çox sıxıntılı idi... Yağlanmadıqlarına görə arabaların təkərləri cırıldayır, qatran yaxılmadığı üçün ayaqqabılar və qoşqu ləvazimatı quruyur və çatlayırdı, amma adamları hər şeydən betər duz qəhətliyi darıxdırırdı. Tatarsklılar Veşenskayaya gedir, orada beş girvənkə duza bir kök toğlu verir, evlərinə qayıdanda Sovet hakimiyyətinə, xarabazarlığa söydükcə söyürdülər. Bu zəhrimara dönmüş duz Mixayilə böyük dərdi-sər olmuşdu. Bir gün qocalar yığışıb Sovetə gəldilər. Onlar sədrlə təntənə ilə salamlaşdılar, papaqlarını çıxardıb baş əydilər, keçib taxtın üstündə yan-yana əyləşdilər. Biri dedi:

– Cənab sədr, duz yoxdur.

– İndi cənab yoxdur, – deyə Mişka kişinin səhvini düzəltdi.

– Bağışla, xahiş edirəm, mən sözümü köhnə qayda ilə dedim... Cənabsız yaşamaq olar, amma duzsuz yaşamaq olmaz.

– Deyin görək, qocalar, nə istəyirsiniz?

– Sən sədrsən, tədbir gör, qoy duz gətirsinlər. Manıçdan öküzlə duz gətirmək olmaz.

– Mən bu haqda mahala xəbər vermişəm. Orada bilirlər. Tezliklə duz gətiriləcəkdir.

Qocalardan biri başını yerə dikib dedi:

– Ölmə eşşəyim, ölmə – yaz gələr, yonca bitər!

Mişka bərk pörtdü, stolun dalından durdu. Hirsindən qıpqırmızı qızarmış halda, ciblərini tərsinə çevirdi:

– Məndə duz yoxdur. Gördünüzmü? Mən onu nə cibimdə gəzdirirəm, nə də sizə yerin deşiyindən çıxardıb verəsiyəm. Aydındırmı, qocalar?

Bir qədər sakitlikdən sonra təkgöz qoca Çumakov sağ qalmış tək gözü ilə hamının üzünə heyrətlə nəzər salaraq soruşdu:

– Bəs bu duz hara getmişdir? Keçmişdə, əvvəlki hökumətin zamanında, heç kəs duzdan söz-söhbət salmazdı, hər yerdə təpə kimi qalanmış olardı, indi isə bir çimdik də tapa bilmirsən...

– Bu məsələdə bizim hakimiyyətin təqsiri yoxdur, – Mişka bunu sakit dedi. – Bircə hökumət müqəssirdir: sizin keçmiş kadet hökumətiniz! Həmin hökumət ölkəni elə xaraba qoymuşdur ki, bəlkə duz gətirməyə də nəqliyyat yoxdur! Bütün dəmir yolları dağıdılmışdır, vaqonlar da onun kimi...

Mişka ağların geriyə çəkildikdə dövlət əmlakını məhv etmələrini, zavodları partlatmalarını, anbarları yandırmalarını qocalara uzun-uzadı söhbət elədi. O, bəzi şeyləri müharibə zamanı öz gözləri ilə görmüş, bəziləri haqqında eşitmişdi, qalanını da yalnız bircə məqsəd üçün – doğma Sovet hakimiyyətindən narazılığın qarşısını almaq üçün özündən uydurdu. Bu hakimiyyəti məzəmmətlərdən qurtarmaq üçün, o qərəzsiz olaraq yalan deyir, kələk işlədir, ürəyində isə belə fikirləşirdi: "Bu köpək uşağına mən bir az yalan satsam nə böyük fəlakət olarmış ki! Fərqi yoxdur, bunların hamısı əclafdır; yalanın bunlara ziyanı dəyməz, amma bizə xeyri olar..."

Mişka gözləri parıldaya-parıldaya deyirdi:

– Siz elə bilirsiniz ki, onlar – bu burjuylar əldəqayırma adamlardır? Onlar axmaq deyillər! Onlar Rusiyanın hər yerində yüz min pudlarla şəkər və duz ehtiyatını yığışdırdılar və əvvəlcədən Krıma daşıdılar, oradan da gəmilərə yükləyib, başqa məmləkətlərdə satmağa yolladılar.

Təkgöz Çumakov Mişkanın dediyinə inanmayaraq soruşdu:

– Nə demək istəyirsən, onlar mazutu da daşıdılar, apardılar?

– Bəs sən elə bilirsən, ay baba, aparmadılar? Sənə saxladılar? Bütün zəhmətkeşlər kimi sən də onlara lazım deyilsən. Bu mazutu satmağa onlar adam taparlar! Camaat acından qırılsın deyə onlar, bacarsaydılar, buradan hər şeyi götürüb gedərdilər.

Qocalardan biri onun dedikləri ilə razılaşdı:

– Bu, əlbəttə, dediyin kimidir. Dövlətlilərin hamısı gözü doymaz adamlardır. Qədim zamanlardan bəri məlumdur ki, insan nə qədər varlansa, bir o qədər acgöz olur. Veşenskayada, camaat birinci dəfə çəkilib gedəndə, bir tacir bütün var-dövlətini arabalara doldurur, iynəsinə-sapına qədər dövlətini yığışdırır; qırmızılar stanitsaya lap yaxınlaşdığı halda tacir həyətdən yola düşmür, əynində xəz kürk evinin ətrafında dolanır, əlində kəlbətin divarlardakı mıxları çıxardırmış. "İstəmirəm, – deyirmiş, – bu məlunlara tək bir mıx da qalsın!" Odur ki, onların mazutu da götürüb getmələri təəccüblü şey deyil.

Söhbətin sonunda qoca Maksayev sadəlövhcəsinə soruşdu:

– Axı bir deyin görək, duzsuz nə cür dolanaq?

Mişka ehtiyatla gözləməyi məsləhət gördü:

– Fəhlələrimiz tezliklə təzə duz mədənləri taparlar, hələlik isə Manıça araba yollamaq olar.

– Camaat ora getmək istəmir. Orada kalmıklar şuluqluq edir, göllərdən duz yığmağa qoymurlar, öküzləri gözgörəti oğurlayıb aparırlar. Mənim tanışlarımdan biri oradan lüt qayıtdı, əlində bircə qamçısı qalmışdı. Gecə Velikoknyajeskayadan o yanda üç silahlı kalmık atlarını sürüb onlara yaxınlaşır, öküzləri götürüb gedir, ona da boğazını göstərərək "Səsini çıxarma, – deyirlər, – yoxsa başını kəsərik..." Bundan sonra ora get görüm, necə gedirsən!

– Gözləmək lazım gələcəkdir, – deyə Çumakov ah çəkdi.

Mişka qocaları birtəhər yola gətirdi, amma öz evində yenə də həmin duz məsələsi üstündə Dunyaşka ilə yekə qalmaqalı oldu. Ümumiyyətlə, onların ər-arvadlıq münasibətləri pozulurdu...

Bu, Proxorun yanında Mişkanın Qriqoridən söhbət elədiyi gündən başlanmış, amma bu kiçik söhbət unudulmamışdı. Bir axşam Mişka xörək yeyəndə dedi:

– Ay arvad, şorban duzsuzdur. Sənin xörəyin həmişə ya duzlu olur, ya da duzu kəm!

– Bu hökumətin zamanında xörək çox duzlu ola bilməz. Heç xəbərin varmı ki, nə qədər duzumuz qalıb?

– Hə, nə qədər?

– İki çimdik.

– İşlər xarabdır, – deyə Mişka köksünü ötürdü.

– Ağıllı adamlar hələ yaydan Manıça duz dalınca gediblər, amma bunun qeydinə qalmağa sən bu vaxtadək macal tapmamısan, – deyə Dunyaşka onu məzəmmətlədi.

– Oraya nə ilə gedəydim? Ərə getdiyinin birinci ili səni arabaya qoşmaq bir növ münasib olmazdı, cöngələrimiz isə hələ balacadır...

– Sən bu zarafatını başqa bir vaxta saxla! Bundan sonra xörəyi duzsuz yeyərsən onda zarafat eləyərsən!

– Sən niyə mənim üstümə belə qışqırırsan? Düzünü desək, mən sənə duzu haradan alım verim? Siz arvadlar, qəribə adamlarsınız ha... Elə deyir: erkəksən də doğ, dişisən də. Əgər bu zəhrimara dönmüş duz qəhətə çıxıbsa, yoxdursa, neyləyim?

– Camaat öküz arabası ilə Manıça gedirdi. Deməli, onların indi duzu da var, hər şeyi də, biz isə şit ilə turşu bir-birinə qatıb yeməli olacağıq...

– Dunya, bir növ keçinərik. Yaxınlarda duz gətiriləcəkdir. Elə bilirsən bizim məmləkətdə belə şeylər azdır?

– Sizdə hər şey çoxdur.

– Sizdə deyəndə, kimi nəzərdə tutursan?

– Qırmızıları.

– Bəs sən kimsən?

– Heç kim. Basdılar-bağladılar: "Bizim hər şeyimiz bol olacaq, hamımız bərabər və varlı yaşayacağıq..." Bu da sənin varlı həyatın: şorbaya tökməyə duz tapmırıq!

Mişka qorxuya düşərək, arvadının üzünə baxdı, rəngi qaçdı:

– Sən nə danışırsan, Dunyaşka? Nələr danışırsan? Bu nə sözdür?

Lakin Dunyaşka da özündən çıxdı, hirsindən və nifrətindən onun da rəngi qaçdı, bu dəfə qışqıra-qışqıra sözünə davam etdi:

– Bəs bu cür yaşamaq olar? Gözlərini niyə ağardırsan? Ay sədr, sənin xəbərin varmı ki, duzsuzluqdan adamların damaqları şişir? Adamların duz əvəzinə nə yediklərini bilirsənmi? Şorakət yerləri qazır, gərək ki, Neçayev təpəsinin ardında yeri eşir, onun torpağını gətirib şorbaya tökürlər... Bunu eşitmisənmi?

– Dayan, haray-dad salma, eşitmişəm... Sonra nə olsun?

Dunyaşka heyrətlə əlini əlinə vurdu:

– Sonrası nə olacaqmış ki?

– Birtəhər dözmək lazımdır, ya yox?

– Dözürsən, döz də!

– Mən dözərəm, amma sən, budur... Melexovlar nəslinin bütün xüsusiyyətləri səndə özünü büruzə verdi...

– Bizim nəslimizə nə olub ki?

– Əks-inqilabçı nəslisiniz, – deyə Mişka boğuq səslə söyləndi və stolun arxasından qalxdı. O başını yerə dikmişdi, arvadının üzünə baxmırdı; son sözlərini dedikdə isə dodaqları əsirdi: – Bir də belə sözlər desən, onu bil ki, biz bir yerdə yaşaya bilmərik! Sənin danışdıqların düşmən sözüdür...

Dunyaşka onun cavabını vermək istədi, amma Mişka gözlərini ağartdı, yumruğunu göstərib boğuq bir səslə dedi:

– Sus!..

Dunyaşka cəsarətlə, aşkar bir maraqla ərini başdan-ayağa diqqətlə süzdü, bir az da keçəndən sonra gülərüzlə və sakitcə dedi:

– Əşi, yaxşı, lənət şeytana, gör nəyin üstündə dalaşırıq... Duzsuz da dolanarıq! – O bir qədər dinmədi və ərinin xoşladığı incə bir təbəssümlə dedi: – Hirslənmə, Mişa! Adam hər şeyin üstündə biz arvadlara hirslənsə, ürəyi partlar. Adam sarsaqlayanda nələr deməz... Kompotmu içirsən, ya qatıq verim?

Cavan olmasına baxmayaraq, Dunyaşkanın kifayət qədər həyat təcrübəsi var idi; bilirdi ki, dalaşdıqda nə vaxt inad etmək, lazım gəldikdə isə mülayimləşmək və geri çəkilmək olar...

Bu əhvalatdan iki həftə sonra Qriqoridən məktub gəldi. Qriqori yazırdı ki, Vrangel cəbhəsində yaralanmışdır, çox ehtimal ki, sağaldıqdan sonra onu ordu sırasından buraxacaqlar. Dunyaşka məktubun məzmununu ərinə bildirdi, ehtiyatla soruşdu:

– Mişa, o evə gələndə biz harada yaşayacağıq?

– Mənim daxmama köçərik. Qoy burada, evində təkcə yaşasın. Əmlakı isə bölərik.

– Onunla birlikdə yaşaya bilmərik. Hər cəhətdən belə görünür ki, o Aksinyanı yanına gətirəcəkdir.

Mişka kəskin tərzdə dedi:

– Birlikdə yaşamaq mümkün olsaydı da mən sənin qardaşınla bir damın altında yaşamazdım.

Dunyaşka heyrət içində qaşlarını qaldırdı:

– Niyə, Mişa?

– Niyəsini bilirsən.

– Ağlara qulluq elədiyinə görə?

– Özüdür ki var, lap buna görə.

– Sən onu sevmirsən... Bir zamanlar siz dost idiniz!

– Nəyimə lazımmış, mən onu sevim! Bir vaxt dost idik, amma dostluğumuz qurtardı.

Dunyaşka cəhrənin dalında idi. Cəhrənin təkəri müntəzəm surətdə cırıldayırdı. Əyrilən ip birdən qırıldı. Dunyaşka cəhrəni əli ilə saxladı, ipi eşib birləşdirdi, ərinin üzünə baxmadan soruşdu:

– Qrişa gələndə, kazaklara xidmət etdiyinə görə ona nə edəcəklər?

– Mühakimə edəcəklər. İşə tribunal baxacaqdır.

– Tribunal onu mühakimə edib nə hökm çıxarda bilər?

– Bunu mən deyə bilmərəm, mən hakim deyiləm.

– Ona güllələnmə kəsə bilərlər?

Mişa Polyuşka ilə Mişatkanın yatdıqları çarpayıya baxdı, onların müntəzəm mışıltısına qulaq verdi, səsini yavaşıdaraq, cavab verdi:

– Verə bilərlər.

Dunyaşka ondan daha heç nə soruşmadı. Ertəsi günün səhəri inəyi sağandan sonra Aksinyanın yanına getdi:

– Qrişa tezliklə gələcəkdir, gəldim səni sevindirim.

Aksinya dinməzcə su ilə dolu qara qazanı sobanın üstünə qoydu, əllərini ürəyinin başına sıxdı. Dunyaşka onun alışıb-yanan sifətinə baxıb dedi:

– Sən də çox sevinmə. Ərim deyir ki, onu mütləq mühakimə edəcəklər. Nə cəza kəsəcəklər, Allah bilir.

Aksinyanın yaşarmış və parıldayan gözlərində bir an qorxu göründü.

– Nəyə görə? – deyə səsi titrəyə-titrəyə soruşdu, halbuki gecikmiş təbəssüm hələ də dodaqlarından çəkilməmişdi.

– Üsyana görə.

– Sarsaq sözdür! Onu mühakimə etməyəcəklər. Sənin ərin Mixayil heç nə bilmir, özündən oturub fal açır!

– Bəlkə də mühakimə etməyəcəklər. – Dunyaşka susdu, sonra boğazına tıxanmış ahı boğaraq dedi: – Qardaşıma qarşı çox kinlidir... Ona görə ürəyimin başından, elə bil ağır bir daş asılmışdır, deyə də bilmirəm! Qardaşıma yazığım gəlir! O, yenə də yaralanmışdır... Yazığın həyatı, gör nə qədər əzab-əziyyətlidir... – Dunyaşka hönkürdü, o saat da özünü ələ aldı.

Aksinya həyəcanla dedi:

– Təki gəlsin: uşaqları da götürüb gedib başımızı bir yerdə girlərik.

Aksinya nədənsə yaylığını başından açdı, təzədən başına örtdü, o, rəfdəki qab-qacağın yerini boş-boşuna dəyişdirir, güclü həyəcanını hələ də sakitləşdirə bilmirdi.

Aksinya taxtın kənarında oturub, köhnə döşlüyünün büzmələrini barmaqları ilə sığallayanda Dunyaşka gördü ki, onun əlləri əsir.

Dunyaşkanın boğazına nə isə tıxanıb qalmışdı. O təkcə qalmaq, ağlamaq istəyirdi. Yavaşca dedi:

– Anam onunla görüşməmiş öldü. Yaxşı mən gedim. Sobanı qalamaq lazımdır.

Aksinya dəhlizdə ala-tələsik və yöndəmsiz halda Dunyaşkanın boynundan öpdü, əlindən yapışdı, onu da öpdü.

Dunyaşka yavaş, titrək səslə soruşdu:

– Sevinirsənmi?

Aksinya zarafatı ilə, hürkək təbəssümü ilə, göz yaşını gizlətməyə çalışaraq dedi:

– Necə deyim, bir az...

VI

Millerovo stansiyasında, Qriqoriyə tərxis olunmuş qırmızı komandir kimi, kirayə araba verdilər. O, buradan evlərinə qədər, yoldakı bütün Ukrayna kəndlərində atları dəyişdirirdi; buna görə də bir gündə Yuxarı-Don mahalının hüduduna çatdı. İlk kazak xutoruna çatanda inqilab komitəsi sədri – ordudan yaxınlarda qayıtmış qızıl əsgər ona dedi:

– Yoldaş komandir, buradan o yana öküz arabasında getməli olacaqsınız. Bizim bütün xutorun vur-tut bircə atı var, onun da bir ayağı topaldır. Camaat çəkilib gedəndə atların hamısı Kubanda qaldı.

Qriqori barmaqları ilə stolu taqqıldada-taqqıldada, bamәzə sədrin gözlərinə zənn ilə baxıb soruşdu:

– Bəlkə elə həmin atla birtəhər getdim?

– Gedə bilməzsiniz. Bir həftə yol gedəcəksiniz, amma yenə də o sizi evə çatdıra bilməyəcəkdir! Narahat olmayın, canım, bizdə gümrah, yaxşı yeriyən öküzlər var; onsuz da biz Veşenskayaya araba yola salmalıyıq, müharibədən sonra burada tökülüb qalmış çoxlu telefon simini göndərməliyik; başqa arabaya da minməli olmazsınız, sizi aparıb düz evinizə çatdırar. – Sədr sol gözünü qıydı, gülümsəyərək, hiyləgərcəsinə göz vuraraq, əlavə etdi: – Xutorun ən yaxşı öküzlərini verərik, arabanı da cavanca bir dul arvad sürər... Xutorumuzda qiyamət bir arvad var, Allah eləməsin, beləsi yuxunuza girsin! Onunla yola düşəndə, bir də görəcəksiniz ki, budur evinizdəsiniz. Mən özüm də qulluq eləmişəm, belə şeylərə bələdəm, buna bənzər hərbi ehtiyaclardan xəbərim var...

Qriqori kirimişcə ürəyində götür-qoy elədi: xutora gedəsi arabanı gözləmək axmaqlıq olardı, piyada getmək də çətin idi – uzaq idi. Öküz arabası ilə getməyə razı olmaqdan başqa çarə yox idi.

Bir saatdan sonra arabanı gətirdilər. Bu köhnə arabanın təkərləri bərk cırıldayırdı, dal şırağulun yerinə sınıq-sökük bir şey bağlanmışdı, səliqəsiz qoyulmuş ot arabanın qırağından çəngə-çəngə sallanırdı. Qriqori bu miskin arabaya baxanda nifrətlə ürəyində dedi: "Bu da vuruşmağımızın aqibəti!" Sürücü qadın qamçısını şappıldada-şappıldada arabanın böyrü ilə yeriyirdi. O, doğrudan da qəşəng qadın idi, boylu-buxunlu idi. Boyuna uyğun gəlməyən iri döşləri gövdəsinə yaraşmırdı; bir də yumru alt çənəsindəki köndə-

lən çapıq çöhrəsinə xatakarlıq ifadəsi verir, burnunun dövrəsinə darı kimi səpələnmiş sarı çillər onun qarabuğdayı-qırmızı üzünü qoca göstərirdi.

Arabaçı yaylığını düzəltdi, gözlərini qıydı, Qriqoriyə diqqətlə baxıb soruşdu:

– Sənimi aparmaq lazımdır?

Qriqori artırmadan qalxdı, şinelini geyindi:

– Məni. Telefon simlərini yükləmisən?

Qadın cingiltili səslə qışqırdı:

– Dəliyəm onlar üçün şey yükləyim? Hər gün ya səfərdə oluram, ya da işdə! Mən axmağam onlara can yandıram? İstəyirlərsə qoy telefon simlərini özləri yükləsinlər, yükləməzlər, boş gedərəm!

O, telefon simi yumaqlarını bir-bir daşıyıb arabaya qoyur, ucadan, amma qəzəbsiz, sədrlə savaşır, hərdənbir də gözaltı Qriqoriyə baxırdı. Sədr bu cavan dul arvada səmimi heyranlıqla tamaşa edib hey gülürdü. O hərdənbir Qriqoriyə göz vuraraq sanki belə demək istəyirdi: "Görürsən, bizdə nə cür arvadlar var! Amma sən mənim sözlərimə inanmırdın!"

Payız idi, xutordan çıxandan sonra hər yan göz işlədikcə bomboz və solğun çöl idi. Əkin yerlərindən qalxan göyümsov tüstü yolun üstündən sürünə-sürünə keçirdi. Əkinçilər qurumuş çör-çöpə od vurmuşdular. Tüstünün iyi Qriqoridə qəmli xatirələr oyatdı: bir zamanlar o, Qriqori özü də, payızda, səssizlikdən qulaq batan çöldə yer şumlar, gecələr ulduzları sayrışan qaranlıq səmaya tamaşa edər, xeyli hündürdən uçuşan qaz sürülərinin qığıltısına qulaq verərdi... O narahat oldu, otun arasında qurcuxdu, arabaçı qadına yandan baxdı.

– Ay arvad, neçə yaşın var?

Yalnız gözləri gülümsünən qadın naz-qəmzə ilə cavab verdi:

– Altmışa yaxın olar.

– Yox, zarafatsız, neçə yaşın var?

– İyirmi bir.

– Dulsan?

– Dulam.

– Ərinə nə olmuşdur?

– Öldürüblər.

– Çoxdanmı?

– İkinci ildir.

– Üsyan zamanımı?

– Üsyandan sonra, payız girməmiş.

– Hə, bəs necə dolanırsan?

– Birtəhər başımı girləyirəm.

– Darıxırsanmı?

Qadın diqqətlə Qriqoriyə baxdı, yaylığı dodaqlarına çəkdi, təbəssümünü gizlətdi. Qadının səsi indi yavaş çıxırdı, bu sözləri deyəndə səsində nə isə yeni ahənglər duyulmaqda idi:

– İş-gücdən darıxmağa macal yoxdur.

– Ərsiz darıxmırsan ki?

– Mən qayınatamla birlikdə yaşayıram, təsərrüfatda işimiz çox olur.

– Bəs ərsiz necə keçinirsən?

O, üzünü Qriqoriyə çevirdi. Qarabuğdayı sifətini qızartı bürüdü, gözlərindən sarımtıl qığılcımlar çıxdı və söndü.

– Sən bunu nəyə görə soruşursan?

– Elə ona görə.

Qadın yaylığını dodaqlarının üstündən çəkdi, səsini uzada-uzada dedi:

– O nemətdən korluq çəkmirəm! Dünyada yaxşı adamlar da var... – Bir qədər susdu, sözünə davam etdi: – Mən ərimlə düzəməlli yaşamamışam, kefə baxmamışam. Cəmisi bircə ay yaşamışıq, sonra onu əsgərliyə aparıblar. Onsuz bir növ keçinirəm. Əvvəllər işlər pis idi, amma indi babatlaşıb, cavan kazaklar xutora qayıdıb. Hoç, a təpəl! Hoç! İşlər belədir, əsgər! Güzəranım belədir.

Qriqori susdu. Onun üçün yad bir qadınla belə söhbəti davam etdirmək münasib deyildi. Bu cür söhbət eləməsinə peşman olmuşdu.

İri və kök öküzlər yenə də müntəzəm, bir-birinə dolaşan addımlarla yeriyirdilər. Birinin sağ buynuzu, vaxtilə qırıldığından, əyri bitmiş, alnına doğru sallanmışdı. Qriqori arabada uzanmış, dirsəklərinə söykənib gözlərini yarıya qədər yummuşdu. Əvvəlcə uşaqlıqda, sonra isə yekə oğlan olduğu zaman işlətdiyi öküzləri yadına salmağa başladı. Onların hamısı rəngcə də, cüssəcə də, xasiyyətcə də müxtəlif idi; hətta buynuzlarının da hərəsinin öz şəkli var idi. Bir zamanlar Melexovların həyətində də həmin bu cür buynuzu əyri bitmiş, eybəcərləşmiş öküz vardı. Bu kinli və hiyləgər öküz gilələrinə qan

sağılmış gözlərini bərəldərək adama tərs-tərs baxar, ona arxadan yaxınlaşmaq istəyənlərə təpik atmağa çalışardı; iş vaxtında gecələr mal-qara otarılmağa buraxıldıqda o ya evə əkilməyə cəhd edər, ya da qaçıb meşədə, yaxud uzaq bir dərədə gizlənərdi. Qriqori çox zaman at belində səhərdən axşamadək onu çöldə axtarar və öküzü bir də tapa biləcəyinə ümidi tamam kəsildikdə, onu dərənin lap fızıllıq bir yerində, içərisinə girmək mümkün olmayan göyəm kolluğunda, ya da kölgəlikdə, şax-budağı ətrafa yayılmış qoca və cır alma ağacının altında tapardı. Bu təkbuynuz şeytan kəndiri başından məharətlə çıxardır, gecələr mal pəyəsinin qapısındakı cəftəni buynuzu ilə açır, rahatlığa çıxandan sonra Don çayını üzüb o taya keçir, biçənəklərdə veyllənirdi. O vaxt həmin öküz Qriqorini çox sərgərdan qoymuş, başına əngəllər açmışdı...

Qriqori soruşdu:

– Bu buynuzu qırılmış öküz dinc heyvandırmı?

– Dincdir, necə bəyəm?

– Elə-belə soruşdum.

Arabaçı qadın rişxənd ilə dedi:

– Deməyə ayrı sözün yoxdursa, "elə-belə" sözü də yaxşı sözdür.

Qriqori dinmədi. Keçmişi, dinc yaşayışı, işi, müharibəyə aid olmayan hər şeyi düşünmək ona ləzzət verirdi; çünki yeddi ildən bəri davam edən müharibə onu o qədər təngə gətirmişdi ki, təkcə bu müharibəni yadına salanda, xidməti ilə əlaqədar kiçik bir əhvalatı xatırlayanda qəlbində bir sızıltı, iyrənc ürəkbulanması, küt bir təxərrüş duyurdu.

O, müharibəni bitirmişdir. Daha yetər. İndi o evinə gedir, nəhayət işləmək üçün, uşaqları ilə, Aksinya ilə birlikdə yaşamaq üçün gedir. Qriqori hələ orada, cəbhədə olanda, qəti qərara gəlmişdi ki, Aksinyanı evinə gətirəcəkdir: qoy uşaqları tərbiyə eləsin, həmişə onların yanında olsun. Bu məsələyə də son qoymaq lazım gəlirdi, nə qədər tez son qoyulsa, bir o qədər yaxşı olar.

Qriqori böyük bir həzz ilə xəyala dalmışdı: evə çatan kimi şinelini soyunacaq, çəkmələrini çıxardacaq, iri çarıq geyib şalvarının balağını, kazak qaydası, ağ yun corabının içinə qoyacaq, evdə toxunma şaldan tikilmiş zipununu isti pencəyinin üstündən geyinib, çöldə işləməyə gedəcəkdir. Kotanın dəstəsindən yapışıb, onun açdığı nəm şırımla yerimək, çevrilmiş torpağın nəm və şit iyini

burnunun deşikləri ilə həvəslə ciyərlərinə doldurmaq, gavahının kəsib tökdüyü otların tünd-acı ətri ilə nəfəs almaq nə qədər xoş idi! Yad ellərdə torpağın da, otların da iyi başqa cürdür; o, dəfələrlə Polşada, Ukraynada, Krımda boz-göyümsov yovşan çöpünü qırıb hövkələmiş, iyləmiş və qüssəli-qüssəli demişdi: "Yox, bizimkindən deyil, yaddır..."

Arabaçı qadın darıxırdı. Danışmaq istəyirdi. O öküzlərə təpinməkdən əl çəkdi, yerini yaxşıca rahatladı və qayışdan hörülmə qamçısını didişdirə-didişdirə, xeyli vaxt xəlvətcə Qriqoriyə nəzər saldı, onun fikirli sifətinə, bir az aşağı zillənmiş gözlərinə baxdı. Belə fikirləşdi: "Saçlarına dən düşsə də o qədər qoca deyil. Həm də məzəli adamdır. Hey gözləri qıyılır, niyə gözlərini qıyır axı? Qıraqdan baxan da elə bilər ki, çox bərk yorulmuşdur, elə bil daş daşımışdır... Özlüyündə babat kişidir. Ancaq saçında ağ tük çoxdur; bığları demək olar ki, ağarmışdır. Amma babat kişidir. Görəsən o bu qədər nə fikirləşir? Əvvəlcə bir növ zarafatlaşdı, sonra susdu, nədənsə öküz barədə sual verdi. Yoxsa danışmaq üçün söz tapa bilmir? Bəlkə danışmağa cürət eləyə bilmir? Yox, oxşamır. Gözləri qətiyyətlidir. Yox, yaxşı kazakdır, amma bir növ məzəli kişidir. Neynək, danışmırsan, danışma, ay donqar şeytan! Çox lazımdır, gözüm səndən ötəri uçmur! Mən də dinməməyi bacaranam. Arvadının yanına gedir, buna görə də, yəqin özünü çəkir. Neynək, dinmə, canın sağ olsun!"

Arabaçı kürəyini arabanın laydırına söykədi, astadan mahnı oxudu.

Qriqori başını qaldırdı, günəşə baxdı. Hələ çox ertə idi. Yol kənarında keşikçi kimi durmuş, bildirdən qalıb qurumuş qanqalın kölgəsi iki qarışdan çox deyildi; çox güman ki, ancaq gündüz saat iki olardı.

Məzar sükutuna qərq olmuş çöl tilsimlənmiş kimi idi. Günəş adamı azca isidirdi. Yüngül külək saralıb solmuş otları səssizcə qımıldadırdı. Ətrafda nə bir quş civiltisi eşidilirdi, nə də sünbülqıran fiti. Buz kimi soyuq açıq mavi səmada quzğunlar, qartallar süzmürdülər. Yalnız bircə dəfə bozumtul bir kölgə yol üzərindən süzüb keçdi; Qriqori başını qaldırmadan iri quş qanadlarının ağır-ağır şappıldadığını eşitdi: bu, kül kimi göyümsov qanadlarının ağaran ucları günəşdə parlayan dovdaq idi, uçub keçdi və uzaqdakı bir təpənin yanında, gün işığı düşməyən dərə ilə alaqaranlıqlar içindəki

ənginliklərin qovuşduğu yerə qondu. Əvvəllər belə qəmli və dərin sükutu Qriqori yalnız payızın sonlarında müşahidə edərdi; o vaxt Qriqoriyə elə gəlirdi ki, küləyin qabağına qataraq qovub quru otların arası ilə çölə, lap uzaqlara apardığı şorancaların xışıltısını eşidir.

Adama elə gəlirdi ki, bu yolun ucu-bucağı yoxdur. O dərə-təpələrin arası ilə qıvrılaraq gedir, dərəyə enir, təzədən bir təpənin başına qalxırdı. Ətraf isə göz işlədikcə uzanan, səssizliyə qərq olmuş, ilxılar oylağı olan dümdüz çöl idi.

Qriqori təpənin döşündə bitmiş qaraqayın kolluğuna heyranlıqla tamaşa edirdi. Onun ilk ayazdan saralmış yarpaqları üstünü kül örtmüş od kimi xəfif-xəfif qızarırdı.

Arabaçı qadın qamçısının ucunu Qriqorinin çiyninə toxundurub soruşdu:

– Adın nədir, ay dayı?

Qriqori dik atıldı, üzünü ona çevirdi. Qadın kənara baxırdı.

– Adım Qriqoridir. Bəs sənin adın nədir?

– Mənim adım adıbilinməzdir.

– Danışmasan daha yaxşı olardı, ay adıbilinməz.

– Susmaqdan təngə gəlmişəm! Günün yarısını dinməmişəm, boğazım tamam qurumuşdur. Qrişa dayı, sən niyə belə qaşqabaqlısan?

– Nəyə görə sevinməliyəm ki?

– Evinizə gedirsən, gərək sevinəsən.

– Mənim sevinmək vaxtım keçmişdir.

– Hə, yaman da qocasan. Bir də görüm, cavan ola-ola saçın-saqqalın niyə ağarıb?

– Hər şeyi bilmək istəyirsən... Görünür ki, günüm-güzəranım yaxşı keçdiyi üçün ağarmışdır.

– Qrişa dayı, evlisənmi?

– Evliyəm. Sən də, ay adıbilinməz, tez ərə getməlisən.

– Bəs niyə tez?

– Çünki çox dingildəyirsən...

– Məgər bu pisdir?

– Bəzən pisdir. Belə dingildəyənlərdən birini tanıyırdım; o da dul idi; o qədər dingildədi, dingildədi ki, axırda burnu düşdü...

– Allah, gör nə xatalı işlər var! – deyə arabaçı zarafatla özünü qorxmuş kimi göstərdi, o dəqiqə də ciddiləşib əlavə etdi: – Biz dulların işi belədir: canavardan qorxan meşəyə getməz.

Qriqori onun üzünə baxdı. Qadın səssizcə, xırda ağ dişlərini aralamadan gülürdü. Yuxarıya çərmənmiş üst dodağı uçunur, endirilmiş kirpiklərinin altında gözləri dəcəl-dəcəl oynayırdı. Qriqori ixtiyarsız gülümsədi, əlini onun isti, yumruca dizinin üstünə qoydu. Təəssüf edircəsinə dedi:

– Ay yazıq qızcığaz, bədbəxt adıbilinməz! Cəmisi iyirmicə yaşın var, amma həyat səni necə xırpalamışdır!..

Qadının şadlığından bir göz qırpımında əsər-əlamət qalmadı. Qriqorinin əlini sərt hərəkətlə kənara itələdi, sımsırığını salladı, üzü elə pörtdü ki, burnunun dövrəsindəki çillər yoxa çıxdı.

– Evinizə çatanda, arvadına yazığın gələr, sənsiz də mənim canıyananım çoxdur!

– Ay qız, hirslənmə, dayan!

– Cəhənnəm ol!

– Sənə yazığım gəldiyinə görə elə dedim.

– Sən öz rəhminlə açıl başımdan... – O kişilər kimi sərrast söydü; tutqun gözləri parıldadı.

Qriqori qaşlarını qaldırdı, xəcalət çəkərək hıqqıldadı:

– Yolunu azmısan, vəssalam! Deməli, sən belə özbaşınasanmış.

– Bəs sən özün nəsən? Şineli bitli abidsən! Mən sənin kimiləринə bələdəm! Ərə get, belə oldu, elə oldu, sən özün çoxdanmı belə Allah adamı olmusan?

Qriqori gülə-gülə dedi:

– Yox, bu yaxınlarda olmuşam.

– Bəs onda niyə mənə ağıl dərsi verirsən? Bu iş üçün mənim qayınatam var.

– Daha bəsdir, niyə özündən çıxırsan, ay axmaq arvad? Axı mən bayaqkı sözümü elə-belə, sözgəlişi dedim, – deyə Qriqori mülayimləşdi. – Bir ora bax, biz söhbət elədiyimiz üçün öküzlər də yoldan çıxmışdır.

Qriqori arabada yerini rahatladıqca gözucu bu şən dul arvada baxdı, gözlərinin yaşardığını gördü. Nə isə daxili bir narahatlıq və dilxorluq duyaraq ürəyində dedi: "İşə düşdük də! Bu arvadların hamısı həmişə belədir..."

Bir az keçəndən sonra o, arxası üstdə, üzünü şinelinin bir tərəfi ilə örtüb yatdı və yalnız qaranlıq qovuşanda oyandı. Göydə solğun axşam ulduzları işıldayırdı. Hər yandan təzə və xoş ot iyi gəlirdi.

Arabaçı dedi:

– Öküzləri yemləmək lazımdır.

– Neynək, gəl dayanaq.

Qriqori özü öküzləri arabadan açdı, heybəsindən bir banka ət konservi və çörək çıxartdı, çörəyi parçaladı, gedib bir qucaq çör-çöp gətirdi, arabanın yanında ocaq qaladı.

– Gəl, ay adıbilinməz, çörək yeyək, hirsləndiyin yetər.

Arabaçı gəlib ocağın qırağında oturdu, heybəsindən dinməzcə çörək və köhnəlikdən saralmış bir parça piy çıxartdı. Xörək vaxtı az danışdılar, dalaşmadılar. Sonra arabaçı arabaya çıxdı, orada uzandı. Qriqori də sönməsin deyə ocağa iki-üç quru təzək atdı, səfəri qayda ilə ocağın kənarında uzandı. O, çantasını başının altına qoydu; xeyli vaxt ulduzlar sayrışan səmaya baxdı, rabitəsiz şəkildə uşaqlarını, Aksinyanı düşündü; sonra isə mürgüləmədi və pıçıltını andıran qadın səsindən oyandı:

– Yatmısanmı, ay əsgər? Yatmısan, ya yox?

Qriqori başını qaldırdı. Onun yol yoldaşı bir dirsəyinə söykənib, arabadan sallanmışdı. Qadının sönməkdə olan ocağın zəif işığından parlayan çöhrəsi təravətli və al-qırmızı idi, dişləri və yaylığının haşiyəsinə tikilmiş krujeva qar kimi ağarırdı. Aralarında heç nə olmayıbmış kimi, qadın yenə də qımışır, qaşlarını oynadaraq deyirdi:

– Qorxuram orada səni ayaz vura. Torpaq yaman soyuqdur. Çox bərk üşüyürsənsə, dur yanıma gəl. Mənim kürküm yaman istidir! Gəlirsən, ya yox?

Qriqori fikrə getdi və köksünü ötürərək dedi:

– Sağ ol, ay qız, istəmirəm. İki-üç il bundan qabaq olsaydı... Ocağın qırağında üşümərəm.

Qadın da köksünü ötürdü, dedi:

– Kefinə bax, – belə deyən kimi də kürkünü başına çəkdi.

Bir az keçəndən sonra Qriqori qalxdı, şeylərini yığışdırdı. O, səhər açılanda Tatarskiyə çatmaq üçün piyada yola düşməyi qərara almışdı. Ona – hərbi xidmətdən buraxılmış komandirə, günün günortaçağı öküz arabasında xutora gəlmək ayıb olardı. Belə gəliş kim bilir, nə qədər söz-söhbət və rişxənd doğura bilərdi!..

O gedib arabaçını oyatdı.

– Mən piyada gedəcəyəm. Çöldə təkcə qalmaqdan qorxmursan ki?

– Yox, mən qorxan balalardan deyiləm, həm də, budur, xutor yaxındadır. Bəs sənə nə oldu belə, daha dözə bilmirsən.

– Düz başa düşmüsən. Salamat qal, ay adıbilinməz, bədimizə danışma!

Qriqori yola çıxdı, şinelinin yaxasını qaldırdı. Kirpikləri üzərinə ilk qar zərrəsi düşdü. Külək şimaldan əsməyə başladı, Qriqori onun soyuq nəfəsində qarın tanış və ürəyəyatan iyini duydu.

Koşevoy stanitsadan axşam qayıtdı. Dunyaşka pəncərədən baxanda onun atı darvazaya doğru sürdüyünü gördü, şalını cəld çiyninə salıb eşiyə çıxdı.

O, qapıda ərinin üzünə təşviş və intizar içində baxıb dedi:

– Qrişa bu səhər gəldi.

Mişka təmkinlə, bir az istehza ilə dedi:

– Gözün aydın olsun.

O, dodaqlarını bir-birinə kip qısaraq mətbəxə girdi. Onun yanaqları səyriyirdi. Polyuşka Qriqorinin dizinin üstündə əyləşmişdi, bibisi ona təmiz, qəşəng paltar geyindirmişdi. Qriqori uşağı ehmalca yerə qoydu, yeznəsinin qabağına yeridi, gülümsünərək iri, qara əlini ona uzatdı. O istəyirdi Mixayili qucaqlasın, amma onun gülümsəməyən gözlərində soyuqluq və kin hiss edib özünü saxladı.

– Hə, salam, Mişa!

– Salam!

– Çoxdandır görüşməmişik! Elə bil yüz il keçib.

– Bəli, çoxdandır... xoş gəlmisən!

– Sağ ol. Deməli, qohum olmuşuq?

– İş belə gətirdi... Bu nədir, yanağında qan var?

– Eh, bekara şeydir, üzümü qırxanda kəsdim, tələsirdim.

Keçib stolun arxasında oturdular, kirimişcə bir-birinə baxır, biganəlik və pərtlik hiss edirdilər. Onlar əməlli-başlı danışmalı idilər, amma bu indi mümkün deyildi. Mixayil səbrini basıb, təsərrüfatdan, xutorda baş vermiş dəyişikliklərdən söhbət elədi.

Qriqori pəncərədən çölə, ilk qar yağmış torpağa, alma ağacının çılpaq budaqlarına tamaşa edirdi. O, Mixayillə görüşünü bir zamanlar bu cür təsəvvür etmirdi...

Tezliklə Mixayil bayıra çıxdı. O dəhlizdə bıçağı bülövə çəkib itilədi, Dunyaşkaya dedi:

– İstəyirəm bir adam çağıram, buruq qoçu kəssin. Ev sahibini ləyaqətlə qarşılamaq lazımdır, ya yox? Get araq al. Dayan, gör nə deyirəm: düz Proxorgilə get, ona de ki, lap yerin deşiyindən də olsa cecə arağı tapsın. Arağı o səndən yaxşı tapar. Həm də çağır gəlsin çörək yesin.

Dunyaşka şadlığından bilmədi neyləsin, dinməzcə minnətdarlıqla ərinin üzünə baxdı. Proxorgilə gedərkən ürəyində belə deyirdi: "Bəlkə də işlər yaxşı olacaqdır... Hə, müharibə edib qurtardılar, indi bölünməmiş nələri var? Kaş Allah onları ağıllandıraydı!.."

Heç yarım saat da çəkmədi ki, Proxor tövşüyə-tövşüyə içəri girdi:

– Qriqori Panteleviç!.. Əzizim!.. Sənin gələcəyinə nə ümid edirdim, nə gözləyirdim!.. – deyə Proxor ucadan, ağlamsına-ağlamsına səsləndi, ayağı kandara ilişdi, az qaldı əlindəki araq bardağını salıb sındırsın.

O, Qriqorini qucaqlayanda hönkürdü, gözünün yaşını yumruğu ilə sildi, islanmış bığlarını tumarladı. Qriqorinin də boğazını nə isə göynətdi, lakin özünü saxladı, həyəcanla, bir qədər qabalıqla əlini sadiq mühafizinin kürəyinə döydü, qırıq-qırıq dedi:

– Budur, yenə görüşdük... Proxor, şadam, səni sağ-salamat görduyümə hədsiz şadam! Bu nədir, qocalmısan, göz yaşı axıdırsan? Zəifləmisən? Vintlərin boşalmışdır? Qolun necədir? O biri qolunu arvadın vurub hələ qırmayıb ki?

Proxor bərkdən burnunu sildi, gödəkcəsini soyundu.

– Arvadla mən indi göyərçin kimi yaşayırıq. Budur ikinci qolum, gördüyün kimi salamatdır, amma ağ polyakların kəsdiyi qolum, Allaha and olsun ki, təzədən uzanmağa başlayır! Bir ildən sonra barmaqlar da çıxacaq, – Proxor köynəyinin içi boş qolunu oynadaraq, özünə xas olan bamәzəliklə danışırdı.

Müharibə onları həqiqi duyğularını təbəssüm arxasında gizlətməyə, çörəyi də, söhbəti də duzlu, tamlı eləməyə alışdırmışdı: Qriqori də məhz buna görə eyni zarafatcıllıqla sorğu-sualını davam etdirdi:

– İndi necə dolanırsan, ay qoca keçi? Atılıb-düşə bilirsənmi?

– Qocalar qaydası keçinirəm, asta-asta.

– Mənsiz burada heç nə ələ keçirə bilməmisən ki?

– Nə dedin?

– Keçən qış gəzdirdiyin bülbülü deyirəm...

– Panteleviç! Allah göstərməsin! Belə həngamə indi mənim harama yaraşır? Həm də tək əllə məndən ovçu olar? Bu, sənin kimi cavan və subay adamın işidir... Mənim isə indi dünyadan köçmək üçün şələ-şüləmi yığışdırmaq vaxtımdır...

Onlar – köhnə səngər yoldaşları, görüşdüklərinə hədsiz şad olan, gülən iki dost uzun zaman bir-birinin üzünə baxdılar.

– Tamam gəlmisən? – deyə Proxor soruşdu.

– Tamam. Yerli-dibli.

– Orduda hansı rütbəyə qədər yüksəldin?

– Polk komandirinin müavini idim.

– Bəs niyə səni belə tez buraxıblar?

Qriqorinin üzü bulud kimi tutuldu, qısaca cavab verdi:

– Daha lazım olmadım.

– Axı nəyə görə?

– Bilmirəm. Ehtimal ki, keçmiş işlərə görə.

– Sən ki, xüsusi şöbə yanında zabitləri saf-çürük eləyən komissiyadan keçmisən, onda daha hansı keçmiş işlər bəhanə edilir?

– Nə olsun ki.

– Bəs Mixayil hanı?

– Həyətdədir. Mal-qaranın altını təmizləyir.

Proxor Qriqoriyə bir az da yaxın oturdu, səsini yavaşıtdı:

– Platon Ryabçikovu bir ay olar ki, güllələdilər.

– Nə danışırsan?

– Allaha and olsun!

Dəhlizin qapısı cırıldadı.

– Sonra danışarıq, – deyə Proxor pıçıldadı, dərhal da ucadan dedi: – İndi nə deyirsən, yoldaş komandir, belə böyük şadlığa görə içəkmi? Gedim Mixayili çağırım?

– Get çağır.

Dunyaşka süfrə saldı. O bilmirdi qardaşına necə yanaşsın: onun dizi üstünə təzə dəsmal saldı, duzda saxlanmış qarpız boşqabını yaxınına çəkdi, stəkanını azı beş dəfə silib təmizlədi... Dunyaşka onunla danışanda "siz" deyirdi, Qriqori bunu duyub gülümsündü...

Süfrə arxasında əvvəlcə Mixayil inadla dinmir, Qriqorinin hər kəlməsini diqqətlə dinləyirdi. O, az, həm də həvəssiz içirdi. Amma Proxor araqla dolu stəkanları bir-birinin ardınca boşaldır, get-gedə pörtüb qızarır, ağarmış bığlarını yumruğu ilə tez-tez tumarlayırdı.

Dunyaşka uşaqları yedirtdi, yatırtdı, sonra süfrəyə bir iri boşqab bişmiş qoyun əti qoyub Qriqorinin qulağına pıçıldadı:

– Qardaş, gedim Aksinyanı çağırım, etiraz eləmirsən ki?

Qriqori dinməzcə başını tərpətdi. Ona elə gəlirdi ki, heç kəs onun axşamdan bəri gərgin intizar içində olduğunu görmür, lakin Dunyaşka onun hər dəfə tappıltı eşidiləndə necə qulaq kəsildiyini, oğrun-oğrun baxdığını görürdü. Dunyaşkanın ayıq gözlərindən dünyada heç nə yayına bilməzdi...

Proxor birisinin tutub əlindən alacağından qorxurmuş kimi, stəkanı bərk-bərk tutaraq soruşdu:

– Kubanlı Tereşşenko yenə də vzvod komandiridir?

– Lvov tərəfdə ona güllə dəydi.

– Allah ona rəhmət eləsin. Yaxşı atlı komandiri idi! – Proxor tələsik xaç çevirdi, Koşevoyun tənəli təbəssümünü görmədən stəkandakı arağı başına çəkdi.

– Bəs o birisi, məzəli familiyası olan necə oldu? Sağ cinahdakı... adı nədir, tfu, lənət sənə şeytan, gərək ki, May-Boroda idi, o necə oldu? O kök və yekəpər kişi, Brodı tərəfdə polyak zabitini iki şaqqa eləyən bamәzə xaxol necədir, sağ-salamatdırmı?

– Oğlan kimi! Onu pulemyot eskadronuna apardılar.

– Bəs atını kimə təhvil verdin?

– Mindiyim başqa at idi, əvvəlki deyildi.

– O qaşqa atı neylədin bəs?

– Ona qəlpə dəydi, öldü.

– Döyüş zamanı?

– Bir qəsəbədə dayanmışdıq. Bizi bərk gülləyə tutdular. At da bağlandığı yerdə tələf oldu.

– Ah, heyif o ata! Necə yaxşı at idi! – Proxor köksünü ötürdü və yenə stəkandan bərk-bərk yapışdı.

Dəhlizdə cəftə şaqqıldadı. Qriqori dik atıldı. Aksinya qapıdan içəri girdi və yavaşca salam verib, nəfəsi təngimiş halda dayandı, geniş açılmış və şadlıqdan parıldayan gözlərini Qriqorinin üzündən çəkməyərək şalını başından açmağa başladı. O stolun arxasına keçdi, Dunyaşka ilə yanaşı oturdu. Onun qaşları ilə kirpiklərinə və solğun çöhrəsinə düşmüş qar zərrələri əridi. Gözlərini qıyaraq üzünü əli ilə sildi, dərindən nəfəs aldı və yalnız bundan sonra toxtadı, həyəcandan qaralmış gözlərini Qriqoriyə zilladı.

Proxor stəkandakı arağı süfrəyə dağıda-dağıda Aksinyaya tərəf uzatdı:

– Dostumuz! Ksyuşa! Biz birlikdə geriyə çəkildik, özümüzü bitlərə yedirtdik... Doğrudur, biz səni Kubanda atıb getdik, amma başqa çarə yox idi! Al, iç Qriqori Panteleviçin sağlığına! Gəlməsi münasibəti ilə onu təbrik elə... Mən sənə deyirdimmi ki, o sağ-salamat qayıdıb gələcəkdir! Budur, gəlmişdir, təhvil al! Elə oturmusan ki, elə bil bütün dünyanın xərcini səndən alıblar!

Qriqori gülərək gözləri ilə Proxora işarə etdi:

– O, yaman keflənib, qonşu, sözünə fikir vermə.

Aksinya Qriqoriyə, Dunyaşkaya baş əydi, stəkanı azacıq süfrədən yuxarıya qaldırdı. O, əllərinin əsdiyini hamının görəcəyindən qorxurdu.

– Qriqori Panteleviç, xoş gəlmisiniz! Dunyaşka, gözün aydın olsun.

– Bəs sənə nə olsun? Dərd olsun? – Proxor qaqqıldadı, Mixayili dümsüklədi.

Aksinya bərk qızardı, hətta qulaqlarının ucları belə şəffaf çəhrayı rəngə çaldı, lakin qətiyyətli, hirsli baxışlarla Proxoru süzüb belə cavab verdi:

– Mənim də şad günüm münasibəti ilə gözlərim aydın olsun... Çox şadam!

Belə sərrast cavab Proxoru məğlub elədi, yumşaltdı. O, xahiş elədi:

– Arağı son damlasına qədər iç, sən Allah. Düz danışmağı bacardığın kimi, düz içməyi də bacar! Kim stəkanda araq qoyursa, elə bilirəm ürəyimin başına iti bıçaq soxur!

Aksinya qonaqlıqda çox qalmadı; onun fikrincə nəzakət icazə verdiyi qədər oturdu. Bütün bu müddət ərzində o öz aşiqinə yalnız bir neçə dəfə, o da ötəri baxa bildi. O özünü başqalarına baxmağa qəsdən vadar edir və Qriqori ilə göz-gözə gəlməkdən çəkinirdi; çünki belə etsəydi, özünü soyuqqanlı göstərə bilməzdi, həm də başqalarının yanında öz duyğularını büruzə vermək istəmirdi. Qriqori onun yalnız bircə baxışını, astanadan içəri girəndə məhəbbət və sədaqət ifadə edən dik baxışını gördü, bu baxışla əslində hər şey deyilmişdi. Aksinya gedəndə Qriqori onu ötürməyə çıxdı. Tamam keflənmiş Proxor onların dalınca qışqırdı:

– Çox yubanma ha! Yoxsa hamısını içərik!

Qriqori dəhlizdə Aksinyanın alnından və dodaqlarından öpdü, soruşdu:

– Hə, necəsən Aksinyacan? Nə var, nə yox?

– Oh, danışmaqla qurtarmaz... Sabah yanıma gələcəksənmi?

– Gələcəyəm.

Aksinya evə tələsirdi, evdə onu təxirəsalınmaz bir iş gözləyirmiş kimi yeyin-yeyin gedirdi, yalnız öz evinin artırmasına çatanda addımlarını yavaşıtdı, taxtaları cırıldayan pilləkənlə ehmalca yuxarıya çıxdı. O dərhal öz xəyalları ilə, gözlənilməz səadəti ilə başbaşa qalmaq istəyirdi.

O, çırağı yandırmadan koftasını soyundu, şalını açdı, otağa keçdi. Taxtaları örtülməmiş pəncərədən içəriyə qatı, mavi işıq süzülürdü. Sobanın buxarısında odunlar çıtırdayırdı. Aksinya adəti üzrə güzgüyə baxdı, orada öz əksini görmədisə də saçlarını düzəltdi, nazik parçadan tikilmiş koftasının döşündəki büzmələri sığalladı, sonra pəncərəyə tərəf getdi və yorğun-yorğun taxtın üstünə çökdü.

Aksinyanın ümid və həsrətləri həyatda dəfələrlə boşa çıxmış, cücərmişdi; ola bilsin ki, məhz buna görə də əbədi bir təşviş bayaqkı şadlığını əvəz etmişdi. İndi onun həyatı hansı cığıra düşəcəkdi? Onu gələcəkdə nə gözləyirdi? Acı qadın bəxtiyarlığı onun üzünə çox gec gülümsəmirdimi?

Keçirdiyi həyəcanlardan bir axşam içərisində bütün varlığı viran edilmiş Aksinya xeyli oturdu, yanağını buz kimi soyuq, bayırdan qırov bağlamış pəncərə şüşəsinə söykəyərək, sakit, lakin bir az qəmli baxışlarını gecənin qaranlığına zillədi.

Qriqori gəlib stolun arxasında əyləşdi, bardaqdan stəkanı araqla doldurdu, qaldırıb başına çəkdi:

– Yaxşı araqdırmı? – deyə Proxor maraqla soruşdu.

– Anlaya bilmirəm. Çoxdan içməmişəm.

– Allah haqqı lap Nikolay arağıdır, – deyə Proxor inamla səsləndi və ləngər vura-vura Mixayili qucaqladı. – Mişa, sən belə şeyləri yaxşı bilməzsən, amma mənim içkilərdən başım çıxır. Dünyanın neçə cür çaxır və ya qeyri-içkilərini içmişəm! Elə şərablar var ki, ağzını açar-açmaz köpük daşlanır, elə bil qudurmuş itin ağzından selik tökülür, yalan deyirəmsə Allah mənə qənim olsun! Polşada,

Semyon Mixayiloviçlə birlikdə ağ polyakları axtalamağa gedəndə hücum çəkib bir mülkədar malikanəsi ələ keçirdik. Həmin malikanədə iki mərtəbədən hündür bir ev var idi, mal-qara əlindən tərpənmək mümkün deyildi, həyət hər çeşid quşla dolu idi, inə salmağa yer yox idi; müxtəsər, həmin mülkədar padşah kimi yaşayırdı. Bizim vzvod atları səyirdərək, həmin malikanəyə çatanda, sən demə orada zabitlər ev sahibi ilə kefdə imişlər, bizi gözləməyiblər. Onların hamısını, kimisini bağda, kimisini pilləkəndə qılıncdan keçirdik, birini də əsir aldıq. Çox lazımlı zabit idi, amma əsir edilən kimi bığları sallandı, qorxudan cücəyə döndü. Qriqori Panteleviçi təcili qərargaha çağırdılar, ev qaldı bizim ixtiyarımızda, altdakı otaqlara getdik, orada çox yekə bir stol gördük, üstündə nə naz-nemət desən var idi! Bir xeyli baxdıq, quru-quru ləzzət aldıq, həddindən artıq ac olduğumuz halda stola yaxınlaşmaqdan qorxduq. Fikirləşdik ki: "Birdən bunun hamısı zəhərlənmiş olar?" Əsir aldığımız zabit də mat-mat üzümüzə baxırdı. Ona əmr elədik: "Ye!" Tıxamağa başladı. Könülsüz yeyirdi, amma yeyirdi. "İç!" İçdi. Boşqabdan bir iri tikə yeməyə vadar elədik, hər şüşədən bir stəkan içki içirtdik. Bu yemək-içməkdən, məlun gözlərimizin önündə şişdi, gərənə döndü; o yeyib-içdikcə bizim ağzımızın suyu tökülürdü. Sonra gördük ki, zabit ölmür, biz də yeməyə-içməyə başladıq. Doyunca yedik, bu köpüklü şərabdan o ki var içdik. Bir də gördük ki, zabit iki tərəfli açıldı – yuxarıdan da, aşağıdan da, ətrafını bulamağa başladı. Öz aləmimizdə dedik: "Paho, məhv olduq! Bu alçaq zəhərlənmiş xörəkdən özü də yedi, bizi də aldadıb yedirtdi". Qılınclarımızı sıyırdıq, onun üstünə cumduq, əlilə, ayağı ilə başa saldı: "Ağalar, mən sizin əmrinizlə bunları yediyim üçün belə oldum; heç nigaran olmayın, şübhələnməyin, xörəklər təmizdir, yeməlidir!" Bundan sonra biz təzədən şərabların üstünə cumduq! Probkasından basan kimi şüşə, güllə atılırmış kimi şaqqıltı ilə açılır, içindən köpük daşlanır, qıraqdan baxanın bağrını yarır! Həmin çaxırın gücünə bax ki, mən gecə üç dəfə atdan yıxıldım! Elə yəhərin üstündə yerimi yenicə rahatlayırdım ki, birdən aşırıldım, elə bil külək götürüb atırdı. Bax, belə çaxırdan mən hər gün acqarına bir stəkan, iki stəkan içərdim, özü də düz yüzcə il yaşardım, amma bizim içkilərlə bu qədər yaşamaq olarmı? Sözgəlişi deyirəm, məgər bu içkidir? İçki deyil, zəhərdir! Belə murdar içki adamı vaxtından tez öldürər. – Proxor başı ilə

araq doldurulmuş bardağı göstərdi və... stəkanını ağzına qədər təzədən araqla doldurdu.

Dunyaşka otağa çəkildi, uşaqlarla birlikdə yatmağa getdi, bir az sonra Proxor da ayağa qalxdı. O, səndələyə-səndələyə kürkünü çiyninə saldı, dedi:

– Bardağı aparmıram. Əlimə boş içki qabı götürə bilmirəm. Evə çatan kimi arvad məni məhşər ayağına çəkməyə başlayır. O, belə işdə ustadır! Heç bilmirəm bu qədər pis sözü haradan tapıb döşəyir? Özüm də bilmirəm! Mən içəndən sonra evə gəldikdə, misal üçün, belə deyir: "Ay sərxoş köpək, təkqol it, filan-filan olmuş!" Mən də yavaşca, sakitliklə ona öyüd-nəsihət verib deyirəm: "Ay haramzadə, ay köpək qızı, sərxoş iti, təkqol iti sən harada görmüsən ki, mənə belə söyürsən? Elə şey dünyada görünməmişdir!" Sözünün birinə cavab verirəm, başqa bir sarsaq sözə keçir, yenə ağzından vururam, üçüncüsünü başlayır, düz səhər açılana qədər beləcə dalaşırıq... Bəzən sözləri məni elə zara gətirir ki, gedib mərəyin altında yatıram; bəzən də tərsinə olur – içmiş halda evə gələndə dinmir, söyüş söymür, Allaha and olsun ki, qəti yata bilmirəm! Elə bil nə isə bir şey çatışmır, bədənimə gicişmə düşür, yuxum gəlmir ki, gəlmir! Mən onu dilləndirən kimi yenə məni məhşər ayağına çəkməyə başlayır, tükümü didir! Onu şeytan mənə qənim eləyibdir, əlindən hara gedə bilərəm, qoy azğınlıq eləsin, belə olduqda o işini də yaxşı görər, düzdürmü? Hə, gedirəm, salamat qalın! Görəsən bu gecə gedib axurda yatsam, heç onu yuxudan oyatmasam, daha yaxşı olmazmı?

Qriqori gülə-gülə soruşdu:

– Evə qədər gedə biləcəksənmi?

– Lap iməkləyə-iməkləyə də olsa gedəcəyəm! Yoxsa mən kazak deyiləm, Panteleviç? Belə söz demə, mənim xətrimə dəyir.

– Elə isə get, Allah amanında!

Qriqori dostunu qapıya qədər ötürdü. Qayıdıb mətbəxə girdi.

– Söhbətimizi edəkmi, Mixayil?

– Edək.

Onlar stolun arxasında üz-üzə oturmuşdular, dinmirdilər. Sonra Qriqori dedi:

– Deyəsən aramız mən deyən kimi deyil... Sənin üzündən görünür ki, elə deyil. Mənim gəlişimdən sən narazısan! Yoxsa mən səhv edirəm?

– Yox, səhv eləmirsən, narazıyam.

– Niyə?

– Artıq dərd-sər olacaqsan.

– Mən özüm-özümü dolandırmaq fikrindəyəm.

– Mən bunu demirəm.

– Bəs nəyi deyirsən?

– Biz səninlə düşmənik...

– Düşmən idik.

– Bəli, düşmən idik, amma belə görünür ki, bundan sonra da düşmən olacağıq.

– Başa düşmürəm. Axı niyə?

– Sən etibarsız adamsan.

– Sən nahaq belə deyirsən. Bunu sən nahaq yerə deyirsən!

– Nahaq demirəm. Nə üçün səni belə bir zamanda ordudan tərxis ediblər? Düzünü de!

– Bilmirəm.

– Yox, bilirsən, amma demək istəmirsən! Sənə etibar eləmədilər, eləmi?

– Mənə etibar etməsəydilər, sərəncamıma eskadron verməzdilər.

– Bunu əvvəlcə veriblər, amma indi səni orduda saxlamayıblar; deməli, hər şey aydındır, qardaş!

Qriqori düz onun gözünün içinə baxıb soruşdu:

– Sən necə, mənə inanırsanmı?

– Yox! Canavarı nə qədər əzizləsən də fikri meşədə olacaqdır.

– Sən bu gün, Mixayil, bir qədər çox içmisən.

– Bu sözləri boşla! Mən səndən çox kefli deyiləm. Sənə orada etibar edilməyibsə, onu bil ki, burada da çox inanmayacaqlar!

Qriqori dinmədi. Ağır-ağır boşqabdan bir parça duzlu xiyar götürdü, çeynəyib yerə tüpürdü.

– Arvadım sənə Kiryuşka Qromovun əhvalatını danışıbmı?

– Danışıb.

– Onun da gəlişindən narazı idim. Gəldiyini eşidən günü getdim...

Qriqorinin rəngi ağardı, qəzəbindən gözləri kəlləsinə çıxdı:

– Nə demək istəyirsən, mən də sənə Kiryuşka Qromovam?

– Hay-küy salma. Sənin ondan nəyin yaxşıdır ki?

– Bilirsən nə var...

– Burada bilməli bir şey yoxdur. Hər şey çoxdan məlumdur. Sonra da Mitka Korşunov gələcəkdir, mən onun gəlişinə də sevinməliyəmmi? Yox, yaxşısı budur ki, sizin heç biriniz xutora getməyəsiniz.

– Səndən ötrü yaxşı olar?

– Məndən ötrü də yaxşı olar, xalq üçün də, əmin-amanlıqla yaşayarıq.

– Sən məni onlarla bir cərgəyə qoyma!

– Mən sözümü sənə dedim, Qriqori, buna görə də incimək lazım deyil: sən onlardan yaxşı deyilsən, hökmən onlardan pissən, təhlükəlisən.

– Niyə təhlükəliyəm? Sən nə çərənləyirsən?

– Onlar sıravi kazak idilər, amma sən bütün üsyana başçılıq eləmisən.

– Ona mən başçılıq eləməmişəm, mən yalnız diviziya komandiri olmuşam.

– Bəs bu az işdir məgər?

– Məsələ azlığında ya çoxluğunda deyil axı... Qızıl əsgərlər o vaxt kef məclisində məni öldürmək istəməsəydilər, mən ola bilsin ki, üsyanda qəti iştirak etməzdim.

– Sən zabit olmasaydın, kimsə sənə toxuna bilməzdi...

– Məni hərbi xidmətə aparmasaydılar, zabit olmazdım... Əlqərəz, bu uzun əhvalatdır!

– Həm uzun, həm də iyrənc.

– İndi bu əhvalatı təzədən yada salmağın mənası yoxdur, keçib.

Onlar dinməzcə papiros yandırdılar, Koşevoy dırnağının ucu ilə papirosunun külünü tökərək dedi:

– Sənin qəhrəmanlıqlarını bilirəm, eşitmişəm. Sən bizim döyüşçülərdən çoxunu qırmısan, buna görə də üzünə sakitcə baxa bilmirəm... Belə şeyi yaddan çıxarmaq mümkün deyil.

Qriqori gülümsədi:

– Hafizən çox möhkəm imiş! Sən mənim qardaşım Petronu öldürdün, amma mən bunu sənin üzünə vurmuram... Hər şeyi yadda saxlasan, gərək canavar kimi yaşayasan.

– Nə olsun ki, öldürmüşəm, boynumdan atmıram! O vaxt fürsət düşsəydi, sən əlimə keçsəydin, səni də öldürərdim!

– Amma mən, İvan Alekseyeviç Ust-Xoprada əsir alınanda, oraya qaçdım, qorxurdum ki, sən də orada olarsan, kazaklar səni də öldürərlər... Belə məlum olur ki, mən o vaxt hədər yerə tələsirmişəm.

– Xeyirxaha baxın! İndi kadet hakimiyyəti olsaydı, yəni siz qalib gəlmiş olsaydınız, mən bilirəm sən mənimlə nə cür danışardın! Dərimi soyardın! Sən indi başqa səbəbə görə mülayimsən...

– Bəlkə də bir başqası dərini soyardı, amma mən əlimi sənin kimilərinin qanına bulamazdım.

– Bu da o deməkdir ki, biz başqa-başqa adamlarıq... Mən ömrüm boyu əlimi düşmən qanına bulamaqdan çəkinməmişəm, lazım gəlsə, indi də çəkinmərəm. – Mixayil arağın qalığını stəkanlara töküb soruşdu: – İçirsənmi?

– İçək, yoxsa belə söhbət üçün biz çox ayığıq...

– Yaxşı, Mixayil, sən bir də görək, nədən qorxursan? Elə güman edirsən ki, mən yenə də Sovet hakimiyyətinə qarşı üsyan edəcəyəm?

– Mən heç nədən qorxmuram, amma belə fikirləşirəm: aralıq bir balaca qarışsa, sən dərhal o tərəfə keçəcəksən.

– Mən orada, səncə, polyaklar tərəfə keçə bilərdim yoxsa yox? Bizim bir əsgəri hissəmiz tamam onların tərəfinə keçdi.

– Yəqin keçməyə macal tapmamısan!

– Yox, keçmək istəmədim. Mən orduda lazımi qədər xidmət etmişəm. İndi heç kəsə qulluq eləmək istəmirəm. Bu az yaşımda çox davalarda olmuşam, ruhən çox yorulmuşam. Mənim hər şeydən zəhləm gedir – inqilabdan da, əks-inqilabdan da. Qoy bütün bunlar cəhənnəm olsunlar... Qoy hər şey məhv olsun! Mən yalnız uşaqlarımla birlikdə yaşamaq, təsərrüfatla məşğul olmaq istəyirəm, vəssalam, Mixayil, inan ki, mən bu sözləri ürəkdən deyirəm!

Koşevoyu indi heç bir and-aman inandıra bilməzdi. Qriqori bunu başa düşüb susdu. Onun bir anlıq özünə bərk acığı tutdu. Axı o niyə özünü təmizə çıxardır, nəyi isə isbat etməyə cəhd edir? Sərxoş-sərxoş söhbət eləmək, Mixayilin axmaq vəzlərini dinləmək nəyinə lazımdır? Hamısı cəhənnəmə! Qriqori ayağa qalxdı.

– Bu gərəksiz söhbəti qurtaraq! Kifayətdir! Sənə bircə söz demək istəyirəm: hökumət məni xirtdəkləməyincə mən də onun əleyhinə getməyəcəyəm. Xirtdəkləsələr özümü müdafiə edəcəyəm! Hər halda üsyan üstündə Platon Ryabçikov kimi başımı güdaza verəsi deyiləm.

– Necə yəni?

– Elə-belə. Qoy mənim Qızıl Orduda qulluq etdiyimi, orada yaralanmağımı nəzərə alsınlar; üsyana görə qalaya salınmağa da

razıyam, amma mənə bunun üstündə güllələnmə kəssələr, onda məni bağışlayın! Bu ağ olar!

Mixayil tənə ilə gülümsədi:

– Gör özündən nə hoqqa çıxardır! İnqilabi tribunal və ya Fövqəladə Komissiya səndən nəyi istədiyini, nəyi istəmədiyini soruşmayacaqdır, bu barədə səninlə çərənçilik də etməyəcəkdir. Köhnə borclar tamamilə ödənilməlidir.

– Baxarıq.

– Aydın işdir ki, baxarıq.

Qriqori kəmərini açdı, köynəyini soyundu, hıqqana-hıqqana ayaqqabılarını çıxarmağa başladı. O çəkməsinin qopmuş pəncəsinə diqqətlə baxa-baxa soruşdu:

– Mülkü bölüşəcəyikmi?

– Mənimlə sənin mülk bölüşməyimiz müxtəsər olacaqdır: öz daxmamı sahmana salıb köçəcəyəm.

– Hə, gəl birtəhər aralanaq. Biz bir yerdə yola gedə bilməyəcəyik.

– Yola gedə bilməyəcəyik, – deyə Mixayil təsdiq etdi.

– Güman etməzdim ki, sən mənim haqqımda belə fikirdə olarsan. Neyləməli, olsun...

– Mən sözün açığını dedim. Fikrimi dedim. Nə vaxt Veşenskayaya gedəcəksən?

– Bu günlərdə gedərəm.

– Bu günlərdə olmaz, sabah getmək lazımdır.

– Mən qırx verst piyada yol gəlmişəm, qılçalarım qırılır, sabah dincələr, biri gün qeyd olunmağa gedərəm.

– Belə bir əmr alınmışdır: gələnlər dərhal qeydə alınmalıdır. Sabah get.

– Bir gün dincəlmək lazımdır ya yox? Qaçmayacağam ki?

– Nə bilmək olar. Mən sənin ucbatından cavabdeh olmaq istəmirəm.

Qriqori keçmiş dostunun sərt üzünə təəccüblə baxıb dedi:

– Heç bilirsən, nə qədər əclaf olmusan, Mixayil!

– Sən mənə əclaf deməyi boşla! Mən belə şeyə öyrəşməmişəm... – Mixayil nəfəsini dərdi, səsini ucaltdı: – Bilirsən nə var, bu zabit ədalarını buraxmaq lazımdır! Günü sabah yola düş, öz xoşunla getmək istəməsən, keşikçi qabağında yollaram. Anlaşıldımı?

– İndi hər şey aydındır... – Qriqori otaqdan çıxan Mixayilin kürəyinə kinli nəzər saldı, paltarını soyunmadan çarpayının üstünə uzandı.

Nə etmək olardı, hər şey necə olmalı idisə eləcə də oldu. Axı onu – Qriqorini, niyə başqa cürə qarşılamalı idilər? Axı niyə o elə güman edirdi ki, onun Qızıl Ordu sıralarında qısa müddətdə və namusla qulluq etməsi bütün köhnə günahlarını yumalıdır? Bəlkə Mixayil, hər şey bağışlanmır, köhnə borclar tamamilə ödənilməlidir deməkdə haqlıdır?

...Qriqori yuxusunda geniş bir çöl, ətrafa yayılmış, hücuma hazırlaşmış polk gördü. Haradan isə uzada-uzada "Eskadro-o-on..." komandası da verdilər, Qriqorinin indi, yadına düşdü ki, yəhərin tapqırlarını boşaltmışdır. Güc verərək ayağını sol üzəngiyə keçirdi, yəhər altında tərsinə çevrildi... Xəcalət və vahimədən özünü itirdisə də tapqırları çəkib bərkitmək üçün sıçrayıb atdan düşdü, bu zaman ani olaraq başlanan və sürətlə uzaqlaşan at ayaqlarının tappıltısını eşitdi.

Polk onsuz hücuma atıldı.

Qriqori yerində qurcuxdu, oyandığı zaman boğula-boğula zarıdığını eşitdi.

Bayırda dan yeri ağarırdı. Deyəsən, külək gecə pəncərənin taxtasını açmışdı: qırov bağlamış şüşədən eşiyə baxanda kiçilməkdə olan ayın ətrafa yaşıl nur ələyən qürsü görünürdü. Qriqori kisəsini əli ilə axtarıb tapdı, papiros çəkdi. Ürəyi hələ də boğuq bir səslə, həm də yeyin-yeyin döyünürdü. O, arxası üstə uzandı, gülümsündü: "Gör gəlib yuxuma nə sarsaq şeylər girir! Deməli, mənə vuruşmaq nəsib olmadı..." Bu səhər çağında o heç ağlına da gətirmədi ki, bundan sonra da, dəfələrlə yuxuda da, oyaqlıqda da hücuma atılacaqdır.

VII

Dunyaşka tezdən qalxmışdı: inəyi sağmaq lazım idi. Qriqori mətbəxdə ehtiyatla gəzişir, arabir öskürürdü. Dunyaşka yorğanı uşaqların üstünə çəkdi, tez paltarını geyindi, mətbəxə gəldi. Bu zaman Qriqori də şinelini geyinmişdi, yaxasını düymələyirdi.

– Qardaş, siz tezdən haraya hazırlaşıbsınız belə?

– Bir qədər xutorda gəzişmək istəyirəm, baxım görüm nə var, nə yox.

– Qəlyanaltı eləyin sonra gedin də...

– İstəmirəm, başım ağrıyır.

– Səhər yeməyinə qədər gələrsinizmi? Mən bu saat sobanı qalayıram.

– Məni gözləməyin, tez qayıtmayacağam.

Qriqori küçəyə çıxdı. Səhərə yaxın qar bir azacıq ərimişdi. Cənubdan nəm və ilıq külək əsirdi. Torpağa qarışmış qar çəkmənin dabanlarına yapışırdı. Qriqori yavaş addımlarla xutorun ortasına doğru gedir, uşaqlıq çağından tanıdığı evləri, mərəkləri diqqətlə nəzərdən keçirirdi. Meydanda keçən il Koşevoyun od vurduğu tacir evlərinin, dükanlarının yanıq xarabaları kömür kimi qaralırdı; yarıya qədəri dağılmış kilsə hasarının uçuqları görünürdü. Qriqori ürəyində soyuqqanlılıqla dedi: "Kərpiclər soba üçün gərək olub". Kilsə əvvəlki kimi yenə də balaca idi, yerə girmiş kimi idi. Onun çoxdan rənglənməyən taxtapuşu paslanmışdı, divarlarının çox yerində aşağıya axmış sulardan qonur izlər qalmışdı, suvağı tökülmüş yerlərdə isə üzə çıxmış kərpiclər qıpqırmızı və təptəzə idi.

Küçədə heç kəs yox idi. Qriqori su quyusunun yanında yuxusu hələ dağılmamış iki-üç arvada rast gəldi. Onlar yad adama salam verirmişlər kimi, dinməzcə ona baş əydilər və yalnız Qriqori ötəndən sonra dayanıb xeyli vaxt onun dalınca baxdılar. "Qəbir üstünə getmək, anamı və Natalyanı yad eləmək lazımdır" deyə Qriqori ürəyində düşündü və qəbiristanlığa gedən küçəyə buruldu, lakin bir az getdikdən sonra dayandı. Bunsuz da onun ürəyi əzab və üzüntüdən sıxılırdı. Proxorgilə tərəf yönələndə öz-özünə belə qət elədi: "Başqa vaxt gedərəm. Onların yanına indi gedib-getməməyimin fərqi yoxdur. İndi onlar orada əbədi istirahətdədirlər. Hər şey bitmişdir. Qəbirlərinin üstünə qar da yağmışdır. Orada, bir az dərində torpaq, güman ki, soyuqdur... Ömürlərini başa vurdular. Həm də nə qədər tez, elə bil yuxu imiş. Hamısı da bir yerdə, yan-yana yatırlar, – arvadı da, anası da, Petro da, Darya da. Bütün ailəliklə oraya köçüblər və yanaşı yatırlar. Onlar üçün xoşdur, amma atası qürbət eldə tək qalmışdır. Yazıq kişi orada yadların arasında darıxır..." Qriqori daha yan-yörəsinə baxmadan gedir, ayaqları altına, havanın

istisindən azacıq sulanmış, xeyli yumşalmış qara baxırdı; qar o qədər yumşalmışdı ki, Qriqori onu daha ayaqları altında hiss etmirdi, qar demək olar ki, xışıldamırdı.

Sonra Qriqori uşaqlarını fikirləşdi. Uşaqlar nə isə yaşlarına yaraşandan artıq toxtaq və qaradinməz olmuşdular, analarının sağlığındakı uşaqlara bənzəmirdilər. Ölüm onları çox şeydən məhrum etmişdi. Onlar vahiməli idilər. Niyə Polyuşka dünən onu görəndə ağladı? Uşaqlar birisi ilə görüşəndə ağlamazlar, bu, onlarda görünən hadisə deyildir. Polyuşkanın xəyalına nə gəlmiş olar? Nə üçün atası onu qucağına götürəndə Polyuşkanın gözlərində bir əndişə dolaşdı? Yoxsa, o həmişə belə hesab edirmiş ki, atası sağ deyil, bir də qayıdıb gəlməyəcək, amma birdən onunla üz-üzə gəldiyi üçün qorxmuşdu? Hər halda o, Qriqori, uşaqları qarşısında qətiyyən müqəssir deyildi. Aksinyaya yalnız bunu tapşırmaq lazımdı ki, uşaqları əzizləsin, hər vasitə ilə analarını əvəz etməyə çalışsın... Güman var ki, uşaqlar analıqlarına öyrəşəcəklər. Aksinya mehriban və rəhmli arvaddır. O, Qrişanı sevdiyi üçün onun balalarını da sevəcəkdir.

Bunun özünü düşünmək də ağır və kədərli idi. Bunlar o qədər də asan işlər deyildi. Həyat özü də bütünlükdə bu yaxınlara qədər Qriqorinin gözlərinə göründüyü kimi, sadə deyildi. O axmaqcasına, uşaq sadəlövhlüyü ilə belə güman edirdi ki, evə qayıtması, şinelini çıxardıb zipununu geyinməsi kifayətdir, o saat hər şey öz qaydası ilə gedəcəkdir: heç kəs ona nə bir söz deyəcək, nə məzəmmət eləyəcəkdir, hər şey öz-özünə sahmana düşəcəkdir; o da dinc bir əkinçi, nümunəvi ailə başçısı kimi ömür sürəcəkdir. Yox, əsl həyatda bunların hamısı heç də belə sadə deyil.

Qriqori Zıkovların təkcə bir həncamədən asılı küçə qapısını ehtiyatla açdı. Ayağında yumruca, çox geyilməkdən köhnəlmiş keçə çəkmə olan, qulaqlı papağını düz qaşlarının üstünə basmış Proxor boş süd vedrəsini əlində saymazyana fırlada-fırlada artırmaya çıxırdı. Ağ süd damlaları qarın üstünə tökülür, gözdən itirdi.

– Yaxşımı yatmısınız, yoldaş komandir?

– Şükür Allaha, bəd deyil.

– Bir az da içmək lazımdır, yoxsa başım bax bu vedrə kimi boşdur.

– Pis olmazdı, ancaq de görüm vedrə niyə boşdur? Yoxsa inəyi özün sağırdın?

Proxor başını tərpədib qulaqlı papağını peysərinə itələdi, Qriqori yalnız indi gördü ki, dostunun sifəti qara bulud kimi tutuldu.

– Mən sağmasam kim gəlib sağacaqdır? Şeytan? Amma bu lənətə gəlmiş arvad üçün, mən də yaman süd sağmışam ha! Mənim süd sağmağım onun qarnına sancı doldurmasa yaxşıdır!.. – Proxor sonsuz bir qəzəblə vedrəni kənara tulladı, qısaca dedi: – Gedək daxmaya.

– Arvadın evdədirmi? – deyə Qriqori tərəddüdlə soruşdu.

– Bir yağlı tikə olub qeybə çəkilib! Dan yeri ağarar-ağarmaz şələ-şüləsini yığışdırdı. Krujilinskiyə göyəm gətirməyə getdi. Mən sizdən qayıdanda üstümə düşdü, nə düşdü! O ki var mənə ayə-təfsir oxudu, birdən də dik atılıb dedi: "Sabah göyəm gətirməyə gedəcəyəm! Maksayevlərin gəlinləri gedir, mən də gedəcəyəm!" İstəyirsən, dedim, lap armud gətirməyə get, Allah yaxşı yol versin. Oyandım, sobanı qaladım, inəyi sağmağa getdim. Yaman da sağdım. Sən elə bilirsən ki, belə işi tək əllə görmək olar?

– Ay maymaq, arvadlardan birini çağıra bilməzdin?

– Maymaq quzudur, bayrama qədər anasını əmir, amma mən heç bir zaman maymaq olmamışam. Elə güman edirdim ki, özüm sağa bilərəm. Yaman da sağdım. İnəyin altına girdim, Allahın lənətinə gəlmiş heyvan bir yerdə durmur, ayaqlarını yerə döyürdü. Mən qulaqlı papağımı da çıxartdım ki, məndən ürkməsin, fayda vermədi. İnəyi sağıb qurtarıncaya qədər bərk tərlədim, köynəyim islandı, əlimi atdım ki, vedrəni götürüm, inək təpik atdı! Vedrə bu tərəfə, mən o tərəfə düşdüm. Mənim inək sağmağım belə oldu. Bu inək deyil, buynuzlu şeytandır! Üzünə tüpürdüm, çıxıb getdim. Mən südsüz də keçinərəm, içəcəyik, yoxsa yox?

– İçki varmı?

– Bir şüşə var. Betər şeydir.

– Bəsimizdir.

– İçəri keç, qonağım ol. Qayğanaq bişirimmi? Mən bunu bircə dəqiqədə hazırlaram.

Qriqori piyi doğradı, ocaq qalamaqda ev sahibinə kömək elədi. Onlar kirimişcə çəhrayı piy parçalarının tavada cızıltısına, əridikcə sürüşməsinə tamaşa edirdilər. Sonra isə Proxor mücrüdən toz basmış araq şüşəsini çıxartdı. Müxtəsərcə dedi:

– Arvaddan gizli nəyim varsa, bu mücrüdə saxlayıram.

Onlar bu balaca, isti daxmada yeyib-içdilər, söhbət elədilər.

Qriqori ürəyinin dərdini Proxora da deməyib kimə deyəcəkdi? O, stolun arxasında əyləşmiş, əzələli ayaqlarını bir-birindən xeyli aralı qoymuşdu, xırıltılı səsi bir az da boğuq çıxırdı:

– ...Orduda olanda da, evimizə gələndə də yolda hey bunu fikirləşirdim ki, daha torpağın qoynunda yaşayacağam, bütün bu cəhənnəm əzabından qurtarıb, ailəmlə birlikdə gün keçirəcəyəm. Zarafatdır məgər, səkkizinci ilə keçir ki, mən at belindən düşmürəm! Bütün bu dəsgahlar hətta az qalır hər gecə yuxuma girsin: gah sən birisini öldürürsən, gah da başqası səni öldürür... Lakin, Proxor, mən deyən, belə görünür, olmayacaqdır... Belə görünür ki, bu torpağı mən yox, başqası əkəcəkdir, ona qulluq eləyəcəkdir...

– Dünən Mixayillə danışdınmı?

– Sözümüzü lap şəkərlə kəsdik.

– Səndən nə istəyir?

Qriqori barmaqlarını xaç kimi bir-birinin üstünə qoyub dedi:

– Onunla dostluğumuz belədir, bax. Ağlara qulluq etməyimə görə məni təqsirkar hesab edir; elə güman edir ki, yeni hakimiyyətə qarşı kinliyəm, ona ilişdirmək üçün qoltuğumun altında xəlvətdə bıçaq saxlayıram. O mənim üsyan qaldıracağımdan qorxur, amma bu üsyan mənim nəyimə gərəkdir, bunu o axmağın heç özü də bilmir.

– O bunu mənə də deyibdir.

Qriqori qəmli-qəmli gülümsədi:

– Biz Polşanın üstünə gedəndə, Ukraynada bir xaxol, kəndi müdafiə üçün bizdən silah istədi. Quldur dəstələri onlara çoxlu ziyan verir, evlərini talayır, mal-qaralarını kəsirdilər. Bu söhbət mənim yanımda oldu, polk komandiri ona dedi: "Sizə silah versək, quldurların yanına qaçarsınız, onlara qoşularsınız". Xaxol gülüb dedi: "Siz, yoldaş, bizə təki silah verin, onda biz nəinki quldurları, heç sizin özünüzü də kəndə buraxmarıq". Bax, mən də həmin xaxol kimi, indi belə fikirləşirəm: Tatarskiyə nə ağlar, nə də qırmızılar buraxılmasaydı, daha yaxşı olardı. Mənim gözümdə onların ikisi də eyni şeydir – qaynım Mitka Korşunov da, Mixayil Koşevoy da birbirinin tayıdır. Mixayil elə güman edir ki, mən ağlara elə qızğın tərəfdaram ki, daha onlarsız yaşaya bilmərəm. Cəfəng fikirdir! Mən onlara tərəfdarammış, gör ha! Bu yaxınlarda, biz Krıma çatanda mən vuruşma zamanı bir Kornilov zabiti ilə – çox çevik, bığları ingilis

qaydası vurulmuş və burnunun deşikləri altından fırtığa oxşar iki xətt şəklində sallanmış bir polkovniklə üz-üzə gəldim: qılıncımı onun təpəsinə elə nıxçadım ki, ürəyim tərpəndi! Biçarə polkovnikin başının yarısı ilə furajkasının yarısı qaldı... ağ zabit kokardası isə kənara düşdü... Mənim onlara tərəfdarlığım belədir! Onlar da mənə az qan uddurmayıblar. Mən bu iyrənc zabitlik rütbəsini qanım bahasına qazanmışam, amma zabitlər arasında həmişə tək qalmışam. Onlar, bu namərdlər, məni hətta insan saymırdılar, mənimlə əl tutuşmağı özləri üçün alçaqlıq hesab edirdilər; bütün bunlardan sonra mən onların tərəfdarıyammış! Onların anaları vaylarına otursun! Belə şeyləri danışanda adamın başı ağrıyır! İndi mən yenə də onların hökmranlığını qaytarım? Fitsxelaurov kimi generalları çağırım? Mən bir dəfə bunun dadına baxdım, düz bir il öyüdüm, qusdum, yetər, daha ağıllanmışam, hər təpiyə davam gətirmişəm!

Proxor çörəyini piyin yağına batıraraq dedi:

– Heç bir üsyan olmayacaqdır. Əvvəla, kazakların çoxu qırılıb, azı qalıb, ikincisi, salamat qalanlar da xeyrini-şərini başa düşübdür. Qardaşcığazlarımın xeyli qanlarını axıdıblar, buna görə də onlar elə fağırlaşıb və ağıllanıblar ki, indi onları kəmənd ilə də üsyana qaldırmaq olmaz. Bundan başqa, məxluq dinc həyat həsrəti ilə yaşayır. Sən adamların bu yay nə cür işlədiklərini gərək görəydin: otu çalıb dağ boyda tayalar vurmuşdular, taxılı son dəninə qədər yığdılar; işləməkdən canları çıxır, nəfəsləri kəsilirdi, amma yenə də əkirdilər, səpirdilər, qıraqdan baxan elə güman edə bilərdi ki, bunların hərəsi yüz il yaşamağa hazırlaşır! Yox, heç üsyan barədə danışmağın mənası yoxdur. Bu sarsaq sözdür! Bir də ki, lənət şeytana, bizim bu kazakların nə xəyala düşə biləcəklərini kim bilir?

– Onlar nə xəyala düşə bilərlər ki? Sən bununla nəyə işarə vurursan?

– Qonşularımız belə bir xəyala düşdülər...

– Hə?

– Nə hə. Voronej vilayətində, Voquçardan o yanda harada isə üsyan başlanmışdır.

– Yalandır!

– Niyə yalandır, bunu mənə dünən bir tanış milis nəfəri söylədi. Deyəsən onları həmin dediyim yerə göndərməyə hazırlaşırlar.

– Hansı həmin yerə?

– Monastırşinaya, Suxoy Donetskə, Pasekə, Staraya Kalitva ilə Novaya Kalitvaya, bir də nə bilim daha haraya. Deyirdi ki, üsyan çox böyükdür.

– Ay Allahın gici, bəs bunu niyə dünən mənə demədin?

– Mixayilin yanında belə sözü sənə demək istəmədim, bir də belə şeyləri danışmağın adama nə xeyri? – Proxor narazılıqla cavab verdi: – Kaş yüz il belə xəbər eşitməyəsən.

Qriqorinin sir-sifəti qaraldı. Xeyli fikir-xəyaldan sonra dedi:

– Pis xəbərdir.

– Bu xəbərin sənə dəxli yoxdur. Qoy bunun dərdini xaxollar çəksinlər. Bir yaxşıca əzişdirilərlər, onda bilərlər ki, üsyan nə deməkdir. Belə məsələnin səninlə mənə heç dəxli yoxdur. Xaxollara nə divan tuturlarsa tutsunlar, vecimə də almaram.

– İndi mənim işim çətinləşdi.

– Niyə?

– Necə niyə? Əgər mahalın yerli hökuməti də mənim barəmdə Koşevoyla həmrəydirsə, onda məni hökmən həbsə alacaqlar. Qonşu mahalda üsyan, mən də ki, sabiq zabit, həm də üsyançı... Başa düşdünmü?

Proxor əlini xörəkdən çəkdi, fikrə getdi. Belə bir şey onun ağlına gəlməmişdi. Arağın təsirindən kütləşdiyi üçün əməlli-başlı və aydın fikirləşə bilmirdi. Odur ki, heç nə anlamayıb sual verdi:

– Axı Panteleviç, buna sən neyləyəsən?

Qriqori dilxor olub qaşqabağını salladı, dillənmədi. Eşitdiyi xəbər onu çox təşvişə salmışdı. Proxor istədi stəkanı ona uzatsın, amma Qriqori onun əlini kənara itələdi, qətiyyətlə dedi:

– Daha içmirəm.

– Bəlkə hərəmiz bir stəkan da içək? İç, Qriqori Panteleviç, qapqara oluncaya qədər iç. Belə iyrənc həyatı adama yalnız cecə arağı unutdurar.

– Onda sən özün qapqara oluncaya qədər təkcə iç. Başımız onsuz da xarabdır, araq isə tamam xarab eləyər. Mən bu gün Vyoşkiyə, qeyd olunmağa getməliyəm.

Proxor diqqətlə onun üzünə baxdı. Qriqorinin günəş və küləkdən qaralmış sifətinə qatı bir qızartı gəlmişdi; yalnız geriyə daranmış saçlarının dibi tutqun şəkildə ağarırdı. Başına min cür qəzavü-qədər gəlmiş, müharibə ilə məhrumiyyətlər üzündən Proxorun əziz dostu

olmuş bu əsgər sakit idi. Onun azacıq şişmiş gözləri qəmli-qəmli, sonsuz bir yorğunluqla baxırdı.

Proxor ona sual verdi:

– Sən, adı nədir... həbsə alınmaqdan qorxursanmı?

Qriqori özünü yığışdırdı:

– Elə bircə bundan qorxuram, oğlan! İndiyədək həbsxanaya salınmamışam, həbsxanadan ölümdən betər qorxuram. Amma iş ki, belə gedir, deyəsən, Allahın bu nemətinin də dadına baxacağam.

Proxor təəssüf hissi ilə dedi:

– Sən nahaq yerə evə gəldin.

– Bəs evimizə gəlməyib hara getməli idim?

– Şəhərdə bir tərəfdə bu vurhavurlar qurtarıncaya qədər girlənəydin, sonra gələydin.

Qriqori əlini yellədib güldü:

– Belə şey əlimdən gəlməz! Gözləmək, sonra da qaça-qaça daldan çatmaq, ən biabırçı işdir. Mən uşaqlarımı başlı-başına buraxıb hara gedə bilərdim?

– Yaman da söz danışdın! Onlar sənsiz yaşayırdılar ya yox? Sonra da gələr, həm onları götürərdin, həm də sevgilini. Hə, yadımdan çıxıb, sənə deməmişəm! Sənin ağaların, müharibədən əvvəl Aksinya ilə birlikdə qapısında qulluq etdiyiniz şəxslərin ikisi də vəfat etmişdir.

– Listnitskilər?

– Hə, onlar. Mənim kirvəm Zaxar camaat ellikcə geriyə çəkildikdə cavan Listnitskinin yanında yavər olmuşdur; o söyləyirdi ki, qoca pan Morozovskayada yatalaq naxoşluğundan öldü, amma cavan Listnitski Yekaterinodara qədər getdi; orada arvadı general Pokrovski ilə aranı sazlayır, əri də buna dözməyib özünü güllə ilə öldürüb.

Qriqori laqeydliklə dedi:

– Cəhənnəmə ki, öldürüb! Hədər yerə məhv olmuş yaxşı adamlara insanın heyifi gəlir, amma belələrinin ölməyi heç kəsi yandırmaz. – O, ayağa qalxdı, şinelini geyindi və qapının dəstəyindən yapışıb dalğın-dalğın dedi: – Kim bilir, bəlkə də elə deyil, çünki mən cavan Listnitski və ya bizim Koşevoy kimi adamlara həsəd aparmışam... İşin əvvəlindən onlara hər şey aydın idi, amma mənə hələ də aydın deyildir. Onların hər ikisinin özlərinə məxsus yolları var, bu yolun bir axırı var, amma mən, budur, on yeddinci ildən bəri

əyri-üyrü, dolaşıq cığırlarla gedirəm, kefli kimi səndələyirəm... Ağlardan aralandım, qırmızılara qoşulmadım, odur ki, burulğana düşmüş təzək kimi fırlana-fırlana qalmışam... Bilirsən nə var, Proxor, mən gərək axıradək Qızıl Ordu sırasında qalaydım, onda, ola bilsin ki, başım bəlaya düşməzdi. Mən lap əvvəldən, bunu sən yaxşı bilirsən, Sovet hakimiyyətinə ürəkdən və sədaqətlə qulluq eləmişəm, sonra hər şey alt-üst oldu... Mən ağların arasında, onların komandirlərinin nəzərində yad sayılmışam, həmişə məndən şübhələniblər. Axı başqa cür də ola bilməzdi! Bir əkinçi oğlu, savadsız kazak onların nə cür dostu ola bilərdi? Onlar mənə etimad etmirdilər! Sonra mənim işim qırmızıların yanında da bu istiqamətdə getdi. Axı mən kor deyildim, eskadronda komissarla kommunistlərin mənə necə baxdıqlarını görürdüm... Vuruşma zamanı məni gözdən qoymurdular, hər bir addımımı izləyir və çox ehtimal ki, belə fikirləşirdilər: "Ax, əclaf, ağ zabit, kazak zabiti... gözləyin ha, bu birdən bizi aldadar!" Mən bunu duydum, o saat ürəyim onlardan da soyudu. Vaxt daraldıqca mən bu etimadsızlığa dözə bilmədim. İstidən, axı, daş da çatlar. Yaxşı da oldu ki, məni ordudan tərxis etdilər. Getdikcə aqibətim yaxınlaşır. – O, kal-kal öskürdü, susdu və daha Proxorun üzünə baxmadan başqa ahənglə dedi: – Qonaqlığına görə sağ ol. Mən getdim. Salamat qal. Stanitsadan qayıtsam, axşamüstü yanına gələrəm. Şüşəni stolun üstündən götür, yoxsa arvad gələr, tavanı qaldırıb belinə nıxçayar, belin qırılar.

Proxor onu artırmaya qədər ötürdü, dəhlizdə pıçıltı ilə dedi:

– Ah, Panteleviç, gözlə, səni orada tutub damlamasınlar.

– Baxaram, – deyə Qriqori təmkinlə cavab verdi.

O, evə getmədi, Don tərəfə endi; körpüdə bir qayıq açdı, sonra çəpərdən bir paya çıxartdı, qayığın dövrəsindəki buzları qırdı, minib o biri sahilə getdi.

Donda yel əsdikcə köpüklənən yaşıl dalğalar günbatana axışırdı. Sahil boyunda, suyun sakit yerlərində dalğalar kövrək və şəffaf buzu sındırır, ipək kimi yumşaq yaşıl mamır saçaqlarını yırğalayırdı. Qırılan buz parçalarının büllur ciringiltisi sahilə qədər yayılır, suyun yuduğu çınqıl daşları xışıldayırdı; suyun ortasında, axarın güclü və ahəngdar yerində isə Qriqori qayığın sol böyrünü döyəcləyən dalğaların şappıltısını, lıqqıltısını eşidirdi; Don vadisindəki meşədə külək yavaşca, lakin aramsız olaraq uğuldayır, inildəyirdi.

Qriqori qayığı dartıb yarıya qədər sahilə çıxartdı, oturdu, çəkmələrini çıxartdı, yolda rahat yeriyə bilmək üçün patavalarını təzədən səliqə ilə doladı.

Günorta vaxtı Veşenskayaya gəldi.

Mahal hərbi komissariatında adam çox idi, ətrafı səs-küy bürümüşdü. Telefon zəngləri bərk cingildəyir, qapılar bərk çırpılır, silahlı adamlar girib-çıxırdı, otaqlardan yazı makinalarının taqqıltısı gəlirdi. Koridorda iyirmiyə qədər qızıl əsgər, büzməli romanov gödəkçəsi geyinmiş ortaboylu kişinin dövrəsinə toplaşaraq, birbirinə macal vermədən nə isə danışır və şaqqıltı ilə gülürdülər. Qriqori koridordan keçib gedəndə, lap dibdəki otaqdan iki qızıl əsgər bir dəzgahlı pulemyotu dığırladaraq bayıra çıxartdı. Pulemyotun balaca təkərləri sürtülmüş taxtabəndin üstündə yumşaqca taqqıldadı. Pulemyotçulardan biri, kök və ucaboy bir əsgər, zarafatla qışqırırdı: "Ey cərimə rotası, qırağa çəkilin, yoxsa sizi ayaqlaram!"

Qriqori ürəyində dedi: "Deyəsən gerçəkdən üsyançıların üstünə getməyə hazırlaşırlar".

Qeyd otağında onu çox ləngitmədilər. Hərbi komissarın katibi onun vəsiqəsini tez qeydə alıb dedi:

– Donçekanın yanındakı siyasi büroya gedin. Sizi keçmiş zabit kimi onlar qeydə almalıdırlar.

– Baş üstə, – deyə Qriqori hərbi salam verdi, o, həyəcanını qətiyyən büruzə vermədi.

O, meydanda dayandı, fikrə getdi. Siyasi büroya getmək lazım idi, lakin bütün varlığı əzab içində müqavimət göstərirdi. Daxildən gələn bir səs ona deyirdi: "Həbs edəcəklər!" Qriqori qorxu və nifrətdən uçunurdu. O, məktəb hasarının yanında dayanmışdı, yol çəkən gözləri peyinli yerə baxırdı; qollarının bağlandığı, çirkli pilləkənlə aşağıya, zirzəmiyə aparıldığı, dalınca gələn şəxsin naqanın kələ-kötür dəstəsindən möhkəm yapışdığı gözləri önündə canlandı. Qriqori yumruğunu düydü, qabarıq, gömgöy olmuş damarlarına baxdı. Onlar Qriqorinin bu qollarını bağlayacaqlar? Qan başına sıçradı. Yox, Qriqori bu gün oraya getməyəcəkdir! Sabah məmnuniyyətlə gedər, amma bu gün xutora gedəcək, gününü uşaqlarının yanında keçirəcəkdir, Aksinya ilə görüşəcək, səhər isə Veşenskayaya qayıdacaqdır. Yeridikcə ayarlarını ağrıyır? Cəhənnəmə ki! O, yalnız bircə günlüyünə də olsa evlərinə gedəcək, sonra bura

qayıdacaqdır, mütləq qayıdacaqdır. Siyasi büroya nə olur-olsun sabah gedəcək, bu gün yox!

– A-a-a-a, Melexov! Üzünü görək, a kişi, nə var, nə yox?..

Qriqori səs gələn tərəfə çevrildi. Petro ilə bir polkda qulluq eləmiş bir şəxs – Don ordusunun üsyan qaldırmış 28-ci polkunun keçmiş komandiri Yakov Fomin ona yaxınlaşırdı.

Bu, bir zamanlar Qriqorinin tanıdığı səliqəsiz, pis geyinən atamançı Fomin deyildi. İki il ərzində o, heyrət ediləcək dərəcədə dəyişmişdi: bədəninə tikilmiş süvari şineli əynində yaxşı otururdu, səliqəli açıq sarı bığları qəşəngcə eşilmişdi; bütün vücudunda, cavanlar kimi yeriməsində, özündən razı gülümsəməsində bir üstünlük, fərqlilik duyulurdu. O, Qriqorinin əlini sıxdı, bir-birindən aralı mavi gözlərini onun gözlərinə zilləyib soruşdu:

– Nə əcəb bizlər tərəfə gəlmisən?

– Əsgərlikdən tərxis olunmuşam. Hərbi komissariata girmişdim.

– Çoxdan gəlmisən?

– Dünən gəlmişəm.

– Qardaşın Petro Panteleviçi tez-tez xatırlayıram. Yaxşı kişi idi, amma hədər yerə güdaza getdi... biz onunla möhkəm dost idik. Keçən il, Melexov, gərək siz üsyan qaldırmayaydınız. Səhv iş gördünüz!

Buna cavab olaraq, bir söz demək lazım idi, Qriqori də dedi:

– Bəli. Kazaklar səhv elədilər...

– Sən hansı hissədə idin?

– Birinci Süvari ordusunda.

– Nə vəzifəsində?

– Eskadron komandiri.

– Belə de! Bu saat mən də eskadron komandiriyəm. Burada Veşenskayada bizim özümüzün də keşikçi eskadronumuz var. – Fomin ətrafına boylandı və səsini yavaşıdaraq dedi: – Bura bax, gəl bir qədər gəzək, sən məni bir qədər ötür, yoxsa bu arada camaat çoxdur, bizə dərdləşməyə imkan verməyəcəklər.

Onlar küçə ilə irəlilədilər. Fomin Qriqoriyə çəpəki nəzər salıb soruşdu:

– Evində yaşamaq fikrindəsən?

– Bəs harada yaşamalıyam? Evimdə yaşayacağam.

– Təsərrüfatda çalışacaqsan?

– Bəli.

Fomin təəssüflə başını buladı, köksünü ötürdü:

– Bunun üçün sən çox pis vaxt seçmisən, Melexov, çox pis vaxt! Sən hələ gərək düz bir il, iki il evə gəlməyəydin.

– Niyə?

Fomin Qriqorinin qoluna girdi, başını bir qədər ona doğru əyib pıçıldadı:

– Mahal tələtümdədir. Kazaklar ərzaq sapalağından çox narazıdırlar. Boquçar qəzasında üsyan qaldırıblar. Bu gün onu yatırtmağa gedəsiyik. Yaxşı olar ki, oğlan, sən buradan əkiləsən, özü də lap tez. Petro və mən çox sədaqətli dost idik, buna görə də sənə belə bir məsləhət verirəm: aradan çıx!

– Mənim gedəsi yerim yoxdur.

– Onda özün bil! Mən ona görə belə deyirəm ki, siyasi büro zabitləri həbsə almağa başlamışdır. Bu həftə içərisində Dudarevkadan üç nəfərini gətirmişlər, birini də Reşetovkadan gətirdilər, Donun o tayından da zabitləri dəstə ilə gətirirlər; hətta sıravi adamları – rütbəsiz kazakları da qurdalamağa başlayıblar. Nə demək istədiyimi özün başa düş, Qriqori Panteleviç!

Qriqori inadla dedi:

– Məsləhətinə görə sağ ol, amma mən heç yana gedən deyiləm.

– O sənin öz işindir.

Fomin mahaldakı vəziyyətdən, mahalın rəisləri ilə, mahal hərbi komissarı Şaxayevlə münasibətlərindən söhbət elədi. Ürəyində öz fikri-xəyalı ilə məşğul olan Qriqori onu diqqətsiz dinləyirdi. Onlar üç kvartal keçdilər, bu zaman Fomin dayandı:

– Mən bir yerə getməliyəm. Hələlik. – O, əlini kubankasına qaldırdı, soyuq-soyuq Qriqori ilə vidalaşdı, təzə çiyin qayışları cığıldaya-cığıldaya, dümdüz, gülünc dərəcədə təşəxxüslə getdi.

Qriqori bir qədər onun dalınca baxdı, sonra geri döndü. Siyasi büronun yerləşdiyi ikimərtəbəli binanın daş pilləkənləri ilə yuxarıya qalxdığı zaman o belə fikirləşirdi: "Məsələni uzatmağın nə mənası var, biryolluq qurtarmaq lazımdır! Şuluqluq eləməyi bacarırdınmı, Qriqori, onda zəhmət çək, cavab verməyi də bacar!"

VIII

Səhər saat səkkizə yaxın Aksinya sobanın közünü çıxartdı, pörtmüş və tərli üzünü döşlüyü ilə silərək taxtın kənarında əyləşdi. O, biş-düş işindən tez azad olmaq üçün hələ dan yeri ağarmamış yuxudan durmuş, əriştəli toyuq əti hazırlamış, xeyli yağlı fəsəli bişirmiş, vareniklərin üstünə çoxlu qaymaq töküb qızarmağa qoymuşdu; o bilirdi ki, Qriqori qızardılmış vareniklərı çox xoşlayır; buna görə də istəklisinin onunla birlikdə nahar edəcəyi ümidi ilə bayram süfrəsi hazırlamışdı.

O, Melexovların evinə getmək, orada bir dəqiqə oturmaq, bircə gözü ilə də olsa Qriqoriyə baxmaq üçün bəhanə axtarırdı. Onun burada, qonşuluqda olduğunu bilmək və görməmək, sadəcə deyilsə, ağla sığan şey deyildi. Lakin o bu arzusuna dov gəldi, oraya getmədi. Doğrudan da, uşaq deyildi ki. O yaşda olan adam yüngül hərəkət etməməli idi.

O həmişəkindən daha artıq səy ilə əlini, üzünü yudu, əyninə tərtəmiz köynək, təzə və naxışlı dizlik geyindi. Qapağı qaldırılmış sandığın yanında xeyli vaxt fikrə gedib dayandı: bəs bunların üstündən nə geyinsin? Adi gündə bayramsayağı bəzənmək yaxşı düşməzdi, lakin gündəlik iş paltarı da geymək istəmirdi. Nə geyinəcəyini qət eləyə bilməyən Aksinya qaşqabaqlı halda ütülənmiş yubkasını əlləşdirirdi. Nəhayət, o tünd göy yubkasını və qara krujevalı, demək olar, bu vaxtadək hələ geyinmədiyi mavi koftasını götürdü. Onun paltarları içərisində ən yaxşıları da elə bunlar idi. Qonşuların onun haqqında nə düşünəcəklərinin əhəmiyyəti nə imiş? Camaat üçün bu gün adi günlərdən biridirsə, ondan ötrü bayramdır. Aksinya tez koftası ilə yubkasını geyindi, güzgünün qabağına gəldi. Dodaqlarına zərif, heyrət ifadə edən bir təbəssüm qondu: kiminsə cavan və atəşli gözləri diqqətlə və şən-şən onun üzünə baxırdı. Aksinya öz simasına diqqətlə, ciddiyyətlə nəzər saldıqdan sonra rahat nəfəs aldı. Yox, onun gözəlliyi hələ solmamışdı! Hələ çox kişilər onunla qabaqlaşdıqda dayanacaq, məftun baxışlarla ardınca baxacaqdı!

Güzgü qarşısında yubkasını düzəldərək dedi: "Hə, Qriqori Panteleviç, özünü yığışdır!.." Amma sifətinin qızardığını hiss edib, sakitcə, için-için güldü. Lakin bütün bunlar öz yerində, Aksinya

yenə də gicgahlarında bir neçə ağ tük tapdı və dartıb çıxartdı. Qriqori Aksinyanın neçə yaşında olduğunu xatırlada biləcək heç nə görməməli idi. Aksinya onun nəzərində yeddi il əvvəlki kimi cavan olmaq istəyirdi.

Nahar vaxtına qədər o birtəhər oturdu, lakin sonra səbri tükəndi, qəzildən toxunmuş ağ şalını başına örtdü, Melexovlargilə getdi. Dunyaşka evdə tək idi, Aksinya ona salam verib soruşdu:

– Siz nahar eləməmisiniz?

– Belə didərgin düşənlərlə vaxtında nahar eləmək mümkündür ki? Ərim Sovetdədir, Qrişa isə stanitsaya getmişdir. Uşaqları yedirtmişəm, böyükləri gözləyirəm.

Zahirən sakit görünən, öz məyusluğunu nə kiçik bir hərəkəti, nə də bir kəlmə sözü ilə büruzə verməyən Aksinya dedi:

– Mən də elə bildim ki, hamınız evdəsiniz. Bəs Qrişa... Qriqori Panteleviç nə vaxt qayıdacaq? Bu gün?

Dunyaşka bəzənmiş qonşusuna ötəri nəzər salıb, könülsüz dedi:

– O, qeyd olunmağa getmişdir.

– Nə vaxt qayıdacağını demədi?

Dunyaşkanın gözləri yaşardı, dili dolaşa-dolaşa, məzəmmətlə dedi:

– Buna bax, bəzənməyə vaxt tapıbdır... Orasından xəbərin varmı ki, Qrişa, ola bilsin ki, heç qayıtmayacaqdır?

– Necə yəni qayıtmayacaqdır?

– Mixayil deyir ki, onu stanitsada həbsə alacaqlar... – Dunyaşka ağladı, yanıqlı göz yaşları axıtdı, qolu ilə gözlərinin yaşını silib dedi: – Belə həyatı lənətə gəlsin! Bəs bu əzab-əziyyətlər nə zaman qurtaracaqdır? O getdi, uşaqlar dəli dərdinə düşdülər, yaxamdan yapışıb əl çəkmir, hey soruşurlar: "Atam hara getdi, nə vaxt qayıdacaq?" Məgər mən bilirəm ki, o nə vaxt qayıdacaq? Odur, onları həyətə ötürmüşəm, amma burada özümün ürəyimdən qara qanlar axır, canım çıxır... heç belə də gün-dirilik olar! İstəyirsən lap fəryadın ərşə dayansın, fərqi yoxdur, rahatlıq görməyəcəksən!..

– Bu gecə gəlməsə, sabah mən stanitsaya gedib əhval bilərəm. – Aksinya bu sözləri elə bir etinasızlıqla dedi ki, elə bil çox adi bir şeydən söhbət düşmüşdü, azacıq belə darıxmağına dəyməzdi.

Dunyaşka onun arxayınlığına heyrət edib ah çəkdi:

– İndi onu, belə görünür, gözləmək lazım deyil. Evinə gəldi, başını bəlaya saldı!

– Hələ heç nə məlum deyil! Sən hay-haray salma, yoxsa uşaqlar elə bilərlər ki... Xudahafiz!

Qriqori qayıtdı. Bir qədər evdə oturduqdan sonra Aksinyanın yanına getdi.

Aksinya bu uzun günü təşviş içində keçirmişdi; bu da Qriqorini şadlıqla qarşılamağa müəyyən təsir göstərdi. Axşamçağı Aksinyada belə bir hiss var idi ki, guya bütün günü başını qaldırmadan işləmiş, bərk yorulmuşdur. İntizardan təngə gəlmiş və taqəti kəsilmiş Aksinya çarpayıya uzandı, mürgülədi, lakin pəncərənin qabağında tappıltı eşitdikdə qız kimi qıvraqlıqla dik atıldı. O, Qriqorini qucaqlayaraq, şinelinin düymələrini açа-açа soruşdu:

– Bəs sən niyə deməmisən ki, Vyoşkiyə gedirsən?

– Deməyə macalım olmadı, tələsirdim.

– Biz isə, Dunyaşka ilə mən, burada hərəmiz bir cür hay-haray saldıq, ağlaşdıq, elə güman elədik ki, bir daha qayıtmayacaqsan.

Qriqori toxtaqlıqla gülümsündü:

– Yox, hələ iş o dərəcəyə çatmamışdır. – Bir az susdu və əlavə etdi: – Hələlik çatmamışdır.

O, axsaya-axsaya stola tərəf getdi, oturdu. Qapının arasından otaq, küncə qoyulmuş enli taxta çarpayı, sandığın tutqun-tutqun parıldayan mis qurşaqları görünürdü. Bu evdə hər şey onun, Qriqorinin, vaxtı ilə Stepan burada olmayanda, bu evə gələrkən gördüyü vəziyyətdə qalmışdı; Qriqori bu evdə demək olar heç bir dəyişiklik görmürdü, sanki zaman bu evdən yan ötmüş, buraya girməmişdi; burada əvvəlki iy də qalmışdı: bayaqkı kimi, oradan yenə də təzə mayaotu, tərtəmiz yuyulmuş taxtabənd iyi gəlir, çox cüzi də olsa, güclə sezilsə də solmuş kəklikotu ətri duyulurdu. Qriqori buradan, sanki son dəfə olaraq, lap bu yaxınlarda, dan yeri ağaranda getmişdi, amma həqiqətdə bu hadisə xeyli əvvəllər olmuşdu...

Qriqori ahını boğaraq papiros bükməyə başladı, lakin əlləri nədənsə əsdi, tütün dizinin üstünə töküldü.

Aksinya tez süfrə açdı. Soyumuş ərişтəni isitmək lazım gəldi. Alışıq gətirmək üçün mərəyə yüyürdü, tövşüyə-tövşüyə, rəngi bir

az ağarmış halda sobanı qalamağa başladı. O, qorlanan közləri üfləyir, ocağı qızışdırır, eyni zamanda beli bir az bükülmüş, kirimişcə papiros çəkən Qriqoriyə baxırdı.

– Orada sənin işlərin necədir? Hər şeyi yoluna qoya bilmisənmi?

– Hər şey yaxşıdır.

– Bəs Dunyaşka bu sözü nəyə görə deyirdi ki, səni orada hökmən həbs etməlidirlər? Dunyaşka məni də yamanca qorxutdu, bağrımı yardı.

Qriqori qaşqabağını salladı, dilxorluğundan papirosunu tulladı.

– Belə sözlərlə onun qulağını Mixayil doldurubdur. Bunların hamısını özündən toxuyan odur, məni xataya salmaq istəyir.

Aksinya stola yaxınlaşdı. Qriqori onun əlindən yapışdı. Altdan-yuxarı Aksinyanın gözlərinə baxaraq dedi:

– Bilirsənmi, mənim işlərim çox da yaxşı deyil. Siyasi büroya gedəndə mən özüm də bu fikirdə idim ki, oradan çıxmayacağam. Zarafat deyil, üsyan zamanı mən diviziya komandiri olmuşam, rütbəm kapitandır. İndi belə adamları dama basırlar.

– Bəs onlar sənə nə dedilər?

– Mənə doldurmaq üçün anket verdilər, orada bütün qulluqlarım yazılmalıdır. Məndə də yazmaq bacarığı yoxdur. Ömrümdə bu qədər çox yazmamışdım, düz iki saat oturdum, harada nə elədiyimi yazdım. Sonra otağa iki nəfər də gəldi, ikisi də üsyan barəsində sorğu-sual apardı. Qanacaqlı adamlar idilər. Yaşca böyük olanı məndən soruşdu: "Çay içmək istəyirsinizmi? Ancaq çayı saxarinlə içmək lazım gələcəkdir". Mən də ürəyimdə dedim: evin tikilsin, çay nədir! Sizin yanınızdan sağ-salamat çıxa bilsəm kifayətdir. – Qriqori susdu, sonra nifrətlə, başqa bir şəxsdən danışırmış kimi dedi: – Haqq-hesab məqamı yassarlığım aşkara çıxdı... həsladim.

O, Veşenskayada qorxuya düşdü, qorxusunu boğa bilmədiyi üçün özünə yaman acığı tutmuşdu. Təşvişlərinin hədərə çıxması onu ikiqat dilxor eləmişdi. Başına gəlmiş işlər indi gülünc və xəcalətli görünürdü. O, evə gələndə də yol uzunu hey bunu fikirləşmişdi; ola bilsin ki, indi bunu Aksinyaya söyləməsinin, təəssüratını bir az da şişirtməsinin səbəbi də bu idi.

Aksinya onun söhbətini diqqətlə dinlədi, sonra əlini yavaşca onun əlindən çəkib sobaya yaxınlaşdı. Ocağı alışdıraraq soruşdu:

– Bəs bu işin dalı nə cür olacaqdır?

– Bir həftədən sonra yenə getmək, qeyd olunmaq lazımdır.

– Nə fikirdəsən, səni gec-tez aparacaqlarmı?

– Deyəsən aparacaqlar. Gec-tez aparacaqlar.

– Bəs onda nə edəcəyik? Nə cür yaşayacağıq, Qrişa?

– Bilmirəm. Bu barədə sonra danışarıq. Yuyunmaq üçün suyun varmı?

Onlar axşam yeməyinə oturdular, Aksinyanın bu səhər duyduğu aşıb-daşan bəxtiyarlıq yenə də qayıtmışdı. Budur, Qriqori burada, onun yanındadır; Aksinya gözlərini üzündən çəkmədən hey ona baxa bilər, başqalarının bu baxışlara diqqət yetirmələrindən nigaran olmaya bilər, heç nəyi gizlətmədən, heç nədən utanmadan gözləri ilə hər şeyi ifadə edə bilərdi! İlahi, o, Qriqorini nə qədər həsrətlə arzulamış, əzab çəkməkdən nə qədər üzülmüşdü, bədəni Qriqorinin bu iri, nəvazişə biganə əllərinin həsrəti ilə yanmışdı! Aksinya demək olar ki, xörəyə əl vurmadı; bir qədər sinəsini irəliyə verərək baxır, Qriqorinin necə iştahla xörək yeməsinə tamaşa edir, dumanlı baxışları ilə Qriqorinin üzünü, üst köynəyinin dik yaxalığı kip yapışmış əsmər boynunu, enli çiyinlərini, stolun üstünə qoyulmuş əllərini oxşayırdı. O, Qriqoridən gələn və bir-birinə qarışmış kəskin kişi təri və tütün qoxusunu, yalnız ona, Qriqoriyə xas olan bu tanış və doğma iyi acgözlüklə udurdu, Aksinya, gözləri bağlanmış olsa belə, min kişinin içində, həmin iyi ilə öz Qrişasını axtarıb tapardı... Onun yanaqları alışıb-yanırdı, ürəyi tez-tez və boğuq-boğuq döyünürdü. Bu axşam o, diqqətli ev xanımı ola bilməyəcəkdi, çünki, işıqlı dünyada Qriqoridən başqa gözlərinə heç nə görünmürdü. Qriqori özü də diqqətlilik tələb etmirdi; çörəyi özü kəsdi, göz gəzdirib nəməkdanı sobanın üstündə gördü və gətirdi, boşqabını qazandakı əriştəli xörəklə ikinci dəfə özü doldurdu.

Qriqori çox yediyinə bəraət qazandırırmış kimi gülümsəyərək dedi:

– Yamanca açmışam. Səhərdən heç nə yeməmişəm!

Aksinya yalnız bunu eşidəndən sonra vəzifəsini xatırladı, tez yerindən qalxdı:

– Boy, başıma xeyir! Mənə bax, varenik də, fəsəli də tamam yadımdan çıxıbdır! Sən Allah toyuq əti ye! Doyunca ye, mənim əzizim!.. İndi hamısını gətirərəm.

Qriqori ara vermədən, həm də səy ilə yeyirdi! Adama elə gəlirdi ki, onu bir həftə ac saxlayıblar. Ona bir şey təklif etmək, artıq iş idi. Aksinya səbrlə gözləyirdi, lakin sonra daha davam gətirə bilmədi: Qriqori ilə yanaşı oturdu, sol qolunu onun boynuna doladı, başını özünə tərəf çəkdi, sağ əli ilə təmiz və naxışlı dəsmalı götürdü, istəklisinin yağlı dodaqlarını, çənəsini özü sildi; gözlərini bərk-bərk yumdu, elə yumdu ki, ətrafa narıncı qığılcımlar səpələndi, nəfəsini qısaraq, dodaqlarını möhkəm-möhkəm onun dodaqlarına yapışdırdı.

Əslində, xoşbəxt olması üçün insana dünyada çox az şey lazımdır. Hər halda Aksinya o axşam bəxtiyar idi.

IX

Koşevoyla qabaqlaşmaq Qriqoriyə ağır gəlirdi. Münasibətləri birinci gündən müəyyənləşmişdi, buna görə də danışmalı sözləri yox idi, heç danışmağın mənası da yox idi. Çox ehtimal ki, Qriqorini görmək Mixayilə də xoş gəlmirdi. Koşevoy iki dülgər tapmışdı, onlar tələsik Koşevoyun balaca daxmasını təmir edirdilər: damın yarıya qədər çürümüş pərdilərini dəyişdilər, əyilmiş divarı söküb təzədən hördülər, daxmaya təzə qapı, pəncərə və çərçivə saldılar.

Qriqori Veşenskayadan qayıdandan sonra xutor inqilab komitəsinə getdi, hərbi komissariatda qeyd edilmiş xidmət vəsiqələrini göstərdi və onunla xudahafizləşmədən çıxıb getdi. O uşaqlarını da, öz əmlakından bir para şeyləri də götürdü, Aksinyanın yanına köçdü. Dunyaşka onu təzə mənzilinə ötürərkən ağladı:

– Qardaş, mənə acığınız tutmasın, – dedi, yalvarışlı baxışlarını onun üzünə zilləyib, sözünü bitirdi: – Mən təqsirkar deyiləm.

Qriqori onu sakit elədi:

– Nəyə görə sənə acığım tutacaq ki, Dunya? Yox, yox, nə danışırsan. Bizə tez-tez gəl, əhval bil... Sənin ailə üzvlərindən sağ qalan təkcə mənəm, mən səni həmişə çox istəmişəm, indi də istəyirəm... Ərinə gəldikdə isə, o başqa cür adamdır. Səninlə mən dostluğumuzu pozmarıq.

– Acığın tutmasın, biz evdən tezliklə köçəcəyik.

– Lazım deyil, canım! – deyə Qriqori pərt oldu. – Evdə istəyirsiniz lap yaza qədər yaşayın. Siz mənə mane olmursunuz, uşaqlarımla mənə isə Aksinyanın yanında yer tapılar.

– Qrişa, sən onunla evlənəcəksənmi?

– Hələ vaxt var, – deyə Qriqori mütərəddid cavab verdi.

Dunyaşka qətiyyətlə dedi:

– Onu al, qardaşım, Aksinya yaxşı arvaddır. Rəhmətlik anam deyirdi ki, Qrişa onunla evlənməlidir. Ömrünün axırında anam onu sevdi, ölməzdən əvvəl tez-tez baş çəkməyə gedirdi.

Qriqori gülümsəyərək dedi:

– Belə çıxır ki, sən məni tovlaşdırırsan. Mən onunla evlənməyib bəs kiminlə evlənməliyəm? Mamaça Andronixa ilə evlənəsi deyiləm ki?

Andronixa Tatarskda ən qoca qarı idi. Onun yaşı çoxdan yüzü keçmişdi. Dunyaşka onun balaca, yerə qədər beli bükülü vücudunu xatırlayıb güldü.

– Yaman dedin ha, qardaş! Mən sənə elə-belə sual verdim. Sən dinmədiyin üçün soruşdum.

Qriqori zarafatla əlini bacısının kürəyinə vurub dedi:

– Toya heç kəsi çağırmasam da, səni çağıracağam, – sonra da yüngülləşmiş halda doğma həyətdən çıxdı.

Düzünü desək, indi onun üçün harada yaşamağın əhəmiyyəti yox idi, təki rahat yaşaya biləydi. Bəla burasında idi ki, o bu rahatlığı tapa bilmirdi... Onun bir neçə günü, usandırıcı bekarçılıqla keçdi. Aksinyanın təsərrüfatında bəzi şeyləri sahmana salmaq istədi, amma dərhal hiss etdi ki, heç nə edə bilməyəcəkdir. Ürəyi heç şeyə yovuşmurdu. Üzüntülü qeyri-müəyyənlik ona iztirab verir, yaşamasına mane olurdu; bir dəqiqə belə olsun fikrindən çıxmırdı ki, onu həbs edəcəklər, həbsxanaya salacaqlar, hələ daha betər iş də baş verə bilər, onu güllələyə bilərdilər.

Aksinya gecələr yuxudan oyananda görürdü ki, o yatmayıb. Adəti üzrə əllərini başının altına qoyub uzanmışdır, qatı qaranlığa baxır; gözləri soyuq və qəzəblidir. Aksinya onun nə üçün fikrə getdiyini bilirdi. Ona heç bir cəhətdən kömək etməyə qadir deyildi. Qriqorinin həyatının necə ağır keçdiyini görən Aksinya özü də əzab çəkir, artıq dərk etməyə başlayırdı ki, onunla birlikdə yaşayacağına bəslədiyi ümid boşa çıxmaqdadır. Aksinya ondan heç nə soruşmurdu. Qoy hər şeyi Qriqori özü həll etsin. Yalnız bir gecə, yuxudan oyanaraq böyründə papirosun köz kimi qızardığını görəndə dedi:

– Qrişa, sən hələ yatmamısan... Bəlkə bir müddət xutordan çıxıb getsən yaxşı olar? Ya da, bəlkə buradan birlikdə bir yana getməyimiz, gözdən uzaq olmağımız məsləhətdir?

Qriqori qayğıkeşliklə yorğanı Aksinyanın ayaqlarının üstünə çəkdi və könülsüz dedi:

– Fikirləşərəm. Sən yat.

– Sonra, burada hər şey sakitləşəndə qayıdıb gələrik, hə?

Qriqori yenə də qeyri-müəyyən cavab verdi, sanki bu haqda onun heç bir qərarı yox idi.

– Baxarıq, görək bu işlərin axırı necə olur. Yat, Aksinyacan. – O dodaqlarını ehtiyatla, nəvazişlə Aksinyanın ipək kimi yumşaq, sərin və açıq çiyninə toxundurdu.

Əslində o müəyyən qərara gəlmişdi: daha Veşenskayaya getməyəcəkdi. Siyasi büroda Qriqorini keçən dəfə qəbul edən şəxs, bu dəfə onu nahaq yerə gözləyirdi. Həmin şəxs o zaman çiynində şinel stolun arxasında oturub sümükləri xırtıldayıncaya qədər gərnəşir, Qriqorinin üsyana dair söhbətini dinləyərkən yalandan əsnəyirdi. O, Qriqoridən daha heç nə eşitməyəcəkdi. Hər şey nağıl edilmişdi.

Siyasi büroya getmək günü çatanda Qriqori xutordan çıxacaq, lazım gəlsə xeyli vaxt gözə görünməyəcəkdi. Haraya gedəcəkdi, bunu özü də bilmirdi, amma gedəcəyini qəti qərara almışdı. O nə ölmək istəyirdi, nə də həbsxanaya salınmaq. Niyyətini müəyyənləşdirmişdi, amma bunu vaxtından tez açıb Aksinyaya demək istəmirdi. Aksinyanın son günlərini zəhərləməyin mənası yox idi; onsuz da onun güzəranı o qədər də nəşəli deyildi. O, bu qərara gəldi ki, fikrini Aksinyaya axırıncı gün desin. İndi isə qoy başını onun qoltuğuna soxmuş Aksinya rahat yatsın. Aksinya bu neçə gündə gecələr tez-tez belə deyirdi: "Qanadının altında yatmaq mənə ləzzət verir". İndi ki, elədir, qoy hələlik eləcə də yatsın. Biçarə Aksinya Qriqoriyə çox qısıla bilməyəcəkdi.

Qriqori səhərlər uşaqları ilə əylənir, sonra isə xutorda boş-boş gəzişirdi. Adam arasında olanda onun kefi açılırdı. Bu gün Proxor Nikita Melnikovun evinə yığışmağı, cavan kazaklarla bir az içməyi məsləhət gördü. Qriqori təklifi qətiyyətlə rədd etdi. O həmyerlilərinin söhbətindən bilirdi ki, cavan kazaklar ərzaq sapalağından yaman narazıdırlar, içki məclisində bu haqda hökmən danışıq gedəcəkdi. Qriqori istəmirdi ki, bir adam ondan şübhələnsin, hətta

tanışlarına rast gəldikdə də siyasət barədə söhbətdən çəkinirdi. Siyasətlə məşğul olduğu yetər, onsuz da onu bəlaya siyasət salmışdı.

Qriqorinin ehtiyatlı hərəkət etməsi xüsusən ona görə yerində idi ki, camaat ərzaq sapalağı üzrə taxılı gətirmək istəmirdi; bununla əlaqədar olaraq üç nəfər qocanı zamin kimi ərzaq tədarükü idarəsi işçilərindən iki nəfərinin qabağına qataraq, Veşenskayaya yollamışdılar.

Ertəsi günü Qriqori Yerli İstehlak Cəmiyyəti dükanının yanında Qızıl Ordudan yenicə qayıdıb gəlmiş sabiq topçu Zaxar Kramskovla qabaqlaşdı. Kramskov bərk kefli idi, yeridikcə ləngər vururdu, amma Qriqoriyə yaxınlaşdıqda ağ torpağa bulaşmış kürkünün bütün düymələrini bağladı, xırıltılı bir səslə dedi:

– Xoş gördük, Qriqori Panteleviç!

– Salam. – Qriqori gümrah və qaraağac kimi möhkəm topçunun iri əlini sıxdı.

– Tanıdınmı?

– Bəs necə.

– Bildir Bokovskaya yaxınlığında bizim batareyanın sənin dadına necə çatdığı yadındadırmı? Biz olmasaq sənin süvarilərin heç nə edə bilməzdilər. O vaxt biz qırmızılardan nə qədərini qırdıq – sayı-hesabı yox idi! Bir dəfə mərmiləri zərbə üçün yağdırdıq, ikinci dəfə şrapnelə keçdik... Onda mən birinci topda tuşlayıcı idim! Mən! – Zaxar yumruğunu gumbultu ilə enli sinəsinə nıxçadı.

Qriqori ətrafına döyükdü, yaxında dayanmış kazaklar onlara baxır, elədikləri söhbətə qulaq verirdilər. Qriqorinin dodaqlarının kənarları səyridi, sıx və ağappaq dişlərini hirsli-hirsli qıcadı; ona yavaşca dedi:

– Sən keflisən, get yat, dincəl, artıq-əskik danışma!

Bərk sərxoş topçu ucadan bağırırdı:

– Yox, mən kefli deyiləm! Mən ola bilsin ki, dərdimin çoxluğundan içmişəm! Evimizə gəlmişəm, burada isə həyat yox, q... görürəm. Daha kazaklar üçün yaşayış yoxdur, kazaklar da yoxdur! Məndən qırx pud taxıl istəyirlər, belə də iş olar? Soruşmaq ayıb olmasın, onlar bu taxılı əkiblər ki, istəyirlər? Onlar heç bilirlərmi ki, taxıl nə cür göyərir, yetişir?

O, kütləşmiş, qan sağılmış gözləri ilə baxırdı, birdən-birə səndələyə-səndələyə yaxınlaşdı, ayı kimi Qriqorini qucaqladı, ağzından tünd araq iyi gələ-gələ dedi:

– Niyə şalvarının qırağında lampas yoxdur? Mujik olmusan? Qoymarıq! Sənin ağrın alım, Qriqori Panteleviç! Bir də təzədən dava eləmək lazımdır! Keçənilki kimi yenə deməliyik: rədd olsun kommuniya, yaşasın Sovet hakimiyyəti!

Qriqori sərt bir hərəkətlə onu kənara itələdi, pıçıltı ilə dedi:

– Çıx get evinə, əclaf sərxoş! Nə dediyini anlayırsanmı?!

Kramskov barmaqları bir-birindən xeyli aralanmış, papiros çəkməkdən saralmış əlini irəli uzatdı, mızıldandı:

– Əgər artıq-əskik danışdımsa, bağışla! Rica edirəm məni bağışlayasan, amma mən öz komandirim kimi sənə sözün düzünü deyirəm... Sənə doğma atam – komandirim kimi deyirəm: bir də dava lazımdır!

Qriqori kirimişcə geriyə çevrildi, meydandan keçib evlərinə getdi. O, axşama qədər bu sarsaq görüşün təsiri altında qaldı, Kramskovun sərxoşcasına çığıra-çığıra danışmasını, kazakların rəğbətlə susmalarını, qımışdıqlarını xatırlayaraq belə düşünürdü: "Yox, xutordan mümkün qədər tez getmək lazımdır! Bunun axırı pis görünür..."

O, Veşenskayaya şənbə günü getməli idi. Üç gündən sonra doğma xutoru tərk etməli idi, lakin iş başqa cür oldu: cümə axşamı Qriqori yatmaq üçün yerinə uzanmağa hazırlaşanda kim isə qapını bərk döydü. Aksinya dəhlizə keçdi. Qriqori onun dəhlizdə "kimsən?" deyə sual verdiyini eşitdi. Suala nə cavab verildiyini eşitmədi, amma anlaşılmaz təşviş hissi ilə çarpayıdan qalxdı və pəncərəyə yaxınlaşdı. Dəhlizdə qapının cəftəsi şıqqıldadı, əvvəlcə içəriyə Dunyaşka girdi. Qriqori onun rənginin ağardığını gördü və heç nə soruşmadan taxtın üstündən papağını, şinelini götürdü.

– Qardaşım...

– Nə var? – deyə Qriqori soruşdu, şinelinin qollarını geyindi.

Nəfəsi az qala kəsilən Dunyaşka yeyin-yeyin dedi:

– Qardaşım, bu saat xutordan çıx! Stanitsadan bizə dörd nəfər atlı gəlmişdir. Otaqda oturublar... Onlar öz aralarında pıçıldaşırdılar, amma mən eşidirdim... Qapının dalına girdim və hamısını eşitdim... Mixayil deyir ki, səni həbsə almaq lazımdır... Sənin barəndə onlarla söhbət eləyir... Get!

Qriqori cəld ona tərəf yeridi, qucaqladı, yanağından möhkəm öpdü.

– Sağ ol, bacı! Get yoxsa evdən çıxdığını başa düşərlər! – Üzünü indi də Aksinyaya çevirdi: – Mənə çörək ver! Cəld ol! Bütöv çörək istəmirəm, bir parça ver!

Onun az sürən dinc həyatı bələliklə bitdi... O, vuruşma meydanında imiş kimi cəld, amma inamla hərəkət edirdi; otağa girdi, yatmış uşaqlarının üzündən ehtiyatla öpdü, Aksinyanı bağrına basdı:

– Əlvida! Tezliklə yerimi bildirərəm. Proxor sənə deyər. Uşaqlardan muğayat ol. Qapını bağla. Soruşan olsa de ki, Vyoşkiyə getdi. Di əlvida, Aksinyacan, qəm eləmə. Qriqori onun üzündən öpdükdə, dodaqlarında hərarətli və duzlu göz yaşları hiss etdi.

Aksinyanı sakitləşdirməyə, onun dolaşıq və rabitəsiz kəkələmələrini dinləməyə macal yox idi. O, belinə bərk dolanmış qolları yüngülcə araladı, dəhlizə keçdi, ətrafı dinlədi və bircə dəfə dartmaqla eşik qapısını açdı. Don tərəfdən əsən soyuq külək onun üzünə çırpıldı. O bir saniyəyə qədər gözünü yumdu ki, gözləri qaranlığa alışsın.

Aksinya əvvəlcə Qriqorinin ayaqları altında qarın necə xışıldadığını eşidirdi. Onun atdığı hər addım xəncər kimi Aksinyanın ürəyinin başına sancılırdı. Sonra addım səsləri kəsildi və çəpər şaqqıldadı. Bundan sonra isə hər yanı sakitlik bürüdü. Donun o tayında meşədə, yalnız külək uğuldayırdı. Aksinya bu uğultuda bir şey eşitməyə çalışdı, amma heç nə eşidə bilmədi. O üşüdü. Mətbəxə girdi və çırağı söndürdü.

X

Ərzaq sapalağı ilə taxıl təhvili pis vəziyyətdə olduğu üçün 1920-ci il payızın son aylarında ərzaq tədarükü dəstələri yaradılmışdı; bununla əlaqədar olaraq Donun kazak əhalisi arasında gizli bir narazılıq başlanmışdı. Don vilayətinin yuxarı stanitsalarında – Şumilinskaya, Kazanskaya, Miqulinskaya, Meşkovskaya, Veşenskaya, Yelanskaya, Slaşşevskaya və başqa yerlərdə kiçik silahlı quldur dəstələri yaranmışdı. Bu, ərzaq tədarükü dəstələri yaradılmasına qarşı, ərzaq sapalağını həyata keçirmək üçün Sovet hakimiyyətinin təsirli tədbirlər görməsinə qarşı kazakların varlı və qolçomaq təbəqələrinin cavabı idi.

Sayca beş nəfərdən iyirmi nəfərə qədər olan bu quldur dəstələrinə daxil olanların əksəriyyəti, keçmişdə fəal ağqvardiyaçı olmuş yerli kazaklar idi. Onların arasında keçmiş Don ordusunun 1918-1919-cu illərdə cəza dəstələrində xidmət etmiş, kiçik komanda heyəti barədə sentyabr səfərbərliyindən yayınmış uryadniklər, vaxmistrlər, kiçik zabitlər, Yuxarı Don mahalında keçən il üsyanda əsir qızıl əsgərləri güllələməkdə ad çıxarmış adamlar da var idi, müxtəsər bunlar Sovet hakimiyyəti ilə yolu bir olmayan adamlar idi.

Quldur dəstələri xutorlarda ərzaq tədarükü dəstələrinə hücum edir, taxıl təhvili məntəqəsinə göndərilən taxıl arabalarını geriyə qaytarır, kommunistləri və Sovet hakimiyyətinə sadiq bitərəf kazakları öldürürdülər.

Quldur dəstələrinin ləğvi məsələsi bir vəzifə olaraq, Veşenskaya stanitsası ilə Bazki xutorunda dayanmış Yuxarı Don keşikçi batalyonuna tapşırılmışdı. Lakin mahalın geniş ərazisinə səpələnmiş quldur dəstələrini məhv etmək cəhdləri bir nəticə vermədi; əvvəla ona görə ki, yerli əhalinin bir hissəsi quldurlara rəğbət bəsləyirdi; onları ərzaqla təchiz edir, qızıl əsgər hissələrinin hərəkəti barədə xəbər verirdilər, adamları təqib olunduqda gizlədirdilər; ikincisi də ona görə ki, batalyon komandiri Kaparin – çar ordusunun sabiq kapitanı və eser Donun yuxarısında təzəcə törəmiş əks-inqilabçı qüvvələrin məhv edilməsini istəmir, hər vasitə ilə buna mane olurdu. Kaparin yalnız hərdənbir, o da mahal partiya komitəsi sədrinin təkidi ilə, qısa səfərlərə çıxır və öz qüvvələrini dağıdıb, ağılsız riskə atılaraq Veşenskayanı, mahal müəssisələrini, anbarları mühafizəsiz qoya bilməyəcəyini bəhanə edərək, yenidən Veşenskayaya qayıdırdı. Dörd yüz nəfər piyadası, on dörd pulemyotu olan batalyon qarnizon xidməti görməkdə idi: qızıl əsgərlər həbsə alınanlara keşik çəkir, su daşıyır, meşədən ağac kəsir, habelə mürəkkəb qayırmaq üçün əmək mükəlləfiyyəti qaydası ilə palıd yarpaqlarından xırda qozalar yığırdılar. Batalyon mahalın bütün müəssisə və dəftərxanalarını odunla, mürəkkəblə əməlli-başlı təmin edirdi, bu yandan da mahalda törəyən kiçik quldur dəstələrinin sayı getdikcə artır, təhlükəli vəziyyət yaranırdı. Yalnız dekabrda, Voronej vilayətinin Yuxarı Don mahalı ilə bitişik Boquçarsk qəzasında böyük

üsyan başlandıqda, istər-istəməz odun hazırlanması və mürəkkəb üçün qoza toplanması işləri dayandırıldı. Don vilayəti qoşunları komandanlığının əmri ilə üç rotadan, bir pulemyot vzvodundan ibarət batalyon, keşikçi eskadronu ilə, 12-ci ərzaq polkunun birinci batalyonu və iki kiçik cəza dəstəsi ilə birlikdə həmin üsyanı yatırtmağa göndərildi.

Suxoy Donetsk kəndinin girəcəyində gedən vuruşmalarda Yakov Fominin komandası altındakı Veşenski eskadronu üsyançıların zəncir xətti üzərinə cinahdan hücuma keçdi, onları sıxışdırdı, qaçmağa vadar etdi və dallarınca gedib, yüz yetmiş nəfərə qədərini qılıncdan keçirdi, özü isə cəmisi üç döyüşçü itirdi. Eskadrondakı süvarilərin əksəriyyəti, tək-tək adamdan başqa, Donun yuxarı stanitsalarının sakinləri olan kazaklar idi. Kazaklar eskadrondakı iki kommunistin etirazına baxmayaraq, ənənəvi kazak adətinə əməl elədilər: döyüşçülərin demək olar yarısı, vuruşmadan sonra əyinlərindəki köhnə şinel və gödəkçələrini soyundular, qılıncla doğranmış üsyançıların qəşəng aşılanmış dəri kürklərini geyindilər.

Üsyan yatırılandan bir neçə gün sonra eskadronu Kazanskaya stanitsasına geriyə çağırdılar. Hərbi həyat sıxıntısından dincələn Fomin Kazanskaya stanitsasında gününü kefi istədiyi kimi keçirirdi. Bu məşhur arvadbaz, həmişə şən və ünsiyyət sevən lotu, gecələr yoxa çıxır və mənzilinə ancaq səhər dan qaranlığında qayıdırdı. Fominlə yaxından tanış və dost olan döyüşçülər axşam küçədə öz komandirlərinin çəkmələrinin tərtəmiz silinmiş olduğunu görən kimi, bir-birinə göz vuraraq deyirdilər:

– Bizim ayğır dul arvadların yanına gedir! Onların yanından bir də dan yeri ağaranda çıxar.

Araq var, içki məclisi olacaqdır – sözünü eşidən kimi Fomin, eskadron komissarı ilə siyasi rəhbərdən xəlvətcə, tanıdığı eskadron kazaklarının mənzillərinə də gedirdi. Belə hallar tez-tez olurdu. Lakin bir az sonra bu qoçaq komandir kədərləndi, qəm dəryasına batdı və son zamanlara qədər davam etdirdiyi əyləncələrini, demək olar, tamamilə unutdu. O, daha axşamlar uzunboğaz çəkmələrini əvvəlki kimi səylə silmir, üzünü hər gün qırxmırdı; bir qədər oturmaq və içmək üçün eskadronunda qulluq edən həmyerlilərinin mənzillərinə də nadir hallarda gedirdi, amma söhbət zamanı az danışırdı.

Fominin xasiyyətinin dəyişməsi Veşenskayadan dəstə komandirinin göndərdiyi məlumatla bir araya düşdü. Donçekanın siyasi bürosu qısaca məlumat verirdi ki, Ust-Medveditsa mahalının qonşuluğundakı Mixaylovkada keşikçi batalyonu, batalyon komandiri Vakulinin başçılığı ilə üsyan qaldırmışdır.

Vakulin Fominin qulluq yoldaşı və dostu idi. Onlar vaxtilə Mironovun korpusunda bir yerdə olmuşdular, Saranskdan Dona tərəf birlikdə getmiş və korpus Budyonnı süvariləri tərəfindən mühasirəyə alındıqda, silahlarını birlikdə yerə qoymuşdular. Fominlə Vakulinin arasındakı dostluq münasibətləri lap bu son zamanlaradək davam edirdi. Bu yaxınlarda, sentyabrın əvvəllərində Vakulin Veşenskaya stanitsasına gəlmişdi; hələ o zaman Vakulin dişlərini qıcayaraq, köhnə dostuna "ərzaq sapalağı ilə əkinçini müflis edən, ölkəni fəlakətə sürükləyən komissarların zülmündən" şikayətlənirdi. Fomin Vakulinin dediklərinə ürəkdən şərik idi, amma ehtiyatlı tərpənir, onda həqiqi zəkanı ara-sıra əvəz edən hiyləgərliklə baş girləyirdi. O, ümumiyyətlə ehtiyatlı adam idi, heç vaxt tələsməz, birdən-birə bəli və ya xeyr deməzdi. Lakin bu çox çəkmədi, Vakulinin komandası altındakı batalyonun üsyan qaldırması xəbərini eşitdikdən sonra, o ehtiyatını unutdu. Bir axşam, eskadron Veşenskayaya yola düşəndə, eskadron süvariləri, vzvod komandiri Alfyorovun mənzilinə yığışdı. Burada zorba bir at vedrəsi ağzına qədər araqla dolu idi. Süfrə başında qızğın söhbət gedirdi. Həmin içki məclisində iştirak edən Fomin, adamların danışığına dinməzcə qulaq verir və yenə sakitcə araq içirdi. Lakin döyüşçülərdən biri Suxoy Donetsk tərəfdə hücuma necə atıldıqlarını xatırladıqda, Fomin bığlarını dalğın bir halda eşib, söhbət edənin sözünü kəsdi:

– Uşaqlar, biz xaxolları pis qılınclamadıq, amma qorxuram özümüz də tezliklə pis günlərə qalaq... Biz, budur Veşenskayaya gedirik, amma ora çatıncaya qədər evlərimizdə ərzaq dəstələri olanqalan taxılımızı ailələrimizin əlindən alsa neyləyəcəyik? Kazansklılar bu ərzaq dəstələrinin işindən çox narazıdırlar. Həmin dəstələr anbardakı taxılı silib-süpürüb aparırlar...

Otağa sakitlik çökdü, Fomin öz eskadron nəfərlərinə göz gəzdirdi, zorla gülümsəyərək dedi:

– Mən zarafatla belə dedim... Ayıq olun, ağzınıza gələni danışmayın, yoxsa Allah göstərməsin, doğru hesab edərlər.

Veşenskayaya qayıtdıqdan sonra Fomin yarım vzvod qızıl əsgərlə birlikdə evinə, Rubejin xutoruna yola düşdü. O xutorda həyətinə girmədən, qapının ağzında atdan düşdü, cilovu qızıl əsgərlərdən birinə verib evə yönəldi.

O, atüstü və soyuq-soyuq arvadına baş əydi, qoca anasına hörmətlə təzim elədi, onunla ehtiramla əl tutuşdu, uşaqlarını bağrına basdı. Kətilin üstündə əyləşdi, qılıncını dizləri arasına alıb soruşdu:

– Bəs atam hanı?

– Dəyirmana getmişdir, – deyə qarı cavab verdi və oğlunun üzünə baxaraq ciddi əmr etdi: – Papağını çıxart, ay kafir! Kim ikona qabağında papaqlı oturur? Ox, Yakov, belə ki, görürəm, gora salamat baş aparmayacaqsan...

Fomin könülsüz gülümsündü, kubankasını başından götürdü, amma soyunmadı.

– Bəs nə üçün soyunmursan?

– Bir hovurluğuna sizə baş çəkməyə gəldim, qulluqdan yanınıza gəlməyə macal tapmıram.

Qarı oğlunun pozğun hərəkətlərinə, onun Veşenskayada qadınlarla yaxınlığına işarə edərək sərt bir səslə dedi:

– Nə cür qulluq elədiyindən xəbərimiz var...

Bu haqda Rubejinə çoxdan xəbər yayılmışdı.

Fominin vaxtından tez qocalmış, rəngi solğun, görkəmindən fağır və məzlum arvadı qorxmuş halda qayınanasına baxdı, sobaya tərəf çəkildi. Ərinə yanaşmaq, onun meylini qazana bilmək, yalnız bir mehriban baxışa layiq olmaq üçün, sobanın gözündən əsgini götürdü, dizi üstə oturdu və bir az əyilərək ərinin çəkmələrinə yapışmış qalın palçığı təmizləməyə başladı.

O demək olar, başını qaldırmadan, ərinin ayaqları altında sürünə-sürünə səssizcə pıçıldayırdı:

– Yaşa, çəkmələrin nə qəşəngdir... Amma sən bunları yamanca palçığa bulamısan... Mən bu saat bunları silərəm, tərtəmiz silərəm.

Fomin çoxdan bu qadınla yaşamırdı; vaxtilə cavanlıq çağında seçdiyi bu qadına indi nifrət edir, ona ancaq yazığı gəlirdi. Lakin qadın həmişə onu sevirdi və ümid edirdi ki, əri yenə də onun yanına qayıdacaqdır; buna görə də Fomin nə edirdisə, qadın onu bağışlayırdı. O uzun illərdən bəri təsərrüfatı təkbaşına idarə edir, uşaqlarına tərbiyə verir,

bədxasiyyət qayınanasına hər cəhətdən yaramağa çalışırdı. Çöl işlərinin bütün ağırlığı onun arıq çiyinlərinə yüklənmişdi. Ağır işlər görməsi, çox işləməsi, bir yandan da ikinci uşağı olandan sonra naxoşlaması, ildən-ilə səhhətini pozurdu. O, getdikcə arıqlayırdı. Yanaqları solmuşdu. Vaxtından tez başlamış qocalıq üzündə çoxlu qırışlar əmələ gətirmişdi. Gözlərində isə, xəstələnmiş ağıllı heyvanlarda təsadüf olunan ürkək bir itaətkarlıq ifadəsi sezilirdi. Necə sürətlə qocaldığını, səhhətinin gündən-günə tükəndiyini o özü hiss etmirdi; bununla belə nəyə isə ümid bağlayır, nadir hallarda görüşdükləri zaman öz göyçək ərinə cürətsiz bir məhəbbət və heyranlıqla baxırdı...

Fomin yuxarıdan-aşağıya, arvadının bükülmüş belinə, koftasının altından sümükləri görsənən arıq kürəklərinə, çəkmənin palçığını çox səylə təmizləyən, amma uçunan əllərinə baxır, ürəyində belə düşünürdü: "Yaxşı arvaddır, heç söz ola bilməz! Belə bir mitillə mən bir zamanlar bir yerdə yatırammış!.. Yazıq yaman qocalmışdır. Gör necə qocalmışdır!"

O, ayağını çəkdi, pərt halda deyindi:

– Bəsdir! Fərqi yoxdur, yenə palçığa bulayacağam!

Qadın güclə belini düzəltdi, ayağa qalxdı. Onun saralmış yanaqlarına xəfif bir qızartı gəldi. Ərinin üzünə zillənmiş gözlərində elə bir aşiqanə və köpək sədaqəti var idi ki, Fomin davam gətirmədi, üzünü ondan çevirdi, anasından soruşdu:

– Buralarda siz necə dolanırsınız?

– Həmişəki kimi, – deyə qarı qaşqabaqla cavab verdi.

– Xutora ərzaq dəstəsi gəlmişdi?

– Elə dünən Nijne-Krivskoya yola düşdülər.

– Bizdən də taxıl apardılarmı?

– Apardılar. Davudcan, nə qədər taxıl götürdülər?

Atasına oxşayan, onun gözləri kimi ala gözləri bir-birindən aralı olan on dörd yaşlı yeniyetmə cavab verdi:

– Onlar taxılı ölçəndə babam orada idi, o bilir. Deyəsən on çuval apardılar.

– Demək be-lə... – Fomin ayağa qalxdı, oğluna ötəri nəzər saldı, kəmərin qayışını düzəltdi. Bu sualı verdikdə azacıq rəngi ağardı: – Siz onlara dedinizmi ki, kimin taxılını aparırsınız?

Qarı əlini yellətdi, kinli-kinli gülümsündü:

– Onlar səni heç veclərinə də almırlar! Başçıları belə deyirdi: "Kim olur-olsun, artıq taxılını gətirib təhvil verməlidir. İstəyir o Fomin yox, lap mahal komitəsinin sədri olsun, fərqi yoxdur, artıq taxılı alacağıq!" Bunu deyən kimi də anbarlara girməyə başladılar.

– Mən, anacan, onlarla hesablaşaram. Mən onlarla mütləq hesablaşaram! – deyə Fomin boğulurmuş kimi səsləndi və ailə üzvləri ilə tez-tələsik görüşüb evdən çıxdı.

Evlərinə gedib gəldikdən sonra o ehtiyatla eskadron döyüşçülərinin əhvali-ruhiyyəsini öyrənməyə başladı və çox da əziyyət çəkmədən inandı ki, eskadron nəfərlərinin əksəriyyəti ərzaq sapalağından narazıdır. Xutor və stanitsalardan arvadları, uzaq və yaxın qohumları döyüşçülərin görüşünə gəlir, gələndə ərzaq dəstələrinin evlərdə necə axtarışlar apardığını, yalnız toxum və yemək üçün taxıl saxlayıb yerdə qalanını apardıqlarını nağıl edirdilər. Bütün bunlar da onunla nəticələndi ki, yanvarın sonunda Bazkidə keçirilmiş qarnizon yığıncağında mahal hərbi komissarı Şaxayev nitq söyləyəndə eskadron nəfərləri açılışdılar. Onların cərgələri arasında belə bağırtılar və nidalar eşidildi:

– Bu ərzaq dəstələrini yığışdırın!

– Bu taxıl məsələsinə son qoyulmalıdır!

– Rədd olsun ərzaq yığan komissarlar!

Mühafizə rotasının qızıl əsgərləri buna cavab olaraq qışqırışırdılar:

– Əks-inqilabçılar!

– Bu əclafları dağıtmaq lazımdır!

Yığıncaq uzun çəkdi və qızğın keçdi. Qarnizonda sayı çox az olan kommunistlərdən biri həyəcan içində Fominə deyirdi:

– Yoldaş Fomin, siz gərək çıxış edəsiniz! Ora bax, sənin eskadron nəfərlərin gör nə qələtlər eləyirlər!

Fomin sezilməz bir şəkildə bığlarının arasında gülümsündü:

– Mən ki, bitərəf adamam, məgər onlar mənim sözümə baxar?

O danışmadı və iclasın sonuna hələ xeyli qalmış, batalyon komandiri Kaparinlə birlikdə getdi. Onlar Veşenskayaya gedərkən, vəziyyəti nəzərdən keçirdilər və tezliklə ümumi dil tapdılar. Bu hadisədən bir həftə sonra Kaparin Fominin mənzilində təklikdə ona dedi:

– Yakov Yefimoviç, onu bil ki, biz ya indi hərəkətə gəlməliyik, ya da heç vaxt hərəkət eləməyəcəyik! Fürsətdən istifadə eləmək lazımdır. Hal-hazırda fürsət çox əlverişlidir. Kazaklar bizə tərəfdar olarlar. Mahalda sənin nüfuzun böyükdür. Əhalinin əhvali-ruhiyyəsinə gəlincə, lap məqamıdır. Niyə dinmirsən? Qəti qərara gəl!

Fomin aramla, kəlmələri uzada-uzada, müsahibinə gözaltı baxaraq dedi:

– Burada nə qərara gəlmək lazımdır? İş tamamilə həll olunmuşdur. Ancaq elə plan tutmaq lazımdır ki, hər şey ilişiksiz olsun, balaca bir səhvə də yol verilməsin. Bax bu haqda da gəl danışaq.

Fominlə Kaparinin şübhəli dostluğu gözdən qaçmamışdı. Batalyon kommunistlərindən bir neçəsi onları güdürdülər, öz şübhələri haqqında Donçekanın siyasi büro rəisi Artemyevə və hərbi komissar Şaxayevə məlumat vermişdilər.

Artemyev gülərək demişdi:

– Qorxudulmuş qarğa koldan da ehtiyat edir! Kaparin qorxaq adamdır, məgər o, belə işə cəsarət edər? Fomini isə güdəcəyik, biz onu çoxdan nəzarət altına almışıq; lakin burası var ki, Fomin də üsyan qaldırmağa cəsarət etməz. Bunların hamısı cəfəngiyatdır, – deyə o söhbətə yekun vurdu.

Lakin onları izləmək gec idi: sui-qəsdçilər danışıb şərtləşmişdilər. Üsyan martın 12-də səhər saat səkkizdə başlanmalı idi. Belə şərtləşmişdilər ki, həmin günü Fomin eskadronu tam silahlı səhər gəzintisinə çıxardacaq, sonra stanitsanın kənarında yerləşən pulemyot vzvodu üzərinə qəfildən hücum edib, pulemyotları ələ keçirdəcək, bundan sonra da mahal müəssisələrində "təmizlik" aparmaqda keşikçi batalyonuna yardım göstərəcəkdir.

Kaparin batalyonunun tamamilə ona tərəfdar olacağına inanmırdı. O, bu mülahizəsini bir gün Fominə açıb söylədi. Fomin onu diqqətlə dinləyib dedi:

– Təki pulemyotları ələ keçirdək, sonra biz sənin batalyonunu yaxşıca yumşaldarıq...

Fominlə Kaparini izləmək bir nəticə vermədi. Onlar bir-biri ilə çox nadir hallarda, həm də qulluq işləri ilə əlaqədar görüşürdülər, yalnız bir dəfə fevralın sonunda patrul onları küçədə bir yerdə gəzən görmüşdü. Fomin yəhərli atını yedəkləyərək gedir, Kaparin də onunla yanaşı yeriyirdi. "Kimsiniz?" sualına cavab olaraq Kaparin

səsləndi: "Özümüzünkülərdir". Onlar birlikdə Kaparinin mənzilinə girdilər. Fomin atını artırmanın məhəccərinə bağladı. Otaqda çıraq yandırmadılar. Səhər saat dörddə Fomin oradan çıxdı, atını mindi və öz mənzilinə getdi. Öyrəndikləri yalnız bu oldu.

Mahal hərbi komissarı Şaxayev, Don Vilayəti Qoşunları komandanına yolladığı şifrəli teleqramda Fomin ilə Kaparindən şübhələndiyini bildirdi. Bir neçə gündən sonra komandan cavab göndərdi ki, Fominlə Kaparinin vəzifələrindən kənar edilməsinə və həbsə alınmasına icazə verir.

Mahal partiya komitəsi bürosunun iclasında belə bir qərar qəbul edildi: mahal hərbi komissariatının əmri ilə Fominə məlumat verilsin ki, o Novoçerkasskiyə, qoşun komandanının sərəncamına çağrılır; eskadron komandirliyini öz müavini Ovçinnikova təhvil versin; həmin günü Kazanskaya stanitsasında quldur dəstəsi əmələ gəlmişdir, bəhanəsi ilə eskadron oraya göndərilsin, bundan sonra gecə sui-qəsdçilər həbsə alınsın.

Eskadronu stanitsadan uzaqlaşdırmağı ona görə qərara almışdılar ki, Fominin həbsə alınması xəbərini eşitcək eskadronun üsyan qaldıracağından ehtiyat edirdilər. Keşikçi batalyonunun ikinci rotasının komandiri kommunist Tkaçenkoya tapşırıq verilmişdi ki, batalyondakı kommunistlərə və vzvod komandirlərinə üsyan başlana biləcəyi barədə məlumat versin və stanitsada olan rota ilə pulemyot vzvodunu döyüşə hazır vəziyyətdə saxlasın.

Ertəsi günü səhər Fomin həmin əmri aldı və sakitcə dedi:

– Nə eybi var, Ovçinnikov, eskadronu təhvil al. Novoçerkasskiyə gedəcəyəm. Hesabata baxacaqsanmı?

Kimsə tərəfindən xəbərdar edilməmiş, heç nədən şübhələnməyən bitərəf vzvod komandiri Ovçinnikov kağızları oxumağa başladı.

Fomin fürsət tapıb Kaparinə belə bir kağız yazdı: "Dərhal üsyan qaldırırıq. Məni vəzifədən götürürlər. Hazırlaş". O dəhlizdə kağızı öz əsgərinə verib pıçıldadı:

– Kağızı ovurduna qoy. Atını yavaş-yavaş, anladınmı? – özünü Kaparinə çatdır. Yolda birisi səni tutub saxlamaq istəsə kağızı ud. Kağızı ona ver və o dəqiqə geriyə, buraya qayıt.

Ovçinnikov Kazanskaya stanitsasına getmək haqqında əmri aldıqdan sonra eskadronu kilsə meydanında sıraya düzdü. Fomin atını sürdü, Ovçinnikova yaxınlaşdı:

– İcazə ver, – dedi, – eskadronla vidalaşım!

– Buyurun, amma müxtəsər danışın, bizi ləngitməyin.

Fomin eskadronun qarşısında dayandı, oynaqlayan atının başını çəkərək döyüşçülərə üz tutub dedi:

– Yoldaşlar, siz məni tanıyırsınız. Bilirsiniz ki, mən həmişə nəyin uğrunda vuruşmuşam. Mən hər zaman sizinlə bir yerdə olmuşam. Lakin mən indi bu işlərə, kazakların talan olunmasına, ümumiyyətlə əkinçilərin soyulmasına dözə bilmərəm. Bax, buna görə də məni vəzifəmdən götürürlər. Mənə nə edəcəklər, bunu da bilirəm. Buna görə də mən sizinlə vidalaşmaq istəyirəm.

Eskadronun hər tərəfindən ucadan hay-küy, qışqırtı bir saniyəyə qədər Fominin sözünü yarımçıq qoydu. O, üzəngiyə qalxdı, səsini kəskin surətdə qaldırdı:

– Əgər siz yaxanızı soyğunçulardan qurtarmaq istəyirsinizsə, ərzaq yığan dəstələri qovun, ərzaq komissarı Murzov və komissar Şaxayev kimilərini qırın! Onlar bizim vilayətə – Dona ondan ötəri gəliblər ki...

Səs-küydən Fominin son sözləri eşidilmədi. O gözlədi və cingiltili bir səslə komanda verdi:

– Sağ tərəfdən üç-üç, sağa doğru addımla-arş!

Eskadron itaətlə komandaya əməl etdi. Baş vermiş hadisədən özünü tamamilə itirmiş Ovçinnikov atını Fominin yanına səyirtdi:

– Hara gedirsiniz, yoldaş Fomin?

Fomin ona tərəf baxmadan rişxəndlə cavab verdi:

– Bu kilsənin dövrəsinə dolanırıq...

Ovçinnikov bu bir neçə dəqiqə ərzində nələr baş verdiyini yalnız indi, Fomindən həmin cavabı aldıqdan sonra başa düşdü. O dəstədən aralandı; siyasi rəhbər, komissar köməkçisi və vur-tut bircə nəfər qızıl əsgər də ona yanaşdı. Bu adamlar atlarını iki yüz addım qədər sürüb uzaqlaşdıqda Fomin onları gördü. Atın başını geriyə çevirib qışqırdı:

– Ovçinnikov, dayan!.

Yortma gedən atlılar atlarını səyirtdilər. Onların atlarının dırnaqları altından ətrafa ərimiş qar qarışıq palçıq sıçrayırdı. Fomin komanda verdi:

– Silahları hazırlayın! Ovçinnikovu tutun! Birinci vzvod! İrəli!

Qatma-qarışıq güllə səsləri eşidildi. Birinci vzvoddan on altı nəfəri qaçanların dalınca getdi. Bu ara Fomin qalan süvariləri iki qrupa böldü: birini, üçüncü vzvod komandirinin başçılığı ilə pulemyot vzvodunu tərk-silah etməyə yolladı, ikincisini isə özü stanitsanın şimalında, keçmiş stanitsa ayğırları saxlanılan tövlələrdə yerləşmiş keşikçi rotanın üstünə apardı.

Birinci qrup havaya güllə ata-ata, qılınclarını oynada-oynada baş küçə ilə getdi. Üsyançılar yolda rast gəldikləri dörd kommunisti qılıncdan keçirdilər, stanitsanın ucqarında təcili sıraya düzüldülər və sakitcə, hay-haray salmadan pulemyot vzvodunun bayıra qaçışan qızıl əsgərlərinin üzərinə hücuma keçdilər.

Pulemyot vzvodunun yerləşdiyi ev stanitsanın lap ucqarında idi. Stanitsanın kənarındakı həyətlərlə həmin evin arası yüz sajından artıq deyildi. Düzünə açılan pulemyot atəşi ilə üz-üzə gəlmiş üsyançılar tez atlarının başını geriyə çevirdilər. Onlar atlarını yaxındakı döngəyə qədər səyirtdilər, oradan çıxa bilməyən üç nəfərə güllə dəydi, atdan aşırıldılar. Pulemyotçuların başının üstünü qəfildən almaq niyyəti baş tutmadı. Üsyançılar da ikinci dəfə belə niyyətə düşmədilər. Üçüncü vzvodun komandiri Çumakov öz dəstəsini dalda yerə çəkdi; atdan düşməyərək, daşdan tikilmiş bir mərəyin tinindən ehtiyatla irəliyə baxıb dedi:

– Odur ha, iki maksim pulemyotu da dığırlayıb eşiyə çıxartdılar.

– Sonra tərli alnını papağı ilə silib, üzünü döyüşçülərə çevirdi:

– Geriyə qayıtmaq lazımdır, uşaqlar! Qoy pulemyotçuları Fomin özü gəlsin, yaxalasın. Adamlarımızdan neçəsinin meyiti qarın üstündə qaldı? Üç nəfərinin? Hə də, qoy gəlsin özünü sınasın.

Stanitsanın şərq kənarında atışma başlananda rota komandiri Tkaçenko mənzilindən bayıra atıldı, paltarını yeriyə-yeriyə geyinib qışlaya yüyürdü. Bu vaxt otuz nəfərə qədər qızıl əsgər qışla yanında dayanmış, sıraya düzülmüşdü. Onlar rota komandirini belə suallarla qarşıladılar:

– Güllə atanlar kimdir?

– Bu nə işdir?

Tkaçenko suallara cavab vermir, qışladan bayıra yüyürüşən qızıl əsgərləri dinməzcə sıraya düzürdü. Mahal müəssisələrinin əməkdaşları olan bir neçə kommunist də, demək olar, onunla eyni zamanda qışlaya yüyürmüş və sıraya düzülmüşdü.

Stanitsanın hər tərəfində tüfənglərdən qat-qarışıq atəş açırdılar. Stanitsanın qərb tərəfində, ucqarda atılmış qumbaranın boğuq partıltısı eşidildi. Tkaçenko əlliyə qədər atlının siyirməqılınc düz onların üstünə, qışlaya tərəf gəldiyini görüb naqanını aramla qoburundan çıxartdı. O heç komanda verməyə macal tapmadı: sıralarda danışıq o dəqiqə kəsildi, qızıl əsgərlər tüfənglərini atəşə hazır vəziyyətdə saxladılar.

Qızıl əsgərlərdən biri qışqırdı:

– Bunlar özümüzünkülərdir ki! Odur bax, o da bizim batalyon komandiri Kaparin yoldaşdır!

Süvarilər küçə qurtardıqdan sonra, yekdilliklə, ümumi komanda verilmiş kimi, başlarını atların yalına yatırtdılar, səyirtmə qışla üzərinə gəldilər.

– Yaxına buraxmayın! – deyə Tkaçenko kəskin səslə çığırdı.

Yaylım atəşi onun səsini batırdı. Qızıl əsgərlərin sıx sıralarından cəmisi yüz addım kənarda dörd atlı at belindən kəlləmayallaq yerə yıxıldı, qalanları qatma-qarışıq vəziyyətdə atların başını geriyə çevirdi. Onların dalınca tez-tez və çataçat güllə atdılar. Süvarilərdən biri, görkəmindən yüngül yaralandığı sezilən, yəhərdən yıxıldı, amma atın cilovunu əlindən buraxmadı. O, qaçan atının ardınca on sajın qədər süründü, lakin sonra ayağa qalxdı, əlini üzəngiyə və yəhərin dal qaşına atdı, bir anda atın üstünə qalxdı. O, atın cilovunu qəzəblə dartdı, başını sərt bir şəkildə geri çevirdi və yaxınlıqdakı tində gözdən itdi.

Eskadronun birinci vzvodunun süvariləri, Ovçinnikovu tuta bilmədikdə, stanitsaya qayıtdılar. Komissar Şaxayevin axtarılmasından da bir şey çıxmadı. Bomboş qalmış hərbi komissariatda da, mənzilində də onu tapmadılar. Şaxayev atışma səsi eşidən kimi Dona doğru yüyürmüş, buzun üstü ilə çayın o tayına keçib meşəyə girmiş, oradan da Bazki xutoruna gəlmiş, ertəsi günü isə Veşenskaya stanitsasında toxtamışdı.

Mahalın rəhbər işçilərinin əksəriyyəti vaxtında qaçıb gizlənə bilmişdi. Onları axtarmaq təhlükəli iş idi, çünki pulemyot vzvodunun qızıl əsgərləri əl pulemyotları ilə stanitsanın mərkəzinə yaxınlaşmışdı, baş meydana çıxan küçələrin hamısını atəş altında saxlayırdı.

Eskadron atlıları axtarışı boşladılar, Dona tərəf endilər, oradan da atlarını kilsə meydanına – Ovçinnikovu təqibə başladıqları yerə

səyirtdilər. Tezliklə Fominin tərəfdarlarının hamısı oraya toplaşdı. Hamısı yenə də sıraya düzüldülər. Fomin gözətçi qoymağı əmr etdi, yerdə qalan döyüşçülərə mənzillərə dağılışmağı, amma atların yəhərlərini almamağı tapşırdı.

Fomin ilə Kaparin vzvod komandirləri ilə birlikdə stanitsanın ucqarındakı balaca evlərdən birinə yığışdılar.

Kaparin taqətsiz halda skamyanın üstünə çöküb məyus-məyus dedi:

– Uduzduq!

Fomin də yavaşca dedi:

– Bəli, stanitsanı ala bilmədik, demək biz burada duruş gətirə bilmərik.

– Yakov Yefimoviç, mahalı dolanmalıyıq. İndi biz daha nədən qorxuruq? Fərqi yoxdur, əcəlimiz çatmamış ölməyəcəyik. Kazakları ayağa qaldırsaq, onda stanitsa da bizim olar, – deyə Çumakov təklif etdi.

Fomin kirimişcə onun üzünə baxdı, sonra Kaparinə baxdı:

– Qanın qaralıb, əlahəzrət? Fırtılığını sil! Eşşəyə minmək bir eyibdirsə, düşmək ikinci eyibdir. Bu işi birlikdə başlamışıq, gəl birlikdə də axıra çatdıraq... Nə deyirsən, stanitsadan çıxıb gedək, ya gücümüzü bir də sınayaq?

Çumakov kəskin bir şəkildə dedi:

– Qoy başqaları sınasınlar! Mən düz pulemyotun qabağına gedə bilmərəm. Bu mənasız işdir!

– Sus! Mən səndən soruşmuram! – Fomin qəzəblə Çumakovun üzünə baxdı, Çumakov başını aşağı saldı.

Qısa bir sükutdan sonra Kaparin dedi:

– Bəli, əlbəttə, indi ikinci dəfə belə bir işə girişmək mənasızdır. Silah cəhətdən onlar bizdən üstündürlər. Onların on dörd pulemyotu var, bizim isə bir dənə də yoxumuzdur. Onların adamı da bizdən çoxdur... Buradan getmək və kazakları üsyana qaldırmaq lazımdır. Buradakılara kömək gəlincəyədək üsyan bütün mahalı bürüyəcəkdir. Ümidimiz yalnız bunadır! Yalnız bunadır!

Fomin xeyli susduqdan sonra dedi:

– Nə etməli, belə də eləməliyik. Vzvod komandirləri! Bu saat silahları və sursatı yoxlayın, görün kimin nə qədər patronu var. Ciddi əmr verirəm: bir dənə də olsun patron havayı yerə atılmamalıdır.

Kim bu əmrə əməl etməsə, onu öz qılıncımla doğrayacağam. Döyüşçülərə elə bu cür də məlumat verin. – O, bir qədər susdu və yekə yumruğunu qəzəblə stolun üstünə çırpdı: – Eh, zəhrimar pulemyotlar! Təqsirin hamısı səndədir, Çumakov! Gərək sən bunlardan heç olmasa dördcə dənəsini ələ keçirəydin! Amma indi onlar bizi stanitsadan qovub çıxardacaqlar... Hə, dağılışın! Əgər bizi vurub buradan çıxarmasalar, gecə stanitsada qalarıq, hava işıqlaşanda isə yola düşərik, mahalı dolaşmağa çıxırıq...

Gecə sakit idi. Veşenskayanın bir tərəfində üsyan qaldırmış eskadronun atlıları, digər tərəfində keşikçi rotası ilə onlara qoşulmuş kommunistlər və komsomolçular dayanmışdılar. Düşmənlərin arasında yalnız ikicə məhəllə var idi, bununla belə onların heç birisi gecə hücumuna atılmağa cəsarət etmədi.

Səhər üsyan etmiş eskadron döyüşmədən stanitsadan çıxdı və cənub-şərq tərəfə yollandı.

XI

Qriqori evlərindən çıxandan sonra üç həftə Yelanskaya stanitsasının Verxne-Krivsk xutorunda, bir polkda qulluq etdiyi tanış kazakın evində qaldı. Sonra Qorbatovsk xutoruna getdi, orada Aksinyanın uzaq qohumugildə bir aydan artıq yaşadı.

O səhərdən axşamadək otaqda oturur, həyətə yalnız gecələr çıxırdı. Bütün bu həngamə həbsxanaya oxşayırdı. Qriqori qəmqüssədən, üzücü bekarçılıqdan zara gəlmişdi. Ürəyi evə getmək, uşaqların, Aksinyanın yanında olmaq həsrəti ilə alışıb-yanırdı. Yuxusu gəlməyən gecələrdə o tez-tez şinelini geyinir, Tatarskiyə getməyi qətiyyətlə qərara alırdı, lakin hər dəfə, vəziyyəti ölçüb-biçərək, şinelini soyunur, inildəyə-inildəyə üzüqoylu çarpayının üstünə yıxılırdı. Nəhayət, bu cür yaşamaq onu bezdirdi. Aksinyanın qohumu olan ev sahibi də Qriqoriyə ürəkdən acıyırdı, lakin o da evində uzun zaman belə daimi qonağı saxlaya bilməzdi. Bir gün Qriqori axşam yeməyindən sonra öz otağına çəkildikdə, belə bir danışıq eşitdi. Ev sahibinin arvadı səsi qəzəbdən nazilmiş halda soruşurdu:

– Bu nə vaxt qurtaracaq?

– Nə? Nəyi deyirsən? – deyə ev sahibinin yoğun səsi eşidildi.

– Sən bu hazıryeyəni nə vaxt rədd eləyəcəksən?

– Kəs səsini!

– Səsimi kəsməyəcəyəm! Özümüzün vur-tut bir ovuc taxılımız qalıb, amma sən bu donqarbel şeytanı saxlayır, hər gün yemləyirsən. Mən sənə sual verirəm, bu nə vaxtadək davam edəcəkdir? Bundan Sovet xəbər tutarsa nə olar, bilirsənmi? Boynumuzu vurarlar, balalarımızı yetim qoyarlar!

– Avdotiya, səsini kəs!

– Səsimi kəsməyəcəyəm! Bizim də uşağımız var! Evimizdə cəmisi iyirmi pud taxılımız qalıb, amma sən burada bu müftəxora da çörək verirsən! Axı o sənin nəyindir! Doğma qardaşındır? Qudandır? Kirvəndir? O, heç sənin qohumun da deyil! O sənin itinin qurd dayısıdır, amma sən onu yenə də saxlayırsan, yedirdirsən, içirdirsən! Ah, keçəl məlun! Kəs səsini, it kimi hürmə, yoxsa sabah özüm düz Sovetə gedər və evində kimi saxladığını onlara məlumat verərəm!

Ertəsi gün ev sahibi Qriqorinin otağına girdi, yerə baxa-baxa dedi:

– Qriqori Panteleviç! Nə deyirsən de, amma daha mənim evimdə qalmağın mümkün deyil... Mənim sənə hörmətim var, rəhmətlik atanı da tanıyırdım, ona da ehtiramım var, amma indi səni evimdə qonaq saxlamağa gücüm çatmır... Bundan başqa yerli hökumətin bundan xəbər tutmasından da qorxuram. Hara istəyirsən get. Mən ailə sahibiyəm. Sənin ucbatından başımın bədənimdən ayrılmasını istəmirəm. Səni and verirəm Allaha, bağışla, amma bizi xatadan qurtar...

Qriqori müxtəsərcə dedi:

– Yaxşı. Duz-çörəyinə görə, sığınacaq verdiyinə görə sağ ol. Hər şeyə görə sağ ol. Mən özüm də görürəm ki, sənin ailənə artıq yükəm, amma bilmirəm, hara gedim? Yolum hər tərəfdən bağlıdır.

– Özün bilərsən.

– Yaxşı. Bu gün gedərəm. Artamon Vasilyeviç, hörmətinə görə sağ ol.

– Dəyməz, təşəkkür eləmə.

– Mən sənin bu yaxşılığını heç vaxt unutmaram. Ola bilsin ki, vaxt olar, mən də sənə bir şeydə kara gələrəm.

Kövrəlmiş ev sahibi əlini Qriqorinin kürəyinə döydü:

– Elə demə! Məndən olsa sən mənim evimdə heç olmasa təzədən iki ay da qala bilərdin, amma arvad icazə vermir, Allah ona lənət eləsin, hər gün dalaşır! Mən də kazakam, Qriqori Panteleviç, sən də kazaksan; bizim hər ikimiz Sovet hökumətinə ziddik, buna görə də mən sənə kömək etməliyəm: buradan düz Yaqodnı xutoruna get, orada mənim bir qudam yaşayır, səni o saxlar. Mənim adımdan ona de: Artamon tapşırdı ki, səni doğma oğlu kimi qarşılasın, mümkünatı çatdığı qədər səni yedirtsin və saxlasın. Sonra biz özümüz onunla hesablaşarıq. Amma sən günü bu gün bizim evdən get. Mən səni daha burada saxlaya bilmərəm, bir yandan arvad canımı boğazıma yığıbdır, bir yandan da Sovetin bu işdən xəbər tutmasından ehtiyat edirəm... Burada qaldığın kifayətdir, Qriqori Panteleviç... Mənim üçün də öz canım şirindir...

Qriqori gecədən xeyli keçmiş xutordan çıxdı, təpədəki yel dəyirmanına çatmağa bir az qalanda, birdən-birə, yerin altından çıxmış kimi, üç atlı onu dayandırdı:

– Dayan, köpək oğlu! Kimsən!

Qriqorinin ürəyi qopdu. O dinməzcə dayandı. Qaçmaq ağılsızlıq olardı. Yolun kənarında nə bir yarğan, nə də kol var idi: bomboş, çılpaq çöl idi. O, heç iki addım belə ata bilməzdi.

– Kommunistsən? Geri dön, sənin anan mələr qalsın! Haydı, cəld ol!

İkinci atlı atını düz onun üstünə sürdü, əmr verdi:

– Əllərini çıxart! Əllərini cibindən çıxart! Çıxart deyirəm sənə, yoxsa boynunu vuraram!

Qriqori əllərini şinelinin cibindən çıxartdı və başına nə iş gəldiyini, onu dayandırmış bu adamların kim olduğunu düz-əməlli dərk etmədiyi halda soruşdu:

– Hara gedim?

– Xutora, geriyə dön.

Atlılardan biri onu xutora qədər gətirdi, o biriləri örüşdə onlardan aralandılar, atlarını yola doğru sürdülər. Qriqori kirimişcə gedirdi. O, yola çıxdıqda addımlarını yavaşıdıb sual verdi:

– Bura bax, əmi, siz kimsiniz?

– Yeri, yeri! Danışma! Əllərini dalına qoy, eşitdin nə dedim?

Qriqori dinməzcə deyilənə itaət etdi. Bir az keçəndən sonra yenə sual verdi:

– Nə olar, yenə də bir deyin görək, siz kimsiniz?

– Xaçpərəstik.

– Mən özüm də kafir deyiləm.

– Onda sevin də.

– Axı sən məni hara aparırsan?

– Komandirin yanına. Yeri, yeri, əclaf, yoxsa bu saat səni...

Atlı qılıncının ucu ilə Qriqorini ehmalca itələdi. Qılıncın qəşəng itilənmiş soyuq ucu Qriqorinin papağı ilə şinelinin yaxası arasındakı açıq boyun ətinə toxundu; qorxu hissi bir an qədər bütün bədəninə vəlvələ saldı, lakin gücsüz qəzəb hissi bunu əvəz etdi. O, şinelinin yaxasını qaldırdı, başını yarıya qədər geriyə çevirdi, dişlərini qıcıyaraq atlıya dedi:

– Gicləşmə! Eşitdin nə dedim? Yoxsa qılıncını tutub əlindən alaram...

– Yeri, xain, danışma! Mən sənə bu saat göstərərəm! Əllərini dalına qoy!

Qriqori iki addım qədər yeridi, sonra dedi:

– Mən onsuz da dinmirəm, amma sən söymə! Zibilin biri.

– Geriyə baxma.

– Mən onsuz da dala baxmıram.

– Dinmə, həm də yeyin yeri!

Qriqori kirpikləri üzərinə düşən qar zərrəciklərini silib tökərək soruşdu:

– Bəlkə yorğa yerimək lazımdır?

Atlı dinməzcə atını dəhmərlədi. Atın tərdən və gecənin rütubətindən islanmış döşü Qriqorinin kürəyinə toxundu, dırnaqları Qriqorinin ayaqları yanında qarı tapdadı.

Qriqori əlini atın yalına dirəyib, onu saxlayaraq səsləndi:

– Yavaş!

Atlı qılıncını başı bərabərinə qaldırdı, yavaşca dedi:

– Ay it küçüyü, düz-əməlli yeri, danışma, yoxsa mən səni yerinə çatdırmamış öldürərəm. Belə şeylər mənim əlimdə asan bir işdir. Sus, bir kəlmə də danışma!

Onlar düz xutora çatana qədər danışmadılar. Ucqardakı həyətə çatanda atlı atının başını çəkdi, dedi:

– Bax, o qapıdan içəriyə get.

Qriqori taybatay açılmış darvazadan içəriyə girdi. Həyətin o başında dəmir taxtapuşlu yekə bir ev göründü. Mərəyin çardağı altına bağlanmış atlar fınxırışır və xırta-xırtla alaf yeyirdilər. Artırmanın yaxınlığında altı nəfər silahlı adam dayanmışdı. Atlı qılıncını qınına qoydu, atdan düşərək dedi:

-- Düz o evə get, kandardan içəri gir, sol tərəfdəki birinci qapıya. Yeri, ətrafına boylanma, adama sözü neçə dəfə deyərlər, ay sənin var-yoxunu, ananı, bacını...

Qriqori artırmanın pilləkənləri ilə aramla yuxarı çıxdı. Məhəccərin yanında durmuş, başında buyonovka, əynində uzun süvari şineli olan bir kişi soruşdu:

– Bunu tutmusunuz?

Qriqorinin tanıdığı atlı kazakın – onu gətirənin həvəssiz cavabı eşidildi:

– Tutmuşuq. Dəyirmanın yanında yaxaladıq.

– O özək katibidir, yoxsa kimdir?

– Nə bilim nə zəhrimardır. Çox əclaf kişidir, kim olduğunu isə bu saat biləcəyik.

Qriqori qəsdən dəhlizdə ləngiyir, ağlını başına toplamağa çalışır və belə düşünürdü: "Bunlar ya quldur dəstəsidir, ya da veşenskli çekistlərdir, qəsdən belə oyun çıxardır, mənə kələk gəlirlər. Yamanca ələ keçdim! Həm də axmaq kimi yaxalandım".

Qapını açdıqda ilk gördüyü adam Fomin oldu. Fomin stolun arxasında oturmuşdu, Qriqorinin tanımadığı çoxlu hərbi adam onun dövrəsinə yığışmışdı. Çarpayının üstünə çoxlu şinel və yarımkürk qalaqlanmışdı, taxtın yanında tüfənglər yan-yana düzülmüşdü; qılıncları, patrondaşları, yan çantalarını və yəhər heybələrini də qatma-qarışıq halda taxtın üstünə atmışdılar. Adamlardan, şinellərdən, silah və sursatdan kəskin at təri iyi gəlirdi.

Qriqori papağını çıxartdı və yavaşca dedi:

– Salam!

– Melexov! Bax buna görə deyiblər ki, dağ dağa qovuşmaz, amma insan insana qovuşar! Qismət oldu biz yenə görüşdük! Sən haradan gəlirsən? Şinelini soyun, əyləş! – Fomin stolun dalından qalxdı, Qriqoriyə yaxınlaşdı, əl verdi. – Sən buralarda nə hərlənirsən?

– Burada işim var idi.

– Nə işin var idi? Xeyli uzaqlara gəlib çıxmısan... – Fomin zənn ilə Qriqorini nəzərdən keçirdi: – Düzünü de, yoxsa bu yerlərdə baş girləyirdin?

Qriqori istər-istəməz gülümsəyib cavab verdi:

– Sözün düzü, elədir ki, var.

– Bizim uşaqların əlinə harada keçmisən?

– Xutorun kənarında.

– Hara gedirdin?

– Ağlıma hara gəlsə...

Fomin bir də diqqətlə Qriqorinin gözlərinin içinə baxıb gülümsündü:

– Görürəm, sən elə güman edirsən ki, biz səni tutmuşuq, götürüb Vyoşkiyə aparacağıq? Yox, dostum, ora getmək bizə qadağan edilmişdir... Qorxma! Biz daha Sovet hakimiyyətinə qulluq eləmirik. Yola getmədik...

Sobanın yanında papiros çəkən ortayaşlı bir kazak nərildədi:

– Ondan boşanmışıq.

Stolun dalında oturanlardan biri bərk güldü.

– Sən mənim barəmdə heç nə eşitməmisən? – deyə Fomin soruşdu.

– Yox.

– Di onda keç otur, söhbət edək. Ay uşaq, qonağa şorba və ət gətirin!

Qriqori Fominin dediklərinin birinə də inanmırdı. Rəngi qaçmış halda təmkinlə şinelini soyundu, stoldan kənarda əyləşdi. O, yaman papiros çəkmək istəyirdi, amma yadına düşdü ki, iki gündür tütünü qurtarıb, Fominə üz tutub dedi:

– Çəkməyə bir şey var?

Fomin qulluq göstərməklə meşin papiros qabını ona uzatdı. Qriqorinin papiros götürən barmaqlarının xəfifcə uçunduğu Fominin diqqətli baxışlarından yayınmadı, sarı, qıvrım bığlı Fominin dodağı yenə qaçdı:

– Biz Sovet hakimiyyətinə qarşı üsyan qaldırmışıq. Biz xalq tərəfdarıyıq və ərzaq sapalağı ilə komissarlara ziddik. Onlar uzun zaman bizim başımızı ağrıtdılar, indi də biz onların başını ağrıdacağıq. Mətləb sənə aydındırmı, Melexov?

Qriqori dinmədi. O, papiros çəkirdi, bir-birinin ardınca bir neçə qullab vurdu. Başı azacıq hərləndi, ürəkbulanması duydu. Son ay ərzində o yaxşı yemirdi, necə zəiflədiyini yalnız indi hiss etdi. Papirosu söndürdü, böyük iştahla xörək yeməyə başladı. Fomin ona necə üsyan qaldırdıqlarını, mahalda ilk günlər necə avaralandıqlarını nağıl etdi; o bu səfəri təntənəli bir şəkildə "reyd" adlandırdı. Qriqori kirimişcə ona qulaq asır və çörəyi də, yaxşı bişməmiş qoyun ətini də, demək olar, çeynəmədən ötürürdü.

Fomin sadəlövhcəsinə gülərək dedi:

– Öz aramızdır, qonaq yerində sən lap acından ölürsənmiş.

– Qayınanamın yanında yaşamırdım ki! – deyə Qriqori mızıldadı.

– Görünür, düz deyirsən. Korluq çəkmisən. Bir az da ye, lap qarnın yırtılıncaya qədər ye. Biz xəsis deyilik.

– Sağ ol. Bir papiros də çəksəm... – Qriqori təklif edilən papirosu aldı, taxtın üstünə qoyulmuş çuqun qazana yaxınlaşdı, qazanın taxta qapağını kənara itələyib, qabı su ilə doldurdu. Su buz kimi soyuq, bir az şor idi. Yaxşı yeməkdən məst olmuş Qriqori həvəslə iki iri parç su içdi, bundan sonra ləzzətlə papiros çəkdi.

Fomin Qriqorinin yanında oturaraq söhbətinə davam etdi:

– Kazaklar bizi o qədər də xoş üzlə qarşılamırlar. Keçən il üsyan vaxtı onların canına bərk vəlvələ salıblar... Bununla belə yanımıza könüllü gələnlər var. Dəstəmizə qırx nəfərə qədər adam qoşulmuşdur. Lakin bizim istədiyimiz bu deyil. Biz bütün mahalı ayağa qaldırmalıyıq, həm də elə etməliyik ki, qonşuluqdakı Xoperski və Ust-Medveditsa mahalları da bu işə kömək eləsinlər. Bax, yalnız o zaman biz Sovet hakimiyyəti ilə yaxşıca danışa bilərik!

Stolun arxasında ucadan danışıq gedirdi. Qriqori Fominin sözlərinə qulaq asır, gözünün altı ilə onun yoldaşlarına baxırdı. O bunların birini də tanımırdı! Qriqori Fominə yenə də inanmır, belə güman edirdi ki, o kələk işlədir; buna görə də ehtiyat üçün dillənmirdi. Lakin həmişə susmaq da mümkün deyildi.

– Yoldaş Fomin, əgər sənin bu dediklərin ciddidirsə, onda de görüm, siz nə istəyirsiniz? Təzə müharibə salmaqmı niyyətindəsiniz? – deyə gözündən tökülən yuxunu güc-bəla qovub soruşdu.

– Mən bu haqda sözümü bayaq sənə dedim.

– Hakimiyyəti dəyişmək istəyirsiniz?

– Bəli.

– Bəs necə hakimiyyət qurmaq istəyirsiniz?

– Öz hakimiyyətimizi, kazak hakimiyyətini!

– Yenə işlər atamanlara tapşırılacaqdır?

– Xeyr, atamanlar məsələsi sonraya qalsın. Xalq hansı hakimiyyəti istəsə, onu da dikəldərik. Amma bu məsələyə hələ çox var, həm də ki, mən siyasətdən yaxşı baş açmıram. Mən hərbi adamam, mənim işim komissarlarla kommunistləri qırmaqdır, hakimiyyət məsələsini isə, mənim qərargah rəisim Kaparin sənə söyləyər. O, bu cəhətdən aramızda kəlləli adamdır. Ağıllı adamdır, savadlıdır. – Fomin Qriqoriyə tərəf əyildi, pıçıldadı: – Çar ordusunda qərargah zabiti olub. Ağıllı oğlandır! O, bu saat otaqda yatır, deyəsən, vərdişli olmadığı üçün bir qədər naxoşlayıbdır, çox böyük yürüşlər keçirdirik.

Dəhlizdə səs-küy, tappıltı, inilti, süpürüşmə və yavaş bağırtı eşidildi: "Vur köpək oğlunu!" Stolun arxasındakı danışıq o dəqiqə kəsildi. Fomin ayıq bir halda qapıya baxdı. Kim isə qapını bir dəfə itələməklə açdı. Aşağıdan otağa ağ, yumaq kimi dığırlanan buxar dalğası doldu. Papaqsız, əynində isti sırıqlı, ayaqlarında boz keçə çəkmə olan ucaboy bir kişi kürəyinə ilişdirilən güclü yumruqdan səndələyərək, bir neçə addım qabağa gəldi, çiyni sobanın tininə dəydi. Qapını örtməzdən əvvəl dəhlizdə kim isə şən bir səslə qışqırdı:

– Birini də təhvil alın!

Fomin ayağa qalxdı, köynəyinin üstündən çəkilmiş kəmərini düzəltdi.

– Kimsən? – deyə amiranə bir əda ilə soruşdu.

Sırıqlılı kişi tövşüyə-tövşüyə əlini saçlarına çəkdi, çiyinlərini tərpətmək istədi, amma ağrıdan üz-gözünü turşutdu. Onun fəqərə sütununa nə isə ağır bir şeylə, görünür, tüfəngin qundağı ilə vurmuşdular.

– Bəs niyə dinmirsən? Dilin lal olub? Soruşuram ki, kimsən?

– Qızıl əsgərəm.

– Hansı hissədənsən?

– On ikinci ərzaq polkundanam.

Stolun dalında oturanlardan biri gülümsünərək səsləndi:

– A-a, bu ki, ələ düşməyən adamdır.

Fomin sorğu-sualını davam etdirdi:

– Sən bu arada nə edirdin?

– Bizi buraya... Cəza dəstəsinə göndəriblər.

– Aydındır, xutorda siz neçə adam idiniz?

– On dörd nəfər.

– Qalanı haradadır?

Qızıl əsgər dinmədi, dodaqlarını çox çətinliklə araladı. Boğazında nə isə lıqqıldadı, ağzının sol küncündən çənəsinə doğru nazik qan sızdı. O, dodaqlarını sildi, əlinə baxıb şalvarının yanına çəkdi.

Qızıl əsgər ağzının qanını udub, lıqqıldayan boğazında danışaraq dedi:

– Bunu sizin... əclaflar elədilər, ağ ciyərimi parçalayıblar...

Stolun dalında oturmuş gümrah və gödək bir kazak ayağa qalxdı, başqalarına göz eləyərək rişxəndlə dedi:

– Qorxma! Sağaldarıq!

– Qalan yoldaşların haradadır? – deyə Fomin sualını təkrar etdi.

– Arabada Yelanskaya stanitsasına getdilər.

– Sən özün haralısan? Hansı diyardansan?

Qızıl əsgər həyəcandan bərk parıldayan mavi gözlərini Fominin üzünə zillədi, ağzındakı laxtalanmış qanı ayaqları altına tüpürdü və bu dəfə suala saf, cingiltili bir səslə cavab verdi:

– Pskov vilayətindənəm.

– Pskovlu, moskvalı... eşitmişik... – deyə Fomin onu lağa qoydu. – Özgələrinin taxılını əlindən almaq üçün gör haralardan gəlmisən... Hə, danışıq qurtardı! Biz indi səni neyləyək?

– Məni buraxmaq lazımdır.

– Sən sadəlövh oğlansan... Bəlkə, uşaqlar, bunu gerçəkdən də buraxaq? Siz nə fikirdəsiniz? – Fomin bığaltı gülümsəyərək, üzünü stolun dalında oturanlara tutdu.

Burada olub-keçənləri diqqətlə müşahidə edən Qriqori gördü ki, adamların bozarmış, qaysaqlamış sifətlərində toxtaq da olsa, kişiyə yazıqları gəldiyini sezdirən bir təbəssüm var.

Fominçilərdən biri dedi:

– Qoy iki ay burada bizdə qulluq eləsin, sonra evinə, arvadının yanına buraxarıq.

Fomin təbəssümünü gizlətməyə çalışdısa da mümkün olmadı, kişidən soruşdu:

– Bəlkə, doğrudan da, yanımızda qalıb qulluq edəsən? Sənə at da verərik, yəhər də, keçə çəkmə əvəzinə təptəzə boğazlığı qəşəng çəkmə də... Komandirləriniz sizi yaman pis təchiz edirlər. Məgər bu ayaqqabıdır? Havalar istiləşir, amma sən keçə ayaqqabıdasan. Bizdə qulluqla necəsən? Hə?

Kazaklardan biri özünü dəliliyə vuraraq, qəsdən səsini nazildərək mızıldadı:

– O mujikdir, ömründə at minməmişdir.

Qızıl əsgər dinmirdi. O, kürəyini sobaya söykəyib hamını işıldayan gözləri ilə nəzərdən keçirdirdi. Arabir kürəyinin ağrısından üz-gözünü qırışdırır, nəfəsi təngidikcə ağzını azacıq açırdı.

Fomin bir də soruşdu:

– Bizdə qalırsan ya yox?

– Axı siz kimsiniz?

– Biz?! – Fomin qaşlarını dartdı, əli ilə bığlarını tumarladı. – Biz zəhmətkeş xalqın tərəfdarıyıq. Biz komissarlarla kommunistlərin zülmünə ziddik, indi bildinmi kimik?

Söz buraya çatanda Qriqori birdən qızıl əsgərin üzündə təbəssüm gördü.

– Demək siz belə adamlarsınızmış... Mən də fikirləşirdim ki, görəsən bunlar kimdir? – Əsir gülümsündü, qana boyanmış dişləri göründü, özü də elə danışırdı ki, guya eşitdiyi təzə xəbər xoşuna gəlmişdir, amma səsində hamını ayıq salan bir nida sezilirdi. – Sizin zənninizcə siz xalq tərəfdarısınız? Be-lə-ə-ə! Bizcə siz sadəcə quldursunuz. Mən də sizə – quldurlara qulluq edim? Doğrudan yaman məzəli adamlarsınız!

– Üzünə baxıram, sən də lotu oğlana oxşayırsan... – Fomin gözlərini qıydı, qısaca sual verdi: – Kommunistsənmi?

– Yox, nə danışırsan, canım! Bitərəfəm.

– Oxşamır.

– Namusum haqqı bitərəfəm!

Fomin öskürdü, boğazını arıtladı, üzünü stola çevirdi:

– Çumakov! Aparıb o dünyaya yollayın.

Qızıl əsgər yavaşca dedi:

– Məni öldürməyinə dəyməz. Təqsirim yoxdur axı.

Adamlar bunun cavabında dinmədilər. Dəridən tikilmiş qolsuz ingilis jileti geyinmiş Çumakov – gümrah və göyçək kazak, stolun

arxasından könülsüz ayağa qalxdı, onsuz da geriyə doğru yaxşıca daranmış sarışın saçlarını bir də sığalladı.

O, taxtın üstünə atılmış, qalaq-qalaq qılıncların arasından öz qılıncını götürdü və tiyəsinin itı olub-olmadığını baş barmağı ilə yoxlayaraq ucadan dedi:

– Bu vəzifə lap məni zara gətirdi.

Fomin ona məsləhət verdi:

– Hökm deyil ki, özün öldürəsən. Həyətdəki uşaqlardan birinə də tapşıra bilərsən.

Qızıl əsgəri təpədən-dırnağa qədər soyuq-soyuq nəzərdən keçirib dedi:

– Düş qabağıma, dostum.

Qızıl əsgər sobadan aralandı, beli büküldü və aramla qapıya doğru getdi; o getdikcə döşəmənin üstündə yaş keçə çəkmələrin izi qalırdı.

Əsirin dalınca gedən Çumakov süni narazılıqla deyinirdi:

– Adam içəri girəndə ayaqlarını silər! Buna bax, gəldi, hər yeri buladı, kirləndirdi... Qardaşım, necə pinti adamsan!

Fomin onun dalınca qışqırdı:

– De ki, onu ya dalana, ya da xırmana aparsınlar. Evin yaxınlığında öldürməyin, yoxsa ev sahibləri inciyərlər!

O, Qriqoriyə yaxınlaşdı, yanaşı oturdu, soruşdu:

– Mühakiməmiz qısacadır, eləmi?

– Qısacadır, – deyə göz-gözə gəlməmək üçün Qriqori cavab verdi.

Fomin köksünü ötürdü:

– Başqa çarəmiz yoxdur. İndi belə eləmək lazımdır. – O yenə nə isə demək istədi, amma bu zaman artırmada bərk tappıltı oldu, kim isə qışqırdı, bunun ardınca da tüfəngdən güllə atıldı.

Fomin dilxor olub çığırdı:

– Onlar orada nə oyun çıxardırlar!

Stolun yaxınlığında oturanlardan biri dik atıldı, təpiyi ilə qapını açdı. Qaranlığa doğru qışqırdı:

– Nə olub?

Çumakov içəri girdi, qızışmış halda dedi:

– Zalım oğlu yamanca diribaş adam imiş! Bir bu haramzadənin əməlinə bax! Yuxarı pillədən atlandı və qaçdı. Bir güllə sərf eləmək lazım gəldi. Uşaqlar orada axırına çıxırlar...

– Əmr ver ki, həyətdən sürüyüb küçəyə aparsınlar.

– Demişəm, Yakov Yefimoviç.

Otağa bir dəqiqə sakitlik çökdü. Sonra kim isə, əsnəyini boğub soruşdu:

– Bayırda hava necədir, Çumakov? Yağış yağırmı?

– Göyün üzü buluddur.

– Yağış yağsa, axırıncı qarı da yuyub aparacaqdır.

– Axı yağış sənin nəyinə gərəkdir?

– O mənə gərək deyil. Amma palçığın-batağın içi ilə yeriməyi xoşlamıram.

Qriqori çarpayıya yaxınlaşdı, papağını götürdü.

– Hara gedirsən? – deyə Fomin soruşdu.

– Çölə çıxıram.

Qriqori artırmaya çıxdı. Buludlar arasından boylanan ay zəif işıq saçırdı. Geniş həyət, mərəklərin damları, uca qovaqların göylərə yüksəlmiş çılpaq zirvələri, axurların yanında bellərinə çul salınmış atlar – bütün bunların üzərinə gecəyarısının əsrarəngiz mavi işığı süzülürdü. Öldürülmüş qızıl əsgərin meyiti artırmadan bir neçə sajın aralıda idi, başı qarı ərimiş yerə, sönük-sönük parıldayan gölməçəyə dirənmişdi. Üç kazak meyitin üstünə əyilmişdi, yavaş səslə danışırdılar. Onlar öldürülmüş adamın yanında nə isə edirdilər. Kazaklardan biri dilxorluqla deyirdi:

– Allaha and olsun hələ canı çıxmayıbdır! Ay çolaq eşşək, heç bu cür də adam öldürərlər? Sənə nə dedim: dedim ki, qılıncı kəlləsinə nıxça? Eh, əməzəyin biri əməzək!

Qriqorini qabağına qatıb gətirən, səsi xırıltılı kazak ona cavab verdi:

– Canı çıxacaqdır! Bir qədər çapalayacaq, canı çıxacaqdır... Sən onun başını yuxarıya qaldır! Paltarını soyundura bilmirəm. Saçından tut, yuxarıya dart, bax belə. İndi isə möhkəm yapış.

Su şappıldadı. Meyitin üstünə əyilənlərin biri qəddini düzəltdi. Səsi xırıltılı çıxan kazak çömeltmə oturdu, öldürülmüş adamın isti sırıqlısını hıqqana-hıqqana soyundurdu. O, bir az keçəndən sonra dedi:

– Əlim yüngüldür, ona görə canı hələ çıxmamışdır. Evimizdə də, bəzən görürsən, qaban kəsirəm... Bərk saxla, tullama! Ah, məlun!.. Bə-ə-əli, qaban kəsirəm, bıçağı boğazına çəkib kəsirəm, iliyini vurmağa bir şey qalmır, amma lənətə gəlmiş dik atılır,

həyətdə qaçır. Xeyli vaxt vurnuxur! Başdan-ayağa qanına qəltandır, amma gəzir, xırıldayır. Nəfəs almağa mümkünatı yoxdur, amma yenə də diridir. Bu da o deməkdir ki, mənim əlim yüngüldür. Hə, burax... hələ nəfəsi var? Qılıncım ələngə sümüyünə qədər boynuna işləmişdir, gör ha...

Üçüncü kazak qızıl əsgərin əynindən çıxartdığı isti sırıqlını əlində tutmuşdu:

– Sol böyrü qana bulaşmışdır... Adamın əlinə yapışır, tfu, zəhrimara dönəsən!

– Nə eybi var, quruyar. Piy deyil ki, yapışıb qala, – deyə səsi xırıltılı kazak sakitcə dilləndi və yenə çömələdi:

– Ya quruyar, ya da yuyulanda gedər. Eybi yoxdur.

Birinci kazak narazılıqla dedi:

– Bu nədir, canım, sən onun şalvarını da soyundurmaq niyyətindəsən?

Səsi xırıltılı kazak onun üstünə kəkələndi:

– Əgər sən tələsirsənsə, onda dur, atların yanına get, burada sənsiz də keçinərik! Yaxşı şey niyə batsın?

Qriqori sərt bir hərəkətlə geriyə çevrildi, evə girdi.

Fomin onu ötəri, lakin diqqətli baxışla qarşıladı, ayağa durdu.

– Gəl, – dedi, – otağa keçək, orada danışaq, burada çox qarıldaşırlar.

Geniş, sobası gur yanan otaqdan çətənə və siçan iyi gəlirdi. Çarpayıda ayaqlarını bir-birindən xeyli aralamış, əynində xaki frenç olan orta cüssəli bir adam yatmışdı. Seyrək saçları pırpızlanmış, quş tükünə və yumşaq tiftiyə bulaşmışdı. Başının altına qoyulmuş kirli balışın üzü yox idi. Tavandan asılmış çıraq onun solğun, çoxdan qırxılmamış üzünü işıqlandırırdı.

Fomin onu oyadıb dedi:

– Qalx, Kaparin. Qonağımız var. Məlumun olsun ki, bu Melexov Qriqori, keçmiş zabit, bizim adamdır.

Kaparin ayaqlarını çarpayıdan aşağıya salladı, üzünü əlləri ilə ovuşdurdu, ayağa qalxdı. Yüngülcə təzimlə Qriqorinin əlini sıxdı:

– Çox şadam. Ştabs-kapitan Kaparin.

Fomin sevinmiş halda stulu Qriqorinin yaxınına çəkdi, özü gedib sandığın üstündə oturdu. O, sir-sifətinə baxan kimi anlamışdı

ki, qızıl əsgərin öldürülməsi Qriqoriyə çox ağır təsir bağışlamışdır; buna görə də dedi:

– Sən elə güman etmə ki, biz hamı ilə belə sərt rəftar edirik. Sənin gördüyün kişi, ərzaq dəstəsi nəfərlərindən biri idi. Elələrinə və hər çeşid komissarlara aman vermirik, amma başqalarına rəhm edirik. Dünən üç nəfər milis işçisi tutublar; atlarını, yəhərlərini, silahlarını əllərindən aldılar, amma özlərini buraxdılar. Onların öldürülməsi kimin nəyinə gərəkdir?

Qriqori dinmirdi. O, əllərini dizlərinə söykəyib öz vəziyyətini düşünürdü, Fominin səsini elə bil röya aləmində eşidirdi. Fomin söhbətinə davam edib deyirdi:

– ...Hələlik bu cür dava edərik. Necə olur-olsun kazakları üsyana cəlb etmək ümidindəyik. Sovet hakimiyyəti yaşaya bilməyəcəkdir. Belə bir şayiə eşitmişik ki, hər yerdə müharibə gedir. Hər yanda – həm Sibirdə, həm Ukraynada, hətta Petroqradın özündə də üsyan başlanmışdır. O qalada, adı nədir, bütün donanma üsyan etmişdir...

– Kronştadtda, – deyə Kaparin onun tapmadığı sözü çatdırdı.

Qriqori başını qaldırdı boş, sanki heç nə görməyən gözlərini Fominin üzünə zilladı, sonra dönüb Kaparinin üzünə baxdı.

Fomin papiros qutusunu ona uzatdı:

– Al, papiros çək. Bəli, Petroqradı alıblar, indi də Moskvaya yaxınlaşırlar. Hər yerdə bu cür mərəkə var! Bizim də burada yatmağımızın mənası yoxdur. Kazakları üsyana qaldırıb, Sovet hakimiyyətini aşırarıq, sonra da, kadetlər yardım eləsələr, işlərimiz daha da yaxşı olar. Qoy onların elmli adamları hakimiyyəti qurmaqla məşğul olsunlar, biz onlara kömək edərik. – O susdu, sonra soruşdu: – Melexov, sən nə fikirdəsən: kadetlər Qara dəniz tərəfdən basqın edib, bu yerlərə gəlsələr, bizimlə birləşsələr, arxada bizim hamıdan əvvəl üsyan qaldırmağımızı nəzərə alarlar, elə deyilmi? Kaparin deyir ki, bunu hökmən nəzərə alarlar. Doğrudanmı, sözgəlişi deyirəm, 1918-ci ildə iyirmi səkkizinci polku cəbhədən götürüb getməyimə, Sovet hakimiyyətinə vur-tut iki il qulluq elədiyimə görə məni məzəmmətləyəcəklər?

Qriqori ixtiyarsız olaraq gülümsünüb ürəyində dedi: "Gör hərif nələri fikirləşir! Axmaq adamdır, amma hiyləgərdir..." Fomin ondan cavab gözləyirdi. Görünür, bu məsələ onu çox düşündürürdü. Qriqori könülsüz dedi:

– Bu uzun məsələdir.

– Əlbəttə, əlbəttə, – deyə Fomin onun rəyinə şərik oldu. – Mən bunu sözgəlişi dedim. Bunu işin gerisi göstərər, amma bu saat biz hərəkət etməli, arxada kommunistləri məhv eləməliyik. Biz, fərqi yoxdur, onlara göz versək də işıq verməyəcəyik! Onlar piyadalarını arabalara doldurur, üstümüzə gəlir, elə bilirlər bizə çatacaqlar... Qoy bacarırlarsa çatsınlar. Onlar öz hissələrinə süvari qoşun göndərincəyə qədər, biz bütün mahalı alt-üst edərik!

Qriqori yenə ayaqlarının altına baxır, fikirləşirdi. Kaparin üzr istədi, çarpayıya uzandı. Süstləmiş halda gülümsünərək dedi:

– Çox tez yoruluram. Yürüşlərimiz dəlicəsinədir, az yatırıq.

Fomin ayağa qalxdı, ağır əlini Qriqorinin çiyninə qoyub dedi:

– Bizim də dincəlmək vaxtımızdır. Afərin, Melexov! Ona görə afərin deyirəm ki, sən o vaxt Vyoşkidə mənim məsləhətimə baxdın! O zaman aradan çıxıb gizlənməsəydin, çoxdan işin bitmişdi. İndi Vyoşki yaxınlığındakı təpələrdə yatırdın, dırnaqların da çürümüşdü... Bunu mən ovcumun içi kimi aydınca görürdüm. Hə, de görək nə fikirdəsən, həm də dur, gedək yataq.

– Nə deyim?

– Bizimlə yoldaşsan, yoxsa yox? İnsan ömrü uzunu özgə qapısında girlənə bilməz.

Qriqori ona belə bir sual veriləcəyini gözləyirdi. İndi o müəyyən qərara gəlməli idi; ya xutorlar arasında bundan sonra da avaralanmalı, ac-susuz, yurdsuz-yuvasız həyat keçirməli, ev sahibi onun yerini gedib hökumətə xəbər verincəyədək üzüntü içində yaşamaqdan məhv olmalı, ya özünü günahkar hesab edib, birbaş siyasi büroya gedib təslim olmalı, ya da Fominə yoldaş olmalı idi. O da qərarını verdi. Axşamdan bəri ilk dəfə düz Fominin gözlərinin içinə baxdı, dodağı qaçdı və dedi:

– Mənim qərara gəlmək məsələm nağıllardakı pəhləvanların hekayətinə bənzəyir: sol tərəfə getsəm, atım əlimdən çıxacaq, sağ tərəfə getsəm, özümü öldürəcəklər... Deməli, qarşımda üç yol var, üçü də başdan-ayağa xatalı...

– Nağılı boşla, qərarını söylə. Nağılları sonra söyləyəcəyik.

– Başımı soxmağa bir yerim yoxdur, ona görə də qərarımı verdim.

– Nə qərar?

– Sənin quldur dəstənə daxil oluram.

Fomin incimiş halda üz-gözünü qırışdırdı, bığını çeynədi.

– Sən gəl bu adı boşla. Niyə quldur dəstəsi deyirsən? Kommunistlər bizi belə adlandırıblar, amma sənin belə deməyin yaramaz. Sadəcə de: üsyan qaldırmış adamlar, həm qısa, həm də aydın.

Onun narazılığı bir dəqiqəlik idi. Qriqorinin belə qərara gəlməsindən, o aşkarca şad idi və bunu gizlədə bilmirdi; kefi kökəlmiş halda əllərini bir-birinə sürtərək dedi:

– Polkumuzun gücü artdı. Eşidirsənmi, ştabs-kapitan! Biz sənə, Melexov, vzvod verərik, vzvod komandiri olmaq istəmirsənsə Kaparinlə birlikdə qərargahda əyləşib işlərə əncam çəkərsiniz. Öz atımı sənə verirəm. Mənim ehtiyatda bir atım da var.

XII

Dan yeri ağaranda hava ayazlaşdı. Gölməçələrin üzü göyümsov buz bağladı. Qar bərkidi, ayaq altında xışıldadı. Atlar yeridikcə dırnaqlarının qarışıq, üzərinə qar səpələnən girdə izi qalırdı; dünən mülayim havadan qarlarıərimiş yerlərdə isə, bildirki ölüşkəmiş otlu açıq torpaq at dırnağı dəydikcə batır, boğuq şəkildə xışıldayırdı.

Fominin dəstəsi xutordan qıraqda yürüşə düzülmüşdü. Qabağa göndərilmiş altı nəfər atlı böyük yolda keşik çəkirdi. Fomin atını Qriqorinin yanına sürüb gülümsəyərək dedi:

– Bu da mənim qoşunum! Belə uşaqlarla dünyanı dağıtmaq olar!

Qriqori dəstəyə göz gəzdirdi, qüssələnərək belə düşündü: "Sənin bu qoşunun bizim Budyonnı ordusundan mənə verilmiş eskadronla üz-üzə gəlsəydi, cəmisi yarımca saatın içərisində sizi xurd-xəşil elərdik!"

Fomin dəstəni qamçısı ilə göstərib soruşdu:

– Onların zahiri görkəmi necədir?

– Əsirləri pis qılınclamırlar, meyitləri də pis lütləmirlər, amma vuruşmada nə cürdürlər, bilmirəm, – deyə Qriqori soyuqca cavab verdi.

Fomin yəhərin üstündə kürəyini yel əsən tərəfə çevirib papirosunu yandırdı, çəkdi və dedi:

– Onları vuruşma zamanı da görərsən. Mənim adamlarımın çoxu orduda qulluq eləmişlərdir, bələləri adamı darda qoymaz.

Patron və ərzaq doldurulmuş altı cütatlı araba dəstənin ortasında idi. Fomin atını qabağa sürdü, hərəkət komandası verdi. Təpəyə çatanda o atını yenə Qriqorinin yanına sürüb soruşdu:

– Hə, verdiyim at necədir?

– Yaxşı atdır.

Onlar uzun zaman atlarını kirimişcə yanaşı, üzəngi-üzəngiyə sürdülər, sonra Qriqori soruşdu:

– Tatarskiyə getmək fikrin varmı?

– Qohumlarından ötrü darıxırsan?

– Onlara baş çəkmək istərdim.

– Bəlkə də gedəcəyik. Bu saat üzümü Çir tərəfə çevirmək istəyirəm, kazakları silkələmək, bir qədər hərəkətə gətirmək lazımdır.

Lakin kazaklar o qədər də həvəslə "hərəkətə gəlmirdilər"... Yaxın bir neçə gündə Qriqori buna əmin oldu. Fomin bir xutor və ya stanitsanı ələ keçirən kimi, vətəndaşların yığıncağa çağırılmalarını əmr edirdi. Çox vaxt o özü danışır, bəzən də onun yerinə Kaparin çıxış edirdi. Onlar kazakları silaha sarılmağa çağırır, "Sovet hakimiyyətinin əkinçiləri ağır vəziyyətə salmasından" danışır, "Sovet hakimiyyəti yıxılmasa, bu işlərin axırda mütləq tamamilə xarabazarlıqla nəticələnəcəyini" bildirirdilər. Fomin Kaparin kimi sahmanlı və səlis danışa bilməsə də, daha ətraflı və kazakların başa düşəcəyi sadə dildə danışırdı. O adəti üzrə həmişə nitqini əzbərləmiş olduğu belə bir cümlə ilə bitirirdi: "Biz bu gündən sizi ərzaq sapalağından azad edirik. Daha taxıl təhvili məntəqələrinə taxıl aparmayın. Müftəxor kommunistləri yedirtdiyiniz yetər. Onlar sizin müftə çörəyinizi yeməkdən piylənibələr, lakin belə ağalığa son qoyulmalıdır. Siz, azad adamlarsınız. Silahlanın və bizim hakimiyyətimizə kömək edin! Ura, kazaklar!"

Kazaklar başlarını yerə dikir və kefsiz-kefsiz susurdular, amma arvadlar dillərini arşın yarım çıxardırdılar. Onların sıx sıraları arasından tənəli suallar və çığırtılar yüksəlirdi:

– Sənin hakimiyyətin yaxşıdır, amma de görək bizə sabun gətirmisənmi?

– Sənin bu hakimiyyətin haradadır, qancıq, qayışında?

– Bəs siz özünüz kimin çörəyini yeyirsiniz?

– Deyəsən, indi siz də həyətləri gəzib qarnınızı doydurmaq üçün vurnuxacaqsınız, eləmi?

– Əllərində qılınc var. Sorğusuz-sualsız toyuqların başlarını kəsməyə başlayacaqlar!

– Necə yəni taxıl aparmayın! Siz bu gün buradasınız, sabah ilim-ilim itəcəksiniz, bəs biz hökumətə nə cavab verəcəyik!

– Ərlərimizi sizə vermərik. Gedin, özünüz vuruşun!

Neçə ildən bəri davam edən müharibə dövründə hər şey görmüş, təzə müharibə başlanacağından ehtiyat eləyən, şaşqınlıq dərəcəsinə varan bir inadla ərlərinin ətəyindən bərk-bərk yapışmış qadınlar, çox qəzəblə başqa sözlər də deyirdilər.

Fomin onların mənasız çığırtılarını soyuqqanlılıqla dinləyirdi. O, bu qışqırtıların dəyərini bilirdi. Sakitlik düşməsini gözləyib kazaklara üz tuturdu; kazaklar da ona müxtəsərcə və düşüncəli surətdə belə cavab verirdilər:

– Bizi sıxışdırmayın, yoldaş Fomin, dava elədiyimiz kifayətdir. Bəxtimizi sınadıq, on doqquzuncu ildə üsyan qaldırdıq!

– Üsyan etməyə nə bir səbəb var, nə də üsyan eləməyə əlimizdə bir şey! Hələlik buna ehtiyac yoxdur.

– Vaxt gəlib çatıb, müharibə eləmək yox, taxıl əkmək lazımdır.

Bir dəfə dal cərgələrdən kim isə qışqırdı:

– İndi çox şirin-şirin danışırsan! Bəs biz on doqquzuncu ildə üsyan qaldıranda sən harada idin? Gec ayılmısan, Fomin!

Qriqori gördü ki, Fomin bərk tutuldu, rəng alıb, rəng verdi, lakin yenə də özünü saxladı, suala cavab vermədi.

Birinci həftə ərzində Fomin yığıncaqlarda kazakların etirazlarını, onun çıxışına kömək eləməkdən müxtəsərcə boyun qaçırmalarını ümumiyyətlə çox sakitcə qarşılayırdı; hətta arvadların çığırtı və söyüşləri də onu hövsələdən çıxara bilmirdi. O, bığaltı gülümsəyərək, ürəyində inamla deyirdi: "Eybi yoxdur, biz onların inadını qırarıq!" Lakin kazak əhalisinin əsas kütlələrinin ona pis münasibət bəslədiklərini yəqin etdikdən sonra, yığıncaqlarda çıxış edənlərə qarşı münasibətini kəskin surətdə dəyişdi. O bundan sonra daha atdan düşmür, yəhərin üstündə danışır, camaatı dilə tutmaqdan daha çox hədələyirdi. Bununla belə nəticə yenə də eyni olurdu:

onun arxalandığı kazaklar nitqi kirimişcə dinləyir və yenə də kirimişcə evlərinə dağılırdılar.

Xutorlardan birində onun nitqindən sonra cavab nitqi söyləmək üçün bir kazak qadını söz aldı. Bu ucaboy, kök və sümükləri iri qadın danışanda səsi kişi səsi kimi çıxır, qollarını da kişi kimi oynadırdı. Onun enli, çiçək naxoşluğundan çopurlaşmış sifətində qəzəb dolu bir qətiyyət vardı; iri və sallaq dodaqları daim nifrətli təbəssümlə əyilirdi. O, qırmızı və şişkin əli ilə yəhərin üstündə daş kimi hərəkətsiz duran Fomini göstərib tənəli sözlər yağdırırdı:

– Sən niyə burada camaat arasına fitnə-fəsad salırsan? Sən bizim kazakları haraya itələmək, hansı quyuya salmaq istəyirsən? Bu lənətə gəlmiş müharibə məgər az arvadları dul qoymuşdur? Az uşaq yetim qalmışdır? Sən də bizim başımıza yeni fəlakətlər açmaq istəyirsən? Axı bu Rubejin xutorundan törəmiş xilaskar padşah kimdir, nəçidir? Yaxşı olardı ki, sən əvvəl öz ev-eşiyini səliqəyə salıb, sonra bizi öyrədəydin ki, necə yaşamaq lazımdır, hansı hakimiyyəti qəbul etmək, hansını rədd etmək lazımdır! Dürüst öyrənmişik ki, sənin öz evində arvadın heyvan kimi işləyir! Amma sən bığlarını şeşələyib, at belində dünyanı gəzir, camaat arasına şuluqluq salırsan. Sənin öz təsərrüfatın bərbad haldadır, külək daxmana dayaq durmasaydı, indi çoxdan uçub dağılmışdı. Müəllimə bir bax! Niyə səsini çıxarmırsan, ay kürən lotu, yoxsa mən yalan deyirəm?

İzdiham yavaşca gülüşdü. Gülüş yel kimi əsdi və o dəqiqə kəsildi. Fominin yəhərin qaşına söykənmiş sol əli atın cilovunu aramla dəstələdi, qəzəbini boğmaqdan sifəti qapqara oldu, lakin o dinmir, bu çətin vəziyyətdən çıxa bilmək üçün fikirləşir, tutarlı söz axtarırdı.

Özündən çıxmış dul arvad inadla sözlərinə davam edirdi:

– Sənin hakimiyyətin nə cür şeydir ki, camaatı ona kömək durmağa çağırırsan?

Arvad əllərini belinə vurub enli sağrıları yırğalana-yırğalana aramla Fominin üstünə yeridi. Kazaklar təbəssümlərini gizləyərək, gülümsəyən gözlərini kənara çevirərək, ona yol verirdilər. Adamlar indicə burada rəqs edəcəklərmiş kimi yer açır, kənara çəkilir, bir-birini itələyirdilər...

– Sənin hakimiyyətin sənsiz yaşamaz, – deyə arvad danışırdı: – Bu hakimiyyət sənin ardınca sürünür və heç yerdə bir saatdan

artıq yaşamır! "Bu gün at belində gəzənəm, sabah kəlləmayallaq yerə gedənəm!" – bax sən də beləsən, sənin hakimiyyətin də.

Fomin var gücü ilə atı mahmızladı, izdihamın üstünə sürdü. Camaat yerindən oynadı, hərə bir yana qaçdı. Geniş dairə içərisində təkcə dul arvad qaldı. O, çox bərkdən-boşdan çıxmış adam idi, buna görə də Fominin dişləri çərələmiş atına da, at belindəki adamın qəzəbdən ağarmış sifətinə də sakitcə baxırdı.

Fomin atını onun üstünə sürərək qamçısını qaldırdı:

– Kəs səsini, çopur qəhbə!.. Burada nə təbliğat aparırsan?

Qorxu bilməyən arvad geriyə dartınan, dişləri çərələn atın çənəsinin altında dayanmışdı. Atın ağzındakı gəmin arasından bir lomba açıq yaşıl köpük qopdu, arvadın başındakı qara şalın üstünə, oradan da yanağına düşdü. Arvad əli ilə köpüyü silib atdı, bir addım geri çəkildi.

Qeyzindən parıldayan girdə gözlərini Fominin üzünə zilləyib qışqırdı:

– Sən danışa bilərsən, biz yox?

Fomin onu vurmadı. Qamçını havada silkələyərək, gücü gəldikcə bağırdı:

– Bolşevik azarı! Bu saat mən səni ağıllandıraram! Əmr verərəm tumanını tərsinə çevirib sünbə ilə döyərlər, o dəqiqə ağıllanarsan!

Dul arvad iki addım daha geriyə çəkildi, birdən-birə dalını Fominə çevirdi, aşağı əyildi, yubkasını qaldırdı.

– Bunu görmüsən? – deyə çox cəld qəddini düzəltdi, üzünü yenə Fominə çevirdi: – Məni vurursan? Məni döydürürsən?! Get hələ qanqal otlamağına!..

Fomin sonsuz bir nifrətlə tüpürdü, cilovu dartdı, geri çəkilən atın başını saxladı.

– Balağını aşağı sal, ay ərəmik madyan! Sağrılarının ətli olması ilə öyünürsən? – deyə ucadan səsləndi, atın başını yana çevirdi, özünü ciddi saxlamağa çalışdısa da mümkün olmadı.

İzdiham içərisində boğuq gülüşmə eşidildi. Fominçilərdən biri öz komandirini rüsvayçılıqdan qurtarmaq niyyəti ilə özünü dul arvada yetirdi, tüfənginin qundağını onun təpəsinə vurmaq istədi, lakin ondan iki dəfə hündür bir zorba vücudlu kazak enli çiyinlərini qabağa verərək araya girdi, sakitcə, amma təsirli bir səslə dedi:

– Dinc dur!

Xutor adamlarından üç nəfəri də yaxına gəldi və dul arvadı geriyə çəkdi. Bunlardan birisi, telli cavan oğlan, yaşca fominçiyə dedi:

– Nə qolaylanırsan, hə? Arvadı vurmaq o qədər də çətin iş deyil; sən kişisənsə qoçaqlığını, bax, o təpənin başında göstər, bizim hamımız həyətlərin arasında həmişə igid oluruq...

Fomin atını yavaşca çəpərə tərəf sürdü, üzəngiyə qalxdı. Yavaş-yavaş evlərinə dağılışan camaata üz tutaraq qışqırdı:

– Kazaklar! Bir yaxşıca fikirləşin! İndi sizi xoşla dəvət edirik, bir həftədən sonra qayıdacağıq, onda ayrı cür danışacağıq!

Onun nədənsə kefi kök idi, gülə-gülə, bir yerdə durub oynaqlayan atının başını çəkərək bağırdı:

– Biz qorxan adamlardan deyilik. Bizi bu cür arvad hoqqabazlıqları ilə... – bunun ardınca bir neçə ədəbdən kənar söz dedi, – qorxuda bilməzsiniz! Biz çopur arvadlar da görmüşük, başqa cürələrini də! Qayıdıb gələcəyik, sizlərdən heç kəs könüllü surətdə bizim dəstəyə yazılmasa, cavan kazakların hamısını zorla səfərbərliyə alacağıq! Bunu yaxşıca bilin! Sizin nazınızla oynamağa, çəm-xəm eləməyə vaxtımız yoxdur!

Bir dəqiqəliyinə dayanmış izdiham içərisində gülüşmə və qızğın danışıq səsləri eşidildi. Yenə də gülümsəməsinə davam edən Fomin komanda verdi:

– At-la-a-ra!..

Gülmək istəyən, amma özünü saxladığı üçün pörtmüş Qriqori atını öz vzvodunun yanına sürdü.

Fominin palçıqlı yol ilə uzanıb gedən dəstəsi təpənin başına qalxdı, qonaqsevməz xutor artıq geridə qaldı, amma Qriqori hələ də arabir gülümsünür və fikirləşirdi: "Biz kazaklar, yaxşı ki, kefindən qalmayan adamlarıq. Bizə zarafat qəm-qüssədən daha çox qonaq gəlir, Allah göstərməsin, hər şey ciddi bir istiqamət alsaydı, belə yaşayışdan can qurtarmaq üçün adamlar çoxdan özünü asmışdı!" Şən əhvali-ruhiyyə uzun zaman onu tərk etmədi; yalnız dincəlmək üçün düşərgədə durduqları zaman təşvişi və qüssəsi artdı: fikirləşdi ki, kazakları, deyəsən, üsyana cəlb etmək mümkün olmayacaqdır, Fominin işlərinin axırı yoxdur.

XIII

Yaz gəlirdi. Günəş ətrafı həmişəkindən bərk qızdırırdı. Təpələrin güneylərində qar əriyir, bildirki otların çürüntüsündən saralmış torpaq günorta vaxtı yerdən qalxan yasəməni şəffaf bir duman içində olurdu. Qayalarda, təpələrdə gilli torpağın içində qalmış iri daşların altında qarağanların ilk iti və tünd yaşıl cücərtiləri görsənməkdə idi. Şumlanmış yerlər açılmışdı. Dolaşalar, bu vaxtadək işləməyən qış yollarından xırmanlara, su altında qalmış payızlıq taxıl əkinlərinə köçmüşdülər. Dərələrdə, ətəklərdə qalmış qar gömgöy idi, tamam sulanmışdı; həmin yerlərdən hələ də soyuq gəlirdi, lakin yarğanlarda qarın altında gözlə görünməyən çeşmələr artıq zərif və ahəngdar bir səslə şırıldayırdı; meşənin kənarlarında qovaqların gövdələri bahar libası geyməyə başlayırdı.

Kəndlərdə işin qızğın vaxtı yaxınlaşır, Fominin quldur dəstəsi gündən-günə azalırdı. Gecə yatırdılar, səhər yuxudan duranda bir-iki adam yoxa çıxırdı; bir gün isə az qala vzvodun yarısı qaçıb gizləndi: səkkiz atlı atları ilə, silahları ilə Veşenskaya stanitsasına təslim olmağa getmişdi. Gedib yer şumlamaq, taxıl əkmək lazım idi. Torpaq adamları çağırır, işə həvəsləndirirdi; buna görə də fominçilərdən bir çoxu mübarizənin faydasız olduğunu yəqin edib, xəlvətcə dəstədən uzaqlaşır, çıxıb evinə gedirdi. Dəstədə yalnız evinə qayıda bilməyənlər, Sovet hakimiyyəti qarşısında günahı ifrat çox olub, bağışlanmağa ümidi olmayanlar, zalımlar qalırdı.

Aprel ayının əvvəllərində Fominin dəstəsində cəmisi 86 nəfər atlı qalmışdı. Qriqori də dəstədə qalmışdı. Evlərinə getməkdən ehtiyat edirdi. O, buna möhkəm əmin idi ki, Fominin niyyəti bir nəticə verməyəcəkdir, gec-tez bu quldur dəstəsini darmadağın edəcəklər. O yaxşı bilirdi ki, Qızıl Ordunun döyüşən süvari hissələrindən biri ilə üz-üzə gəldikdə bu quldur dəstəsini möhkəmcə əzişdirəcəklər. Bununla belə yenə də Fominin əlaltısı oldu; öz aləmində yay girənə qədər birtəhər baş girləmək, dəstədəki ən yaxşı atlardan ikisini götürmək, birbaş Tatarskiyə getmək, oradan Aksinyanı da ata mindirib cənuba getmək ümidində idi. Don düzləri genişdir, əngindir, insan ayağı dəyməyən yolları çoxdur; yayda isə bütün yollar açılır, adam harada istəsə orada sığınacaq tapa bilər... O, bu niyyətdə idi ki, bir

yerdə atları buraxar, Aksinya ilə birlikdə Kubana, dağların ətəklərinə gedər, doğma yerlərdən uzaqda olar, bu qarışıq zəmanədə orada yaşayar. Ona elə gəlirdi ki, başqa çıxış yolu yoxdur.

Fomin, Kaparinin məsləhəti ilə, buzlar əriməmiş Donun sol tərəfinə keçməyi qərara aldı. O, Xopersk mahalı hüdudunda, meşələri çox olan bir yerdə, zərurət məqamında təqiblərdən qaçıb gizlənmək ümidində idi.

Quldur dəstəsi Rıbnı xutorundan yuxarıda Donun o tayına keçdi. Çayın bəzi yerlərində, qıjovlarda buz artıq qopub suya qarışmışdı. Parlaq aprel günəşi altında çay suyu gümüşü balıqqulağı kimi parıldayırdı, lakin buzun səthindən bir arşın hündürdə olan, qışda adamların ayaqları altında tapdanmış yerlərdə Don hələ qaya kimi möhkəm idi. Suya girmək üçün açıq yerə çəpər döşədilər, atları bircə-bircə yedəkləyib apardılar, çayın o tayında sıraya düzüldülər və qabağa kəşfiyyatçı yollayıb, Yelanskaya stanitsası tərəfə getdilər.

Bir gün sonra Qriqori öz həmyerlisi təkgöz qoca Çumakova rast gəldi. Bu kişi Qryaznovsk xutoruna, qohumlarının yanına gedirdi, həmin xutorun yaxınlığında quldur dəstəsi ilə qabaqlaşdı. Qriqori qocanı yoldan kənara çəkib soruşdu: – Babacan, mənim uşaqlarım sağ-salamatdırmı?

– Onları Allah saxlayır, Qriqori Panteleviç, sağ-salamatdırlar.

– Səndən çox böyük bir xahişim var, babacan, uşaqlarıma, bacım Yevdokiya Panteleyevnaya məndən ərzi-ehtiram və salam yetir, Proxora da salam yetir, Aksinya Astaxovaya isə de ki, məni bu yaxınlarda gözləsin. Ancaq onlardan başqa heç kəsə məni gördüyünü demə, yaxşımı?

– Çatdıraram, bala, çatdıraram! Xatircəm ol, necə lazımdırsa, elə də eləyərəm.

– Xutorda nə var, nə yox?

– Heç nə yoxdur, hər şey köhnə qaydasındadır.

– Koşevoy yenə də sədrdirmi?

– Sədrdir.

– Mənim ailəmi incitmirlər ki?

– Bu barədə heç nə eşitməmişəm, deməli, ailənə toxunan yoxdur. Axı onları niyə də incitsinlər? Sənin işlərinə onlar cavabdeh deyillər ki...

– Xutorda mənim barəmdə nə deyirlər?

Qoca burnunu sildi, boynuna bağladığı qırmızı yaylığı ilə xeyli vaxt bığını-saqqalını sildi, sonra mütərəddid cavab verdi:

– Allah bilir... Hər kəsin ağzına nə gəlir, çərənləyir. Sovet hakimiyyəti ilə tezliklə barışarsınızmı?

Qriqori qocanın bu sualına nə cavab verə bilərdi? İrəliyə getmiş dəstə tərəfə dartınan atının başını saxladı, gülümsəyib dedi:

– Bilmirəm, baba. Hələ heç nə bilinmir.

– Necə yəni hələ heç nə bilinmir? Biz çərkəzlərlə dava elədik, türklərlə dava elədik, axırda yenə də barışıq oldu, amma siz hamınız öz məxluqumuz olduğunuz halda, necə olur ki, bir-birinizlə yola getmir, barışmırsınız... Bu heç yaxşı iş deyil, Qriqori Panteleviç, doğrudan yaxşı iş deyil! Mənim bu sözlərimi yadında saxla, Allahtəala rəhmlidir, hər şeyi görür, bu cəhətdən sizin günahlarınızdan keçməyəcəkdir! De görək, heç bu ağlabatan işdirmi: ruslar, xaçpərəstlər yapışıblar bir-birinin yaxasından, əl çəkmirlər. Hə, bir az dava eləyib qurtarsaydınız nə demək olardı, amma, budur, dördüncü ildir ki, dalaşırsınız. Bu qoca ağlımla mən bu nəticəyə gəlmişəm ki, davanı qurtarmaq lazımdır!

Qriqori qoca ilə vidalaşdı və vzvoduna çatmaq üçün atını dəhmərlədi. Çumakov əsasına söykənərək xeyli vaxt dayandı, içi boş gözündən süzülən yaşı qolu ilə sildi. O yeganə, lakin cavan adam gözü kimi iti görən gözünü Qriqorinin qaraltısına zillədi, onun yəhərdə igidcəsinə oturmasından həzz alıb kirimişcə pıçıldadı:

– Yaxşı kazakdır! Hər cəhətdən üstündür, şücaətdə də, görkəmdə də, amma azğındır... Yolunu yanılmışdır! Ona bu saat çərkəzlərlə vuruşmaq yaraşar, amma, gör o nə xəyallara düşübdür! Bir deyən yoxdur ki, hakimiyyət onun nəyinə gərəkdir? Qrişkanı sorğu-suala çəkməyin mənası yoxdur, onlar nəsillikcə azğındırlar... Onun rəhmətlik atası Panteley də ipə-sapa yatan kişi deyildi, Prokofi baba da yadımdadır... O da adam deyil, istiot kimi bir şey idi... Amma bu biri kazaklar nə fikirdədirlər, Allah mənə qənim olsun ki, əgər anlaya bilirəmsə!

Fomin xutorları tutduqca daha əvvəlki kimi yığıncaq keçirmirdi. O, təbliğatın faydasız olduğuna inanmışdı. Dəstəsinə yeni adam

cəlb etmək yox, dəstədə olanları bacarıb saxlaya bilmək indi onun ümdə işi olmuşdu. O, gözəçarpacaq dərəcədə qaşqabaqlı olmuşdu, həmişəkindən az danışırdı. Dərdini dağıtmaq üçün araq içməklə təsəlli tapırdı. Gecələmək məcburiyyətində qaldığı hər yerdə qan qaraldan içki məclisi düzəldilirdi. Öz atamanlarına baxaraq fominçilər də içirdilər. Nizam-intizam pozulmuşdu. Adamların soyğunçuluğu getdikcə artırdı. Quldur dəstəsinin yaxınlaşması ilə əlaqədar olaraq qaçıb hərəsi bir yanda gizlənmiş sovet qulluqçularının evində ələ keçən və at belində aparılması mümkün olan hər şeyi götürürdülər. Bir çox döyüşçülərin yəhər-heybələri görünməmiş dərəcədə şişmişdi. Qriqori öz vzvodundakı döyüşçülərdən birinin əl tikiş maşını götürdüyünü gördü. Döyüşçü cilovu yəhərin qaşına keçirtmiş, tikiş maşınını da sol qoltuğuna vurmuşdu. Qriqori kazakı əldə etdiyi qənimәti yalnız qamçı gücünə tullamağa vadar etdi. Həmin axşam Fomin ilə Qriqori arasında kəskin danışıq oldu. Onlar otaqda tək idilər. Sərxoşluqdan üz-gözü şişmiş Fomin stolun dalında oturmuşdu, Qriqori isə otaqda iri addımlarla gəzişirdi.

Fomin acıqlı-acıqlı dedi:

– Otur, gözümün qabağında dirək kimi durma.

Qriqori onun dediklərinə məhəl qoymadı, darısqal kazak daxmasında uzun zaman vurnuxduqdan sonra dedi:

– Fomin, mənim bu işlərdən zəhləm gedir! Soyğunçuluqla sərxoşluğa son qoy!

– Deyəsən, dünən gecə pis yuxular görmüsən, hə?

– Zarafata salma... Camaat bizim haqqımızda pis danışmağa başlamışdır!

Fomin könülsüz dedi:

– Sən özün görürsən ki, mən uşaqlarla heç nə edə bilmirəm.

– Onsuz da sən heç bir iş görmürsən!

– Bəsdir, sən mənə göstəriş vermə! Sənin dediyin camaat isə heç yaxşılıq bilən deyil. Biz bu it uşaqlarından ötəri əzab-əziyyət çəkirik, amma onlar... Mən indi ancaq özümü düşünürəm, yetər.

– Özün haqqında da pis düşünürsən. Sərxoşluqdan düşünməyə macal tapmırsan... Sən dördüncü gündür ki, ayılmırsan, o biriləri də içirlər. Pusquya göndərirlər, orada da gecələr içirlər. Bəs sənin istədiyin nədir? İstəyirsən ki, başımızın üstünü qəfil alsınlar, hamımızı kefli-kefli xutorlardan birində qılıncdan keçirsinlər?

Fomin gülümsündü:

– Sən elə bilirsən ki, başımıza belə iş gəlməyəcək? Bir gün öləcəyik. Su səhəngi suda sınar... Bunu bilirsənmi?

– Onda gəl, günü sabah birlikdə Veşenskayaya gedək, əllərimizi qaldırıb deyək: təslim oluruq, təhvil alın.

– Yox, hələ gəzəcəyik...

Qriqori stolun qabağında dayandı, ayaqlarını bir-birindən xeyli aralı qoydu. Sakitcə dedi:

– Əgər sən dəstədə nizam-intizam yaratmasan, bu soyğunçuluqla sərxoşluğa son qoymasan, mən səndən ayrılacağam, adamların yarısını da götürüb gedəcəyəm.

Fomin kəlməni uzada-uzada dedi:

– Hünərin var elə!

– Bu iş hünərsiz də baş tutar!

– Sən... Sən gəl məni hədələməkdən əl çək! – Fomin əlini naqanının qoburuna atdı.

Qriqorinin rəngi dümağ oldu, qılıncını yarıya qədər siyirdi, cəld dedi:

– Əlini qoburdan çək, yoxsa stolun bu tərəfindən qılıncım səni daha tez tutar.

Fomin əlini stolun üstünə qoydu, gülümsədi:

– Məndən nə istəyirsən? Onsuz da başım partlayır, sən də bir yandan başlamısan sarsaq söhbətə. Qılıncı qınına qoy! Səninlə zarafat eləmək də olmaz? Bir buna baxın, nə dəymə-düşərmiş! Elə bil on altı yaşında qızdır...

– Nə istədiyimi mən sənə artıq dedim, bunu qulağında yaxşı saxla. Bizim adamların hamısı sən olan xəyalda deyildirlər.

– Bilirəm.

– Bil, amma unutma! Sabah əmr et yəhərlərin tərkindəki dolu heybələr boşaldılsın. Bizim hissə – süvari hissədir, yük karvanı deyil. Bunu onlara qəti qadağan et! Xalqın tərəfində olanlara bax! Talan edilmiş şey-şüylə yüklənib xutorlarda keçmiş çərçilər kimi alver edirlər... Adam xəcalətindən yerə girir! Heç başa düşmürəm ki, mən nə qələt eləyib sizə qoşulmuşam? – Nifrət və hiddətdən dümağ olmuş Qriqori tüpürdü və üzünü pəncərəyə çevirdi.

Fomin gülüb dedi:

– Hələ bu vaxtadək bizi süvari qoşun əzişdirməmişdir... Qarnı tox cavan, dalından atlılar döşənib onu qovduqda, qaça-qaça yediyinin hamısını qaytarır. Mənim qoçaqlarım da belədirlər, bizi əməlli-başlı sıxışdırsalar, onlar yüklərini tamam atıb gedəcəklər! Eybi yoxdur, Melexov, darıxma, nə lazımdırsa edərəm! Mən bir az ruhdan düşdüyüm, adamları başlı-başına buraxdığım üçün belə oldu, lakin mən onların əl-ayağını yığışdıraram! Ayrılmaqdan danışma, biz ayrılmamalıyıq, axıra qədər dözməliyik.

Onlar söhbətlərini bitirə bilmədilər: ev sahibinin arvadı içəri girdi, bir kasa buğlanan şorba gətirdi, onun ardınca da Çumakov başda olmaqla bir dəstə kazak içəri doluşdu.

Söhbət müəyyən təsir göstərmişdi. Ertəsi gün səhər Fomin heybələrə doldurulmuş şeylərin boşaldılmasını əmr etdi, əmrin necə yerinə yetirildiyini özü yoxladı. Həyasız soyğunçulardan birini – heybələr yoxlanıldıqda müqavimət göstərən, talan etdiyi şeylərdən əl çəkməyən bir döyüşçünü, Fomin dəstədə sıraya düzüldüyü zaman naqandan atəş açaraq öldürdü.

– Bu cəmdəyi götürün! – deyə o sakitcə səsləndi və təpiyi ilə yerə sərilmiş meyiti göstərdi, sıraya göz gəzdirib bağırdı: – Sandıqlara dürtüldüyünüz yetər, köpək uşaqları! Mən sizi Sovet hakimiyyəti əleyhinə heç də bundan ötəri qaldırmamışam! Öldürdüyünüz düşmən meyitinin hər şeyini, iyrənməsəniz, hətta kirli tumanını da, soyundurun, amma onların ailələrinə toxunmağa haqqınız yoxdur! Biz qadınlarla dava etmirik. Kim buna əməl etməsə, onun da aqibəti bax belə olacaqdır!

Sıralarda yavaş bir hay-küy qalxdı, amma dərhal kəsildi.

Nizam-intizam bərpa edilmiş kimi görünürdü. Quldur dəstəsi Donun sol sahili boyunca at oynatdı, toqquşmalarda kiçik yerli özünümüdafiə dəstələrini məhv elədi.

Şumilinskaya stanitsasında Kaparin Voronej vilayəti ərazisinə girməyi təklif etdi. O təklifini belə əsaslandırırdı ki, orada, bu yaınlarda Sovet hakimiyyətinə qarşı üsyan qaldırmış ərazidə, əhali mütləq dəstəyə ətraflı yardım göstərəcəkdir. Lakin Fomin bu haqda kazaklara məlumat verən kimi, hamı bir səslə dedi: "Mahalımızdan qırağa çıxmayacağıq!" Dəstədə mitinq keçirməyə başladılar. Qərarı dəyişmək lazım gəldi. Kazanskaya stanitsasından bir süvari qrupu

quldur dəstəsini təqibə başlamışdı; həmin qrup dəstə ilə vuruşmaq istədisə də o yayındı, dayanmadan dörd gün gündoğan tərəfə getdi.

Çölün hər tərəfində yaz tarla işləri getdiyindən, hətta lap xəlvət bucaqlarda belə adam qaynaşdığından, dəstə izi azdıra bilmirdi. Ancaq gecələr yol gedirdilər, lakin səhər atları yemləmək üçün bir yerdə azacıq dayanan kimi, yaxında düşmənin atlı kəşfiyyat dəstəsi görünür, əl pulemyotu qısa qatarlarla atəş açır, fominçilər atışa-atışa tez-tələsik cilovları atların başına keçirdirdilər. Veşenskaya stanitsasının Melnikovo xutorundan o tərəfdə Fomin mahiranə dövrə hərəkəti ilə düşmənə kələk gəldi və ondan aralana bildi. Fomin öz kəşfiyyatçılarının əldə etdiyi məlumatdan bilirdi ki, dalınca gələn süvari dəstəsinin komandiri Yeqor Juravlyovdur; Bukanovskaya stanitsası sakini olan bu şəxs çox tərs və hərbi işi bilən kazak idi; bunu da bilirdi ki, həmin süvari qrupunda atlıların sayı Fominin quldur dəstəsindəkindən iki qat çoxdur, altı əl pulemyotu var, atları da uzunsürən səfərlərdən üzülməmişdi, harın və saz idi. Bütün bunlar Fomini vuruşmadan yayınmağa, adamlarına, atlarına dincəlmək imkanı yaratmağa vadar edirdi; sonra isə, əlinə fürsət düşən kimi, açıq vuruşma zamanı yox, qəfildən basqına keçməklə, atlı qrupunu əzişdirmək və onun təqibindən yaxasını qurtarmaq niyyətində idi. O, düşmən pulemyotlarını ələ keçirmək və çoxlu patron qənimət almaq xəyalında idi. Lakin onun hesablamaları düzgün çıxmadı. Qriqorinin çoxdan çəkindiyi hadisə aprelin on səkkizində Slaşşevskaya palıd meşəsinin kənarında baş verdi. Bir gün əvvəl Fomin də, sıravi döyüşçülərin əksəriyyəti də Sevastyanovsk xutorunda həddindən artıq içmiş, xutordan səhər açılanda yola düşmüşdülər. Gecə heç kəs yatmamışdı, buna görə də indi çox adam yəhərin üstündə yuxuya getmişdi. Səhər saat doqquzda Ojoqin xutoru yaxınlığında dincəlmək üçün dayandılar. Fomin qabağa pusqu qoydurdu və atlara vələmir verilməsini əmr etdi.

Şərqdən güclü yel əsirdi. Küləyin yerdən qaldırdığı qumlu toz dumanı üfüqü görünməz edirdi. Çölü qalın duman tutmuşdu. Küləkdən xeyli hündürə qalxmış çən-duman arasından günəş arabir boylanırdı. Yel əsdikcə şinellərin ətəyi, atların yalı və quyruğu yırğalanırdı. Atlar dalını külək tərəfə çevirir, meşədən qıraqda bitmiş seyrək yemişan kolları yanında sığınacaq axtarırdılar. Gözə

dürtülən qumlu toz adamların gözlərini yaşardır, lap yaxın məsafədə belə bir şey görmək olmurdu.

Qriqori atının burnunu və göz qapaqlarının üstünü qayğıkeşliklə sildi, torbasını başına keçirdi və atına şinelinin ətəyində yem verən Kaparinə yaxınlaşdı. Qriqori qamçısının ucu ilə meşəni göstərib dedi:

– Amma düşərgə üçün yaman da yer tapmısınız, ha!

Kaparin çiyinlərini çəkdi:

– Mən bunu o axmağa dedim, amma onu bir şeyə inandırmaq məgər mümkündür?

– Düşərgə ya çöldə, ya da bir xutorun kənarında olmalı idi.

– Siz elə güman edirsiniz ki, meşə tərəfdən üstümüzə hücum edə bilərlər?

– Bəli.

– Düşmən uzaqdadır.

– Düşmən yaxında da ola bilər; onlar piyada deyillər.

– Meşədə yarpaq yoxdur. Bir şey olsa biz onları görərik.

– Bunu güdmək üçün adam yoxdur, hamı yatmışdır. Hələ bundan qorxuram ki, keşikçilər də yatmış ola.

– Dünənki sərxoşluqdan sonra onlar ayaq üstdə dura bilmirlər, onları indi heç kəs ayılda bilməz. – Kaparin bir yeri ağrıyan adam kimi üz-gözünü qırışdırdı, astadan dedi: – Belə rəhbərlə axırda biz məhv olacağıq. Onun başı probka kimi boşdur, özü də axmaqdır, elə səfehdir ki, beləsi dünyada tapılmaz! Dəstənin komandirliyini niyə öz öhdənizə götürmək istəmirsiniz! Kazaklar sizə hörmət edirlər. Onlar həvəslə sizin ardınızca gedərlər.

– Belə şeylər mənə lazım deyil, mən sizin yanınızda müvəqqəti qonağam, – deyə Qriqori könülsüz cavab verdi və atının yanına gəldikdə dilindən söz qaçırtdığına, ehtiyatsızlıq edib gedəcəyini etiraf etməsinə təəssüfləndi.

Kaparin şinelinin ətəyində qalmış dənin qalığını yerə töküb, Qriqorinin dalınca getdi.

– Bilirsinizmi nə var, Melexov, – o yeriyə-yeriyə bir yemişan budağı qopartdı, şişkin tumurcuqlarını didə-didə dedi, – mənə belə gəlir ki, biz iri antisovet hissələrdən birinə qoşulmasaq, məsələn, vilayətin cənubunda harada isə gəzişən Maslakın briqadasına daxil olmasaq, burada uzun zaman vuruşmaya davam gətirə bilməyəcə-

yik. Dediyim tərəfə biz özümüzə yol açmalıyıq, əks halda bizi günlərin bir günündə burada məhv edəcəklər.

– İndi sular daşmışdır. Donu keçmək olmaz.

– İndi yox, sular azalanda çıxıb getmək lazımdır. Siz başqa fikirdəsiniz?

Qriqori bir az fikrə getdikdən sonra cavab verdi:

– Doğrudur. Buradan uzaqlaşmaq lazımdır. Bizim burada işimiz yoxdur.

Kaparinin kefi açıldı. O, müfəssəl danışmağa başladı ki, kazakların dəstəyə kömək duracağına bəslənən ümidlər puça çıxmışdır, indi Fomini hər vasitə ilə buna inandırmaq lazımdır ki, mahalda hədər yerə vurnuxmamalı, cəsarətlə özündən güclü bir qoşun hissəsinə qoşulmalıdır.

Onun çərənləməsindən Qriqori dəng oldu. Qriqori diqqətlə ata baxırdı; at torbanın içini boşaldan kimi, Qriqori torbanı onun başından çıxartdı, cilovunu başına keçirdi və tapqırlarını bərkitdi.

Kaparin ona dedi:

– Siz nahaq yerə tələsirsiniz, bu tezliklə yola düşməyəcəyik.

Qriqori ona belə cavab verdi:

– Yaxşı olar ki, gedib atınızı hazır saxlayasınız, çünki sonra birdən yəhərləməyə macal tapmazsınız.

Kaparin diqqətlə onun üzünə baxdı, arabalar duran yerdə dayanmış atının yanına gəldi.

Qriqori atını yedəkləyərək, Fominə yaxınlaşdı. Fomin altına salınmış yapıncı üzərində ayaqlarını bir-birindən xeyli aralamışdı, bişmiş toyuğun budunu tənbəlcəsinə gəmirirdi. O bir az geri çəkildi, işarə ilə yanında yer göstərib dedi:

– Gəl nahar edək.

Qriqori dedi:

– Nahar eləmək yox, buradan getmək lazımdır.

– Atları doyunca yemləyək, sonra tərpənək.

– Atları sonra da doydurmaq olar.

– Bu nədir, nə yaman vahimələnirsən? – Fomin sümüyü kənara tulladı, əllərini yapıncısı ilə sildi.

– Bizi burada mühasirəyə ala bilərlər. Yer münasibdir.

– Kim bizi mühasirəyə ala bilər? Kəşfiyyatçılar bu saat qayıdıb gəldilər, dedilər ki, təpə bomboşdur. Bu da o deməkdir ki, Juravlyov

bizi gözündən qaçırtmışdır, yoxsa indi quyruğumuzu basdalayırdı. Bukanovskayadan gələsi adam yoxdur. Oranın hərbi komissarı Mixey Pavlovdur, döyüşkən oğlandır, amma gücü azdır; inanma bizim qabağımızı kəsməyə gələr. Əməlli-başlı dincələrik, külək bir az yatar, sonra Slaşevskaya tərəfə gedərik. Otur, toyuq əti ye, başımın üstünü niyə kəsmisən? Melexov, nədənsə sən qorxaq olmusan, çox çəkməz bütün kolları yoxlamağa çıxarsan, onda gör nə böyük dövrə vurmalı olacaqsan! – Fomin əlini gendən hərləyib dediyi dövrəni göstərdi və qəhqəhə çəkdi.

Qriqori ürəyində Fomini bərk söydü, kənara çəkildi, atını kola bağladı, onun yanında yerə uzandı və külək döyməsin deyə şinelinin ətəyi ilə üzünü örtdü. O, küləyin vıyıltısı altında, onun üstünə əyilmiş hündür quru otun zəif xışıltısı altında mürgülədi.

Pulemyotdan açılan sürəkli atəş onu dik atılmağa vadar etdi. Pulemyot bir qatar patronu hələ atıb qurtarmamış Qriqori atını koldan açdı. Fomin hamının səsini batıran bir çığırtı ilə komanda verdi: "Atlara minin!" Sağ tərəfdən, meşədən iki və ya üç pulemyot da atəş açmağa başladı. Qriqori at belinə qalxan kimi vəziyyəti müəyyənləşdirdi. Sağda, meşənin qırağında toz arasından güclə seçilən əlli nəfərə qədər qızıl əsgər sel kimi axışıb gəlir, təpəyə tərəf yolu kəsir, hücuma keçirdi. Onların başları üzərində qaldırdıqları qılınclar tutqun günəş işığında göyümsov görünür, soyuq və tanış bir şəkildə işıldayırdı. Pulemyotlar düz meşənin içindən, kolkos içindəki dikdən qızğın atəş açır, qatarları bir-birinin ardınca boşaldırdı. Mühasirə həlqəsini daraltmaq məqsədi ilə getdikcə yayılaraq, yarım eskadrona qədər qızıl əsgər də qılınclarını oynada-oynada, amma səssizcə sol tərəfdən irəliləyirdi. Bu vəziyyətdən yalnız bircə çıxış yolu qalmışdı: sol tərəfdən hücuma keçənlərin seyrək sıralarını yarıb aradan çıxmaq və Dona doğru getmək. Qriqori Fominə qışqırdı: "Ardımca gəl!" Bunu deyib qılıncını siyirdi, atın başını buraxdı.

Qriqori atını iyirmi sajın qədər səyirdib dala baxdı. Fomin, Kaparin, Çumakov və bir neçə döyüşçü atlarını dördnala onun dalınca sürürdülər, arada vur-tut on sajın məsafə var idi. Meşədən atəş açan pulemyotlar səsini kəsdi, yalnız lap sağdakı pulemyot arabaların yanında çaxnaşmaya düşmüş fominçilərə atəş açırdı.

Lakin sonuncu pulemyot da dərhal susdu; Qriqori o saat başa düşdü ki, qızıl əsgərlər artıq düşərgədədirlər, orada qılıncla qırğın başlanmışdır. O, bunu adamların boğuq çığırtısından, fasilələrlə və özünü müdafiə edənlərin seyrək atəş açmasından başa düşürdü. Dönüb geriyə baxmağa vaxt yox idi. Qarşıdan sel kimi axıb gələn düşmən qüvvəsinə yaxınlaşmaqda olan Qriqori qılınc çalmaq üçün hədəf seçdi. Aşılanmış dəridən gödək kürk geyinmiş bir qızıl əsgər atını onun üstünə çapırdı. Qızıl əsgər boz, amma çox da qıvraq olmayan bir at minmişdi. Qriqori şimşək kimi bir göz qırpımında hər şeyi: sinəbəndinin ağ ulduzu üzərinə köpük saçalanmış atı da, istidən üzü pörtmüş, qızarmış, sifətdən cavan atlını da, ondan o yanda bir ucu Dona dirənən geniş dumanlı işıltısı görünən çölü də gördü... Bir an keçdikdən sonra zərbədən yayınmaq və sonra qılınc çalmaq məqamı idi. Qriqori atlıya beş sajın qalanda sərt bir hərəkətlə sola buruldu, başı üzərində qılıncın nəyi isə kəsən xırçıltısını eşitdi və bir anda yəhərdə yerini rahatlayıb, yanından ötmüş qızıl əsgərin kəlləsinə yalnız qılıncının ucunu ilişdirə bildi. Qriqorinin qolu zərbə gücünü demək olar ki, hiss etmədi, amma qayıdıb dala baxanda gördü ki, qızıl əsgər yana doğru əyilir, yəhərdən yavaş-yavaş aşır, sarı gödək kürkünün kürəyindən qatı qan axır. Boz at yerişini itirmişdi, başını dəhşətlə yuxarıya qaldıraraq, öz kölgəsindən ürkürmüş kimi, bərk yortmağa başlamışdı.

Qriqori atın boynuna yatdı, vərdiş etdiyi bir hərəkətlə qılıncını endirdi. Onun başı üzərində güllələr kəskin vıyıltı ilə süzürdü. Atın bərk qırpınmış qulaqları uçunurdu, uclarından muncuq kimi tər süzülürdü. Qriqori yalnız onun dalınca yağdırılan güllələrin vıyıltısını, bir də atın təngiyə-təngiyə nəfəs aldığını eşidirdi. Bir də dönüb dala baxanda gördü ki, Fomin də gəlir, Çumakov da, Kaparin onlardan dalda qalmışdı, əlli sajın geridən gəlirdi; bir az da geridə yalnız bircə adam – ikinci vzvod döyüşçüsü topal Sterlyadnikov üstünə düşmüş iki qızıl əsgərlə atışa-atışa qaçırdı. Fominin dalınca gələn səkkiz və ya doqquz döyüşçünün hamısını doğramışdılar. Miniksiz qalmış atlar, quyruqlarını bellərinə qaldırıb hərəsi bir yana qaçır, qızıl əsgərlər onları qomarlayıb tuturdular. Yalnız hündür bir kəhər at – fominçi Pribıtkovun atı, Kaparinin atı ilə yanaşı qaçır, fırçıldayır, yıxılanda ayağını üzəngidən çıxarda bilməyən sahibinin meyitini də özü ilə sürütləyib gedirdi.

Qumsal təpə ardında Qriqori atın başını çəkdi, yəhərdən yerə hoppandı, qılıncını qınına qoydu. Atı yerə yatırtmaq üçün bir neçə saniyə əlləşməli oldu. Qriqori onu bu adi hərəkətə bircə həftədə alışdırmışdı. O atın dalına girərək, bir daraq patron atdı, lakin hədəfi tuşladıqda tələsdiyinə, həyəcanlandığına görə, axırda atdığı güllə ilə bir qızıl əsgərin altındakı atı aşırdı. Bu da fominçilərdən beşincisinə təqibdən canını qurtarmağa imkan yaratdı.

Fomin Qriqorinin bərabərinə çatanda qışqırdı:

– Atını min! Yoxsa məhv olarsan!

Dəstə tamam tar-mar edilmişdi. Cəmisi beşcə adam salamat qalmışdı. Onları Antonovsk xutoruna qədər izlədilər, bu beş adam xutoru əhatə etmiş meşəyə girəndən sonra, təqib dayandırıldı.

Qaçaqaç vaxtı bu beş nəfərdən heç biri bir kəlmə də danışmamışdı.

Bir balaca çaya çatanda Kaparinin atı yıxıldı, onu bir daha qaldırmaq mümkün olmadı. O birilərinin bərk qovulmuş atları büdrəyir, ayaqlarını güclə atırdılar; yerə parça-parça qatı, ağ köpük tökülürdü.

Qriqori atdan düşəndə Fominin üzünə baxmadan dedi:

– Sənə dəstə komandirliyi yox, qoyun otarmaq yaraşır!

Fomin səsini çıxartmadı, kirimişcə atdan düşüb yəhərini almaq istədi, amma bir tərəfə çəkildi, at yəhərli qaldı; qıjı otu ilə dolu bir dikin üstündə əyləşdi. O, ətrafına qorxa-qorxa döyükərək dedi:

– Çarə yoxdur, atları buraxmaq lazımdır.

– Sonra nə edəcəyik? – deyə Çumakov soruşdu.

– Sonra çayın o tayına piyada keçmək lazımdır.

– Hara?

– Gecə düşənə qədər burada meşədə qalıb, sonra Dondan keçərik və hələlik Rubejin xutorunda gizlənərik, orada mənim qohumlarım çoxdur.

Kaparin qəzəblə səsləndi:

– Növbəti sərsəmlik! Sən elə zənn edirsən ki, orada səni axtarmayacaqlar? İndi məhz səni öz xutorunda gözləyəcəklər! Başa düşmürəm, sən haranla fikirləşirsən?

Özünü itirmiş Fomin soruşdu:

– Hə, de görək, bəs hara gedək?

Qriqori yəhərin yan heybəsindən patronları boşaltdı, bir parça çörək çıxartdı, dedi:

– Siz bir-birinizlə çoxmu dalaşacaqsınız? Getdik! Atların hərəsini bir yerə bağlayın, yəhərlərini götürün, tərpənin, yoxsa bizi lap burada diri tutacaqlar.

Çumakov qamçını yerə tulladı, tapdaladı, palçığın içinə soxdu, titrək bir səslə dedi:

– Bəli, bu gündən biz olduq piyada... Yoldaşlarımızın hamısı məhv edildi... İlahi, bizi necə tar-mar elədilər! Mən bu gün salamat qalacağıma ümid etmirdim... Əcəl başımın üstünü yamanca almışdı...

Hamısı dinməzcə atların yəhərini aldı, dördünü də bir qızılağaca bağladılar. Hərəsi qoltuğuna bir yəhər vurdu, mümkün qədər fısıqlıq yerlə getdilər, canavarsayağı eyni cığırla bir-birinin ardınca Dona endilər.

XIV

Yazda, çay daşan, sel suları bütün biçənəkləri bürüyən zaman Rubejin xutorunun qarşısında, sağ sahilə nisbətən hündür olan sol sahildə kiçik bir sahə quru qalırdı.

Sıx bədmüşk, palıd ağacları, tünd göy və şaxlı-budaqlı qaraağaclıq olan bu ada, yazda, daşqın zamanı, Don vadisindəki təpələrdən baxanda, lap uzaqlardan görünürdü.

Yayda burada yabanı mayaotu düz ağacların zirvəsinə qədər dırmaşır, aşağıda isə içərisinə girmək mümkün olmayan qalın böyürtkən kolları yerə yayılır, açıq mavi sarmaşıqlar kolların boynuna dolanır, qıvrım-qıvrım hörüklər əmələ gətirir, şirəli torpaqdan qidalanmış, fısqırıb qalxmış otlar seyrək talalarda adam boyundan hündürə qalxırdı.

Yayda, hətta günorta çağlarında belə, meşə sakit, qaranlıq və sərin olurdu. Orada sükutu yalnız sarıköynək pozur, bir də ququ quşları bir-birinə macal vermədən ötürdülər. Qışda isə meşə bomboş, çılpaq olur, elə bil məzar sükutu çökürdü. Ağımsov qış səmasında ağacların lüt başı qapqara olurdu. Etibarlı sığınacaq kimi talaya yalnız canavar balaları gələr, burada neçə günlərlə qar altında qalmış alaqların üstündə yanlarını yerə verərək dincələrdilər.

Fomin, Qriqori Melexov və quldur dəstəsindən salamat qalmış başqaları həmin adada məskən saldılar. Onların güzəranı yaxşı keçmirdi: Fominin əmisi oğlunun gecələr qayıqla buraya gətirdiyi az miqdarda xörəklə keçinir, qarınları doyuncaya qədər çörək-xörək yeyə bilmirdilər, amma başlarını yəhər döşəkçələrinə söykəyərək istədikləri qədər yatırdılar. Gecələr növbə ilə keşik çəkirdilər. Birisinin onların yerlərini müşahidə edə biləcəyindən ehtiyat etdikləri üçün ocaq qalamırdılar.

Sel suları adanın dövrəsini yuyaraq sürətlə cənuba axırdı. Sular cərgəyə düzülüb onun yolunda durmuş qoca qovaq ağacları arasından qıjıltı ilə keçir, altda qalmış kolların başlarından aşdığı yerdə isə ahəngdar bir şəkildə, sakitcə axır, elə bil şırıltısı ilə layla çalırdı.

Qriqori tezliklə suların yaxın və aramsız qıjıltısına öyrəşdi. O, sərt sıldırımlı sahildə uzun zaman yerə uzanaraq, suların ucsuz-bucaqsız ənginliklərinə, Don vadisində yaşəməni günəş nuruna qərq olmuş təpələrin ağaran yamaclarına tamaşa edirdi. Doğma xutoru, Aksinya və uşaqları bu nurun o tərəfində idi... Qriqorinin qəmgin xəyalı qanadlanaraq oraya uçurdu. Ailəsini xatırladığı zaman həsrət onun canını odlara qalayır, ürəyini yandırıb-yaxırdı; Mixayilə qarşı qəlbində sonsuz bir kin baş qaldırırdı, lakin o bu hisslərini boğur, əziz adamlarını bir daha yadına salmamaq üçün vadidəki təpələrə baxmamağa çalışırdı. Ədavət hissinə meydan verməyin mənası yox idi. Bunsuz da onun halı olduqca ağır idi. Onsuz da sinəsinə çox dağlar çəkilmişdi: ona bəzən elə gəlirdi ki, ürəyi yoxdur, elə bil qopardıblar, buna görə də döyünmür, sadəcə qanı axır. Görünür, yaraları, müharibə zamanı məruz qaldığı məhrumiyyətlər, nəhayət, yatalaq xəstəliyi təsirini göstərirdi. Qriqori hər dəqiqə adamı darıxdıran ürək döyüntüsünü eşitməyə başlamışdı. Döşü, sol məməsinin altı bəzən elə bərk sancırdı ki, onun dodaqları bir anda quruyur, zarımamaq üçün Qriqori özünü zorla saxlayırdı. Lakin o belə ağrıdan yaxasını qurtarmaq üçün düzgün çarə tapdı: nəm torpağın üstündə sol böyrü üzərində uzanır, ya da köynəyini soyuq su ilə isladır, ağrı da, beləliklə, aramla, könülsüz-könülsüz canından çıxırdı.

Günlər xoş və küləksiz keçirdi. Aydın göydə hərdənbir yeldən çox hündürlərə qaldırılmış ağ bulud parçaları süzür, onların kölgə-

ləri sular üzərində qu qatarı kimi şütüyür, uzaq sahillərə çatdıqda gözdən itirdi.

Suyun sahilə çırpılaraq qıjıltı ilə axıb getməsinə tamaşa etmək, çaydan yüksələn müxtəlif səsləri dinləmək, heç nə fikirləşməmək, insanı iztiraba salan işləri düşünməməyə çalışmaq nə qədər xoş idi. Qriqori axının məzəli və bir-birindən tamamilə fərqli burulğanlarına saatlarla tamaşaya dalırdı. Burulğanlar hər dəqiqə şəklini dəyişirdi: bayaq suyun rahatca axdığı, üzərində qamış sınığı, əzik yarpaq və ot kökü gətirdiyi yerdə bir dəqiqədən sonra əcaib bir şəkildə bir böyrü üstünə əyilmiş və yanından ötən hər şeyi udan girdab əmələ gəlir, bir az da keçəndə indicə burulğan olan yerdə su kükrəyir, bulanıq halda tərsinə dolanır, suyun üzünə gah qaralmış bir dəmirqara kökünün qırığı, gah bir palıd yarpağı, gah da, kim bilir haralardan gəlmiş bir çəngə küləş çıxırdı.

Axşamlar günbatanda tünd-qırmızı şəfəq yanırdı. Uca qovağın dalından ay qalxırdı. Ayın nuru ağ və soyuq bir alov kimi Donun üzərinə yayılır, küləyin suyu xəfif-xəfif ləpələndirdiyi yerlərdə parıltılar və qaraltılar əmələ gəlirdi. Gecələr uçub şimala gedən saysız-hesabsız qaz qatarlarının aramsız qığıltıları da suların oynaq ahənginə qovuşurdu. Kimsə tərəfindən ürküdülməyən quşlar çox vaxt adadan bir az kənarda, onun gündoğan tərəfində yerə qonurdular. Subasarlarda, su basmış meşədə erkək xötəklər qulaqbatırıcı bir səslə böyürüşür, ördəklər qığıldaşır, qazlarla qu quşları sakitcə qağıldayır, birbirini səsləyirdilər. Qriqori bir gün səssizcə sahilə yaxınlaşan, adanın lap yaxınlığında bir böyük dəstə qu quşu gördü. Günəş hələ çıxmamışdı. Meşənin lap uzaqdakı ağacları ardında dan yeri yenicə qızarırdı. Çay dan yerini əks etdirərək çəhrayı görünür, durğun sularda dayanmış və məğrur başlarını günçıxan tərəfə çevirmiş iri və əzəmətli qu quşları da qıpqırmızı görünürdü. Quşlar sahildə şıqqıltı eşidən kimi zil şeypur səsini andıran bir çığırtı ilə havalandılar və meşədən hündürə qalxdıqları zaman onların ağ lələklərinin parıltısı və qar kimi ağlığı Qriqorinin gözlərini qamaşdırdı.

Fomin və silahdaşları vaxtlarını hər kəs ağlı kəsdiyi kimi keçirirdi: təsərrüfatçılığı ilə fərqlənən Sterlyadnikov çolaq ayağını rahat qatlayaraq səhərdən axşamadək paltar və ayaqqabı yamayır, silahları səliqə ilə silirdi; nəm torpaq üstündə gecələməkdən əziyyət

çəkən Kaparin gödək kürkünü başına çəkir, kal-kal öskürərək bütün günü günəş altında uzanıb qalırdı; Fomin ilə Çumakov kağızdan sazladıqları kart ilə yorulmaq bilmədən qumar oynayırdılar; Qriqori adada dolaşır, uzun zaman suyun kənarında otururdu. Onlar bir-biri ilə çox az danışırdılar, hər şey barəsində çoxdan danışıb qurtarmışdılar və bir araya yalnız axşamlar yemək zamanı, Fominin əmisi oğlunun adaya gəlməsini gözləyəndə yığışırdılar. Qüssədən onlar təngə gəlmişdilər; yalnız bir gün, adaya gəldikləri vaxtdan bəri ilk dəfə olaraq, Qriqori gördü ki, Çumakov ilə Sterlyadnikov nədənsə birdən-birə nəşələndilər, güləşmək üçün bir-biri ilə tutaşdılar. Onlar kəhildəyərək, bir-birinə zarafatla qısa atmacalar ataraq, xeyli vaxt bir yerdə qurdalandılar. İkisinin də ayağı topuğa qədər ağ və dənəvər qumun içinə girmişdi. Çolaq Sterlyadnikov rəqibindən aşkarca güclü idi, amma Çumakov fəndgirlikdə ondan üstün idi. Onlar kalmık qaydası güləşirdilər: çiyinlərini qabağa verib, bir-birinin ayağına diqqətlə nəzarət edirdilər, yalnız kəmərdən yapışırdılar. Onların sifətləri gərgin dartışmadan yığcamlaşmış, ağarmışdı, nəfəsləri təngimişdi. Qriqori maraqla güləşməni izləyirdi. O, gördü ki, Çumakov fürsət tapdı, birdən-birə cəld dalı üstə yıxıldı, rəqibini də özü ilə dartıb apardı və qatlanmış ayaqları ilə onu təpəsindən aşırdı. Bir saniyədən sonra porsuq kimi qıvraq və diribaş Çumakov artıq Sterlyadnikovun sinəsinə çökmüşdü, kürəyini quma basırdı, tövşüməkdən nəfəsi kəsilən və hey gülən Sterlyadnikov isə bağırırdı: "Yamanca lotusan ha! Adamı baş üstündən geriyə tullamağı... danışmamışdıq, axı..."

Fomin dedi:

– Beçə kimi bir-birinizlə döyüşdüyünüz yetər, durun, yoxsa birdən dalaşarsınız.

Yox, onlar qətiyyən dalaşmağa hazırlaşmırdılar. Əksinə, qalxdılar, dost kimi bir-biri ilə qucaqlaşıb qumun üstündə oturdular; Çumakov boğuq, amma xoş, yoğun bir səslə yeyin-yeyin rəqs mahnısı oxumağa başladı:

Siz ey ayazlar, ey amansız ayazlar!
Qışın ortalarında çox imansız ayazlar!
Qamışlıqda boz qurdu donduran siz oldunuz,
Daxmada qızcığazı donduran siz oldunuz!

Sterlyadnikov da zəif tenor səsi ilə mahnıya qoşuldu, mahnı ahəngdar və gözlənilmədiyi halda qəşəng çıxdı:

Budur çıxmış qızcığaz artırmaya yenə də,
Əlində bir qara kürk pilləkəndən düşür o,
Sevimli uryadnikin çiyninə salır onu...

Sterlyadnikov özündən çıxdı: dik atıldı, çırtıq çala-çala, çolaq qılçası ilə qumu eşə-eşə oynamağa başladı. Çumakov mahnının arasını kəsməyərək qılıncını sıyırdı, qumluqda dayaz bir çuxur açdı, bundan sonra dedi:

– Dayan, ay çolaq şeytan! Axı sənin bir ayağın gödəkdir, düz yerdə yaxşı oynaya bilməzsən... Sən gərək yamacda oynayasan, ya da gödək ayağını düz yerə, uzun ayağını çalaya qoyasan. İrəli gəl, uzun ayağını bu çuxura sal, fırlan, indi özün də görəcəksən necə yaxşı oynayırsan... Hə, başla görək!..

Sterlyadnikov alnının tərini sildi, itaətlə şikəst olmayan ayağını Çumakovun qazdığı çuxura saldı.

– Doğrudan da düz deyirmiş, belədə mən daha qıvraq tərpənirəm, – dedi.

Gülməkdən qəşş edən Çumakov əlini əlinə vurdu, yeyin-yeyin bu mahnını oxumağa başladı:

Sevgilim, düşər olsa əgər yolun bizlərə,
İnan səni öpərəm dönə-dönə, min kərə...

Sterlyadnikov da bütün oynayanlar kimi özünü tox tutdu, məharətlə rəqs etdi, hətta arabir çökdü, qalxdı da...

Keçib gedən günlərin hamısı bir-birinə bənzəyirdi. Qaranlıq qovuşan kimi hamısı səbirsizliklə Fominin əmisi oğlunun gəlməsini gözləyirdi. Beşi də sahildə bir araya toplaşır, yavaşca danışır, papiros çəkir, amma papirosun odunu şinellərinin ətəyi altında gizlədirdilər. Belə qərara gəlmişdilər ki, adada hələ bir həftə də qalacaqlar, sonra bir gecə Donun sağ sahilinə keçəcək, at ələ keçirib, cənuba hərəkət edəcəklər. Şayiələrə görə Maslakın quldur dəstəsi harada isə mahalın cənubunda dolaşırdı.

Fomin qohumlarına tapşırdı ki, hansı yaxın xutorda minilməyə yararlı at olduğunu öyrənib xəbər gətirsinlər; habelə mahalda nə kimi hadisələr baş verdiyinə dair ona hər gün məlumat vermələrini də əmr etmişdi.

Ona çatdırılan xəbərlər yaxşı idi: Fomini Donun sol tərəfində axtarırdılar; qızıl əsgərlər Rubejin xutoruna gəlmişdilərsə də, Fominin evində axtarış apardıqdan sonra dərhal çıxıb getmişdilər.

Bir gün səhər qəlyanaltı elədikləri zaman Çumakov dedi:

– Tezliklə buradan getmək lazımdır. Axı bizim burada oturmağımızdan nə çıxar? Gəlin günü sabah gedək, hə?

Fomin dedi:

– Əvvəlcə at tapmaq lazımdır. Nə üçün tələsməliyik? Bizi ağıllı-başlı yedirdən olsaydı, mən belə güzərandan heç ayrılmazdım. Bir baxın, necə mənzərəli, qəşəng yerdəyik! Dincəlməli, sonra yenə işə başlamalıyıq. Qoy bacarırlarsa bizi axtarıb tutsunlar, elə-belə öz ayağımızla gedib onlara təslim olmayacağıq. Boynuma alıram ki, bizi mənim axmaqlığım nəticəsində əzişdirdilər; bu, əlbəttə, adama yaman yer eləyir, lakin bununla mətləb qurtarmır. Biz yenə də camaatı ətrafımıza toplayacağıq! At belinə qalxıb yaxın xutorlara yetişən kimi, bir həftə ərzində, ətrafımızda əlli adam, sonra da yüz adam olacaqdır. Adamımız yaman çox olacaqdır, Allaha and olsun ki!

Kaparin acıqlanmış halda dedi:

– Cəfəngiyatdır! Axmaqcasına özündən bədgümanlıqdır. Kazaklar bizə xəyanət etdilər, arxamızca gəlmədilər, gəlməyəcəklər də. Biz sarsaq ümidlərlə özümüzə təsəlli verməməliyik, bəlkə kişi kimi cəsarətlə həqiqəti etiraf etməliyik.

– Necə yəni gəlməyəcəklər?

– Elə-belə, işin başlanğıcında gəlmədilərsə, indi də gəlməyəcəklər.

Fomin meydan oxuyurcasına söz atdı:

– Biz hələ baxarıq! Mən silahımı əlimdən yerə qoymaram!

Kaparin yorğun halda cavab verdi:

– Bunlar boş-boş sözlərdir.

Fomin özündən çıxdı, ucadan dedi:

– Lənət sənə, şeytan! Niyə aramıza çaxnaşma salırsan? Sən zəhərdən acı göz yaşları axıtmağınla məni zara gətirmisən! Bir işi

ki, bacarmayacaqdın, ondan niyə yapışırdın? Onda üsyan qaldırmağın nə mənası var idi? Sən ki, belə qorxaqdın, onda irəliyə niyə soxulurdun? Məni üsyana ilk dəfə sən təhrik etmisən, indi də qaçıb kolda gizlənirsən? Niyə dinmirsən?

Kaparin çox əsəbiliklə çığırdı:

– Mənim səninlə danışmalı heç bir sözüm yoxdur, itil cəhənnəmə, axmaq! – Bunu deyəndən sonra da çəkildi, üşüdüyü üçün kürkünə büründü və yaxasını qaldırdı.

Fomin köksünü ötürüb söyləndi:

– Bunların hamısı, bu nəcib adamlar, çox nərmə-nazikdirlər. Bir söz deməyə peşmansan, o saat cinlənirlər, alışıb-yanırlar.

Onlar bir qədər kirimişcə oturdular, suyun ahəngdar və əzəmətli şırıltısına qulaq asdılar. İki yaşılbaşın təqib etdiyi bir ördək bərk qığıldaya-qığıldaya gəlib onların başı üstündən ötdü. Cığıldayacığıldaya uçuşan bir dəstə sığırçın lap talanın üstü ilə uçurdu, amma burada adam olduğunu gördükdə havalandı, qara bulud kimi istiqamətini dəyişdi.

Bir az keçəndən sonra Kaparin yenə yoldaşlarına yaxınlaşdı. O, Fominin üzünə baxıb tez-tez kirpik çalaraq dedi:

– Mən bu gün xutora getmək istəyirəm.

– Nədən ötəri?

– Əcaib sualdır! Məgər sən görmürsən ki, mənə möhkəm soyuq dəymişdir, ayaq üstdə dura bilmirəm?

Heç nəyi nəzərə almayan bir arxayınlıqla Fomin soruşdu:

– Nə olsun ki? Xutora gedən kimi soyuqdəymən keçəcək?

– Mən heç olmasa bir neçə gün isti yerdə qalmalıyam.

Fomin qətiyyətlə dedi:

– Sən heç bir yerə getməyəcəksən.

– Nə demək istəyirsən, burada qalıb məhv olmalıyam?

– Kefinə bax.

– Axı mən niyə gedə bilmərəm? Axı bu cür soyuq yerlərdə yatmaq mənim axırıma çıxar!

– Bəlkə səni xutorda birdən tutdular? Sən heç bunu fikirləşmisənmi? Onda bizim hamımızın axırına çıxarlar. Yoxsa elə bilirsən mən sənə bələd deyiləm? İlk istintaqda sən bizi satarsan! Lap Vyoşkiyə aparılarkən, istintaqdan qabaq, yolda bizim yerimizi deyərsən.

Çumakov güldü və bu mülahizəni başını tərpədərək təsdiq elədi. O, Fominin dediklərinə tamamilə şərik idi. Lakin Kaparin inad edərək dedi:

– Mən getməliyəm. Sənin hazırcavab gümanların məni öz fikrimdən daşındıra bilməz.

– Mən də sənə dedim ki, sakit otur, yerində dingildəmə.

– Lakin Yakov Yefimoviç, başa düşməlisən ki, mən vəhşi heyvan kimi yaşamağa davam gətirə bilmirəm! Bu saat mən plevritəm, ola bilsin ki, hələ sətəlcəm də olmuşam!

– Sağalarsan. Günün altında uzanarsan, yaxşı olarsan!

Kaparin sərt bir şəkildə bildirdi:

– Fərqi yoxdur, mən bu gün gedəcəyəm. Sənin ixtiyarın yoxdur, məni burada tutub saxlayasan. Necə olur-olsun gedəcəyəm!

Fomin şübhələnərək gözlərini qıyıb onun üzünə baxdı və Çumakova göz vuraraq ayağa qalxdı.

– Kaparin, sən, deyəsən, gerçəkdən naxoşlamısan... Yəqin ki, qızdırman da çoxdur... Yaxına gəl səni yoxlayım, görüm başın qızdırmadan yanırmı? – O, əlini qabağa uzadaraq Kaparinə bir neçə addım yaxınlaşdı.

Kaparin, görünür, Fominin sifətində pis bir niyyət ifadəsi sezdi, buna görə də geriyə dartınaraq bərk qışqırdı:

– Qırağa dur!

– Çığırma! Niyə çığırırsan? Mən ancaq yoxlamaq istəyirdim. Nə zığıldayırsan, hə? – Fomin bir addım da irəli gəldi və Kaparinin xirtdəyindən yapışdı. – Təslim olmaq istəyirsən, əclaf? – Fomin boğula-boğula mızıldanır və var qüvvəsini toplayaraq Kaparini qaldırıb yerə çırpmaq istəyirdi.

Qriqori aralığa girdi, var gücünü sərf edərək onları çox çətinliklə araladı.

...Nahardan sonra, Qriqori yuduğu kirli tuman-köynəyini kolun üstünə sərəndə Kaparin ona yaxınlaşıb dedi:

– Mən sizinlə təklikdə danışmaq istəyirəm... Gəlin əyləşək.

Onlar tufan zamanı yanı üstə aşırılmış və gövdəsi artıq çürüməyə başlamış bir qovaq kötüyü üstündə oturdular.

Kaparin kal-kal öskürə-öskürə dedi:

– Siz bu axmağın hərəkətinə necə baxırsınız? Araya girdiyinizə görə mən sizə səmimi təşəkkür edirəm. Siz zabitə layiq bir hərəkət

etdiniz. Lakin vəziyyət dəhşətlidir! Mən artıq belə həyata davam gətirə bilmirəm. Biz bir növ vəhşi heyvan kimi... Gör nə vaxtdan bəri biz isti xörək yemirik, bir də nəm torpaq üstündə bu cür yatmaq... Mənə soyuq dəymişdir, böyürlərim yaman ağrıyır. Çox ehtimal ki, mən sətəlcəm olmuşam. Çox istərdim ki, ocaq qırağında oturum, isti otaqda yatım, tuman-köynəyimi dəyişim... Təzə, təmiz köynək, mələfə həsrətindəyəm... Yox, dözə bilmirəm!

Qriqori gülümsündü:

– Demək hazırına-nəzirinə dava eləmək arzusunda imişsən?

Kaparin qızışıb dedi:

– Mənə baxın, məgər bu müharibədir? Bu müharibə yox, ucubucağı görünməyən köçərilikdir, tək-tək sovet işçilərini öldürmək, sonra da qaçaqaçdır. Buna o vaxt müharibə demək olardı ki, xalq bizə kömək duraydı, üsyan başlanaydı, amma beləlikdə bu müharibə deyil, yox, buna müharibə deməzlər!

– Bizim başqa çıxış yolumuz yoxdur. Gedib təslim olmayacağıq ki?

– Doğrudur, amma nə etməliyik?

Qriqori çiyinlərini çəkdi. O, burada, adada yanını yerə verərək dəfələrlə dilinə gəlmək istəyən sözlərlə kifayətləndi:

– Pis də olsa azad gəzmək, yaxşı zindandan daha yaxşıdır. Xalq arasında bir məsəl var: əlli il inək olunca bir il buğa ol.

Kaparin ağac qırığı ilə qumun üstündə bir para fiqurlar çəkib, xeyli susduqdan sonra dedi:

– Hökm deyil ki, gedib təslim olasan, bolşeviklərə qarşı yeni mübarizə formaları axtarıb tapmaq lazımdır. Bu şərəfsiz xalqdan uzaqlaşmaq lazımdır. Siz ziyalı adamsınız...

Qriqori gülümsündü:

– Mən haradan oldum ziyalı? Mən danışanda kəlmələri belə çətinliklə deyirəm.

– Siz zabitsiniz.

– Bu da bir təsadüfdür.

– Yox, zarafatsız, siz, axı zabitsiniz, zabitlərlə durub-oturmusunuz, əməlli-başlı adamlar görmüsünüz; siz bu Fomin kimi, sovet gədəsi deyilsiniz, anlamalısınız ki, bizim burada qalmağımızın heç bir mənası yoxdur. Bu, özünü öldürmək kimi bir şeydir. O, meşədə bizi gətirib zərbə altına qoydu, taleyimizi yenə də onunla bağlasaq,

bundan sonra da bizi dəfələrlə güdaza verəcəkdir. O, sadəcə desək, zırramadır, bundan başqa hələ kəmhövsələ bir axmaqdır! Onunla qalsaq məhv olacağıq!

Qriqori soruşdu:

– Demək təklifin budur ki, təslim olmayaq, Fomindən uzaqlaşaq? Onda hara gedirik? Maslakın yanınamı?

– Yox. Bu da eyni fitnə-fəsaddır, orası var ki, genişdir. İndi mən bu işə başqa cürə baxıram. Maslakın yanına getmək yox, başqa yerə...

– Bəs haraya getmək lazımdır?

– Veşenskayaya getmək lazımdır.

Qriqori pərt olub çiyinlərini çəkdi:

– Buna deyərlər məhşər ayağına çəkilmək. Belə təklif mənə sərf eləmir.

Kaparin par-par parıldayan gözlərini onun üzünə zillədi:

– Siz məni başa düşmədiniz, Melexov. Mən sizə sirr verə bilərəmmi?

– Tamamilə.

– Heç kəsə deməyəcəyinizə namusla, bir zabit kimi söz verirsinizmi?

– Bir namuslu kazak kimi söz verirəm.

Kaparin tirin yanında qurdalanan Fominlə Çumakov tərəfə baxdı, arada xeyli məsafə olduğunu, sözünün eşidilməyəcəyini bilə-bilə yenə də səsini yavaşıdaraq dedi:

– Mən sizin Fominə və başqalarına münasibətinizi bilirəm. Onların arasında siz də mənim kimi yad adamsınız. Sovet hakimiyyətinə qarşı vuruşmağa sizi nəyin vadar etdiyi məni maraqlandırmır. Əgər mən mətləbi düzgün anlamışamsa, bunun səbəbi sizin keçmişiniz və həbsə alınmaq qorxusudur, elədirmi?

– Siz dediniz ki, səbəblər sizi maraqlandırmır.

– Bəli, bəli, mən bunu sözgəlişi dedim, indi bir neçə kəlmə də öz barəmdə demək istəyirəm. Mən keçmiş zabitəm və eser partiyasının üzvüyəm, daha sonra isə siyasi əqidəmi qətiyyətlə nəzərdən keçirdim... Rusiyanı yalnız mütləqiyyət xilas edə bilər! Yalnız mütləqiyyət! Qəzavü-qədərin özü də vətənimizin yolu yalnız bu olduğunu göstərir. Sovet hakimiyyətinin embleması oraqla çəkicdir,

eləmi? – Kaparin əlindəki ağac qırığı ilə qumun üstündə "molot, serp"[1] sözlərini yazdı, sonra qızdırmalı adam kimi parıldayan gözlərini Qriqorinin üzünə zilləyib dedi: – İndi siz bu iki kəlməni tərsinə oxuyun.[2] Oxudunuzmu? Nə dediyimi başa düşdünüzmü? İnqilab da, bolşevik hakimiyyəti də axırda taxt-tacla nəticələnəcəkdir! İnanırsınızmı, bunu öyrəndikdə məni mistik bir dəhşət bürüdü. Mən uçunurdum, ona görə ki, bu, əslinə baxsanız, fəlakətlərimizə son qoyacaq Allah vəhyi idi...

Kaparin həyəcandan boğulurdu, o susdu. Onun iti, dəli gözü kimi parıldayan gözləri Qriqorinin üzünə zillənmişdi. Lakin Qriqori heç də uçunmur, Kaparinin yeni kəşfindən canında mistik bir dəhşət hiss etmirdi. Qriqori həyatda hər şeyə ayıq və adi gözlə baxmışdı, məhz buna görə də belə cavab verdi:

– Burada heç bir vəhy-zad yoxdur. Siz Almaniya müharibəsində cəbhədə olmusunuzmu?

Bu cür sualdan əndişəyə düşmüş Kaparin bir az duruxaraq cavab verdi:

– Mənə bu sualı nəyə görə verdiniz? Yox, mən bilavasitə cəbhədə olmamışam.

– Bəs müharibə vaxtı siz harada olmusunuz? Arxada?

– Bəli.

– Həmişə?

– Bəli, həmişə olmasa da, demək olar, çox vaxt. Siz bunu niyə soruşursunuz?

– Mən isə düz on dördüncü ildən ta bu günə qədər, kiçik fasilələrlə, cəbhədəyəm. Gələk bu vəhy məsələsinə... Bir halda ki, Allahın özü yoxdur, onun vəhyi haradan ola bilər? Mən belə sarsaq şeylərə çoxdan inanmıram. On beşinci ildən, müharibə zamanı gözüm çox şeylər görəndən sonra, bu nəticəyə gəldim ki, Allah yoxdur. Heç bir Allah yoxdur! Əgər Allah olsaydı insanların arasında bu cür başıpozuqluğa yol verməzdi, buna haqqı yox idi. Biz cəbhəçilər Allahdan üz döndərdik, onu qocalarla arvadlara verdik. Qoy onunla təsəlli tapsınlar. Heç bir vəhy-zad da yoxdur, mütləqiyyət də qurula bilməz. Xalq mütləqiyyətə həmişəlik qələm çəkmişdir.

[1] "Çəkic, oraq"

[2] "Prestolom", yəni taxt-tac ilə

O ki, qaldı sizin göstərdiyiniz bu şeylərə, müxtəlif hərfləri tərsinə oxumağınıza, bu, məni bağışlarsınız, uşaq əyləncəsidir, vəssalam. Mən bir qədər başa düşmədim, siz bununla nə demək istəyirsiniz? Siz mənə aydın və qısa deyin. Mən yunkerlər məktəbində oxumamışam, o qədər də savadlı deyiləm, çox da ki, zabit olmuşam. Bir qədər savadlı olsaydım, ola bilsin ki, daşqın zamanı yolu kəsilmiş yalquzaq kimi bu adada sizin yanınızda olmazdım, – Qriqori son sözlərini aşkar bir təəssüf hissi ilə bitirdi.

Kaparin tez dedi:

– Onun əhəmiyyəti yoxdur. Sizin Allaha inanıb-inanmamağınızın əhəmiyyəti yoxdur. Bu, sizin etiqad, vicdan işinizdir. Sizin mütləqiyyətmi, məclisi-müəssisan tərəfdarımı, yoxsa istiqlaliyyət cəbhəsində duran sadə bir kazakmı olduğunuzun da əhəmiyyəti yoxdur. Vacib cəhət burasıdır ki, bizi Sovet hakimiyyətinə qarşı münasibətlərimizin eyniliyi birləşdirir. Siz bu fikrə şəriksinizmi?

– Sonra?

– Biz buna arxayın idik ki, bütün kazaklar üsyan edəcəklər, eləmidir? Bu ümid puça çıxdı. İndi bu dolaşıqlıqdan xilas olmaq lazımdır. Bolşeviklərə qarşı sonra da vuruşmaq olar, həm də hökm deyil ki, buna ancaq Fomin başçılıq eləsin. Vacib iş indi yalnız budur ki, həyatımız xilas edilsin, buna görə də mən ittifaq təklif edirəm.

– Nə ittifaq? Kimə qarşı?

– Fominə qarşı.

– Başa düşmürəm.

– Aydın məsələdir. Mən sizi ittifaqa dəvət edirəm. – Kaparin seziləcək dərəcədə həyəcan keçirir, nəfəsi kəsilə-kəsilə danışırdı: – Biz, sənlə mən, bu üç nəfəri öldürüb Veşenskayaya gedirik. Başa düşdünmü? Bu, bizi xilas edər. Belə bir xidmət Sovet hakimiyyəti qarşısında bizi cəzadan qurtarar. Ondan sonra yaşayırıq! Həyatımızı xilas edirik! Demək artıqdır ki, gələcəkdə, fürsət ələ düşən kimi, bolşeviklərə qarşı çıxış edirik. Lakin bu bədbəxt Fomin kimi fitnə-fəsad törətməyəcəyik, ciddi bir iş başlandıqda hərəkətə gələcəyik. Razısanmı? Nəzərə alın ki, indiki çətin vəziyyətdə bizim yeganə çıxış yolumuz budur, həm də gözəl çıxış yoludur.

Qriqori daxilən bu təklifdən son dərəcədə qəzəblənib titrədi, lakin var qüvvəsini sərf edib onu bürümüş duyğunu gizlətməyə çalışaraq soruşdu:

– Bəs bunu nə cür etmək olar?

– Mən hər şeyi düşünmüşəm: biz onları gecə qılıncla öldürərik, ertəsi günü gecə bizi ərzaqla təchiz edən kazak qayıqla gələr, biz də minib Donun o tayına keçərik, vəssalam. Dahiyanə sadə, özü də, heç bir fırıldaqsız!

Qriqori süni bir sadədilliklə gülümsünüb dedi:

– Qiyamət fikirləşmisiniz! Amma Kaparin, düzünü deyin, siz səhər qızınmaq üçün xutora getmək istəyəndə... Veşenskayayamı getmək niyyətində idiniz? Fomin sizin niyyətinizi düzgünmü anlamışdı?

Kaparin sadədilliklə gülümsünən Qriqorinin üzünə diqqətlə baxdı, özü də gülümsündü, amma o, bir az utanaraq, pərt olaraq gülümsündü:

– Açığını desək, bəli. Bilirsinizmi, insan canını qurtarmaq hayına qaldıqda hansı vasitədən istifadə edəcəyindən o qədər də utanmır.

– Getsəydiniz, bizi satardınızmı?

– Bəli, – deyə Kaparin açıqdan-açığa etiraf etdi. – Lakin mən şəxsən sizi, burada, adada ələ keçsəydiniz xatadan xilas etməyə çalışardım.

– Onda bəs bizi niyə təkcə özün öldürmədin? Gecə vaxtı bu işi asanlıqla görmək olardı.

– Qorxulu işdir. Birinci güllədən sonra qalanı qalxar...

Qriqori naqanını çıxardaraq təmkinlə dedi:

– Silahını yerə qoy! Yerə qoy, yoxsa bu saat buradaca öldürərəm? Mən bu saat ayağa qalxaram. Fomin görməsin deyə dalımı sənə çevirərəm, sən də naqanını mənim ayağımın altına tullarsan. Hə? Atəş açmaq xəyalına düşmə! Balaca qımıldansan, səni yerə sərəcəyəm.

Kaparin ölü kimi ağarmışdı, tərpənmirdi. Ağarmış dodaqlarını güclə qımıldadıb pıçıltı ilə dedi:

– Məni öldürməyin!

– Öldürməyəcəyəm. Amma silahını əlindən alacağam.

– Siz məni ələ verəcəksinizmi...

Kaparinin tük basmış yanaqlarından göz yaşları süzüldü. Qriqori ikrah və mərhəmətdən üz-gözünü qırışdırdı, səsini ucaltdı:

– Naqanı yerə tulla! Ələ verməyəcəyəm, amma vermək lazım idi! Yamanca ziyziy imişsən! Ay ziyziy imişsən ha!

Kaparin tapançasını Qriqorinin ayaqları altına tulladı.

– Bəs brauninqin hanı? Brauninqi də ver. Frençinin döş cibindədir.

Kaparin nikeli işıldayan brauninqini də çıxartdı və yerə tulladı, üzünü əlləri ilə örtdü. Hıçqırıqdan onun vücudu yarpaq kimi əsirdi.

Qriqori ona bir yumruq ilişdirmək istədi, amma bu arzusunu çətinliklə boğub, hirsli-hirsli dedi:

– Səsini kəs, əclaf!

– Siz məni ələ verəcəksiniz... Mən məhv oldum.

– Mən sənə dedim ki, ələ verməyəcəyəm. Biz adadan çıxıb gedəndə, sən hara istəyirsən cəhənnəm ol! Sənin kimisi heç kəsə lazım deyil. Get özünə bir sığınacaq tap.

Kaparin əlini üzündən çəkdi. Onun göz yaşlarından islanmış və pörtmüş üzü, şişmiş gözləri, titrəyən alt çənəsi dəhşətli idi.

O kəkələyərək soruşdu:

– Bəs onda... onda bəs mənim silahımı əlimdən niyə aldınız?

Qriqori istər-istəməz cavab verdi:

– Ondan ötrü aldım ki, kürəyimə bir güllə sıxmayasan. Sizin kimi alim adamlardan çox şey gözləmək olar... Amma səhərdən bəri hey Allah vəhyindən, padşahdan və Allahdan danışırdın... Sən nə qədər alçaq adamsanmış...

Qriqori arabir tüpürə-tüpürə, Kaparinə baxmadan, aramla düşərgə tərəfə getdi.

Strelyadnikov yavaşdan fit çala-çala, üzəngi qayışlarını sakitcə mumlu sapla tikirdi. Fomin ilə Çumakov isə həmişəki adətləri üzrə çulun üstünə uzanıb kart oynayırdılar.

Fomin Qriqorinin üzünə ani bir nəzər salıb soruşdu:

– O sənə nə deyirdi? Nə haqda danışırdınız?

– Həyatından şikayət edirdi... Ağzına gələni çərənləyirdi...

Qriqori vədinə əməl etdi, Kaparini ələ vermədi. Lakin axşam xəlvətcə Kaparinin tüfənginin çaxmağını çıxartdı, bir yerdə gizlətdi. Yatmaq üçün yerinə uzananda belə fikirləşirdi: "Kim bilir, gecə nə xəyallara düşər..."

Səhər Fomin Qriqorini yuxudan oyatdı. O, başını Qriqoriyə doğru əyib yavaşca dedi:

– Sən Kaparinin silahını almısan?

Qriqori yerində dikəldi, çiyinlərini çətinliklə düzəltdi:

– Nədir? Nə silah?

O, yalnız dan yeri ağaranda yuxulamışdı; şəfəq söküləndə bərk üşüyürdü. Onun şineli, papağı və çəkmələri gün çıxanda ətrafı bürümüş dumandan islanmışdı.

– Onun silahını nə qədər axtarırıq, tapmırıq. Sənmi almısan? Melexov, əşi, bir oyan görək!

– Hə, mən almışam. Nə olub?

Fomin kirimişcə uzaqlaşdı. Qriqori ayağa qalxdı, şinelini çırpdı. Çumakov bir az kənarda səhər xörəyi hazırlayırdı: düşərgədəki var-yox bircə kasanı yaxaladı, bir kömbəni sinəsinə dirəyərək, bıçaqla dörd bərabər parçaya böldü, kasanı bardaqdan südlə doldurdu və bərk bişmiş darı xəşilini qaşıqla qarışdırıb Qriqorinin üzünə baxdı.

– Sən bu gün yuxudan gec durmusan, Melexov. Bir ora bax, gör, günəş hara qalxıbdır!

Strelyadnikov tərtəmiz yuyulmuş ağac qaşıqları şinelinin ətəyi ilə silib dedi:

– Kimin vicdanı təmizdirsə, o həmişə yaxşı yatar. Amma bu Kaparin gecə səhərədək yatmamışdır, hey qurcuxmuşdur...

Fomin kirimişcə gülümsəyərək, Qriqoriyə baxırdı. Çumakov təklif elədi:

– Oturun, çörək yeyin, a quldurlar!

O, hamıdan qabaq südü qaşıqladı, çörəyin zorba bir parçasını dişlədi. Qriqori də öz qaşığını götürdü, hamının üzünə diqqətlə göz gəzdirib soruşdu.

– Bəs Kaparin haradadır?

Fomin ilə Strelyadnikov kirimişcə çörək yeyirdilər. Çumakov çox diqqətlə Qriqoriyə baxır, o da dinmirdi.

Qriqori gecə adada nə isə baş verdiyini dumanlı şəkildə də olsa anlayıb soruşdu:

– Kaparini neyləmisiniz?

Çumakov arxayınca gülümsəyərək cavab verdi:

– Kaparin indi xeyli uzaqlardadır. O üzüb Rostova getdi. Ola bilsin ki, indi hətta Ust-Xopra yaxınlığında yırğalanır... Odur bax, kürkü də oradan asılmışdır.

Qriqori Kaparinin kürkünə ani bir nəzər salıb soruşdu:

– Onu gerçəkdən öldürmüsünüz?

Bunu soruşmamaq da olardı. Onsuz da hər şey aydın idi, lakin o yenə də soruşdu. Sualının cavabı ləngidi, buna görə təkrar soruşdu:

– Hə, aydın işdir ki, öldürülmüşdür, – deyə Çumakov cavab verdi və qadın gözləri kimi göyçək, ala gözlərini kirpikləri ilə yumdu. – Mən öldürdüm. Adam öldürmək çoxdan mənim vəzifəm olmuşdur, neyləyim...

Qriqori diqqətlə onun üzünə baxdı. Çumakovun qarabuğdayı, çəhrayı və təmiz üzü sakit və hətta şən idi. Günəşdən qaralmış sifətində sarışın, qıraqları qızıla çalan bığları kəskin surətdə seçilir, qaşlarının və geriyə daranmış saçlarının qaralığından aşkar fərqlənirdi. Fominin quldur dəstəsinin bu peşəkar cəlladı zahirən çox gözəl və təvazökar idi... O, qaşığını brezentin üstünə qoydu, əlinin tərsi ilə bığlarını silib dedi:

– Melexov, Yakov Yefimoviçdən razılıq elə. Səni ölümdən o qurtardı, yoxsa indi sənin meyitin də Kaparinin meyiti ilə birlikdə Donda üzürdü...

– Məni nəyə görə öldürürlərmiş ki?

Çumakov aramla, arabir dayana-dayana dedi:

– İşin gedişindən belə görünürdü ki, Kaparin təslim olmaq istəyir, dünən nə haqda isə sənlə uzun-uzadı danışırdı... hə, biz də, Yakov Yefimoviçlə belə qərara gəldik ki, xatanı sovuşduraq. Ona hər şeyi söyləmək olarmı? – Çumakov sualedici tərzdə Fominə baxdı.

Fomin başını tərpətdi, Çumakov da yaxşı bişməmiş darını xırtıldada-xırtıldada söhbətini davam etdirdi.

– Mən dünən axşamdan yekə bir palıd dəyənəyi hazırlayıb Yakov Yefimoviçə dedim: "Mən onların hər ikisinin, Kaparinin də, Melexovun da bu gecə başını əzərəm". O, mənə dedi: "Kaparini öldür, amma Melexova toxunma". Belə də razılaşdıq. Mən Kaparin yatıncaya qədər onu güddüm, gördüm sən də yatıbsan, xoruldayırsan. Hə, sürünə-sürünə ona yaxınlaşdım, dəyənəyi kəlləsinə nıxçadım. Bizim zabit ağanın heç qılçaları da tərpənmədi! Bir az ləzzətlə gərildi, ömrünü bağışladı... Səssiz-səmirsiz üstünü axtardıq, sonra qollarından, qıçlarından yapışdıq, sahilə gətirdik, çəkməsini, frençini, kürkünü soyundurduq, özünü də suya atdıq. Amma sən hey yatırdın, dünyadan xəbərin yox idi... Ölüm dünən gecə lap başının üstünü almışdı, Melexov! Əcəl səni hərləyirdi! Düzdür, Yakov Yefimoviç demişdi ki, ona toxunma, amma mən fikirləşirdim: "Onlar gündüz nə barədə danışmış olarlar? Beş adamdan iki-

sinin kənar gəzməyə başlaması, xəlvətcə xosunlaşması sarsaq işdir..." Sinə-sinə sənə də yaxınlaşdım, bu dəfə də dəyənəyi sənin başına çırpmaq istəyirdim, birdən fikrə getdim, çox da ki, bunu vurdum, amma bu şeytan çox güclüdür, dəyənək nəfəsini biryolluq kəsməsə, dik atılacaq, güllə atmağa başlayacaqdır. Bəli, Fomin yenə də işləri korladı. Yaxınlaşıb dedi: "Ona toxunma, bizim adamdır, ona inanmaq olar". Axtardıq, araşdırdıq, bir şeyi aydınlaşdıra bilmədik – bəs bu Kaparinin silahı hanı? Beləliklə də mən sənin yanından uzaqlaşdım. Amma yamanca bərk yatmışdın, başının üstünü fəlakət aldığını duymurdun.

Qriqori arxayınca dedi:

– Nahaq yerə də öldürmüş olardın, axmaq! Mən Kaparinlə sözü bir yerə qoymamışdım.

– Bəs niyə onun silahları səndən tapıldı?

Qriqori gülümsündü:

– Mən onun tapançalarını hələ gündüzdən almışdım, tüfənginin çaxmağını isə axşam çıxartdım, aparıb tərliyin altında gizlətdim.

O, dünən Kaparinlə söhbətini və onun nə təklif elədiyini söylədi.

– Bəs niyə bunu dünən axşam bizə demədin?

Qriqori açıqca boynuna aldı:

– Mənim bu ziyziy şeytana yazığım gəldi.

Onun bu hərəkətindən səmimi olaraq heyrətdə qalmış Çumakov səsləndi:

– Ax, Melexov, Melexov! Sən bu rəhmini apar, Kaparinin tüfənginin çaxmağını gizlətdiyin yerdə, tərliyin altında gizlət, yoxsa səni xataya salar!

Qriqori soyuq bir şəkildə dedi:

– Sən mənə ağıl öyrətmə. Sənin kim olduğunu bilirəm.

– Niyə mən sənə ağıl öyrədim ki? Yaxşı, bəs mən dünən gecə, bu rəhmliliyin ucbatından, səni vurub o dünyaya göndərsəydim, yaxşımı olardı?

Qriqori bir az fikrə getdi, yavaşca cavab verdi:

– Öldürəndə də öldürərdin, neyləyək. – Başqalarından daha çox özünə izah edirmiş kimi əlavə etdi: – Oyaqlıqda insan ölümü çox çətinliklə yaxına buraxır, amma, güman ki, yuxu aləmində ölüm asan olur...

XV

Aprelin sonunda gecə onlar qayığa minib Donu keçdilər. Rubejin çayının kənarında Nijne-Krivskov xutoru sakini olan Aleksandr Koşelyov adlı cavan bir kazak onları gözləyirdi.

O, Fominlə salamlaşaraq dedi:

– Mən də sənin lə gəlirəm, Yakov Yefimoviç. Evdə yaşamaqdan zinhara gəlmişəm.

Fomin Qriqorinin böyrünə dürtmə vurub pıçıltı ilə dedi:

– Gördünmü? Mən sənə nə deyirdim? Adadan bu taya yenicə keçmişik, amma camaat budur, gəlir! Bu oğlan mənimlə tanışdır, vuruşan kazakdır. Bu yaxşı əlamətdir. Deməli, işlər düzələcəkdir!

Səsindən hiss olunurdu ki, Fomin məmnuncasına gülümsəyir. Təzə tərəfdar tapmasına açıqca sevinirdi. Adadan çayın bu tayına arxayınca keçə bilməsi və onlara yeni bir şəxsin qoşulması Fomini ruhlandırmışdı, yeni ümidlərlə qanadlandırmışdı.

Fomin qaranlıqda Koşelyovun silahlarını əlləşdirib nəzərdən keçirdərək, məmnun halda deyirdi:

– Səndə tüfənglə naqandan başqa qılınc da, durbin də var? Bax, kazak buna deyərlər! O saat görürsən ki, əsl kazakdır, aşqarı yoxdur!

Fominin əmisi oğlu balaca at qoşulmuş arabasını sahilin yaxınlığına sürdü. Yavaşca dedi:

– Gətirin yəhərləri arabaya yığın. Həm də Allah xatirinə cəld olun, yoxsa vaxt ertə deyil, yolumuz da uzaqdır...

Həmin oğlan həyəcanlanır, Fomini tələsdirirdi, amma Fomin adadan çıxandan, ayaqları altında doğma xutor torpağı duyandan bəri, evlərinə dəymək, tanış həmyerliləri ilə görüşmək də istəyirdi...

Dan yeri ağarmazdan əvvəl Yaqodnı xutoru yaxınlığında otlayan ilxının ən yaxşı atlarını tutdular, yəhərlədilər. Çumakov ilxını gözləyən qoca kişiyə dedi:

– Babacan, atların dərdini çəkmə! Bunlar heç o qədər karlı atlar deyil, həm də az minəcəyik, əlimizə yaxşı at keçən kimi, bunları sahiblərinə qaytaracağıq. Soruşsalar ki, atları kim apardı, deyərsən ki, Krasnokutskaya stanitsasının milis idarəsi apardı. Qoy at sahibləri oraya getsin... Biz quldur dəstəsini qovuruq, elə onlara da beləcə de!

Yola çıxdıqda Fominin əmisi oğlu ilə vidalaşdılar, sonra sola buruldular, beşi də rahat atlarını çapıb, cənub-qərbə getdi. Deyildiyinə görə Maslakın quldur dəstəsi bu günlərdə Meşkovskaya stanitsası yaxınlığında harada isə görünmüşdü. Fomin də onunla birləşməyi qərara alıb, atını o tərəfə sürürdü.

Onlar Maslakın quldur dəstəsini tapmaq məqsədi ilə, böyük xutor və stanitsalardan yan keçirdilər; sağ sahildəki çöl yollarında üç gün at səyirtdilər. Karginskaya stanitsasının hüdudundakı ukraynalı qəsəbələrində öz pis atlarını gümrah və qaçağan yerli atlarla dəyişdirdilər.

Dördüncü günün səhəri, Veji xutoru yaxınlığında uzaq bir bələndə səfəri qayda ilə hərəkət edən süvari dəstəsini hamıdan əvvəl Qriqori gördü. Yol ilə azı iki eskadron hərəkət edir, qabaqda və yanlarda kiçik atlı qrupları gedirdi.

Fomin durbinini gözlərinə tutdu:

– Ya Maslakdır, ya da...

Çumakov gülə-gülə dedi:

– Ya qaradır, ya sarı, ya qırxılıb bığları. Yakov Yefimoviç, sən diqqətlə bax, bunlar qırmızılardırsa, biz atların başını geriyə çevirməliyik, vaxt ikən aradan çıxmalıyıq!

Fomin dilxor olub söyləndi:

– Onların kim olduğunu buradan heç şeytan da seçə bilməz!

Strelyadnikov bərkdən dedi:

– Ora baxın! Bizi gördülər! Kəşfiyyat dəstəsi üstümüzə gəlir!

Onları doğrudan da görmüşdülər. Yolun sağ tərəfi ilə irəliləyən dəstə birdən sərt bir şəkildə buruldu, atlarını onların üstünə səyirtdi. Fomin tez durbini qutusuna saldı, lakin Qriqori gülümsünərək, yəhərdən əyildi və Fominin atının cilovundan yapışdı.

– Tələsmə! Qoy lap yaxına gəlsinlər. Cəmisi on iki nəfərdirlər. Onları lazımınca gözdən keçirdək, bir şey olmasa atları səyirdib aradan çıxarıq. Altımızdakı atlar təzəcə minilmişdir, niyə qorxdun? Durbinlə yenə onlara bax!

On iki atlı get-gedə onlara yaxınlaşırdı, dəqiqələr keçdikcə adamların qaraltısı durbinin şüşələrində böyüyürdü. Təzə ot basmış dikin yaşıl fonunda onlar indi aydınca seçilirdilər.

Qriqori də, başqa yoldaşları da səbirsizliklə Fominin üzünə baxırdılar. Onun durbindən yapışmış əlləri yüngülcə uçunurdu. Fomin elə gərgin baxırdı ki, günəş tərəfdəki yanağından aşağıya bir damla tər süzüldü.

– Qırmızılardır! Furajkalarında ulduz var!.. – deyə Fomin nəhayət boğuq səslə qışqırdı.

Qaçışma başlandı. Onların dalınca tüfənglərdən seyrək, pərakəndə güllə atdılar. Qriqori atını dörd verst qədər Fominin atı ilə yanaşı səyirtdi, hərdənbir dönüb dala baxdı.

O rişxəndlə dedi:

– Bu da bizim birləşməyimiz!..

Fomin boğulmuş adam kimi dinmirdi. Çumakov atının başını azacıq çəkib qışqırdı:

– Xutorların yanından ötmək lazımdır. Özümüzü Veşenskaya örüşünə çatdırmalıyıq, oralar xəlvətlikdir.

Atları bir neçə verst də belə dəlicəsinə sürsəydilər, yorulub getməzdilər. Onların irəliyə uzanmış boyunlarından köpüklə qarışıq buxar qalxırdı, köndələn qırışlar xeyli çökəlmişdi.

Qriqori komanda verdi:

– Atları yavaş sürmək lazımdır! Toxtadın!

Onların dalınca gələn on iki atlıdan doqquzu qaldı, o biriləri dalda qalmışdı. Qriqori aradakı məsafəni gözəyarı hesabladı, qışqırdı:

– Dayanın! Gəlin onları güllələyək!..

Beşi də atları yortma yerişə keçirdilər, dərhal atdan düşdülər və tüfənglərini üzlərinə qaldırdılar.

– Cilovu bərk tutun! Sol tərəfdən gələnə daimi nişangahla... atəş!

Hərəsi bir daraq patron atdı, qızıl əsgərlərdən birinin atını vurdular və yenə təqibdəıı uzaqlaşmağa başladılar. Onları həvəssiz təqib edirdilər. Arabir uzaqdan güllə atırdılar, sonra isə tamam dayandılar.

Strelyadnikov uzaqda mavi zolaq kimi göyərən gölü qamçısı ilə göstərib dedi:

– Atları sulamaq lazımdır; odur bax, orada göl var.

Onlar daha atları yavaş sürür, yanından ötdükləri dərəni-təpəni diqqətlə nəzərdən keçirir və gözə görünməmək üçün xəlvət yerlərlə getməyə çalışırdılar.

Göldə atlarını suladılar və yenə yola düşdülər: əvvəlcə atları yavaş sürürdülər, sonra yortma yerişə keçdilər. Atları otarmaq üçün günortaçağı çölü köndələninə kəsən bir dərin dərənin qaşında dayandılar. Fomin Koşelyova əmr etdi ki, piyada yaxınlıqdakı təpəyə çıxsın, orada uzanıb müşahidə aparmağa başlasın. Çölün hansı

səmtində atlı görünsə, Koşelyov bunu dərhal işarə ilə bildirməli, o dəqiqə atların yanına qaçmalı idi.

Qriqori atını cidarladı, otlamağa buraxdı, özü isə nisbətən quru yer seçib, bir az aralıda uzandı.

Dərənin güneyində təzə otlar həm hündür, həm də qalın idi. Günəşdən isinmiş qaratorpaqdan yayılan xoş ətir, çiçəkləmə dövrünü bitirmiş çöl bənövşələrinin zərif iyini itirə bilməmişdi. Bənövşələr dincə qoyulmuş torpaqda bitib, başlarını qurumuş xəşəmbül çöpləri arasından çıxarmış, köhnə köbərin qırağına çiçəkdən naxış vurmuşdular; hətta çaxmaqdaşı kimi bərk torpaqda çürümüş, çöp olmuş köhnə otların arasından da uşaq gözləri qədər mavi və məsum gözləri ilə dünyaya tamaşa edirdilər. Bənövşələr bu səssiz-səmirsiz çöldə onlara nəsib olan dövranı artıq sürüb gedir, onların yerinə dərənin döşündə şorakət torpaqda əfsanəvi parlaqlığa malik dağ lalələri artıq baş qaldırmış, qırmızı, ağ və sarı kasacıqları ilə günəşin hüzurunda salama durmuşdular, külək də bu müxtəlif çiçək ətrini bir-birinə qataraq, çölün hər tərəfinə yayırdı.

Quzeydəki yamacın sərt uçurum tərəfində, sıldırımın altında kölgəlikdə, altından su sızan qalın qar talaları hələ də qalırdı. Qar qalaqları tərəfdən soyuq gəlirdi, lakin bu soyuq dövranını artıq sürmüş çöl bənövşələrinin məchul və həzin ətrini, əziz və çoxdan olub keçmiş hadisənin xatirəsi kimi, daha da kəskin hiss etdirirdi.

Qriqori ayaqlarını bir-birindən xeyli aralamış, dirsəklənmişdi, günəşin nuruna qərq olmuş çölə, üfüqün uzaq ətəklərində göyərən keşikçi təpələrinə, yamacın aşağısında axar su kimi ləpələnən səraba acgözlüklə tamaşa edirdi. O, bir dəqiqəliyinə gözlərini yumur, bu zaman torağaylar uzaqda və yaxında ötür, otlayan atlar yumşaq tappıltı salır və fınxırışır, cilovun dəhnəsi cingildəyir, külək təzə otları xışıldadırdı... Bütün vücudunu sərt torpağa söykəməsi onda əcaib bir dönüklük və xatircəmlik hissi doğururdu. Bu ona çoxdan tanış duyğu idi. Bu hiss onu həmişə xatadan sovuşduqdan sonra bürüyərdi, Qriqori də bu zaman sanki dünyanı təzədən görürdü. Elə bil onun gözləri ilə qulaqları itiləşir və əvvəllər nəzərini cəlb eləməyən hər şey həyəcanlanandan sonra diqqətini cəlb edirdi. İndi o balaca bir quşun dalınca çəpinə yerə şığıyan qırğının qanadlarının vıyıltısını da, dirsəkləri arasındakı kiçik məsafəni çox çətinliklə qət edən qara

böcəyin aram-aram hərəkətini də, parlaq və bakir gözəlliyə malik zil qırmızı dağ laləsinin mehdən qımıldanaraq, həzin-həzin yırğalanmasını da eyni maraqla izləyirdi. Lalə lap yaxında, uçmuş bir baybak yuvasının yanında bitmişdi. Qriqori əlini uzatsaydı, onu dərə bilərdi, amma o yerindən tərpənmir, heyran-heyran həm çiçəyə, həm də ağuşunda səhər şehinin yeddi rəngi çalan damlacıqlarını qısqanccasına saxlamış sıx yarpaqcıqlara tamaşadan həzz alırdı. Sonra da üzünü bu yana çevirir, göyün ənginlikləri üzərində, viran qalmış baybak yuvaları üzərində süzən qartala baxırdı...

İki saatdan sonra onlar yenə də atlandılar, gecə vaxtı da olsa Yelanskaya stanitsasının tanış xutorlarına çatmağa çalışırdılar.

Qızıl əsgər kəşfiyyat dəstəsi, görünür, onların haraya hərəkət etdiklərini telefonla xəbər vermişdi. Kamenka kəndinin girəcəyində çayın o tayından onları tüfəng atəşi ilə qarşıladılar. Güllələrin vıyıltısı Fomini kənara yayınmağa vadar etdi. Onlar atəş altında atlarını kəndin kənarı ilə səyirdib, Veşenskaya stanitsasının örüşlərinə çatdılar. Topkaya Balka qəsəbəsi ardında onları kiçik bir milis dəstəsi tutmaq istədi. Fomin dedi:

– Atları sol yana sürüb keçək.

Qriqori qətiyyətlə dedi:

– Gəlin onların üstünə hücum edək. Onlar doqquz nəfərdir, biz beş adamıq. Yarıb keçək!

Çumakov ilə Strelyadnikov da onun fikrinə şərik oldular. Onlar qılınclarını sıyırdılar, yorğun atlarını tərpətdilər. Milis nəfərləri, atdan tökülüşməyib, tez-tez güllə atdılar, sonra da hücuma duruş gətirməyib, atlarını sürüb aradan çıxdılar.

Koşelyov onları lağa qoyub qışqırdı:

– Bunlar fərsiz dəstədir. Onlar protokol yazmağa qoçaqdırlar, amma kişi kimi vuruşmağa qadir deyillər.

Fomin də, başqaları da, dallarınca gələn milis nəfərləri dabanbasdı onlara çatmağa çalışdıqca qayıdıb onları güllələyir və tazıların izlədikləri canavarlar kimi, hərdənbir onlara təpinir, amma dayanmadan gündoğana gedirdilər. Atışmalardan birində Strelyadnikov yaralandı. Güllə onun sol qılçasının baldırından keçdi və ağrıdan sızıldayaraq, rəngi qaçmış halda dedi:

– Güllə qılçama dəydi... Yenə həmin qılçama – çolaq ayağıma...

– Ah, köpək uşağı... hə?

Çumakov yəhərdə geriyə qanrılaraq, bərk qaqqıldadı. Elə bərk gülürdü ki, gözlərindən yaş axdı. Qoluna söykənmiş Strelyadnikovu atın üstündə oturdarkən, yenə də gülməkdən vücudu yırğalanır və deyirdi:

– Gör sol qılçanı necə də tanıyıblar! Onlar gülləni bu qılçana qəsdən sırıyıblar... görüblər ki, bir çolaq kişi at səyirdir, deyiblər ki, gəlin onun həmin ayağına bir güllə də ilişdirək. O, Strelyadnikov! Ay başı bəlalı yazıq!.. İndi sənin bu qılçan bir qarış da gödələcəkdir!.. Bəs onda nə cür oynayacaqsan? Bundan sonra mən, deyəsən, sənin bu ayağın üçün çuxuru bir arşın dərinliyində qazmalı olacağam...

Strelyadnikov ağrıdan üz-gözünü qırışdırıb deyirdi:

– Kəs səsini, heyvərə! Mən nə haydayam, bu nə hayda! Sən Allah, kifayətdir, səsini kəs!

Yarım saatdan sonra, saysız-hesabsız qobulardan birinin döşünə qalxdıqları zaman Strelyadnikov xahiş elədi:

– Gəlin bir qədər dayanaq, dincələk... Yaramı sarımalıyam, qan axıb, çəkməmin içinə dolub...

Dayandılar. Qriqori atları saxladı, Fomin ilə Koşelyov uzaqda görünən milis nəfərlərinin qaraltısına atəş açdılar. Çumakov Strelyadnikova çəkməsini çıxarmaqda kömək elədi.

Çumakov çəkmənin içindəki qıpqırmızı qanı yerə süzərək qaşqabaqlı halda dedi:

– Doğrudan da gör nə qədər qan şoralanıbdır...

O, qandan islanmış şalvarı qılıncı ilə kəsmək istədi, amma Strelyadnikov buna razı olmadı:

– Şalvarım yaxşıdır, – dedi və əllərini yerə dirəyərək, yaralı ayağını qaldırdı, – onu kəsməyin mənası yoxdur. Sən şalvarımı yuxarı çirmə, amma yavaş-yavaş.

Çumakov onun ciblərini qurdalayaraq soruşdu:

– Tənzifin varmı?

– Nəyimə gərəkdir, tənzif dediyin! Onsuz da keçinərəm.

Strelyadnikov güllənin çıxdığı yeri diqqətlə nəzərdən keçirdi, sonra dişi ilə patronun gülləsini dartıb qopartdı, barıtı ovcuna tökdü, yerdən bir az torpaq götürdü, onu əvvəlcə tüpürcəyi ilə islatdıqdan sonra, barıtla qarışdırdı. Güllənin həm dəydiyi, həm də çıxdığı yerə bolluca palçıq yaxıb məmnun halda dedi:

– Bu, sınaqdan çıxmış məlhəmdir! Yara quruyacaq və iki gündən sonra it yarası kimi sağalacaqdır.

Onlar Çir çayı sahilinədək dayanmadılar. Milis nəfərləri xeyli uzaqdan onların dallarınca gəlir və arada bir güllə atırdılar. Fomin tez-tez dönüb dala baxır və deyirdi: – Bizi gözlərindən yayındırmırlar... Yoxsa kənardan kömək gözləyirlər? Onların bizdən xeyli aralı gəlmələri təsadüfi deyil...

Visloquzovsk xutoruna çatanda atlarını Çir çayından qırdırma o taya keçirdilər, yavaş-yavaş yastı bir dikə qalxdılar. Atlar həddindən artıq yorulmuşdu. Atlarını birtəhər dəhmərləyib yoxuşun ayağına çatdılar, amma yoxuşu diklənmək lazım gəldikdə atları yedəkləməyə məcbur oldular, islanmış yançaqlarından, sağrılarından titrək köpük topalarını əlləri ilə silə-silə qalxdılar.

Fominin mülahizəsi düzgün imiş. Visloquzovsk xutorundan beş verst kənarda təzəcə, iti qaçan ata minmiş yeddi atlı onların dalınca gəlməyə başladı.

Koşelyovun qanı qaraldı və dedi:

– Bundan belə də onlar bizi bu qayda bir-birinə ötürsələr işimiz yaman şuluq olacaqdır!

Onlar çölləmə gedir, yoldan kənar yerlərlə at sürür, növbə ilə atışırdılar: iki nəfəri otun içinə sinərək atəş açanda qalanı iki yüz sajın uzaqlaşır, atdan düşərək düşməni güllələyir, beləliklə, bayaq yerə uzananlara dörd yüz sajın qabağa getməyə, yerə uzanıb atəşə hazırlaşmağa imkan yaradırdı. Onlar bir milis nəfərini ya öldürdülər, ya da ağır yaraladılar, ikinci milis nəfərinin atını vurdular. Tezliklə Çumakovun atına da güllə dəydi. O, indi üzəngidən yapışaraq, Koşelyovun atı ilə yanaşı qaçırdı.

Kölgələr getdikcə uzanırdı. Günəş batırdı. Qriqori təklif etdi ki, atları bir-birindən aralı yox, yanaşı sürsələr yaxşıdır; onlar bir yerdə aramla yol getməyə başladılar. Çumakov da onlarla yanaşı yeriyirdi. Sonra bələndə, təpənin üstündə cütatlı araba gördülər, atların başını yola sarı çevirdilər. Ortayaşlı, saqqallı arabaçı – kazak atları bərk səyirdirdi, amma güllə səsi onu dayanmağa vadar etdi:

– Doğraram səni, alçaq! Onda bilərsən ki, qamçı nədir... – deyə Koşelyov dişlərini qıcayaraq qışqırdı, qabağa atılıb var gücü ilə atın birinə bir qamçı çəkdi.

– Ona toxunma, Saşka, icazə vermirəm, – deyə Fomin Koşelyovu hədələdi və hələ arabanın yanına çatmamış qışqırdı: – Atları arabadan aç, baba, eşidirsən? Atları, canın sağ ikən, aç!

Onlar qocanın göz yaşları ilə yalvarmasına məhəl qoymayıb, atları özləri açdılar, xamıtları ilə yan qayışlarını götürdülər, tez bellərinə yəhər basdılar.

Qoca ağlaya-ağlaya deyirdi:

– Əvəzinə heç olmasa öz atlarınızdan birini verin!

Koşelyov soruşdu:

– Dişlərinin tökülməyini də istəyirsənmi, qoca şeytan? Atlar bizim özümüzə lazımdır! Sən Allaha şükür elə ki, özün sağ-salamat qalırsan...

Fomin və Çumakov təzə atlara mindilər. Onları təqib edən altı atlıya tezliklə üç nəfər də qoşuldu. Fomin dedi:

– Atları bərk sürmək lazımdır! Tərpənin, uşaqlar! Əgər axşamadək Krivskoy Loqa çata bilsək, canımız qurtaracaq.

O, atına bir qamçı çəkdi, qabağa səyirtdi. Cilovu gödək tutulmuş ikinci at da onun sol tərəfi ilə çapırdı. Atların ayağı dəydikcə qopub düşən dağ lalələrinin qıpqırmızı başları, iri qan damlaları kimi, ətrafa dağılırdı. Atını Fominin ardınca sürən Qriqori bunlara baxıb gözlərini yumdu. Nədənsə onun başı hərləndi və ürəyinin başında tanış və kəskin bir ağrı duydu...

Atların son nəfəsi idi. Arasıkəsilmədən at sürməkdən və aclıqdan adamlar da yorulmuşdu. Strelyadnikov artıq yəhərdə yırğalanırdı, rəngi bez kimi olmuşdu. Ondan çoxlu qan getmişdi. Susuzluq və ürəkbulanması ona əzab verirdi. O, bir az quruyub daşa dönmüş çörək yedi, amma dərhal yediyini qusdu.

Onlar qaranlıq qovuşanda, Krivskoy xutoru yaxınlığında atlarını düz çöldən qayıdan ilxının içinə sürdülər, son dəfə dallarınca gələnlərə bir neçə güllə atdılar, təqib edənlərin uzaqlaşdıqlarını gördükdə, sevindilər. Xeyli uzaqda olan doqquz nəfər atlı bir araya yığışdılar, güman ki, nə barədə isə məsləhətləşdilər, sonra da atlarının başını geriyə döndərdilər.

Onlar Krivskoy xutorunda Fominin tanışı olan bir kazakın evində iki gün qaldılar. Ev sahibi varlı kişi idi, onları yaxşı qarşıladı. Qaranlıq mərəkdə bağlanmış atlar qabaqlarına qoyulmuş vələmiri

yeyib qurtardılar, dəlicəsinə səyirtmələrdən iki gün ərzində əməlli-başlı dinclədilər. Adamlar atların yanında növbə ilə keşik çəkdilər, hər tərəfi hörümçək toruna bürünmüş sərin samanlıqda yan-yana yatışdılar, adada yarıac-yarıtox keçirdikləri günlərin heyifini çıxaraq doyunca yedilər.

Gəldikləri günün sabahı onlar xutordan gedə bilərdilər, amma Strelyadnikov onları ləngitdi: yarasının ağrısı şiddətlənmişdi, səhərçağı yaranın yanlarında qızartılar əmələ gəldi, axşamüstü isə ayağı şişdi, xəstə huşunu itirdi. O, susuzluqdan yanırdı. Gecə səhərə qədər, özünə gələn kimi su istəyir, gətirdikcə içir, həm də çoxlu içirdi. Bir gecədə, o demək olar, bir vedrə su içdi, amma hətta başqası kömək eləsə də, yerindən dura bilmədi, ağrıdan heç tərpənə bilmirdi. Yerindən qalxmadan pəşov eləyir, arasıkəsilmədən zarıldayırdı. Onu samanlığın lap dib küncünə apardılar ki, zarıltısını eşidən olmasın, amma bunun xeyri olmadı. O bəzən çox ucadan zarıyır, ağrının şiddətindən huşunu itirdikdə isə sayıqlamağa başlayır, çox bərkdən və rabitəsiz çığırırdı.

Onun da yanında keşikçi qoymaq lazım gəldi. Ona su verir, qızdırmadan alışıb-yanan alnına su çiləyir, xəstə həddindən artıq ucadan zarıdıqda və ya sayıqladıqda ağzını əlləri ilə və ya şapka ilə örtürdülər.

İkinci günün axırında onun huşu özünə gəldi və əhvalının yaxşılaşdığını söylədi. Barmaq işarəsi ilə Çumakovu yanına çağırıb soruşdu:

– Buradan nə vaxt gedirsiniz?

– Bu gecə.

– Mən də gedəcəyəm. Sizi Allaha and verirəm, məni burada qoyub getməyin!

Fomin yavaşca dedi:

– Sən necə gedə bilərsən axı? Heç yerindən qımıldana da bilmirsən.

– Necə yəni qımıldana bilmirəm? Bax! – Strelyadnikov böyük səylə ayağa qalxdı, amma o dəqiqə yenə yerinə uzandı.

Onun üzü yanırdı, alnını muncuq kimi tər damlaları bürümüşdü.

Çumakov qətiyyətlə dedi:

– Apararıq, apararıq, qorxma! Gözlərinin yaşını sil, sən ki, arvad deyilsən.

– Tərdir, – deyə Strelyadnikov pıçıldadı və şapkasını gözlərinin üstünə basdı...

– Səni məmnuniyyətlə burada qoyub gedərdik, amma ev sahibi razı deyil. Qorxma, Vasili! Ayağın sağalacaq, sənlə birlikdə mübarizə də edəcəyik, hələ kazak rəqsi də oynayacağıq. Niyə belə ruhdan düşmüsən, hə? Yara da çox ciddi deyil, lap bekara şeydir!

Başqalarına qarşı rəftarında həmişə amansız və kobud olan Çumakov bu sözləri elə mehriban və səmimi bir ahənglə dedi ki, Qriqori mat-mat onun üzünə baxdı.

Onlar xutordan dan yeri ağarana bir az qalanda çıxdılar. Strelyadnikovu çox çətinliklə yəhərdə oturtdular, lakin o təkbaşına yəhərdə dura bilmir, gah sağa, gah sola aşırdı. Çumakov atını onunla yanaşı sürür, sağ qolu ilə onu qucaqlayıb saxlayırdı.

Fomin atını Qriqorinin yanına sürdü, başını peşmançılıqla bulayaraq pıçıldadı:

– Bunu da özümüzə əcəb yük elədik... Onu atıb getmək lazım gələcəkdir...

– Öldürməkmi istəyirsiniz?

– Hə də, bəs neyləməliyik, üzünə tamaşa edək? Biz onunla hara gedə bilərik?

Onlar uzun zaman atlarını yavaşca sürür, danışmırdılar. Çumakovu əvvəlcə Qriqori, sonra Koşelyov əvəz etdi.

Günəş doğdu. Aşağıda Donun üstündən duman hələ çəkilməmişdi, təpənin üstündə isə çölün əngin ağuşu artıq şəffaf və aydın bir görkəm almışdı, göy qübbəsi hər dəqiqə maviləşir, ortasındakı dağınıq buludcuqlar daşa dönmüş kimi görünürdü. Otların üzərinə düşmüş qalın şeh gümüşü parça kimi parıldayır, atların keçib getdiyi yerlərdə sulu izlər qalırdı. Çölün hər tərəfinə sərilmiş bu əzəmətli və dilbər sükutu yalnız torağayların səsi pozurdu.

Atın yerişinə uyğun surətdə başı taqətsiz halda silkələnən Strelyadnikov yavaşca dedi:

– Ah, nə qədər ağırdır!

Fomin qaba bir surətdə onun sözünü yarımçıq kəsdi:

– Sus! Sənin nazınla oynamaq da bizə çox asan deyil!

Böyük kolun yaxınlığında atların ayaqları altından bir bəzgək parıltı ilə qalxdı. Quşun qanadlarının səsi Strelyadnikovu bayğınlıqdan ayıltdı. O yalvardı:

– Qardaşlar, məni atdan düşürün...

Çumakov çöməltmə oturaraq dedi:

– Qoysana, baxaq görək, ayağın necədir? Tez ol, şalvarının düymələrini aç.

Strelyadnikovun ayağı şişib kötüyə dönmüşdü, enli şalvarına sığmırdı. Ombasına qədər gömgöy olmuş dərisi işıldayırdı, hər tərəfi tünd, əl vuranda məxməri andıran ləkələrlə örtülmüşdü. Qarabuğdayı, xeyli dərinə düşmüş qarnının üstündə bu cür, amma nisbətən açıq rəngdə ləkələr görünürdü. Onun yarasından quruyub şalvarına yapışmış qonur qandan iyrənc, çürüntünü andıran iy gəlirdi; dostunun ayağına baxan Çumakov burnunu barmaqları ilə tutmuşdu, boğazına tıxanmış ürəkbulanmasından üz-gözünü qırışdırırdısa da, özünü zorla saxlaya bilirdi. Sonra o Strelyadnikovun aşağıya endirilmiş göy göz qapaqlarına baxıb, Fominlə himləşib dedi:

– Deyəsən Əzrayıl özünü yetirmişdir... Bə-ə-li... Vasili Strelyadnikov, işin yaşdır... Lap əməlli-başlı fırıqdır!.. Eh, Vasya, niyə güllə səni bu hala saldı!

Strelyadnikov tövşüyə-tövşüyə nəfəs alır və bir kəlmə belə olsun danışmırdı. Fomin ilə Qriqori komanda verilmiş kimi, birdən atdan düşdülər, yel əsməyən tərəfdən yaralıya yaxınlaşdılar. Yaralı bir az da uzandı, əllərini yerə dirəyərək oturdu, dumanlı, hər şeydən əl üzülmüş baxışları ilə hamını süzdü:

– Qardaşlar! Məni öldürün... Daha yaşamayacağam... Tamam haldan düşmüşəm, daha davam gətirə bilmirəm...

O yenə dalı üstə uzandı və gözlərini yumdu. Fomin də, başqaları da belə bir xahişin ediləcəyini bilir və bunu gözləyirdilər. Fomin Koşelyova him elədi, geriyə çevrildi, Koşelyov da heç nə deməyib tüfəngini üzünə götürdü. Qırağa çəkilmiş Çumakovun dodaqlarından çıxan "At!" sözünü eşitməkdən çox, başa düşdü. Lakin Strelyadnikov yenə gözlərini açdı və qətiyyətlə dedi:

– Gülləni buraya at. – O qolunu qaldırdı və barmağı ilə burnunun üstünü göstərdi. – Elə at ki, dünya birdən gözlərimdə qaralsın. Mənim xutoruma yolunuz düşsə, arvadıma deyərsiniz ki, belə-belə oldu, deməli, daha məni gözləməsin.

Koşelyov şübhəli bir tərzdə bayaqdan bəri çaxmaqla əlləşir, ləngiyirdi; Strelyadnikov da başını aşağı dikərək bu sözləri deyə bildi:

– Mənim bircə arvadım var... uşaqlarım yoxdur... Var-yox bircə uşaq doğmuşdu, o da öldü... Başqa övladım olmayıb...

Koşelyov iki dəfə tüfəngi üzünə götürdü ki, atsın, hər dəfə də rəngi daha da qaçmış halda tüfəngi aşağıya saldı. Çumakov qəzəblənərək çiyni ilə Koşelyovu qırağa itələdi və tüfəngi dartıb onun əlindən aldı.

Fomin ayağını üzəngiyə keçirib tələb elədi:

– Tez ol!

Çumakov demək üçün münasib sözlər axtararaq aramla və sakitcə dedi:

– Vasili! Səni and verirəm Allaha, məni də, bizim hamımızı da bağışla! O dünyada üz-üzə gələrik, bizim haqq-hesabımızı çəkərlər. Xahişini də arvadına çatdırarıq. – O, cavab gözlədi, lakin Strelyadnikov dinmir, ölümünü gözləyirdi. Onun yalnız günəşdən qarsalanmış kirpikləri, yel əsirmiş kimi titrəyir, bir də üst köynəyinin qırılmış düyməsini nədənsə düymələməyə çalışan sol əlinin barmaqları qımıldanırdı.

Qriqori həyatında çox ölümlər görmüşdü, amma bu ölümə o da baxa bilmədi. O, cilovu var gücü ilə çəkə-çəkə, tez qabağa getdi, atını yedəklədi. Atəşi o belə bir duyğu ilə gözləyirdi. Elə bil indicə atılan güllə onun kürəklərinin arasına sıxılacaqdı... O, atəş açılmasını gözləyirdi, ürəyi saniyədə bir guppuldayırdı, amma geridə şaqqıltı ilə, sərt bir səslə atəş açıldıqda onun qılçaları əsdi, şahə qalxmış atının başını zorla saxlaya bildi...

Onlar iki saat atlarını dinməzcə sürdülər. Düşərgəyə çatdıqda sükutu hamıdan əvvəl Çumakov pozdu:

– Axı niyə mən onu güllə ilə vurdum? Çölə tullayıb getsək, daha bir günaha batmasam yaxşı olardı. Heç gözlərimin qarşısından getmir...

Fomin soruşdu:

– Bu işə hələ alışmamısan? Bu qədər adam öldürmüsən, yenə də öyrəşməmisən! Sənin ürəyin yox imiş, onun yerindəki paslanmış dəmir parçası imiş...

Çumakovun rəngi ağardı, Fominə qəzəbli-qəzəbli nəzər saldı. O, yavaşca dedi:

– Sən gəl mənə bu gün toxunma, Yakov Yefimoviç! Mənim ruhumu xırpalama, yoxsa səni də öldürərəm... Həm də çox asanlıqla!

Fomin dalı üstə uzanaraq gün işığından gözlərini yumub, həzz ilə gərnəşərək mülayimliklə cavab verdi:

– Sənə toxunmaq mənim nəyimə lazımdır axı? Sənsiz də mənim dərdim-azarım çoxdur.

XVI

Qriqorinin gözləmədiyi halda, on günün ərzində onlara qırx kazak qoşuldu. Bunlar vuruşmalarda əzilmiş kiçik quldur dəstələrinin tör-töküntüsü idi. Onlar atamanlarını itirdikdən sonra mahalda avaralanırdılar, buna görə də Fominin yanına həvəslə gəlirdilər. Onlar üçün kimə qulluq etməyin, kimləri öldürməyin qəti əhəmiyyəti yox idi, təki sərkeş köçəri həyat sürmək, əllərinə keçən hər kəsi soymaq mümkün olsun. Bunların hamısı korlanmış adamlar idi, Fomin də onlara baxıb nifrətlə Qriqoriyə deyirdi: "Hə, Melexov, başımıza adam yox, zir-zibil toplaşmışdır... hamısı seçmə quldurbaşıdır!" Qəlbinin dərinliklərində isə Fomin özünü yenə də "zəhmətkeş xalq uğrunda mübariz" hesab edir, əvvəlki kimi tez-tez olmasa da yenə deyirdi: "Biz kazakların xilaskarıyıq..." Sarsaq ümidlərindən inadla əl çəkmirdi... O, yenə də silahdaşlarının soyğunçuluğunu görməməzliyə vurur, bunu dözülməsi lazım gələn zəruri bir bəla hesab edir, vaxtı gələndə bu soyğunçulardan yaxasını qurtaracağına, bir kiçik quldur dəstəsinin yox, üsyan qaldırmış əsgəri hissələrin əsl sərkərdəsi olacağına inanırdı.

Çumakov isə utanmadan fominçilərin hamısını "quldur" adlandırır və səsi tutuluncaya qədər mübahisə edib Fomini inandırırdı ki, Fomin özü də böyük yola çıxmış quldurbaşıdan başqa bir şey deyildir. Yanlarında başqa adamlar olmayanda Fominlə Çumakovun arasında tez-tez qızğın mübahisələr olurdu.

Fomin qəzəbindən pörtüb qıpqırmızı olaraq bağırırdı:

– Mən Sovet hakimiyyətinə qarşı ideya mübarizəsi aparan bir adamam! Amma sən mənə, Allah göstərməsin, gör nə ad verirsən! Ay axmaq, sən bunu başa düşürsənmi ki, mən ideya uğrunda vuruşuram?!

– Sən mənim başımı ağrıtma! – deyə Çumakov etiraz edirdi. – Sən gəl, məni çaşdırma. Mən uşaq deyiləm! Buna bax, ideyalıya bax! Sən əsl quldurdan başqa bir şey deyilsən, vəssalam. Bir də niyə sən bu kəlmədən qorxursan? Bunu qəti başa düşə bilmirəm!

– Sən niyə belə deyib məni biabır edirsən? Niyə axı, ay səni yerə girəsən?! Mən hakimiyyətə qarşı üsyan etmişəm və ona qarşı əlimdə silah vuruşuram. Bəs onda mən niyə quldurам?..

– Bax, elə məhz hakimiyyətə qarşı vuruşduğun üçün quldursan. Quldurlar həmişə hakimiyyətin əleyhinə olublar, qədimdən belə-

dir. Sovet hakimiyyətinin necə hakimiyyət olduğu bir yana dursun, amma o yenə də hakimiyyətdir, on yeddinci ildən bu yana mövcuddur, kim ona qarşı çıxış edirsə, deməli, o, quldurdur.

– Sənin başın boşdur! General Krasnov ilə Denikin də quldur idilər?

– Quldur deyildilərsə bəs nə idilər? Fərq burasında idi ki, çiyinlərində epoletləri var idi... Epolet nədir ki, cüzi bir şey. Bunu çiynimizə biz də taxa bilərik...

Fomin yumruğunu yerə çırpır, tüpürür və inandırıcı dəlillər tapa bilmədiyi üçün, faydasız mübahisəni kəsirdi. Çumakovu bir şeyə inandırmaq çox çətin idi.

Dəstəyə təzə gələnlərin əksəriyyəti mükəmməl silahlanmış və yaxşı geyinmiş şəxslər idi. Demək olar, hamısının uzaq məsafəyə səfərlərdən çıxmış, gündə hər biri rahatca yüz verst yol gedən atı var idi. Bəzilərinin atı hətta iki idi: birini minir, ehtiyat at adlandırılan digər at da, atlının böyründə boş gedirdi. Atlı zərurət məqamında bu atdan düşüb o birinə minir, beləliklə də hər ikisinə dincəlmək imkanı verir, gündə iki yüz verst yol gedə bilirdi.

Fomin yeri gələndə Qriqoriyə deyirdi:

– İşin əvvəlindən bizim də hər birimizdə iki at olsaydı, onlar qətiyyən bizi təqib edə bilməzdilər! Camaatın atını zorla almağa nə milis idarəsinin ixtiyarı var, nə də qızıl əsgər hissələrinin; onlar bunu eləməkdən çəkinirlər, amma bizə ixtiyar verilmişdir! Biz də, hər birimiz, ikinci at ələ keçirməliyik, onda bizi heç kəs qomarlaya bilməz! Qocalar belə nağıl edirdilər ki, qədim zamanlarda tatarların da, basqına gedəndə hər birinin iki, hətta bəzilərinin üç atı olarmış. Belə atlıya kim çata bilər? Biz də belə etməliyik. Tatarların bu müdrik hərəkəti mənim çox xoşuma gəlir!

Tezliklə onlar əlavə at ələ keçirdilər; bu da ilk zamanlar, doğrudan da, onları ələkeçməz, qanadlı bir şey eləmişdi. Veşenskayada təzədən təşkil edilmiş milis qrupu hədər yerə onları qovur, yaxalamaq istəyirdi. Ehtiyatda saxlanılan atlar, Fominin sayca az quldur dəstəsinə düşməndən asanlıqla aralanmağa, riskli toqquşmaya girişmədən, düşməndən bir neçə mənzil uzaqlaşmağa imkan verirdi.

Bununla belə mayın ortalarında quldur dəstəsindən sayca dörd qat çox olan atlı milis qrupu, Ust-Xoperskaya stanitsasının Bobrovsk xutoru yaxınlığında Fomini hiylə ilə Don çayı sahilinə qısnadı.

Lakin quldur dəstəsi qısa bir toqquşmadan sonra mühasirəni yarıb aradan çıxdı, səkkiz nəfəri öldü və yaralandı. Bu hadisədən bir az sonra Fomin qərargah rəisliyi vəzifəsini öhdəsinə götürməyi Qriqoriyə təklif elədi.

– Bizə planla hərəkət edən, xəritə ilə iş görən savadlı adam lazımdır, yoxsa günlərin bir günündə bizi yenə məngənə arasına salıb sıxışdıracaqlar. Qriqori Panteleviç, bu işi öz öhdənə götür.

Qriqori qaşqabağını sallayaraq cavab verdi:

– Milis nəfərlərini yaxalamaq və boyunlarını vurmaq üçün qərargah lazım deyil.

– Boş söz danışma, hər bir dəstənin özünün qərargahı olmalıdır.

– Qərargahsız keçinə bilmirsənsə, bu vəzifəyə Çumakovu götür.

– Bəs sən niyə istəmirsən?

– Çünki qərargah rəisliyindən başım çıxmır.

– Çumakovun başı çıxır?

– Çumakovun da başı çıxmır.

– Bəs onda niyə onu qabağa itələyirsən? Sən zabitsən, bu işdən başın çıxmalıdır, taktikanı və sair hər çeşid şeyləri bilməlisən.

– Sən indi nə cür dəstə komandirisənsə, mən də o cür zabit olmuşam! Taktikamız da bircə şeydir: çöldə sərgərdan dolaş, bir də tez-tez ətrafına döyük... – deyə Qriqori söhbəti zarafata saldı.

Fomin Qriqoriyə göz vurdu, onu barmağı ilə yanadı:

– Sənin zahirini də görürəm, içərini də! Həmişə yaxanı qırağa çəkirsən! Kölgədə qalmaq istəyirsən? Bu, qardaş, sənin canını qurtara bilməyəcəkdir! Vzvod komandiri olmaq və ya qərargah rəisliyində çalışmaq eyni şeydir. Sən elə zənn edirsən ki, elə keçdikdə sənə güzəştə gedəcəklər? Ümid olma, olan iş deyil.

Qriqori qılıncının qotazını diqqətlə nəzərdən keçirdərək dedi:

– Sən nahaq yerə fal açırsan, mən bu barədə heç fikirləşmirəm. Bir şeyi bilmirəmsə, ondan yapışmaq da istəmirəm...

İncimiş Fomin də onunla razılaşdı:

– İstəmirsən, lazım deyil, sənsiz də əmrimiz aşar.

Mahalda vəziyyət kökündən dəyişdi; əvvəllər Fomini böyük qonaqpərvərliklə qarşılayan varlı kazaklar indi qapıları möhkəm bağlayır, quldur dəstəsi xutora gələr-gəlməz ev sahibləri qaçışır, bağlarda və biçənəklərdə gizlənirdilər. Hərbi-inqilab tribunalının Veşenskayaya gəlmiş səyyar sessiyası, əvvəllər Fomini hörmətlə

qəbul etmiş bir çox kazakı ciddi cəzalandırdı. Bu xəbər bütün stanitsalara yayıldı və quldurlara açıqdan-açığa rəğbət göstərənlərin şüurlarına müəyyən təsir elədi.

Fomin iki həftə içərisində Donun yuxarısındakı stanitsaların ətrafında geniş dövrə vurdu. Quldur dəstəsində indi yüz otuz süvari var idi; indi onları tez-tələsik təşkil edilmiş atlı milis qrupu yox, cənubdan buraya gətirilmiş 13-cü süvari polkunun bir neçə eskadronu təqib edirdi.

Fominin dəstəsinə son zamanlarda qoşulmuş quldurların çoxu uzaq yerlərin adamı idi. Onların hamısı Dona müxtəlif yollarla gəlmişdilər: bəziləri təkə-təklikdə dustaqlıqdan, həbsxanadan, düşərgələrdən qaçmışdı, amma əksəriyyəti Maslakın dəstəsindən ayrılmış və onlarca atlıdan ibarət bir qrup idi, bəziləri də darmadağın edilmiş Kuroçkinin quldur dəstəsindən qalanlardı. Maslakın dəstəsindən gələnlər öz xoşları ilə bütün vzvodlara daxil oldular, amma Kuroçkinin dəstəsindən olanlar bir-birindən ayrılmaq istəmədilər. Onlar bütünlükdə möhkəm əlaqəli və başqalarından kənarda dolanan əlahiddə bir vzvod oldular. Vuruşmada da, dincələndə də əlbir hərəkət edir, bir-birinə möhkəm tərəfdar çıxır və bir yaşayış məntəqəsində Yerli İstehlak Cəmiyyətinin dükanını və ya anbarını taladıqda, gətirdikləri qəniməti ortalığa qoyur, bərabərlik prinsipinə riayət edərək, onu vzvod nəfərləri arasında bərabər paylaşdırırdılar.

Əyinlərində köhnəlmiş çərkəzi çuxa olan bir neçə kubanlı, terekli kazak, Velikoknyajevskaya stanitsasından gəlmiş iki kalmık, ayağında dizindən də yuxarı qalxan ovçu çəkməsi olan bir nəfər latış, zolaqlı matros köynəkli, günəşdən rəngi bozarmış uzun, ayaqları gen şalvarlı beş anarxist-matros Fominin quldur dəstəsinin onsuz da ala-bəzək paltarlı, hərəsi bir diyardan gəlmiş tərkibini daha da ala-bula göstərirdi.

Bir gün Çumakov səfəri yürüşlə hərəkət edən süvarilər dəstəsini gözü ilə göstərək Fomindən soruşdu:

– Hə, yenə də höcət edəcəksənmi ki, sənin adamların quldur deyil, necə deyirlər... ideya uğrunda vuruşanlardır? Bizim indi saqqalını qırxdırmış keşişimiz, bir də əyninə paltar geyindirilmiş donuzumuz əskikdir. Bunlar da olsaydı Məryəm ana qafiləsi düzəlmiş olardı...

Fomin səsini çıxarmadı. Onun yeganə arzusu, ətrafına mümkün qədər çoxlu adam toplamaq idi. O, dəstəyə könüllü qəbul edəndə

heç nə ilə hesablaşmırdı. Onun komandası altında xidmət etmək istədiyini bildirən hər kəsi özü sorğu-sual edir, qısaca deyirdi:

– Qulluğa yarayırsan. Qəbul edirəm. Mənim qərargah rəisim Çumakovun yanına get, hansı vzvodda olacağını sənə o göstərəcək, özünə də silah verəcəkdir.

Miqulinskaya stanitsası xutorlarından birində yaxşıca geyinmiş, saçları qıvırcıq və qarayanız bir oğlanı Fominin yanına gətirdilər. Oğlan quldur dəstəsinə daxil olmaq istədiyini bildirdi. Fomin sorğu-sual nəticəsində öyrəndi ki, oğlan rostovludur, bu yaxınlarda silahlı soyğun üstündə ona cəza kəsilmişdir, amma Rostov həbsxanasından qaçmış, Fominin adını eşidib buraya, Donun yuxarılarına gəlmişdir.

– Sən hansı tayfadansan, millətdənsən? Ermənisən, yoxsa bulqar? – deyə Fomin soruşdu.

Oğlan bir qədər karıxmış halda cavab verdi:

– Yox, mən yəhudiyəm.

Fomin bu gözlənilməz cavabdan özünü itirdi, xeyli vaxt dinmədi. O bilmirdi ki, belə gözlənilməz təsadüf qarşısında nə cür hərəkət eləsin. Bir az məsələni ağlında vuruşdurduqdan sonra, köksünü ağır-ağır ötürərək dedi:

– Nə olar, neyləyək, yəhudisən yəhudi ol. Biz belələrindən də boyun qaçırmırıq... Bir adamımız da artır. Sən at minə bilirsənmi? Yox? Öyrənərsən? Əvvəlcə sənə bir babatca madyan verərik, sonra at minməyi öyrənərsən. Çumakovun yanına get, yerini o təyin edər.

Bundan bir neçə dəqiqə sonra cinlənmiş Çumakov Fominin yanına gəldi. Atının başını çəkərək qışqırdı:

– Sən gicləşmisən, yoxsa zarafat eləyirsən? Bu cuhudu nə üçün mənim yanıma yollamısan? Qəbul eləmirəm! Qoy hansı cəhənnəmə gedir getsin!

Fomin sakitcə dedi:

– Götür, götür, adamlarımızın sayı bir nəfər artıq olar. – Çumakov dodaqlarından köpük daşlana-daşlana bağırdı:

– Götürməyəcəyəm! Öldürrəm, amma götürmərəm! Kazaklar hay-haray salıblar, get özün onları başa sal!

Onlar höcətləşib bir-birinə ağır sözlər dedikləri zaman, ikitəkərli yük arabasının yanında cavan yəhudinin naxışlı köynəyini və aşağısı enli mahud şalvarını əynindən soyundurdular. Kazaklardan biri onun köynəyini öz əyninə geymək üçün ölçüb-biçərək dedi:

– Xutorun o tərəfindəki kol-kosu görürsənmi? Yüyürə-yüyürə oraya get və yerə uzan. Biz burada gedincəyə qədər yerindən tərpənmə, biz gedən kimi qalx və hara istəyirsən əkil. Bir də bizə yaxın gəlmə, öldürərik, Rostova, ananın yanına getsən yaxşıdır. Dava eləmək siz cuhudların işi deyil. Xudavəndi-aləm sizə vuruşmaq yox, ticarət öyrədibdir. Burada işimiz sizsiz də aşar, bu vurhavuru birtəhər başa çatdırarıq!

Yəhudini dəstəyə qəbul eləmədilər, amma o günü Veşenskaya stanitsasının bütün xutorlarında əhali arasında ad çıxarmış axmaq Paşanı gülə-gülə, zarafatlaşaraq, ikinci vzvoda götürdülər. Onu çöldə yaxaladılar, xutora gətirdilər, əyninə öldürülmüş bir qızıl əsgər paltarı geyindirib bəzədilər, silahdan necə istifadə edəcəyini göstərdilər, uzun zaman qılınc oynatmaq öyrətdilər.

Qriqori axurun yanında dirəyə bağlanmış atların yanına gedirdi, amma kənarda xeyli adamın bir araya toplaşdığını görüb, oraya yönəldi. Şiddətli qəhqəhə onu bir az da yeyin yeriməyə vadar etdi, sonra da aralığa sakitlik düşəndə eşitdi ki, kim isə göstəriş verir:

– Qılıncı elə tutmazlar, Paşa! Kim qılıncı bu cür endirir? Bu qayda adam öldürmək yox, odun yarmaq olar. Qılıncı belə hərləmək lazımdır, bax, anladınmı? Əlinə adam keçən kimi, əmr et qarşında diz çöksün, yoxsa dik dursa onu vura bilməzsən... Adam dizi üstə çökən kimi, sən də onun boynunu daldan, bax bu qayda vur. Düzünə qılınc çalmağa çalışma, tiyə yaxşı kəssin, ətə işləsin deyə qılıncı özünə doğru dart...

Quldurların aralığa aldıqları dəli, sıyrılmış qılıncın dəstəsindən möhkəm yapışaraq dimdik dayanmışdı. O gülümsünür, bərəlmiş ala gözlərini ləzzətlə büzüşdürərək, kazaklardan birinin ona verdiyi tövsiyələri dinləyirdi. Onun ağzının qıraqlarında at dodaqları kimi bərk köpük ağarırdı, mis kimi qırmızı saqqalından sinəsinə doğru güclü selik axırdı... O, dili ilə kirli dodaqlarını yalayır və fısıldayaraq pəltəkləyərək deyirdi:

– Hər şeyi anladım, əzizim, hər şeyi... Elə sən deyən kimi də edərəm... Allah bəndəsini qarşımda diz çökməyə vadar edər və boyuncuğazını vuraram... necə lazımdır eləcə də vuraram! Siz mənə şalvar da verdiniz, köynək də, çəkmə də... Siz mənə bir palto da düzəldin, yaxşılığınızdan çıxaram! Bacardığım qədər çalışaram!

Kazaklardan biri dedi:

– Bir komissarı öldür, bu da sənin palton. Amma indi nağıl elə görək, bildir səni necə evləndiriblər.

Dəlinin bərəlmiş və bulanıq pərdə gəlmiş gözlərində ani olaraq heyvani dəhşət dolaşdı. O, uzun-uzadı bir söyüş söydü, hamı gülüşdü, dəli nə isə deməyə başladı. Bütün bu mərəkə o qədər iyrənc idi ki, Qriqorinin əti ürpərdi, tez izdihamdan uzaqlaşdı. Kədərlənmiş, həm özünə, həm də bu iyrənc həyata olduqca nifrət etmiş, hiddətlənmiş Qriqori ürəyində belə düşünürdü: "Gör mən taleyimi kimlərlə bağlamışam..."

O, axurun yanında uzandı, dəlinin çığırtılarını, kazakların şaqqıltılı qəhqəhələrini eşitməməyə çalışdı. Tox, harın atlarına baxaraq qərarını verdi: "Günü sabah yola düşürəm. Vaxtdır!" O, quldur dəstəsindən uzaqlaşmağa səylə, ətraflı fikirləşərək hazırlaşırdı. Qılıncla öldürülmüş bir milis nəfərinin – Uşakovun sənədlərini götürdü, bunları şinelinin astarına tikdi. Atları hələ iki həftə əvvəl qısa, amma sürətlə qaçışa alışdırmağa başlamışdı: onları vaxtında sulayır, hətta hərbi xidmətdə olduğu zaman təmizləmədiyi bir səylə təmizləyir, gecələdikləri yerlərdə doğru və əyri yollarla dən ələ keçirdib, onara yedirdirdi; belə ki, onun atları, xüsusən, yanlarında alma iriliyində xalları olan boz Ukrayna atı başqa atların hamısından yaxşı görünürdü. Bu at tükünü tamamilə dəyişmişdi, dərisi günəşdə zağlı Qafqaz gümüşü kimi parıldayırdı.

Belə atların belində hər cür təqibdən cəsarətlə uzaqlaşmaq olardı. Qriqori ayağa qalxdı, yaxınlıqdakı həyətə getdi. Anbarın kandarında əyləşmiş bir qarıdan ehtiramla soruşdu:

– Kərəntiniz varmı, nənəcan?

– Harada isə var idi. Amma indi Allah bilir, haradadır. Nəyinə gərəkdir?

– Sizin otlaqdan atlarımız üçün bir qədər göy ot biçmək istəyirəm. Olarmı?

Qarı bir az fikirləşdikdən sonra dedi:

– Siz bizim boynumuzdan nə vaxt düşəcəksiniz? Sizə gah bu şey lazım olur, gah başqa şey... Biri gəlir taxıl tələb edir, digəri gəlir gözünə görsənəni, əlinə keçəni dartıb aparır. Mən sənə kərənti vermərəm! Nə edəcəksən et, amma verməyəcəyəm.

– Bu nədir, ay Allahın qarısı, çölün otuna heyifin gəlir?

– Bəs səncə ot bomboş yerdə bitir? Bəs otu sənə versəm, mən inəyə nə yedirdəcəyəm?

– Çöldə məgər ot azdır?

– Onda oraya da get, başına dönüm! Çöldə ot çoxdur.

Qriqori dilxor olub dedi:

– Ay nənə, kərəntini versən yaxşıdır. Bir az mən biçərəm, qalanı sənə qalar; atları otlağınıza ötürsək otun hamısını korlarıq!

Qarı yana-yana Qriqoriyə baxdı, üzünü kənara çevirdi:

– Get özün götür, gərək ki, mərəyin altında divardan asılıdır.

Qriqori mərəyin altını xeyli axtarandan sonra köhnə, qırıq bir kərənti tapdı və qarının yanından keçəndə onun mırtlanaraq: "niyə Allah sizi qırıb xalqın canını qurtarmır?" dediyini aydınca eşitdi.

Qriqori belə şeylərə dözə bilmirdi. Xutorlarda əhalinin onları nə cür qarşıladığını o, çoxdan görmüşdü. O, kərəntini ehmalca hərləməyə, otu təmiz çalmağa çalışaraq, belə düşünürdü: "Onlar düzgün mühakimə yürüdürlər. Biz onların nəyinə lazımıq? Biz heç kəsə lazım deyilik və hamının dinc yaşamasına və işləməsinə mane oluruq. Buna son qoymaq lazımdır, kifayətdir!"

Öz düşüncələri ilə məşğul olan Qriqori atların yanında dayanmışdı, onların qara məxməri andıran yumşaq dodaqları ilə zərif və təzə otu acgözlüklə yemələrinə tamaşa edirdi. Cavan oğlan səsini xatırladan kal bir səs onu fikirdən ayırdı.

– Pah, bu at nə qədər gözəldir, elə bil ceyrandır!

Qriqori danışan adama baxdı. Alekseyevskaya stanitsasından gəlmiş və quldur dəstəsinə bu yaxınlarda daxil olmuş gənc bir kazak boz ata baxır, heyran-heyran başını bulayırdı. O, məftun baxışlarını atdan çəkməyərək, bir neçə dəfə atın dövrəsinə dolandı, damağını marçıldatdı:

– Sənin atındırmı?

– Sənə nə, kimindir? – deyə Qriqori qaba cavab verdi.

– Gəl atlarımızı dəyişək! Mənim kəhər atım xalis Don cinsindəndir, hər cür maneədən atlanıb keçir, həm də yamanca qaçır, ay qaçandır ha! Elə bil şimşəkdir!

– Açıl başımdan, – deyə Qriqori ona soyuqca cavab verdi.

Oğlan bir qədər susdu, qəmgin-qəmgin köksünü ötürdü, bir az kənarda oturdu. O, boz ata xeyli nəzər saldıqdan sonra dedi:

– Atının xəfənəyi var. Nəfəsi də yaxşı deyil.

Qriqori dinməzcə dişlərini saman çöpü ilə qurdalayırdı. Bu sadəlövh oğlan onun xoşuna gəlməyə başlamışdı.

Oğlan yalvarışlı baxışlarını Qriqoriyə zilləyərək yavaşca soruşdu:

– Atlarımızı dəyişirikmi, əmican?

– Dəyişmirəm. Özünü də üstəlik versələr yenə dəyişmərəm.

– Sən bu atı haradan almısan?

– Özümdən uydurmuşam.

– Yox, gerçəkdən, haradan almısan?

– Bütün atların çıxdığı yerdən gəlmişdir: madyan doğmuşdur.

Oğlan inciyib mırtdandı:

– Di gəl belə axmaq adamla söz danış. – Bunu deyib kənara çəkildi.

Xutor Qriqoriyə bomboş və adamsız kimi görünürdü. Ətrafda fominçilərdən başqa heç kəs görünmürdü. Küçənin bir tərəfində atılıb qalmış araba, həyətdə tələsik üstünə balta sancılmış kötük, yanında yarı yonulmuş taxta parçası, boyunduruqdan açılmış, küçənin ortasında bitən gödək otları tənbəlcəsinə qırpan öküzlər, su quyusunun çatısı yanında ağzıüstə çevrilmiş boş vedrə – bütün bunlar xutorda dinc həyatın gözlənilmədən, birdən-birə pozulduğunu, ev sahiblərinin işlərini yarımçıq qoyub, qaçıb harada isə gizləndiklərini göstərirdi.

Bu cür kimsəsizliyi, adamların ala-tələsik qaçaqaçı izlərini Qriqori, vaxtilə kazak polkları Şərqi Prussiya ərazisindən köçəndə görmüşdü... İndi həmin şeyləri o burada öz doğma vətənində görürdü. O zaman orada almanlar, indi də Donun yuxarılarında kazaklar, onu qaşqabaqlı, nifrətli baxışlarla qarşılayırdı.

Qriqori qarı ilə söhbətini yada salır, köynəyinin yaxasını açaraq dərdli-dərdli ətrafına döyükürdü. Bu zəhrimara qalmış ağrı yenə ürəyini sıxırdı...

Günəşin istisindən yer yanırdı. Döngədə toz, ləvədə və at təri iyi duyulurdu. Dolaşalar talalarda, uca və hər tərəfi pırpızlı yuvalarla dolu bədmüşklərin başında qışqırışırdılar. Dərənin yuxarısında bulaq sularından yaranmış kiçik çay asta-asta xutorun arasından axır, onu iki yerə bölürdü. Evlərin pəncərələrini tutmuş albalı ağacları, yaşıl yarpaqları ilə təzəcə yumrulanmış kal meyvələrini günəşin qarşısına sərmiş şaxlı-budaqlı alma ağacları bol olan yaşıllığa qərq olmuş geniş kazak həyətləri çayın hər iki sahilindəki enişdə idi.

Qriqorinin dumanlanmış baxışları hər tərəfində qalın bağayarpağı bitmiş həyətə, damına küləş basılmış və pəncərələri saralan daxmaya, su quyusunun hündür çarxına dikildi. Xırman yanında, köhnə çəpərin payalarından birinin başına at kəlləsi keçirilmişdi; göz çanaqları qaralan kəlləni yağışlar dümağ eləmişdi. Yamyaşıl bir küdü tağı payaya dolana-dolana yuxarıya qalxmış, meylini işığa vermişdi. Küdü tağı payanın başına qədər qalxmış, saçaqlı ucları ilə kəllənin çıxıntıları üzərinə, atın ölü dişlərinə dolanmışdı; onun indi istinad nöqtəsi axtaran balaca bığı yaxınlığındakı itburnu kolunun budağına çatmışdı.

Qriqori bütün bunları nə vaxt görmüşdü – röyadamı, yoxsa uzaq uşaqlıq çağlarındamı? Onu birdən-birə sızıltılı bir həsrət yandırıb-yaxdı, çəpərin altında üzüqoylu yerə döşəndi, üzünü əlləri ilə örtdü və yalnız uzaqdan qulağına: "Atları yəhər-lə!" səsi gəldiyi zaman yerindən qalxdı.

Gecə o, səfəri yürüş zamanı atlarını sürüb sıradan kənara çıxdı, dayandı; guya yəhəri bu atın belindən götürüb o birinin belinə qoyurdu; sonra isə at dırnaqlarının tappıltısının aramla uzaqlaşmasına, kəsilməsinə fikir verdi və sıçrayıb ata minərək, onu dördnala yoldan kənara səyirtdi.

O, beş verstə qədər atları dayandırmadan səyirtdi, sonra yavaş yerişə keçdi, arxadan təqib edilib-edilmədiyini bilmək üçün ətrafa qulaq verdi. Çöl sükut içində idi. Qumlu qobularda yalnız cüllütlər şikayətli bir səslə qışqırır, bir də çox uzaqda hürən itin səsi güclə eşidilirdi.

Zülmət içərisindəki səmada sapsarı ulduzlar sayrışırdı. Çöl üzərində sakitlik və tünd, doğma yovşan iyi hopmuş meh hakim idi... Qriqori ayaqlarını üzəngiyə dirəyib qalxdı, yüngülləşmiş adam kimi rahat nəfəs aldı.

XVII

O, atları səyirdib səhərin açılmasına xeyli qalmış Tatarskın qarşısındakı biçənəyə çatdı. Xutordan bir qədər aşağıda, çayın dayaz yerində, lüt soyundu, paltarını, çəkmələrini, silahını atların başına bağladı, içi patronla dolu yan çantasını dişinə alaraq, atlarla birlikdə

üzüb çaydan keçməyə başladı. Çox soyuq olan su bədənini yandırırdı. O, qızışmağa çalışaraq sol əlindən bir-birinə bağlanmış cilovları boşlamadan sağ qolu ilə suyu sürətlə tərpədir, üzdükcə zarıyan və tırçıldayan atları yavaşca qızışdırırdı.

Sahildə paltarını cəld geyindi, yəhərlərin orta qayışlarını çəkib bərkitdi, atlar qızışsın deyə onları xutora doğru səyirtdi. Ətəkləri islanmış şinel, yəhərin islanmış yançaqları, nəm köynəyi onu üşüdürdü. Dişləri bir-birinə dəyib şaqqıldayır, soyuqdan kürəkləri qovuşur, özü də yarpaq kimi əsirdi. Lakin atları bərk sürdüyündən, tezliklə qızışdı, xutora bir az qalanda atları yavaş sürdü, ətrafa göz yetirə-yetirə, diqqətlə qulaq verə-verə getdi. Atları bir yarğanda qoyub getməyi qərara aldı. Daşlıq bir sıldırımla yarğanın dibinə endi. Xırda daşlar atların dırnağı altında quru səs çıxararaq dağılışır, nalların altından qığılcım çıxırdı.

Qriqori atları uşaqlıq çağlarından tanıdığı bir qaraağaca bağlayıb xutora getdi.

Bu da Melexovların köhnə evi, alma ağaclarının tünd yaşıl çətirləri, Ayı bürcü altındakı su çarxı... Qriqorinin həyəcandan nəfəsi daraldı, çaya endi, Astaxovların çəpərini ehtiyatla aşdı, taxtaları bağlanmış pəncərəyə yaxınlaşdı. O yalnız ürəyinin tez-tez döyündüyünü, bir də başına vurmuş qanın boğuq uğultusunu eşidirdi. O, çərçivənin bir gözünü çox yavaşca tıqqıldatdı; o qədər yavaş tıqqıldatdı ki, az qala özü də eşitmədi. Aksinya kirimişcə pəncərəyə yaxınlaşdı, diqqətlə bayıra baxdı. Qriqori onun əllərini necə sinəsinə sıxdığını gördü, dodaqlarından yavaşca inilti qopduğunu eşitdi. Qriqori ona pəncərəni açmasını işarə elədi, tüfəngini çiynindən aldı. Aksinya pəncərənin bir qanadını açdı. Qriqori pıçıltı ilə dedi:

– Səs salma! Salam! Qapını açma, pəncərədən girərəm.

O, qarnı üstə içəri girməyə hazırlaşdı. Aksinyanın çılpaq qolları onun boynuna dolandı. Bu qollar Qriqorinin çiynindən yapışanda elə çırpınır və uçunurdu ki, bu uçunma Qriqoriyə də keçdi.

Qriqori dili dolaşa-dolaşa, güclə eşidiləcək bir pıçıltı ilə dedi:

– Aksinyacan... dayan... bu tüfəngi al...

Qriqori bir əli ilə qılıncını tutaraq pəncərədən içəriyə girdi, sonra onu örtdü.

O, Aksinyanı qucaqlamaq istədi, lakin Aksinya onun qarşısında ağır-ağır diz çökdü, ayaqlarını qucaqladı, üzünü onun islanmış

şinelinə sürtərək, hıçqırığını saxlaya bildisə də bütün vücudu ləərzəyə gəldi. Qriqori onu yerdən qaldırdı, taxtın üstündə oturtdu. Aksinya onun qucağına girmişdi, üzünü onun sinəsinə basaraq səsini çıxarmırdı, tez-tez dik atılır, hıçqırığını boğmaq, uşaqları oyatmamaq üçün Qriqorinin şinelinin yaxasını dişləri ilə didişdirirdi.

Çəkdiyi əzab və iztirablar, görünür, bu qədər güclü olan Aksinyanı taqətdən salmışdı. Görünür, bu son aylar ərzində həyatı cəhənnəmə dönmüşdü... Qriqori onun kürəyinə dağılmış saçlarını, tərdən islanmış və isinmiş alnını sığalladı. O, Aksinyanın ürəyini boşaldıncaya qədər ağlamasına imkan verib soruşdu:

– Uşaqlar sağ-salamatdırlarmı?

– Bəli.

– Dunyaşka necədir?

– Dunyaşka da... sağdır, salamatdır.

– Mixayil evdədirmi? Daha bəsdir! Ağlamağı boşla, göz yaşların köynəyimi tamam islatdı... Aksinyacan! Mənim əzizim, kifayətdir! Vaxtımız azdır, ağlamaq zamanı deyil... Mixayil evdədirmi?

Aksinya üzünü sildi, Qriqorinin yanaqlarını yaş əlləri ilə sıxdı. Gözləri yaşlı halda gülümsəyərək, baxışlarını sevgilisindən ayırmayaraq sakitcə dedi:

– Daha ağlamayacağam... Daha hönkürmürəm... Mixayil evdə yoxdur, iki aydır ki, Vyoşkiyə getmişdir, orada bilmirəm hansı hissədə isə qulluq edir. Yeri, bir uşaqlarına bax! Oh, biz sənin gələcəyini, bir də görüşəcəyimizi güman etmirdik!..

Mişatka ilə Polyuşka çarpayının üstünə sərələnib yatmışdılar. Qriqori onların üstünə əyildi, bir qədər dayanıb baxdı, sonra ayaqlarının ucunda uzaqlaşdı, kirimişcə Aksinyanın yanında oturdu.

Aksinya hərarətli pıçıltı ilə soruşdu:

– Bəs nə cür oldu ki, gəldin? Necə gəlmisən? Bu vaxtadək haralarda idin? Səni tutsalar, neylərik?

– Səni aparmağa gəlmişəm. Qorxma, tuta bilməzlər! Gedərsənmi?

– Hara?

– Mənimlə. Mən quldur dəstəsindən aralandım. Fominin dəstəsində idim. Eşitmisənmi?

– Eşitmişəm. Bəs mən sənin hara getməliyəm?

– Cənuba. Ya Kubana, ya da uzaqlara. Bir növ keçinər, dolanarıq, eləmi? Bunun üçün hər cür iş görməkdən çəkinmərəm. Mənim

kimi adamın əlləri dava eləmək yox, işləmək üçündür. Bu son aylar ərzində mənim ürəyim ağrımışdır... Yaxşı, bu haqda sonra danışarıq.

– Bəs uşaqlar necə olsun?

– Onları Dunyaşkaya tapşırarıq. Sonra da iş özü göstərər. Yanımıza apararıq. Hə, nə deyirsən? Gedirsənmi?

– Qrişa... Qrişacan...

– Ağlama, canım! Gözünün yaşını sil! Bəsdir! Sonra ağlarıq, buna macalımız olacaqdır... Hazırlaş, atlarım yarğanda gözləyir. Hə, nə deyirsən? Gedirsənmi?

Birdən Aksinya ucadan səsləndi:

– Bəs sən necə güman edirdin? – Sonra da uşaqlara baxıb, əlini ağzına təpdi. Bu dəfə pıçıltı ilə soruşdu: – Bəs sən nə güman edirdin? Təkcə yaşamaq şirindirmi? Gedərəm, mənim əzizim, Qrişacan! Piyada da olsa gedərəm, lap dalınca da sürünərəm, amma burada təkcə qalmaram! Sənsiz mənə həyat zindandır... Yaxşı olar ki, məni öldürəsən, amma daha atıb getməyəsən!

O, var qüvvəsi ilə Qriqorini dartdı, bağrına basdı. Qriqori onun üzündən öpdü və pəncərəyə baxdı. Yay gecələri qısa olur. Tələsmək lazım idi. Aksinya soruşdu:

– Bəlkə bir az uzanıb dincələydin?

Qriqori qorxmuş halda dedi:

– Nə danışırsan! Səhərin açılmasına az qalıb, yola düşmək lazımdır. Paltarını geyin get Dunyaşkanı çağır. Onunla razılaşaq. Qaranlıqkən Quru dərəyə çatmalıyıq. Orada bir gün meşədə qalar, gecə isə yenə yolumuza davam edərik. Sən ata minə bilirsənmi?

– İlahi, bu nədir, başqa cür getsəydik, yenə dərd yarı idi, indi at belində nə cür gedim! Mən hey fikirləşirəm, bu gördüklərim röya deyil ki? Sən tez-tez yuxuma girirdin. Həmişə də səni müxtəlif hallarda görürdüm... – Aksinya saç sancaqlarını dişləri arasına alıb, tez saçlarını daradı; o, lap yavaşdan danışırdı. Cəld paltarını geyindi, qapıya yönəldi.

– Uşaqları oyadımmı? Heç olmasa üzlərinə bir dəfə bax.

Qriqori qətiyyətlə dedi:

– Yox, oyatma, lazım deyil.

Qriqori tütün kisəsini papağından çıxartdı, bir papiros bükdü, amma Aksinya bayıra çıxan kimi tez çarpayıya yaxınlaşdı, uşaqla-

rının üzündən doyunca öpdü, axırda Natalyanı xatırladı, öz ağır həyatından çox şeylər yadına düşdü, ağladı.

Dunyaşka ayağını kandardan içəriyə qoyan kimi dedi:

– Hə, xoş gördük, qardaş! Axırı ki, evinə gəldin? Çöllərdə nə qədər sərgərdan qaldınsa da... – sonra oxşamağa başladı: – Balalar dədələrinə qovuşdular... Ataları ola-ola yetim qalmış balalar...

Qriqori onu qucaqladı, sərtliklə dedi:

– Hay-haray salma, uşaqları oyadarsan! Gəl belə şeyləri boşla, bacı! Belə oxşamaları az eşitməmişəm! Mənim öz dərdim və göz yaşlarım başımdan aşmışdır... Biz səni bundan ötəri çağırmamışıq. Uşaqları götürüb tərbiyə edərsənmi?

– Bəs sən hara gedirsən?

– Mən gedirəm, Aksinyanı da özümlə aparıram. Uşaqları yanına apararsanmı? Mən işə düzələndən sonra onları gəlib aparacağam.

– Daha neyləmək olar? İkiniz də çıxıb gedirsinizsə, apararam. Küçədə qalmayacaqlar ki? Başqalarının qapısına tullamayacağam ki?..

Qriqori kirimişcə Dunyaşkanın üzündən öpdü, dedi:

– Çox sağ ol, bacıcan! Mən bilirdim ki, sən mənim sözümü yerə salmazsan.

Dunyaşka dinməzcə sandığın üstündə oturub soruşdu:

– Nə vaxt gedirsiniz? İndimi?

– Bəli.

– Bəs ev necə olur? Təsərrüfat necə olur?

Aksinya başdansovdu cavab verdi:

– Onun üstündə göz ol. İstəyirsən kirəkeşə ver, necə istəyirsən elə də et! Paltardan, əmlakdan nə qalsa, götür öz evinə apar.

Dunyaşka soruşdu:

– Adamlar soruşsa nə deyim? Soruşsalar ki, bu arvad hara getdi, nə deyim?

Qriqori üzünü Aksinyaya çevirdi:

– Deyərsən ki, heç nə bilmirsən, vəssalam! Aksinya, bir az cəld ol, hazırlaş. Özünlə çox şey götürmə. İsti koftanı, iki-üç yubka, alt paltarını, bir də yemək-içmək şeyləri götür, vəssalam!

Qriqori ilə Aksinya Dunyaşka ilə vidalaşıb, hələ də yuxudan oyanmamış uşaqların üzündən dönə-dönə öpərək, artırmaya çıxanda

dan yeri yenicə sökülürdü. Onlar çaya endilər, sahil boyu yarğana tərəf getdilər.

Qriqori Aksinyaya dedi:

– Bir zamanlar biz bu yolla Yaqodnıya getmişdik. Amma o vaxt sənin boğçan indikindən yekə, biz özümüz də xeyli cavan idik...

Sevincindən həyəcanlı Aksinya Qriqorinin üzünə çəpəki nəzər saldı:

– Amma mən hələ də qorxuram, bunların hamısı röya deyil ki? Əlini mənə ver, yoxsa gördüklərimə inanmıram. – O, sakitcə güldü, yeriyə-yeriyə Qriqorinin çiyninə qısıldı.

Qriqori dan qaranlığında onun gözlərinin ağlamaqdan şişdiyini, lakin bəxtiyarlıqla parladığını, yanaqlarının solğunlaşdığını gördü. Nəvazişlə gülümsəyərək belə düşündü: "Elə hazırlaşdı və yola düzəldi ki, elə bil qonaqlığa gedir... heç nə onu qorxutmur, qoçaq arvad imiş!"

Aksinya onun ürəyindən keçənə cavab verirmiş kimi dedi:

– Görürsən necə adamam... iti səsləyən kimi bircə dəfə fit verdin, o dəqiqə dalınca yüyürdüm. Məni belə hala salan, Qrişa, sənə məhəbbətim, həsrətdir... Yalnız uşaqlara yazığım gəlir, özüm barədə isə mən bir kəlmə "yox" da demərəm. Sənin ardınca hara desən gedərəm, lap ölümə də gedərəm!

Atlar onların ayaq səslərini eşidib yavaşca kişnədilər. Səhər sürətlə açılırdı. Göyün şərq ətəyində bir böyük zolaq artıq xəfifcə qızarmışdı. Donda sulardan duman qalxırdı.

Qriqori atları açdı, Aksinyanı ata mindirdi. Üzəngilər Aksinyanın ayağına uzun gəldi. Bunu nəzərə almadığına görə özünə acığı tutmuş Qriqori üzəngilərin qayışını çəkdi, ikinci ata mindi.

– Atı dalımca sür, Aksinya! Bu yarğandan çıxandan sonra atları yeyin sürərik. At səni o qədər də silkələməyəcəkdir. Cilovu boş tutma. Bu, mindiyin atın xoşuna gəlmir. O, bəzən şuluqluq edir, minənin dizini dişləməyə cəhd edir. Hə, sür!

Quru dərəyə qədər yol səkkiz verst idi. Onlar qısa bir zamanda bu məsafəni qət etdilər və gün doğanda meşəyə çatdılar. Meşənin kənarında Qriqori atdan düşdü, Aksinyaya da kömək elədi ki, atdan düşsün.

O gülümsəyərək soruşdu:

– Hə, necədir? Vərdiş eləmədiyin üçün ata minmək çətin deyil ki?

At sürməkdən yanaqları qıpqırmızı olmuş Aksinyanın qara gözləri işıldadı:

– Yaxşıdır! Piyada getməkdən bu yaxşıdır. Bir iş var ki, ayaqlarım... – O, utancaq bir şəkildə gülümsündü. – Üzünü yana çevir, Qrişa, ayaqlarıma baxım. Dərim nədənsə göynəyir... deyəsən sıyrılıbdır.

– Bekara şeydir, keçib gedər, – deyə Qriqori onu sakit elədi. – Bir qədər gəziş, qılçaların açılsın, yoxsa baldırların uçunur... – Nəvaziş dolu bir istehza ilə gözlərini qıyıb dedi: – Ay-hay, kazak qadını da belə eləyərmi?

O, sıldırımın ətəyində balaca bir tala seçib dedi:

– Bizim düşərgəmiz bura olacaqdır, rahatlan, Aksinyacan!

Qriqori atların yəhərlərini aldı, cidarladı, yəhərləri və silahını kolun altında gizlətdi. Qalın, şeh düşmüş otlar gömgöy görünürdü; səhər qaranlıqlarının hələ çəkilmədiyi yamaclarda isə otlar tutqun mavi rəngə çalırdı. Narıncı çöl arıları, çiçəklərin yarıya qədər açılmış ləçəkləri arasında mürgüləyirdilər. Çöl üzərində torağaylar civildəşir, taxılların, ətirli çöl çəmənlərinin içində bildirçinlər ötüşürdülər: "Çal-çağır! Çal-çağır! Çal-çağır!" Qriqori bir palıd kolu yaxınlığında otu əzişdirdi, başını yəhərə söykəyərək uzandı. Ətrafdakı hər şey – bildirçinlərin qumrov kimi səslənən ötüşməsi də, torağayların xumarlandırıcı mahnısı da, gecə ərzində soyumamış qumluq tərəfdən gələn ilıq meh də adama yuxu gətirirdi. Neçə gecələrlə yatmamış Qriqoriyə yuxulamaq lazım idi. Bildirçinlər onu tovlaşdırdılar və yuxu ona zor elədiyindən gözlərini yumdu. Aksinya onun yanında oturmuşdu, dinmirdi, xəyala dalaraq ətirli çöl qərənfilinin bənövşəyi ləçəklərini dodaqları ilə qırıb tökürdü.

Aksinya çiçəyin saplağını Qriqorinin tük basmış yanağına toxunduraraq səssizcə soruşdu:

– Qrişa, bizi burada yaxalayan olmaz ki?

Qriqori mürgü aləmindən çox çətinliklə ayrılaraq xırıltılı səslə cavab verdi:

– Çöldə heç kəs yoxdur. İndi adam gəzişən vaxt deyil. Mən bir az yatım, Aksinyacan, sən atlarımıza keşik çək. Sonra da sən yatarsan. Yuxu məni əldən salmışdır... yatıram. Dörd gündür ki... sonra danışarıq...

– Yat, mənim canım-ciyərim, yat, möhkəm yat!

Aksinya Qriqoriyə tərəf əyildi, alnından aşağıya sallanmış saçını kənara çəkdi, dodaqlarını yavaşca onun yanağına toxundurub pıçıltı ilə dedi:

– Mənim əzizim, Qrişa, başında nə çox ağ tük var. Demək qocalırsan, hə? Axı sən bu yaxınlarda cavanca oğlan idin. – Qüssəli bir təbəssümlə Qriqorinin üzünə baxdı.

Qriqori dodaqları azacıq aralanmış halda, müntəzəm mışıldayamışıldaya yatırdı. Ucları günəşdən qarsalanmış qara kirpikləri xəfifcə titrəyir, üst dodağı qımıldanır, sıx ağ dişləri görünürdü. Aksinya onun üzünə bir az diqqətlə baxdıqda yalnız indi gördü ki, ayrılandan bəri keçən bu neçə ayda Qriqori xeyli dəyişmişdir. Onun aşiqinin qaşları arasındakı köndələn dərin qırışlarda, ağzının qıraqlarındakı qırışlarda, üzünün ətindəki cizgilərin qabarıqlaşmasında amansızlıq, sərtlik ifadəsi var idi... İlk dəfə Aksinya bunu da gözləri önünə gətirdi ki, Qriqori, güman ki, vuruşma zamanı, at belində siyirməqılınc irəli atıldıqda çox dəhşətli olur. O, başını aşağı saldı, gözucu Qriqorinin iri əllərinə baxıb, nədənsə köksünü ötürdü.

Bir qədər keçəndən sonra Aksinya səssizcə ayağa qalxdı, taladan çıxdı, şeh düşmüş otlar yubkasını islatmasın deyə balağını xeyli yuxarıya çırmaladı. Yaxında harada isə bulaq pıqqıldayır və şırıltı ilə daşların üstünə tökülürdü. O, dərənin dibinə endi, hər tərəfi yumşaq yaşıl dərini xatırladan mamırla örtülü sal daşların yanında durdu, soyuq bulaq suyundan doyunca içdi, əlini-üzünü yudu və qızarmış yanaqlarını yaylığı ilə silib quruladı. Dodaqlarından sakit bir təbəssüm çəkilmir, gözləri şadlığından parlayırdı. Qriqori yenə də yanında idi! Məchuliyyət aləmi ona xəyalı səadət vəd edirdi... Aksinya son aylar ərzində çox gecələr yuxusuz qalmış, çoxlu göz yaşı axıtmışdı, gecə-gündüz qəm dəryasında idi. Hələ lap dünən, qonşuluqdakı dirrikdə arvadlar kartofun alağını çəkdikdə, arvad taleyinə dair elə qəmgin bir mahnı oxudular ki, Aksinyanın ürəyinin başı sızıldadı, istər-istəməz mahnıya qulaq verdi:

Haydı, haydı, ala qazlar evinizə,
Vaxtı gəlib, gedin artıq üzməyə.
Vaxtı gəlib, gedin artıq üzməyə,
İzin verin ağlayım mən bəxtsizə.

Zil səsli bir qadın mahnı oxuyur, uğursuz taleyindən şikayət edirdi; Aksinya bu təsirli sözlərə davam gətirmədi, gözlərinin yaşı sel kimi axdı! O, başını işlə-güclə qatmaq istədi, ürəyinin başından daş kimi asılan dərdini dağıtmağa çalışdı, amma gözlərinin yaşı buna aman vermədi, damlalar bir-birinin ardınca yaşıl kartof zoğlarının üstünə, gücdən düşmüş qollarının üstünə axdı; Aksinya heç nə görə bilmədi, işləyə bilmədi. Toxanı yerə tulladı, üzünü əlləri ilə örtdü, gözlərinə dəm verdi...

O, dünənə qədər həyatını lənətləyirdi, ətrafındakı hər şey ona tutqun hava kimi bomboz və qüssələndirici görünürdü; amma bu gün bütün dünya onun gözlərində bərəkətli yay leysanından sonrakı kimi, şux və aydın idi. O, doğan günəşin çəpəki şüaları altında palıd ağacının parıldaşan naxışlı yarpaqlarını tamaşaya dalaraq belə düşünürdü: "Biz də öz nəsibimizə yetərik!"

Kolların həndəvərində və güneylərdə gözəl ətirli ala-bəzək çiçəklər bitmişdi. Aksinya bunlardan dərib bir yekə dəstə düzəltdi, Qriqorinin yanında ehtiyatla oturdu, çiçəklərdən çələng hörməyə başladı. Çələng çox yaraşıqlı və göyçək çıxdı. Aksinya uzun zaman buna baxıb həzz aldı, sonra arasına bir neçə çəhrayı itburnu çiçəyi keçirdi, gətirib Qriqorinin baş tərəfinə qoydu.

Saat doqquzda Qriqori at kişnəməsindən oyandı, qorxmuş halda dik atıldı, əllərini ora-bura ataraq silahını axtardı.

Aksinya sakitcə dedi:

– Heç kəs yoxdur. Niyə qorxdun?

Qriqori gözlərini ovuşdurdu, yuxulu-yuxulu gülümsədi:

– Dovşan kimi yaşamağa adət eləmişəm. Yatmağına yatırsan, amma bir gözün yuxuda da baxır, hər bir şıqqıltıdan dik atılırsan... Belə şeyləri, ay qız, bu tezliklə yadırğamaq olmaz. Çoxmu yatmışam?

– Yox. Bəlkə yenə yatmaq istəyirsən?

– Yatıb yuxudan əməlli-başlı doymaq üçün mən neçə gün dalbadal yatmalıyam. Yaxşısı budur, gəl çörək yeyək. Çörəklə bıçaq mənim yəhər heybəmdədir, get gətir, mən də gedim atları sulayım.

O, ayağa qalxdı, şinelini yerə qoydu, çiyinlərini oynatdı. Günəş havanı bərk qızdırmışdı. Külək ağacların yarpaqlarını bərk yırğalayır, xışıltıdan balaca çayın ahəngdar zümzüməsi eşidilmirdi.

Qriqori suyun qırağına endi, daşlarla, şax-budaq qırıqları ilə suyun qabağını kəsdi, qılıncının ucu ilə torpağı eşdi, bunu da daşların

arasına doldurdu. Su onun düzəltdiyi bəndin bərabərinə qalxdıqda Qriqori gedib atları gətirdi, doyunca içmələrinə imkan verdi, sonra isə cilovlarını yenə başlarından çıxartdı, otlamağa buraxdı.

Səhər çörəyini yedikləri zaman Aksinya soruşdu:

– Biz buradan hara gedəcəyik?

– Morozovskiyə. Platovoya qədər atla, oradan o yana piyada gedəcəyik.

– Bəs atlar necə olacaq?

– Onları buraxacağıq.

– Heyifdir, Qrişa! Atlar çox qəşəngdir, xüsusən boz ata baxmaqdan doymaq olmur, indi bu cür atları buraxmaq olar? Sən bu atı haradan almısan?

– Almısan... – Qriqori kefsiz-kefsiz güldü. – Bir ukraynalının əlindən almışam.

O, bir qədər susduqdan sonra dedi:

– Heyifdir ya heyif deyil, amma buraxmalı olacağıq... At alveri eləyəsi deyilik ki!

– Bəs niyə sən silahını da götürmüsən? Bu silah bizim nəyimizə lazımdır? Allah göstərməsin, birisi görsə başımız bəlaya düşər.

– Gecə vaxtı bizi kim görəcəkdir? Mən silahı, elə-belə, ehtiyat üçün götürmüşəm. Silahsız mən dəhşətlənərəm... Atları boşlayanda silahı da tullarıq. Onda silah daha bir şeyə lazım olmayacaqdır.

Çörəkdən sonra onlar yerə sərilmiş şinelin üstünə uzandılar. Qriqori hədər yerə yuxusunu dağıtmağa cəhd edirdi. Aksinya dirsəyinə söykənərək, onsuz necə keçindiyini, bu müddət ərzində nə qədər əzab və iztiraba qatlaşdığını nağıl edirdi. Qriqori gözlərindən yuxu tökülə-tökülə onun səlis səsinə qulaq verir, öz-özünə yumulan göz qapaqlarını açа bilmirdi. Bəzən o, Aksinyanın səsini heç eşitmirdi. Onun səsi get-gedə uzaqlaşır, boğuq çıxır, sonra isə tamamilə kəsilirdi. Qriqori səksənib yuxudan oyanır, amma bir neçə dəqiqədən sonra gözləri təzədən yumulurdu. Yorğunluq onun arzu və iradəsindən güclü idi.

– ...Xiffət edir, soruşurdular, – "Atamız hanı?" Mən də onları hər vasitə ilə, daha çox nəvazişlə sakit edirdim. Mənə yaman öyrəşdilər, meyillərini saldılar. Dunyaşkanın yanına az-az getməyə başladılar. Polyuşka fağır, sözəbaxan uşaqdır. Mən ona parça qırıqlarından gəlinciklər tikirdim, o da bununla stolun altında oturur,

məşğul olurdu. Mişatka isə günlərin bir günündə yüyürə-yüyürə küçədən evə təpildi, baxdım bədəni uçunur. Soruşdum: "Nə olub?" Ağladı, yamanca ağladı: "Uşaqlar mənimlə oynamırlar, deyirlər ki, sənin atan quldurdur. Anacan, doğrudurmu ki, o, quldurdur? Quldurlar nə cür adamdırlar?" Mən ona dedim: "Sənin atan quldur-zad deyil. O, elə-belə... bədbəxt bir adamdır". Bunu dedim, o, yaxamdan yapışdı, çoxlu sual verdi: "Niyə bədbəxtdir, həm də bədbəxtdir nə deməkdir?" Nə qədər çalışdımsa başa sala bilmədim... Qrişa, onlar özləri mənə ana deməyə başladılar, elə güman etmə ki, bunu mən öyrətmişəm. Mixayil də onlara pis deyil, mehribanlıqla rəftar edir. Gəldi, mənə salam vermədi, üzünü o tərəfə çevirib yan keçdi, amma uşaqlara stanitsadan iki dəfə qənd gətiribdir. Proxor isə hey səndən danışır, xiffətini edirdi. Bu adam, deyirdi, məhv oldu. Keçən həftə səndən söhbət eləmək üçün bizə gəlmişdi, yamanca ağladı... Mənim evimdə axtarış apardılar, sən demə silah axtarırmışlar, anbara da baxdılar, mərəyə də, hər yerə.

Qriqori söhbətin gerisini eşitmədən yuxuladı. Onun başı üzərində cavan qaraağacın yeldən qımıldanan yarpaqları pıçıldaşırdı. Üzündə yarpaqların arasından süzülən günəşin sarı işıqları gəzişirdi. Aksinya onun qapanmış gözlərindən dönə-dönə öpdü, sonra isə yanağını Qriqorinin əlinə söykəyərək, röya aləmində də qımışaraq özü də yatdı.

Gecədən xeyli keçəndən, ay doğandan sonra, onlar Quru dərədən çıxdılar. İki saat yol gedəndən sonra bir təpədən Çir çayı sahilinə endilər. Biçənəklərdə çəkçəkin quşları çığırışır, çayın qamışlıqları arasındakı çeyilliklərdə qurbağalar qulaqbatırıcı bir səslə qurultayır, vaq quşu uzaqda, harada isə boğuq bir səslə zarıyırdı.

Çayın hər iki sahili boyunca sıx meyvə bağları uzanır, duman içində pis-pis qaralırdı.

Körpüyə çatmağa bir az qalanda Qriqori dayandı. Xutoru gecəyarısının səssizliyi bürümüşdü. Qriqori atı dəhmərlədi, başını yana çevirdi. O, körpünün üstündən keçmək istəmirdi. O, bu sükuta inanmır və ondan çəkinirdi. Xutorun ucqarında dayaz yerdə çayı qırdırma keçdilər və yenicə dar bir küçə ilə getmək istəyirdilər ki, arxın içindən bir adam başını qaldırdı, onun ardınca da üç adam qalxdı.

– Dayanın! Gələn kimdir?

Səsdən Qriqori zərbə yemiş adam kimi səksəndi və atın cilovunu çəkdi. O, bir an içində özünü ələ aldı, ucadan səsləndi: "Özümüzünkülərdir" və atın başını dərhal geriyə çevirib Aksinyaya: "Atı geriyə sür! Dalımca gəl!" deyə pıçıldadı.

Xutorda bu günlərdə məskən salmış ərzaq tədarükü dəstəsinin dörd əsgəri kirimişcə və aramla onlara doğru gəldi. Bunlardan biri dayandı, papirosunu yandırmaq üçün kibrit alışdırdı. Qriqori var gücü ilə Aksinyanın mindiyi ata bir qamçı çəkdi. At yerindən qopdu və baş alıb getdi. Atın yalına yatmış Qriqori də atını onun ardınca səyirtdi. Bir neçə saniyə üzüntülü sükut davam etdi, sonra çataçatlı, qatma-qarışıq yaylım atəşi gurladı, tüfənglərdən çıxan od qaranlığı yardı. Qriqori atılan güllələrin vıyıltısını və sürəkli çığırtı eşidirdi:

– Silah ba-şı-na!..

Qriqori çaydan yüz sajın kənarda bərk qaçan boz ata çatdı, – bərabərləşəndə qışqırdı:

– Atın boynuna yat, Aksinya! Bir az da aşağı yat!

Aksinya cilovdan yapışıb bərk dartır və yəhərdə atılıb-düşərək böyrü üstə aşırdı. Qriqori vaxtında onu tutub saxlaya bildi, yoxsa Aksinya atdan yıxılacaqdı. Qriqori boğularaq soruşdu:

– Sənə güllə dəyib? Yaralanmısan? Güllə harana dəyib? Desənə!

Aksinyadan səs çıxmır və get-gedə ağırlaşıb Qriqorinin qolu üzərinə düşürdü. Qriqori at gedə-gedə onu qucaqlayır, boğula-boğula pıçıldayırdı:

– Allah eşqinə! Heç olmasa bir kəlmə de! Axı sənə nə oldu belə?!

Lakin Aksinyadan nə bir kəlmə söz, nə bir ahu-zar eşitdi.

Qriqori xutordan iki verst kənarda yoldan çıxdı, dərəyə endi, atdan düşdü, Aksinyanı qucağına götürdü, ehmalca yerə qoydu.

O, Aksinyanın yun koftasını əynindən çıxartdı, yüngül çit köynəyinin yaxasını cırdı, əlilə yaranı axtarıb tapdı. Güllə Aksinyanın sol kürəyinə girmiş, sümüyü sındırıb çəpinə sağ körpücüyün altından çıxmışdı. Qriqori qana bulaşmış və titrəyən əlləri ilə heybəsindən təmiz köynək və tənzif paketi çıxartdı. O, Aksinyanın başını qaldırdı, dizini onun kürəyinə söykədi, yarasını sarımağa başladı ki, körpücük sümüyündən şoralanan qanı dayandıra bilsin. Köynəyindən kəsdiyi parçalar da, tənzif də sürətlə qaraldı, tamam qan oldu. Qan Aksinyanın yarıaçıq ağzından da gəlir, boğazında lıqqıldayır,

tökülürdü. Dəhşətindən ölü kimi olmuş Qriqori anladı ki, artıq hər şey bitmişdir, onun həyatında baş verə biləcək ən dəhşətli hadisə budur, artıq baş vermişdir...

O, Aksinyanı qucağına götürdü, yarğanın sərt enişi ilə, hər yerini ot bürümüş və üstü qoyun qığı ilə dolu bir cığırla ehtiyatla yarğanın aşağısına gətirdi. Aksinyanın taqətsiz halda sallanmış başı onun çiyninə söykənmişdi. Qriqori Aksinyanın boğuq çıxan, fışıldayan hənirtisini eşidir, isti qanın bədəndən necə boşaldığını, ağzından onun döşünə axdığını hiss edirdi. Atlar da onların ardınca yarğana endilər. Ağızlarındakı gəm cingildəyə-cingildəyə; fınxırışaraq, şirəli otları qırpmağa başladılar.

Aksinya dan yeri ağarana yaxın Qriqorinin qucağında keçindi. Onun huşu bir daha özünə gəlmədi. Qriqori dinməzcə onun soyumuş və qana bulaşmış dodaqlarından öpdü, ehmalca yerə qoydu, ayağa qalxdı. Gözlə görünməz bir qüvvə onun sinəsinə yumruq ilişdirən kimi oldu, Qriqori dal-dala getdi, üzüqoylu yerə yıxıldı, amma dərhal qorxuya düşüb dik sıçradı. O, ikinci dəfə yıxıldı, açıq başı bir daşa dəyib bərk ağrıdı. Sonra, dizlərini yerdən qaldırmadan qılıncını qınından çıxartdı, qəbir qazmağa başladı. Torpaq nəm və yumşaq idi. O, çox tələsirdi, lakin boğazını nə isə tutub boğurdu; rahat nəfəs ala bilsin deyə o çəkib köynəyinin yaxasını cırdı. Dan qaranlığının soyuq nəfəsindən onun tərdən islanmış sinəsi üşüdü, buna görə də işləməsi çox da çətin olmadı. Qazdığı torpağı o əlləri ilə xışlayıb qırağa tökür, papağını dolduraraq çıxardırdı, bununla belə kəmər yeri dərinliyində qəbir qazmaq üçün xeyli vaxt sərf olundu.

O, öz Aksinyasını parlaq səhər işığında dəfn etdi. Onu qəbrə uzadandan sonra soyumuş, artıq ağarmış qarabuğdayı əllərini sinəsində çarpazladı, baş yaylığını üzünə saldı ki, yarıya qədər açıq, donuq bir şəkildə səmaya zillənmiş və artıq işığı sönməyə başlamış gözlərinə torpaq dolmasın. Qriqori Aksinya ilə vidalaşdı, o, buna möhkəm əmin idi ki, bu ayrılıq uzun sürməyəcəkdir...

Dikəlmiş qəbir üzərindəki nəm sarı torpağı xüsusi bir səy ilə yastıladı, başını aşağıya saldı, vücudu yırğalana-yırğalana uzun zaman qəbrin kənarında sakitcə dizüstə durdu.

Bundan sonra tələsməyin mənası qalmamışdı. Hər şey artıq bitmişdi.

Günəş qara yel dumanı arasından yarğana boylanırdı. Onun şüaları Qriqorinin açıq başının ağ tüklərini gümüş kimi parladır, daş kimi bərkimiş və solğun simasında dolaşırdı. O, ağır yuxuya getmiş adam kimi başını qaldırdı və göy üzündə zülmətli bir səma və işıltısı gözləri qamaşdıran parlaq günəş gördü.

XVIII

Yazın ilk çağlarında, qar əriyib qış uzunu altda qalmış otlar quruyanda, çöldə onlara od vururlar. Yel əsdikcə şiddətlənən yanğın alovlanıb kükrəyir, qurumuş pişikquyruğunu acgözlüklə yandırıb, qanqalların hündür şaxələrinə dırmaşır, yabanı ərik otlarının qonur başında gəzir, hər yeri dolaşır... Bundan sonra otu yandırılmış, cadar-cadar torpağın acı yanıq qoxusu uzun zaman duyulur. Təzə otlar hər tərəfi yaşıl atlaz kimi bürüyür, mavi səmada saysız-hesabsız torağaylar uçuşur, uçub gəlmiş qazlar göylükdə otlayır, yayı burada keçirmiş bəzgəklər yuva tikirlər. Otu yandırılmış yerlərdə isə torpaq ölü kimi görünür, üzərindən yalnız quş qanadlı və sürətli yellər əsib keçir, göyümsov külü və tünd, acı tozu uzaqlara aparır.

Qriqorinin həyatı da otuna od vurulmuş çöl kimi qapqara idi. O, bu dünyada qəlbi üçün əziz olan hər şeyi itirmişdi. Amansız ölüm onun əlindən hər şeyi almış, hər şeyi tar-mar etmişdi. İndi onun yalnız uşaqları qalırdı. Lakin onun özü də rəşəli bir şəkildə torpaqdan bərk-bərk yapışmışdı; sanki onun xırpalanmış həyatının özü üçün, başqaları üçün az-çox əhəmiyyəti var idi.

O, Aksinyanı dəfn edəndən üç gün sonra çöllərdə boş-boş avaralandı, evə də getmədi, Veşenskayaya günahını boynuna alıb təslim olmağa da. Dördüncü günü atları Ust-Xoperskaya stanitsası xutorlarının birinin yanında buraxdı, Donun o tayına keçdi, piyada Slaşevskaya meşəsinə getdi; aprelin əvvəlində həmin meşənin kənarında Fominin quldur dəstəsi ilk dəfə tar-mar edilmişdi. Hələ o zaman, yəni aprel ayında, Qriqori eşitmişdi ki, əsgərlikdən qaçanlar orada məskən salıblar. Fominin dəstəsinə qayıtmaq istəməyən Qriqori məhz həmin qaçqınların yanına gedirdi.

O, bir neçə gün böyük meşəni dolaşdı, az qalırdı acından ölsün, bununla belə insan məskəninə yaxınlaşmağa cəsarət eləmirdi.

Aksinya öləndən sonra o, əvvəlki ağlını da, cəsarətini də itirmişdi. Qırılmış budağın çatıltısı, qalın meşədəki bir şıqqıltı, bayquş ulaması – hər şey onu vahimələndirir, karıxdırırdı. Qriqori kal çiyələk, bir cür cumbulu göbələk və fındıq yarpağı yeməklə dolanırdı, buna görə də bərk arıqlamışdı. Beşinci günün axırında əsgərlikdən qaçanlar ona meşədə rast gəldilər, götürüb öz qazmalarına apardılar.

Onlar yeddi nəfər idilər. Ətraf xutorların sakinləri olan bu adamlar keçən ilin payızından, səfərbərlik başlanandan bu meşəyə gəlmiş, burada məskən salmışdılar. Onlar geniş bir qazmada yaşayır, evlərindəki kimi rahat keçinir və demək olar heç nədən korluq çəkmirdilər. Gecələr tez-tez ailələrinə baş çəkməyə gedir, qayıdanda özləri ilə çörək, suxarı, darı, un və kartof gətirirdilər; əti isə yad xutorlarda asanlıqla əldə edir, hərdənbir mal-qara oğurlayırdılar.

Fərarilərdən biri – vaxtı ilə 12-ci kazak polkunda qulluq eləmiş bir kişi Qriqorini tanıdı, onu bərkə-boşa çəkmədən dəstəyə qəbul elədilər.

Qriqori bir-birinə calanmış üzüntülü günlərin sayını itirmişdi. O, oktyabr ayına qədər bir növ meşədə keçindi, amma elə ki, payız yağışları başladı, soyuqlar düşdü, uşaqlarını görmək həsrəti, doğma xutora qayıtmaq həsrəti onda yenidən qüvvətlə baş qaldırdı...

Gününü birtəhər keçirmək üçün o, səhərdən axşamadək taxtın üstündə oturur, ağacdan qaşıq qayırır, ağacın içini ovub nimçə düzəldir, yumşaq ağac parçalarından ustalıqla balaca insan və heyvan fiqurları yonurdu. O, heç nə haqqında düşünməməyə, ağır qüssənin ürəyə soxulmasına imkan verməməyə çalışırdı. O, gündüzlər buna müvəffəq olurdu, amma uzun qış gecələrində xatirələrin doğurduğu qəm-qüssə onu haldan salırdı. Uzun zaman taxtın üstündə yerində qurcuxur, yata bilmirdi. Qazmada yaşayanların heç biri gündüzlər həyatından narazı olduğuna dair ondan bir kəlmə belə olsun şikayət eşitmirdi; lakin o gecələr tez-tez səksənib yuxudan oyanır, əlini üzünə çəkirdi – yanaqları və düz altı aydan bəri qırxılmamış saqqalı göz yaşlarından islanırdı.

Uşaqları, Aksinya, anası və başqa yaxın adamları, rəhmətə getmiş adamlar tez-tez onun yuxusuna girirdi. Qriqorinin həyatı yalnız keçmişə aid idi, bu keçmiş isə ona qısa və ağır bir yuxu kimi gəlirdi. O, tez-tez belə fikirləşirdi: "Kaş o doğma yerləri bir də görəydim, uşaqlarıma tamaşa edəydim, bundan sonra ölsəm də dərdim olmazdı".

Yaz başı Çumakov haradansa gözlənilmədən onların qazmasına gəldi. Çumakov belinə qədər islanmışdı, amma əvvəlki kimi yenə də kefi kök və qıvraq idi. Balaca sobanın qırağında paltarını qurudandan, canını qızdırandan sonra gəib taxtın üstündə Qriqorinin yanında oturdu.

– Ay Melexov, sən bizdən ayrılandan bəri, heç bilirsən nə qədər yer gəzmişik! Astraxan yaxınlığına da getmişik, kalmık çöllərində də olmuşuq... Ayaqlamadığımız yer qalmamışdır. Nə qədər insan qanı axıtmışıq, sayı-hesabı yoxdur. Yakov Yefimoviçin arvadını girov kimi aparmışdılar, əmlakını müsadirə eləmişdilər, onun da buna yaman qəzəbi tutdu, cin atına mindi, əmr verdi ki, Sovet hakimiyyətinə qulluq edən hər kəsi qılıncdan keçirdin. Biz də başladıq ucdantutma hamını qırmağa: müəllimləri də öldürdük, müxtəlif feldşerləri də, aqronomları da... Kim qaldı ki, öldürməyək! İndi də bizim özümüzü qırdılar, tamam qırdılar, – deyə o, köksünü ötürdü, titrətmədən yenə bədəni büzüşdü. – İlk dəfə bizi Tişanskaya yaxınlığında, bir həftə əvvəl isə Solonı tərəfdə əzişdirdilər. Bizi gecə üç tərəfdən mühasirəyə aldılar, bircə təpə tərəfdən yol qalmışdı, orada isə qarın qalınlığı atların qarnına dəyirdi... Səhər açılar-açılmaz pulemyotlardan üzərimizə atəş açdılar və həngamə başlandı... Pulemyotla hamını biçib yerə sərdilər. Oradan bircə mən, bir də Fominin oğlu salamat çıxa bildik. Fomin oğlunu, yəni Davıdkanı payızdan yanına gətirmişdi. Fomin özü də həlak oldu... Mənim gözümün qabağında həlak oldu. Birinci güllə onun ayağına dəydi, dizinin qapağını qırdı, ikinci güllə başına dəydi; bu tərəfdən girdi, o tərəfdən çıxdı. Düz üç dəfə atdan yerə yıxıldı. Biz dayanırdıq, onu qaldırıb yəhərdə oturdurduq, amma o, atını bir az sürən kimi yenə yerə yıxılırdı... Üçüncü çovutma güllə də onu tapdı, böyrünə dəydi. Bunu gördükdə biz də onu boşladıq. Mən atımı yüz sajın qədər səyirdib uzaqlaşandan sonra qayıdıb dala baxdım, bu zaman üç atlı yerə sərilmiş Fomini qılıncla doğrayırdı...

Qriqori soyuqqanlıqla dedi:

– Burada təəccüblü bir şey yoxdur, axırda elə də olmalı idi.

Çumakov onların qazmasında bir gecə qaldı, səhər vidalaşdı.

– Bəs hara gedirsən? – deyə Qriqori soruşdu.

Çumakov gülümsəyərək cavab verdi:

– Gedirəm, görüm harada rahat həyat var. Bəlkə sən də mənimlə gedəsən?

– Yox, get.

– Bəli, mənimki sizinlə tutmaz... Sənin sənətin, Melexov, yəni qaşıq və nimçə qayırmaq mənə əl verməz, – deyə Çumakov istehza ilə söyləndi və ehtiramla papağını çıxartdı. – Allah köməyinizdə dursun, ay fağır quldurcuğazlar, duz-çörək kəsdiyimizə, mənə sığınacaq verdiyinizə görə sağ olun. Allah sizə şən həyat nəsib etsin, yoxsa burada gününüz çox cansıxıcı keçir.

O gedəndən sonra Qriqori meşədə bir həftə də qaldı, sonra səfərə hazırlaşdı.

Fərarilərdən biri ondan soruşdu:

– Evinizəmi gedirsən?

– Evimizə gedirəm.

– Yazı gözləsən yaxşı olardı. Mayın birində hamımız amnistiya münasibəti ilə dağılışarıq.

– Yox, o vaxtadək gözləyə bilmərəm, – deyə Qriqori hamı ilə vidalaşdı.

Ertəsi günün səhəri o, Tatarsk xutorunun qarşı tərəfindən Dona yaxınlaşdı. Uzun zaman doğma həyətə tamaşa etdi, şadlıqdan doğan bir həyəcandan rəngi dümağ oldu. Sonra tüfəngini və yan çantasını çıxartdı, çantadakı iynədanı, sapı, içində tüfəng yağı olan balaca şüşəni götürdü, patronlarını nə üçünsə saydı. Çantada on iki daraq, bir də iyirmi altı dağılmış patron qalmışdı.

Sıldırımın sərt yerlərində buz sahildən çəkilmişdi. Şəffaf yaşıl su çırpıldıqca ətrafa saçalanır, qıraqdakı iynə kimi diş-diş buzcuğazları qırıb suya tökürdü. Qriqori tüfəngini, naqanını suya tulladı, sonra patronlarını tulladı, əllərini təmiz-təmiz şinelinin ətəyi ilə sildi.

Xutorun aşağı tərəfindən o, mart havasından qonur-qonur olmuş göyümsov buzun üstü ilə çaydan keçdi, iri addımlarla evlərinə doğru yönəldi. Mişatkanın iskələnin enişi başında durduğunu o, hələ uzaqdan gördü, ürəkdən onun yanına yüyürmək istədisə də özünü saxladı.

Mişatka bir daşdan sallanan buz parçalarını qırıb tökür, bunları aşağıya atır və mavi buz qəlpələrinin aşağıya, sıldırımın dibinə yuvarlanmasına tamaşa edirdi.

Qriqori nəfəsi kəsilə-kəsilə enişə yaxınlaşdı, xırıltılı bir səslə oğlunu səslədi:

– Mişacan! Oğlum!..

Mişatka qorxa-qorxa onun üzünə baxdı, başını aşağıya dikdi. O, bu saqqallı, görkəmi qorxunc kişini – öz atasını tanıdı...

Orada, meşədə uşaqlarını andığı zaman gecələr dilində əzbər etdiyi şirin sözlərin hamısı indi yadından tamam çıxmışdı. O, oğlunun qarşısında diz çökərək, onun soyuqdan qızarmış balaca əllərindən öpə-öpə, boğuq bir şəkildə yalnız bircə söz deyirdi:

– Oğlum... Oğlum...

Sonra Qriqori onu qucağına götürdü. Dəlicəsinə alışıb-yanan gözlərini onun üzünə zilləyərək soruşdu:

– Siz burada necə yaşayırsınız?.. Bibin, Polyuşka sağ-salamatdırmı?

Bayaqkı kimi yenə də atasının üzünə baxmayan Mişatka yavaşca cavab verdi:

– Bibim Dunyaşka sağ-salamatdır, amma Polyuşka payızda öldü. Boğaz xəstəliyindən. Mixayil dayı isə qulluqdadır...

Nə etmək olardı, yuxusuz keçən gecələrdə Qriqorinin həsrətini çəkdiyi o azacıq şey indi ona nəsib olmuşdu. O, doğma evinin qapısında dayanmış, oğlunu qucağına götürmüşdü... Bu, həyatda onu torpaqla və bütün bu nəhəng, soyuq günəş altında parıldayan dünya ilə bağlayan yeganə yadigar idi.

SON

KİTABDAKILAR

SAKİT DON

Dördüncü kitab

Yeddinci hissə 7

Səkkizinci hissə 294

MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOV

SAKİT DON

DÖRDÜNCÜ KİTAB

"AVRASİYA PRESS"
BAKI-2006

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piri*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Kompyuter operatoru: *Lalə Cəfərova*

Korrektorlar: *Tofiq Qaraqaya*
Kamilə Dilbazi

Yığılmağa verilmişdir 27.09.2006. Çapa imzalanmışdır 28.12.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 31. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 272.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

LU6(2)
$ 78

